AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 3

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2014

Jurnalın təsisçiləri: Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu və «Elm və təhsil» nəşriyyatı

REDAKSİYA HEYƏTİ: akademik Ağamusa Axundov, akademik Vasim Məmmədəliyev, akademik İsa Həbibbəyli, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Tofiq Hacıyev, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Nizami Cəfərov, AMEA-nın müxbir üzvü, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Əbülfəz Quliyev, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Teymur Kərimli, f.e.d., prof. Fəxrəddin Veysəlli, f.e.d., prof. Vilayət Əliyev, f.e.d., prof. Qəzənfər Kazımov, f.e.d., prof. Rüfət Rüstəmov, f.e.d., prof. Məsud Mahmudov, f.e.d., prof. Məhəbbət Mirzəliyeva, f.e.d., prof. Mübariz Yusifov, f.e.d., prof. Qəzənfər Paşayev, f.e.d., prof. Əbülfəz Rəcəbli, f.e.d., prof. Nizami Xudiyev, f.e.d., prof. Cəlil Nağıyev, f.e.d., prof. Nadir Məmmədli, fil.ü.e.d. Paşa Kərimov, f.e.d., prof. Kamilə Vəliyeva, f.e.d. prof. Azadə Musayeva, f.e.d. Möhsün Nağısoylu, fil.ü.f.d. Nəzakət Məmmədli.

Buraxılışa məsul: filologiya elmləri doktoru, professor,
AMEA-nın müxbir üzvü Teymur Kərimli
Rəyçi: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2014, № 3

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2014

www.filologiyameseleleri.com

NAĞDƏLİ ZAMANOV
Tibb elmləri üzrə fəlsəfə doktoru, dosent
nagdali@mail.ru

HEDƏR ƏLİYEVİN NİTQİNDƏ SİNONİMLƏR

Açar sözlər: Heydər Əliyev, nitq, sinonimlər.
Ключевые слова: Гейдар Алиев, речь, синонимы.
Key words: Heydar Aliyev, speech, synonyms.

Dildə sinonimlərin əhəmiyyəti böyükdür. Məlumdur ki, anlayışlar müxtəlif məna çalarlarına malik ola bilir. Belə məna çalarlarını sinonimlərlə daha dəqiq ifadə etmək həm fikrin reallaşması, həm də mənanın başqasına çatdırılması cəhətdən böyük əhəmiyyət kəsb edir (1).

Natiq hər hansı bir mətləbi aşkarlayarkən daha münasib sözlərdən-sinonimlərdən, antonimlərdən, frazeoloji birləşmələr və işarələrdən, digər məcazlardan və sairədən istifadə etməyi bacarmalıdır (2)

Sinonimlər Azərbaycan dilinin özünün təbiətində, varlığında mövcud olan çox zəngin və çox da geniş üslubi imkanları olan leksik-semantik söz qruplarından biridir. Heydər Əliyevin nitqində dilimizin bu zənginliyindən ustalıqla istifadə olunur (3).

Siyasi natiqliyimizin banisi Heydər Əliyevin nitqlərində sinonimlərin öyrənilməsi tək-tək elmi məqalələrdə işıqlandırılsa da kompleks şəkildə öyrənilməmişdir.

Heydər Əliyevin çıxışlarında özünəməxsus sinonimlər üzə çıxır, böyük natiq Azərbaycan dilində sinonimlər yaratmaq şansının bir daha böyüklüyünü göstərir: "***Fitri, parlaq*** istedadı, çox nadir xüsusiyyətə malik olan istedadı, eyni zamanda ən gənc yaşlarından yazıb-yaratmaq əzmi Səməd Vurğunu qısa bir zamanda xalqımızın sevimli şairinə çevirmiş və o, həm Azərbaycanda, həm də bir çox xarici ölkələrdə ***tanınmış, sayılan*** bir insan olmuşdur"

Heydər Əliyev nitqində səslənən sinonimlərin bir məziyyəti, bir özünəməxsusluğu ondan ibarətdir ki, sinonimin ikinci və üçüncü tərəfləri izah xarakterində olur. Məsələn böyük natiq "vətəndaş müharibəsi" deyirsə sonrakı sinonim "qardaş qanının axıdılması" frazeoloji ifadəsi ilə əvəzlənir: "Bir dəfə 1993-cü ildə çevriliş etdilər. Xalq Cəbhəsini hakimiyyətdən yıxdılar. O vaxt məni dəvət etdilər və mən gəlib *vətəndaş müharibəsinin*, *qardaş qanı axıdılmasının* qarşısını aldım".

Heydər Əliyev nitqində elə məqamlar olur ki, sinonim cərgələrlə bəzənmiş cümlələr ardıcıl olaraq düzülür: "Ölkədə elə *tikintilər, qurğular, obyektlər* olur ki, onlarmüəyyən bir sahəyə xidmət edirlər. Dünya ümumiyyətlə, *quruculuqla, tikib yaratmaqla*, yaşayıb, inkişaf edibdir. Yer üzərindəki təbii sərvətlər *təbiət, ilahi* tərə-

findən yaradılıbdır. Ancaq *torpağın , yerin, kürreyi-ərzin* üzərində yüz illərlə, min illərlə qurulanlar insanların zəhməti, iradəsi, zəkası, onların əlləri ilə yaradılıbdır"

Heydər Əliyev dilində bütün nitqlərinə hakim olan izahedicilk sinonimlərin işlənməsində də özünü göstərir. İnkişafın gedişində sıçrayış kimi qəbul olunan inqilabda radikallıq elementlərini nəzəzrə çarpdırmaq məqsədilə bazar iqtisadiyyatına keçidin özündə də radikallığı nəzərə çarpdırır: "Hesab edirəm ki, bu, *inqilabi, radikal* bir addımdır".

Nitqin gedişində böyük natiq gah ümumişlək, loru gah da yüksək kitab leksikasında olan sözləri sinonimləşdirir. Dinləyicilər üçün əlavə izaha, şərhə ehtiyac qalmır: "Ancaq biz nə edək ki, Qərbi Almaniya kimi iqtisadi cəhətdən güclü, dövlətli Qərbi Azərbaycanımız olmayıb ki, bizi- Azərbaycanı öz *yedəyinə, himayəsinə* alsın, öz təcrübəsini bilavasitə versin ki, necə edək".

Burada "yedək" loru, "himayə" isə kitab leksikasıdır ki, auditoriya belə sinonimləri maraqla qarşılayır.

Bir ictimai-iqtisadi formasiyadan digərinə keçid bütün sahələrdə olduğu kimi dilçilik sahəsində də özünü göstərir. Belə ki, keçid dövründə həyatımızın bütün sahələrində olduğu kimi iqtisadiyyat sahəsində də yeni terminlər , yeni sinonim cərgələr işə düşür: "Azərbaycanda *sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı*, sahibkarlıq prinsipləri *yaranacaq, bərqərar olacaq və inkişaf edəcəkdir*".

Böyük natiqin dilində sinonimlər təkrarlarla çulğalaşa, yüksək nitq effekti yarada bilir: "Strateji nöqteyi-nəzətdən isə Ermənistan təcavüzünün qarşısının alınması üçün Ağdam şübhəsiz ki, çox əhəmiyyətli bir nöqtə idi. *Ağdam qorunmalı idi,Ağdam saxlanılmalı idi, Ağdam müdafiə olunmalı idi.* Ağdamın işğalı yolverilməz idi".

Sinonim cərgələr özlüyündə nitqin təsir gücünü artırır. Bu cərgələr təkrarlandıqca təsir gücü daha da yüksəlir: "Türkiyə Azərbaycanın *haqq, ədalət* işini *dəstəkləyib, müdafiə edibdir*. Türkiyə Minsk qrupunun, ATƏT-in üzvü olaraq bütün beynəlxalq təşkilatlarda Azərbaycanın ədalətli işini daim *dəstəkləyib, müdafiə edibdir*".

Böyük natiqin dilində sinonimlər antonimlərlə də çulğalaşır. Məhz antonimlər sinonimləri möhkəmləndirmək yolunda mühüm leksikoloji vahidlərə çevrilir: "Onlar bu işi mütəşəkkil apara bilsələr, hərbi hissələrdə lazımi iş görərək *tərbiyə, əxlaq, mənəviyyat* məsələlərini döyüşçülərə aşılaya bilsələr, onların mənəviyyatını, iradəsini möhkəmləndirə bilsələr bu bizim həm siyasi, həm də ideoloji işimiz olacaqdır. Lakin bu iş *pərakəndə* şəkildə deyil, *mütəşəkkil* aparılmalıdır".

"Pərakəndə" və "mütəşəkkil" ifadələri antonim yaradaraq mütəşəkkiliyin əsasında "tərbiyə, əxlaq, mənəviyyat" sinonim cərgəsinin durduğunu auditoriyalara izah edir. Başqa bir məqamda "dərhal, təcili" sinonimləri harmoniya yaradaraq nitqin təsir gücünü artırır: "Bundan sonra səfir və səfirlik bu məsələlərlə məşğul olacaqdır. Belə halları *dərhal, təcili* aradan götürmək mümkün deyildir. Bunlar tədricən ola bilər. Güman edirəm ki, bunları tədricən aradan götürmək mümkün olacaqdır".

Bir sıra hallarda sinonim cərgənin əmələ gəlməsində böyük natiqin özünəməxsus ifadələrinə təsadüf edilir və bu zaman Azərbaycan dilinin zənginliyindən istifadə olunur ki, bu istifadə qarşılıqlı bir şəkildə baş verir. Belə ki, Azərbaycan dili də böyük natiqin nitqində zənginləşir: "Bu, ancaq öz şəxsi mənafeləri, yəni qa-

nunsuz olaraq *sərvətlənmək, zənginləşmək, qanunsuz pul, imkan ələ keçirmək* məqsədi daşıyırdı".

Sinonim cərgələr mürəkkəb hallarda inkarlıq bildirən ifadələrlə düzəlir: "Bu gün fevralın 12-dir, düz doqquz aydır ki, *müharibə getmir, atəş açılmır, güllə atılmır, qan tökülmür, şəhidlər yoxdur*".

Heydər Əliyevin nitqlərini tədqiq edərkən gözə çarpan mühüm bir xüsusiyyət nitq elementlərinin, nitq hissələrinin, leksikoloji vahidlərin həmişə harmoniya təşkil etməsindədir: "Müstəqillik, milli azadlıq yolu *asan, hamar* olmayıb, çox *əzab-əziyyətli* olub. Həmin yol bundan sonra da *çətin* olacaqdır. Ancaq itkilərimizlə bərabər, əldə etdiyimiz dövlət *müstəqilliyi, suverenliyi, milli azadlıq* bizi *sevindirir*, hamımızda *qürur hissi yaradır* və bu bayramı böyük nikbinliklə qeyd etməyə imkan verir".

"Asan, hamar" sinonimi əzab-əziyyətli sinonimi ilə antonim kimi verilmişdir. Eləcə də əzab-əziyyətli sinoniminə də "bizi sevindirir, hamımızda qürur hissi yaradır" sinonimi antonim kimi harmoniya yaradır.

Müstəqilliyin ilk illərində ölkədəki neqativ hallara təəssüf edərək belə halları sinonim cərgələrlə xarakterizə edir: "Təəssüflər olsun ki, müəyyən dövrdə Azərbaycanda *özbaşınalığa, hərc-mərcliyə*, deyə bilərəm ki, **sahibsizliyə** görə ölkənin bu cür sərvətləri ayrı-ayrı nadan adamların əlinə keçmişdir və bəziləri hələ bu gün də onların əlindədir".

Sinonim cərgələr Azərbaycan gənclərinin formalaşması ilə bağlı nitq və çıxışlarda özünü biruzə verir. 29 iyun 1996-cı il tarixdə XXVI yay olimpiyadasında (Atlanta, ABŞ) iştirak edəcək Azərbaycan idmançıları ilə görüşdə üzünü sinonim cərgələrlə gənclərə tutur: "Müstəqil Azərbaycanı gələcəkdə də yaşatmaq, onu daha da, möhkəmləndirmək, dünya miqyasında böyük dövlətə çevirmək üçü gənclərimiz bu gündən hazırlaşmalıdırlar. Həm *şüuri, zehni, mənəvi* cəhətdən, həm də fiziki cəhətdən hazırlaşmalıdırlar".

Sabitliyin pozulmasının, ölkədaxili qanunların yerinə yetirilməməsinin hansı nəticələrə gətirib çıxarması böyük natiqin dilində sinonim cərgələrlə məntiqi ardıcıllıqla verilir: "Valideynlər uşaqlarını küçəyə buraxa bilmirdilər. Çünki bir tərəfdən Ermənistanın təcavüzü və gedən döyüşlər, tökülən qanlar, ikinci tərəfdən də Azərbaycanın daxilində, o cümlədən Bakıda hökm sürən *özbaşınalıq, qanunsuzluq*, ayrı-ayrı *silahlı, cinayətkar* dəstələrin ardıcıl olaraq cinayətlər törətməsi, insanlara *təcavüz, təzyiq* etməsi, onların öldürülməsi, *mülkünün, varının*
zorla əlindən alınması bizim həyatımızı narahat edən hallar idi".

"Özbaşınalıq, qanunsuzluq" sinonimi sonda məntiqi olaraq "mülkün, varın" itirilməsinə gətirib çıxarır. Bu bir cümlədə dörd cərgə sinonimin sığışdırılması Azərbaycan dilinin dərin laylarına böyük natiqin bələdliyindən xəbər verir. Qanunsuzluğun həyatın digər sahələrinə, o cümlədən təhsil sahəsinə də sirayət etməsini Heydər Əliyev nitqində sinonimlərlə görə bilərik: "Ona görə bunu xüsusi qeyd edirəm ki, 1988-89-cu illərdən bəri respublikamızın başına gələn bəlalar, Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüz ilə əlaqədar olaraq, eyni zamanda ölkəmizin daxilində yaranmış *qarmaqarışıqlığa, özbaşınalığa, qanunsuzluğa* görə həyatımızın çox sahəsində, o cümlədən təhsil sahəsində də işlər pozulmuşdu. Mən məmnuniyyətlə qeyd edirəm ki, respublikamızı bu əzabəziyyətə salan belə hallar artıq keçmişdə

qalıbdır. Biz o halları aradan götürdük, respublikamızda *əmin-amanlıq*, insanlara *rahatlıq* yaratdıq, cinayətkar qrupları aradan götürdük".

Çətin məqamlarda ölkənin taleyüklü məsələlərinin həllində Azərbaycan xalqının xarakterik cizgiləri sinonim cərgələrin köməyi ilə auditoriya üçün açılır: "Nəhayət, oktyabrın 4-də dövlət çevrilişi başlandı. Ancaq xalqımızın *birliyi, həmrəyliyi, qüdrəti və cəsarəti* dövlət çevrilişinin, cinayətkarların hərəkətlərinin qarşısını aldı".

Sinonim cərgələr böyük natiqin dilində Ermənistanın təcavüzünün pisləməkdə, dünyaya bəyan etməkdə mühüm leksikoloji vahidlərdir: "Ermənistanda olan *ektremist, terrorçu, separatçı, təcavüzkar* qüvvələr çoxdankı niyyətlərini həyata keçirmək üçün 1988-ci ildə böyük fürsət əldə etdilər, bu fürsətdən məharətlə istifadə etdilər"(VIIc.s. 274).

Heydər Əliyevin ecazkar nitqində sinonimlər mənanı daha dəqiq ifadə etmək üçündür. Sinonimlərin köməyi ilə böyük natiq Azərbaycan-Ermənistan münaqişəsinin dəqiq təsvirini verir: "Ancaq eyni zamanda bu elə bir böyük müharibə deyildir ki, beş il müddətində ona *əncam, çarə tapılmasın*, son qoyulmasın. Demək istəmirəm ki, bu, asan məsələdir. Bu müharibə təkcə Ermənistanla Azərbaycan arasında gedən müharibə deyil. Bu müharibəyə böyük xarici qüvvələr qoşulmuşdur. O, böyük siyasi proseslərlə bağlıdır. Bu müharibə başıbəlalı Azərbaycanı *parçalamaq, yenidən dağıtmaq* məqsədi güdən böyük siyasi qüvvələr tərəfindən başlanıb".

Erməni xislətini açmağa xidmət edən sinonimlərə aşağıdakı cərgə uyğundur: "Rusiya Müdafiə Nazirliyinin səhih məlumatına cavab olaraq Yerevanda söylənilmiş fikirlər ağ *yalandır*, *uydurma* və *böhtandır*. Mən bunu qəti şəkildə deyirəm"

Dini -fəlsəfi, dini- əxlaqi çıxışlarında Heydər Əliyevin işlətdiyi sinonim cərgələr Azərbaycan nitq mədəniyyətinin formalaşması yolunda əvəzsiz incilərdir. Bu inci sinonim cərgələr bir daha Azərbaycan dilinin zənginliyindən xəbər verir, bir daha böyük natiqin dilimizin dərin qatlarına bələdliyindən xəbər verir: "Adamları *humanizmə*, *şəfqətə*, *nəcibliyə*, yüksək mənəvi dəyərlərə səsləyən dinlərin bəşər tarixində rolu əvəzsizdir. Bəşəriyyət üçün *sülhə*, *barışığa* nail olmağın yolu Tanrı nuruna tapınmaqdan, *mənəvi*, *ruhani* kamillikdən keçib gedir".

Dini auditoriyalarda böyük natiqin fərqli sinonim cərgələrinin şahidi oluruq: "İnsanların mənəvi sərvətlərinin hamısından dinin fərqi ondadır ki, o, dini mənsubiyyətindən asılı olmayaraq həmişə insanları *dostluğa*, *həmrəyliyə*, *birliyə* dəvət etmişdir"

Heydər Əliyevin nitq və çıxışlarının təhlili göstərir ki, dilimizin, nitqimizin inkişafı ilə bağlı istifadə edilən sinonimlər cazibə gücünü həmişə özündə saxlayır və gələcəkdə sinonimlərin geniş tədqiq olunma zərurəti meydana gəlir.

Ədəbiyyat

1. Babayev A. Dilçiliyə giriş. B. Maarif, 2004, 504 s.
2. Abdullayev N. Məmmədov Z. Nitq mədəniyyətinin əsasları. Bakı, 2010, 326s.
3. Heydər Əliyev dil haqqında və Heydər Əliyevin dili. Bakı, Elm, 1998- 196s.

N.Zamanov

Synonyms in the speeches of Heydar Aliyev

Summary

The article studied synonyms in the speeches of Heydar Aliyev. As it turned out, Heydar Aliyev widely used synonyms in their speeches. Heydar Aliyev skillfully used different styles of speech depending on the audience. In this he was helped very good knowledge of the language, particularly synonyms. The article was also examined in relation synonyms with other parts of speech used by Heydar Aliyev.

Н.Заманов

Синонимы в речах Гейдара Алиева

Резюме

В статье были исследованы синонимы в речах Гейдара Алиева.

Как выяснилось, Гейдар Алиев широко использовал синонимы в своих выступлениях.

Гейдар Алиев виртуозно использовал различные стили речи в зависимости от аудитории. В этом ему очень помогало хорошее знание языка, в частности синонимов. В статье также была исследована связь синонимов с другими частями речи, используемыми Гейдаром Алиевым.

Rəyçi: Nadir Məmmədli
filologiya elmləri doktoru, professor

ŞÜKÜRZADƏ ŞAHNAZXANIM
AMEA Nəsimi adına Dilçilik İnstitutu
sukurzade@mail.ru

NƏSİMİ DİLİNİN LÜĞƏT TƏRKİBİNDƏ ARXAİK ADLAR

Açar sözlər: Nəsiminin dilində arxaik sözlər, fonetik arxaizmlər, leksik arxaizmlər, arxaik isimlər, arxaik sifətlər, arxaik əvəzliklər,
Ключевые слова: Слова-архаизмы, фонетические архаизмы, лексические архаизмы, архаизмы-имена существительные, архаизмы-имена прилагательные, архаизмы-местоимения в языке Насими.
Key words: The archaic words in the Nasimi's language, phonetic archaisms, lexical archaisms, archaic nouns, archaic adjectives, archaic pronouns.

Nəsimi dilinin lüğət tərkibi arxaizmlərin tədqiqi baxımından azərbaycandilli yazılı mənbələr sırasında əhəmiyyətli yer tutur. Nəsimi "Divan"ının leksik-semantik təhlili zamanı arxaizmlərin işlənmə xüsusiyyətlərinə, hər hansı bir sözün ədəbi dildə, dialektlərdə, yoxsa qohum dillədrə məxsus mövcudluğunu işıqlandırmaq olar. Buradakı arxaizmlərin təhlili, qruplaşdırılması, izahı və qarşılığının göstərilməsi Azərbaycan dilinin və digər türk dillərinin tarixi-müqayisəli tədqiqi üçün də əhəmiyyətli rola malikdir.

Nəsiminin "Divan"ında arxaik adları iki qrupa bölmək olar**: a) fonetik arxaizmlər; b) leksik arxaizmlər**. Bunları da öz növbəsində nitq hissələri üzrə qruplaşdırmaq olar: 1) arxaik isimlər; 2) arxaik sifətlər; 3) arxaik əvəzliklər.

I. Arxaik isimlər: "Divan"da arxaik sözlərin böyük əksəriyyətini isimlər təşkil edir. Onların bəziləri müxtəlif fonetik dəyisikliyə uğramış, bir qrupu müasir dilimizdə formasını saxlayaraq məzmunu dəyişilmiş, bir qismi hazırda müstəqil şəkildə aktivliyini itirsə də, daşlaşmış ifadələrin tərkibində mühafizə olunmuşdur, bir qism arxaizmlər isə ədəbi dildə işləkliyini itirərək, yalnız dialekt və şivələrdə fəaliyyət göstərir. Arxaik isimləri bu kimi xüsusiyyətlərinə görə xarakterizə etmək olar.

1. Şairin leksikonunda işlənən arxaik isimlərin bir qismi müxtəlif fonetik dəyişikliyə uğramışdır*: qaranqu–qaranlıq, topraq–torpaq, tilki–tülkü, dikən–tikan, tob–top, buncuq–muncuq, kirpik–kiprik, dəngiz–dəniz, uyxu–yuxu, şişə–şüşə, qablan–qaplan, qarınca–qarışqa, ayu–ayı, yüz–üz, yıldız–ulduz, yürək–ürək, yüzərlik–üzərlik,* və s. *Qaşınla **kirpigin** Turun dağında, Necə bir Museyi-İmran irişdi* (N.I88); *Həsəd dutmaq donuz, ayu sifətdür, **Qarınca** hirslərim kinə çəyanım* (N.II328); *Sığırlıq–çox yemək, şəhvət–eşəklik, Yavuz xu–qurt, hiylə–**tilki** qılanım* (N.II329,10).

Maraqlıdır ki, Nəsimi "Divan"ının 188 (5225) şifrəli əlyazmasında *buncuq* sözünün *muncuq* variantı da mövcuddur. Eyni hadisə *dikən* sözündə də müşahidə edilir. Həmin əlyazmada *dikən* variantı ilə *tikən* variantı da özünü göstərir (9, s. 6): *Aləmdə bütün əhdi bu gün yar ələ girməz, Yandırdı **dikən** bağrımı, gülzar ələ girməz* (N.I76)*; Gülüstanin güli sənsiz **tikəndür**, Bana can sənsüz güli reyhan gərəkməz* (N.I70).

Bu gun dilimizdə fonetik dəyişikliyə uğrayaraq işlədilən sözlərin Nəsimi dilində işlənən variantlarının bir qismində söz əvvəlində *y* samitinin işlədilməsi

(*yüz–üz, yıldız–ulduz, yüzərlik–üzərlik, yürək–ürək, yılan–ilan* və s.), söz ortasında sağır nun–*ŋ* samitinin iştirakı (*yaŋaq, köŋül, dəŋiz, daŋla, doŋsuz* və s.), söz əvvəlində prototik *h* və *y* samitlərinin işlənməməsi (*örümçək–hörümçək, iyə–yiyə* və s.), söz ortasında, bəzən də söz sonunda sonralar *y* səsinə keçmiş *g* samitinin fəal olması (*gögərçin–göyərçin, əgin–əyin, cigər–ciyər, gög–göy* və s.) özünü göstərir: *Zahid aydır, sevmə xubu, baxma anun* ***yüzinə****, Şol həcər* ***yürəkli*** *ahən, yoxsa mərmərdənmidir?* (N.I278); *Ey hər zamanin fitnəsi burqə cəmalündən götür, Ta eşqə* ***yüzərlik*** *kibi pirü cəvani yaqasan* (N.II82); *Könül laçin deyü düşdü ki, alə şol* ***gögərçini***, *Gögərçin bayquşa döndi, yazıqdur şimdi laçinə* (N.I60); *Ehram edərmən* ***əgnimə*** *bir ton geyirdi həq, Necə kim, istərəm ətəgivü yaqası yoq* (N.I301).

Müasir ədəbi dil üçün norma hesab olunmayan intervokal vəziyyətdə *g* səsinin fəallığı həm qərb qrupu dialektlərində, həm də Abşeron rayonu şivələrində müşahidə olunur.

1. Nəsiminin dilində bir qrup isim vardır ki, onlar müasir dilimizdə formasını saxlasa da məzmunu dəyişilmişdir: *bağır–ürək, kişi–insan//adam, tütün–tüstü, yemiş–meyvə, kəpənək–yapınçı//çuxa, uçmaq–cənnət, ər–kişi//igid, baş–yara, ayaq–qədəh* və s. *Çıxdı içimdən* ***tütün****, çərxi boyadı bütün, Gör ki, nə atəşdəyəm, gör nə qədər yanaram* (N.I127); *Çəkəli əgnimə bu sikkeyi-mərdan* ***kəpənək****, Biləsən qıldi mənim dərdimə dərman* ***kəpənək*** (N.I117); *Ləbinə əhli-nəzər çeşmeyi-heyvan dedilər, Gərçi* ***uçmaq*** *hurisi cümlə ana can dedilər* (N.I262).

Bu sözlər müasir Azərbaycan dilində tamamilə başqa mənalar ifadə edir: *bağır–qara ciyər, tütün–bitki adı, ər–həyat yoldaşı, yemiş–bostan bitkisi, baş–insanın bədən üzvü, ayaq–insanın bədən üzvü, kəpənək–həşərat növü, uçmaq–havaya qalxmaq* və s. Nəsiminin əsərlərində işlədilən həmin isimlər sonrakı dövrlərdə–XV əsrdə Ş. İ. Xətainin (M.Cavadova, 32), N. Kişvərinin, XVI əsrdə M. Füzulinin əsərlərində, habelə XVI əsr tərcümə nəsr əsərləri "Şeyx Səfi" təzkirəsində (23, s. 10), "Şühədanamə"də (2, s. 10), eləcə də orta əsrlərdən çox-çox əvvəl–XI əsrdə yazıya alınmış "Kitabi-Dədə Qorqud" dastanlarında (KDQ. 27, 58, 21,78) müşahidə olunur. Həmin sözlərin orta əsr abidələrindəki mənaları bu gün dialekt və şivələrdə xalq danışıq dilində, bədii üslubda, daşlaşmış xalq ifadələrində qorunmaqdadır. Məsələn, *uçmaq (cənnət)* sözünün qədim mənası bu gün xalq dilində yaxşı adam haqqında *öldü* feli, sanki, kobud hesab edilir və bu zaman *uçdu* feli işlədilir ki, bu da *uçmaq (cənnət)* isminin semantikasına yaxındır. Bu mənada türkologiyada mövcud elmi mənbələrdən "Divani-lüğət it türk" əsəri də fikrimizi bir daha təsdiqləyir. "Divan"da işlənmiş *baş* sözü tibb termini kimi hal-hazırda fəaliyyətdən düşsə də, bu sözün iştirakı ilə düzəlmiş *baş eyləmək – yara, çiban çıxarmaq* feli birləşməsi mövcuddur.

2. Nəsimi leksikasında rast gəlinən bəzi isimlər müasir ədəbi dilimizdə müstəqil şəkildə aktivliyini itirmiş, yalnız daşlaşmış ifadələrin tərkibində mühafizə olunmuşdur: *kilid,ufa, biliş, ün* və s. *Kimsə gümanü zənn ilə olmadı həqq ilə* ***biliş****, Həqqi bilən bilir ki, mən zənnü gümanə sığmazam* (N.II7L)*; Kişvəri-əmnü afiyət, mərifətin* ***kilididir****, Ey məliki-zəmanə, gəl fəth edə gör bu kişvəri* (N.I89)*; Buduna çıxsun* ***ufalar****, gözünə həm qara su, Dutulsun dili, qulağı, bir niçə daş dişinə* (N.III128).

Bu gün arxaik fonda keçən həmin sözlər XIV-XV əsr ədəbi dilində işlək dil vahidləri olmuş və türk dillərinin tarixi lüğətlərində qeydə alınmışdır (Bud.I.617,

MK.I.49). Qeyd edək ki, *ufanmaq* felinə "Kitabi-Dədə Qorqud" dastanının dilində, həmçinin XV-XVI əsr Azərbaycan ədəbi dilində, xüsusən, böyük tərcümə əsəri "Şeyx Səfi" təzkirəsində rast gəlmək olur (24, s. 7).*Çalışanda qara polad uz qılıcın kütəlməsin! Dürtüşərkən ala göndərin* ***ufanmasın****!* (KDQ.19).

Həmin sözə XX əsrin böyük şairi M. Ə. Sabirin satiralarında da rast gəlirik: *Ay başı daşdı kişi, dinmə, uşaqdır uşağım! Nə ədəb vaxtıdır, qoy söysün,* ***ufaqdır*** *uşağım!* (MƏS. Hop-hopnamə, s. 143).

Abidələrimizdə müxtəlif mənalarda işlənməsinə baxmayaraq, *uf, ufa, ufaq, ufanmaq* sozlərinin ilkin kökündə, şübhəsiz ki, *uf* nidası, *ufa* ismi durur; bu gün uşaq nitqində *ufa* sözü *sulu yemək* mənasında işlədilir.

"Divan"da işlənmiş *ün* ismi Azərbaycan yazılı abidələrində də məhz arxaik isim kimi qeydə alınmış, çağdaş dilimizdə isə yalnız bəzi ifadələrin və xalq məsəllərinin tərkibində (səsim-ünüm yetməz) özünü mühafizə etmişdir. Tarixən bu ismin fəaliyyət göstərməsi qədim türkdilli lüğətlərdə də qeydə alınmışdır (Bud.I.617; MK.I.49).

3. Müasir Azərbaycan dilində işləkliyini itirərək yalnız dialekt və şivələrdə fəaliyyət göstərən isimlər*: nəsnə (şey), eşik, duş, yazı, ətmək//əppək, danla (sabah), çiy (şeh), şilə (plovun bir növü), ərməğan (hədiyyə, bəxşiş), dün (dünən)* və s.

Vaxtilə Q. Varaşil *Şilə* sözü haqqında yazırdı ki, bu söz gürcü və erməni dillərində türk alınmalarından biri kimi geniş işləkliyə malik olmuş, udin dilində düyü yeməyinin adı kimi sabitləşmişdir. Hələ M. Kaşğarinin tədqiqatından aydın olur ki, hər bir türk ailəsinin süfrəsinin əsas atributu olan bozbaş, qovurma, dolma xörəkləri gündəlik yeməklər kimi səciyyələndirilirdisə, *şülən* mərasim yeməyi, yüksək təbəqəyə məxsus oğuz ailələrinin süfrə atributu olmuşdur*. Bunun əlamətləri "Kitabi-Dədə Qorqud" dastanında da müşahidə edilir. Bu gün Azərbaycan dilinin bir çox dialektlərində qorunub saxlanan *şılan–şilə, plov* Cənubi Qafqazın başqa xalqlarının gürcülərin, ermənilərin, udinlərin məişətinə daxil olmuşdur (4, s. 79).

Qeyd edək ki, *şilə//şıla* ismi bu gün *şılan-bılan* mürəkkəb sözü daxilində hətta ədəbi dildə (bədii üslubda) də işlənir. Bəzi dialektlərdə *şilə–şirin plov* mənasında işlənir. (Qazax, Ağstafa, Lənkəran, Masallı). Qarabağ zonasında isə *südlü şilə–südlü aş* sinonim variantları işlənir.

Maraqlıdır ki, Nəsiminin dilində də *şilə şəkər, şəhd* sözlərilə komponent təşkil edərək işlənir: *Ləbi-canfəzayi-lələin urar abi-Xizra tənə, Bu şəkər dodaqlı, yəni sözi* ***şilə****, şəkərimi?* (N.II208). Bu hal *şilə* isminin məhz *şirin plov* olması ehtimalını təsdiqləyir.

4. Müxtəlif anlayışları bildirən arxaik isimlər*: tanıq (şahid), çəri (ordu), suç (günah), sağış (hesab, miqdar), yar (tüpürcək), çələb (tanrı), keyik (ceyran), sin (məzar), tap (müqəddəslik), küz (payız), yağma (talan)* və s. *Gözünü tutub süzürsən, dilü canə qəsd edirsən, Bu nədür ki, sən qılursan* ***çələbim****, bəgüm, əfəndi?* (N.I112).

Nəsiminin dilində işlənmiş *yağma* sözü, fikrimizcə, *yağ+ma* quruluşuna malik düzəltmə isimdir. Maraqlıdır ki, həmin sözün kökü əsasında müasir Azərbaycan dilində *yağı (düşmən*) ismi işlənməkdədir. *Yağma* və *yağı* sözlərinin kökü qədim türk dillərində *hücum etmək*, *basmaq, yaxınlaşmaq, məhv etmək* semantikalı çoxmənalı *yağ* felidir (1, s. 223-224). *Bu gün, ey xubların şahı, əmiri-dilbəransan kim, Xəyalın ləşkəri verdi könül şəhrini* ***yağmayə*** (N.I36); *Münəvvər əbhərin türkü evin yəğmaladı əqlin, Moğol hər qanda varırsa düşər taracü* ***yəğmayə*** (N.I35)

Tədqiqatlar göstərir ki, tarixən *yağ* kökündən müxtəlif sözlər yaranmışdır: *yağıçı-döyüskən*, *yağıd-düşmən olmaq, yağıla-döyüşmək, vuruşmaq, yağılıq-düşmənlık, yağıq-düşmənlik etmək* (9, s. 224). Göründüyü kimi, qədim türk dillərində *yağ* sözü sinkretik məzmuna malik olmuşdur və çağdaş dövrümüzə həmin kökdən olan *yağı* və *yağmalamaq* sözləri gəlib çatmışdır: (yağı düşmən).

Şairin dilində *dəgmə* sözü etibarsız, naxələf mənasında çox fəaldır: *Qiymətli dodağının **dəgmə** xəsisə sorma kim, Mən bilirəm ki, can ilə susamışam zülalinə* (N.I43); *Kəbənin ehramına irməz hacının **dəgməsi**, Çizginər dər girdinə, sürtər yüzünü taşinə* (N.I51).

Bu gün *dəgmə* sözü yalnız *dəymə-düşər* mürəkkəb sözünün tərkibində yaşamaqdadır. Eləcə də, ilkin olaraq, *tamuğ*, *çəriğ* variantında olmuş bu isimlər Nəsiminin dilində son samitsiz, yəni xalq danışıq dili müdaxiləsindən sonra *tamu*, *çəri* şəklində özünü göstərir (Bud.I730,1869).

Bu sözlər hal-hazırda işləkliyini itirsə də, tarixən Azərbaycan yazılı abidələrində, klassiklərin əsərlərində arxaizm kimi mövcud olmuş, eləcə də digər türk dillərində fəaliyyət göstərmişdir. Bu səbəbdən həmin sözlər türk dilləri lüğətində özünə yer almışdır.

II. Arxaik sifətlər. "Divan"da sifət cisimlərin əlamət və keyfiyyətini bildirir, quruluş etibarilə sadə, düzəltmə və mürəkkəb formadadır.

1. **Sadə arxaik sifətlər.**

a) Bu sifətlərin bir qismi fonetik baxımdan müəyyən dəyişikliyə uğramışdır: *gögçək* çağdaş dövrdə *göyçək* şəklində*, əgri-əyri, yuca-uca, bütün-bütöv* və s. *Kəlamülləhə, ey dilbər ki,boyun gərçə dal oldu, Hər **əgri** baxanın eyni bu dalin qədrini bilməz!* (N.I63); ***Yuca** yerdən dəm uran şeyxi fəqihə gəldi kim, Müddəinin hörməti həqdən həqarətdir bu gün* (N.I178).

"Divan"da işlənmiş fonetik baxımdan bu gün ədəbi dildə sabitləşmiş *əyri, bütöv, uca, göyçək* sifətləri ümumxalq Azərbaycan dilində, habelə Azərbaycan dilinin dialekt və şivələrində məhz Nəsimi dilində təzahür edən fonetik variantda, yəni *əgri, bütün, gögçək* şəklində işlənməkdədir. *Uca* sifətinin *yuca* variantda işənməsi isə qədim türk dillərində, eləcə də Azərbaycan dilində mövcud olmuşdur və söz əvvəlində prototik *y* samitinin işlənməsi qədim dövr yazılı abidələr üçün səciyyəvi fonetik səs artımıdır (М.А.Щербак. Сравнительная фонетика тюрских языков. Л.1970, s. 179)

b) Müasir Azərbaycan ədəbi dilində passiv şəkildə işlənən, eləcə də dialekt və şivələrdə işləkliyini saxlamış sadə sifətlər: *ulu, arı, yengi, yavuz, çin, eyü//eyi, gerçək* və s. *Bir **eyü** ad edün fani cahandə, **Ululardan** cahandə qaldı bir ad! (*N.I106*); Hüsni cəmalə baxmağa **ari** səfa nəzər gərək, Düşməsin **arisiz** nəzər ayinənin səfasinə!* (N.II165)*; Münkirin **əgri** gözləri yüzinə baxmasın anın, Kəmnəzərin yavuz gözi hüsni-cəmalə düşməsün!* (N.I173)*; Əski dünya **yengi** xələt geydi bu mövsümdə uş! Çöhrəsi dövri bu gün nəqşü nigar oldu yenə!* (N.I54); *Dəhanindən xəbər verdi rəvanpərvər sözün, əmma Bilinməz nəsnədən kimsə inanmaz kim, xəbər **çindir*** (N.I288)*Dövləti-didarə bidar urar ol **gerçək** mühibb Gözləri açıq gərəkdir aşiqin leylü nəhar!* (N.I333)

Həmin sifətlər bu gün xalq dilində, bədii əsərlərin dilində ifadə daxilində, müdrik cümlələrdə müşahidə olunur: *arı* sifəti – *Aydan **arı** sudan duru* atalar sözündə, habelə *düyünü aritlamaq* ifadəsində, *arat* kənd təsərrüfatı terminində *təmiz* mə-

nasını saxlamaqdadir. *Yengi* sözü bu gün cənub bölgələrində *yengi il (yeni il), yengidə (gələn il)* söz və ifadələrində məhz *təzə, təzə il* mənasında işlənməkdədir. Eləcə də *çin* sifəti *Yuxum çin cıxdı* cumləsində saxlanmaqdadır.

"Divan"da rast gəlinən, lakin müasir Azərbaycan dilində işləkliyini itirmiş sözlərdən *əsrük(sərxoş, kefli)* bəzi dialekt və şivələrdə mühafizə olunur. *Sayru* sözü isə Azərbaycan yazılı abidələrində arxaik söz kimi qeydə alınmış və çağdaş dilimizdə ifadə tərkibində qalmaqdadır: *Sağlığın necədirsə, sayrılığın da elədir.*

2. **Düzəltmə sifətlər:** "Divan"da düzəltmə sifətlər adlardan və fellərdən düzəlir:

a) Adlardan düzəlmiş sifətlər aşağıdakı şəkilçilər vasitəsilə yaranır: *-lı*[4] *(tatlu-dadlı, uyxulu-yuxulu, yürəkli-ürəkli, tolu-dolu və s. Zahid aydır, sevmə xubi, baxma anın yüzinə, Şol həcər* ***yürəkli*** *ahən, yoxsa mərmərdənmidür?* (N.I312)***;*** *Hər qanda kim, şərh eyləsəm şirin dodagin qəndini, Ərvəh üşər sinək kibi ol* ***tatlu*** *şəkər xəndini* (N.II157); *Bəzmində əzəl saqisi lələin mana sundu, Ol badeyi kim, ruhizəmindür* ***tolu*** *cami* (N.II214)***;*** *Ey nəğdini tərrarə verən* ***uyxulu*** *qafil, Şol yüzi qəmər türreyi-tərrarimi buldum!* (N.I505).

Məlumdur ki, müasir Azərbaycan dilində *-lı*[4] şəkilçisi əksər hallarda isimlərə artırılaraq düzəltmə sifətlər əmələ gətirir. "Divan"da isə -lı[4] şəkilçisinin sifətlərə artırılaraq düzəltmə sifətlər yaratdığını da görürük. Bu mənada "Divan"da təsadüf etdiyimiz *ağuli, xumarli, yazuqlu* sifətləri maraq doğurur: *Həva camindən əsrüksən, həvəs ardinə düşmüşsən, Bu* ***ağuli*** *şərabi qo kim, oldur şərbəti qatil* (N.I464); ***Yaralu*** *eylədi məni cürəsi* ***ağulu*** *ğəmin* ***Yaralu*** *yarini qoyma, dərdinə gör nə çarədür* (N.I294); *Ey* ***xumarli*** *gözlərindən fitnəyi uyar* ***sənəm***, *Gözləri şol fitnədir kim, fitnəsi xabindədir* (N.I285); *Hüsnün quludur cümlə əgər mahisə, gər xur*, *Ey ləlinə can bəndə və* ***yazuqlu*** *qulami* (N.I216).

Beytlərdə işlənmiş *ağulu*, mətndən də göründüyü kimi , sadəcə *acı* sifətinin məna qarşılığı olmayıb, poetik mənada *çox acı, həddindən artıq acı* mənasını ifadə edir. Eləcə də, *xumarlu-cox xumar (göz), məstanə göz, yazuqlu-çox yazıq* deməkdir.

Deməli bu gün fəaliyyətdə olmayan sifət köklü düzəltmə sifətlər nə vaxtsa ədəbi dildə işlək olmuşdur. Bunu həm Azərbaycan dilli yazılı abidələr (*dəmirlü*- "Vərqa və Gülşa" XIV əsr. 10, s. 13; *təmizlü*- "Şeyx Səfi" XV əsr. 23, s. 10; *ağulu*- Füzuli: *Çox həvəs eyləmə ol şərbətə kim ağuludur*-XVI əsr. 25, s. 142; "Şühədənamə" 2, s. 10), həm müxtəlif türk dilləri materialları: *alaluy-ala, ala-bula* qirğız dilində (20, s. 61), həm də azərbaycan dilində mövcud nadir faktlar təsdiq edir. Bu gün Azərbaycan xalq dilində *soyuqlu hava* ifadəsi mövcuddur. Əlbəttə ki, *soyuqlu hava* sadəcə *soyuq hava* deyil, *çox soyuq hava, olduqca soyuq hava* deməkdir. Şübhə yoxdur ki, Nəsimi *xumarlu (göz), ağulu (şərab), yazuqlu (qulam)* deyərkən bu sözlərin xalq dilində gizlənən ən qədim, ən incə mənalarına əsaslanmış, xalq dilinin qrammatik quruluşunun zənginliklərini ədəbi-bədii dilə gətirməklə, XIV əsr və ümumən ədəbi dilin poetik imkanlarını genişləndirmişdir. Şair *yazuqlu qulam* deyərkən tarixən bütün türk xalqlarının dilində işlənmiş *yazıq, günahkar, kasıb qul* (MK III, 1941, 17) mənasını nəzərdə tutmuşdur. Digər tərəfdən, *-lı*[4] şəkilçisinin məna tutumu – *çoxluq, bolluq* semantikası da həmin sifətlərdəki qüvvətli semantik mənanı təsdiq edir.

"Divan"da işlənmiş düzəltmə sifətlərin bir qismi də bu gün passiv fonda keçmiş arxaik sifətlərdir: *qutlu (xoşbəxt), görklü (gözəl, göyçək), dürlü (müxtəlif),*

yeləkli (nazlı-nəzakətli). Başuma ***qutlu*** *ayağun gəldi basdı ol nigar, Kölgəsi düşdü o an mana sərvi xuramanın yenə* (N.II172)*; Eylədi eşqin məni qalxan məlamət turinə Ey gözi, qaşi* ***yeləkli*** *şəhriyarım, qandasan?* (N.II36)*; Ey sahibi-təxtü tac, canlar canına möhtac! Ey* ***gorklü*** *yüzün merac, didarinə müştaqəm!* (N.I532)*; Eşqin odi pişirmişdi* ***dürlü*** *aşlarım, Sevda könlümün dəxi xam olmadin hənuz!* (N.I390).

Türkologiyada *-lı*[4] şəkilçisinin *-lıq*[4] şəkilçisindən törəməsi fikri mövcuddur (20, s. 72, 46; 20, s. 53). Qədim türkdilli abidələrdə "Divan"da müşahidə olunan *görklü*, *qutlu* sifətləri *görklük*, *qutluq* variantındadır (DTS, 473,MK I 82, 318). *Yeləkli* sifətinin kökü olan *yilək* qədim türk abidələrində *gülüş, kiməsə gülmək, təhqir, təhqir etmək, gecə şənlikləri* mənalarını ifadə etmisdir. (20, s. 265). Bəzi türkoloji lüğətlərdə *yelək//yelik* monqol mənşəli hesab edilir (20, s. 265). Bizə elə gəlir ki, "Divan"da işlənmiş *yeləkli* sözü məhz monqol mənşəli *yelik* sözü ilə əlaqədar olub, *şıltaq, öz gözəlliyi ilə fəxr edən, havalı, məhəbbətli, gözəl* mənalarına uyğun semantikada işlənmişdir.

Görklü sözünün bu gün müasir Azərbaycan dilində *görkəmli* variantını qəbul edirik. Qeyd edək ki, *görklü* düzəltmə sifəti qədim türk lüğətlərində (MK I, 1939,362) *gözəl, gözəllik, gözəl sima* mənalarında işlənmişdir. "Türk dillərinin etimoloji lüğəti"ndə yazılır: *görg, görklü* və onun fonetik variantlarının etimologiyası ilə məşğul olan türkoloqlar- A. Zayançakovski, K. Brokelman, M. Rəsənen, K. Menqes bu sözü *görmək* felindən *-ıq, -ik* şəkilçisi vasitəsilə fel köklü hesab edirlər. Həmin sifətdən *-li* şəkilçisi ilə düzəlmiş keyfiyyət mənalı *görklü (gözəl),* həm də *-sız* şəkilçisi ilə inkar mənalı *körksüz (çirkin)* sifətləri düzəlmişdir. Həmin kökdən *-a, -ay, -la* şəkilşisinin iştirakı ilə *görka, görkəl,* və nəhayət *görkəm* ismi yaranmışdır. (ЭСТ.Я, 1980, 82).

"Divan"da məhsuldar sifət düzəldən şəkilçilərdən biri də *-çin* elementidir. Sözlərə artırılaraq keyfiyyəyin çoxluğunu yaradır və *-lı*[4] şəkilçisinin məna yaxınlığı kimi çıxış edir: *Ruxun üzrə bənin şahanə hindudur əcəb, yarəb, Yalınçaq oğrumu, yaxud İrəm bağində* ***gülçindir****?* (N.I289); *Mahi-tabanə, ya mehrə səni bənzətməzəm, neyçün, Ki, hüsnün xirmənində ay ilə gün* ***sünbüləçindir*** (N.I289).

-çin elementi sözlərə əlavə edilərkən həmin kök sözün mənasını çoxaldır. Ümumiyyətlə, *çin* bir söz kimi qədim türk dillərində *həqiqət, doğru, düzgün, əsl, bənzər, oxşar* kimi mənaları ifadə etmişdir (DTS. 148,1969). Bizə elə gəlir ki, *çin* sözünün şəkilçi variantı *-çin* bu mənaların əsasında yaranmışdır. Nəsiminin dilində *-çin* bir çəkilçi kimi sözlərə *məhz, əsl* mənasını verir: *gülçin,* yəni *əsl gül, çiçək kimi, sünbüləçin-əsl sünbülə bənzər, əsl sünbül kimi, moğolçin-moğol gözləri kimi moğol saçları kimi*. Müasir Azərbaycan dilində *-çin* çəkilçisi ilə antroponimlər düzəlir: *Gülçin, Elçin, Yalçın* və s.

"Divan"da sifət düzəldən ən aktiv çəkilçilərdən biri də *-sız*[4] gostəricisidir. Müasir dövrdə olduğu kimi, sözlərdə müəyyən keyfiyyətin olmadığını bildirən həmin şəkilçi həm türk mənşəli, həm də alınma ərəb və fars dili sözlərində həmin semantikanı yaradır: a*risiz-çirkli,* düzəltmə sifəti bu gün istifadədən qalsa da, tarixən türkdilli abidələrdə işlənmişdir. *Hüsni-cəmalə baxmağa arisəfanəzər gərək, Düşməsin* ***arisiz*** *nəzər ayinənin səfasinə!* (N.II165); *Nə günəşdir yüzün bəği ki, çiçəgi anin, Cəhani rəngi buyindən* ***dikənsiz*** *gülüstan etdi* (N.II281).

"Divan"da *-sız*[4] səkilçisinin sinonimi kimi *-çaq* şəkilçisi işlənir: *Rüxün üzrə bənin şahanə hindudur, Yarəbb!* ***Yalıncaq*** *oğrumi, yaxud İrəm bağində gülçindir* (N.I289).

Müasir Azərbaycan dilində *-caq* şəkilçisi tam passivləşərək yalnız relikviya halında iki sözdə müşahidə olunur: *köynəkcək* və *tumancaq.*

"Divan"da *yalıncaq* sözü ayağıyalın mənasında özunu göstərir ki, bu məna qədim türk lüğətlərində qeydə alinmışdır: (MK, 1941,III,82, DTS,1969,229)

Maraqlıdır ki, *yalınçaq* sözünün I hissəsi bu gün Azərbaycan dilində mürəkkəb söz törkibində özünü göstərir: a*yağıyalın* və yaxud, *yalın.*

-caq şəkilçisi haqqında türkoloji ədəbiyyatlarda yazılır: ilkin olaraq əzizləmə semantikası üzrə səciyyələnən *-caq* şəkilçisi düzəltmə isimlərin və sifətlərin yaranmasında Azərbaycan dilinin ən qədim morfoloji əlamətlərindən sayılmışdır: *dilcək, oduncaq, köynəkçək* isimləri, eləcə də, *qısacaq, artıcaq* kimi sifətlər Azərbaycan dilinin ən qədim layına daxildir (20, s. 435).

Bəzi arxaik sifətlər fel köklərinə *-ux, -uq, -q, -k, -x* elementləri artirmaqla yaranmışdır: *ayrıx, ayrux, ayruq, artuq* və s. sözlər bu gün dialekt və şivələrdə də işlənmir. *Qaşınla kirpigin çün seyd eylədi cəhani, Səyyad olana* ***ayrıx*** *tirü kəmən gərəkməz!* (N.I393); *Gəl niqabın tərfini gülgün yanağından götür, Ta gülüstan gülməsün* ***ayrux*** *güli-xəndaninə!* (N.II152); *Düşdi gözüm ala gözün ağinə və qarasinə,* ***Ayruq*** *anınla kimsənin aği nədür, qarasi nə?* (N.II164);

a) "Divan"da fel köklərindən sifət düzəldən ən fəal şəkilçilərdən biri *-ıcı*[4] göstəricisidir: *ağlici, tapici, yaxıci, yapıci, varici* və s. *Şövqün qışında* ***ağlici*** *göz tökər yaşin, Vəslün gününə döndərü güldür bəharimi!* (N.II212); *Ey latə* ***tapici****, səni eyb etməzəm nədən, Kim, görməmişəm ol sənəmi-gülüzarimi!* (N.II213); *Xəlqin əməli əzdi könül* ***yaxıci*** *ogüş Bir xəstə könül* ***yapıci*** *memar bulunmaz* (N.I376).

Tarixən Azərbaycan dilində fəal feli sifət şəkilçisi olan *-ici*[4] Nəsiminin qəzəllərində də göründüyü kimi, ən aktiv morfoloji göstərici olmuşdur. Zaman keçdikcə həmin şəkilçi ilə formalaşan şəkilcilər *-an*[2] feli sifət şəkilçisi ilə əvəz olunmuşdur. Lakin bir şəkilçi kimi *-ıcı*[4] göstəricisi tam şəkildə dilimizdən çıxmamışdır. Müasir Azərbaycan dilində *-ıcı*[4] şəkilçisi vasitəsilə fel kökündən düzəltmə sözlər yaranır və bu zaman həmin şəkilçi *-çı*[4] şəkilçisinin məna qarşılığı kimi çıxış edir. *-ıcı* şəkilçisindəki *-ı* birləşdirici sait olmayıb, hərəkətin adını bildirən göstəricidir. Türk dilində *-(y)ıcı*[4] şəkilçisi bəzən gələcək zaman məzmunlu feli sifət şəkilçisi kimi səciyyələndirilir. Bu Mahmud Kaşğarinin lüğətində də belədir (21, s. 92-93)

Azərbaycan klassik ədəbiyyatında *-ıcı*[4] şəkilçisinə təsadüf olunur: *Eşidici deyicidən* söz çəkər (ŞŞ. XVI əsr); *Nə suya giricisən, nə oda* (ŞİX.II220); *Sən qəddinə yaşıl şallar* ***geyici****, Vaqif dəxi sənə qəzəl* ***deyici****, Şükr Allaha deyil* ***adamyeyici****, Nolur gəlsən bizə, qurban olduğum!* (Vaqif, XVIII, s. 59).

Maraqlıdır ki, həmin forma bu gün müdrik xalq ifadələrində, atalar sözü və məsəllərdə yaşamaqdadır: *Yaman yeyicin olsun , yaman deyicin olmasın.*

"Divan"da *var* sözü şəkilçi funksiyasında əsasən şəxs adlarına əlavə edilərək *kimi* qoşmasının məna qarşılığı səviyyəsində çıxış edir: *Mənsurvar, Fərhadvar, Ərəsvar* və s. *Gəl asıl bərdar çün Mənsursan* ***Mənsurvar****, Aqibət mənsurini Mənsur asar darinə!* (N.II154); *Leyli cəmalindən cuda Məcnun kimi sərgəştəyəm,* ***Fərhadvar*** *istər könül Şirin dodağindən şəfa!* (N.III5); *Sənin gülgün yanağin həsrətindən, Axar çeşmim yaşı həm çün* ***Ərəsvar****!* (N.I98).

Müasir Azərbaycan dilində -*var* elementi *ümidvar*, *ümidvar olmaq* sözünün tərkibində özünü göstərir. Eləcə də, -*vari* şəklində sözdüzəldici vasitə kimi *vintvari*, *yüngülvari* sifətlərinin tərkibində müşahidə olunur..

b) **Mürəkkəb sifətlər.** "Divan"da mürəkkəb arxaik sifətlərin düzəlməsində ən geniş yayılmış vasitə eyni söz köklərinin təkrarı (reduplikasiya) ilə yaranma yoludur:

1. Türkmənşəli sadə söz köklərinin təkrarından yaranan mürəkkəb arxaik sifətlər: *tolu-tolu, dürlü-dürlü* və s. *Gəzdim vicudim şəhrini səndən* ***tolu-tolu*** *gördüm anı, Hər yerdə çün sənsən əyan, adin nədən bica imiş?* (N.I412); *Xəstə olali könül eşqindən, ey can pərəsi, İçərəm ğəm mətbağindən* ***dürlü-dürlü*** *aşlar!* (N.I342).

2. Türk mənşəli sadə isimlə sadə sifətin birləşməsindən yaranmış mürəkkəb arxaik sifət: *əgridil: Dil bazarçisi yalandır, varmazam bazarinə, Gerçək olmaz* ***əgridil****, inanmazam iqrarinə!* (N.II150).

III Arxaik əvəzliklər. Nəsiminin "Divan"ında öz forma və məzmununu saxlamış əvəzliklərlə yanaşı, bəzi fonetik dəyişikliyə uğramış və ya tam arxaikləşmiş əvəzliklər də fəaldır. Bunlar əvəzliyin müəyyən məna qruplarında müşahidə edilir: 1) şəxs əvzlikləri; 2) işarə əvəzlikləri; 3)sual əvəzlikləri; 4) qayıdış əvəzlikləri; 5) qeyri-müəyyən əvəzliyi.

1) Arxaik şəxs əvəzlikləri: "Divan"da rast gəldiyimiz *bən, ol, olar//alar//anlar* arxaik şəxs əvəzlikləridir: *Ey bəsirətsiz,* ***bəni*** *gör kim nə zati-adəməm! Söyləyən həqdir* ***bənim*** *dilmdə hər dəm, yoxsa* ***bən****...*(N.I82); *Mənsur ilə* ***bən*** *dardan gəlirəm... Xəlifə ilə* ***bən*** *nardan gəlirəm!* (N.I83).

Böyük türkoloq Mahmud Kaşğari göstərmişdir ki, şəxs əvəzlikləri *bən* oğuz qrupu türk dilləri üçün, *mən* qıpçaq qrupu türk dilləri üçün səciyyəvidir. Azərbaycandilli yazılı abidələrdə XIX əsrə qədər fəaliyyət göstərmiş *bən* əvəzliyi sonralar fəaliyyətdən qalmış, *mən* norma səviyyəsini qazanmışdır. Bütün türk dilləri üçün ümumi olan şəxs əvəzlikləri (22, s. 124) bu gün də həmin intensivliyini saxlayır.

Türkologiyada *bən* və *mən* əvəzliklərində birinci samit səslərin ilkinliyi ilə əlaqədar olaraq fikir müxtəlifliyi mövcuddur. Bəzi türk dillərində I şəxs əvəzliyinin *pən* variantı da olduğu qeyd edilir (22, s. 138).

Alimlərin böyük bir qrupu *bən* fonetik variantını daha qədim hesab edirlər (8, s. 8; 7, s. 70; 6, s.132). Vaxtilə böyük türkoloq M. Kaşğari *bən* və *mən* variantlarının paralelliyini qəbul edərək göstərmişdir ki, oğuzlar *bən* deyirlər, qıpçaqlar *mən* deyirlər. Əvəzliklərin Azərbaycan dili dialekt və şivələrində işlənməsini tədqiq etmiş M. İslamov da həmin fikri dəstəkləyərək göstərir ki, həmin əvəzliklərin paralelliyi bu gün də davam edir (12, s. 17). Tədqiqatçı C. Qəhrəmanov vaxtilə göstərirdi ki, Nəsimi "Divan"ında paralel fonetik variantlar çox səciyyəvidir (9, s. 10).

Bən//mən şəxs əvəzliklərində son *n* səsinə gəlincə çuvaş dilindəki *эве (мән)* şəxs əvəzliyi göstərir ki, ilkin olaraq bu əvəzliklərdə son *n* olmamışdır (20, s. 138). Bu əvəzliklərin hansının ilkinliyinə gəlincə, bunların hər ikisinin qədim olması fikrini biz də qəbul edirik, çünki hər iki qrup türk dili həm oğuz dilləri, həm də qıpçaq dilləri kifayət qədər qədim tarixə malikdir.

Türkologiyada *ol* şəxs əvəzliyini quruluşca *o* əvəzlik, *l* qüvvətləndirici vasitə hissələrinə ayırırlar(13, s. 136). Qeyd edək ki, III şəxs tək əvəzliyindəki l elementinin qüvvətləndirici funksiyaya malik olması fikrinə biz də haqq veririk. Azərbaycandilli nəzm materiallarında bu fikir özünü tamamilə doğruldur: ***Ol*** *səbəbdən farsi ləfzi ilə çoxdur nəzm kim, Nəzmi nazik turki ləfzi ilə ikən düşvar olur* (MF). Burada *ol* əvəzliyinin son *l* samiti işarə etməklə yanaşı, həm də ifadənin fikrin emosionallığını artırır.

Şəxs əvəzliklərinin yiyəlik və yönlük hallarında işlənməsi I şəxs təkdə *mən//bən* yiyəlik halda *bənim//bənüm, mənim* variantlarda işlənir: *Söyləyən həqdir* ***bənim*** *dilimdə hər dəm... Nalə qılması* ***bənim*** *ruhum, ya ölsünmü sevən?* (N.I82); *Ey* ***mənim*** *xurşidü mahim, ey çırağım, fanusum! Ey* ***mənim*** *nüqlüm, yenə həbbü nəbatü şəkkərim!..* (N.I150).

II şəxs təkdə *sənin* və *sənün* variantlarda sonda sağır nun *ŋ* fonemi ilə formalaşır: *Vücudiŋ lövhinə yazdum* ***səŋiŋ*** *eşqin hürufindən, Zəhi, ey münşiyi-inşa, bu nə sünü, nə inşadır?* (Lek.90); *Şəminə çün yanmadi pərvanətək zahid* ***səŋüŋ****, Qoy,* ***aniŋ*** *bağri qatidür çünki səŋgi-xarədən!* (N.II46); I şəxs təkdə *mən//bən, sən* əvəzlikləri yönlük halda sağır nunla-*ŋ* formalaşır: *maŋa, baŋa, səŋa* fonetik variantları yaranır: *Qaşıŋla kirpigiŋ vəhyi* ***maŋa*** *gəldi və bildirdi, Ki, sənsən ərş ilə kürsi yüzüŋ yazusi Qurandur!* (N.I306); **Saŋa** huri əgər bir gəz qalursa hüsnüni ərzə, Rüxüŋ qədrin əyan eylə, yüzüŋdən ani utandur (N.I307).

III şəxs təkdə ol əvəzliyinin tərkibində köklü dəyişmələr əmələ gəlir: *o→a, l→n* keçir, və nəticədə *an* əvəzliyi alınır ki, o da yönluk halda sağır nunla ŋ ifadə olunur: *aŋa* (fonetik formada) *Ey Nəsimi, dəmi-İsa degilsə nəfəsiŋ, Nəfəsi toğrular* ***aŋa*** *nə üçün can dedilər?*(N.I223).

I və II şəxsin təkində əvəzliklərin yönlük halda sağır nunla ŋ-la ifadə edilməsi, yəni *maŋa, baŋa, saŋa* şəklində formalaşması və çuvaş dilində *man, san* əvəzliklərinin mövcud olması belə bir güman yaradır ki, nə vaxtsa türk dillərində I və II şəxs təkdə *man, san* əvəzlikləri mövcud olmuşdur (13, s. 214). Q. X. İsxakovun bu gümanını Azərbaycan dilinin dialekt və şivələrində əvəzlik kateqoriyasını izləmiş M. İ. İslamov da müdafiə edərək göstərir ki, Azərbaycan, türkmən, özbək dillərinin dialekt faktları Q. X. İsxakovun ideyasını təsdiqləyir (13, s. 188). Türkoloq A. M. Şerbak *mana, sana* əvəzliklərində n samitini ilkin hesab edir, əksinə, çuvaş dilindəki *əbe (mən), əze (sən)* əvəzliklərini təzə sondan *n* samitinin düşmüş variantı olduğunu qeyd edir (26, s. 123).

Nəsiminin dilində *maŋa, saŋa, oŋa* şəklində işlənən əvəzliklərin mövcud olmasını M. İ. İslamovun dialekt materiallarında *manqa, sanqa, onqa* variantlarının olması da təsdiq edir. Müəllif bu əvəzliklərdəki *-qa* şəkilçisinin *qar* və *qaru* sözləri ilə əlaqəli olduğunu qeyd edir. Alimin fikrincə *maqa, saqa man* əvəzliyi+*qa* yönlük hal şəkilçisidir(12, s. 23). Nəticədə müəllif göstərir ki, *man, san* əvəzlikləri çox qədim dövrlərdə türk dillərində mövcud olmuşdur(12, s. 24). Qədim türk dillərində, eləcə də Azərbaycan dilinin yazılı abidələrində özünü göstərən *maŋa, saŋa* şəxs əvəzliklərinin kökü V. A. Boqoroditskinin göstərdiyi kimi, *man, san* əvəzlikləridir. *Maŋa, saŋa* əvəzliklərinə istiqamət şəkilçisi *-qa* artırılarkən əvəzlikdəki son *n* samiti ilə şəkilçidəki ilk *q* samiti uyuşmuş və nəticədə *maa, saa* əvəzlikləri yaranmışdır, yəni *man+qa=maŋa, san+qa=saŋa* (8, s. 25).

III şəxsin cəmində *olar, anlar* əvəzliyindən istifadə edilmişdir*: Zey-Zahid, gördülər həqqi* ***olar*** *kim, gördilər, Görmiyənlər gözləri kor oldi şöylə kim əma!* (N.I33); *Şək degil kim, yüzüni görməmiş* ***anlar*** *ki səni, Huriyə bənzədübən Yusifi-Kənan dedilər!* (N.I262)

Maraqlıdır ki, "Divan"ın "L" əzyazma nüsxəsində III səxsin cəmində *alar* variantından da istifadə olunmuşdur: *Şək degil kim, yüzüni görməmiş* ***alar*** *ki səni, Huriyə bənzədübən Yusifi-Kənan dedilər* (223,I).

Qədim uyğur abidələrində III şəxs cəmdə *olar* və *anlar* əvəzlikləri paralel işlədilmişdir. (29, s. 137). A. M. Şerbak X-XIII əsr Şərqi Türküstan materialları əsasında III şəxs həm təki, həm cəmində *an* əvəzliyinin tam paradiqmasını müəyyən edərək göstərir ki, *-lar* sonralar *an* əvəzliyinə əlavə edilməzdən əvvəl bu əvəzlik, yəni *an* III şəxsin həm təki, həm cəmi üçün işlədilmişdir(26, s. 125). Ən qədim forma olan *alar* bu gün qırğız, şor, tatar, başqırd dillərində işlədilir (27, s. 124; 22, s. 137).

2) Arxaik işarə əvəzlikləri: Nəsiminin "Divan"ında sadə şərti olaraq düzəltmə arxaik işarə əvəzliklərinə rast gəlirik.

a) Sadə arxaik işarə əvəzlikləri: "Divan"da rast gəndiyimiz *ol, oş//uş, şu, şol//şul, işbu, uşbu, üştə, uştə* sadə arxaik işarə əvəzliklərdir: *Andan bərü kim, eynimiz* ***ol*** *yüzüni gördi, Bir mu ilə asıldi canım qaldi maəllaq.* (N.I426)**;** ***Şol*** *ləbi-şirinə, Yarəbb, gər şəkər dersəm nola?!* ***Şol*** *günəş talətlü ayə gər qəmər dersəm, nola?!* (N.I50)**;** *Dilərmisən ki, sana əl verə təcəllilər, Gözüni uyuma özündən* ***şu*** *nəfsini oda at!* (Lek.32)**;** *Boyuŋi tubiyə səniŋ nisbət edən nə dil ola,* ***Uşbu*** *qərarla əcəb sərvi-rəvanmısan, nəsən?* (N.II31).

Bu gün Azərbaycan dilində tam arxaikləşmiş *şol, şu, şul, işbu, uşbu, üştə//uştə* Nəsimi dilində çox məqamlarda işarə etmə funksiyasını bildirsə də bəzi hallarda qüvvətləndirici ədat funksiyasında çıxış edir. Bu mənada *oş//uş* səs tərkibi xüsusilə fəaldır: *Gənci-nihan mənəm mən uş, eyni-əyan mənəm mən uş! Gövhəri-kan mənəm mən uş, bəhrəvü-kanə sığmazam!*(553 I).

"Divan"da işlənmiş *oşbu//uşbu* əvəzlikləri də xüsusi emosional məzmundan xali deyildir: *Canimi bir nigahilən aldi hərami gözlərin, Gör ki nə dürlü fitnələr* ***işbu*** *nigah içindədir!*(N.I143); *Ey zahid,* ***işbu*** *meydan faş oldi sirri-vəhdət, Tərk et ikiligi kim, yegrək imiş libasi* (Lek. 81); *Ey Nəsimi sübhdəm, billah,* ***şu*** *yarim xoşmudur?* ***Şol*** *həbibim, dilbərim, aləmdə varim, xoşmudur?* (N.I215); *Öldi eşqindən Nəsimi,* ***üştə*** *dünyadan gedər, Sən muradilə cəhandə sür, şahim, çox yaşlar!* (N.I343) .

Türkoloji ədəbiyyatlarda arxaik işarə əvəzlikləri haqda müxtəlif fikirlər mövcuddur. Oş*// uş* və onun fonetik variantları haqqında belə bir fikir var ki, bunlar müəyyən konkret bir əşyaya ünvanlanarkən işlənir (4, s. 417). *Şu* haqqında fikirlər daha müxtəlifdir: N. K. Dmitriyev göstərir ki *oşo* daha konkret işarədir. V. A. Qordilevski qeyd edir ki, *şu* gələcəkdə nəzərdə tutulan əşyaya işarə edir. A. N. Kononovun fikrincə *şu* vasitəsiz nitqi vasitəli nitqə çevirərkən istifadə olunur (14, s. 172).

Böyük bir alimlər qrupu hesab edir ki, *şu* yüksək ekspressiv emosional mənaya malik olub, bir əşyanı digərindən ayırmaq üçün işlədilir. Bir qrup alim belə fikir irəli sürür ki, *şu uş* ədatının tərkibində metateza hadisəsinin baş verməsi nəticəsində yaranmışdır (15, s. 137; 19, s. 14).

Türk dilləri əvəzlikləri üzrə mütəxəssis F. D. Aşnin yazır ki, *şu* çox qüvvətli və nəzər diqqəti çəkəcək bir əşyaya işarə edir (5, s. 105). Bu fikri əksər türkoloqlar müxtəlif türk dilləri materiallarına əsaslanaraq müdafiə edirlər; belə ki, türkmən dilində (26, s. 129), özbək dilində (24, s. 13), qaqauz, türk dillərində (19, s. 132) *şu* işarə əvəzliyi bu işarə əvəzliyinə nisbətən daha emosional, daha ekspressiv məna xüsusiyyətlərinə malikdir.

K. Dmitriyev qeyd edir ki, *şul//şol, bul* əvəzlikləri *şu+ol, bu+ol* quruluşuna malikdir (14, s. 173). X. Y. Suyunçev göstərir ki, *şul* əvəzliyindəki *l şunlar* əvəzliyindəki *l* səsinin assimilyasiyası nəticəsində *şullar→şul* meydana gəlmişdir (26, s. 129). A. N. Kononov yazır ki, *işbu* əvəzliyi müasir turk dilində əsasən təyin kimi – *işbu viza (başqa viza yox, məhz bu viza)* kimi işlənməkdədir (14, s. 173).

mün hansı şəxsə aid olduğunu bildirmək üçün artırılmış şəkilçilərdir. Şəxs iştirak etmədən də bu şəkilçilər vasitəsilə cümlədəki hökmün hansı şəxsə aid olduğunu bildirmək mümkündür... Fellərə artırılan şəxs şəkilçiləri iş və hərəkətin aid olduğu şəxsi bildirirsə, xəbərlik şəkilçiləri hökmün aid olduğu şəxsi göstərir" [4, 379]. Burada şəxs və xəbərlik şəkilçiləri arasındakı fərq məntiqi müqayisə yolu ilə aşkara çıxarılır ki, tədrisdə bundan istifadə şagirdləri oxşar hadisələr arasındakı fərqləndirici əlamətləri (bu əlamətlər cüzi olsa da belə) aşkara çıxartmağa istiqamətləndirir.

İsmə aid sonuncu təyinedici qayda—tərif ismin hal kateqoriyasına aiddir. Prof. M.Həsənov hal kateqoriyasının öyrədilməsinin nitq inkişafındakı rolundan danışarkən yazır: "Hal kateqoriyası, cümlədə sözlər arasında əlaqə yaratmaqla qrammatika tədrisində mühüm praktik əhəmiyyət kəsb edir. Belə ki, müxtəlif məna xüsusiyyətlərinə malik olan bu kateqoriyanın öyrədilməsi, hər şeydən əvvəl, şagirdlərin rabitəli nitqinin inkişafına, onlarda bir sıra üslubi vərdişlərin formalaşmasına kömək edir"(9,364).

Orta məktəb dərsliyində hal kateqoriyasına verilən tərif belədir: "İsimlər başqa sözlərlə əlaqəyə girərkən çox zaman qrammatik şəkilçilər qəbul edir və formaca dəyişir. ...İsimlərin bu cür dəyişməsi hallanma adlanır"(11, 37). Bu tərifdə qrammatik şəkilçilərin əsas vəzifəsi – sözlər arasında əlaqə yaratmaq ön plana çəkilmişdir ki, bu da tərifi öyrənərkən şagirdlərə həm keçmiş bilikləri təkrarlamağa, həm də tərifi şüurlu şəkildə mənimsəməyə kömək edir. Burada hallanmanın mahiyyətinin düzgün əks olunması, eyni zamanda, onun spesifik xüsusiyyətlərinin aşkara çıxarılması şagirdlərdə söz birləşmələri və cümlə qurmaq vərdişlərinin yaranmasında mühüm rol oynayır. Məhz buna görə də Q. K. Lidman-Orlova uşaq nitqinin sintaktik quruluşunun inkişafı üçün morfologiyanı əsas hesab edir: "... uşaq nitqinin sintaktik quruluşunu inkişaf etdirmək lazımdır. Bunun üçün morfologiya böyük imkanlar yaradır" (6,45-46).

Hal kateqoriyasının ümumi tərifindən sonra bu mövzu yalnız köməkçi-təsviri qaydalarla öyrədilir. Əvvəlki dərslikdə yiyəlik halın formaları öyrədilərkən bu qaydanın sonuna tərif də artırılırdı: "İsim yiyəlik halda –ın, -in, -un, ün (-nın, -nin, -nun, -nün) şəkilçisini qəbul edir. Lakin bu halın şəkilçisiz işlənən forması da var. Əvvəlincisi müəyyənlik bildirən, sonrakı isə qeyri- müəyyənlik bildirən yiyəlik hal adlanır"(10, 158-159).

Halların öyrənilməsində şagirdlər iki problemlə qarşılaşırlar: birincisi, şəkilçisiz hal formalarının adlıq haldan fərqləndirilməsi, ikincisi, hal şəkilçilərinin mənsubiyyət şəkilçiləri ilə omomorfemliyi. Hal-hazırkı dərslikdə bəzi mənsubiyyət şəkilçilərinin formaca ismin yiyəlik və təsirlik hal şəkilçiləri ilə eyniliyi qeyd olunur və nümunələr verilir, eləcə də, adlıq, qeyri-müəyyən yiyəlik və təsirlik hallarda olan sözlərin nəyi bildirdiyi və nə ilə bağlı olduğu göstərilir və onlara nümunələr verilir(bax: 11, 44-45). Təcrübələr göstərir ki, müqayisə üsulu tətbiq etmədən, oxşar halları və şəkilçiləri fərqləndirmək üçün konkret yollar təklif etmədən, daha doğrusu, şagirdləri müqayisəli düşünməyə sövq etmədən bu problemləri axıradək həll etmək mümkün deyildir.

Prof. M. Həsənov bu tipli problemlərin(məsələn, mübtəda ilə qeyri-müəyyən vasitəsiz tamamlığın fərqləndirilməsi) həlli üçün təlimdə ardıcıl fəaliyyət tələb edən fikri priyom olan alqoritmləşdirmədən istifadə etməyi məsləhət görür: "Alqoritm müəyyən bir qrup qaydaya aid faktlar üzərində əməliyyat aparmağı nəzərdə tutur.

Azərbaycan dili dərslərində bu təfəkkür priyomundan bir-birinə yaxın qaydaların öyrədilməsi zamanı istifadə olunur. Müəllimin müəyyən sistem xarakteri daşıyan sualları əsasında şagirdlər mühakimə yürüdür, müvafiq nəticələr çıxarırlar. ...Təcrübə göstərir ki, Azərbaycan dili məktəb kursunun bu və ya digər bəhsi üzrə qarşıya çıxan çətinlikləri alqoritmdən istifadə yolu ilə asanlıqla aradan qaldırmaq mümkündür" (9 ,90).

Əvvəlki dərslikdə bu problemin həlli üçün iki yol göstərilirdi. Bunlardan biri müqayisə, ikincisi əvəzetmə idi. Bu yolların hər ikisi uğirlu sayıla bilər. Faktları bir-biri ilə müqayisə etmək əqli inkişaf üçün yol açırsa, əvəzetmə informasiyanı genişləndirməyə, improvizasiya qabiliyyətini inkişaf etdirir. Qeyri-müəyyən yiyəlik hal müəyyən yiyəlik halla, qeyri-müəyyən təsirlik hal isə adlıq halla müqayisə edilirdi. Hal şəkilçilərinin mənsubiyyət şəkilçilərindən fərqləndirilməsi üçün samitlə bitən sözü saitlə bitən sözlə əvəz etməklə müqayisələr aparmaq tövsiyə olunurdu [bax: 10, 159-160; 164-166]

Prof. H. Balıyev isə bu problemin həlli üçün morfoloji təhlil, təmrinlər və linqvistik eksperimentdən istifadəni məsləhət görür (4, 378-379).

Fikrimizcə, ismə aid bu vacib məsələlər şagirdlərin nitq və təıfəkkürünü inkişaf etdirmək məqsədinə xidmət edən yollarla həll edilməlidir, yəni burada həm nəzəri izahata, həm də praktik çalışmalara yer verilməlidir. Problemin əsasını təşkil edən hal və mənsubiyyət şəkilçilərinin, eləcə də, qeyri-müəyyən yiyəlik halın fərqləndirilməsi şagirdlərin belə bir nəzəri biliyə yiyələnməsindən qaynaqlanmalıdır: *yiyəlik halda olan söz özündən sonra həmişə mənsubiyyət şəkilçili söz tələb edir və ya tərsinə, əgər sözdə mənsubiyyət şəkilçisi varsa, ondan əvvəl mütləq yiyəlik hallı söz işlənməlidir*. Məzmunun düzgün qavranılması əldə edilmiş biliklərin bacarıqlara çevrilməsi yolunda birinci addımdır. Bundan sonra çoxlu praktik işlər görülməlidir və bu zaman şagirdlərin fəallığı, tədqiqatçılıq qabiliyyəti artırılmalı, müəllimin rəhbərliyi ilə belə təmrinlər yerinə yetirilməlidir: "*Ana südü müqəddəsdir*" cümləsində "*ana*" sözü ona görə yiyəlik haldadır ki, o, özündən sonra işlənən "*südü*" sözü ilə bağlıdır; *"südü*" sözündəki "ü" ona görə mənsubiyyət şəkilçisidir ki, onu "*arzu*" sözü ilə əvəz etsək, -n bitişdirisi yox, -s qəbul edəcək: (ana) *arzusu* və b. k.

İsmə aid köməkçi-təsviri qaydalardan biri də düzgün yazı və düzgün tələffüz qaydalarının inkişafına xidmət edir; belə ki, bu əvvəlki dərsliklərdə bəzi ikihecalı isimlərdə son saitin düşməsi kimi izah edilirdi. Bu qaydaya görə bəzi ikihecalı sözlər var ki, onlara saitlə başlanan şəkilçi artırıldıqda söz kökünün son saiti düşür. Bu sözlər iki yerə bölünür: əsl Azərbaycan sözləri və alınmalar. Birincilərə yalnız mənsubiyyət şəkilçisi artırıldıqda bu hal baş verir: burun—burunun (pərləri)~ (filin) *burnu*. İkincilərə isə həm hal, həm də mənsubiyyət şəkilçisi qoşulduqda söz kökündən son sait düşür: *sinfin* (təmizliyi)~ XI "a" *sinfi*. Bu zaman burn və sinf sözlərini şərti olaraq kök kimi qəbul edirik. "Ağıl" sözü də birincilərə daxil edilir, lakin o, alınma sözdür. Bu qaydaların öyrədilməsindən praktik məqsəd kökündən sait düşən sözün düzgün yazılışını mənimsətməkdir, yəni "*İsmin altı halı var"* cümləsindəki birinci söz ayrılıqda *"isim*" şəklində yazılmalıdır.

İsmə aid sonuncu iş "İsmin morfoloji təhlil qaydası"dır. Bu, ismə aid bütün keçilmişlərin təkrarı və ümumiləşdirilməsidir. Ümumiyyətlə, dilin hər hansı bir bölməsini yekunlaşdırarkən linqvistik təhlilin aparılması qaçılmazdır. Bundan imtina

etmək sadəcə olaraq verilmiş biliklərin havada qalması, bacarıqlara çevrilməməsi deməkdir. Morfoloji təhlil aparılarkən şagird sanki qrammatik inşa yazır, ismin sualından başlamış onun cümlədəki vəzifəsinə qədər bütün bilikləri yada salır, sistemləşdirir, konkret şəkildə tətbiq edir,beləliklə, onun rabitəli nitqi inkişaf edir. Burada əsas diqqət ismin quruluşca növü, başlanğıc formasının müəyyənləşdirilməsi, hal və mənsubiyyət şəkilçilərinin göstərilməsinə yönəldilməlidir. Əgər isim qeyri-müəyyən yiyəlik və ya təsirlik haldadırsa, onun cümlədəki digər sözlərlə əlaqəsi unudulmamalıdır. Sonuncu məsələ şagirdlərin nitqinin üslubca zənginləşdirilməsinə stimul yaradır. Təhlil düzgün təşkil edildikdə şagirdlərin bilik və bacarıqları tam şəkildə üzə çıxarılır, onların təfəkkürü, müstəqil düşünmək, tədqiqatçılıq etmək, diqqəti bir nöqtəyə yönəltmək qabiliyyəti inkişaf etdirilir ki, bu da əslində hər şey deməkdir. Müasir interaktiv təlim metodlarının bilik və bacarıqları şagirdlərin aktiv fəallığı ilə meydana çıxartmağa yönəldiyinə diqqət yetirsək, məsələnin aktuallığı daha aydın görünər.

Ədəbiyyat

1. Б.Н.Головин. Основы культуры речи. М., « Высшая школа», 1988—320 стр.
2. B.A. Əhmədov . Ana dili dərslərində şagirdlərin nitqini inkişaf etdirmək yolları. Bakı, "Maarif", 1967.—109 səh.
3. E.Ə. İsmayılova. Yuxarı siniflərin ədəbiyyat dərslərində şagirdlərin nitqinin inkişaf etdirilməsi yolları—pedaqoji elmlər namizədi alimlik dərəcəsi almaq üçün təıqdim edilmiş dissertasiya. Bakı, 2007—127 səh.
4. H. B. Balıyev. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. ADPU-nun mətbəəsi, Bakı, 2003.—422 səh.
5. G. A. Abdullayeva. İbtidai siniflərdə şagirdlərin nitqinin ifadəliliyi üzrə işin sistemi. – pedaqoji elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2010—168 səh.
6. Развитие речи на уроках морфологии. «Просвещение», М., 1979.—176 стр.
7. Л.П.Федеренко. Принципы и методы обучения русскому языку. «Просвещение», М., 1964—252 стр.
8. M C.Həsənov. Seçilmiş əsərləri, I cild, «Elm və təhsil", Bakı, 2010—368 səh.
9. M.C.Həsənov. Seçilmiş əsərləri, II cild, ADPU nəşri, Bakı, 2012—430 səh.
10. Ə.R.Əfəndizadə, B.A. Əhmədov. Azərbaycan dili 5-ci sinif üçün dərslik. "Təhsil" nəşr. Bakı, 2000.—272 səh.
11. R. İsmayılov, F. Ellazov. Azərbaycan dili. 6-cı sinif üçün dərslik. "Altun kitab", Bakı, 2006—128 səh.
12. Ə.A.Fərəcov. Qrammatik məfhum və onun mənimsənilməsinin bəzi məsələləri. "Maarif", Bakı, 1970—133 səh.
13. В. Г. Фарбер. О логических средствах школной грамматика.—«Логико-грамматические очерки». «Высшая школа», М., 1961.—258 стр.
14. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ana dili fənni kurikulumu (V-XI siniflər) –"Azərbaycan dili və ədəbiyyatı tədrisi", №3, 2010.
15. A. S. Abdullayev . Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. "Maarif", Bakı, 1978—278 səh.

16. Orta məktəbdə Azərbaycan dilinin tədrisi , II hissə, "Maarif", Bakı, 1977—294 səh.
17. A.T.Əliyeva. Azərbaycan dili dərslərində interaktiv təlim metodlarından istifadənin xüsusiyyətləri. Metodik vəsait. "Mars-Print" nəşriyyatı, Bakı, 2005—80 səh.

Lachın Asgerli

Role of grammatical rules of nouns in formation of learners' speech

Summary

In the article "Role of grammatical rules of nouns in formation of learners' speech" deals with the problem of grammatical rules in development of learners' speech. As a result of research, we come to a conclusion that in order to cope with this task it is necessary to use subsidiary-visual materials and aids. Learning of grammatical rules help the learners to create the skills to learn to read and write correctly.

Лачын Аскерли

Роль грамматических правил существительных в формировании речи учащихся

Резюме

В статье говорится о роли грамматических правил в развитии речи учащихся. В результате исследования приходится к выводу, что с этой целью надо использовать вспомогательно-визуальные материалы. Изучения грамматических правил помогают учащимся вырабатывать умения правильно читать и писать.

Rəyçi: Mehdi Rəhimov
filologiya üzrə fəlsəfə doktoru, dosent

TÜRKAN MUSTAFAYEVA
ADPU
turkan@mail.ru

MAHMUD KAŞĞARİNİN "DİVANÜ LÜĞAT-İT-TÜRK" ƏSƏRİ VƏ MÜASİR AZƏRBAYCAN DİLİNİN FONETİKASI

Açar sözlər: Fonetika, Fonim, sait fonemlər, samit fonemlər, "Divani lügət-it-türk" ahəng qanunu fonetik hadisələr.
Key words: Phonetics, phonemes, vowel phonemes, consonant phonemes, "Divani Lugat-it-Turk" ("Divan of Turkish language"), vowel of harmony, phonetic cases.
Ключевые слова: фонетика, фонемы, гласные фонемы, согласные фонемы, «Дивани лугат ит тюрк», сочетательный закон, фонетические процессы.

Müasir Azərbaycan dilinin fonetik quruluşu uzunmüddətli tarixi inkişafın məhsulu olub, özünəməxsus xüsusiyyətlərə malikdir.Bu xüsusiyyətləri hər tərəfli şəkildə araşdırmaq, tədqiq etmək üçün tarixi yazılı abidələri nəzərdən keçirib, fonetik cəhətdən təhlil etmək vacib məsələlərdəndir. Belə yazılı abidələrdən biri də türk dünyasının ən böyük alimlərindən biri olan Mahmud Kaşğari tərəfindən qələmə alınmış, orta türk dövrünün incisi sayılan "Divanü lüğat-it-türk" əsəridir (lüğətidir). Bu əsərin müasir dilimizlə fonetik cəhətdən müqayisəli şəkildə hər tərəfli tədqiqi müasir Azərbaycandilinin fonetikasının tədqiqində qarşıya çıxan bir sıra problemlərin və mübahisələrin həllinə yardımçı ola bilər. "Fonetika dilçilik elminin dil səslərinin əmələ gəlməsini, onların bir- birinə münasibətini, onların fiziologiyasını, keyfiyyət və kəmiyyətini, nitq prosesindəki funksiyasını, keyfiyyət və kəmiyyətində baş verən dəyişikliklərin səbəb və təbiətini və bu kimi bir çox əlamətlərin qanunauyğunluqlarını öyrənən sahəsidir" (7,8). Tərifdən də aydın olduğu kimi, fonetika məhz dildəki danışıq səslərindən bəhs edir. Hər bir dilin özünəməxsus səs sistemi vardır. Heç bir dildə hətta oxşar səslər də tam eyniyyət təşkil etmir. Dilin öyrənilməsi onun fonetikasında mövcud olan səslərin öyrənilməsindənbaşlayır desək, heç də yanılmarıq. Dilçilərin fikrincə fonetikanın həm nəzəri, həm də əməli əhəmiyyəti vardır. "Dil dəyişdikcə, dildəki səslərdə də az-çox dəyişiklik ola bilir. Cəmiyyətin inkişafı ilə əlaqədar olaraq dəyişən dilin maddi vasitəsi olan səslərin dəyişməsi, dilin bir sıra fonetik qanun və hadisələrinin dəyişməsinə, hətta yeni fonetik qanunların yaranmasına səbəb ola bilər. Məhz buna görə də dili həm əməli məqsədlə öyrənmək üçün, həm də onu nəzəri məqsədlərlə tədqiq etmək üçün onun maddi hissəsini, yəni səsləri bilmək və səslərlə əlaqədar bir sıra hadisələri və qanunları başa düşmək zəruridir. Sadə şəkildə desək, əlifba düzəltmək və orfoqrafiya qaydalarını tənzim etmək, həm də bunları təlim etmək, düzgün tələffüz əsaslarını müəyyənləşdirmək və öyrətmək, başqa dilləri öyrənmək, loqopedləri təlim etmək və daha bir sıra sırf əməli məqsədlər üçün dilin səslərini və fonetik qanunlarını öyrənmək çox zəruridir. Bunlar eyni zamanda səslərin dəyişmə, əvəzlənmə, artma və düşmə qanunlarını, tarixi inkişaf yollarını nəzəri cəhətdən tədqiq etmənin zəruriliyini doğurur. Bundan başqa, dillərin tarixi tədqiqində tətbiq olunan müqayisəli tarixi üsul daha çox tarixi fonetikaya əsaslanır, bu isə qohum dillərin tərkibinin öyrənilməsi zərurətini bir daha aydın göstərir"(2,11-12).

Bildiyimiz kimi, fonetika ümumilikdə danışıq səslərini tədqiq edir. Danışıq səsləri isə sözdə məna fərqi yarada bilmək baxımından müxtəlif olurlar. Sözlərdə məna fərqi yarada bilən danışıq səsləri fonemlər adlanır. Müasir Azərbaycan dilinin uzunmüddətli tarixi inkişafının məhsulu olan fonemlər tərkibi vardır. Onu da qeyd edək ki, müasir Azərbaycan dilindəki fonemlər digər qohum dillərlə, yəni digər türk dilləri ilə əlaqədar şəkildə təşəkkül tapmış və get-gedə təkmilləşmişdir.

"Müasir Azərbaycan ədəbi dilində, əsasən 33 fonem vardır. Bu səslər, fonemlər azərbaycanca fikrin ifadəsini tamamilə təmin edir.

Dilimizdəki fonemlər kəmiyyət və keyfiyyətcə bir-birindən fərqlənir. Buna görə də bir sıra başqa dillərdə olduğu kimi, Azərbaycan dilinin də fonemləri əmələgəlmə və səslənmə fərqlərinə görə iki yerə bölünür: a)saitlər; b)samitlər.

Dilçilikdə saitlər sistemi vokalizm, samitlər sistemi isə konsonantizm adlanır" (6,70).

Onu da qeyd etmək lazımdır ki, fonem məsələsi, onların miqdarı, xüsusiyyətləri dilçiliyimizdə, türkologiyada, ümumiyyətlə dünya dilçiliyində geniş mübahisələrə səbəb olmuş dil faktlarındandır.

Məsələn, müasir dilimizdə sait fonemlər içərisində özünəməxsus yer tutan e saitinin, foneminin qədim dilimizdə, ümumiyyətlə qədim türk dillərində mövcud olub-olmaması dilçilər arasında mübahisələrə səbəb olmuşdur.

"Türk dillərində saitlərin sayı barədə V.V.Radlov, A. fon Qaben, Y.Nemeth, Y.Krımski, A.Lekok və başqaları müxtəlif fikirlər söyləmişlər. Məsələn, V.V.Radlov "Türk vokal sisteminin tarixi" adlı məqaləsində və "Şimali türk dillərinin fonetikası" adlı əsərində türklərin tarixən istifadə etdikləri əlifbalarında səslərin necə əks olunmasını araşdıraraq bu qənaətə gəlmişdir ki, əski türkcədə 8 sait vardır: a, ə, o, ö, u, ü, ı,i.Müəllif "Qədim türk dili dərsləri" adlı əsərində bu sistemə 9-cu vokal kimi e səsini də əlavə etmişdir.

Türk dilləri üzrə məşhur mütəxəssislərdən B.A.Serebrennikov və N.Z.Hacıyeva əski türkcədə e səsinin varlığını qəbul etmirlər.

Türkcənin sait fonemləri ilə bağlı türkoloqlardan Y.Qruntselin, V.A.Boqoroditskinin, A.M.Şerbakın, A.N.Kononovun, M.A.Çerkasskinin və başqalarının bir çox sanballı əsərləri vardır.Bütün bunlara əlavə olaraq türk dillərinin müqayisəli-tarixi qrammatikasından bəhs edən bəzi kollektiv əsərləri də göstərə bilərik" (4,344).

Göründüyü kimi, qədim türk dillərində, o cümlədən qədim Azərbaycan dilində e səsinin, foneminin varlığı mübahisəli olmuş, bəzi dilçilər onun varlığını qəbul etmiş, bəziləri isə bu fonemin varlığını inkar etmişlər. E foneminə bu cür yanaşma Mahmud Kaşğarinin "Divan"ını tədqiq edən dilçilər arasında da özünü göstərmişdir. Bu tədqiqatçılardan bəziləri"Divan"da, ümumiyyətlə orta türk dövrünün başlanğıcına aid yazılı abidələrdə e səsinin olmadığını söyləmişlər. Bu fikrin tərəfdarları öz fikirlərini sözlərin ərəb əlifbası ilə yazılışı zamanı istifadə edilən kəsrənin varlığı ilə əsaslandırmağa çalışırlar. Eyni zamanda müasir dövürdə e ilə tələffüz edilən sözlərin böyük əksəriyyəti "Divan"da fəthə ilə verilmişdir. Kəsrə işarəsinin i səsini ifadə etməsi, həmin dövürdə i səsinin öz intensivliyinə görə e səsindən qat-qat üstün olması, i-e variantlılığının isə daha sonrakı dövürlərdə sabitləşməsi bu dilçiləri e səsinin türk dillərində sonradan yarandığı fikrinə gətirib çıxarmışdır. Lakin məsələni bir qədər geniş şəkildə araşdırsaq "Divan"da e səsinə bu cür yanaşmanın ərəb əlifbası ilə bağlı olduğunu aydınca görə bilərik.Bu vəziyyət həmin dövürdə ərəb

qrafikalı türkcə yazıda vahid imla qaydalarının oturmaması ilə bağlı olmuşdur. Həmin dövrün ədəbin dili sayılan Xaqaniyyə türkcəsində e səsinin varlığı, eyni zamanda "Divan"la eyni dövürdə yazılan "Qutadğu Bilig"də, həmçinin orta türk dövrünün daha sonra qələmə alınmış digər yazılı abidələlərində e səsinin, foneminin varlığının dəqiq şəkildə təsbit edilməsi e foneminin "Divan"da da mövcud olduğunu göstərən əsas faktlardandır (4,345-346).

Onu da qeyd etmək lazımdır ki, e səsinin müasir dilimizdəki əsl Azərbaycan söz köklərində digər sait fonemlərə nisbətən az işlənməsi, şəkilçi tərkibində demək olar ki, işlənməməsi sanki onun dilimizdə sonradan yaranması fikrini təsdiqləyir (2,50-57). Qeyd etdiyimiz bu vəziyyət dilimizin başqa bir sait fonemi olan ö səsində də özünü göstərir, yəni ö fonemi də e fonemi kimi əsl Azərbaycan söz kökləində digər sait fonemlərə nisbətən az işlənir və şəkilçi tərkibində təsadüfi hallarda mövcud olur. Lakin ö fonemində özünü göstərən bu hal e fonemindən fərqli olaraq onun qədim dilimizdə varlığına heç bir şübhə yaratmır.

Beləliklə, bütün bu fikirlərə əsaslanaraq belə bir nəticəyə gələ bilərik ki, e fonemi müasir dilimizdə olduğu kimi qədim dilimizdə də, o cümlədən Mahmud Kaşğarinin "Divan"ında da mövcud olmuşdur.

Fonetikamızda mübahisəli məsələlərdən biri də dilimizdə, ümumiyyətlə bütün türk dillərində uzun sait fonemlərin olub-olmaması ilə bağlı məsələdir. Bu məsələ üzrə dilçiliyimizdə iki müxtəlif fikir mövcuddur. Belə ki, dilçilərimizin bir çoxu Azərbaycan dilində uzun fonemlərin olmadığı fikrinin tərəfdarıdırlar. Bununla bərabər dilimizdə uzun fonemlərin varlığını qəbul edən dilçilərimiz də vardır.

Dilimizdə uzun saitlərin, fonemlərin varlığını qəbul etməyən dilçilərimizdən, alimlərimizdən biri də Ə.Dəmirçizadə olmuşdur: "Kəmiyyətə görə saitlər üç növdür: adi saitlər, uzun saitlər və qısa saitlər. Azərbaycan ədəbi dilində tam sabitləşmiş, fonem keyfiyyəti kəsb etmiş uzun və qısa saitlər yoxdur" (2,45).

Lakin şivələrdə belə saitlər olduğu kimi, ədəbi tələffüzdə də orfoepik normalar ilə müəyyən dərəcədə bağlı olan uzanmalar və qısalmalar, daha doğrusu, saitlərin uzun və qısa variantları mövcud dur.

Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, müasir Azərbaycan ədəbi dilində ədəbi tələffüz də saitlərin kəmiyyətcə fərqlənməsi ayrı-ayrı sözlərin mənaca fərqləndirilməsinə əsas səbəb ola bilmir. Lakin bir sıra dillər var ki, (türkmən, alman, ingilis və s. dillərdə) sait səslərin kəmiyyət dəyişməsi ilə birgə olaraq sözün mənası da dəyişir.

Azərbaycan dili şivələrində bəzən kəmiyyətcə fərqlənməyə görə sözlərin mənaca fərqlənməsi hadisəsinə rast gəlmək olur. Buradan aydın olur ki, kəmiyyətcə fərqlənən səslər Azərbayan şivələrində vardır. Hətta, belə uzun saitlərə ədəbi dildə işlənən bəzi alınma sözlərin orfoepik norma əsasında tələffüzündə də yol verilir. Həmin sözlərin tərkibində olan belə səslər ədəbi tələffüz normalarına görə uzun tələffüz edilir. Bu səslərin həmin sözlərdə adi kəmiyyətdə tələffüzü mənaya ciddi xələl gətirmir. Ə.Dəmirçizadə belə faktların əsasən orfoepik və orfoqrafik mahiyyətli olduğunu, sözdə əsaslı məna dəyişikliyi ilə əlaqədar olmadığını göstərir. Buna görə də uzun və qısa saitləri müasir Azərbaycan ədəbi dilində tam fonem saymır (2,45-46).

Dilimizdəki, ümumiyyətlə türk dillərindəki uzun saitlərin varlığını qəbul edən dilçilər, tədqiqatçılar uzun saitlərdən bəhs edərkən uzunluq xüsusiyyətinin iki cəhətini qeyd edirlər: 1)ilkin uzanma;

2) sonrakı uzanma (1,71).Bu məsələ haqqında bir neçə fikrə nəzər salaq. Məsələn, ilkin və sonrakı uzanmadan bəhs edərkən M.Şirəliyev yazır: "Məlum olduğu üzrə, türk dillərində uzun saitlər mənşə etibarı ilə iki qismə ayrılır: 1)ilkin uzanma; 2)sonrakı uzanma.

İlkin uzanma daha qədim dövürlərə aiddir. Bunun əmələ gəlmə səbəbləri dilin sonrakı inkişaf tarixi ilə izah edilə bilmir.

İlkin uzanmaya türkmən və yakut dillərində daha çox təsadüf edilir. Azərbaycan dilinin dialekt və şivələrində isə ilkin uzanma çox zəif halda bəzi sözlərdə özünü göstərir.

Sonrakı uzanma isə türk dillərində daha geniş yayılmışdır. Sonrakı uzanma müəyyən samitin düşməsi nəticəsində meydana gəlir.Azərbaycan dilinin dialekt və şivələrində də sonrakı uzanmaya daha geniş yer verilir" (8,25).

Bu barədə A.Axundovun fikri isə belədir: "Biz də Azərbaycan dilində uzun saitlərin müstəqil fonemlər olması fikrinə tərəfdarıq.

Müasir Azərbaycan ədəbi dilindəki ilkin uzanma, birinci növbədə, alınma sözlərə aiddir.

Azərbaycan dilindəki bütün uzun saitlər sonrakı uzanma nəticəsində meydana gəlmişdir "

(1,71)

F.Q.İsxakovun türk dillərində uzun saitlər barədə fikri də maraq doğurur: "Azərbaycan, qırğız, türk, altay, xakas, şor, tuvin dillərindəki uzunluq bu dillərin hər birinin fonetik xüsusiyyətlərinə uyğun olaraq yaranmış sonrakı uzanmadır, eyni zamanda Azərbaycan və türk dillərində onlar demək olar ki, yalnız alınma, xüsusən ərəb və fars dillərində alınmış sözlərə aiddir ki, həmin dillərin Azərbaycan və türk dillərinin fonetikasına yad olan samitləri türkmən dilində olduğu kimi düşür və bunun nəticəsində həmin dillərdə uzun sait səs əmələ gəlir" (5,165).

Göründüyü kimi, hər üç müəllif Azərbaycan dilində (eləcə də digər türk dillərində) sonrakı uzanma nəticəsində meydana gəlmiş uzun saitlərin varlığı fikrindədirlər.

Mahmud Kaşğarinin "Divan"ında uzun saitlərin var olub-olmamasına gəldikdə isə, qeyd etmək lazımdır ki, "Divan"ın tədqiqi ilə məşğul olan dilçilər bu barədə ortaq fikrə gələ bilməmişlər. Bu tədqiqatçılardan bəziləri "Divan"da uzun saitlərin mövcud olduğunu, bəziləri isə mövcud olmadığını söyləmişlər. Onu da vurğulamaq lazımdır ki, "Divan"da uzun saitlərin mövcudluğunu qəbul edənlər çoxluq təşkil edir. Məsələn, Robert Dankoff, Ceyms Kelli, Sərap Tuğba Yurtsevər, Seçkin Ərdi, T.A.Borovkova, Ə.B.Ərcilasun, İ.R.Meyer, Tələt Təkin bu fikirdə olan alimlərdəndirlər. Bu alimlərin əksəriyyətinin fikrincə, "Divan"da müasir dilimizdən fərqli olaraq sonrakı uzanma deyil, ilkin uzanma mövcud olmuşdur. "Divan"da uzun saitlərin varlığını qəbul edən dilçilər, tədqiqatçılar ərəb əlifbasının təsirini nəzərə almamışlar. Mahmud Kaşğari "Divanü lüğat-it-türk" əsərini əsərdə özünün də qeyd etdiyi kimi, ərəblərə türkcə öyrətmək məqsədi ilə yazmış, sözsüz ki, ərəblərin bu dili daha yaxşı başa düşmələri üçün lüğəti ərəb qrammatikası qaydalarına uyğun şəkildə qələmə almış və bu zaman ərəb terminlərindən istifadə etmişdir. Bildiyimiz

kimi, ərəb dili yazıda yalnız samitlərə və uzun saitlərə əsaslanır, qısa saitlər isə hərəkələr (fəthə, kəsrə və zəmmə- bunlar qısa a/ə, e, u/ü, o/ö, ı/i hərflərini əvəz edirlər) vasitəsi ilə ifadə olunur. Bu da türk sözlərinə uyğun gəlmir və onların yazılışında əhəmiyyətli dərəcədə çətinlik törədir. Sözdə məhz hansı saitin olduğunu müəyyənləşdirmək çətinləşir. "Divan"dakı sözlərin yazılışı zamanı ərəb əlifbasında uzun a, uzun u, uzun i səslərini bildirən əlif, vav, ye-dən də istifadə edilmişdir.

Mahmud Kaşğari əsərində türk dillərində uzun saitlərin mövcudluğu barədə xüsusi olaraq heç nə deməmişdir. O,türk dilləri üçün həm imlada, həm də tələffüzdə qısalığın daha doğru olduğunu söyləmişdir. Doğrudur əsərin bəzi yerlərində "uzun tələffüz edilən incə səsli sözlər" ifadəsinə rast gəlirik. Lakin Mahmud Kaşğari bunu uzun səsləri deyil, əsasən ö və ü səslərini nəzərə çarpdırmaq məqsədi ilə qeyd etmişdir.

Beləliklə, "Divan"da uzun saitlər məsələsini qeyd-şərtsiz qəbul etmək mümkün deyil. "Divan"da, ümumiyyətlə türk dillərində bu mövzunun geniş şərhinə ehtiyac var (4,17-20). Qeyd etdiyimiz kimi, dilimizdəki səslər, fonemlər sait və samitlərdən ibarətdir. Müasir dilimizdəki samit fonemlərlə Mahmud Kaşğarinin "Divan"ındakı samitlər arasında bəzi fərqlər özünü göstərir. Bu fərqlərdən birincisi sağır nundur (nq). Mahmud Kaşğarinin "Divan"ında sağır nun ən əsas səs və hərflərdən biridir. Müasir uyğur, tatar,başqırd və digər türk dillərində bu fonem səs kimi tələffüzdə, hərf kimi isə əlifbada xüsusi mövqeyə, rola malikdir. Mahmud Kaşğari sağır nun (nq) başqa millətlərin tələffüz edə bilmədiyini göstərmişdir. Bu səs, fonem uzunmüddət dilimidə mövcud olmuş, hətta əlifbamızda da özünə yer tapmışdır. A.Axundov bu səsi müstəqil fonem kimi samit fonemlərimizin arasına daxil etmişdir. Lakin müasir dövürdə bəzi başqa türk dillərində olduğu kimi, müasir Azərbaycan dilində də sağır nun sıradan çıxmışdır.Lakin bu fonem ədəbi dilimizdə olmasa da, dialektlərimizdə (qərb qrupu dialektlərində), canlı danışıq dilində işlədilir. Dialektlərdə işlənən sağır nun n foneminin çaları kimi çıxış edir. Bu zaman hər iki söz, yəni ədəbi dildə n, dialektdə isə n fonemi əvəzinə nq fonemi ilə işlənən sözlər eyni məfhumu ifadə edir. Deməli, burada nq səsi müstəqil fonem kimi çıxış edərək, məna fərqi yarada bilmir. Lakin Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" əsərində sağır nunlu (nq) sözlə n fonemi olan söz tamamilə ayrı-ayrı sözlərdir və fərqli məfhumları ifadə edirlər. Onu da qeyd edək ki, "Divan"da söz əvvəlində sağır nun işlənməmişdir. "Divan"la müasir dilimizdəki samit fonemlər arasında özünü göstərən ikinci fərq isə v ilə f arasında tələffüz edilən və ərəb qrafikası ilə üç nöqtəli f şəklində yazılan hərfdir. Ramiz Əskər bu hərfi w kimi vermişdir.

Buradakı fərqli cəhətlərdən biri də "Divan"da mövcud olan dh hərfi və səsidir ki, bu da müasir dilimizdə yoxdur. "Divan"dakı dh səsli, hərfli sözləri nəzərdən keçirdikdə aydın olur ki, bu səs müasir dilimizdəki y səsinə yaxın bir fonemdir.

Müasir Azərbaycan dilindəki samit fonemlərlə "Divan"dakı samitlərin bir fərqi də ondadır ki, müasir dilimizdə müstəqil fonem kimi işlənən c və q səsləri "Divan"da yoxdur. Həmçinin, müasir dilimizdən fərqli olaraq "Divan"da j fonemi ilə başlayan söz yoxdur, h və x fonemləri ilə başlayan sözlər də olduqca azdır.

Mahmud Kaşğarinin əsərinin fonetikası ilə müasir dilimizin fonetikası yalnız fonem cəhtdən deyil, həm də dilimizdə özünü göstərən bir sıra fonetik hadisələrlə də müqayisə oluna bilər. Belə ki, müasir dilimizdə geniş şəkildə özünə yer tapmış fonetik hadisələr (səs əvəzlənməsi, səs artımı, səs düşümü, yerdəyişmə və s.) "Divan"da da özünü göstərir. "Divan"dakı fonetik hadisələrdən danışarkən, onu da

qeyd etmək lazımdır ki, Mahmud Kaşğari türk dil və ləhcələri arasındakı fərqləri bəzi hərf (fonem) dəyişməsindən əmələ gəldiyi fikrini irəli sürür. Onun fikrincə əsl dildə fərqlər az olur, fərqlər, əsasən bir qrup hərfin yerinə başqa hərflərin işlənməsi, yaxud tamamilə atılması nəticəsində ortaya çıxır. Məsələn, oğuzlar və qıpçaqlar y ilə başlayan bütün isim və fellərin ilk hərfini əliflə, yaxud ç ilə əvəz edirlər. Arğular sözün ortasında və ya sonundakı y hərfini n hərfi ilə əvəz edirlər. Sözün əvvəlindəki m hərfini suvarlar, oğuzlar, qıpçaqlar b hərfi ilə əvəz edirlər. Oğuzlar və onlara yaxın olanlar sözdəki t hərfini d ilə əvəz edir. F ilə b arasında tələffüz edilən w hərfi oğuzlarda vav hərfi ilə əvəz olunur. Yağma, toxsı, qıpçaq, yabaku, kay, çomul və oğuzlar z hərfini həmişə y-yə çevirirlər və heç vaxt dh kimi tələffüz etmirlər. Xotənlilər və kənçəklər sözün əvvəlindəki əlifləri h ilə tələffüz edirlər. Bəzən r hərfi l-ə, z hərfi s-yə, s hərfi z-yə çevrilir. Zaman və məkan bildirən isimlərin sonundakı ğ-lər oğuzlar tərəfindən əlifə çevrilir. İsimlərdə və fellərdə hərəkətin davam etdiyinə dair bəlgə varsa, sözün ortasındakı ğ hərfini oğuzlar da, qıpçaqlar da atırlar. Yığcamlıq naminə eynən bunun kimi, isim və fellərdə ğ hərfinin yerində işlənən ke hərfini də atırlar. Mahmud Kaşğari "Divan"ında qeyd etdiyi bu faktlara aid çoxlu sayda nümunə verərək, həmin dövürdə türk dillərində özünü göstərən fonetik hadisələri əyani şəkildə nümayiş etdirmişdir. Yuxarıda sadalanan faktlardan da aydın göründüyü kimi, "Divan"da səs əvəzlənmələri digər fonetik hadisələrə nisbətən daha çox müşahidə olunur (b-m, y-z, p-m, g-h, y-ç, t-d, ğ-nq, ə-ö və s.)

Onu da qeyd edək ki, Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk"də göstərdiyi bu fərqlərin əksəriyyəti müasir türk dillərində də özünü göstərən faktlardandır. Məsələn, Türkiyə türkcəsində işlənən yıl və bən sözləri dilimizdə il və mən kimi işlənir. Göründüyü kimi, yıl sözündəki y səsi düşmüş ı səsi isə i səsi ilə əvəz olunmuş, bən sözündəki b səsi isə m səsi ilə əvəz olunmuşdur. Yuxarıda göstərdiyimiz kimi, Mahmud Kaşğari söz əvvəlində y səsinin düşməsini və eynən söz əvvəlində b səsinin m səsi ilə əvəz olunmasını məhz oğuzlara xas bir xüsusiyyət kimi göstərir. "Divan"da verilən sözlərin böyük əksəriyyəti müasir dilimizdə ya eynən "Divan"da olduğu kimi, ya da müəyyən dəyişikliyə (fonetik, morfoloji, semantik) uğramış şəkilda işlənməkdədir. Bu sözlərin əksəriyyəti məhz fonetik dəyişikliyə uğramış sözlərdir. Məsələn, "Divan"da ğ hərfi ilə bitən bəzi sözlər müasir dövürdə ğ-sız işlənir. Burada y səsi ilə başlayan bir qrup sözlər müasir dilimizdə y-sız işlənir və çox zaman bu samitdən sonra gələn saitlər qalınlaşır. Bəzi sözlərdə cingiltili d səsi kar t ilə, g səsi k ilə əvəz olunur. "Divan"da dilarxası kipləşən qalın ka səsi müasir dilimizdə q səsi ilə ifadə olunur. Müasir dilimizdə x səsi ilə ifadə olunan sözlərin çoxu "Divan"da qalın k ilə işlənir və s. Ümumiyyətlə, dilimizdəki belə sözləri fonetik hadisələr üzrə beş qrupa ayıra bilərik:

1) Qapalalogiya (heca düşümü) nəticəsində dəyişən sözlər: yoğurkan-yorğan, yorınca-yonca, bıdhık-bığ və s.

2) Proteza (səs artımı) nəticəsində dəyişən sözlər. Belə sözlərdə samit artımı saitlərə nisbətən çoxdur. Bunlara azuk-azuqə, pamuk-pambıq, örük-hörük, bu-buğ, çəkürkə-çəyirtikə və s. sözləri nümunə göstərə bilərik. Burada, əsasən söz əvvəlində v, h söz ortasında b, l, m, n, r, t söz sonunda isə b, v, q, ğ, k, y samitlərinin artımı müşahidə olunur.

3) Eliziya (səs düşümü) nəticəsində dəyişən sözlərdə də samitin düşməsinə daha çox təsadüf olunur. Söz əvvəlində ən çox y səsi və bəzən də b və s səsləri dü-

şür. Söz ortasında q, ğ, k, x, m, r söz sonunda isə ğ, k, y, f, v səs düşmələrinə təsadüf olunur. Sözdə saitlərin düşməsinə gəldikdə isə deyə bilərik ki, burada, əsasən qapalı saitlərin düşdüyü görünür. Səs düşümü nəticəsində dəyişən sözlərə yorığa-yorğa, yulduz-ulduz, bolmak-olmaq, kapuğ-qapı, buğday-buğda və s. sözləri nümunə göstərə bilərik.

4) Metateza (yerdəyişmə) nəticəsində dəyişən sözlərdə, əsasən lr-rl, pr-rp, mr-rm kimi yerdəyişmələr özünü göstərir. Məsələn, təprənmək-tərpənmək, gülrəmək-gurlamaq və s.

5) Səs əvəzlənməsi nəticəsində dəyişən sözlər digərlərinə nisbətən olduqca çoxdur. Məsələn, yakın-yaxın, bən-mən, kurun-qurum, kağun-qovun, av-ov və s. Yuxarıda da qeyd etdiyimiz kimi, "Divan"da özünü göstərən səs əvəzlənmələrinin əksəriyyəti müasir dilimizdə də müşahidə olunur. Demək olar ki, müasir dilimizdə fonetik dəyişikliyə uğrayaraq işlənən sözlərin böyük bir hissəsi məhz bu cür dəyişən sözlərin payına düşür.

Bütün bu deyilənlərlə yanaşı, onu da xüsusi olaraq vurğulamaq lazımdır ki, "Divan"da müasir Azərbaycan dilinin, ümumiyyətlə türk dillərinin əsas fonetik qanunu olan ahəng qanununa ciddi şəkildə riayət olunur. Beləki, burada ahəng qanunun hər üç növü (saitlərin ahəngi, samitlərin ahəngi, saitlərlə samitlərin ahəngi) özünü göstərir. "Divan"da ahəng qanununun pozulmasına çox az hallarda təsadüf edilir. Bu da (ahəng qanununun pozulması) əsasən bəzi şəkilçilərin ərəb əlifbası ilə dörd deyil, bir variantlı yazılması ilə bağlıdır. "Divan"da ahəng qanununa nə qədər ciddi yanaşıldığını anlamaq üçün türk dillərində ahəng qanununun ilk dəfə Mahmud Kaşğari tərəfindən müəyyən edilməsini demək kifayətdir.

Ədəbiyyat

1. Axundov A. Azərbaycan dilinin fonemlər sistemi. Bakı: Maarif, 1973.
2. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. I cild. Bakı: Marif, 1972.
3. Əskər R. Mahmud Kaşğari "Divanü lüğat-it-türk". I cild. Bakı: Ozan, 2006.
4. Əskər R. Mahmud Kaşğari "Divanü lüğat-it-türk". II cild. Bakı: Ozan, 2006.
5. Исхаков Ф Г. Долгие гласные в тюркских языках. Исследования по сравнительной грамматике тюркских языков. т I.
6. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. I cild. Bakı: Nurlan, 2003.
7. Müasir Azərbaycan dili. I cild. Azərbaycan EA-nın nəşri. Bakı, 1978.
8. Şirəliyev M. Azərbaycan dialektalogiyasının əsasları. Bakı: Şərq-Qərb, 2008.

T.Mustafayeva

The work "Divani Lugat-it-Turk" ("Divan of Turkish language") of Mahmud Kashgari and phonetics of contemporary Azerbaijan language

Summary

In this article it was tried to research of phonetics of Azerbaijan Language in confrontation with the work "Divani Lugat-it-Turk" ("Divan of Turkish language") of Mahmud Kashgari. The reflection of vowel and consonant phonems of our contemporary language in "Divani Lugat-it-Turk" were compared. So the issues of existing phonemes and existing of long vowels in Azerbaijan language and

in "Divani Lugat-it-Turk" are highlighted. However, it is discovered that, the sound of “e” existed in "Divani Lugat-it-Turk" and long vowels were not used. While comparing consonants, it was clear that the sound of “dh” does not exist in contemporary language, also, phonemes of “c” and “q” do not exist in "Divani Lugat-it-Turk", also it was clear that the sound of “nq” (sagir nun) used as independent phoneme in "Divani Lugat-it-Turk" used in only in western dialects. Also, it was clear that in "Divani Lugat-it-Turk" sound replacements widespreaded and strictly followed of vowel harmony in the result of reviewing some phonetic laws and cases that were used in "Divani Lugat-it-Turk". Apart from this, it is confirmed that some words that were used in "Divani Lugat-it-Turk" are changed phonetically and used in our contemporary language.

Т.Мустафаева

Произведение Махмуда Кашкари «Дивани лугат ит тюрк» и фонетика современного Азербайджанского языка

Резюме

В статье показана попытка исследования в сравнительной форме фонетики современного Азербайджанского языка и фонетики произведения Махмуда Кашгари «Дивани лугат ит тюрк». Здесь проводилось сравнение отражения гласных и согласных фонем нашего современного языка в «Дивани лугат ит тюрке». Так, наличие фонем, как в современном Азербайджанском языке, так и в «Дивани лугат ит тюрке» коснулось вопроса существования долгих гласных. Таким образом, стало известно о существовании в «Дивани лугат ит тюрке» звука «е» и были использованы долгие гласные. А в сравнении согласных – отсутствие в нашем современном языке, имеющегося в «Дивани лугат ит тюрке» звука dh, и наоборот отсутствие в «Дивани лугат ит тюрке» используемых в нашем современном языке фонем «c» и «q», а также стало известно об использовании фонемы (nq), используемой в «Дивани лугат ит тюрке» как независимой фонемы, только в западном диалекте современного Азербайджанского языка. Здесь, также в результате рассмотрения фонетических законов и процессов, отражающихся в «Дивани лугат ит тюрке» стало известно о широком распространении замены звуков и строгого подчинения сочетательному закону. Наряду со всем этим, было закреплено использование в нашем современном языке некоторых звуков, используемых в «Дивани лугат ит тюрке», измененных в фонетическом плане.

Rəyçi: Mirvari İsmayılova
filologiya elmləri doktoru, professor

GÜLARƏ PƏNAHOVA
Sumqayıt Dövlət Universiteti
gulara.panahova@mail.ru

ŞİFAHİ NİTQİN İNKİŞAFININ AKTUAL PROBLEMLƏRİ

Açar sözlər: şifahi nitq, dil tədrisi, tədrisin yeni üsulları, söz ehtiyatı, psixoloji problemlər.
Ключевые слова: устная речь, обучение языка, новые методы обучения, словарный состав, психологические проблемы.
Key words: oral speech, language teaching, new methods of teaching, fund of vocabulary, physiological problems.

İnsan nitqinin şifahi ifadəsinə şifahi nitq deyilir. Şifahi nitq məsələsi ingilis dilinin tədrisində ən çətin və metodikada ən mübahisəli məsələlərdən biridir. Ölkəmizin xarici ölkələrlə sülh əlaqələrini möhkəmlətmək məqsədilə xarici dil tədrisinin, ələxsus şifahi nitqin inkişafının xüsusi əhəmiyyəti vardır.

Qarşıya qoyulan yeni məqsədləri lazımınca həyata keçirmək üçün dil tədrisi metodikasının istiqamətini şifahi nitqə yönəltmək lazımdır. Bu məqsədlər üçün eksperimental iş aparmaq yeni-yeni üsullar tətbiq etmək məqsədəuyğundur.

Şifahi nitqin düzgün inkişaf etdirilməsi işində əsas məsələlərdən biri düzgün tələffüz vərdişlərinin öyrədilməsidir. İngilis dilində şifahi nitqi inkişaf etdirmək üçün daxil olan informasiyaların optimal dil materialları düzgün müəyyən edilməlidir. Şifahi nitqin inkişafına başlamağın bəzi mübahisəli tərəfləri vardır. Belə ki, bir qrup metodistlər şifahi giriş kursu ilə başlamağı, digər bir qrup isə paralel olaraq yazı, oxu və şifahi nitq aparmağı məsləhət görürlər. Əlbəttə, eyni dilin tədrisi zamanı müxtəlif fikirlərin meydana çıxması işin düzgün həllinə mane olur.

Dil öyrənənlərin şifahi nitqinin inkişafı məsələsi çətin bir psixi-fizioloji prosesdir. Onların baş-beynində olan dəyişikliklər siqnal sistemlərinin işlənməsi məsələsi şifahi nitq zamanı nəzərə alınmalıdır. Şifahi nitq zamanı müəyyən ekstralinqivistik şərait yaranmalıdır ki, öyrənən danışa bilsin. Buraya yaranmış vəziyyət , situasiya, danışanın yaş və bilik səviyyəsini daxil etmək olar.

Şifahi nitq ikinci dil öyrənmənin və tədrisinin mühüm hissəsi olduğu danılmazdır. Lakin onun əhəmiyyətinə baxmayaraq, çox illər şifahi nitqin tədrisi lazımınca qiymətləndirilməmişdir və xarici dil, o cümlədən ingilis dili müəllimləri şifahi nitqi təkrarlar və dialoqların əzbərlənməsi vasitəsilə tədris etmişlər.

Xarici dil öyrənənlərə aşağıdakı üsulları tövsiyə etmək olar:

1. Söz ehtiyatı.
2. Səs modellərini təqdim etmək.
3. Fikirləri mənalı və məntiqi ardıcıllıqla qurmaq.
4. Nitqin səlisliyini təmin edən amilləri aşılamaq.

Hal–hazırda bir çox mütəxəssislərin qeyd etdiyi kimi xarici dil öyrənənlərin qarşısında duran əsas məqsəd tədris edilən dildən ünsiyyət vasitəsi kimi istifadə etmək bacarıqlarına yiyələnməkdir. Müxtəlif xarakterli tapşırıqların yerinə yetirilməsində fəal iştirak etməyə cəlb etmək əsas şərtlərdən biridir. Belə fəaliyyət növlərindən biri müzakirələrdir. Müzakirədə iştirak edən tələbələrə fikirlərini sərbəst şəkildə

demək təklif edilir. Bu zaman onlar mənimsənilməli olan leksik vahidlərə və qrammatik strukturlardan istifadə etməyə yönəldilirlər.

Şifahi nitqin səmərəli şəkildə tədrisinə dair bəzi təkliflər:

1. Əməkdaşlıq, ikinci dili danışmaq üçün tələbələrə maksimal imkan yaratmaq.

2. Auditoriyada müəllimin danışıq vaxtını azaltmaq, tələbələrin danışıq vaxtını artırmaq.

3. Tələbələr danışarkən səhvlərini çox tez-tez düzəltməmək. Kənardan müşahidə etmək, qeydlər götürmək. Səhvlər üzərində işləmək.

4. Düzəliş tələbəni nitqindən yayındırmamalıdır. Tələbələri daha çox danışmağa təhrik etmək üçün belə suallar verilə bilər: "What do you mean? How did you reach that conclusion?"

5. Tələbənin cavabına qiymət verərkən müsbət əlamətləri göstərmək. (1)

F.Ə.Seyidov şifahi nitqin inkişafı haqqında yazır: "Şifahi nitqə yiyələnmək üçün ancaq sözləri bilmək kifayət deyil, şagird öyrəndiyi sözlərdən istifadə edib cümlə qurmağı və bu sözləri cümlədə əlaqələndirməyi də bacarmalıdır. Təcrübədən göründüyü kimi çox zaman dil öyrənənlər geniş söz ehtiyatına malik olmalarına baxmayaraq, onlar öz fikirlərini xarici dildə sərbəst ifadə edə bilmirlər, yəni həmin sözləri düzgün tələffüz etmir və onlardan cümlə qura bilmirlər. Buna görə də şifahi nitq bacarıq və vərdişlərinə möhkəm yiyələndirmək üçün belə tədrisin ilk mərhələsində fonetik, lüğət və qrammatika sahəsində verilən biliklər praktik məqsədə yönəldilməli, bu biliklər şifahi nitq bacarıq və vərdişlərinə çevrilməlidir. Hər bir müəllim buna həm dərsdə, həm də dərsdənkənar işlərin icrası zamanı nail ola bilər"(2).

Doğurdan da söz və qayda bilmək hələ şifahi danışmalar üçün azdır. Bu sözlərin, bu qaydaların ifadə tərzini öyrətmək çətin prosesdir. Bu prosesi düzgün öyrətmək üçün müəllim üsul və yollar axtarmalıdır. Şifahi nitqin düzgün inkişaf etdirilməsində psixoloji məsələlərə diqqət yetirmək lazımdır. А.Н.Соколов şifahi nitqin inkişafında artikulyasiyaya xüsusi yer verərək yazır: "Xarici dildə səsin düzgün artikulyasiya vərdişini yaratmadan həmin dildə danışmaq mümkün deyildir. Bu vərdişi yaratmadan öyrənən nəinki şifahi fəal nitqi, hətta oxuduğu mətni başa düşə bilməz (3).

Bu bir həqiqətdir ki, müəyyən informasiyaların verilməsində tələffüz mühüm rol oynayır. Öz təbiəti etibarilə səslə nitq genetikaya əsasən birinci olur. Əvvəl eşidilən səs əsasında söz yazıya çevrilir. Ona görə də şifahi nitq əvvəlcə eşitmə vasitəsilə başlanmalıdır. Aparılmış eksperimentlər sübut etmişdir ki, oxudan şifahi nitqə keçmək dili intensiv öyrətmək işinə maneçilik yaradır. Uzun illər şifahi nitqin intensiv öyrədilməsi işi ilə məşğul olmuş S.B.Ablam dili praktik öyrətmək işində şifahi nitqin inkişafını birinci dərəcəli iş hesab edir. O yazır: "Müəllim öyrənənin şifahi nitqini intensiv inkişaf etdirmək istəyirsə, o, bu işə aid xüsusi nitq çalışmaları, dialoqlar hazırlamalı və onu şagirdlərə ifa etdirməlidir. Belə çalışma və dialoqlar fəal nitqin yaranmasına köməklik göstərə bilər. Müasir dil metodistlərinin bir çoxları xarici dil materiallarını tədrisin ilk mərhələsindən başlayaraq intensiv öyrətməyi məsləhət görürlər.

Psixoloqlar sübut etmişlər ki, nitq 2 cür olur: daxili nitq, xarici nitq. Daxili nitq insan fikirləşən zaman təzahür edir. Həmin fikrin ifadəsinə isə xarici nitq deyilir. Məlumdur ki, şüur işləmədən nitq ifadə edilə bilməz. Nitq şüurun məhsuludur.

İngilis dili müəlliminin qarşısında duran mühüm problemlərdən biri də eşitmə vasitəsi ilə dil öyrənəni şifahi nitqə alışdırmaqdır. Bu işi lazımı səviyyədə yerinə yetirmək üçün onlara müəllim maraqlı hekayələr oxumalı məzmunu onlardan şifahi soruşmalıdır. Şifahi nitqin inkişafında müasir metodlara üstünlük verilməlidir. Audiolinqval metod müasir metod hesab olunur. Onun əsas xüsusiyyətləri :

1. Audiolinqval bacarığın-dinləyib anlama və danışığın inkişafı. Ona görə də audio-linqval metod adlanır (audio lingual method).
2. Tərcümədən imtina olunur.
3. Qrammatikanın nümunələri əsasında tədrisi (by model, pattern, structures).
4. Əsil həyat ünsiyyət situasiyalarının geniş işlədilməsi.
5. Şifahi öyrənilmiş dil materialı əsasında oxu və yazının inkişaf etdirilməsi, sonra yazılı nitq üçün səciyyəvi olan dil materialının öyrədilməsi. Məlumat almaq üçün (oxu), məlumat vermək üçün (yazı).

Müasir ingilis dili söz sırasının əsas xüsusiyyəti ondan ibarətdir ki, o, rus və Azərbaycan dilinə xas olan söz sırasına nisbətən xeyli sabitdir. İngilis dilində sözlərin cümlədə sıralanması sabit olsa da dil öyrənənlər onu qarışdırırlar. Şifahi danışıq zamanı cümlədə üzvlərin yeri düzgün olmadıqda nitq anlaşılmır. Müəllim ilk dərslərdən başlayaraq öyrətməlidir ki, nəqli cümlədə əvvəl mübtəda sonra xəbər və nəhayət ikinci dərəcəli cümlə üzvləri yerləşir: Məsələn: I have a brother. He has an interesting book. My brother has a bag.

O.Musayev ingilis dilində söz sırasının şifahi nitq inkişafında olan rolundan geniş bəhs edərək yazır: "Hər bir dildə olduğu kimi müasir ingilis dilinin söz sırası vardır ki, bu da son nəticədə dilin sintaktik quruluşu deməkdir". (4)

Bir çox alimlər (metodistlər) xarici dilin öyrənilməsində şifahi nitqin inkişafında monoloji nitqə üstünlük verilir və qeyd edirlər ki, əgər dil öyrənən kəs oxuduğunu nəql edə bilmirsə, demək başa düşməmişdir. M. Uestə görə nitq işin son mərhələsi kimi qiymətləndirilirdi. V.A.Şeqlova və B.Q.Skobin özlərinin "Şifahi nitqin inkişafında nəqletmənin rolu" adlı vəsaitdə yazırlar; "Nəqletmə biliyin möhkəmlənməsində və şifahi nitqin inkişafında əsas vasitədir. (5)

Şifahi monoloq psixoloji cəhətdən bir növ yazılı nitqə yaxın olur. Bu fikrin ifadəsi ilə müəyyən edilir. Dil öyrənən özündə fikirləşir bir mövzunu beynində həll edir, onu yazıya da köçürə bilir. Dialoji nitq də şifahi nitqin inkişafına çox müsbət təsir göstərir belə ki, istənilən qədər sual, cavab aparmaqla dialoqda iştirak edərkən eşitmə yolu ilə fəallaşırlar.

Tədris müddəti 4 əsas "dərketmə termini" ilə bölüşdürülür.

1. Presentation dil materiallarının verilməsi və passiv dərk edilməsi;
2. Recognition- anlama və lakonik cavab vermə;
3. Repitition- təkrar, təqlid yolu ilə;
4. Reproduction- müəllimin suallarına cavab verməklə sərbəst danışmaq.

Son zamanlar xarici dil tədrisində əyani vəsaitlərdən istifadə məsələsinə diqqət daha da artmışdır. Görkəmli psixoloq B.V.Belyayev xarici dil tədrisinin psixologiyası ilə uzun müddət məşğul olmuşdur. O, xarici dil tədrisində əyanilik məsələsinə üstünlük verərək yazır: "Xarici dil tədrisini maraqlı edən əyanilikdən istifadə et-

mək özü də xüsusi məharət tələb edir. Əyaniliyi lazım olan zaman sinfə gətirmək vacibdir. Hər yerdə, hər zaman əyanilikdən istifadə etmək dərsə mənfi təsir göstərə bilər." (6)

Aparılan müşahidələr sübut edir ki, ingilis dilinin tədrisinin bütün illərində əyanilikdən səmərəli istifadə etmək yaxşı nəticə verir.

İngilis dili dərslərində əyaniliyin aşağıdakı növlərindən istifadə edilir.

a) Divar əyani vəsaitləri
b) Stolüstü əyani vəsaitləri
c) Ekran əyani vəsaitləri

a) Divar əyani vəsaitləri - əsasən cədvəllərdən və süjetli şəkillərdən ibarət olur.

b) Stolüstü əyani vəsaitlər - müəllimin rəhbərliyi ilə partanın üzərində istifadə edilir. Buraya əyani kartoçkalar, kiçik ölçülü əlifba kasassı, cürbəcür epilentlər daxildir.

c) Ekran əyaniliyi - təlimin texniki vasitələrin köməyi ilə intensiv öyrətmədən ibarətdir. Xarici dillərin tədrisində təlimin texniki vasitələrindən geniş istifadə edilməsi qarşıya bir vəzifə kimi qoyulmuşdur.

Elm və texnikanın nəhəng addımlarla inkişafı, indi hər sahəyə müsbət təsir göstərdiyi kimi, xarici dilin təliminə də, öz təsirini göstərmişdir. Tədris işini intensivləşdirmək dərsi müasirləşdirmək məsələsindən danışarkən ilk növbədə müasir vasitələrdən danışmalıyıq. Təlimin texniki vasitələri ilə uzun müddət məşğul olmuş xarici dil metodisti prof.M.V.Lyaxovidski yazır: "Müəllim əməyini yüngülləşdirən, şagirdlərin dərketməsini asanlaşdıran təlimin texniki vasitələri xarici dil dərslərini də öz gözəlliyi ilə bəzəyir və maraqlı edir. Bu vasitələrdən indi istifadə etməyən müəllimin dərsi çox sönük və maraqsız keçər. (7)

İngilis dilinin çətin tələffüz vərdişlərini linqafon kabineti, dil laboratoriyası olmadan təsəvvür etmək çətindir. İngilis dilinin tədrisi işində böyük əhəmiyyəti olan müasir üsullardan biri kompüter hesab edilir. Kompüterlər şifahi nitqin inkişafında əvəzedilməz əhəmiyyətə malikdir. CD-disklərdən istifadə etməklə dərsi maraqlı edə bilərik. Bu üsul nitq fəaliyyətini intensivləşdirən, gözəl və səlis danışmağa şərait yaradır. Kompüter eşitmə və anlama bacarığını inkişaf etdirir. İngilis dilinin öyrənilməsində əsas texniki vasitələrdən biri və başlıcasıdır, onun gücündən istifadə edən ingilis dili müəllimi şifahi nitq sahəsində hər hansı bir uğur əldə edə bilər.

Video görüntülərlə də dilin inkişaf etdirilməsi yaxşı nəticə verə bilər, belə ki, görmə yaddaşını inkişaf etdirmək üçün sadə bir üsuldur. İndi bir çox filmlər çəkilmişdir ki, bunlardan bütün fənlərin tədrisində istifadə etmək olar. Belə filmlər təbiət təsvirlərinə, heyvanlar aləminə, şəhərlərə, uşaqların həyatına dair daha çox olur. Müəllim bu film haqqında baxa-baxa özü ingilis dilində izahat verir. Bu iş bir neçə dəfə təkrar edildikdən sonra, dil öyrənənlər kadrlara əsasən ingilis dilində öz bildikləri qaydalara və lüğət ehtiyatına əsasən danışırlar. Texniki vasitələrdən istifadənin bir üstün cəhəti də odur ki, müstəqil iş apararkən, evdə müəyyən çalışmanı yerinə yetirərkən bunlardan istifadə etmək olar.

Ədəbiyyat

1. Ümummilli lider H.Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş "Xarici dillərin tədrisinin aktual problemləri. "Beynəlxalq elmi-praktiki konfransın materialları. (Bakı, 6-7 may 2013-cü il), səh.65
2. F.Ə. Seyidov. Şagirdlərin şifahi nitqinin inkişaf etdirmə yolları, 1967., s.68
3. A.H.Соколов. "Внутреняя речъ при изучении иностранных языков. "Вопросы психологи" ,1960., стр.62
4. O.İ.Musayev. Namizədlik dissertasiyası, 1960., səh.16-17
5. V.A.Şeqlova, B.Q.Skobin. Yuxarıda adı göstərilən əsər. M., 1963, səh.6
6. B.V.Belyayev. Xarici dil tədrisinə dair psixoloji oçerklər. M., 1969
7. M.B.Ляховидский. Технические средства в обучение иностранным языкам, Киев, 1967

G.Panahova

Actual problems of the development of oral speech

Summary

In order to strengthen the peace relations among our country and foreign countries it is of great importance to teach the foreign languages, especially the development of oral speech. The problem of oral speech is one of the most difficult thing in the teaching of the English language and the most questionable problem in the method.

The article is devoted to some ways of teaching oral speech of the English language. Different ways of developing the students' dialogical speech skills, making up situations and questions by the help of audio-lingual and visual methods have been analyzed in this article.

Г.Панахова

Актуальные проблемы в развитии устной речи

Резюме

Очень важна роль преподавания иностранного языка в укреплении мирных связей нашей страны с зарубежными государствами. А развитие устной речи имеет особое значение в этой области. Вопрос устной речи является одним из самых сложных и спорных вопросов в методике.

Статья посвящена обучению устной речи английского языка, различным способам развития навыков диалогической речи у студентов, составлению ситуации и вопросов с помощью аудио-лингвиуальных и визуальных методов.

Rəyçi: Nigar Həsənova
filologiya üzrə fəlsəfə doktoru

SEVDA XƏLİLOVA
ADPU
sevda_azturk@hot/mail.com

ANTONİMLƏRİN ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: antonim, vektorial antonim, qradiual antonim, konversiv, контекст, üslub, антитеза
Ключевые слова: антоним, векториальный антоним, градуальный антоним, конверсив, контекст, стилистика, антитеза
Key words: antonym, vectorial antonym, antonym a matter of degrees, conversion, context, stylistic, antithesis.

Antonimlər son dövrlərə qədər yalnız leksik və leksik-qrammatik vahidlərin qarşılaşdırılması zəminində öyrənilmişdir. Ümumiyyətlə sinonimlik, omonimlik və antonimlik semantik kateqoriya kimi leksikologiyada sözlərin semantik qruplara bölünməsi əsasında müəyyənləşdirilir. Antonimlərldə mənaya, omonimlərdə isə məna və formaya görə müqayisə əsas götürülmüşdür. Omonimlərin təyini formanın (eyni səs cildinin) nəzərə alınmasının vacibliyini üç semantik kateqoriyaya eyni aspektdən yanaşma planına qismən ehtiyac yaratmışdır. Eyni səs tərkibinə malik olmayıb yaxın məna və ya məna çalarları ilə fərqlənən sözlər sinonim adlandırılmışdır. Əslində tərifdə «müxtəlif səs cildi»nə maliklik əlaməti izafi sayıla bilər. Yəni sinonimlər məna çaları ilə fərqlənən sözlərdir. Doğrudur, əlavə əlamət, yəni fərqli səs cildi həm də polisemiya ilə sinonimliyi fərqləndirməyə xidmət göstərir. Antonimlərdə əlavə əlamətin (eyniköklülük və fərqli köklülük) daxil edilməsi anlayışları bir-birindən ayırmada heç bir əsaslı rol oynamır. Əvəzində antonimlərin təyini ilə bağlı mübahisə doğurur. Bu məsələ antonim, omonim və sinonimlərin mətndə funksionallığı, yəni mətndə işlənməsi cəhətlərinə də təsir göstərir.

Dedim: könül, içmə eşqin camını,
Içsən, dünya sənə dar olacaqdır. (Aşıq Ələsgər, 19)

Nələr gördüm, gəşt elədim dünyanı,
Hər bir işin qilü-qalı varıymış.
Yaxşı günün olurmuşsa yamanı,
Yaman günün yaxşı halı varıymış (Aşıq Ələsgər, 12)

Ələsgər, bilirsən qüdrətin sirrin,
Zülmətə işıq var, acıya şirin (Aşıq Ələsgər, 19)

Antonimlərin əsas üslubi funksiyaları əksliyi ifadə etmək, təbiət və sosial hadisələri, insan xarakterini təzadlı təsvir etmək vasitəsi olmaqdır. Əksliklər, qarşılaşdırma mətnlərdə və eləcə də xüsusi sintaktik konstruksiyalarda – frazeologizmlərdə, zərb məsəllərdə və atalar sözlərində geniş istifadə olunur. Xalq deyimlərinin məna tutumu, obrazlılığı, lakonikliyi çox zaman antonimlərə ifadəsini tapır. Klas-

siklərin, məşhur yazıçı və şairlərin əsərlərində yer alan qanadlı sözlərdə kifayət qədər antonimlər işlənir.

Antonimlərin üslubi funksiyaları müxtəlif və rəngarəngdir. Bir sıra hallarda antonimlər mətni təşkil edir, başqa hallarda əsər qəhrəmanlarının xarakterindəki təzadlı məqamları açır, dəqiqləşdirici rol oynayırlar. Məsələn, içəri-çöl, sağ-sol, əvvəl-sonra kimi antonimlər mətndə zaman və məkan münasibətlərini aydınlaşdırır. Zaman səciyyəli antonimlər hadisələrin ardıcıllığını təsvir etməkdə, zamanın müəyyən parametrlər üzrə qapanmasında, tamamlanmasında mühüm rol oynayır. Bədii əsərdə müəllif eyni antonim cütünü müxtəlif məqamlarda ardıcıl işlətməklə təzadın qabarıq, bir-biri ilə semantik bağlı, bir-birini tamamlayan mənzərəsini yaradır. Məsələn,

Ürəyimin əsl yükü
sevinc imiş sən demə,
Kədərimin əsl kökü
sevinc imiş sən demə.
Kədərimi
çevirdim astar üzünə,
Sevincimi gördüm…(R.Rövşən səh.17)

Getdim,
o dünyaya dəydim, qayıtdım,
Getdim
qapısını döydüm, qayıtdım,
Gülə-gülə çıxdım dostlar üzünə,
Dostları
çevirdim astar üzünə,
Nə yaxşı ki, düşmən çıxan olmadı…(Ramiz Rövşən, 17)

Antonimlərin üslub funksiyalarını öyrənərkən çox zaman eyni bir qrammatik və ya üslubi kateqoriyaya daxil olan sözlər qarşılaşdırılır. Bu zaman antonim cütün tərkibindəki hər iki söz eyni kateqoriyaya aid olur. Məsələn, ingilis dilində truth-fib sözləri antonim cüt yaratmır. Halbuki bu cütdəki sözlər əks anlayışları ifadə edir. Truth sözü neytral üslubi laya aiddir, fib sözü isə slenq vahididir və başqa üslubi kateqoriyaya mənsubdur.

Antonimlər bir çox üslubi fiqurların əsasında durur. Antonimlərin köməyi ilə sözlərə xüsusi məna vermək, məntiqi vuruğunu aşkarlamaq olur. Cümlədə, kontekstdə, mətndə leksik səviyyədə antonim olmayan sözlərin antonimliyi baş verə bilər. Bir sıra sözlər kontekst daxilində antonimlik qazanır. Daha doğrusu, kontekstdə antonimini tapır. Bu isə təzadın, ziddiyyətin, əksliyin mətn daxilində antonimlik üçün yeganə göstərici olmadığını sübut edir.

Üslubi funksiyalar dil vasitələrinin mətndə qarşılıqlı təsiri və bu təsir nəticəsində mətnin məzmunu ekspressiv, emosional, qiymətləndirmə və estetik informasiyanın ötürülməsi ilə müəyyənləşir. Dil vasitələrinin üslubi funksiyalarına praqmatik cəhəthdən yanaşıldıqda, müəllifin oxucuya təlqin etdiyi emosiya və münasibət, danışanın verilən məlumata, dinləyənə, hadisə və vəziyyətə münasibəti də nəzərə alınır.

Üslubi funksiyaları reallaşdıran vasitələr oxucunun mətni təhrifsiz, düzgün başa düşməsinə kömək edir. Antonimlər yüksək üslubi potensialı olan dil vasitələridir. Antonimlər bir-biri ilə zidd mənalı sözlər cütü olduğundan onlar təzadlı məqamların açılmasında, təzadlarla ötürülən məlumatı gücləndirməkdə, mətnin və fikrin ekspressivliyinin artırılmasında xüsusi rol oynayır.

Antonimlərin başqa bir xüsusiyyəti onlardan birinin istifadə olunması nəticəsində digərinin assosiativ canlanması ilə bağlıdır. Antonimlərin üslubi xüsusiyyətləri dilin estetik funksiyalarını yerinə yetirən müxtglif nitq fiqurlarında reallaşır. Bədii dildə geniş yayılmış üslubi fiqurlardan biri antitezadır. Antiteza antonimlərin işlənməsinə əsaslanır. Antiteza mahiyyətcə təzad təşkil edən söz obrazlarının qarşılaşdırılması üsludur. Bu üslub fiqurundan istifadə zamanı adlandırılan qarşılıqlı əks anlayışlar bir kontekstdə qarşılaşdırılır.

Təzad semantik kateqoriyadır. Təzadlı fiqurlarda qarşılaşdıran zidd sözlərdən biri fon rolunu oynayır və bu fonda işlənən digər sözün mənası daha aydın, daha qabarıq dərk edilir.

Təzad bədii mətnin strukturunun təşkil və inkişaf etdirilməsinin kompozisiya-nitq üsuludur (1, 200). Antiteza təzad fiqurudur. Antitezaya cəlb edilən bütün sözlər bir-birinə qarşı qoyulur (2, 292). Antitezanın gücləndirilmə, intensivləşdirilmə üsulları vardır. Antitezanın leksik ifadə vasitələri antonimlərdir. Antitezalar aforizm və deyimlərdə, xalq yaradıcılığında geniş istifadə olunur.

Score twice before you cut once.
Desperate diseases call for desperate remedies.
Keep your mouth shut and your ears open (3, 5).

Antonimlər bədii mətndə canlı ifadə vasitələri kimi işlənir. Yazıçı, şair həyatı təzadlarda görür. Belə təzadlar onun gerçəkliyi bir tam kimi dərk etməsi, götürməsi və təsvir etməsidir. Əksliklər müxtəlif üslubi məqsədlərlə istifadə olunur. Həmin məqsədlər sırasına keyfiyyətin son həddini göstərmək, təsəvvürü, obrazı gücləndirmək, ifadəni anktuallaşdırmaq, iki əks keyfiyyəti, halı, hərəkəti, təsdiqləmək, aralıq, orta keyfiyyəti, xassəni bildirmək və s. bura daxildir. Eyni kontekstdə əks mənalı sözləri qarşılaşdırmaqla ifadəlilik gücləndirilir.

«Yollar eniş-yoxuş,
bələn-bələndi,
Yollar
min ildir ki, gedib- gələndi,
Təzəydi, köhnəydi bilmədim,
Talada cığırlar qayiyələndi…» (M.Ismayıl, 23)

It was the masterful and incommunicable wisdom of etemity at the futility of life and effort of life.

It moved with commengled mistrust and daring, cacitiosly observing the men. Its attention fixed on the dogs.

What masterful treachery lurked behing that apparently harmless piese of meat (C.London-Azı diş).

Antiteza əsər adlarında, publisist yazıların başlıqlarında çox istifadə olunur.

The Planeta Prize Occusations of Plagiarism (The New Yorker. 19.10.10).

Bir-biri ilə təzad təşkil edən, bir-biri ilə qarşılaşdırıla bilən predmetlərin inkar edilməsi antiteziya əks üsuludur. Bu üsüldan istifadə zamanı müəyyən əlamətlərin yoxluğunu daha ifadəli və canlı şəkildə ötürmək mümkündür.

No sun-no Moon!
No morn-no noon!
No-down- no dusk-
No proper time of day-
No sky -no earthly niew
No distance looking blue…(V.Oden)

Bu şerdə ardıcıl, oxşar, təkrarlanan inkar konstruksiyalarının sıralanması payızın cansıxıcı mənzərəsini ifadəli şəkildə təsvir edir.

Antiteza müqayisə edilən anlayışların əksliyinə əsaslanan üslubi fiqurdur. Antiteza sintaktik səviyyədə reallaşır. Antitezanı leksik əsası antonimlik, sintaktik əsası isə paralelizmdir.

Antiteza qarşılaşdırılan və ya müqayisə edilən anlayışların məntiqi-məzmunu səciyyəsi, konstruksiya tipi, əlaqənin varlığı və ya yoxluğu ilə gerçəkləşir (4, 69).

Antimetabola antonimliklə xiazmın birləşdirilməsindən alınan üslubi fiqurdur (5, 43).

Antitezanın gücləndirilməsinin əsas iki üsulu vardır: 1)müxtəlif tipli təkrarlar; 2)sintaktik paralelizm.

The Planeta Prize and Accusations of Plagiarism (The New Yorker, 19.10.10) - prize - accusation.

Wrong carrot, wrong stick (Center for European Policy analysis, 20.12.10).

Müxtəlif tipli təkrarların köməyi ilə gücləndirilmə əsasında formalaşan antiteza antimetabola adlandırılır. Antimetabola başlıqlarda geniş istifadə olunur. Onlar publisistik və bədii mətnlərdə qeydə alınır. Müxtəlifsistemli dillərdə, o cümlədən ingilis və Azərbaycan dillərində antimetabola üslubi fiqur kimi işləkdir. Məsələn, Goodbye high finance. Hello family, fishing and folk songs (The Observer, 13.09.09).

Antimetabola daha çox adresatın diqqətini cəlb etmək üçün istifadə edilir. Onun ikinci funksiyası hadisənin kəskinliyini, gərginliyini qabartmaqdır.

Antonimlərin iştirakı ilə formalaşan sintaktik paralelizm antitezanı gücləndirir, onu intensivləşdirir. Antitezanın iki kəmiyyət tipi vardır: 1)sadə; 2)mürəkkəb antiteza.

Iki və daha artıq antonim cütünün işlədilməsi ilə əmələ gələn antiteza mürəkkəb antitezadır.

Teens calling less, texting more (USA Today, 14.10.10).
Əgər antitezada bir antonim cütü olarsa o, sadədir.
Losing Cobs, but Gaining a Planet (The New Yorker, 19.11.10).
Mürəkkəb antiteza ədəbiyyatda alloyzis və ya alloyza adlanır.

Antiteza sintaktik paralelizmə birləşdikdə onun mukabala adlandırılan növü əmələ gəlir.

Transportation Slows Down from Cersey; Speeds up Toward Space (The New Yorker, 16.10.10).

Antiteza daxili strukturuna görə də növlərə bölünür. Bu zaman antitezanın semantik-morfoloci təhlili əsas götürülür. Bir köklü antitezalar ingilis dilində şəkilçilərinin köməyi ilə əmələ gəlir. un-, dis-, mis - (The spoken and unspoken word (The New Yorker, 23.09.10))

Müxtəlifköklü antitezalarda antonim cüt formalaşdıran sözlər istifadə edilir. Bu forma müxtəlifsistemli dillərdə özünü eyni şəkildə göstərir.

Big Problem, Small Package (Foreign Policy, 22.12.10).

Antitezanın növlərindən biri də sinkrizis adlandırılır. Sinkrizis iki simmetrik cümlənin hər birində işlənən, antonim münasibətdə olan üzvlərlə yaranır (6, 268).

Marriage: Husbands Get Richer, Bachelors Get Screwed (Time, 20.01.10).

Qeyd etmək lazımdır ki, antonimlər əsasında yaranan amfiteza və akroteza üslubi fiqurları da vardır. Bu üslubi fiqurlara münasibətdə fərqli fikirlər irəli sürülür. Məsələn, T.Xazaqerov onları antitezanın növləri, L.Vvedenskaya isə müsqətil üslubi fiqur hesab edir (6; 7).

Amfiteza tamı onun qütblərinə istinadla təsvir etmək üçün istifadə olunan üslubi fiqurdur. Belə üslubi fiqurun yaranmasında tamamlama prinsipi əsasdır. Elə antonim cütlər vardır ki, onlar müəyyən semantika üzrə bir-birinin tamamlayır. Antonim cütdəki iki söz bir yerdə tam təşkil edir. Amfitezanın komponenitləri tamın mövcudluğunu səciyyələndirən vahidlər kimi çıxış edir (7. 206).

From top to bottom, how corruption infects Russia (The Independent, 3.12.10).

Akroteza antonimlə təsdiqi gücləndirmək üçün istifadə olunur. Məsələn, zəif yox, güclü…

Awards, but No Charges, in Russia Cail-Death Probe (The Wall Street Journal, 11.11.10).

Antitezada isim, sifət, fel, zərf iştirak edir.

Mandelson: saviour or nemesis? (GQ, 29.05.10));

Wiki leak's Russian Cables: Bad for the Reset, Good for Putin? (Time, 02.12.10);

WTO to help Russia's image, hurt its manufacturers (Reuters, 16.12.10));

START soon, but not yet (The National Interest, 01.11.10)).

Antiteza qarşılaşdırılmasının əsas struktur tiplərindən biri sadə genişlənmiş cümlələr, bağlayıcısız tabesiz mürəkkəb cümlələr, mürəkkəb genişlənmiş cümlələrdir.

Russia acts like a foe, but needs us as a friend (The Times, 23.12.10));

«Deficit Denial» Ends, Tram Service Resumes (The New Yorker,1.12.10);

US banks to post rise in profits, but investment income slumps (The Independent, 17.10.10)).

Antiteza yalnız struktur-semantik baxımdan deyil, həm də mətnin üslubi və kompozisiya təşkili cəhətdən də əhəmiyyət daşıyır. Nitq qarşılaşdırılmasının əsas tipləri kimi bu zaman leksik, qrammatik və kompozisiya elementləri çıxış edir və onlar mətnin bütün səviyyələrdə təşkilində istifadə olunur.

Publisistikada antiteza diqqətin cəlb edilməsi, problemin hərtərəfli nəzərdən keçirilməsi, aktual olanın daha dərindən dərk edilməsi üçün istifadə olunur. Publisistikada başlıq yazının oxunmasında və ya oxunmamasında həlledici rol oynayır.

Başlıq mətn haqqında ilkin, vacib informasiyanı ötürür. Başlıq emosional çalar daşıyır, oxucuda maraq oyadır, onun diqqətini cəlb edir. Başlıq antiteza əsasında qurulduqda onun təsir dərəcəsi güclənir.

Antiteza başlıqların bir sıra növlərində çox istifadə olunur. Başlıq-sual, başlıq-intriqa, başlıq-xronika, başlıq-rezüme formalarında antiteza daha çox rast gəlinir.

Is your dog's bowl half full or empty? How to tell a pessimist pet from an optimist (Daily Mail, 12.10.10).

The ugly truth about the beautiful game (The Independent, 03.06.10).

«Deficit Denial» Ends, Tram Service Resumes (The New Yorker, 01.12.10).

Obama's double-or-nothing moment in the Middle East (The Washington Post, 12.08.10).

Antonimlik oksümoron üslubi fiqurunda istifadə olunur. Bu fiqurun mahiyyəti əksmənalı sözlərin birləşdirilməsi və ya qarşılaşdırılması təşkil edir. Məsələn. Ölü canlar.

Yetər, qocalıqdan gənclik istəmə
Sevənlər payızda, qışa bürünməz.
Əsl güllər ilə kağız güllərin
Uzaqdan baxmaqla fərqi bilinməz. (N.Kəsəmənli)

Oksimoron başlıq və adlarda çox istifadə olunur. Antonimlik hadisəsi oksimoron üslubi fiqurunun da nüvəsini təşkil edir. Bu zaman əks sözlər birləşərək yeni anlayış əmələ gətirir.

And faith unfaitful kept him falsely true (A.Tenngson)

Ingilis poeziyasında oksimoron XVI əsrdə E.Spenserin şerlərində geniş yer almışdır.

And painful pleasure turns to pleasing pain.

V.Odenin şerlərində də bu üslubi fiqura müraciət edilmişdir.

With the farming of a verse
Make a vineyard of the curze
Sing of human unsiccess

In a rapture of distress. Burada a rapture of distress oksimorondur. Leksik birləşmənin pozulması təzadlı semantik qarşılaşdırma yaradır. Rapture…distress ümumi semə malik olduğu kimi, eyni zamanda əkslik semi yaradır. Hər iki söz yüksək emosional gərginliklə səciyyələnir. Birinci halda bu, heyrət və fərəhlə bağlıdırsa. Ikinci tərəf üçün dərd və bədbəxtliklə əlaqələnir. Hər iki söz bir-birinə maksimum zidd olan emosiyaları ifadə etməklə bir-birinə yanaşır.

Antifrazis antonimlərin istehzalı çalar məqsədi yaratmaq üçün istifadə edildiyi üslubi fiqurdur.

Danışıq dilində işlənən terribly smart, awfully beautiful tipli oksimoronlarda birinci komponentin leksik denotativ mənasını itirib ekspressivliyi gücləndirmə vasitəsinə çevrildiyinə görə semantik uzlaşma olmur (8, 1).

Məntiqi və leksik əksliklərin qarşılaşdırılması üslubiyyatda təsirli vasitələrdən biridir. Bu vasitələr oxucunun ziddiyyətli, təzadlı hadisələri qavramasına kömək edir.

Antonimlərin üslubi funksiyaları təzadın ifadəsi ilə məhdudlaşmır. Bu vasitələr bir halda mətni struktur təşkil edir, başqa halda əsərin qəhrəmanlarının xarakterini açır, üçüncü halda dəqiqləşdirici funksiyanı yerinə yetirir. Mətndə inside-outside, right-left məkan münasibətlərini ifadə edir. Zaman mənalı antonimlər hadisələrin ardıcıllığını bildirir: at the begining -in the end.

Qəhrəmanların xarakterini açarkən keyfiyyətcə əks anlayışlardan istifadə olunur. Dost-düşmən, kasıb-varlı.

Əks hadisələrin başlanğıcının bildirən antonimlər daha geniş dairəni əhatə etməyə imkan verir.

It was the best of times, it was the warst of times, it was the age of wisdom, it was the age of fodishness, we had everything before us, we had nothing before us… (Diccens. A tale of Two Cities).

Bəzi antonim cütlər nitqdə leksik birləşmə kimi, istifadə olunurlar. Məsələn, uşaq da, gənc də, böyük də, balaca da, tez ya gec və s. Onların nitqə işlənməsi nitq konnotasiyası yaradır. Nitq antonimlərinin qarşılaşdırılması zamanı bəzən istehza çaları əmələ gəlir.

Where it the begining of that end by which the beginning ends?

Antonimlərin bədii mətndə üslubi məqsədlə istifadə olunması yalnız antonim cütə daxil olan hər iki sözün mətnə gətirilməsində özünü göstərmir. Bəzən antonim cütün bir elementini işlətməklə üslubi funksionallıq əmələ gəlir. Antonimlərin mətndə istifadə olunması üslubi motivləşməlidir.

Beləliklə, antonimlərin üslubi funksiyalarının rəngarəng və müxtəlif olması aydınlaşır. Antonimlər əksliyi ifadə edir, hadisələrin zidd mahiyyətini açır, onların danışıqda işlənməsi ifadəliliyi, obrazlılığı, emosionallığı gücləndirir. Antonimlərin qarşılaşdırılması əsərin qəhrəmanlarının xarakterini açır, mətni təşkil edir, hadisələr ardıcıllığını, məkan və zaman miqyasını göstərir.

Ədəbiyyat

1. Караулов Ю.Н. Русский язык. Энциклопедия.-Москва, 1999
2. Гальперин И.Р. Стилистика английского языка. Москва, 1981
3. Crystal D, Devy D. Investigating English Style. London 1989
4. Бахтин М.М. Вопросы стилистики на уроках русского языка в школе//русская словесность. 1994, №2.
5. Кожина М.Н. Стилистика русского языка. Москва, 1993
6. Хазагеров Т.Г. Общая риторика. Словарь риторических приемов. – Ростов-на-Дону, 1999.
7. Введенская Л.А. Стилистические фигуры, основанные на антонимах // Краткие очерки по русскому языку.– Курск, 1966. – Вып. 2.
8. Арнольд И.В. Стилистика современный английский язык. Москва: Флинта, 2002

Севда Халилова

Стилистические особенности антонимов

Резюме

В статье рассматриваются вопросы употребления антонимов в литературной и публицистических стилях, анализируются способы возникновения таких стилистических фигур, как антитеза и ее различные виды, а также оксюморон и хиазм. Уточняются роль стилистических фигур в организации текста на материале английского и азербайджанских языков. В ходе исследования была выявлена, что употребление антонимов раскрывает сущность контрастных отношении между предметами и явлениями. Оппозиция слов составлявщая антонимичная пара дает возможность более глубокому проникновении во внутренний мир героев, обеспечивает эмоционально-экспрессивность, выразительность, а также образность речи.

Sevda Khalilova

Stylistic peculiarities of antonyms

Summary

The article studies questions of use of antonyms in literary and publicistic styles, ways of emergence of such stylistic figures as antithesis and its various types, as well as oxymoron and chiasmus are analyze. The role of stylistic figures in organization of a text is specified on the base of materials of Azerbaijani and English languages. It was revealed during the research that use of antonyms reveals the essence of contrast ratios between objectives and phenomena. Opposition of words that constituents antonymous pair gives opportunity for deeper penetration into the inner world of the heroes, provide emotional expressiveness, significance and imagery of a speech.

Rəyçi: Faidə İsayeva
filologiya elmləri namizədi

GÜLNAR BƏŞİROVA
Azərbaycan Dövlət Dəniz Akademiyası
E-mail:akademiya@adda.edu.az

AZƏRBAYCANDA İLK DƏNİZÇİLİK TERMİNLƏRİ LÜĞƏTİ

Açar sözlər: beynəlxalq ticarət mübadiləsi, ilk lüğət, beynəlxalq kod, terminoloji anlam, sözün qarşılığı.
Ключевые слова: международное торговое соглашение, первый словарь, международный код, терминологическое понятие, эквивалент слова.
Key words: international trade agreement, the first dictionary, international code, notion of terminology, equivalent of the word.

Hər hansı elm və texnikanın, müəyyən sahələrin ümumi mənzərəsi onun sözləri, terminləri ilə də müəyyənləşir. Həmin sahə üzə əldə edilmiş təcrübə də söz və terminlərin toplandığı vəsaitlərlə öyrənilə bilir. Mühüm sahələrdən biri kimi dənizçilik cəmiyyətin həyatında, dövlətlərarası münasibətlərin qurulmasında, beynəlxalq ticarət mübadilələrinin aparılmasında və s. böyük rol oynayır. Bu gün beynəlxalq ticarət dənizçiliyi öz inkişafının yuxarı pilləsindədir. Ona görə də dəniz nəqliyyatının kommersiya baxımından istismarı ilə əlaqədar meydaqna çıxan terminoloji vahidlərin müstəqil dillərdə dəqiq, aydın və konkret anlayış-mənaları müəyyənləşdirilməlidir.

Bunun müqabilində ölkəmiz müstəqil bir dövlət olaraq ticarət gəmiçiliyi üzrə beynəlxalq konvensiyalara qoşulur, dəniz nəqliyyatı sahəsində müxtəlif xarici ölkələrlə əlaqələr qurur, sazişlər imzalayır, həmçinin də dəniz nəqliyyat donanmasının müasir tələblərə uyğun yeniləşdirilməsi , beynəlxalq dəniz dilinə-ingilis dilinə daha yaxından bələd olma yolarını arayıb-axtarır.

Lüğət hər bir xalqın milli mədəni-məişət xüsusiyyətlərini yaşadır, ictimai tələblərinə cavab verir, dillərin qarşılıqlı əlaqəsinə təsir edir (1: 239).

Azərbaycan dilində dənizçilik sahəsində termin yaratmaq təşəbbüsü 40-cı illərdən başlanır. Ayrıca Azərbaycanda dənizçilik terminləri lüğəti ilk dəfə 1942-ci ildə nəşr edilmişdir. (2).

Bu lüğətin tərtibçisi Q.G.Güldür. Redaktoru M.Babayevdir. Həmin lüğət SSRİ Elmlər Akademiyası Azərbaycan filialı Nizami adına Ədəbiyyat və Dil İnstitutunun «terminoloji lüğətlər» seriyasındadır.

Həmin terminlər lüğəti dənizçilikdə işlənən əsas 2340 termini əhatə edir; bununla yanaşı, izahı çətin olan 50-yə qədər termin və terminoloji birləşmə üçün kitabın içində şəkilllər də verilmişdir. Lüğətin sonunda takelaj və gəminin digər mühüm hissələrini göstərən, nömrələri ilə altında hissələrinin adları yazılmış on böyük şəkil də əlavə olunmuşdur.

Dənizçiliyin mühüm bir iqtisadi sahə kimi özünəməxsus anlayış və terminləri mövcuddur.

Azərbaycanca terminlərin qarşılığı olan rusca termini və ya onun izahını asanlıqla tapmaq məqsədilə lüğətin sonunda reyestr də verilmişdir. Məs.: azərbaycanca «DORUN BAŞLIĞI» termininin rusca müqabilini axtardıqda reyestrə bu terminin yanında yazılmış 809 nömrə vasitəsilə mətndə həmin terminin rus dilindəki qarşılığı

«KLOTİK» sözü və ya Azərbaycan dilində «HÖRÜK» terminini axtardıqda 1680 nömrə vasitəsilə həmin terminin ruscası «RKADKA» sözü tapılır.

Lüğət dil mənsubluğuna görə ikidillidir. Lüğət məqaləsinin solunda rus dilində, sonra onun tərcüməsi kimi azərbaycancası verilmişdir. Məs.:

29. **Admiral**-admiral. Hərbi- dəniz flotlarında baş rütbə (s.5).

863.Kompas-kompas. Gəminin açıq dənizə müəyyən istiqamətdə getməsi üçün işlənən pribor (şəkil 17) (s.27).

Lüğətdə beynəlxalq kodla bağlı siqnal işarələrini ifadə edən hərflər verilmişdir. Məs.:

1.**A-** Beynəlxalq koda görə «Sürətimi sınayıram» ifadəsini bildirən birbayraqlı siqnal (s.5); 74.

74.B. Beynəlxalq koda görə, «Mən partlayıcı şey yükləyirəm və ya boşaldıram» ifadəsini bildirən birbayraqlı siqnal. (s.7); 323.

323. **323. V.-** beynəlxalq koda görə, «bəli» ifadəsini bildirən birbayraqlı siqnal. (s.13);

1425. **P-** Beynəlxalq koda görə «Suya adam düşmüşdür» mənasını bildirən birbayraqlı siqnal (s.40).

Beləliklə, hər bir hərf bir beynəlxalq kodu ifadə edir. Hər kodun öz mənası, simvolu göstərilir.

Lüğət dənizçiliyə aid ilk terminoloji lüğətdir. Konkret izahlar bu lüğətin əsas keyfiyyətlərindən biridir.

Lüğətdə omonim dənizçilik terminlərinə də müəyyən yer ayrılmışdır. Məs.: 97. **Bakştak 1-**bakştak. Ranqoutu, şluypka asılan tirləri və sairəni yandan bərkidən tros və ya zəncir.

98. **Bakştak2**- bakştar (səmt). Küləyə nisbətən gəminin diametral müstəvisi ilə 90 dərəcədən böyük və 180 dərəcədən kiçik bucaq əmələ gətirən kurs (s.7);

993. Lava1-Çayda üzən böyük buz parçası. 994. Lava2-sal. Sahilə bərkibilmiş sal (s.30).

Lüğətdə rus dilindən verilmiş terminlərin bir çoxu həm olduğu kimi verilmiş, həm də onun mənası açıqlanmışdır. Məs.:

2290. **Şturtros-şturtros.** Sükan çarxını sükan sektoru rumpeli ilə birləşdirən tros (şturtros zəncir və dəmir ştanqlardan ibarət olur. Vəzifəsi sükanı döndərmək-idarə etməkdir).

2291. **Ştık-bolt- ştık-bolt.** Yelkənin sahəsini azaltmaq lazım gəldikdə, yelkənlərin yan şkatorinalarını çəkən nazik ip) (s.61).

Göründüyü kimi, həmin lüğət iki dilin-rus və Azərbaycan dillərinin dənizçilik sahəsi ilə əlaqədar funksional asılılığı, xüsusən də iştirakçı dillərin terminoloji leksikasını, sözün struktur-semantik təbəqəsini öyrənir. Rus dilinə məxsus dəniz-çilik termini Azərbaycan dili vasitəsi ilə təsvir edilir. Rus dilindəki terminlər birinci, onun milli dildəki qarşılığı ikinci verilir. Milli dilə məxsus dənizçilik termin və terminoloji birləşmələri qısa və bütöv izahını tapır. Məsələn, qısa izah: 2300. ekipaj-ekipaj. Gəmi heyəti (s.62).

Tam izah. Bu izah çox zaman möhtərizə içərisində də genişləndirilir: port-port. Gəmilərin dayanması, yüklənib-boşaldılması, təmir və təchiz edilməsi üçün küləkdən, dalğadan və mümkün qədər buz axınından daldalanmış yer (portlar hərbi və ticarət portlarına ayrılır) (s.43).

Sözügedən lüğətdə həm ayrı-ayrı terminlər, həm də söz birləşməsi şəklində olan terminlər öz əksini tapır. Bunlar əsasən tərcümə yolu ilə, eləcə də kalkalaşmış şəkildə təqdim olunur. Bir çoxu mənbə dildə olduğu kimi milli dildə mənimsənilmiş terminlərdir. Bir sıra hallarda qoşa söz şəklində olan dənizçilik terminləri ilə də qarşılaşmaq olur.

Söz şəklində: 400. Vorot- dolamaçarx, vımpel- vımpel, kran-kran və s.

Söz birləşməsi şəklində: port voennıy-hərbi port, port nalivnoy- maye yük portu və s.

Qoşa söz şəklində: kontr-admiral-kontr-admiral, kontr-bizan-kontr-bizan və s.

Lüğətdə əvvəlcə ümumişlək söz olan sonra əlavə məna qazanaraq yeni məna kəsb etmiş vahidlərin terminoloji mənası göstərilir. Məs.: «yük» sözü «Dənizçilik terminləri lüğəti»ndə ayrıca əks olunmayıb. Bu sözün ümumişlək mənası 1.Daşınmaq, aparılmaq üçün hər cür şey, daşınmalı olan mal və s. Yükü boşaltmaq; Bu sözün Azərbaycan dilinin izahlı lüğətində digər üç mənası da verilmişdir. İkinci məna «Səliqə ilə üst-üstə yığılmış yorğan-döşək, xalça-palaz. Yük yeri; Həmin lüğətdə «yük» sözünün metaforikləşmiş mənası belə göstərilmişdir: «Ağır vəzifə, məsuliyyətli iş, məsuliyyət. Mən bu yükü öhdəmə götürə bilmərəm. M.İbrahimov; Dördüncü məna fizika termini kimi şərh olunmuşdur. Hər hansı bir cisimdə olan elektrikin miqdarı. Müsbət yük. (3: 572).

Qeyd edək ki, «yük» termininin dənizçilik sahəsi ilə bağlı terminoloji anlamı izahlı lüğətdə verilməmişdir. Yəqin ki, lüğətin həcminin artıqlığı üçün bu yol tutulmamışdır. Ya da həmin məna unudulmuşdur. İlk dənizçilik terminləri lüğətində isə «yük» sözü ilə bağlı 15 dənizçilik terminoloji birləşməsinin rus dilindən Azərbaycan dilinə tərcüməsi verilmişdir. Məs.:

482. Qruzovaya-vaterliniya - yük su xətti. Tam yüklü gəminin su səviyyəsinin kəsdiyi xətt. 483. Qruzovaya kniqa - yük dəftəri. 484. Qruzovaə marka- yük markası. Gəminin yük qaldırma qabiliyyətini göstərmək üçün burada çəkilən nişanlar. 485. Qruzovmestimostğ sudna- gəminin yük tutumu. 486. Qruzovoy kontrakt- yük kontraktı. Yük sahibi ilə gəmi sahibi arasında bağlanılan və gəmi ilə daşınan yükün siyahısı olan sənəd. Və s. (s.18). Bundan əlavə, *yük ambarının ağzı, yük ambarı, yük qaldırma qabiliyyəti, qarışıq yüklər, kontraband yüklər, kütləvi yüklər, duru yüklər, tez xarab olan yüklər* qəbildən olan dənizçiliklə bağlı termin birləşmələr də rus dilindən Azərbaycan dilinə tərcümə edilmişdir. (s. 18).

Bunlar əslində, rus dilindən kalka edilmişdir. Ümumiyətlə, kalka üsulu ilə dənizçilik terminloji vahidlərinin formalaşması geniş müşahidə olunur. Yuxarıdakı nümunələrdə də rus dilinin leksik-semantik modelinə uyğun qarşılıq dilin modelləri üzrə qurulmuşdur. S.Sadıqova da bu xüsusda yazır ki, kalkalar başqa bir dilə məxsus sözlərin, yaxud söz birləşmələrinin tərkib hissələrini ana dilinin müvafiq sözləri və söz birləşmələri ilə dəqiq tərcümə etmək üçün sözlərin modeli üzrə qurulmuş sözlər, yaxud ifadələrdir» (4: 87).

Yuxarıda modelini verdiyimiz termin birləşmələr rus dilindəki «qruzovoy lök», «qruzovoy tröm», «qruzopodcemnostğ», «qruzı qeneralğnıe», «qruzı kontrabandnıe», «qruzı massovıe», «qruzı nasıpnıe», «qruzı skoroportəhiesə» qarşılıbğı kimi səslənir.

Təhlil etdiyimiz lüğətdə 49 şəkil verilmişdir. Elə şəkillər vardır ki, onun hissələrinin adları da rəqəmlərlə göstərilmişdir. Məsələn, «trosı-troslar» məqaləsininin

illüstrativ görüntüsünü əks etdirən şəkil 36-da 4 hissədə- 1.Hörüklər, 2. Sapaqlar, 3. Vişlər, 4.Tellər- göstərilmişdir. Bunlar da «troslar»a aid lüğət məqaləsinin termin silsiləsidir (s. 54).

Əlavə verilmiş şəkillərinin də elmi-nəzəri əhəmiyyəti böyükdür. Məsələn, «teploxod» şəklində (əlavə V) dənizçilik , yəni teploxodun, quruluşu, hissələri ilə bağlı 65 terminin adı çəkilmişdir. Bu da həmin sahə ilə məşğul olan mütəxəssislərin bilik dairəsinin daha da genişlənməsinə gətirib çıxarır.

Bəhs olunan lüğətdə terminin variantı da təqdim olunur. Məsələn, termini tam anlamaq üçün onun mənbə dildəki variantı ilə yanaşı, Azərbaycan dilindəki məna qarşılığı-variantı da verilmişdir: stapel-stapel. Gəmi qayrılan yer; starbort-starbort, sağ tərəf və s. (s.50).

Lüğətin sonunda terminlərə aid ad göstəricilərinin əhəmiyyəti böyükdür. Adın-terminin qarşısında kod nömrəsi onun tez axtarılıb tapılmasına və istifadəsinə yardım göstərir. Məs.:

Açıq dəniz-1398, balıq gəmisi- 1932, 1751, zireh kəməri- 290 və s.

Nəticə olaraq göstərə bilərik ki, ilk lüğət kimi bunun məziyyətlərini və qüsurlarını göstərmək əhəmiyyətli sayıla bilər. İlk təşəbbüs kimi bu lüğət sonrakı dənizçilik terminlərinin tərtibi üçün də nümunə ola bilər. Hər şeydən öncə, iki dilin dənizçilik sahəsini əhatə edən terminoloji potensialı aşkar olunur. Bununla belə, lüğətdə bəzi leksikoloji və leksikoqrafik prinsiplər nəzərə alınmamışdır. Lüğətdə yerləşdirilən dənizçilik terminoloji leksikasının tərtib prinsiplərini nəzərdən keçirdikdə bu halı müşahidə etmək olur. Bu baxımdan terminoloji vahidlərin semantikasının təyinolunma dərəcəsinə görə lüğət məqalələrində yerləşdirilməsi, müxtəlif qrammatik işarələrdən, simvollardan, şəkillərdən sonra terminlərin verilməsi daha münasib olardı.

Terminlərə xas olmayan çoxmənalılıq, sinonimlik, çoxkomponentlilik, qeyri-dəqiqlik və s. mənfi hallara da bu lüğətdə təsadüf olunur. Amma bunlar həmin lüğətin əhəmiyyətini əsla azaltmır.

Ədəbiyyat

1.Həsənov H.Ə. Müasir Azərbaycan dilinin leksikası. Bakı, «Maarif», 1988.
2.Dənizçilik terminləri lüğəti. Bakı, SSRİ EA AzF Nəşriyyatı, 1942.
3.Azərbaycan dilinin izahlı lüğəti. II cild, Bakı, Elm, 1980.
4.Sadıqova S.Müasir Azərbaycan ədəbi dilində termin yaradıcılığı prosesi. Bakı, «Elm» nəşriyyatı, 2010.

Гюльнар Баширова

Первый словарь морских терминов в Азербайджане

Резюме

В статье говорится о достоинствах (преимуществах) «Словаря морских терминов», впервые (1942) увидевшего свет в Азербайджане. В словаре охвачены 2340 терминов, используемых в мореходстве. Здесь на азербайджанском языке даны не только термины, эквивалентные русским, а одновременно по отдельности уделено место системе знаков и сигналов, выражающих

международный код. Несмотря на то, что это первый словарь, он отвечает требованиям, предъявляемым к словарям. Рисунки, относящиеся к словарным статьям, повышают наглядность, облегчают пользование словарём. Уместно было бы отметить значение нового издания словаря.

Bashirova Gulnar

First dictionary of marine terms in Azerbaijan

Summary

The article deals with the advantages of "Dictionary of marine terms", which was firstly prepared in Azerbaijan. The terms in the dictionary cover 2340 terms used in navigation. Here not only terms are given in Azerbaijani equivalent ot Russian ones, but at the same time a separate place is given to system of signs and signals, expressing international code. Though it is the first dictionary, but it meets the requirements given to the dictionaries. The drawings belonging to the dictionary articles increase use of visual aids and makes easy use of dictionary. It would be appropriate to mention the importance of new edition of the dictionary.

Rəyçi: Heybətov Qələmşah
filologiya elmləri namizədi, dost

M.SEYIDALIYEVA
AUL
mirakel84@mail.ru

GRAMMATIK IM DEUTSCHUNTERRICHT KOMMUNIKATIV UND KREATIV

Açar sözlər: Qrammatika, mətn, cümlə, kommunikativ, kreativ
Ключевые слова: Грамматика, текст, предложение, коммуникативный, креативный
Key words: Grammar, Text, sentence, communicative, creative

Hinter dem Begriff der kommunikativen Grammatik steht eine ganz bestimmte sprachdidaktische Konzeption. Sie geht davon aus, dass die Menschen insgemein nicht reden, um einfach und irgendwie miteinander zu reden, sondern dass sie sich etwas mitteilen oder erfahren wollen, dass sie etwas präzisieren, abschwächen, betonen wollen und vieles andere mehr. Das aber sind allesamt keine grammatischen Kategorien, sondern Kategorien der Kommunikation: man verständigt sich, weil man im Hinblick auf den/die anderen bestimmte Bedürfnisse hat, und man spricht miteinander, weil man Bedürfnisse nur mit sprachlichen Mitteln ausdrücken und letzten Endes erfüllen kann.

Linguistisch gesehen bildet die Grundlage für die kommunikative Grammatik der pragmalinguistische Ansatz, der den Zweck, die Wirkung, den Ablauf und die Struktur von Kommunikationsabläufen in die Betrachtung miteinbezieht. Entsprechend werden auch viel mehr die linguistischen Disziplinen wie Textlinguistik und kontrastive Linguistik miteinbezogen. Dabei aber darf nicht vergessen werden, dass die sog. „Systemgrammatik“ ihren Platz im Unterricht dadurch nicht verliert. Man kann sagen, dass jeder kommunikativen Kategorie letzten Endes eine systemgrammatische Kategorie zugeordnet wird. Effekt eines solchen Eindringens in die Sprachstruktur ist aber nicht nur, dass man am Ende alle Begriffe und Regeln beherrscht, auf denen das Funktionieren einer Sprache

beruht (also deren gesamte Systemgrammatik im gewohnten Sinn), sondern die kommunikative Sprache verbindet die sprachliche Verständigung der Menschen mit dem grammatischen Regelwerk und dem Begriffsystem. Die Systemgrammatik kann als ein willkommenes Hilfsmittel zur besseren Beherrschung der Sprache verstanden werden.

Hauptmerkmale der Vermittlung von kommunikativer Grammatik.

Ausgehend von den oben ausgeführten linguistischen, psycholinguistischen und lernpsychologischen Überlegungen und Erwägungen kann man folgende Hauptmerkmale der kommunikativen Grammatik skizzieren:

a) Einbeziehung von Texten: Äußerung und Text als Gegenstand der

Sprachbeschreibung. Zum Erfassen einer grammatischen Struktur in ihrer kommunikativen Funktion reicht die Analyse auf der Wort- und Satzebene nicht aus. Grundlage einer solchen Untersuchung müssen kontextbezogene Äußerungen sein, aus denen Zweck und Aussageintention der verwendeten Grammatikstruktur klar zu ersehen sind.

b) Einbeziehung der kontrastiven Linguistik – Berücksichtigung der Muttersprache. Psycholinguistische Untersuchungen haben bestätigt, dass das Erlernen einer Fremdsprache vor dem Hintergrund der Muttersprache erfolgt (vgl. Voit/Martini 1993, 49). Entsprechend sollte der Grammatikunterricht auch auf Lernstrategien zurückgreifen, die bereits beim Erlernen der Muttersprache erfolgreich angewandt wurden.

c) Grammatik als Werkzeug sprachlichen Handelns

d.h. nicht nur die Vermittlung grammatischer Formen, sondern auch ihrer kommunikativen Funktion.(vgl. Janíková/McGovern 2001, 36).

d) Lerner sprechen und handeln in einem sinnvollen Kontext als sie selbst und nicht als Lehrwerkfiguren Nicht das Erlernen korrekter Formen ist das eigentliche Ziel des Grammatikunterrichts, sondern „der intentions- und situationsadäquate Gebrauch dieser Mittel durch den Lernenden" (Goetze 1993, 4).

e) Zum Grammatiklernen motivieren

Es ist nötig motivierende und aktivierende Arbeitsmethoden, spielerische Aktivitäten, induktive Grammatikvermittlung, authentische Texte und Kontexte verwenden, die den Interessen und Bedürfnissen der Studenten entsprechen.

f) Lernstrategien im Unterrichtsprozess zum Thema machen Im Zusammenhang mit kommunikativer Grammatik sind sowohl Sprachlern- als auch Sprachgebrauchsstrategien nötig. Zur Gruppe der Sprachlernstrategien kann man z.B. die Ableitung einer Grammatikregel aus Beispielen oder das Anwenden einer Grammatikregel in Übungen zuordnen. Zu den Sprachgebrauchsstrategien gehören vor allem „die so genannten Kompensationsstrategien, die zum Ziel haben, ein Gespräch in Gang zu halten, auch wenn man nicht über alle benötigten sprachlichen Mittel verfügt" (Bimmel 1993, 7).

Was ist und was will kommunikative Grammatik?

Traditionelle Grammatik	**Kommunikative Grammatik**
geht (meist) von konstruierten Beispielen aus	geht von authentischer Kommunikation aus
geht von Wörtern und Sätzen aus	geht von komplexen Texten aus
stellt die sprachliche Form in den Mittelpunkt	stellt die sprachliche Handlung in den Mittelpunkt – und damit auch die Auswahl aus Mitteln der Handlungsdurchführung (Stil)
gelangt über den Ausdruck zum Inhalt	gelangt über den Inhalt zum Ausdruck
gelangt über die Form zur Funktion	gelangt über die Funktion zur Form
untersucht formale Merkmale (z.B. Flexion)	untersucht funktionale Merkmale (z.B. Deagentivierung durch Passiv)
zielt auf das bessere Verstehen von Grammatik	zielt auf das bessere Verstehen von Kommunikation / Inhalt

zielt auf das grammatisch korrekte Produzieren von Sätzen	zielt indirekt auf das angemessene Produzieren von Kommunikation
besitzt ein normatives Potenzial	besitzt ein sprachkritisches Potenzial

Im Vergleich zu traditionellen, grammatikorientierten Unterrichtsmethoden sind pragmatisch-funktionale Ansätze der Grammatikvermittlung noch relativ neu.

Die kommunikative Methode In den siebziger Jahren entwickelte sich eine Kritik, die behauptete, dass kognitive und kreative Elemente im Konzept der audiolingualen und audiovisuellen Methode fehlen (die audiovisuelle Methode ergänzt das Verfahren der ALM um den Einsatz visueller Elemente als Semantisierungsund Gedächtnishilfe sowie als Impuls bei der Sprachanwendung; charakteristisch für diese Methode ist die Präsentation eines Bildes oder einer

Bilderfolge und eines auf Tonband aufgenommenen Dialogs; durch mehrfaches Wiederholen von Bild und Text werden die Dialoge auswendig gelernt). (vgl. Janíková/McGovern, 2002, 15)

Ziele: Oberstes Ziel ist die „kommunikative Kompetenz“, d.h. die Fähigkeit der Lernenden, in verschiedenen Lebenssituationen angemessen handeln zu können. Hauptziel ist das fremdsprachliche Können, wobei unter Können nicht nur die produktive Sprachwendung verstanden wird, sondern die Entwicklung aller vier Fertigkeiten (Hören, Sprechen, Lesen und Schreiben). Authentischer Gerbrauch der Sprache.

Methodische Prinzipien

- Lernerorientierung
- kreativer Umgang mit der Sprache
- bewusstes (kognitives) Lernen
- Entwicklung von Verstehens- und Lernstrategien

Charakteristisch für den kommunikativen Ansatz ist, dass es eine in sich geschlossene „Methodik“ des Fremdsprachenunterrichts nicht gibt. Die Rollen von Lerner und Lehrer werden verändert. Der Lehrer ist weniger Wissensvermittler, sondern wird zum Helfer im Lernprozess. Für diese Methode gibt es keinen festen Kanon an Übungen. Sie sollen interessant sein und können bis zur freien Äußerung führen. Wie es oben erwähnt wurde, ist das eigentliche Ziel des

Grammatikunterrichts der authentische Gebrauch der Sprache durch die kommunikative Methode und alle vier Fertigkeiten (Hören, Sprechen, Lesen Schreiben) sollten sich entwickeln. Die motivierenden und aktivierenden Arbeitsmethoden unterstützen die Kreativität, die bei der Durchführung von einigen Übungen auch ihre Rolle spielt. Aktivität, Selbständigkeit und Freude etwas Neues zu erleben sind auch u.a. Merkmale der Kreativität, die mit dem kommunikativen Ansatz eng zusammenhängen.

Was ist Kreativität?

Zur Zeit haben die Lehrer/- innen mit der Einführung des neuen Lernplans, mehr Möglichkeiten, Kreativität der Lerner zu entwickeln und zu unterstützen, denn jeder Mensch verfügt über ein Sprachpotential und kann sich in kreativer Weise äußern und es wäre gut dies auszuwerten. Meiner

Erfahrung nach, kann ich sagen, wenn sich die Schüler/- innen im Sprachunterricht mit den kreativen Übungen und Tätigkeiten beschäftigen, behalten sie die Grammatikregeln besser, sie sind motiviert und es macht ihnen Spaß, selbst aktiv zu sein. Kreativität ist nach Pommerin (1998) durch folgende Merkmale gekennzeichnet:

- Originalität,
- Erfindung- Entdeckungsgabe,
- Offenheit,
- Produktivität und Gedankenflüssigkeit,
- Flexibilität

Die Kreativität der Schüler/- innen kann man im Unterricht folgendermaßen ausnutzen: • Sprachlern(spiel) / schöpferisch-spielerisches Lernen
• fremdsprachliches Theater
• kreativ-produktiver Umgang mit literarischen Texten
• Bild und Sprache
• aktivierende Unterrichtsmethoden
• viel Kommunikation und Diskussion mit und unter den Schülern
• Ihre Selbständigkeit unterstützen
• die Schüler zu eigenen Meinungen und Ideen führen.

Die Unterrichtssequenzen weisen meist dieselbe Grundstruktur auf:

1. eine Phase mit einleitenden Übungen
2. die Präsentation eines Modelltextes, der dann von den Schüler/- innen rekonstruiert wird
3. danach verfassen die Schüler/- innen eigene Texte
4. diese Texte werden korrigiert , verbessert und dann von ihnen untereinander ausgetauscht.
5. die Strukturen werden mit Hilfe weiterer Unterrichtsaktivitäten gefestigt

Motivation zum Lernen spielt im Unterricht eine große Rolle. Jeder Lehrer stellt sich schon bei der Vorbereitung auf seinen Unterricht eine Frage: Wie kann ich die Schüler/- innen zum Lernen motivieren und ihr Interesse zum

Lernen aktivieren? Die moderne Didaktik betont den Stellenwert der Motivation im Fremdsprachenunterricht, ganz gleich, ob es sich um die sog. Motivationsphase zu Beginn einer Unterrichtsstunde, um Aspekte der inneren / äußeren oder um die sog. Selbst- oder Fremdmotivation handelt.

Literaturverzeichnis

1. Engel,U.,Tertel, R.: Kommunikative Grammatik Deutsch als Fremdsprache. München: ludicum Verlag,1993.
2. Neuer,G., Hunfeld, H.: Methoden des fremdsprachlichen Deutschunterrichts. Kassel: Langenscheidt,1992
3. Gerngroß,G.,Krenn, W., Puchta ,H.: Gramatik kreativ. Berlin:Langenscheidt, 1999

М.Сейидалиева

Коммуникативная и креативная грамматика на уроках немецкого языка

Резюме

В статье говорится об основных признаках, целях и методах коммуникативной и креативной грамматики на уроках немецкого языка, а также указывается на важность мотивирования студентов. Очень важно применять на уроках мотивирующие и активирующие методы, упражнения игрового типа, реальные тексты, совпадающие с интересами студентов. Эти методы поддерживают креативность, которая также играет большую роль в обучении. Занимаясь креативными упражнениями, студенты запоминают грамматические правила лучше. Это мотивирует их и активирует.

M.Seyidaliyeva

Communicative and creative grammar at German lessons

Summary

This article deals with the main signs, the purposes and methods of communicative and creative grammar at German lessons, and also it is indicated the importance of motivation of students. It is very important to apply motivating and activating methods, exercises of game type, the real texts coinciding with interests of students at lessons. These methods support creativity which also plays key role in training. Being engaged in creative exercises, students remember grammatical rules better. It motivates and activates them.

M.Seyidəliyeva

Alman dili dərsində kreativ və kommunikativ qrammatika

Xülasə

Məqalədə alman dili dərsində kommunikativ və kreativ qrammatikanın əsas amillərindən danışılır, həmçinin tələbələri həvəsləndirməyin əhəmiyyəti vurğulanır. Çox vacibdir ki, dərsdə tələbələri aktivləşdirən metodlardan, oyun tipli çalışmalardan və tələbələrin marağına uyğun olan mətnlərdən istifadə edilsin. Bu metodlar təlimdə böyük rol oynayan kreativliyi artırır. Kreativ çalışmalar edərkən tələbələr qrammatik qaydaları daha yaxşı yadda saxlayırlar.

Rəyçi: Qönçə Əbdülrəhimova
filologiya elmlər namizədi, dosent

AYGÜN ABDULLAYEVA
ADU
aygun 1976@rambler.ru

İNKARLIĞIN QÜVVƏTLƏNDİRİLMƏSİNDƏ ÜMUMİ – UNİVERSAL VƏ XÜSUSİ HALLAR

Açar sözlər: inkarlıq, intensivlik, emosionallıq, qradasiya, nisbi maksimallıq
Ключевые слова: отрицания, интенсивность, эмоциональность, градация, относительная максимальносте
Key words: negation, intensity, emotion, graduation, relative to the maximum

İnkar / təsdiq qarşılaşdırılması dilçilikdə həm qrammatik kateqoriya, həm də inkarlıq vasitələri kimi tədqiq edilir. Y.Seyidov inkarlıq kateqoriyasından bəhs edərkən onun felin təsdiq və inkar formalarının üz-üzə dayanması fonunda müəyyənləşməsini (yazmaq-yazmamaq, bilmək-bilməmək), kateqoriyanın yeganə formal qrammatik göstəricisinin *–ma, -mə* şəkilçisinin olmasını qeyd edərək yazır: "Bu şəkilçi kateqoriyanın inkarlıq bildirən komponentinin göstəricisidir; təsdiq bildirən tərəf sıfır əlamətidir" (3, 94). Bununla belə, dildə təsdiq və inkar qarşıdurması yaradan digər vasitələr də vardır. Eyni cəhət german dillərinə də şamil olunur. Yəni bu dillərdə də kifayət qədər vasitələr vardır ki, onlar təsdiq/inkar qarşıdurması əmələ gətirir. Alman və Azərbaycan dilləri üçün inkar vasitələrinin tam arsenalı S.Abdullayev tərəfindən verilmişdir (1).

Dildə intensivlik yaradan vasitələr vardır. İntensivləşmə inkar və təsdiqə də xas xüsusiyyətdir. Deməli, inkar və təsdiq dərəcələnə bilir. İnkarlığın da, təsdiqin də dərəcələnmə çalarlıqları vardır. Ədəbiyyatda bu məsələ qeyd olunur (4; 5).

Dilçilik ədəbiyyatında inkarlığın, o cümlədən də təsdiqliyin dərəcələnmə, çalarlıq imkanların dan bəhs olunarkən, bəzən bu dərəcələnməni əmələ gətirən vasitələrə də toxunulur. Şübhəsiz ki, dərəcələnmə varsa onu əmələ gətirən vasitələr də olmalıdır. Digər tərəfdən, dərəcələnmə ümumi anlayışdır. Qradasiyanın qiymətləri ola bilər. Yəni dərəcələnmə apararkən bir əlamətin az və ya çox olması, maksimal və ya maksimaldan az olması qeyd edilə bilər. Dərəcələnmənin konkret sərhədləri yoxdur. İntensivlik kəmiyyətlə əlaqələndirilsə də, təsdiq və inkar üçün intensivliyin konkret dərəcələri təyin olunmamışdır və bu, müəyyən mənada mümkün deyildir. S.Abdullayev yazır: "Həqiqətən müəyyən bir fikrin təsdiq və ya inkar olunması faktı aşağıdakı parametrlərə əsaslanır: 1)sıfır (adi-neytral) ifadə imkanı; 2)təsdiq və inkar effektin maksimallaşdırılması; 3)minimallaşdırma effekti. Bu anlayışlar dilçilik ədəbiyyatında inkarın (qismən də təsdiqin) qüvvətləndirilməsi və zəiflədilməsi terminləri ilə qeyd olunur. Dil faktları sübut edir ki, təsdiqlik və inkarlıq bütün vəziyyətlərdə vahid intensivliyə malik olan fikir və emosiya işarələri kimi yaranmayıb, məntiqi-semantik və kommunikativ-praqmatik münasibətlərin ən müxtəlif çalarlarını əhatə edir. Nisbi qradasiya dedikdə yalnız pozitiv və neqativ emosiyaların ifadəsi deyil, geniş mənada məntiqi və emosional-ekspressiv variantlaşma nəzərdə tutulur" (1, 116).

A.Aslanov Azərbaycan dilində inkarlığın qüvvətləndirilməsində dörd vasitədən istifadə olunmasını qeyd etmişdir. Müəllifin fikrinə görə, birinci vasitə inkar

ədatlarının (*heç, əsla, qətiyyən, qəti*) işlədilməsidir. Bu ədatların işlənməsi nəticəsində cümlədə ifadə olunan inkarlıq qüvvətlənir. Bu ədatlar, əsasən, xəbərdən əvvəl gəlir. Məs.: *Həkimin bu sözləri Məşədi Allahverdinin heç beyninə batmadı. Qulağına heç girmədi* (Azərbaycan hekayələri); *Mən diqqətlə ona baxdım, xəstə olduğuna heç şübhəm yoxdur* (C.Cabbarlı); *Onlar bizim təkliflərimizi qətiyyən bəyənmədilər* ("Kommunist" qəzeti); *Mən bu işə qəti razı deyiləm. Burada qətiyyən həqiqət yoxdur* ("Kirpi" jurnalı); *Bu müddət ərzində mən onu əsla görmədim* (H.Mehdi); *Mən qətiyyən Sizin qalaçadan çıxmağınıza razı ola bilmərəm* (S.Rəhman); *Mən əsla and içə bilmirəm. Belə kor beyinlikcə əsla yaramaz* (S.Rəhman).

İkinci vasitə inkar sözlərinin və ya inkari xəbərlərin təkrar edilməsidir. Bu zaman inkar qüvvətlənir. Məs.: *Əcəba mən özümü öldürməklə zalımların ürəyimi yanacaq. Yox, yox, yox, əsla. Yox, yox, yox, onu deyə bilmərəm, deyə bilmərəm. Barat, deyə bilmərəm* (C.Cabbarlı); *Yaxşı olmadı, heç yaxşı olmadı* (Ə.Əbülhəsən).

A.Aslanov cümlədə and bildirən söz və ifadələrin işlədilməsi ilə inkarlığı qüvvətləndirmənin əsas vasitəsi sayır və bu misalları göstərir: *Yox əşi, yoldaş Abdullayev, vallah gedə bilmərəm* (Ə.Əbülhəsən); *Allaha and olsun ki, mənim bu işdən xəbərim yoxdur. Canıma and olsun ki, görməmişəm* ("Kirpi" jurnalı).

Nəhayət, A.Aslanov inkarlığın qüvvətləndirilməsi üçün danışıq zamanı intonasiyadan istifadə olunmasını qeyd etmişdir. Onun fikrinə görə, danışan şəxs müəyyən emosional vəziyyətlə (həyəcanla) əlaqədar olaraq inkarlıq ifadə edən sözü daha yüksəkdən, xüsusi intonasiya ilə deyir. Məs.: Dedim ki, getməyəcəyəm… Onu bir dəfəlik bil ki, istəmirəm (2, 49).

İntensivlik kateqoriyasına sahə prizmasından yanaşmaq dilçilikdə hazırda geniş şəkildə tətbiqini tapmışdır. Qeyd etmək lazımdır ki, intensivlik sahəsi və bu sahənin daxili asılılıq münasibətlərinə görə şərh etmək, pozitiv və neqativ markerli, "işarəli" intensivlik sahələrində daxili asılılıq münasibətlərini aşkara çıxarmaq ötən əsrin 70-ci illərindən sonra dilçilik arsenalına daxil edilmişdir. Dilçilikdə "inkarlıq effektinin maksimallaşdırılması", "inkarlıq effektinin minimallaşdırılması", "təsdiqlik effektinin minimallaşdırılması", "təsdiqlik effektinin maksimallaşdırılması" kimi anlayışları ilk dəfə professor S.Ə.Abdullayev istifadə etmişdir (1). Deməli, alim inkar və təsdiqin dərəcələnməsində konkret kəmiyyət hədləri qoymur. Burada maksimallaşdırma və minimallaşdırmadan söhbət aparılır. Təsdiq və ya inkar ya maksimallaşdırılır, yaxud da minimallaşdırılır. Lakin bu proses müəyyən orta neytral vəziyyətdən başlanır. Orta vəziyyətdən maksimallaşma pikinə qədər də aralıq nöqtələr tapmaq mümkündür. Deməli inkarlığın qüvvətləndirmə vasitələri bir tərəfdən eyni funksionallığa malikdirsə, yəni inkarlığı qüvvətləndirirsə, digər tərəfdən qüvvətləndirmə dərəcəsindən asılı olaraq bir-birindən fərqlənə bilirlər. Bu baxımdan S.Abdullayev inkarlıq effektinin nisbi maksimallıq hədlərini müəyyənləşdirməyi zəruri sayır. Deməli, müəllif inkarlığın qüvvətləndirilməsində ümumi və xüsusi halları qəbul edir. Ümumi hallar həm də universal hallardır. Qeyd edilən müstəvidən çıxış edərək, S.Abdullayev bir sıra yeni anlayışlar daxil edir: 1) əlamətin ümumiləşdirilməsi prizmasından inkarlaşdırma; 2) minimal əlamət vahidini inkarlaşdırmaq prizmasından maksimallaşdırma; 3) mənfi obraz prizmasından inkarlaşdırma; super anlayışlar prizmasından inkarlaşdırma; 4) hərəkətin intensivliyi prizmasından inkarlaşdırma; təzad və eyniləşdirmə prizmasından inkarlaşdırma (1, 112-133). Bütün bunlar inkarı maksimallaşdırma ilə bağlı anlayışlardır. Onlar

inkarlığın qüvvətləndirilməsinin ümumi və xüsusi hallar toplusunu təşkil edir. Lakin onu da unutmaq olmaz ki, inkar və təsdiq bir-biri ilə üzvi şəkildə bağlıdır. İnkar maksimallaşdıqca, təsdiq minimallaşır. Təsdiq minimallaşdıqca inkar maksimallaşır. Kommunikasiya prosesində eyni hadisənin, əlamətin təsdiq və inkarı heç də eyni zamanda canlandırılmır, ötürülmür. Adresat çox zaman ya təsdiqi, ya da inkarı qəbul edir. Təsdiqlə inkarın üzvi bağlılığı assosiativ olaraq ötürülənin əks qütbunu canlandırır. Canlandırma adresatın qavrama sistemində özünü göstərir. Əgər bu hadisədirsə, deməli o biri qütbdəki hadisə deyil. Əgər adresat bunu etməyəcəksə, deməli onun əksini edəcəkdir.

"Bir universal qanunauyğunluq kimi bütün dillərdə inkar yönlü fikrin maksimallaşdırılması, optimal intensivlik həddində təqdim olunması "ümumiləşdirmə" və "qətilik" semaları ilə inkarlıq semasının üzvi əlaqə və vəhdətdə tez-tez reallaşması da məhz bununla əlaqədardır. Təsadüfi deyildir ki, ümumiləşdirmə və qətiləşdirmənin həcmi, bunların daxili miqyasları, zaman və məkana görə yayılma intensivliyi inkarlaşdırma effektinə bilavasitə təsir göstərir və bu parametr daxilində nisbi dərəcələnmə imkanı yaradır. Məsələn, *Niemand in der Welt kann dir helfen* söyləməsində *Niemend in dieser Stadt kann dir helfen* formasına nisbətən daha miqyaslı ümumiləşmə və qətilik, bununla da daha əhatəli və güclü inkarlaşdırma ifadə olunur. Hər iki cümlənin sintaktik semantikasını aşağıdakı minimal məna elementlərinin məcmusu kimi təsəvvür etmək olar: 1) ümumiləşdirmə; 2) qətilik; 3) inkarlıq. Həmin cümlələr məhz ifadə olunan semaların daxili intensivlik potensialına görə bir-birindən fərqlənir. Belə ki, I cümlə II cümləyə nisbətən aşağıdakı əlavə informasiyalar, məna çalarları da ifadə edir; 1) mütləq-istinasız ümumiləşdirmə; 2) mütləq qətilik, qeyd-şərtsizlik; 3) hərəkətin icrasının mümkünlüyünə münasibətdə mütləq istisna və təcridetmə.

Dildə "ümumiləşdirmə və "inkarlaşdırma" semalarının daimi reallaşdırıcıları kimi çıxış edən qeyri-müəyyən əvəzlik və zərflər həcm intensivlikli müxtəlif söz və ifadələrlə əlaqələnmədə həm də potensial intensiv inkarlıq markerləri kimi çıxış edir. Müxtəlif sahə konstituentlərinin diametral ümumiləşdirmə sferasına cəlb oluna bilən isimlərlə birləşməsi *(kein/auch nicht ein Mensch, keine Seele, kein Teufel, kein Aaas…; heç bir adam (bəni insan) ins-cins, heç bir əclaf* və s.) şəxs və əşya anlayışı çərçivəsində emosional və funksional-üslubi variantlıq imkanını xeyli genişləndirir. Müq. et: *Hana toxumaqda da bir adam qabağına çöp sala bilməzdi* (S.Rəhimov, 2, 130); *Heç bir insanın həyatında sakitlik deyilən şey, əbədi sükunət yoxdur.* (S.Rəhimov, 2, 138)" (1, 117-118).

Verilmiş nümunədə ümumiləşdirmə "heç bir+ isim" modeli ilə aparılmışdır. Bir halda "adam", digər halda isə "insan" artırılması ilə "heç bir adam" və "heç bir insan" ümumiləşdirilməsi yaradılmışdır. İnsana və adama münasibətdə inkar edilən xüsusiyyət qeyd olunan birləşmə ilə maksimal intensivlik qazanmışdır. Həmin nümunələrdən birini bir qədər genişləndirək: "Heç bir zaman, heç bir insanın həyatında sakitlik deyilən şey, əbədi sükunət yoxdur". Bu cümlədə daha bir ümumiləşdirici inkar əlaməti iştirak edir. İnkar birinci halda şəxsə subyektə görə maksimalaşırdısa, ikinci halda zaman görə inkar da maksimallaşdırılmışdır. Bu halda da əlamətin ümumiləşdirilməsi prizmasından inkarlaşdırma aparılmışdır. Belə olduqda iki maksimallaşdırılmış inkarın istifadə olunması zərurəti və ya mümkünlüyünü doğuran səbəbinin olması aşkara çıxır. Əslində, heç bir adamın

həyatında sükunətin yoxluğu iddia olunursa, bu sükunətin heç bir zaman olmamasını qeyd etməmək də mümkündür. Qeyd olunma inkarlaşdırmanı təkrar gücləndirmə məqsədini daşıyır. Dil vasitələri ilə ötürülən hər bir informasiya əlavə şərh və yozumlar üçün müəyyən mənada yer qoyur. Yaxud belə situasiyalarda ünsiyyət iştirakçılarının mövqelərinin nəzərə alınması da lazım gəlir. Kommunikantlardan biri digərinin fikrini qəbul etməyə bilər. Məsələn,

A – *Heç bir insanın həyatında sakitlik deyilən şey, əbədi sükunət yoxdur.*

B – *Bəzən olur* (və ya B – *Elə zaman ola bilər ki, sükunət olsun*).

A – *Mən sənə deyirəm ki, "heç bir zaman, heç bir insanın həyatında sakitlik deyilən şey, əbədi sükunət yoxdur*".

B – *Bəs yuxu, yuxu zamanı, yuxu vaxtı? Yuxuya ki, kiçik ölüm deyirlər. Bəs ölüm?*

Qeyd edilən şəkildə dialoqu kifayət qədər uzatmaq mümkündür. Belə dialoq mahiyyətcə əlamətin ümumiləşdirilməsi prizmasından inkarlaşdırmanın maksimallaşdırılmasını inkar etmir. Onun əlavə vasitələrlə inkarlaşdırmasının gerçəkləşməsinin səbəblərini üzə çıxarır. İnkarın müxtəlif istiqamətlərdə intensivləşməsi və əlamətin ümumiləşdirilməsi ilə inkarlaşdırma istiqamətlərinin artması ümumiləşdirmə və qətiləşdirmənin həcmi ilə bağlılığa malikdir. "Psixoloji kateqoriya kimi inkar (həm də qiymətləndirmə) iki aspektə əsaslanır: koqnitiv və emosional. Koqnitiv aspekt ondan ibarətdir ki, idrak inkar vasitəsilə A və qeyri-A kimi ikikomponentli asimmetrik struktur əldə edir. Emosional aspekt o zaman reallaşır ki, o, tərəf müqabilin emosional vəziyyətinə yönəlsin" (6, 31).

Yuxarıdakı dialoqda B diktoru A-ya etiraz etməklə onun emosional vəziyyətinə təsir göstərir.

Zaman və məkan fenomenlərinə, habelə hərəkət, sürət effektlərinə münasibətdə dərəcələmə, fəal fərqləndirmə imkanlarının daha güclü olması faktı bilavasitə dil sistemində intensiv inkarlıq iyerarxiyasının bütöv bir mikrosisteminin olmasını şərtləndirir. Söhbət hər hansı bir mətndən kənarda da fikrin ifadəsini neytrallıqdan çıxaran, zaman, məkan və hərəkət fenomenlərinə münasibətdə ümumiləşdirmə ifadə edən *nimmer, nimmermehr (nie und nimmermehr), keinesmerds. Keinesfalls, keinerlei, auf keinen Fall, unter keinen Umstanden; heç (bir) vaxt, heç (bir) zaman, heç vəchlə, əsla, qətiyyən, dünyada, dünyasında, ömründə, heç cür* və s. kimi mütləq ekspressivlik işarələrindən gedir. Həmin "super" neqativlər inkarlığın emosional-ekspressivliyinin yüksələn dərəcəliliyini əks etdirir.

Aşağıdakı nümunədə inkarlıq minimallaşdırma istiqamətində gedir. Qorxunun olub-olmaması cəhəti əsas götürülür. Qorxunun varlığı neytral səviyyəni nəzərdə tutursa "elə bir qorxunun olmaması" minimallaşmanı ifadə edir.

An manchen Tagen schwitze ich einfach so, **ohne dass** ich es merke , und es scheint keine Rolle zu spielen. (Rainer Merkel, „Lichtjahre entfernt" Fischer Verlag, Frankfurt am Main 2009, S. 22) - Bəzən heç özüm də hiss etmədən elə belə tərləyirəm, amma bunun elə bir qorxusu yoxdur.

Beləliklə, alman və Azərbaycan dillərinin materialları göstərir ki, dil universalisi kimi, inkarlıq semantik parçalanmayan məna kateqoriyasıdır. Bu kateqoriya daha kiçik semantik elementlərlə təyin oluna bilmir. İnkar, ən sadə halda, cümlənin məna elementidir. Cümlənin komponentləri arasında yaradılmış əlaqə danışanın

fikrinə görə deyildir. Başqa sözlə desək, presuppozisiyadakı təsdiq cümləsini danışan rədd edir, onun doğruluğunu qəbul etmir.

Ədəbiyyat

1. Abdullayev S.Ə. Müasir alman və Azərbaycan dillərində inkarlıq kateqoriyası. Bakı: Maarif, 1998.
2. Aslanov F. Müasir Azərbaycan dilində kəmiyyət və inkarlıq kateqoriyaları. Bakı: EA nəşri, 1963.
3. Seyidov Y. Azərbaycan dilinin qrammatikası (Morfologiya). Bakı: BDU nəşri, 2002.
4. Виноградов В.В. О категории модальности и модальных слов в русском языка. М., 1950.
5. Владимирская Л.М. Философско-лингвистический потенциал категории утверждения/отрицания в современном немецком языке. Барнаул, 1997.
6. Железко П.С., Роговин М.С. Исследование отрицания в практической и познавательной деятельности. Кишинев, 1985.

А.Абдуллаева

Обще-универсальные и особые случаи в укреплении отрицания

Резюме

В статье анализируются общие и особые случаи укрепления отрицания на основе материалов немецкого и азербайджанского языков.

Как известно, утверждение и противостояние отрицания в языкознании, рассматривается как грамматическая категория, и как средствами отрицания. Исследование показывает, что в языке существуют и другие средства противостояния, которые образуют утверждение и отрицание.

Одинаковая черта применяется и к разносистемным немецкому и азербайджанскому языкам.

A.Abdullayeva

General, universal and special cases in denial strengthening

Summary

It' s analysed the general and special cases about intensity of denial in article. As it is known statement and opposition in denial in linquistics, is considered as grammatical category and as means of denial. The investigation shows there are other means of opposities exisr which form the statement and denial. The same feature is also applied to different system languages such as azeri and german.

Rəyçi: Professor Sərxan Abdullayev

AYŞƏN İBRAHIMOVA
ADU
aysheni@mail.ru

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNİN ZƏNGİNLƏŞMƏSİNƏ TƏSİR EDƏN SOSİAL-KULTURALOJİ AMİLLƏR

Açar sözlər: sosial-kulturaloji amillər, mədəniyyət, ədəbiyyat, incəsənət.
Key words: social-cultural factors, culture, literature, art.
Ключевые слова: Социальных и культурных факторов, культура, литература, искусство.

Respublikamız müstəqillik əldə etdikdən sonra daha da inkişaf etmişdir. Hazırda müxtəlif dünya dövlətlərilə hərtərəfli əlaqələr qurulmağa başlanılıb. Mədəniyyət sahəsində də illərdən bəri formalaşmış əlaqələr daha da inkişaf etdirilir və genişləndirilir. Milli mədəniyyətimiz qlobal mədəni sferaya inteqrasiya etməklə yanaşı müasir dünyada formalaşmış müxtəlif mədəniyyət nümunələri, ədəbiyyat və incəsənət işləri də Azərbaycanda tanınır, milli mədəni prosesin inkişafına müsbət təsir göstərir.

Mədəniyyət nədir sualına indiyə kimi müxtəlif şəkildə izahlar verilmişdir. Bu sahədə ilk addımlar – Adolf Bastian (alman), Edvard Teylor (ingilis), Frans Boas (amerikalı) və s. kimi bir neçə antropoloq tərəfindən hələ XIX əsrdə atılmışdır. Məsələn, E.Teylor (1897-ci ildə) «mədəniyyət» anlayışını birbaşa insan fəaliyyəti ilə əlaqələndirərək belə bir tərif verirdi: «Mədəniyyət və ya sivilizasiya, geniş-etnoqrafik mənada götürüldükdə, bilik, inam, incəsənət, mənəviyyat, qanun, adət-ənənə və cəmiyyətin bir üzvü kimi insanın əldə etdiyi hər hansı digər bacarıq və vərdişlərindən ibarət bir tamlıqdır».

Mədəniyyətlərarası əlaqələr –Müasir dövrümüzdə, «mədəniyyət» anlayışının müxtəlif mənbələrdə açıqlamasını görmək olar. Məsələn, Vikipedia internet ensiklopediyası «mədəniyyət» sözünün əsasən 3 mənada işləndiyini qeyd edir:

 təsviri incəsənət və humanitar elmlər sahəsində əla zövq;

 simvolik fikir və sosial tədqiqatların həcmindən asılı olan bilik, inam və davranışın birləşmiş modeli;

 hər hansı təşkilatı və ya qrupu xarakterizə edən rəy, dəyər, məqsəd və təcrübələrin toplusu.

«Azərbaycan dilinin izahlı lüğəti» də bu sözü 3 mənada şərh edir:

1. İnsan cəmiyyətinin istehsal sahəsində ictimai və mənəvi həyatda əldə etdiyi nailiyyətlərin məcmusu.

2. Hər hansı bir xalqın və ya sinfin müəyyən dövrdə əldə etdiyi belə nailiyyətlərin səviyyəsi; təsərrüfat və ya zehni fəaliyyətin hər hansı birisinin inkişaf səviyyəsi;

3. Savadlılıq, elmlilik, biliklilik; cəmiyyətdə özünü apara bilmə, tərbiyəlilik; mədəni adamın tələblərinə uyğun olan həyat şəraitinin məcmusu.

Mədəniyyət dəyişən, təkmilləşən tarixi kateqoriyadır. Buna görə mədəniyyət də başqa ictimai hadisələr kimi inkişaf edir, şaxələnir, yeni-yeni keyfiyyətlər qazanır. Mədəniyyətin inkişafı üçün insan fəaliyyəti əsas vasitədir. Bəşəri mə-

dəniyyət insanın fiziki və zehni, xarici və daxili fəaliyyətinin nəticəsində tərəqqi edir. Hər yeni nəslin fiziki və zehni nailiyyətləri mədəniyyətin inkişafı üçün mənbədir. Bu nailiyyətlər keçmiş nəslin təcrübəsi əsasında, ona istinad olunaraq əldə edilir. Yəni, hər bir insan dünyaya göz açdığı gündən etibarən doğulduğu yerin, etnik tərkibin və aid olduğu sosial sistemin mədəniyyətinin təsirinə məruz qalır, bu təsir altında böyüyüb inkişaf edir, həmin cəmiyyətin tərkib hissəsini təşkil edir.

Dilçilik sahəsində mədəniyyət və dil arasında əlaqələr əsasən XX əsrdən başlayaraq tədqiq edilməyə başlanılıb. Məsələyə tam aydınlıq gətirmək üçün 3 əsas sualı cavablandırmağa çalışaq:

1) Dil mədəniyyətin tərkib hissəsi hesab edilə bilərmi?

2) Bəs mədəniyyət necə, dilin tərkib hissəsidirmi?

3) Əgər mədəniyyət və dil bir-birinin tərkib elementini təşkil edirsə, onlar arasında nə kimi əlaqələr var? Biri digərinə təsir edirmi?

Birinci sual belə bir cavabla izah olunur ki, dil özü yalnız insan müəyyən qədər özünü dərk edəndən sonra yarana bilərdi. Dil işarələr sistemidir, bu isə birbaşa mədəniyyətin predmetidir. Bu işarələr sistemini yalnız mədəni baxımdan inkişaf etmiş insan dərk edib tətbiq edə bilər. Buradan da belə nəticə çıxarmaq olar ki, dil birbaşa olaraq mədəniyyətin tərkib hissəsi deyil, burada insan faktoru var. Yəni dil yalnız insan vasitəsilə mədəniyyətin tərkib hissəsinə çevrilir, insan inkişaf etdikcə mədəniyyət də, dil də nəsillərdən-nəsillərə ötürülür.

İkinci suala aydınlıq gətirən cavab ondan ibarətdir ki, mədəniyyət haqqında dilçilərin qəbul etdiyi əsas fikir onun tam şəkildə dildə əks olunmasıdır. Heç də təəccüblü deyil ki, tədqiqatçıların əksəriyyəti dili hətta mədəniyyətin güzgüsü adlandırırlar. «Dünyanın mədəniyyət xəritəsi özünəməxsus olub, müxtəlif xalqlarda fərqlənir. Buna bir neçə amil təsir edir: coğrafiya, iqlim, tarix, sosial vəziyyət, adət-ənənələr, həyat tərzi və s. Dil bütün bunları özündə əks etdirir». Dünya xalqlarının hər birinin özünəməxsus mədəniyyəti olsa da, bu mədəniyyət milli çərçivə ilə məhdudlaşmır, mədəniyyətlər bir-birinə təsir edir. Bu proses tarixi proseslərin, beynəlxalq əlaqələrin təsiri altında baş verir. Bütün bunlar isə mütləq hər bir xalqın dilində öz əksini tapır.

Üçüncü sual dil və mədəniyyət arasında əlaqələri araşdırmaqda kömək edir. Yuxarıda qeyd edilənlərdən belə bir nəticə əldə etmək olar ki, dil və mədəniyyət bir-birilə qarşılıqlı asılılıq vəziyyətindədir. Dil mədəniyyətin, mədəniyyət isə öz növbəsində dilin inkişafına imkan və şərait yaradır. Dünya ədəbi dillərinin meydana gəlməsi, formalaşması, inkişaf edib zənginləşməsi mədəniyyətlə sıx bağlıdır. Millətin əsas əlamətlərindən olan dil, o dildə danışan xalqın milli mədəniyyətini ifadə edir.

XIX əsr alman dilçisi Vilhelm Humbolt qeyd edirdi: «Nəsillər bir-birini əvəz edir, amma dil qalır, hər nəsil dili ondan əvvəlkilərin qoyduğu formada gəlib görür, amma dil həmin nəsildən daha güclü və qüdrətli olur. Nəsillərdən heç biri dilin tam dərinliyinə varmır və onu gələcək nəsillərə ötürür. Dilin xarakteri, özünəməxsusluğu isə yalnız bir neçə nəsil dəyişdikdən sonra bilinir, amma dil bütün bu nəsilləri bir-birinə bağlayır, onlar da öz növbəsində özlərini məhz dildə biruzə verirlər. … çünki dil millətin özünü əks etdirir və onu təmsil edir».Həmçinin hər bir dil ayrılıqda öz istifadəçilərinin məxsusi cəhətlərinin daşıyıcısı olsa da, digər dünya dillərilə daim kontaktdadır. Dillər arasında

əlaqələrin olması dillərin inkişafında başlıca amillərdən biridir. Hər bir dil özündə dünya tarixinin bir hissəsini yaşadır, əvvəlki dövrləri araşdırmaqda əvəzolunmaz rol oynayır və ən əsası, ondan istifadə edən xalqların, tayfaların tarixini, mədəniyyətini, inkişafını özündə əks etdirir. Məhz buna görə, dil – mədəniyyətin güzgüsüdür. «Yer üzündə dünya xalqları bir-birilə çoxcəhətli əlaqələrə malik olduğuna görə onların dilləri də qarşılıqlı şəkildə bir-birinə təsir göstərir və bir-birini zənginləşdirir. Dilin lüğət tərkibinin inkişafı prosesi xalqın tarixi inkişafı ilə vəhdət təşkil edir». Dilçilərin əksəriyyəti dünyada kontaktlaşmayan dilin olmadığı fikrindədir. Görkəmli rus dilçisi Boduen de Kurtene öz məqaləsində bu məsələyə toxunaraq qeyd edirdi ki, «Dillərin bir-birinə qaynayıb-qarışması məsələsinə baxsaq, razılaşmalı olacağıq ki, saf və digər dillərə qarışmayan dil yoxdur və ola da bilməz». Dillərin bu şəkildə kontaktlaşmasının əsas səbəbi kimi mədəniyyətlərarası əlaqəni və digər mədəniyyətli insanlarla ünsiyyətə olan tələbatı göstərmək olar. E.Sepir bununla bağlı yazırdı: «Ünsiyyətə olan tələbat, hər hansı bir dildə danışanların qonşu və ya mədəniyyət baxımından dominant dillər ilə vasitəsiz və ya vasitəli kontaktına səbəb olur… İzolyasiya edilmiş hər hansı bir dil və ya dialekt göstərmək çətin olardı». Buna əsasən müxtəlif mədəniyyətlərə aid materialların tərcüməsi də təsir edir. Mədəniyyətlərarası əlaqələrin yaranmasında tərcümələr mühüm rol oynayır. Əgər əvvəlki dövrlərdə fars və ərəb dillərindən tərcümələr Şərq dilləri və mədəniyyəti ilə əlaqələrimizi sıxlaşdırmış və nəticədə dillərin zənginləşməsinə səbəb olmuşdusa, XIX əsrdən başlayaraq bölgədə rus dilinin aparıcı rol oynaması ilə əlaqədar rus dilindən edilən tərcümələr artmışdır. Müxtəlif sənədlər, həmçinin rus klassiklərinin əsərləri dilimizə tərcümə edilməklə həm dilin lüğət tərkibini zənginləşdirmiş, həm də müxtəlif üslubları inkişaf etdirərək cümlə quruluşlarında yeniliklərə səbəb olmuşdur.

Dünyanın ən qədim xalqlarından biri olan Azərbaycanlılar çox qədim mədəniyyətə malikdir. Azərbaycan mədəniyyət və incəsənətindən olan nümunələr ABŞ, Britaniya, Fransa, İran, İtaliya, Misir, Türkiyə və s. kimi dünyanın bir çox ölkələrində muzeylərdə qorunub saxlanılır. Mədəniyyət incilərinin belə rəngarəng olmasına isə təbii ki, Azərbaycan xalqının yüksək zövqə malik olması, yaşayış tərzi və inkişaf tarixi təsir göstərmişdir. Arxeoloji qazıntılar zamanı tapılan nümunələr bir daha sübut edir ki, Azərbaycan xalqı qədim dövrlərdən bəri müxtəlif sənət növləri ilə məşğul olmuşdur. Azərbaycan mədəniyyətinin müxtəlif sahələrini nəzərdən keçirsək görərik ki, hər bir sahə özünəməxsus gözəlliyi, orijinallığı və milliliyi ilə fərqlənir. Bu, dövrümüzə qədər gəlib çatmış nümunələrdə hərtərəfli öz əksini tapmışdır. Misal olaraq, qədimi xalçalar, ziynət əşyaları, gündəlik istifadə qabları, alətlər, heykəllər, şəkillər, ədəbiyyat və musiqi nümunələrini və s. göstərmək olar. Nəsillərdən-nəsillərə ötürülən *musiqimiz* çox qədim tarixə malik olmaqla yanaşı, ürəkləri fəth etmə xüsusiyyəti ilə də yalnız xalqımızın deyil, bütün dünya xalqlarının zövqünü oxşamışdır. Heç də əbəs yerə deyil ki, muğamlarımız və aışq sənəti BMT təşkilatı olan UNESCO tərəfindən dünya mədəniyyəti irsinə daxil edilmişdir. Azərbaycan musiqisi təkcə muğamlarla məhdudlaşmasa da (burada xalq mahnıları, aşıq sənəti, rəqslər, bəstəkar musiqilərini və s. yaddan çıxarmaq olmaz) onlar Azərbaycan mədəniyyətini dünyaya tanıdan fəxrimizdir. Həmçinin *arxitektura* sahəsində dövrümüzə qədər gəlib çatmış, öz əzəməti ilə insanları heyran edən tarixi abidələrimiz var. Qədim insanların həyat tərzini

təsvir edən – 5000 illik yaşı olan Qobustan qaya rəsmləri, eləcə də paytaxtımız Bakının simvolu sayılan Qız qalası, İçəri şəhər, Şirvanşahlar sarayı, Memar Əcəminin müəllifi olduğu Möminə xatun türbəsi, şimali və cənubi Azərbaycanı birləşdirən Xudafərin körpüsü və s. milli arxitekturanın parlaq nümunələri hesab edlir.

Eynilə *ədəbiyyat* sahəsində olan inciləri göstərmək olar. Nizami Gəncəvi, M.Füzuli, İ.Nəsimi, M.P.Vaqif, M.F.Axundov, C.Məmmədquluzadə, S.Vurğun, İ.Əfəndiyev, B.Vahabzadə və s. kimi dahilərin milli ədəbiyyatımıza verdiyi töhfələr əvəzolunmaz dəyərə malikdir. Bu kimi nümunələri rəssamlıq, kino, teatr və s. mədəniyyət sahələrində də qeyd etmək olar. Bütün bunlar xalq yaradıcılığının parlaq inciləridir.

Hazırda Azərbaycan müstəqilliyini və dövlətçiliyini möhkəmləndirərək, sosial-siyasi və iqtisadi dəyişikliklər həyata keçirərək, milli maraqları əsas götürərək dünyada sivil, demokratik cəmiyyət quran bir dövlət kimi tanınır. Bu gün əminliklə demək olar ki, Azərbaycan qloballaşan dünyada dinamik və sabit inkişaf edən dövlətlər sırasındadır. Qeyd etmək lazımdır ki, son 10 ildə ölkəmizdə çox dəyişikliklər getmişdir. Bu dəyişikliklərə gedən yol təbii ki, uzaq tarixi proseslərdən keçmişdir. Əvvəlki bölmələrdə qeyd edildiyi kimi, XX əsrdən başlayaraq Azərbaycan əhalisinin kütləvi şəkildə maariflənməsi geniş vüsət alır. Əhali tərəfindən çətin qəbul edilən ərəb əlifbasının dəyişdirilməsi və 1879-cu ildə Qori müəllimlər seminariyasında Azərbaycan şöbəsinin təşkil edilməsi yüksək ixtisaslı müəllim kadrlarının hazırlanması və yeni tipli güclü ziyalı təbəqənin yaranması, formalaşması ilə nəticələndi. Bu dövrdən etibarən Bakı şəhəri kapitalist tipli inkişafda mədəniyyət mərkəzinə çevrildi və başlıca ziyalı qüvvə burada cəmlənməyə başladı. Bədii ədəbiyyatın (xüsusilə də dramaturgiya kimi xalq dilinə yaxın janrların) inkişafı öz arxası ilə teatr, opera sənəti və s. ilə yanaşı incəsənəti də inkişaf etdirdi (1873-cü ildə «Hacı Qara» komediyası tamaşaya qoyuldu, 1875-ci ildə ilk qəzet – «Əkinçi» nəşr edildi, 1883-cü ildə teatr binası istifadəyə verildi, 1906-cı ildə ilk satirik jurnal – «Molla Nəsrəddin» dərc edildi, 1908-ci ildə ilk opera yazıldı, 1910-cu ildə Opera və balet teatrının binası inşa edildi və s.). 1918-ci ildə Şərqdə ilk Demokratik Respublikanın qurulması faktı özü də siyasi və mədəniyyətlərarası əlaqələrin təsirinin nəticəsi idi. Qərb tipli parlamentin, Demokratik Respublika strukturunun təşkili, ilk ali təhsil ocağının (Bakı Dövlət Universitetinin) açılışı kimi addımlar buna misal ola bilər. Sovet Sosialist Respublikasının qurulması ilə atılmış ilk addımlır daha da əhatələndi, xalqın kütləvi şəkildə maarifləndirilməsinə xüsusi diqqət yetirildi. Kitabların nəşrinə, tərcüməsinə xüsusi yer ayrılması elmi sahələri inkişaf etdirdi, bununla dilimizdə də zənginləşmə prosesi sürətlənmiş oldu. Artıq yuxarıdakı bölmədə qeyd edildiyi kimi, rus dilindən və rus dili vasitəsilə müxtəlif dillərdən alınan sözlər dilin və müxtəlif elm sahələrinin inkişafına xidmət etdi.

Sovetlər birliyinin dağılması insanların şüurunda inqilaba səbəb olaraq cəmiyyətdə azad fikrin formalaşmasına təkan verdi. İnsanlar sovet sosialist ölkələrindən kənara – bütün dünyaya çıxış əldə etdilər. Tamam fərqli mədəniyyətlərlə tanış oldular nəticədə, dövlətimiz mədəniyyətin yeni yönümdə inkişaf etdirilməsi üçün 2001-ci ildə «Azərbaycan mədəniyyətinin dövlət inkişaf proqramı»nı işləyib hazırladı ki, bu da bir sıra məsələləri ön plana çəkir: mədəni və tarixi irsin mühafizəsi; yaradıcılığın dəstəklənməsi; sahənin hüquqi, elmi, infor-

mativ inkişafı; kadr hazırlığı və gənc istedadların dəstəklənməsi; milli kinematoqrafiyanın dirçəlişi və inkişafı, mədəniyyət turizmi infrastrukturunun yaradılması və inkişafı, kitab nəşrinin inkişafı. Həmçinin mədəniyyəti birbaşa əks etdirən kitabxanalar və muzeylər yenidən bərpa edilir, modernləşdirilir. (Onu da qeyd etmək lazımdır ki, Ermənistanın hərbi təcavüzü zamanı zəbt olunmuş Azərbaycan ərazilərində 927 kitabxana, 464 tarixi abidə və muzey, 100-dən çox arxeoloji abidə, 6 dövlət teatrı və konsert studiyası dağıdılmışdır. Talan edilmiş muzeylərdən 40 mindən çox qiymətli əşya və nadir eksponat oğurlanmışdır.) BMT, UNESCO (1992-ci ildən), Avropa Şurası (2001-ci ildən) və s. beynəlxalq təşkilatlara üzv olaraq Azərbaycan digər sahələrlə yanaşı öz mədəniyyətinin də beynəlxalq arenada təmsil olunmasına, dünyada inkişaf istiqamətində gedən proseslərdən geri qalmamağa, müxtəlif ölkələrlə beynəlxalq əməkdaşlığa nail olmuşdur. Mövzu ilə əlaqədar olaraq ingilis dilli mədəniyyətlərə və onlarla əlaqələrimizə nəzər salaq.

Dünyanın super qüdrətli dövləti sayılan Amerika, əslində məlum olduğu kimi 300 ildən də az bir tarixə malikdir. O da məlumdur ki, bu dövlətin irəli getməsində əslən digər ölkələrdən olan və sonradan Amerikada məskunlaşmış əhali böyük rol oynamışdır. Amerikan mədəniyyətinin irəli getməsinin səbəbi məhz digər dövlətlərdən olan ən qabaqcıl insanların bu ölkəyə cəlb olunmasıdır. Hətta amerikalılar özləri belə bunu çox gözəl dərk edərək öz fikirlərini belə bir atalar sözü ilə ifadə edirlər: «As American as apple pie» (məlumdur ki, alma piroqu da amerikan mətbəxi nümunəsinə aid edilsə də bu piroqun tarixi heç də Amerika ilə bağlı deyil). Koloniyalar dövrü və immiqrasiya nəticəsində Avropa (əsasən də Britaniya) və yerli xalqların qarışığı olan amerikan mədəniyyəti, hazırda kütləvi mədəniyyət siması daşıyaraq digər ölkələrə də yayılır. Amerikan mədəniyyətinin daşıyıcıları keçmiş və indini deyil, gələcəyi düşünən; qrup və ümumiyyətlə, cəmiyyətin deyil, fərdin nə istədiyini ön plana çəkən insanlardır. Politoloqların fikrincə, ABŞ-ın müasir dövrdəki rolunu və dünya ağalığını Roma, Çin və Monqol imperiyası ilə müqayisə etdikdə belə bir nəticəyə gəlmək olar ki, keçmişdə mövcud olan bu imperiyalardan ABŞ-ın əsas fərqi mədəni üstünlüyündədir. Keçmiş imperiyalar güclü olsa da cəlbedici, operativ və çevik deyildi.

Ədəbiyyat

1. Dəmirçizadə Ə.M. Azərbaycan ədəbi dilinin inkişafı yolları. Bakı: Azərnəşr, 1958.
2. Dəmirçizadə Ə.M. Azərbaycan ədəbi dilinin tarixi. I hissə, Bakı: Maarif, 1979.
3. Pennycook A. The cultural Politics of English as an İnternational Language. Harlow, Essex, UK: Longman Group Ltd, 1994.
4. Пенфильд В., Робертс Л. Речь и мозговые механизмы. Л.: Медицина, 1964.
5. Тер-Минасова С.Г. Язык и межкультурная коммуникация. М.: Слово, 2000.

Ayshan İbrahimova

The Social and Cultural Factors that Influence the Enrichment of English and Azerbaijani Languages

Summary

The goal of the article is to consider the effect of social and cultural factors on the enrichment of English and Azerbaijani Languages. My argument is based on the assumption that communication is a form of social interaction and thus the role of social factors on language and the usage can and should not be ignored. In other words, the interpretation of meaning in all communication is dependent on context, which includes social and cultural factors.

To illustrate this position, examples are presented including a discussion of cross-cultural research on value system, as well as research on thanking, requesting and greeting behavior in Azerbaijani and English.

Айшан Ибрагимова

Социальных и культурных факторов, влияющих на обогащение Английского и Азербайджанского языков

Резюме

Цель статьи состоит в рассмотрении влияния социальных и культурных факторов на обогащение английского и азербайджанского языков. Мой аргумент основан на предположении, что связь является одним из форм социального взаимодействия и, таким образом, роль социальных факторов на язык и использование может и не должно быть проигнорировано. Другими словами, интерпретация смысла всей коммуникации зависит от контекста, который включает в себя социальные и культурные факторы.

Rəyçi: Professor Məsməxanım Qazıyeva

FƏRƏH SOLTANOVA
ADU
farah soltanova@gamil.com

İNGİLİS ƏDƏBİ DİLİNİN İNKİŞAFI FONUNDA LEKSİK LAYIN FORMALAŞMASI

Açar sözlər: Dil, dillərin qarşılığı, dilin leksik quruluşu, formalaşması, tarixi hadisələr, inkişaf
Key Words: Language, interaction of languages, lexical structure of the language, formation, historical event, development
Ключевые слова: Язык, взаимодействие языков, лексическая структура языка, формирование, исторические события, развитие.

Dünya dilləri arasında mühüm və aparıcı mövqe tutan ingilis dili Hind Avropa dilləri ailəsinin German dil qrupunun Qərbi German bölmiəsinə aiddir. Müasir ingilis dili hazırki səviyyəyə çatana qədər uzun tarixi bir yol keçmişdir. Dilçilər ingilis ədəbi dilinin yaranma tarixini 3 dövrə bölürlər:

1.Qədim ingilis dili (Old English)
2.Orta ingilis dili (Middle English)
3.Yeni ingilis dili (New English)

1) Qədim ingilis dili dövrü V-XII əsrləri əhatə edir və anqlo-sakson dili adlanır. Dilçilər belə hesab edirlər ki, IX əsrə qədər ümumişlək ingilis dili olmamışdır. Bunu həmin dövrə aid əlyazmalar sübut edir. Belə ki, Qədim ingilis dili dövrünə aid tapılan əsərlər müxtəlif dialektlərdə yazılmışdır, lakin qərbi-german dil qrupuna aid olmaları onların ümumi cəhətləridir. Məhz bu əsasdan çıxış edərək bu dövrə məxsus dialektləri 4 qrupa bölürlər:

- Kent dialekti (ilk əlyazmaları VII əsrə aiddir)
- Mersiya dialekti (anqların dialekti)
- Qərbi-sakson dialekti (ilk əlyazmaları IX əsrə aiddir)
- Nozanbriya dialekti (anqların dialekti - VII əsr)

Qədim ingilis dilində yazılmış və dövrümüzə qədər gəlib çatan mətnlərin quruluşuna nəzər salsaq görərik ki, Qədim ingilis dilinin qrammatik quruluşu sintetikdir. Yəni, cümlə üzvləri arasında əlaqə sözlərin yeri və köməkçi fellərlə deyil, sözlərin sonuna artırılan şəkilçilər, bəzi hallarda isə kökdən dəyişmə ilə (əvəzlik, sifət, fel) müəyyən olunurdu. Ölkədə hamı tərəfindən başa düşülən və işlədilən ümumi dilin ancaq IX-X əsrlərdə Qərbi-sakson dialekti əsasında formalaşdığı təxmin edilir.

Eyni mənşəli dialektlərin bir-birindən kəskin fərqlənməsi ölkədə baş vermiş və davam edən müxtəlif tarixi proseslərin nəticəsi idi. Britaniya adlarında German tayfalarından çox-çox əvvəl (5 min əvvəl) keltlər məskunlaşmışdı (qallar indiki İrlandiya və Şotlandiya, britonlar isə Uels ərazisində). Ümumilikdə isə dilçilər latın dilindən götürülmüş alınmaları 3 mühüm tarixi faktla əlaqələndirərək qruplara bölürlər: Roma əsarəti (I-V əsrlər), xristian dininin qəbulu (VI-VIII əsrlər) və mədəniyyətin inkişafına səbəb olan intibah dövrü (XV-XVI əsrlər). Bu dövrlərdə latın və yunan dillərindən götürülmüş alınma smözlər hazırda müasir ingilis dilinin leksik layında bir sıra sferaları əhatə edir:

gündəlik yaşayış, qida və geyimlə bağlı sözlər: *box "qutu" (Lat. buxus), paper "kağız" (Gr. paryrus), port "liman" (Lat. portus), street "küçə" (Lat. strata 'straight way'), wall "divar" (Lat. vallum); butter "yağ" (Gr. butyros), cheese "pendir" (Lat. caseum), kitchen "mətbəx" (Lat. coquina), pepper "istiot" (Lat. piper, Gr. piped);cap "papaq" (Lat. cappa), sock "corab" (Lat.soccus) etc.*

ölçü vahidləri: *inch "düymə" (Lat. incia), pound "funt" (Lat. Pondo) etc.*

heyvan, quş, bitki adları: *ass "eşşək" (Lat. asinus), camel "dəvə" (Lat. camelus < Gr. kamelos), trout "alabalıq" (Lat. tructa), turtle "tısbağa" (Lat. turtur); lily "zanbaq" (Lat. lilium < Gr. leirion), palm "palma" (Lat. ralma), pear "armud" (Lat. pirum), plant "bitki" (Lat. planta), rose "qızılgül" (Lat. rosa < Gr. rhodon) etc.*

dinlə bağlı sözlər: *angel "mələk" (Lat. angelus, bishop "yepiskop" (Lat. episcopus), church "kilsə" (Lat. cyriaca), monk "keşiş" (Lat. monachus), nun "rahibə" (Lat. nonna), pope "papa" (Lat. papa) etc.*

elm, təhsil, ədəbiyyat və mədəniyyətlə bağlı sözlər: *chronicle "salnamə" (Lat. chronica < Gr. khronikon), comet "komet" (Gr.cometa), crystal "büllur" (lat. crystallum < Gr. crystallos), fiddle "skripka" (lat. vitula), grammar "qrammatika" (lat. qrammatika < Gr. qrammatike), marble "mərmər" (lat. marmor), part "hissə" (lat. partem), philosoph "filosof" (lat.philosophus < Gr. philosophos), school "məktəb" (lat. schola < Gr.skholes), theatre "teatr" (lat. theatrum < Gr. theatron), verse "şeir" (lat. versus)etc.*

V əsrdə german tayfalarının hücumları və Britaniyada məskunlaşmasından sonra qərbi-german dili kelt və latın dillərinin qarışığı olan bir dilin təsiri ilə inkişaf etməyə başladı. Artıq 3 dilin qarışığından ibarət dil tezliklə (VIII əsr) skandinaviyalıların hücumundan sonra onların dillərinin təsiri altına düşdü, lakin bu dil də german mənşəli olduğundan çətinliklər az oldu. Yəni bu dövrdə ingilis dilinin leksik layına qəbul edilmiş alınma sözləri - tam alınma sözlər adlandırmaq olmaz. Belə ki, bu sözlər sadəcə eyni bir dilin müxtəlif dialektlərinin qarşılaşmasının nəticəsi idi. Buna baxmayaraq, ingilis dilinə bu dövrdə xeyli miqdarda **skandinaviya mənşəli sözlər** keçmişdir: *happy - xoşbəxt, weak - zəif, ship - gəmi, anger - qəzəb, cake - tort, call - zəng, egg - yumurta, fellow - gənc oğlan, give - vermək, husband - ər, kick - vurmaq, law - qanun, low - alçaq, lump - hissə, raise - qaldırmaq, root - kök, score - xal, scrape - sürtmək, seat - yer, skill - vərdiş, skin - dəri, skirt - yubka, sky - səma, take - götürmək, they (them, their) - onlar, want - istəmək, window - pəncərə, wing - qanad, etc.*

XI əsrdə isə Britaniya normanların hücumuna məruz qaldı. Normanların ölkəni işğal etməsi bu dilin də ölkədə danışılan qarışıq german dilinə təsiri ilə nəticələndi. Fransız dilinin qədim forması olan bu dil yerli tayfaların dilləri ilə qarışıb anqlo-norman dilini təşkil etdi və tədricən ölkənin yuxarı təbəqələrinin əsas danışıq dilinə çevrildi. Fransa ilə sıx əlaqələr getdikcə dili əsaslı şəkildə dəyişməyə başlamışdı. Və artıq nəinki yuxarı təbəqələr, hətta cəmiyyətin orta təbəqəsi də bu dildə danışırdı.

2) Orta ingilis dövrü XII-XV əsrləri əhatə edir və bu dövrün fərqləndirilməsinə səbəb ingilis dilinin XI əsrdən başlayaraq kəskin şəkildə dəyişməsidir. Normanların hakimiyyətə keçməsi fransız dilinin ölkədə çox geniş yayılması ilə nəticələndi. Mövcud olan təhsil müəssisələrində yalnız fransız və latın dili tədris olunurdu. Əhalinin çox hissəsini aşağı təbəqə təşkil etdiyindən və təhsilli şəxslə-

rin azlığı yerli dilin də dəyişmiş olsa da hələ də işlənməsi demək idi. Skandinaviyalıların və fransızların təsiri ilə nitq hissələrinin hallanması zəifləmişdi. Kök sözlər işlədilir, dil getdikcə analitik dil olma istiqamətində inkişaf edirdi. Əvvəlcə qeyd etdiyimiz kimi XI əsrdən etibarən norman dili və XIII əsrdən başlayaraq fransız dilinin Paris dialekti İngiltərədə əsasən yuxarı təbəqələrdə istifadə edilirdi. Ona görə də bu dövrdə alınma sözlər də əvvəlki illərdəkindən fərqlənirdi. Əgər latın və Skandinaviya dillərindən əsasən ümumişlək sözlər götürülmüşdüsə, fransız dilindən bu tip sözlərlə yanaşı alınan sözlərin böyük faizini mədəniyyət, din, qanunvericilik, dövlət idarəçiliyi, feodal titulları, hərbi terminlər, aşbazlıq və s. sahələrlə bağlı normanların gətirdiyi və ingilislərə məlum olmayan yeni anlayışları ifadə edən sözlər təşkil edirdi. Beləliklə, **<u>fransız dilindən alınan sözlər</u>** aşağıdakı sahələri əhatə edir:

- qanunvericilik: *attorney - vəkil, country - ölkə, court - məhkəmə, crime – cinayət, defendant - müttəhim, evidence - şahidlik ifadəsi, government -hökumət, jail (& prison) - həbsxana, jidge - hakim, noble - alicənab, parliament - parlament, revenue - gəlir, state - dövlət, tax - vergi, verdict - hökm və s.*
- din və kilsə: *abbot - abbat, clergy - ruhani, prayer - dua, priest - keşiş, religion - din, sacrament - dini ayin, saint - müqəddəs və s.*
- zadəganlıq: *baron (baroness) - baron, count (countess) - qraf, duke (düchess) - hersoq, marquis (marquess) - markiz, prince (princess) - şahzadə, viscount (viscountess) -vikont, noble - alicənab, royal - krala məxsus və s.*(Amma *king - kral, queen - kraliça, earl - qraf, lord - lord, lady - ledi, knight - cəngavər* kimi sözlər ingilis dilinin öz sözləridir)
- hərbi: *army - ordu, artillery - artilleriya, battle - döyüş, captain - kapitan, company - şirkət, defense - müdafiə, enemy - düşmən, navy - hərbi dəniz donanması, soldier - əsgər, volunteer - könüllü və s.*

<u>3) Yeni ingilis dili dövrü</u> XV əsrdən başlayaraq fərqləndirilir. Çapın kəşf olunması dil inkişafında ən əsaslı hadisə hesab olunduğundan ilk ingilis dilində kitabın nəşri ili (1475) ingilis ədəbi dilinin tarixində III dövrün başlancığı hesab olunur. 1438-ci ildə Almaniyada kəşf olunan çap texnologiyası tezliklə Vilyam Kakston tərəfindən İngiltərədə, Londondan, çox qısa məsafədə olan Vestministrdə tətbiq olunmağa başlandı. İlk ingilis dilində çap olunan əsər isə Kakstonun tərcümə etdiyi *"Troyanın Tarixi"* əsəri oldu. O, çox az müddətdə yüzə yaxın kitabı öz maşını vasitəsilə nəşr etdi. Ən əsası isə o, çap etdiyi bütün əsərlər üzərində dəyişikliklər aparır, onları London dialektinə çevirir və sözlərin düzgün yazılış formalarından istifadə edirdi. Bu, ingilis dilinin yazılı formasının sabitləşməsi demək idi. Kakston həmçinin London dialektində yazılmış Çoserin *Canterbury tales* əsərini də nəşr etmişdi və Çoseri ədəbi dilin yaradıcısı adlandırmışdı. Çoserin London dialektinin inkişaf və yayılmasında xidmətləri böyük idi, ancaq o dilin yaradıcısı deyildi. H.S.Vayld "Müasir ingilis dilinin tarixi" adlı əsərində yazırdı: " London dialekti Soser olmadan da milli dilin əsasını təşkil edəcəkdi. London mərkəz idi və iqtisadi, siyasi, sosial faktorların təsiri bu dialekti əsas dil kimi formalaşdırdı. Ancaq şübhəsiz ki, yazılı ədəbiyyatın olması onun tez inkişafına səbəb oldu." Həmçinin Con Trevisa "Polychronicon" adlı əsərində (XIV əsr) qeyd edirdi: " Şərqin və Qərbin əhalisi bir-birini yaxşı başa düşürdü, Şimal və Cənubun əhalisi isə bir-birini o qədər də anlamırdı. Mərkəzdə yaşayanlar isə bütün ətrafdakıları, o cümlədən Şimal və

Cənub dialektlərini onların özlərindən də yaxşı başa düşürdü." Buradan aydın görünür ki, bütün ölkə üçün ümumi dil məhz mərkəz dialekti əsasında formalaşmalı idi. Çünki, mərkəz dialektini həm Şərq və Qərb, həm də Şimal və Cənub yaxşı başa düşürdü.

Yeni ingilis dili dövründə dilə ölkənin həm daxili, həm də xarici əlaqələrin inkişafı təsir etdi. 1492-ci ildən *Böyük Coğrafi Kəşflər Dövrü* başlandı, Britaniyanın müxtəlif ölkələrdə - ən əsası isə yeni kəşf olunmuş Amerikada koloniyalarının sayı yavaş-yavaş artdı (XVI əsr). İncilis dili nəinki ölkə daxilində, həm də digər ölkələrdə danışılmağa və tədris olunmağa, dilin dərindən və düzgün öyrənilməsi üçün müxtəlif kitablar (qrammatika kitabları və fərqli tərkiblərdə lüğətlər) nəşr olunmağa başlandı. Öncə nəşr olunan qrammatika kitablarında müəlliflər latın dilini tətbiq edərək ingilis dilinin qrammatikasını tərtib etmişdilər (Vilyam Lili). İlk Latın dilindən kənar ingilis dilinin qrammatikası isə Con Uils tərəfindən 1653-cü ildə tərtib olundu. Klassik əsərləri oxumaq üçün köməkçi lüğətlər də XVII əsrdən etibarən nəşr olundu. 1604-cü ildə isə ingilis dilinin ilk izahlı lüğəti çap edildi (Robert Koudrey). Lüğətlərin nəşri ingilis ədəbi dilinin yazı normalarını müəyyənləşdirir, əhali üçün dildəki sözlərin mənalarını açıqlayırdı. XVII əsr ədəbi dilin formalaşması tarixində "düzgün yazı dövrü" adlanır (age of correctness). Ədəbi dilin yazılı forması normalar çərçivəsinə gec salınsa da sonradan onun inkişafında sabitlik dövrü başladı. Şifahi formada isə dəyişikliklər çox sürətlə gedirdi, buna səbəb əhalinin müxtəlif təbəqələrinin danışığının fərqlənməsi və başqa dillərin təsiri idi. Lakin bütün bunlara baxmayaraq, XVIII əsr milli ədəbi dilin hər 2 formasının normalarının təsdiq olunması və dilin formalaşmasının başa çatması dövrü hesab olunur. XIX əsrdə ədəbi dilin bu 2 forması arasında fərq nisbətən azalır; ədəbi dilin yazılı formasında xalq dilindən, dialektlərdən, hətta bəzən qadağa qoyulmuş sözlərdən istifadə edilməyə başlanılır. Bu təbii ki, yazılı ədəbi dili daha da rəngarəng və zəngin edir. Gördüyümüz kimi, İngilis ədəbi dilinin indiki səviyyəyə çatmasında orta ingilis dili dövrü həll edici olmuşdur. Məhz bu dövrdə ingilis dilində köklü qrammatik və fonetik dəyişikliklər getmişdir.Lakin yeni ingilis dili dövründə leksik layda gedən dəyişikliklər ingilis dilinin liğət tərkibinin zənginləşməsində xüsusi rol oynamışdır. Böyük coğrafi kəşflər, elm-texnika sahəsində yeni ixtiralar, həmçinin intibah dövrü - insan fəaliyyətinin bütün sahələrini, o cümlədən dili əhatə etmiş və onun inkişafına səbəb olmuşdur. Ölkələr arasında müxtəlif sahələrdə, xüsusən də ticarət sahəsində əlaqələrin artması yeni mədəniyyətlərlə, yeni anlayışlarla tanışlıq yaratmış və bütün bunlar dildə öz əksini tapmışdır. Bu dövdə ingilis dili ispan, italyan, alman, rus, ərəb, fars və s dillərdən xeyli miqdarda söz almışdır:

İspan dilindən alınmalar - *armada*-armada (hərbi flot), *comrade*- yoldaş, *cotton*- pambıq, *embargo*-embarqo, *guitar*-gitara, *lemon*-limon, *mosquito*-ağcaqanad, *mulatto*-mulat, *tomato*-pomidor, *tobacco*-tütün və s.

İtalyan dilindən alınmalar - *aria*- ariya, *duet* -duet, *opera*- opera, *piano*-piano, *soprano*- soprano (zil qadın səsi), *stanza*-şeir bəndi, *tempo*-temp, *violin*-skripka, *balcony*-eyvan, *fresco*-freska (divar naxışı), *cazino*- kazino, *studio*-studiya, *gazette (via French)*-qəzet, *pantaloons-şalvar, umbrella*- çətir, *cappuccino*-kapuçino və s.

Holland dilindən alınmalar - *brandy (wine)* -konyak, *cookie* - peçenye, *cranberry*-quşüzümü, *waffle*-vafli, *cruise*-dəniz gəzintisi, *dock* - dok (gəmi təmiri yeri), *freight* -fraxt, *leak*- sızma, *pump*- nasos, *yacht*-yaxta və s.

Alman dilindən alınmalar - *loafer*- avara, *poodle* - pudel it; *noodle* - əriştə, *pumpernickel*- çovdar sörəyi, *sauerkraut*- kələm növü, *schnitzel*- yemək növü, *(beer)stein*- pivə növü və s.

Ərəb dilindən alınmalar- *bazar*- bazar, *caravan*- karvan, *caliph*-xəlifə, *emir*-əmir, *gazelle*-ceyran, *giraffe*-zürafə, *harem*-hərəm, *lute*-ud (musiqi aləti), *minaret*-minarə, *mosque*-məscid, *salaam*-salam, *sirokko*-sirokko (isti külək növü), *sultan*- sultan, *vizier*- vəzir və s.

Qeyd etmək lazımdır ki, ingilis dilində yuxarıda göstərilən dillərlə yanaşı **yapon** *(judo- idman növü, jujitsu-döyüş və müdafiə növü, karaoke-karaoke, kimono-geyim növü, samurai- döyüşçü, sumo-güləş növü, sushi-dəniz yeməkləri, tsunami-qasırğa),* **hind** *(bandanna-papaq forması, bangle-qolbağ, bungalow-bir mərtəbəli ev, chintz-çit parça, jungle-cəngərlik, maharaja-feodal rütbəsi, pajamas-pijama, shamroo-şampun və s.),* **çin** *(ketchup- ketçup, tea-çay),* **afrika** *(banana (via Portuguese)-banan, gorilla-qorilla, jazz-caz musiqisi, zebra-zebra, zombie-zombi (kütbeyin) və s.)* dillərdən də sözlər alınmışdır. Bundan əlavə, ingilis dilinin leksik layının zənginləşməsində onun variantlarının çox böyük rolu olmuşdur. Onlardan ən çox yayılmışları amerikan, kanada və avstraliya variantlarıdır.

Ədəbiyyat

1. Həsənov H.Ə. Müasir Azərbaycan dilinin leksikası. Bakı, 1987.
2. Məmmədov N. Dilin lüğət tərkibinin zənginləşməsinin mənbəyi və üsullarına dair. Bakı,1958.
3. Beal, Joan C. English in modern times. London: Arnold, 2004.
4. English in Britain and Overseas: Origin and Development. CUP, 1994.
5. Гумбольдт В. О влиянии различного характера языков на литературу и духовное развитие. // Избранные труды по языкознанию. М., 1984.
6. Звегинцев В.А. Очерки по общему языкознанию. М. Изд. МГУ,1962.
7.

Farah Soltanova

The Formation of Lexical Layers on the Basis of Development of the English Literary Language

Summary

The stages of the modern English language formation are examined in thearticle in the close connection with the history of the country"s development. The influence of the Roman, Anglo-Saxon, Datch and Norman conquests on the lexical, phonetic and grammatical structure of the language is shown.

In general, in the atrticle we tried to find out about where English came from, how it developed and how it came to have its present form. This also includes learning about the relationship of English to its Germanic neighbours and to other European languages.

Specifically, we explaned more about the different linguistic levels of the English language in their historical dimensions. This includes the following periods. Old English, Middle English, Early Modern Period.

Фарах Султанова

Формирование лексических слов на основе развития Английского литературного языка

Rezюме

В статье рассмотрены этапы формирования современного английского языка в тесной связи с историей развития страны. Показано влияние, которое оказали завоевания (римское, англо-саксонское, скандинавское и нормандское) на лексический, фонетический и грамматический строй языка.

Английский язык - один из германских языков (западногерманская группа). Английский язык ведет свое начало от языка древнегерманских племен (англов, саксов и ютов), переселившихся с континента в 5-6 вв. в населенную кельтами Британию. Взаимодействие племенных наречий англов, саксов и ютов, развивавшихся в условиях формирования английской народности, привело к образованию территориальных диалектов. В древнеанглийский период развития английский язык (7-11 вв.; называется англосаксонский язык) представлен 4 диалектами; нортумбрийским, мерсийским, уэссекским и кентским. Из языка кельтского населения Британии сохранились главным образом географические названия.

Rəyçi: Kamalə Cəfərova
filologiya elmləri namizədi, dosent

АРЗУ АГАКИШИЕВА
Азербайджанский Университет Языков
arzu@mail.ru

КОНТАКТНОЕ РАСПОЛОЖЕНИЕ ПОДЧИНИТЕЛЬНЫХ СОЮЗОВ И СОЮЗНЫХ СЛОВ В МНОГОКОМПОНЕНТНЫХ СЛОЖНЫХ ПРЕДЛОЖЕНИЯХ (МКСП) С КОМПЛЕКСНЫМ ПОДЧИНЕНИЕМ

Açar sözlər: çoxkomponentli mürəkkəb cümlələr, kompleks əlaqə, vasitəçi bağlayıcı.
Ключевые слова: многокомпонентные сложные предложения, комплексная соотнесенность, союз–посредник.
Key words : multi-component complex sentences ; complex relations ; connective conjunction.

Контактное расположение двух подчинительных союзных средств – союза (или союзного слова), идущего после главного предложения и союза (или союзного слова), начинающего препозитивный компонент придаточной части – является одним из основных признаков изучаемых нами конструкций. В предложении «*И говорят также теперь,* ***что если*** *наша интеллигенция имеет тяготение к земле и стремится в усадьбы,* ***то*** *это хорошо*» (А.Чехов. Крыжовник) контактно расположены подчинительный союз *что* и двойной подчинительный союз *если …(то)*. Сравним:

– Mənə elə gəlir ***ki, əgər*** *hər hansı bir xalqın tərcümeyi – halında tarix təkrar olunursa,* ***deməli*** *bu xalq bir addım da qabağa getməyib* (S.Səxavət. Palıd toxumu).

В конструкциях с комплексным подчинением каждый из контактно расположенных союзов имеет автономную функцию в установлении синтаксических отношений между компонентами всего предложения. Индивидуальное функциональное назначение этих двух союзных единиц подтверждается, в первую очередь, отсутствием признака взаимозаменяемости: первый союз не может быть заменен вторым и наоборот. Структурное назначение первого союза (союзного слова) – выражение синтаксической связи и отношения главного предложения со всей придаточной частью. Второй же союз определяет те же отношения и связи между компонентами придаточной части.

Сравним два предложения, близких по значению:

1. *Я тебе говорю десятый раз,* ***что ежели*** *письмо к государю и завещание в пользу Пьера есть в бумагах графа, то … ты не наследница*

(Л.Толстой. Война и мир, т. I, ч. I, гл. 18).

2. *…Как ты не понимаешь: ежели граф написал письмо государю…, стало быть, Пьер уже не будет Пьер, а граф Безухов* (Л.Толстой. Война и мир, т. I, ч. I, гл. 18).

Во втором примере отношение между главным предложением и придаточной частью выражается бессоюзной связью, эквивалентной союзной связи, а союз «*если/то*» служит опять-таки своему назначению. Сравним:

1. *Mənim qərarım belədir* ***ki, əgər*** *yük vaxtında bizə çatmasa, onda cavabdeh siz olacaqsınız* (S.Qədirzadə. Qış gecəsi).

2. *Böyük oğluma demişəm, hansı qızı kefi istə**sə**, toysuz-zadsız götürüb qaçsın* (N.Nərimanov. Nadanlıq, 2-ci məclis, 3-cü gəliş).

Следует отметить, что подобную «трансформацию» (опущение союза-посредника: *что; ki*) допускают только те конструкции, в которых:

а) главное предложение связывается с придаточной частью союзом, а не союзным словом. Вероятно, в этом сказывается большая грамматикализованность союзов по сравнению с союзными словами. Например:

1. *Следует помнить:* ***что*** *чем свободней ум, тем богаче человек* (М.Горький. За бортом).

2. *Xalamdan bir dilək dilərəm: ver**sə** də xalamdır, verməsə də.* (Ə.Hüseynzadə, 624).

б) связь между абсолютным главным предложением и придаточной частью осуществляется без местоименно-соотносительных слов в составе главного предложения. Например:

1. *Ну, думаю, если своего (петуха) убью, так другой заслышит и улетит* (А.Куприн. На глухарей).

2. *Dedim, əgər onu məhkəməyə versəniz, düz Moskvayacan varam* (M.Hüseyn. Abşeron, 4-cü fəsil).

в) когда с придаточной частью граничат обстоятельственные слова *так, таким образом, onu da, belə.* Например:

1. *Чаще всего это случается* ***таким образом****: когда в котле остается очень мало воды, то его стенки раскаляются все больше и больше, чуть не докрасна* (А.Куприн. Молох, гл. 7).

2. ***Onu da*** *dedim: hamı necə, sən də elə* (M. üseyn. Abşeron, 4-cü fəsil).

Наблюдения показывают, что опущению подвергаются в большинстве случаев союзы *что* и иногда союз *ибо* (*потому что*) и соответственно *ki, çünki*. По признаку контактного расположения союзных единиц и по тому, чем они выражены (союзом или союзным словом) весь материал распадается на следующие группы:

I. Предложения, в которых при контактном расположении союзных средств придаточная часть включается союзом. В этом случае выделяются две разновидности:

This article deals with definition of text, linguostylistic analysis of discourse and interrelation between text and discourse. Different approaches of scholars to the problem of text and discourse definition were also reviewed. The author analyzed these notions separately and as a result drew parallels between their mutual relations.

S.Quseynova

Mətnin və ifadənin müəyyən olunması

Xülasə

Bu məqalədə mətnin müəyyən olunması, ifadənin linqvistik təhlili, mətn və ifadə arasında olan əlaqə əks olunmuşdur. Bundan əlavə mətnin və ifadənin təyin olunmasında elmin pionerlərinin müxtəlif yanaşmaları gözdən keçirilmişdir. Müəllif bu anlayışları ayrılıqda gözdən keçirdi və sonda onların əlaqəsinə və qarşılıqlı interrealizasiyasına paraleller çəkdi.

Rəyçi: Professor Nigar Vəliyeva

ЛЕЙЛА ЯДИГЯРОВА
АДУ
leyla.yadigarova@gmail.com

ФОРМИРОВАНИЕ И ИСТОРИЧЕСКОЕ РАЗВИТИЕ ПРИЧАСТИЙ В АНГЛИЙСКОМ ЯЗЫКЕ

Açar sözlər: fel, ingilis dilində feli sifətlər, felin şəxsli formaları, felin şəxssiz formaları
Ключевые слова: глагол, причастия в английском языке, личные формы глагола, неличные формы глагола
Key words: verb, participles in the English language, finite forms of the verb, non-finite forms of the verb

Формирование и развитие причастий в древнеанглийском языке. Английский язык складывался в течение многих веков. Его словарь и грамматический строй сформировались не сразу. Словарь постепенно включал в себя новые лексические единицы, а грамматический строй постепенно приспосабливался к потребности в более точной и тонкой передаче мысли вслед за развитием национального общественного и научного мышления. Как и большинство языков мира, английский язык всегда находился в состоянии изменения и никогда не оставался неизменяемым. Поэтому мы наблюдаем несколько периодов в истории развития английского языка, условно названных следующим образом – древнеанглийский, среднеанглийский и новоанглийский периоды.

Глагол в грамматическом строе английского языка занимает исключительное место вследствие неоднородности своей системы и той большой роли, которую играют глагольные формы в построении предложения. Известно, что глаголы английского языка подразделяются на две большие группы, так называемые личные формы глагола и неличные формы глагола. Тема неличных форм глагола в течение долгого периода вызывала особый интерес многих лингвистов. В настоящее время, несмотря на обширные исследования в этой области среди исследователей не существует единого мнения по данному вопросу, вследствие чего вышеупомянутая тема остаётся актуальной и по сей день. В первую очередь, существуют разногласия в том, какое название следует дать этой группе глаголов. В связи с этим Отто Есперсен предлагает рассматривать вербиды (verbids) как особый промежуточный разряд между существительным и глаголом. К классу вербидов Есперсен относил причастия и инфинитив.[9, с88]

В книге Грамматика Современного Английского Языка И. П. Крылова и Е.М.Гордон, говоря о неличных формах глагола, отстаивают свою точку зрения. Они утверждают, что в английском языке существуют три неличные формы глагола, так называемые инфинитив, инговая форма и причастие [3, с75]. Кроме вышеупомянутых авторов в работах некоторых других лингвистов мы также можем столкнуться с термином инговая форма глагола. Данный термин объединяет причастие I и герундий вследствие их абсолютной омонимии.

Особое внимание здесь вызывает причастие. Исследователи древнеанглийского языка провели чёткую грань между двумя видами причастий (причастием □ и причастием □□), существовавшими в системе древнеанглийского глагола. Несмотря на это, некоторые грамматисты в своих работах используют термины причастие настоящего времени и причастие прошедшего времени. Но в большинстве случаев традиционно принято называть их причастием □ и причастием □□.

В английском языке древнего периода существовали три неличные формы глагола - инфинитив, причастие I и причастие II. По происхождению древнеанглийские причастия являются прилагательными [1, с103]. К этому выводу можно прийти, исследуя систему склонения древнеанглийских прилагательных и причастий. Одинаковое склонение этих групп слов указывает на их происхождение из одного источника. Таким образом, генетическая связь причастий с прилагательными проявляется в общей системе склонения, а также в способности выступать в функции препозитивного определения, характерного для прилагательных [2, с202]. Есперсен, в своей книге The Philosophy of Grammar, также утверждал, что причастия являются по существу прилагательными, образованными от глагола, хотя синтаксически причастия сохраняют много общего с глаголом. Однако уже к началу древнеанглийского периода причастия прошли определённый путь вербализации: подобно другим глагольным формам они могли выражать видовые, временные и залоговые различия, а также приобрели способность управлять дополнением [2, с202]..

Отличительной чертой причастия является то, что оно имеет неординарную, и в то же время интересную, историю происхождения и развития. Причастие, по сути, являлось глагольным адъективом, который был охарактеризован не только номинальными, но и глагольными свойствами. Причастие I (настоящее причастие) было противопоставлено причастию II (прошедшее причастие). Причастие I использовалось в действительном залоге и выражало настоящее или одновременные действия и признаки, в то время как причастие II выражало состояния и признаки, являющиеся результатом прошлых действий. В древнеанглийский период причастие II имело большое значение для выражения пассивного действия. Причастие II переходных глаголов имело только пассивное значение, тогда как причастие II непереходных глаголов имело также и активное значение. Дело в том, что категория залога не проходила через всю систему глагола древнеанглийского языка. Она выделялась в противопоставлении только форм причастия переходных глаголов: причастие I этих глаголов выражало действительный залог (**sin□ende** – *поющий*), а причастие II – страдательный залог ((□**e**)-**sun□en** *спетый*). [6, с245]

Любое языковое явление можно рассматривать либо извне, либо изнутри, исходя из его внешней формы или из его внутреннего значения. Рассматривая внешнюю форму древнеанглийских причастий, мы можем прийти к выводу о том, что их морфологическое строение сильно отличалось от морфологического строения современных причастий.

Причастие I формировалось с помощью прибавления суффикса –ende.

Cēosende (*выбирающий*)

В древнеанглийском языке система глагола была представлена двумя группами, одна из которых называлась группой сильных глаголов, в то время как вторая - группой слабых глаголов. Сильными глаголами назывались такие глаголы, которые образовывали свои формы прошедшего времени и причастия □□ путём закономерного изменения корневого гласного. Слабыми глаголами назывались такие глаголы, которые образовывали свои формы прошедшего времени и причастия □□ путём прибавления к основе глагола зубного суффикса –**d(t).**

Следует отметить, что и слабые глаголы и сильные глаголы для образования причастия □ принимали окончание -ende. Этот суффикс прибавлялся к неопределенной форме глагола (инфинитив без окончаний –an, -ian) [4, с112-113].

Helpan – helpende, dēman – dēmende

Совсем иначе обстояло дело с причастием II. Для формирования причастия II часто к корню слова прикреплялся префикс □e-, который не был обязательным в тех случаях, когда глагол имел другой формообразующий префикс. Кроме префикса глагол принимал также суффикс. Суффикс, который прикреплялся, зависел от того, к какой группе принадлежал глагол. Если это был сильный глагол, то он принимал окончание –n вместе с соединительной гласной o или e.

Findan – fundon

Если глагол принадлежал к группе слабых глаголов, то при склонении к нему примыкало окончание -d вместе с соединительной гласной o или e [4, с110].

Locian – (□e)lōcod

Причастие при склонении согласовывалось в роде, числе и падеже с существительным, к которому оно примыкало. Но бывали случаи, когда такое согласование отсутствовало и причастие оставалось без флексий. В настоящее время мы не наблюдаем такого рода склонения в английском языке. Дело в том, что в начале среднеанглийского периода разрушилась существовавшая в течение долгого времени система склонения причастий. Причастие утратило способность передавать грамматические категории рода, числа и падежа.

Причастия среднеанглийского периода. В среднеанглийском языке в системе глагола произошли определенные изменения. Некоторые глаголы перешли из сильного склонения в слабое, и наоборот. Грамматическое чередование согласных полностью исчезло. Эта волна изменений коснулась также класса причастий.

Во-первых, в причастиях произошли фонетические изменения. Многие сильные глаголы стали образовывать форму причастия II с помощью дентального суффикса. Слабые глаголы принимали суффикс **–ed** [5, с98].

stired (ME) - stirred(NE)

Все заимствованные из других языков глаголы склонялись как слабые глаголы, и соответственно принимали суффикс **–ed** для образования формы причастия II.

Во-вторых, в этот период полностью разрушается система склонения причастий. Причастия утратили разграничения в падеже, роде и числе. Исчезновение такого важного для именных частей речи признак, как система склонения, даёт толчок к интенсивному развитию глагольных черт причастий [2, с204].

В среднеанглийском изменяется окончание причастия I. Нам уже известно, что данное причастие в древнеанглийском образовывалось с помощью окончания **(e)nde.** В среднеанглийском мы находим разные окончания по диалектам. В северных диалектах причастие принимает окончание **–and(e)**, в центральных диалектах **–ende,** в южных **–inde.** При этом северное окончание **–and(e)** отражает скандинавское влияние. В центральных областях сохраняется древнеанглийское окончание **–ende,** а южное **–inde** связано, очевидно, с историей слабых глаголов.

Maciende (OE) – macinde (ME) [7, с131]

В этот период в южных диалектах наряду с окончанием **–inde** появляется вариант **–inge**, который затем быстро распространился. Вопрос о происхождении этого окончания является спорным. Некоторые исследователи считают, что **–inge** представляет собой фонетическую разновидность старого **–inde.** Но этот вариант является маловероятным. [7, с130-133].

Причастие II являлось одним из главных форм глагола. Оно образовывалось по-разному: в зависимости от того, к какой группе принадлежал глагол. Но постепенно данное разграничение между сильными и слабыми глаголами стало исчезать. В среднеанглийском языке на смену древнего префикса **e-** пришел префикс **i-** или **y-** [5, с102].

Развитие причастий в новоанглийском языке. Английский язык в новоанглийский период представлял собой дальнейшее и вполне закономерное развитие английского языка. Большие изменения в течение данного периода произошли в системе глагола. Изменения могут быть сведены к почти полному разрушению системы глаголов с чередованием, переходу ряда глаголов с чередованием в группу глаголов с суффиксацией, развитию системы сложных временных форм и дальнейшему развитию неличных форм глагола. В целом, изменения наблюдались и в группе личных глаголов и в группе неличных глаголов.

Вышеупомянутые большие изменения в системе глагола коснулись также класса причастий. Большую роль в этом сыграло образование аналитических форм. [5, с116]

В течение XVI-XVIII веков форма прошедшего времени и причастия II глаголов первого типа колеблется. Так, как отмечает А. И. Смирницкий, от глагола write прошедшее время звучит wrote или writ, причастие II - written или wrote (по аналогии с формой прош. вр.), например, у Шекспира hath wrote вместо has written. Окончательная стабилизация этих форм наступает лишь в XVIII веке. [8, с98-105]

Некоторые изменения были результатом определенных процессов, начавшихся еще в древнеанглийском языке.

В новоанглийском языке причастия от некоторых глаголов имеют форму, совпадающую по огласовке с формой прошедшего времени. Сравним:

Bear – bore – born,

Tear – tore – torn,

Steal – stole – stolen,

В данных примерах форма прошедшего времени по своей огласовке не восходит ни к форме единственного числа прошедшего времени (bær, tær, stæl), ни к форме множественного числа прошедшего времени(bæron, tæron, stælon). Появление формы bore, tore, stole, совпадающей по огласовке со вторым причастием, связано прежде всего со смешением формы прошедшего времени множественного числа с причастием II, в результате чего гласный причастия проник в форму множественного числа: beren – bær – bore(n) – born.

Следует также упомянуть конструкции с употреблением причастия с глаголом *быть*. Сочетания причастия с глаголом *быть* (hē wæs feohtende – букв. он был сражающимся, he wæs sprecende – он был говорящим) встречались ещё в древнеанглийском языке. Соответствующие конструкции наблюдаются и в среднеанглийском языке. Однако ни в древнеанглийском, ни в среднеанглийском языке нет той системы длительных форм, которая так характерна для современного языка. В новоанглийском языке параллельно с конструкцией с причастием – he was fighting (букв. он был сражающийся) – стала употребляется конструкция с герундием – he was on fighting (он был в процессе сражения). В результате близости значения и внешнего совпадения формы причастия и герундия эти конструкции стали смешиваться. При смешении данных конструкций значение наглядности, процессности повлияло на семантику причастных конструкций типа he was fighting, которые были в некоторой степени двусмысленными, так как могли равным образом иметь значение конкретного процесса и характеризовать субъект как обладающий определённым свойством [7, с191-196].

Литература

1. Аракин В.Д. История английского языка. Москва, 2009
2. Иванова И.П., Чахоян Я.П., Беляева Т. История английского языка. Санкт-Петербург, 1999
3. Крылова И. П., Гордон Е. М. Грамматика современного английского языка. Москва, 1986
4. Расторгуева Т.А. История английского языка. Москва, 2007
5. Расторгуева Т.А. Жданова. Курс лекций по истории английского языка. Москва, 1972
6. Смирницкий А.И. Древнеанглийский язык. Москва, 1955
7. Смирницкий А.И. Лекции по истории английского языка. Москва, 2006
8. Смирницкий, А. И. Хрестоматия по истории английского языка с VII по XVII века с грамматическими таблицами и историческим и этимологическим словарем. Издательство литературы на иностранных языках, 1953.
9. Jespersen O.A. A modern English grammar on historical principles. Copenhagen, 1940

l.Yadigarova

İngilis dilində feli sifətlərin yaranması və tarixi inkişafı

Xülasə

Müasir İngilis dilində her bir felin şəxsli və şəxssiz formaları mövcuddur. Bu məqalədə felin şəxssiz formaları hədəfə alınıb. Məqalədə İngilis dilində feli sifərlərin yaranması və onların tarixi inkişafı araşdırılıb. Müəllif feli sifətlərin mənşəyini və onların Qədim İngilis dilində, Orta İngilisdə və Müasir İngilis dilində mövcud olan xüsusiyyətlərini gözdən keçirmişdir.

L.Yadigarova

The formation and historical development of the English participle

Summary

In Modern English the verb is subdivided into 2 groups: finite verbs and non-finite verbs. In this article the attention is focused on non-finite verbs. The article deals with the formation and development of the English participle. The author investigates the origin, the periods of development and characteristic features of the English participle during the Old English, Middle English and New English periods.

Rəyçi: Aminat Akbulatova
filologiya elmləri namizədi, dosent

SEVDA RZAYEVA
Filologiya elmləri üzrə fəlsəfə doktoru
rzaeva-sevar @rambler.ru

İNGİLİS DİLİNDƏ TƏYİN BUDAQ CÜMLƏLƏRİNİN QRAMMATİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: təyin budaq cümləsi, tabeli mürəkkəb cümlə, məhdudlaşdırıcı təyin budaq cümləsi, bağlayıcı, sintaktik qayda.
Key words: the attributive subordinate clauses, the compound sentence, appositive attributive clauses, particle, syntactical norms.
Ключевые слова: придаточное определительное, сложное предложение, союз, синтаксические нормы, отделительное придаточное определительное.

Sintaksis sözlərin birləşməsi qaydalarından, söz birləşmələrindən, cümlə və onun növlərindən bəhs edir. Söz birləşmələri kimi cümlə problemi də dilçilikdə mühüm məsələlərdən biri hesab olunur. Mürəkkəb cümlə problemi hələ də bir çox dilçi alimləri maraqlandırmaqdadır. Əvvəlcə sadə cümlələr bərabər hüquq əsasında birləşərək tabesiz mürəkkəb cümlələri əmələ gətirmiş, tədricən hadisələr arasında ziddiyyət, səbəb, şərt, nəticə, qoşulma və s. əlaqələr dərk olunduqca, yeni sintaktik modellər yarandıqca tabeli mürəkkəb cümlələr də formalaşmağa başlamışdır. Tabesiz mürəkkəb cümlə tərkibindəki sadə cümlələr bir-birinə bağlayıcılarla, bağlayıcı zərflərlə və intonasiya vasitəsi ilə bağlanırlar.

Tabeli mürəkkəb cümlə tərkibində budaq cümlə baş cümləyə iki yolla bağlanır: tabelilik bağlayıcıları vasitəsi ilə və heç bir bağlayıcı olmadan.

Təyin budaq cümləsi baş cümlədə isimlə yaxud əvəzliklə ifadə edilmiş hər hansı bir üzvə aid olur, onu təyin edir. Təyin budaq cümlələri baş cümləyə nisbi əvəzliklərlə və nisbi zərflərlə bağlanır. Təyin budaq cümlələri iki cür olur: məhdudlaşdırıcı təyin budaq cümlələri və təsviredici təyin budaq cümlələri.

Məhdudlaşdırıcı təyin budaq cümlələri təyin olunan sözü mənaca lokallaşdırır, dəqiqləşdirir və müəyyənləşdirir. Məhdudlaşdırıcı təyin budaq cümləsi ilə baş cümlə arasında, bir qayda olaraq, vergül qoyulmur. Təsviredici təyin budaq cümlələri təyin olunan söz haqqında əlavə informasiya verir. Təsviredici təyin budaq cümlələri baş cümlədən vergüllə ayrılır.

Təyin budaq cümləsinin tabeli mürəkkəb cümlədə yeri, mövqeyi haqqında bir neçə bəzi fikir söyləmək lazımdır. Bir çox hallarda təyin budaq cümləsi təyin edilən sözdən sonra durur. Ancaq bəzən elə hallar olur ki, tərkibində isim olmayan bir neçə söz və ya söz birləşmələrindən sonra da gələ bilər.

Təyin budaq cümləsini təqdim edən nisbi əvəzliklər (**whom**, **whose,** **which**, **that**, **as**) məhdudlaşdırıcı təyin budaq cümlələrini baş cümləyə bağlayır. Əgər nisbi əvəzlik sözönü ilə işlənirsə, sözönü budaq cümlənin axırında feldən sonra durur.

Məsələn: **The girls that I work are having lunch.**

- Mənimlə işləyən qızlar lanç yeyirlər.

Təyin budaq cümlələrində **who** əvəzliyinin obyekt halı olan **whom** və **which** əvəzlikləri çox vaxt **that** əvəzliyi ilə əvəz olunur.

Məsələn: **A letter that (which) is written in pencil is difficult to read.**

İngilis dilində "**appositive attributive clauses**" adlanan budaq cümlələri də var ki, onlar baş cümlədə olan hər hansı bir ismin əlavəsi kimi işlənir. Bu halda təyin olunan söz çox vaxt mücərrəd isimlə, yəni **idea**, **chance, method**, **way**, **statement**, **fact** və s. sözlərlə ifadə olunur. Bu zaman budaq cümlə baş cümləyə bağlayıcılarla bağlanır və heç zaman cümlədən atıla bilməz.

Məsələn: «**appositive attributive clauses**" adlanan budaq cümlələri də var ki, onlar baş cümlədə olan hər hansı bir ismin əlavəsi kimi işlənir. Bu halda təyin olunan söz çox vaxt mücərrəd isimlə, yəni **idea**, **chance**, **method**, **way**, **statement**, **fact** və s. sözlərlə ifadə olunur. Bu zaman budaq cümlə baş cümləyə bağlayıcılarla bağlanır və heç zaman cümlədən atıla bilməz.

(Hichens).

O, ispan arabaçılarının Əlcəzairdə oxuduğu kimi ucadan mahnı oxuyurdu.

b) A week later Dorian Gray was at his house in the country, where he had invited Lord Henry and several other friends.

Bir həftə sonra Dorian Qrey Lord Henrini və bir neçə dostunu dəvət etdiyi kənd evində idi.

That was the time when thousands of workers in the area were streaming out of the plants.

(Carter).

Bu, həmin diyarda minlərlə işçinin zavodlardan axışdığı bir vaxt idi.

I don't like the method how he explainedthe matter. But he could see now no reason why he should not smoke.

(J. London).

Mən onun məsələni izah etdiyi metodunu xoşlamıram. Ancaq o nəyə göra siqaret çəkməyəcəyinin səbəbini bilmirdi.

Məsələn: **The fact that he has not said anything surprises everybody**. – Onun heç nə deməməsi faktı hər kəsi təəcübləndirir. Beləliklə, tamamilə aydındır ki, nisbi əvəzliklər təyin budaq cümlələrini baş cümləyə bağlamaq üçün işlənir və bağlayıcılardan olunan təyin budaq cümləsində fərqlənir ki, onlar həm də bir cümlə üzvü kimi çıxış edə bilirlər.

Əvəzliklərin işlənməsində aşağıdakı qaydalara nəzər salaq.

1) **Who (whom), whose, which** sual əvəzlikləri orta əsrlər ingilis dilində nisbi əvəzliklər kimi işlədilmişdir. Erkən orta əsrlər ingilis dilində **that** geniş işlənmişdir, lakin indi **wh** əvəzliklərinin, xüsusilə, canlılara aid olan **who** əvəzliklərinin işlədilməsinə geniş meyl var.

2) Heyvan, bəzən kişi və ya qadın cinsinə aid olduqda who əvəzliyi işlənir. Lakin bu qayda bzən pozulur və biz tez-tez **which** əvəzliyinin kişi və ya qadın cinsi ilə, **who** əvəzliyinin isə orta cinslə əlaqələndiyinin şahidi oluruq.

3) Ölkə adları coğrafi nöqteyi-nəzərdən götürüldükdə **which** əvəzliyi, siyasi anlayış kimi götürüldükdə isə **who** əvəzliyi işlənir. Lakin bununla belə həmin məsələdə həddindən artıq tərəddüdlər var.

4) Əgər kollektiv isim bütöv bir toplumu bildirirsə **which** əvəzliyinin (fel təkdə); ayrı-ayrı şəxsləri nəzərdə tutursa **who** əvəzliyini işlədirik (fel cəmdə).

5) Poeziyada əşyaları təcəssüm etdirmək üçün **who** əvəzliyindən istifadə edilir.

6) Əgər təyin olunan söz peşə, şəxsiyyət ifadə edən ismi xəbərdirsə, onda **which** və ya **that** işlənir. Təyin etdiyi söz kimi **which** əvəzliyinin də sifəti – predifikatı və ya bütöv bir cümləsi ola bilər. Belə olan halda baş cümləyə **which**-lə bağlanan budaq cümlələr həmişə təsviredici olur.

7) Orta əsrlər ingilis dilində və erkən müasir ingilis dilində **that** həmişə nisbi əvəzlik kimi işlənmişdir. İndi **that** təsviredici təyin budaq cümlələrində nadir hallarda işlənir və hətta məhdudlaşdırıcı təyin budaq cümlələrində belə, who əvəzliyinin işlədilməsinə güclü, that əvəzliyinin yalnız əşyalara uyğun olaraq işlədilməsinə isə nisbətən az meyl var. Lakin **that** əvəzliyinin insanlara və əşyalara aid olaraq sərbəst işləndiyi bəzi nümunələr var.

Təyin budaq cümləsində **that** tez-tez işlənir:

a) aşağıdakı əvəzliklərlə: **all**, **everything, nothing**, **something**, **anything**, **much**, **little**, **few**.

b) Üstünlük dərəcəsi və the **first**-lə.

Təyin budaq cümlələri nisbi zərflərdən sonra işlənilir. Nisbi əvəzliklərdən başqa nisbi zərflər də təyin budaq cümləsini baş cümləyə bağlaya bilər. Nisbi zərflər zaman, səbəb, yer və tərzi hərəkət mənaları olan isimlərdən sonra işlənilir. **When**, **where**, **how**, **why** nisbi zərfləri təyin budaq cümlələrində işlənməsə də nəzərdə tutula bilər.

Təsviredici təyin budaq cümlələrində bu zərflərin işlənməsi vacibdir, çünki belə təyin budaq cümlələri bağlayıcısız birləşə bilməz.

Əlavə kimi işlənən **Appositive Attributive Clauses** də həmçinin **when**, **where**, **how**, **why** sözləri ilə baş cümləyə bağlanır.

Təyin budaq cümlələri tabelilik bildirən **that**, **if**, **whether**, **as if**, **as though** bağlayıcıları ilə də baş cümləyə bağlana bilər. Bu bağlayıcılar **Appositive Attributive Clause** – larda daha çox işlənir. That bağlayıcısı təyin budaq cümləsini təqdim edəndə təyin olunan söz mücərrəd isimlərlə istifadə olunur: məsələn – **idea**, **though**, **fuling**, **impression**, **doubt**, **belief**, **wish**, və s.

Məsələn: He calm heart couldn't bear the thought that Ann was lying there so cold – Onun sakit ürəyi Annanın buz kimi orada uzanmasına dözmədi.

Baş cümlədə təyin olunan söz əlavə kimi işlənən təyin budaq cümlələri **as if**, **as thought** ilə də bağlana bilər və cümlədən atıla bilməz. Belə cümlələr bağlayıcılarla yanaşı, bağlayıcı sözlərlə də bağlana bilər. Belə cümlələr vergüllə ayrılmır və bağlayıcı element olmadan işlənmir. Qeyd etdiyimiz kimi, təyin budaq cümlələri bağlayıcısız əlaqədə olanda iki mübtəda yanaşı gələ bilər. Ondan sonra isə iki müxtəlif cümlələrin xəbərləri yanaşı gəlir.

W h , W h i c , T h a t əvəzliklərinin təyin budaq cümlələrində işlənməsi.

Əvəzliklərin işlənməsində aşağıdakı qaydalara nəzər salaq:

1) Who (whom), whose, which sual əvəzlikləri orta əsrlər ingilis dilində nisbi əvəzliklər kimi işlədilmişdir. Erkən orta əsrlər ingilis dilində that geniş işlənmişdir, lakin indi wh - əvəzliklərinin, xüsusilə canlılara aid olan who əvəzliyinin işlədilməsinə geniş meyl var.

Məsələn: Miss Naylor, who had gone into the house, came back ...

(J. Galsworthy).

Evə daxil olmuş xanım Naylor çölə çıxdı.

About this time Mrs. Decie, his wife's sister, whose husband died in the East, returned to England.

(J. Galsworthy).

Elə bu zaman arvadının bacısı, əri Şərqdə ölmüş xanım Desi İngiltərəyə qayıtdı.

This room, which served for studio, bedroom and sitting room, was bare and dusty.

(J. Galsworthy).

Studiya, yataq otağı və qonaq otağı kimi istifadə edilən bu otaq bəzəksiz və tozlu idi.

. . . the breeze that blew up the narrow street was fresh with the smell of the harbour.

(Cusack).

Darısqal küçədən əsən xəfif külək təravətli dəniz ətri saçırdı.

2) Heyvan kişi və ya qadın cinsinə aid olduqda who əvəzliyi, orta cinsə aid olduqda isə which əvəzliyi işlənir. Lakin bu qayda bəzən pozulur və biz tez-tez which əvəzliyinin kişi və ya qadın cinsi ilə, who əvəzliyinin isə orta cinslə əlaqələndiyinin şahidi oluruq.

Məsələn: All at once I remembered that It might be Pilot: who, when the kitchen - door chancedto be left open, not unfrequently found his way up to the threshold of Mr.Rochester's chamber.

(Ch. Bront).

Dərhal xatırladım ki, bu, mətbəx qapısı təsadüfən açıq qalanda tez-tez yolunu cənab Roçesterin otağının astanasından salan Paylot ola bilərdi.

James. . . shifted his feet uneasily, and put one on the cat, which had unwisely taken refuge from old Jolyon beside him.

(J. Galsworthy).

Ceyms narahatlıqla ayaqlarının yerini dəyişdirdi və ayağının birini böyründəki qoca Colyondan qaçıb canını qurtaran axmaq pişiyin üstünə qoydu.

3) Ölkə adları coğrafi nöqtevi-nəzərdən götürüldükdə which əvəzliyi, siyasi anlayış kimi götürüldükdə isə who əvəzliyi işlənir. Bununla belə həddindən artıq tərəddüd var.

Məsələn: For travelling I prefer Norway, which is more mountainous than Sweden.

Səyahət üçün İsveçdən daha dağlıq əraziyə malik olan Norveçi üstün tuturam.

4) Əgər kollektiv isim bütöv bir toplumu bildirirsə which əvəzliyini (fel təkdə); ayrı-ayrı şəxsləri nəzərdə tutursa who əvəzliyini işlədirik (fel cəmdə).

Məsələn: The commission, which consisted of ten members, was unanimous in its decision.

On üzvdən ibarət olan komissiya öz qərarında yekdil idi.

The crew, who were all asleep, forgot to hoist a lantern.

Yatmış dəstə üzvləri fənər yandırmağı unutmuşdular.

5) Poeziyada əşyaları təcəssüm etdirmək üçün who əvəzliyindən istifadə edilir. Məsələn:

And narcissi, the fairest among them all,
Who gaze on their eyes in the stream's recess,
Till they die of their own dear loveliness.

(P M. Shelley).

6) Təyin olunan söz peşə, şəxsiyyət ifadə edən ismi xəbərdirsə, onda which və ya that işlənir.

Məsələn: He is not the man which you think him to be.

O sizin düşündüyünüz kimi deyil.

He is not the man whom you think him to be.

O zənn etdiyiniz adam deyil.

Təyin etdiyi söz kimi, which əvəzliyinin də sifəti - predikativi və ya bütöv bir cümləsi ola bilər. Belə olan halda baş cümləyə which-lə bağlanan budaq cümlələr həmişə təsviredici olur.

Məsələn: It was evident, indeed, that she wished me to drop the subject; which I did accordingly.

(Ch. Bront).

Doğrudan da aydın idi ki, o, söhbəti dayandırmağımı istəyir, buna görə də mən söhbəti dayandırdım.

Beləliklə, təyin budaq cümləsi baş cümlədə isimlə yaxud əvəzliklə ifadə edilmiş hər hansı bir üzvə aid olur, təyin edir. Təyin budaq cümlələri baş cümləyə nisbi əvəzliklərlə və nisbi zərflərlə bağlanır. Təyin budaq cümlələri iki cür olur: məhdudlaşdırıcı təyin budaq cümlələri və təsviedici təyin budaq cümlələri.

Məhdudlaşdırıcı təyin budaq cümlələri təyin olunan sözü mənaca məhdudlaşdırır, dəqiqləşdirir və müəyyənləşir.

Təsviredici təyin budaq cümlələri təyin olunan söz haqqında əlavə məlumat verir.

Ədəbiyyat

1. Barabash T.A. – A Guide to Better Grammar – M; Visshaya Shkola. 1975.
2. Ganshina M., Vasilevskaya N; English Grammar. – M: 1964.
3. İvan Michael. Practical English Usage. – M: Visshaya Shkola. 1984.
4. Musayev O. İngilis dilinin qrammatikası. Bakı, 1986.
5. Əliyeva Ə. Tabeli mürəkkəb cümlələr və onların xüsusiyyətləri. Bakı: Maarif, 1992.

S.Rzayeva

The grammatical features of attributive subordinate clauses in the English language

Summary

In the English language the attributive subordinate clauses are connected by means of particles or without them. In the majority of cases the attributive subordinate clause comes after the word which it defines. In translations of English sentences with attributive subordinate clauses we must observe the syntactical norms of this language.

С.Рзаева

Грамматические особенности атрибутивного подчиненного положения в английском языке

Резюме

В английском языке части сложных предложений с определительными придаточными соединяются с помощью союзов или без них.

В большинстве случаев придаточные определительные следуют за словами, которые они определяют.

В переводе английских предложений придаточными определительными следует соблюдать синтаксические нормы английского языка.

Rəyçi: Nərminə Əliyeva
filologiya elmləri namizədi, dosent

SEVİNC HACIMƏMMƏDOVA
Qafqaz Universiteti
shacimemmedova@std.qu.edu.az

AŞIQ ƏLƏSGƏRİN "GETMƏ, AMANDI" QOŞMASININ LINQVOPETİK TƏHLİLİ

Açar sözlər: qoşma, poetika, leksika, təzad
Ключевые слова: гошма, поэтика, лексикон, контраст
Key words: goshma, poetics, lexicon, contrast

Yazıçının hər bir əsəri onun şəxsi imzasıdır. Fikrimizcə bədii söz sahibi yaratdığı əsərləri ilə özünün bədii təfəkkürünü, poetik duyğularını, şəxsi qənaətlərini, düşüncə tərzini təqdim edir. Eyni zamanda təfəkkürün ifadə vasitəsi olan dil (nitq nəzərdə tutulur-S.H) yazıçının poetikliyə nə dərəcədə nail olduğunu göstərən bariz nümunədir. Həmçinin bu yolda o, dilə xələl gətirməməli, oxucunu yormamalıdır.

Əsərin linqvopoetik təhlilə cəlb olunması ilə eyni zamanda yazıçının mətn texnologiyasını anlamaq mümkündür. Məlumdur ki, "Linqvopoetik təhlil sırf dilçiliklə bağlı məsələləri deyil, həm də ədəbiyyatşünaslığın elmi səlahiyyətinə daxil olan problemləri, o cümlədən məzmunu da əhatə edir"(1,s. 5). Belə ki, yazıçının məzmuna və məzmundan irəli gələn məqsədə çatmaq yolu bizim üçün maraqlıdır. Bu təhlildə omonim, sinonimlərin sayı deyil, onların işlədilmə mahiyyəti önəmlidir.

Linqvopoetik təhlil əsərin texnikasını - hansı məzmunun hansı kodları tələb etdiyini, poetik xüsusiyyətlərin ifadə vasitələrinin nə və hansı janr tələb etdiyini, məzmunla formanın nə dərəcədə səsləşdiyini öyrənməyə kömək edir. Məsələn bir mətndə işlənən bədii sual konkret bir intonem funksiyasında çıxış edir: o ya təsdiqedici, ya ifşaedici, ya təhdidedici və s. xarakter daşıya bilər.

Əsərin texniki və poetik xüsusiyyətləri bir mərkəzdə birləşərək linqvopoetik təhlili yaradır. Bununla belə bəzən müəyyən fikrin ifadəsində poetiklik texniki tərəflərə təsir edir və ya əksinə, texniki göstərici poetikliyə uyğunlaşdırılır. Mahnının mətni musiqinin ritminə uyğun gəlməyəndə heca artımı hadisəsinə müraciət edilir: "O, bu qəlbimi duymur"-yazılmalı olduğu halda, "duymayır" - yazılır. Nəticədə əsərin poetik özülü yoxa çıxır. Linqvopoetik təhlil bu kimi qüsurları əyani şəkildə göstərərək bədii dildən uzaqlaşdırır, əsər təhlilində ən kamil prinsip kimi dil və poetikliyin əhəmiyyətli xüsusiyyətlərini özündə birləşdirir.

Söylənilənləri daha yaxşı anlamaq üçün ustad aşığımız Dədə Ələsgərin yaradıcılığına müraciət edək. Əyanilik üçün aşığın "Getmə, amandı" qoşmasını linqvopoetik təhlil edək.

Gözəllər sultanı, mələklər şahı,
Alagöz cananım, getmə, amandı!
Dərdindən xəstəyəm, çəkirəm ahı,
Həkimim, loğmanım, getmə, amandı!

Camalın göyçəkdi bayram ayından,
Görən doymaz qamətindən, boyundan.

Layiq deyil qurban kəsim qoyundan,
Sana qurban canım, getmə, amandı!

Əsərin üçüncü bəndi müxtəlif mənbələrdə fərqli şəkildədir. Belə ki əsər üzərində işləyərkən üç varianta rast gəldim. Bu onun ağız ədəbiyyatı nümunəsi olması ilə bağlıdır. Variantlılıq özünü sonuncu bənddə göstərir. Bunlara nəzər salaq:

Qoşmanın ilk variantını görkəmli folklorşünas, alim Hümmət Əlizadə üzə çıxarıb. Folklor toplayıcısı və naşiri olan H.Əlizadə Ələsgər irsini diqqət mərkəzində saxlamış, illər uzunu rayonları, kəndləri gəzərək topladığı şeirləri 1934, 1935, 1937 – ci illərdə üç dəfə kitab çəklində çap etdirmişdir. Bu qoşmalar arasında "Getmə, amandı" qoşmasının son bəndi 1935 və 1937 – ci illər nəşrində bu cür verilir.

Sən mələkzadəsən, ay mina gərdən?!
Kəsmə məhəbbətin qul Ələsgərdən.
Günahkar qulunam, salma nəzərdən,
Kərəmli sultanım, getmə, amandı!(2,s. 310)

Bakıda 1973 –cü ildə "Elm" nəşriyyatı tərəfindən Ələsgər irsi yenidən nəşr olunur. Aşığın nəvəsi İslam Ələsgərovun topladığı materiallar əsasında Azərbaycan SSR Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutu AŞIQ ƏLƏSGƏR (birinci kitab) çapa verilir. "Getmə, amandı"qoşması bu nəşrdə də diqqəti cəlb edir. Bu qoşmanın son bəndi həmin kitabda bu cür verilmişdi:

Sən mələkzadəsən, ay mina gərdən?!
Görənin ağlını alırsan sərdən.
Kəsmə iltifatın qul Ələsgərdən,
Kərəmli sultanım, getmə, amandı!(2,s. 107)

Üçüncü bəndə görə rast gəldiyimiz digər bir variant isə internetdə(3.) bu şəkildə öz əksini tapıb:

Mən sana nə deyim, ay mina gərdən?!
Kəsmə məhəbbətin, gəl, Ələsgərdən.
Günahkar qulunam, salma nəzərdən,
Kərəmli sultanım, getmə, amandı!

Qoşmanın yaranma səbəbi haqqında müxtəlif fikirlər mövcuddur. Onlardan birində deyilir ki, Ələsgər bu qoşmanı küsüb Yanşaq kəndinə-atası evinə getmək istəyən arvadı Anaxanıma, onun könlünü almaq məqsədilə demişdir (2,s. 310).

Şeir doğma vəzninmiz olan heca vəznində, qoşma janrında yazılıb. Hər bəndi 4 misradan , hər misrası 11 hecadan ibarətdir. Qoşmanın sintaqmatik üzvlənməsi təqdiyə görə bölünməklə üst – üstə düşür : 6-5. Qoşmanın qafiyə yeri sabitdir: birinci bəndin birinci, üçüncü misraları sərbəst, ikinci, dördüncü misraları həmqafiyədir, qalan bəndlərdə üç əvvəlinci misralar bir- birilə, dördüncü misra isə birinci bəndin son misrası ilə qafiyələnir. Son bəndin misralarının birində sənətkar

öz təxəllüsünü deyib ki, bu da möhürbənd adlanır. Bəndlərinin sayını tək olması qoşmanın xarakterik xüsusiyyətidir.

Göründüyü kimi , "Getmə , amandı" rədifli qoşmasında 1-ci bənddə ***şahı***, ***ahı*** , 2-ci bənddə ***ayından***, ***boyundan***, ***qoyundan***, 3-cü bənddə ***gərdən***, ***Ələsgərdən***, ***nəzərdən*** (***gərdən***, ***sərdən***, ***Ələsgərdən*** və ***loğmanım***, ***canım***, ***sultanım***) sözləri bir – birilə qafiyələnir.

Ələsgər qoşma yaradarkən texniki və poetik xüsusiyyətlərə diqqətlə əməl edən qüdrətli sənətkardır. Eyni zamanda o, poetikliyi texniki göstəricilərə qurban verən aşıqlardan deyil. O, "misranı doldurmaq", qafiyə yaratmaq xətrinə sözləri yerli-yersiz işlətməzdi. Elə isə bu üç texniki variant arasında həqiqətən Ələsgər qələmindən çıxan düzgün variantı özümüz aydın etməyə çalışaq.

İnternetdəki variantla digər nüsxələri qarşılaşdırarkən möhürbənddə rast gəldiyimiz "Gəl" və "qul" sözlərinə diqqət yetirək.

Bildiyimiz kimi "gəl" sözü adi bir modal sözdür, bədii mühitdə olan bir söz kimi yalnız bədiiliyə xidmət edir, digər heç bir əhəmiyyətli funksiya daşımır. Ələsgər isə bu cür xüsusi məna yükü daşımayan adi sözü öz qoşmasına gətirməzdi. Bu misra yalnız ağız ədəbiyyatının bir variantıdır. İlkin variant ola bilməz.

"Qul" sözünə semantik yükünə diqqət yetirək. Bu söz izahlı lüğətdə bu şəkildə göstərilib(4,s. 203):

1. Qədim dövrlərdə: müharibədə əsir tutulub satılan adam; 2. Xidmət üçün satın alınmış adam; hər cür istehsal vasitəsi və hüquqdan məhrum olan və tamamilə öz sahibinin ixtiyarında olub, bir mal kimi alınıb satılan adam; kölə; 3. məc. Öz iradəsini, hərəkətlərini tamamilə bir şeyə, ya başqasına tabe etmiş adam. Öz adətlərinin qulu. Qul etmək məcazi mənada isə –əsir etmək, valeh etmək, tamamilə ixtiyarını əlindən almaq, mənasında işlənir.

Dilimizdə məcazaşma prosesi çox qədim hadisədir və Ələsgər də bu sözün çoxmənalılığından doğan məcazi mənasına əhəmiyyət vermiş, sevgi yolunda qula çevrildiyini, ixtiyarının o gözəlin əlində olduğunu, gözəlin əsirinə çevrilmiş bu yazıq qulun onun iltifatına möhtac olduğunu söyləyir. Təbii ki Ələsgər tərəfindən yaradılan ilkin variant məhz bu söz ola bilər.

Digər bir fərq özünü 1935-1937 ci il nəşrində nəzərə çarpır. Diqqət etsək görərik ki, epifora səciyyəsi daşıyan "qul" sözünün təkrarı mövcuddur. Ardıcıl misralarda bu söz eyni mənada işlədilir:

Kəsmə məhəbbətin qul Ələsgərdən.
Günahkar qulunam, salma nəzərdən,

Ustad Ələsgər eyni sözü əgər təkrar şəkildə işlədərsə, yalnız yeni məna çaları ilə işlədər. Bu halda isə yalnız diqqəti yorucu təkrar cəlb etdiyindənr

Qoşmada rast gəldiyimiz bir fərqlilik özünü "qul" sözündən əvvəl gələn "məhəbbət" və "iltifat" sözlərində göstərir. Linqvopoetikanın bizə verdiyi imkanlar daxilində bu ziddiyyət içərisindən doğru variantı axtarmağa çalışaq:

"Kəsmə məhəbbətin qul Ələsgərdən"
"Kəsmə iltifatın qul Ələsgərdən"

Ən əvvəl "iltifat" və "məhəbbət" sözlərinin izahlı lügətdəki mənalarına diqqət yetirək:

Dilimizin lüğət tərkibinə fars ədəbi dilindən daxil olmuş "iltifat" sözü 1) lütfkarlıq, lütf, mərhəmət, etina, mehribanlıq; 2) qayğı, diqqət. İltifat etmək (eləmək, göstərmək və s.) – 1) mərhəmət etmək, xeyirxahlıq göstərmək, yaxşılıq etmək,mərhəmət edib vermək mənalarını özündə birləşdirir (6,s. 61).

Dilimizin lüğət tərkibinə ərəb dilindən keçmiş "məhəbbət" sözü 1) Eşq, sevgi, sevmə, sevişmə. Aralarında məhəbbət var. Məhəbbət bağlamaq (salmaq) – sevmək, vurulmaq, eşq yetirmək. 2) Ürəkdən, fədakarcasına bağlılıq; sevgi, dostluq, sədaqət; mehribanlıq. 3) Bir şeyə sonsuz maraq; meyil, həvəs, istək(5,s. 105).

Bu iki ifadədələrin araşdırılması göstərir ki, "kəsmə iltifatın" ifadəsində olan ağırlıq, sanballıq "kəsmə məhəbbətin" ifadəsində yoxdur: Aşıq deyir ki, lütfünü, mərhəmətini məndən kəsmə.

Mətnin linqvopoetik təhlilinin verdiyi imkanlar nəticəsində bu qənaətə gəldik ki, ən kamil texniki variant İslam Ələsgərovun təqdim etdiyi variantdır.

Əsərin ideya və məzmununa nəzər salaq. Əvvəlcə onu qeyd edək ki, Ələsgər meyarına görə gözəlliyin mühüm şərtlərindən biri olan zahiri gözəllik bu gözəlləməsində də öz əksini tapıb. Aşığa görə gözəllik onun qiblə bilib, səcdə etdiyi qaşların, şölə verən ala gözlərin yerində olmasıdır. Həmçinin bu əlamətlər ilə yanaşı gözəldə daxili gözəllik də olmalıdır. Daxili gözəllik isə ağıl, kamal, insani hisslərdən qaynaqlanır.

Birinci bənddə şair iki tərəfi qarşılaşdırır. Sevdiyi gözəllə özünün halını müqayisə edərək ah çəkir, yanır, alışır, dərddən xəstə düşür. Eşq xəstəsinin dərmanı isə ala gözlü canandır, mələklər şahı, gözəllər sultanıdır. Növbəti bənddə gözəlin gözəlliyi vurğulanır. Gözəlliyinin məhz boynu, qaməti, camalında əks olunduğu aydınlaşır. Bu xüsusən "ə" intonemi vasitəsilə əks olunur.

Son bənddə şair o gözəldə yeni bir əlaməti qabardır. Gözəlliyi ilə ağlını alan mələkzadədə insaf, mərhəmət kimi hisslərin olduğunu bizə göstərir. İlk əvvəl zahiri gözəlliyi ilə fəxr etdiyi gözələ sonda "kərəmli" deyə müraciət edir. Onun kərəminə inanır, getməməsi üçün ondan mərhəmət diləyir. Bu mərhəmət misradakı 19 "ə" intonemi ilə əks olunur. Görünüyü kimi eyni intonem fərqli məna yükü daşıyır.

Ələsgərin real və həqiqi gözəllərin vəsfinə xidmət edən gözəlləmələrinin cəlbediciliyinin əsas şərtlərindən biri şeir və musiqinin yanaşı qoyulmasıdır. Bizcə səslər düzümündə yaratdığı səliqəsi bu iki keyfiyyətin vəhdəti ilə bağlıdır. Hecalarda samitdən samitə, yaxud samitdən saitə keçir və ya tələffüzcə bir-birinə yaxın olan səslərdən ibarət sözlərin düzümünə xüsusi diqqət yetirir və nəticədə ən doğru variantı göstərir. Hər misranın özündə səslər düzümünün yaratdığı daxili ahəngdarlıq tələbi musiqi ilə müşayət edilir ki, bu da saz ilə ifa olunan aşıq şeiri üçün xüsusi əhəmiyyətlidir. Bunu hiss etmək, duymaq, buna riayət etmək, bu çətin məqsədə nail olmaq ancaq Ələsgərə kimi ustada nəsib olmuşdur.

Diqqət edilsə, bütün qoşma sonorlar və z, s səsləri ilə hecalar, sözlər düzümünə qoşulmuşdur. Elə bil ki, bu düşünülmüş sistemdir. Hətta bəndlərin, ayrı-ayrı misra və ya beytlərin hər birində bu səslərin bir və ya ikisinin daha çox işlənməsinə xüsusi fikir verilib. Burada "r"-ritmiklik yaradır, adətən qəm-kədər intonemi kimi çıxış edən "z" səsi və ən gözəl sevgi sözlərini öz maddi qabığında əks etdirən "s" səsi bu qoşmada tərənnüm intonemi kimi işlənir.

"Getmə, amandı" qoşmasında sözün tikinti materialı olan səslər məzmunla səsləşir. Bu səsləşmə sonor samitlər və saitlər hesabına yaradılıb. Bildiyimiz kimi səs vahidlərinə bu cür yanaşma şüurlu şəkildə deyil, qeyri – ixtiyari xarakter daşıyır. Saitlərdə hecayaratma, ağız boşluğunda maneəsiz keçmə, musiqililik xüsusiyyəti vardır ki, bu məzmunla formanın əsrarəngiz vəhdətini təmin edir. Qoşmada "ə"səsi– 42, "a"səsi isə – 38dəfə təkrarlanıb, ən çox təkrarlanan "ə" intonemi tərənnüm vasitəsinə çevrilib.

Fonetik ahəngin tələbi ilə qalın saitlər bu sözü *sənə* deyil, *sana* formasında tələb edir. Burada işlənən "ö", "ü" səsləri poetiklik yaradır. Bu səslər çox az hallarda işlənərək gözəl səslənişə xidmət edir(gözəllər, alagöz, ölürəm, görən, görənin).

Mətnin ritmik-melodik üzvlənməsinin özəyində monotonluğu öz üzərinə götürən sonor samitlərdə saitlərə yaxın musiqililik mövcuddur. Heca yarada bilməməsi ilə bu cingiltili sonorlar sait səslərdən fərqlənir. Dilimizdə bu səslərin əhəmiyyətini düzgün qiymətləndirən şair tərənnümlərini daha çox rədif və şəkilçilər vasitəsilə artan sonorlarla ifadə edib.

Qoşmanın leksikası alınma sözlərlə zəngindir. Hər dörd sözdən üçünün alınma mənşəli söz olduğunu desək, yanılmarıq. Alınma sözlərdə üstünlüyü dövrün tələbi ilə ərəb- fars mənşəli sözlər təşkil edir. Xüsusən, bu alınma sözləri leksik dubletlər daxilində işlətməklə həm həmcins üzvlər hesabına qoşmanın dilini zənginləşdirir, həm də söz oyunun ən gözəl variantını yaradır. Həkim(ərəb)-loğman (fars), qamət(ərəb)-boy cütlərində hər ikisi alınma və ya biri alınma,biri öz sözümüz olmaq etibarilə yaradılan dubletlər ustad Ələsgər yaradıcılığı üçün xarakterik priomlardandır. Bu söz oyunu fikrin ekspressivliyini artırmaqda önəmli yer tutur. Onu da qeyd edim ki, boyun sözü qoşmada üç yerdə göstərilmişdir. Qamət, boyun, gərdən şəklində təqdim olunan hər üç söz gözəlin vəsfinə yönəlmiş, əsərin təsir gücünü artıran vasitə kimi çıxış etməklə aşığı yersiz təkrardan uzaqlaşdırmışdır.

Aşıq səs ardıcıllığına riayət vacibliyi ilə əlaqədar öz qoşmalarında ərəb-fars sözləri işlədir. Ümumiyyətlə, "Getmə, amandı" qoşması əsasən bir-birinə yaxın səslənən s, c, z səslərindən ibarət sözlərin düzümünə, bu düzümün ahəngdarlığına söykənmişdir. Əvvəlki "– san" hecası ilə alınma söz olan "sər" sözünün yanaşı gəlməsi məqamında və düzgün işlənir. Bu sözün əvəzində onun milli qarşılığı olan "baş" sözü olsaydı, bu halda ahəngdarlıq pozulardı.

"S" səsinin alliterasiyası hadisəsi üçüncü misrada "sən" və "mələkzadəsən" sözlərində də qorunur. "S" səsi sevgi intonemi yaradan vasitə kimi sevginin aşiqdə yaratdığı halları ifadə etməyə xidmət edir.

İlk bənddə aşıq sevdiyinə "sultan" və "şah" deyə müraciət edir. Bu sözlərin mənasına baxaq.

Ərəb sözü olan "sultan" sözü hakimiyyəti izah edir. Əvvəllər dini hakimiyyətə aid olsa da, hal–hazırda dünyəviliyə işarədir. Səcdə olunanı bildirir. Hesab edilir ki, ilk dəfə bu söz Tabari tərəfindən xəlif əl-Mütamidin qardaşı Müvəffəq üçün işlədilib(5,s. 159)

Fars sözü olan "şah" sözü keçmişdə İran və Əfqanıstanda padşahın titulu, həmçinin bu titulu daşıyan şəxs mənasında işlədilirdi(4,s. 182).

Göründüyü kimi müxtəlif dillərdə harada isə eyni mənada işlənən bu sözlərsinonim cütü aşiqin cananının əzəmətinə işarədir. Bir ölkədə sultan, şah kimdirsə,

aşiq üçün də sevdiyi gözəl odur. Aşığın nəzərində o, gözəllikdə yer üzünün sultanı, mələklər içində şahdır.

Aşıq yaradıcılığında, xüsusən Ələsgər irsində ən çox işlənən sözlər kimi "qurban", "mina gərdən", "alagöz", "sultan" sözlərini göstərə bilərik. Qeyd edək ki, bu sözlər içində yalnız "alagöz" sözü milli sözdür.

Ələsgər bədii təzadın imkanlarından məharətlə istifadə edir, "xəstə"-"loğman" antonimləri qarşılaşdırır. Xəstə sözünün çoxmənalılıq funksiyasına nəzər yetirərək "eşq xəstəsi" mənasında işlədən aşıq eşqdən yorğan-döşəyə düşdüyünü, həkimə ehtiyac duyduğunu, o loğmanında məhz o olduğunu söyləyir.

"Can" və "qoyun" sözlərini təzadlı şəkildə göstərir. Adi halda təzad bildirməyən bu sözlər şeir daxilində iki qurbanlıq kimi qarşılaşdırılır.

Layiq deyil qurban kəsim qoyundan,
Sana qurban canım, getmə, amandı!

Allahın Qurban bayramında, hətta peyğəmbərlər üçün nəzərdə tutduğu ən məqbul heyvanı-qoyunu aşıq sevdiyi üçün layiq bilmir, ona öz canını qurban kimi təklif edir.

Leksikamızın imkanlarından hərtərəfli istifadə edən aşıq Ələsgər evfemizmlərə də müraciət edir. Aşiq olduğunu, eşq əzabı çəkdiyini daha əyani, inandırıcı göstərmək üçün evfemizm xarakteri daşıyan bu frazeoloji birləşmələri işlədir:

Dərdindən xəstəyəm, çəkirəm ahı, sevdiyinin gözəlliyini vəsf etmək üçün "Görən doymaz qamətindən, boyundan", "Sana qurban canım, getmə, amandı!", "Kəsmə iltifatın qul Ələsgərdən".

Cəsarətlə demək olar ki, Ələsgərdə bədii icad olmayan şeir yoxdur. Bu onda çoxlarına müəssər olmayan bir qabiliyyət, bir qüdrətdir. Elə bədii lövhələr cızır ki, insan heyran qalır. Ələsgər, doğrudan da, sözün geniş mənasında bənzətmələr ustasıdır. Onda bənzətmənin rəngarəng növlərinə, hətta poetika kitablarına düşməmiş çeşidlərinə rast gəlinir.

"Camalın göyçəkdi bayram ayından"

Aşıq camalın gözəlliyini bayram ayının gözəlliyi ilə müqayisə edir və maraqlı təşbeh nümunəsi yaradır.

"Getmə, amandı" qoşmasında bədii ifadə vasitələrindən bədii təyin, epitet, metafora, metonimiya nümunələrinə rast gəlinir.

Bildiyimiz kimi bədii təyin heç bir məcazlığa xidmət etmir, bədii mühitdə iştirakına görə bu cür adlanır. Istənilən qrammatik təyin bədii mühitə düşdükdə bədii təyinə çevrilir. Alagöz cananım birləşməsində qrammatik təyin olan "alagöz" sözünə fikir verdikdə görürük ki, göz ala rəngdə ola bilər və burda qeyri-adi bir bədii icad yoxdur.

Bədii təyindən fərqli olaraq, epitet məcazlıq xüsusiyyətə malikdir və obrazlılıq funksiyası daşıyır. Qul Ələsgər, mina gərdən birləşmələrində Ələsgər özünü çarəsiz qula, gözəlin boynunu mərmərə bənzədilməsi obrazlılığa ən gözəl nümunədir.

Metafora səciyyəsi daşıyan "ah çəkmək" ifadəsi bədii təsvir vasitələrindəndir.

"Dərdindən xəstəyəm, çəkirəm ahı"

Sintaktik səviyyədə isə onu deyə bilərik ki, birinci misrada sintaktik paralelizmə xitablar fonunda rast gəlinir. Ardıcıl işlənmiş xitabların hər ikisi üçüncü növ təyini söz birləşmələri ilə ifadə olunub. Daxili quruluşuna görə də eynidir. İki

sözlə ifadə olunmuş sadə söz birləşmələrinin hər ikisində birinci tərəf cəm şəkilçisi qəbul etmişdir.

Məhəbbətə həsr olunan bütün şeirlər kimi, bu qoşma da gözələ müraciətlə-xitabla başlayır. Qoşma xitablarla zəngindir. Burada alagöz cananım, həkimim, loğmanım, kərəmli sultanım, ay mina gərdən, gözəllər sultanı, mələklər şahı kimi xitablara rast gəlirik.

Əsərdə sintaktik təkrirlərə də rast gəlirik. Qədim üslubi fiqurlardan olan təkrirlər hər hansı fikrin, mənanın qüvvətləndirilməsi, ekspressivliyin artırılması ilə yanası, diqqəti daha çox mətnin əsas ideya və məzmununa yönəltmək üçün işlədilir. Təkrir funksiyasında çıxış edən "sultan" xitabı qoşmada ilk bəndin əvvəlində və son bəndin son misrasında təkrarlanır. Adi halda eyni sözün eyni funksiyada işlənməsini Ələsgər yaradıcılığı üçün qəbuledilməz fakt hesab edirik. Bu halda bu sözə diqqət yetirək: Son bənddə işlənən "sultanım" sözü özündən əvvəl işlənən sözlə birləşmə yaradaraq yeni məna çaları əmələ gətirir. Birinci ifadədə qızın gözəlliyi vurğulanırsa, ikinci ifadədə mərhəmət, lütf sahibi olduğu əks olunur. Göründüyü kimi Ələsgər ifadəni eyni ilə təkrar etmir, çoxmənalılıq funksiyasını önə çəkir.

Ədəbiyyat

1. T.İ.Hacıyeva. Azərbaycan klassik aşıq poeziyasının üslubi-poetik sintaksisi. Namizədlik dissertasiyası avtoreferatı Bakı, 2000
2. Aşıq Ələsgər Birinci kitab. Azərbaycan SSR Elmlər Akademiyası Nəsimi adına Ədəbiyyat İnstitutu. "Elm"nəşriyyatı. Bakı, 1973
3. http://xebersayti.com/kitabxana/2013/05/13/getm%C9%99-amandi-asiq-%C9%99l%C9%99sg%C9%99r/#
4. Azərbaycan dilinin izahlı lüğəti. Nəsimi adına Dilçilik İnstitutu. 4cilddə.3-cü cild. Şərq-qərb, Bakı 2006
5. Azərbaycan dilində işlənən ərəb-fars sözlərinin qısa lüğəti.1-ci nəşr. "Kitab klubu" nəşriyyatı. Bakı, 2007
6. Farsca-Azərbaycanca lüğət. "Şərq-Qərb", Bakı 2007
7. A.M.Qurbanov. Bədii mətnin linqvistik təhlili. Maarif nəşriyyatı. Bakı 2005

S.Hacımammadova

Lingopoetic analysis of goshma "Getme, amandi" by Ashug Alaskar

Summary

The article deals with lingopoetic problems of Linguistics, it touches upon such issues as linguistic and poetic analysis of artistic text which is always one of very actual themes. While analyzing the text focusing the elements of both literature and linguistics helps to solve several problems met in the language of the work. So, the language varieties and the problem of author are solved by means of this method and the period's lexical features are investigated. In order to understand what was said we turn to Ashug Alaskar's creative work that give valuable materials. Being one of the master ashugs of Azerbaijan, Dad Alaskar's multilateral creative work is involved in lingopoetic analysis in four levels of language in the background of his goshma " Getme, amandi"; different categories of language as sounds, words, the

polysemy of words, contrast, synonyms and repititions are touched upon, the ways how to choose the original variant of goshma among its existing variants are taught.

С.Гаджыьаьедовой

Лингво – поэтический анализ гошму “Getmə, amandı” Ашык Алескера

Резюме

Статья посвящена лингво – поэтическому исследованию, и сказано об анализе литературного текста. В ходе анализа элементов языка и литературы в работе координационных центров, представляющих взаимные участия в работе помогает решить ряд проблем, с которыми сталкиваются. Таким образом, в работе возникающих проблем, таких как вариантность или кому работа в настоящее время устранены с помощью этого метода, лексических особенностей исследуемого периода. Это лучше понять, что эта проблема решается в создании ценного материала Ашика Алескера. Овладеть искусством универсальный ашика Деде Алескера в гошме" Getmə amandı " привязанность лингво - поэтику на четырех уровнях анализа языка участвуют в фоновом режиме, звуки, слова, многозначимость слова контрастирует, различные языковые категории, такие как синоним коснулся дублирования в своей оригинальной версии от вариантов, доступных для подключения способы выбора.

Rəyçi: İ.Ə.Hüseynov
filologiya üzrə fəlsəfə doktoru

SADƏ QULİYEVA
Qafqaz Universiteti
E mail: qva. sade@mail.ru

B.VAHABZADƏ ŞEİRLƏRİNİN LİNQVOPETİKASI
(«Gör necə güclüsən» şeiri əsasında)

Açar sözlər: Sərbəst şeir, poetika,fonetika, təkrir, təzad
Ключовие слова: бесплатно поезия, поетика, фонетика, участок, контрастировать
Key words: free poetry, poetics, phonetics, plot, contrast

B. Vahabzadə lirikası həm mövzu, həm də mündəricə etibarı ilə zəngin və dolğundur. Ülvi və pak hissləri tərənnüm edən şair həmişə insandan, onun kamalından və gözəlliyindən qüvvət və ilham alır. Lirikasının tükənməz həyat qüvvəsi, xalq həyatı ilə sıx təmasda, xalqın arzularına, diləklərinə, düşüncələrinə qırılmaz tellərlə bağlı olmasındadır. Bəxtiyar bir şair kimi klassik ədəbi irsin və folklorun ölməz ənənələrindən qüvvət almış, inkişaf etmişdir. Şeirlərinin əksəriyyətini təzadlar üzərində quran ədib daim orijinallığa meyl etmişdir. Ənənəvi mövzuları qələmə alanda da Bəxtiyarın öz səsi, öz nəfəsi, öz münasibəti dərhal gözə dəyir.

Vahabzadə istər ictimai-siyasi və məhəbbət lirikasında, istərsə də epik poemalarda oxucunun qəlbinə yol tapa bilir. «Atılmışlar», «Gülüstan», «Şəbi-hicran», «Şəhidlər» və s. kimi poemaları, «Şəhid məzarları», «Təyyarələr», «Vətəndaş», «Ana dili», «Latın dili», «Bir salama dəymədi», «Sən oluram mən» kimi şeirləri yaradıcılığında özünəməxsus yerlərdən birini tutur.

Vahabzadə şeiri hər cəhətdən müasirdir, həm mövzularına, həyati- fəlsəfi problematikasına görə, həm də lirik qəhrəmanın mənəvi sifətlərinə, mənəvi axtarışlarına görə.

Şairin şeir dili ritmik, musiqilidir. Lirikasında atalar sözü və təmsillərdən, nağıl və rəvayətlərdən istifadə edir: «Belə gözəl gecədə dağ da, daş da, qaya da, Gecədən həyat umar…» Burada «umar» sözü şeirə sanki bir təzəlik, təravət gətirir və ya «İyirmi yol yarpaqlar açdı, saraldı». Burada şair «iyirmi yol» əvəzinə iyirmi il, iyirmi kərə və s. deyə bilərdi, lakin ədib saf-çürük edərək ən münasibini tapıb işlətmişdir. Başqa nümunə «Dilim topuq çaldı, yanıldım bayaq» - çaşdım, təntidim, karıxdım əvəzinə «dilim topuq çaldı» ifadəsini işlədib.

Ümumiyyətlə, bədii əsərin dili həyatı, onun müxtəlifliyini, münasibət və davranışı, fikri-mənəvi aləmi lövhə və mənzərələrlə hiss-emosional şairanə, obrazlı ifadə edən sənət dilidir. Canlılıq, əlvanlıq, yığcamlıq və poetiklik, seçilən, istifadə olunan sözlərin ifadə imkanlarının genişliyi bədii dilə aydınlıq, ciddi özünəməxsusluq gətirir.

Başqa janrlar kimi şeirin tələbi sərt və mürəkkəbdir. Zəngin qafiyə sistemi, fikrin mükəmməl ölçü-vəzn çərçivəsində verilməsi onun mürəkkəbliyini xeyli artırır. Şeir üçün söz seçmək, sözü yerində işlətmək və onların düzümünə həssaslıqla yanaşmaq hələ hər şey demək deyildir. Burada intonasiya və misra quruluşunda müdriklik, sözlərin dinamikliyi-dəyişməsi, səslərin yaxınlıq və

təkrarı xüsusi əhəmiyyət qazanır; fikri bədii məntiqi gücləndirir, dilin ifadə tərzində aydınlıq yaradır. (1,s 23)

Vahabzadə şeirlərinin linqvopoetik cəhətdən zənginliyi həmişə diqqəti çəkib. Bu şeirlərdə həm dil zənginliyi və bu dil zənginliyinin şeirə bəxş etdiyi ekspressivlik, obrazlılıq şair qələminin xüsusi istedadından xəbər verir. Məhəbbət mövzusunda yazılmış «Gör necə güclüsən» şeirini bu baxımdan nəzərdən keçirək.

Şeir sərbəst formada yazılmışdır. Əvvəlcə onu qeyd edək ki, şeirdə misraların ölçüsü, hecaların sayı və qafiyələrin düzülüşü baxımından sərbəstlik var, ahəng tarazlığı, vurğu və intonasiya diqqəti çəkir, sözlər misralara ahəngdar şəkildə səpələnir.

Üç hissədən ibarət olan şeirdə şair ayrılıq motivini və bununla əlaqədar olaraq aşiqin keçirdiyi ürəkağrıdıcı hissləri, sevdiyinin həsrətindən yata bilməməsini lirik notlarla qeyd edir.

Aşiq məşuqə olan sevgisinin gücünün dərin olmasından dolayı yata bilməməsindən, bu ayrılıq acısının onda qoyub getdiyi izləri, xatirələri unuda bilməməsindən, onun üçün böyük bir dərd, böyük bir ağrı olmasından danışır. Aşiq sanki həyatdan küsüb. Onun üçün bu gün yoxdur, dünən var.

Şeir linqvopoetik baxımdan zəngindir. Fonetik baxımdan şeiri təhlil etdikdə görürük ki, incə saitlərin ahəngi üstünlük təşkil edir, yəni yüksək pafoslu ifadələrə o qədər də rast gəlmək olmur. Bu baxımdan dəniz, kölgə, həsrət, vəfa, xatirə, dərd, qəlb, günəş, könül, sevinc, fərəh, qəm, məhəbbət kimi sözlərdə incə saitlərin yaratdığı kədər, qəm-qüssə intonemi şeiri daha da canlandırır. Şeirdə «tufan, çovğun» sözlərindəki [f] və [ç] səsləri coşğunluq, həyəcanlı semantika intonemini yaradır. Şeirə fonetik üslubu baxımından yanaşdıqda şeirin ikinci bəndində [y] samitinin yaratdığı səs ardıcıllığı alliterasiyaya nümunə kimi göstərilə bilər:

Həsrətin asılıb kirpiklərimdən,
Yuxum da gəlmir ki, heç olmasa mən,
İtirim, batırım səni yuxumda,
Məndən vəfalıymış sənə yuxum da,
Yuxum qaçaq düşüb yatammıram mən,
Yuxum qorxub qaçıb fikirlərimdən… (3, s.221)

Leksik üslubi baxımdan şeir daha çox zəngindir. Bəzi hisslərdə şairin özünəməxsusluğu hiss olunur. Məsələn, yuxarıdakı nümunədə göstərdiyimiz şeirin son iki misrasında işlənmiş «yata bilmirəm» birləşməsinin əvəzinə, «yatammıram» işlətməsi şeiri obrazlı edir.

Ümumiyyətlə, qeydə edək ki, şeir ayrılıq motivi üzərində qurulduğu üçün şairin hər dəfə keçmişə qayıdıb ötən günlərin həsrətindən danışaraq təzad yaratması təbii haldır. Bu baxımdan dünən-bugün sözləri diqqəti çəkir. Şeir sinonim, antonim tərkibli sözlər və ifadələrlə zəngindir:

Gülmək istəyirəm ürəyimdəki
Hönkürtü səsini batırmaq üçün… (antonim)
Yandırdı könlümü bu soyuqluğun,
Var ikən, sağ ikən, yox olmuşam mən… (antonim)
Bu günüm ölüdür, yaşar dünənim. (Bu gün- dünən, ölmək- yaşamaq antonim)

Gör necə güclüsən sənin yoxluğun,
Bütün varlığımı aldı əlimdən (antonim)
Fərəhim, sevindcim dünəndə qaldı,
Dərdimdə, qəmimdə yaşarsan mənim (sinonim)
Gör necə güclüsən sənin yoxluğun
Mənə ögey etdi, doğmaları da. (antonim)
Yaddaşım elə bir günəş ki, gün ki. (sinonim) (3, s. 222)

Şeirdə cinas qafiyəli sözlərə də rast gəlmək olur. Bu şeirin ekspressivliyini daha da artırır:

…İtirim batırım səni yuxumda,
Məndən vəfalıymış sənə yuxum da. (3, s. 221)

Sərapalara diqqət yetirək:

Yuxu dənizi…
Yuxumsa kölgəni…
Kölgəni öz kölgəm kimi … (3, s. 221)

O cümlədən şeirdə təkrarlara da rast gəlmək olur:

… Məndən yan gəzir,
… Sərgərdan gəzir. (epifora)
Yuxum qaçaq düşüb məndən yan gəzir,
Yuxum küçələrdə sərgərdan gəzir. (anafora)
Yuxum qaçaq düşüb yatammıram mən,
Yuxum qorxub qaçıb fikirlərimdən … (anafora) (3, s.221)

Bənzətmələrə baxaq: «Xatirən tikan kimidir, qəlbimi cızır», «şirin xatirə», «ağır xatirə», «məhəbbət bir cəllad təki».

Şeir emosional – ekspressiv leksikayla zəngindir: yuxu, kölgə, fərəh, sevinc, arzu, tufan, çovğun, məhəbbət və s.

Frazeoloji vahidlər şeirin üslubi baxımından zənginliyini daha da artırır. Sintaktik frazeoloji vahidlərlə şeir daha çox zəngindir: «Həsrətin asılıb kirpiklərimdən», «Yuxum qorxub qaçıb fikirlərimdən», «Xatirələr yollara səpələnib», «Xatirən tikandır cızır qəlbimi», «Yoxluğun yaramın üstünə duz səpir», «Məhəbbət gülüşümü öldürüb», «Sənin yoxluğun varlığımı əlimdən aldı», «Başımda tufan var, könlümdə çovğun», «Sənin yoxluğun mənə doğmaları ögey etdi», «Yuxum kölgəni izləyir, qısqanır», «Yuxum qaçaq düşüb», «Yuxum məndən yan gəzir», «Yuxum küçələrdə sərgərdan gəzir», «Dünənimdə ilişib qalmışam» və s.

Metonimiyalara baxaq: dünəni nur kimi görmək, mənə ögey etdi doğmaları, mənə dünənimi xatırlatmasın, bu günüm ölüdür, yaşar dünənim.

Alınma sözlərə çoz az yer verilməsi şairin milliliyindən, öz ədəbi dilinin qayda- qanunlarını dərindən bilməsindən xəbər verir.

«Sərgərdan gəzmək» ifadəsini şairin öz dilinə məxsus dialekt söz kimi işlətmək olar.

Şeirdə sintaktik təkrarlara da yer verilmişdir:

Gör necə güclüsən, sənin yoxluğun,
Bütün varlığı aldı əlimdən …

Gör necə güclüsən,
Sənin yoxluğun

Mənə ögey etdi doğmaları da. (3. s. 222)

Yuxum qaçaq düşüb məndən yan gəzir…
Yuxum qaçaq düşüb yatammıram mən.

Beləliklə, gördüyümüz kimi Vahabzadə şeirləri dil baxımından çox zəngindir. Bu şairin təkrarolunmazlığı və özəlliyidir.

Ədəbiyyat

1. A.M.Qurbanov «Bədii mətnin linqvistik təhlili», «Maarif» nəşriyyatı, Bakı 2005
2. T.İ.Hacıyeva «Azərbaycan klassik aşıq poeziyasının üslubi poetik sintaksisi». Namizədlik dissertasiyası aftoreferatı, Bakı 2000.
3. V.Vahabzadə «Payız düşüncələri». Yazıçı, Bakı 1981.
4. T.Əfəndiyeva «Azərbaycan dilinin leksik üslubiyyatı», «Elm nəşriyyatı», Bakı 1980
5. «Azərbaycan bədii dilinin üslubiyyatı» oçerklər Elmlər Akademiyası nəşriyyatı, Bakı 1970

S.Quliyeva

The lingo poetic features of the poems by b. vahabzade
(based on the poem "Gor nece guclusen")
Summary

Lingo poetics is such a field of linguistics which has been recently created and of which main charastertics is based on the demands of literature. That is, it is important to take the language and literature together while analysing the artistic text from the lingo poetic viewpoint. It also deals with the idea and content of work, the completeness of language by merging it with each other. The article touches upon the poetic richness of B. Vahabzade's lyrics from the analytical viewpoint of language and literature. Especially, it investigates the analysis of his poem "Gor nece guclusen". The figurativeness and stylistic beauty of words and expressions which are in the centre of attention in the poem give information about B.Vahabzade's invaluable and unique language. The lexico stylistic features are also widely observed in the poem. Especially it is widely observed in the creation of contrast- antonym, epithet and smiles. The lexics of poem mainly consists of national words, at the same time the metaphorical meaning of phraseological units adds the poem especial beauty.

С.Кулиева

Лингво - поэтические стихи Вагабзаде
("Gör necə güclüsən" по поэме)
Резюме

Лингво - поэтический раздел языкознания, которые возникли в последние годы, главной особенностью этой области основана на язык литературы. Это, как проанализированы с точки зрения любого литературного произ-

ведения с лингво- поэтики на основе принимая сочетание языка и литературы. Также здесь идеи и содержание работы, с особенностями языка включают сопостовляя дополняют друг друга. В этой статье, поэма, поэтическая лирика была с точки зрения богатства языка и синтеза литературы. В частности, его " Gör necə güclüsən» была проведена на анализе поэзии. Образность более ударяя слова и выражения в поэзии и стилистические особенности языка и красота Вагабзаде, лексические стилистические особенности поэмы проявляется более четко. В частности, это антоним создания внутреннего противоречия, и эпитет является наиболее очевидным. Словарь слов является национальным основой, а также добавляет к красоте поэзии образность фразеологизмов.

Rəyçi: İ.Ə.Hüseynov
filologiya üzrə fəlsəfə doktoru

RƏHİMƏ BABAYEVA
Azərbaycan Dillər Universiteti
babayeva1972@box.az

İNGILIS DILININ QRAMMATIKASININ KOMMUNIKATIV METOD ILƏ TƏDRIS OLUNMASI

Açar sözlər: yanaşma, kommunikativ metod, qrammatik bacarıqlar, deduktiv üsul, induktiv üsul
Ключевые слова: подход, коммуникативный метод, грамматические навыки, дедуктивный подход, индуктивный подход
Key words: approach, communicative method, grammar skills, deductive approach, inductive approach

Xarici dillərin öyrənilməsinin bir neçə aspektləri mövcuddur. Bu aspektlərdən biri qrammatikadır. Xarici dildə danışmağı öyrənmək üçün qrammatika əhəmiyyətli yer tutur, o bir növ lüğət tərkibinin bazasıdır. Qrammatikanı öyrənmək və fikirləri düzgün ifadə etmək, həmçinin nitqdə və yazıda qrammatik formaları tanımaq qrammatik bacarıqların yaranması ilə baş verir. Bu günə kimi hələ də müəllimlər arasında bu kimi fikirləri eşitmək mümkündür: "Mənim tələbələrim qrammatikanı bilir, lakin danışanda səhvlər edirlər" ya da əksinə "Danışmağı bacarırlar, lakin qrammatikanı bilmirlər". Bu səbəbdən indiki zamanda qrammatikanın öyrənilməsində kommunikativ yanaşmadan istifadə çox vacibdir.

Qrammatikanı bilmək nə deməkdir? Qrammatik biliklər tələbələrin şifahi və yazılı nitq fəaliyyətlərinin inkişafına xidmət edir. Tələbələrin üslubi bacarıq və vərdişlərinin yaranmasında qrammatik biliklərin rolu müstəsnadır. Qrammatik hadisələr, anlayışlar, dil üzərində müşahidələrdən doğur, insan təfəkkürü bu mücərrəd anlayışları sistemləşdirir, cilalayır, qayda və tərifl ər yaradır, nitqi düzgün qurmaq məqsədilə tətbiq edir.

Qrammatikanın tədrisinə nələr daxildir? Qrammatikanın tədrisinə qrammatik qayda və hadisələr, həmçinin qrammatik konstruksiya və strukturlardan istifadə etmək kimi qrammatik vərdişlər daxildir.

Qrammatik vərdişlər iki qrupa bölünur: reseptiv və produktiv. Reseptiv qrammatik vərdişlərə dinləmə və oxu, produktiv vərdişlərə isə danışıq və yazı daxildir. Produktiv vərdişlərə qrammatik forma və konstruksiyaları əmələ gətirmək və istifadə etmək, onları seçə bilmək, oxu zamanı qrammatik konstruksiyaları müəyyən edə bilmək və həmçinin qrammatik hadisələrdən yazıda istifadə etmək bacarığı aiddir.

Reseptiv qrammatik vərdişlərə qrammatik konstruksiyanın taninması və onun məna ilə uyğunlaşması, bir qrammatik konstruksiyanı formaca oxşar digər konstruksiyalardan fərqləndirmək bacarığı, sadə cümlənin strukturunun müəyyən edilməsi və ingilis dilində olan cümlədə söz sırası, mürəkkəb cümlənin strukturunun müəyyən edilməsi, cümlə üzvləri arasında məntiqi, zaman, səbəb-nəticə, tabesiz və tabeli əlaqələri müəyyən etmək bacarığı daxildir.

Y.N.Solovova qeyd edir ki, bəzi tələbələr bu və ya digər qrammatik qaydanı hətta uzun müddət işlətdikdən sonra da, onu müəyyən etməkdə çətinlik çəkirlər. Bu səbəbdən, Y.N.Solovova öyrənilən qrammatik qaydanın bütün formalarını: təsdiq,

sual və inkar formalarını lövhədə yazmağı, bu strukturun formasını digər strukturun qismən oxşar forması ilə müqayisə etməyi, tələbələri tədris prosesinin passiv yox, aktiv iştirakçıları etməyi və həmçinin qrammatik qaydanın daha yaxşı yadda qalması məqsədilə qrammatik formanı konkret nitq konteksti ilə əlaqələndirməyi təklif edir.

Qrammatikanı öyrənmək – xarici dilin öyrənilməsinin ən əhəmiyyətli aspektlərindən biridir, çünki dolğun kommunikasiya qrammatika olmadan baş verə bilməz. Heç bir şübhə yoxdur ki, qrammatik qaydaları bilmək dil öyrənmək üçün zəruridir. Lakin son on illiklər ərzində intensiv şəkildə inkişaf edən kommunikativ təlim metodu ingilis dilinin bütün aspektlərinə təsir etdiyi kimi, həmçinin qrammatikanın tədrisinə də çox təsir etmişdir. İngilis dilinin qrammatikasının kommunikativ metod ilə tədris olunmasında əsas diqqət danışıq nitqinin bacarıq və vərdişlərinin inkişaf etdirilməsinə yönəldilir, bu təlim prosesində tələbələr hər hansı bir qrammatik qaydanı əzbərləyib öyrənməyin əvəzinə, müəllim tələbələrə bu qaydanı çalışmalarda öyrətməli və tələbələr qrammatik qaydanı intuitiv olaraq kommunikativ fəaliyyət prosesində öyrənməlidirlər.

Ənənəvi olaraq, qrammatikanın tədrisi zamanı iki üsuldan – deduktiv və induktiv üsullardan istifadə olunur. Deduktiv yanaşmada müəllim əvvəlcə yeni qrammatik materialı təqdim edir, qaydaları izah edir, misallar göstərir, deyilmiş qaydanı misallar üzrə əsaslandırır, sonra isə tələbələr bir sıra çalışmalar yerinə yetirirlər. Deduktiv yanaşmanın əsas üstünlüyü odur ki, yeni qrammatik materialın izahına az vaxt sərf olunur, lakin bu yanaşma tələbələrin sərbəst fəaliyyətini məhdudlaşdırır. Bu üsul passiv və formal xarakter daşıyır. Deduktiv yanaşma çərçivəsində yeni qrammatik materialın tədrisini üç əsas mərhələyə bölmək olar:

1.Yeni qrammatik materialın izah edilməsi.

Bu mərhələdə müəllim tələbələr üçün yeni olan qrammatik konstruksiyaya aid bir sıra mısallar yazır, onların istifadə hallarını izah edir, sual və inkar formalarının əmələ gəlməsini, qısa cavab nümunələrini və s. qeyd edir.

2.Yeni qrammatik materialın işlənilməsi.

Bu mərhələdə tələbələr bir sıra çətin olmayan tapşırıqlar yerinə yetirirlər və bu tapşırıqlar dərhal bütün qrup tərəfindən yoxlanılır. Bu mərhələdə müəllimin yeni qrammatik materialın tələbələr tərəfindən mənimsənilməsinə nəzarət etməsi xüsusi əhəmiyyət kəsb edir.

3. Yeni qrammatik materiala aid produktiv çalışmalar.

Bu çalışmalara dialoqların düzəldilməsi, müxtəlif mövzuların müzakirə edilməsi, şəkillərdə olan oxşar və fərqli cəhətlərin tapılması və s. bu kimi tapşırıqlar daxildir.

İnduktiv yanaşma – qrammatikanın modellərə əsasən tədris olunması deməkdir. Bu yanaşmada müəllimin gətirdiyi bir sıra nümunələrdən çıxış edərək qaydanı tələbələr misallar əsasında çıxarırlar. Bu üsul tələbələrdə məntiqi təfəkkürü inkişaf etdirir, dil üzərində onların müstəqil və fəal çalışmalarına şərait yaradır. Tələbə düşünür, təhlil edərək qrammatik formaları tapır, onun mənasını müəyyən edir və ümumiləşdirir. Bu zaman qrammatik material tələbə tərəfindən şüurlu halda mənimsənilir. İnduktiv üsulun bir üstünlüyü də odur ki, bu üsul tələbəyə qrammatik materialın möhkəm aşılanmasını təmin edir. İnduktiv yanaşmanın əsas üstünlükləri kimi lüğət ehtiyatının zənginləşməsinə, sabit söz birləşmələrini, danışıq leksikasını istifadə etmək bacarığının və sifahi nitqin başa düşülməsi vərdişlərinin inkişafına və

s. şərait yaradan, tələbələrə sərbəstliyin təqdim edilməsini və canlı danışıq nitqindən qrammatik qaydaları çıxartmaq üçün imkan verilməsini qeyd etmək olar. Qrammatikanın öyrənilməsində istifadə olunan induktiv yanaşma və bu yanaşmada istifadə olunan üsullarla tanış olaq. İnduktiv yanaşmada iki üsuldan istifadə olunur: struktur və kommunikativ üsul. Struktur üsulda qrammatik materialın tədrisi mərhələləri bunlardır: nitq nümunələrinin dinlənilməsi, nümunələrin xor şəklində və ya fərdi olaraq tələffüz edilməsi, qrammatik strukturların istifadəsi ilə sual-cavab çalışmalarının yerinə yetirilməsi. Kommunikativ üsulda qrammatik materialın tədrisi mərhələləri bunlardır:

1. konkret nitq şəraitində mənimsəmə materialının dinlənilməsi.
2. nitq misallarının iştirakı ilə nitq imitasiyası mexaniki təkrarı aradan qaldırır.
3. oxşar mənalı ifadələrin vahid hekayədə qruplaşdırılması.
4. nitq nümunələrinin avtomatlaşdırıması üçün müxtəlif oyunların istifadəsi.
5. ünsiyyətdə hazır nümunələrdən istifadə.

İngilis dilinin tədrisində apardığım uzun müşahidələrdən mən belə bir qənaətə gəlmişəm ki, ingilis dilinin təlimi qarşısında qoyulan praktik məqsədə nail olmaq üçün qrammatik qaydaları tələbələrə şüurlu və mükəmməl mənimsətmək lazımdır. Tələbə qrammatik qaydaları şüurlu öyrənmədikdə, onu tez unudur. Qrammatik materialı süurlu öyrətmək üçün onu misallarla izah etmək lazımdır. Tələbənin verilən qaydanı başa düşüb-düşməməsini yoxlamaq üçün ondan öyrəndiyi qaydaya aid testlər, müxtəlif tapşırıqlar verib həmin materialı tələbənin nə dərəcədə mənimsəməsini üzə çıxartmaq lazımdır. Bu zaman tələbənin təfəkkürü hərəkətdə olur, o düşünür. Tələbəni düşündürmək, onu fikir söyləməyə təhrik etmək indi metodikada əsas prinsiplərdən biri sayılır. Müasir təlim metodları tələbənin oxuduğundan nəticə çıxartmasını, oxuduğu haqqında fikir söyləməsini tələb edir. Məsələn: mən Present Continuous zamanını tələbələrə tədris edərkən tələbələrlə belə bir oyun aparıram. Mən onlardan dərsdə müəyyən hərəkət etmələrini xahiş edirəm. Məsələn: tələbələrdən biri gülür, digəri kitab oxuyur, üçüncü tələbə nəsə yazır, dördüncü tələbə isə danışır və s. Sonra isə mən tələbələrdən bu sualları soruşuram:

Who is smiling?
Who is reading a book?
Who is writing?
Who is speaking?

Tələbələr bu sualları belə cavablandırırlar:

Sona is smiling.
Ali is reading a book.
Aydan is writing.
Seymur is speaking.

Sonra mən tələbələrə deyirəm ki, tələbələrin öz cavablarında işlətdikləri zaman forması Present Continuous zamanıdır. Ya da mən Past Simple zamanını tələbələrə keçərkən lövhədə bu misalları yazıram:

Yesterday Sam walked to work.
Bill played football last week.
I worked last Saturday.
My sister started learning English a year ago.

He cleaned his teeth two times yesterday.

When I was a child I wanted to be a doctor.

Bundan sonra tələbələr lövhədəki bu misallara baxıb keçmiş zamanın necə düzəldilməsini tələbələr özləri tapırlar, sonra isə bu qaydanı yadda saxlamaq üçün onlar bir sıra tapşırıqlar yerinə yetirirlər.

Beləliklə, mən dərsdə çalışıram ki, tələbələr qrammatik qaydaları verilmiş misallar əsasında dərk edib mənimsəsinlər. Bəzi müəllimlər qrammatik qaydaya həddindən çox vaxt sərf edir və dilin başqa aspektlərini unudurlar. Məncə, qrammatik materialın uzun-uzadı izahı dərsdə tələbələrin marağını azaldır. Odur ki, qrammatik materialın tədrisində uzunçuluğa yol verilməməli, tələbələrin fəallığı təmin olunmalıdır.

Qrammatik material üzərində aparılan əsas iş mərhələləri aşağıdakılardır:

Birinci mərhələ - qrammatik qayda il tanışliq.

İkinci mərhələ - yeni materialın möhkəmləndirilməsi.

Üçüncü mərhələ - produktiv nitqdə qrammatik qaydanın istifadəsi.

Dördüncü mərhələ - qrammatik qaydanın mənimsənilməsinə nəzarət.

Birinci mərhələdə müəllim qrammatik qaydanın formasını, onun nitq funksiyasını, mənasını və nitqdə istifadəsini təqdim edir. Qrammatik qaydanı başa salmaq üçün sxem, cədvəl və şəkillərdən istifadə məqsədəuyğun hesab edilir. Qrammatik qaydanı daha öncə öyrənilmiş qaydalara əsaslanaraq öyrətmək lazımdır. Present Simple zamanını öyrədərkən Present Continuous zamanını təkrar etmək, ingilis dilində bu zaman formasının işlədilməsi hallarını xatırlatmaq, Azərbaycan dilində hal-hazırda və ümumiyyətlə baş verən hərəkətlər arasında heç bir fərq olmadığını izah etmək tələb olunur. Çünki hər iki halda Azərbaycan dilində felin eyni zaman forması istifadə olunur. Lövhədə aşağıdakı cümlələri yazmaq olar:

1) Mən işə gedirəm.

2) Mən hər gün işə gedirəm.

Tələbələrdən bu cümlələri ingilis dilinə tərcümə etmək və bu cümlələrdə işlədikləri zaman formalarını qeyd etmələri xahiş olunur. Tələbələrə kontekstlə tanış olmağı və kontekstdəki qrammatik qaydanı qeyd etməyi təklif etmək olar. İzah ümumiləşdirici qaydanın xülasəsi ilə başa çatır. Daha sonra müəllim tələbələrə qrammatik materialın möhkəmləndirilməsi üçün çalışmalar etməyi təklif edir.

İkinci mərhələdə müəllim dərslik və müxtəlif əlavə dərs vəsaitlərində olan hazır çalışmalardan istifadə edə bilər, ya da kartoçkalar hazırlaya bilər. Məsələn, qrammatik materialın ilkin möhkəmləndirilməsi mərhələsində belə bir tapşırıq vermək olar: mətni oxuyun, Present Simple zaman formasında işlədilən fellərin altından xətt çəkin və ya seçib yazın. Qrammatik materialın möhkəmləndirilməsinin ikinci mərhələsində isə belə bir tapşırığı yerinə yetirmək olar: verilmiş felləri mətndə düzgün formada və mənaya uyğun olaraq işlədin.

Y.N.Solovova qeyd edir ki, qrammatikanı öyrənərkən qrammatik qaydanın produktiv nitqdə istifadəsi mərhələsi bir çox hallarda nəzərə alınmır. "Bir çox tələbələr və müəllimlər hesab edir ki, qrammatik vərdişlər üzərində işlənmə prosesi xüsusi diqqət, səbr tələb edir və bu dərsin əyləncə elementi ola bilməz. Qrammatik strukturların işlənməsinin kommunikativliyi tək müəllimlərdə deyil, həmçinin əksər hallarda tələbələrdə də inamsızlıq yaradır".

Y.N.Solovova üçüncü mərhələni çox vacib hesab edir, çünki "qrammatikanın mənimsənilməsi qaydaları bilməkdən çox, onları düşünmədən qarşılıqlı nitq əlaqəsi zamanı həyata keçirmək bacarığını nəzərdə tutur". Y.N.Solovova dərsdə müxtəlif oyunlardan istifadəni bu məsələnin həllinin ən yaxşı üsulu hesab edir. Məsələn, müəllim tələbələrdən ümumiyyətlə nə etdiklərini söyləməklərini istəyir, ya da müəllim kartoçkalar paylayır və tələbələrdən Present Simple zaman formasında cümlələr qurmağı xahiş edir. Məsələn, tələbələrə bu cür kartoçkalar paylanılır:

Card 1

I usually (to wear) a jacket.
She (to work) in a bank.
Her father (to read) a newspaper every morning.
We (to speak) French very well.
Tom (to eat) a lot of chips every day.
They always (to watch) TV in the evening.

Card 2

I (to wear) a sweater today.
She (to work) in the garden now.
Her father (to read) a newspaper at the moment.
We (to speak) Russian now.
Tom (to eat) fruit salad at the moment.
They (to watch) TV now.

Həmçinin tələbələrə bu mərhələdə sözlərdən cümlə qurmaq təklif olunur:

1. a/house/live/parents/in/very/my/big.
2. Saturday/a/I/lunch/cook/on/big.
3. always/Julia/parties/enjoys.
4. basketball/they/play/often.
5. breakfast/we/have/always/at 8.00.
6. television/my/watches/every/brother/day.

Qrammatik biliklər tələbələrin sifahi və yazılı nitq fəaliyyətlərinin inkişafına xidmət edir. Tələbələrin üslubi bacarıq və vərdişlərinin yaranmasında qrammatik biliklərin rolu müstəsnadır. Qrammatik hadisələr, anlayışlar, dil üzərində müşahidələrdən doğur, insan təfəkkürü bu mücərrəd anlayışları sistemləşdirir, cilalayır, qayda və tərifl ər yaradır, nitqi düzgün qurmaq məqsədilə tətbiq edir. Bir sözlə, qrammatika praktik olaraq danışmağa, bacarıq və vərdişlərin yaradılması və formalaşdırılmasına xidmət edir.

Qrammatik bacarıq nitq bacarığının ən vacibidir, elə bu səbəbdən xarici dilin anlaşılmasına və nitq qurmağa effektiv təsir edir. Qrammatik bacarıqların yaranması üçün dil və nitq çalışmalarının sistemi var. Dil çalışmalarında tələbələrə bir sıra tapşırıqlar həll etmək təklif olunur. Məsələn: artiklların qoyulması, isimlərin cəminin yaranması, qaydalı fellərin seçilməsi və s. Bu çalışmalar qrammatik bacarıqların formalaşmasına yönəlib. Nitq çalışmalarına mətnə aid sual cavab tapşırıqları və ya mətndəki informasiyanı təsdiq ya da inkar edən tapşırıqlar daxildir. Bu cür tapşırıqlar reproduktiv xarakter daşıyır.

Qrammatik bacarıqları bərkitmək üçün qrammatikanı öyrədərkən müəllim müxtəlif kommunikativ və şərti-kommunikativ situasiyalar yaratmalıdır, yəni tələbələri qrammatik materialla tanış etməli və bu materialı nitqdə istifadə etməlidir.

Ənənəvi qrammatik çalışmaların və kommunikativ xarakterli qrammatik çalışmaların birləşməsi lazımdır. Solovova hesab edir ki, xarici dilin tədrisində tədrisin praktik, təhsil və inkişafyönlü məqsədlərini bir-birindən ayırmaq olmaz, dil kompetensiyasının formalaşması isə nitq və ictimai-mədəni kompetensiyaların formalaşması ilə eyni zamanda baş verməlidir. Qrammatikanın mənimsənilməsi qrammatik qaydaları bilməkdən çox, onları fikirləşmədən qarşılıqlı unsiyyət prosesində tətbiq etmək bacarığını nəzərdə tutur. Y.N.Solovova hesab edir ki, qrammatik bacarıqları bərkitmək üçün şərti-kommunikativ və kommunikativ çalışmaların istifadəsi vacibdir.Qrammatik bacarıqlar bütün nitq fəaliyyətlərinin ayrılmaz hissəsidir və qrammatik bacarıqların formalaşması, təkmilləşdirilməsi və inkişafı xarici dilin tədrisi zamanı əsas vəzifədir. Əgər tələbələr kifayət qədər leksik materiallara malikdirlərsə və xarici dildə olan materialı mənimsəyirlərsə bu proses xüsusilə vacibdir. Əgər tədris prosesi tələbələr üçün daha dəqiq real dil ünsiyyəti şəraitində təşkil olunarsa, o halda dərsdə xarici dili uğurla mənimsəmək mümkün olacaq. Deməli, tələbələrin ingilis dilinə praktik olaraq yiyələnməsinə qrammatik material kömək edir, daha doğrusu, ondan bir ünsiyyət vasitəsi kimi istifadə olunur. İngilis dilinin tədrisində qrammatik materialın öyrənilməsi bu dildə yazılmış mətnləri oxuyub basa düşmək, nitqi anlamaq və fikri ifadə etmək bacarığına kömək etməlidir. Buna görə də ingilis dilinin tədrisində qrammatikanın xüsusi yeri və əhəmiyyəti var.

Ədəbiyyat

1. Tahirov A.T., Salayeva Ə.N. İngilis dilinin tədrisi metodikası. Bakı: Maarif, 1978.
2. Qədimova X.H. İnteraktiv təlim metodları və onların tətbiqi yolları. Metodik tövsiyyə. Bakı, 2003.
3. Соловова Е.Н. Методика обучения иностранным языкам. Базовый курс лекций. М.: Просвещение, 2005.
4. Миролюбов А.А. Проблемы обучения грамматику и фонетике иностран ных языков, МИОО, М., 2006.
5. Пассов Е.И., Залесова Е.Г. Методика обучения иностранным языкам: “Формирование грамматических навыков», комплект пособий №9, Воронеж 2002.
6. Китайгородская Г.А. Методика интенсивного обучения иностранным языкам. М., 1982.
7. Гальскова Н.Д. Современная методика обучения иностранным языкам. Пособие для учителя. М., 2004.
8. Brimful C.J., Johnson H. The Communicative Approach in Language Teac hing. Oxford University Press, 1991.
9. Harmer J. Teaching and Learning Grammar. Longman Group UK Limited, 1987.

Рахима Бабаева

Обучение грамматике английского языка в рамках коммуникативного подхода

Резюме

Данная статья рассматривает обучение грамматике английского языка в рамках коммуникативного подхода. Изучение иностранных языков составляют несколько аспектов. Одним из таких аспектов является грамматика. Обучение грамматике – один из важнейших аспектов обучения иностранному языку, так как полноценная коммуникация не может происходить при отсутствии грамматике. Нет сомнения, что знание грамматических правил необходимо для успешного владения языком. Обучение грамматике и правильному оформлению высказывания, а также распознавание грамматических форм в речи и письме происходит посредством формирования граммАтических навыков. Грамматические знания служит для формирования устной и письменной деятельности у студентов. Грамматические знания имеют большое значение в появлении стилистических умений и навыков у студентов. Одним словом, грамматика практически служит для того чтобы говорить, для создания и формирования умения и навыков.

Rahima Babayeva

Teaching of English grammar within communicative approach

Summary

This article deals with teaching of English grammar within communicative approach. There are a few aspects of the study of foreign languages. Grammar is one of such aspects. Learning grammar is one of the most important aspects of learning of a foreign language because full communication can’t happen without grammar. There is no doubt that the knowledge of grammar rules is necessary to know for language learning. To learn grammar and to express opinions correctly and also recognition of grammar forms in the speech and in writing happens by means of formation of grammar skills. Grammar knowledge serves formation of the students’ oral and written speech activities. Grammar knowledge plays a major role in the creation of stylistic skills in students. In short grammar practically serves to speak, the creation and formation of ability and skills.

Rəyçi: Professor Dilarə İsmayılova

NABAT CƏFƏROVA
AMİ-nin dosenti
cafarova_nabat@ mail.ru

OXU BACARIQLARININ AŞILANMASINDA İNTEQRASİYADAN İSTİFADƏ

Açar sözlər: ifadəli oxu, mətnin növü, intonasiya, ədəbi tələffüz
Ключевые слова: выразительное чтение, вид текста, интонация, литеРатурное произношение
Key words: expressive reading, kind of the text, intonation, literary pronunciation

İbtidai siniflərdə oxu dərslərində şagirdlərə vətənə məhəbbət və sədaqət tərbiyə olunur, onlara xeyirxahlıq, ədalətlilik, mərdlik, fədakarlıq, düzlük və doğruçuluq kimi sosial-əxlaqi keyfiyyətlər aşılanır, onların dünyagörüşünün formalaşması üçün ilkin bünövrə qoyulur.

Oxunun mühüm keyfiyyətlərindən biri də onun ifadəliliyidir. İfadəli oxu uşaqların diqqətini qavramalı olduqları başlıca fikrə cəlb edir, məzmunu tam aydın, obrazlı şəkildə çatdırır. Oxunun ifadəliliyi həm anlamanın dərinləşməsi, həm emosiyanın, həm təxəyyülün inkişafı, həm də estetik zövqün tərbiyəsi üçün son dərəcə mühüm əhəmiyyət daşıyır. İfadəli oxu prosesində şagird əsərin ideya məzmununa daxil olmaqla obrazların xarakter xüsusiyyətlərini açır, hadisələrə, qəhrəmanların hərəkətlərinə, daxili aləminə müəllifin münasibətini öyrənir. Beləliklə, deyə bilərik ki, "İfadəli oxu bədii oxu sənətinin qanunlarına əsaslanmaqla məktəb şəraitində tətbiq olunan oxu olub, müxtəlif mətnlərin səslənən söz vasitəsilə sinif qarşısında canlandırılmasıdır"(12, 12).

İfadəli oxu bədii əsərlərin qavranılmasında mühüm vasitə hesab edilir. İbtidai siniflərdə oxuya verilən tələblər: oxunun düzgünlüyü, oxunun rəvanlığı, oxunun şüurluluğu, oxunun ifadəlliyi ifadəli oxu bacarıqlarının aşılanmasına istiqamətlənmişdir. İfadəli oxu vasitəsilə şagirdlər müxtəlif mətnlərin məzmununu müəyyənləşdirir, hadisələrin gedişini anlayır, obrazların daxili aləmini duyur, söz sənətinin gücünü dərk edirlər.

Oxu zamanı şagirdlərdə müxtəlif hisslər (şadlıq, kədər,sevinc, rəğbət, kin və s.) yaranır ki, bu hisslər əsərin ideya məzmununu və obrazların ifadə tərzini üzə çıxarır. Məsələn şeirin ifadəli oxusu şagirdlərdə gözəl, aydın, ifadəli, rəvan, və nəhayət məntiqi vurğunun normalarını gözləməyi öyrədirsə, sözün ifadə tərzi isə onlarda bədii zövq, həyəcan, sevinc, kədər, hissi oyadır(8, 74).

İbtidai siniflərdə şagirdlər dörd il ərzində oxu texnikasına, oxu bacarıqlarına, ifadəli oxu vərdişlərinə yiyələnirlər. Onlar dörd il ərzində bir çox bədii və elmi-kütləvi mətnlər oxuyurlar. Onlar şəhərlərimizin, kəndlərimizin, dağlarımızın, yamaclarımızın, meşələrimizin və s. gözəllikləri təsvir olunmuş oxu mətnləri vasitəsilə vətəni sevməyi öyrənir, keçmişdə, müasir dövrümüzdə baş verən hadisələr haqqında məlumatlara yiyələnirlər. Elə mətnlər də oxunur ki, kiminsə yaxşı, ya da pis hərəkətindən bəhs edilir və həmin hərəkətlər şagirdlərin mühakiməsinə verilir. Dərsliklərdə tarixi hadisələrin, ya da elmi axtarışların nəticələri

haqqında mətnlər verilir. I-II siniflərdə bu mətnlər oxu materialı kimi dəyərləndirilib, daha çox oxu bacarıqlarının yaradılmasına xidmət etdiyi halda, III-IV siniflərdə oxunan mətnlər xüsusiyyətlərindən asılı olaraq fərqli üsullarla oxunur və fərqli üsullarla dərk edilir. Mətnin xüsusiyyətindən, quruluşundan xəbərdar olan şagird əsas məlumatların harada yerləşdiyini bilir və onları asanlıqla mənimsəyir.

Qeyd etmək lazımdır ki, şagird hansı yaşda olursa olsun, oxuduğu mətnin növü və onun quruluşu haqqında məlumatı olmalıdır. Belə məlumatlılıq əsərdəki əsas fikri müəyyən etməkdə onlara kömək edir. Çünki, mətnlərin növünə, xüsusiyyətinə, quruluşuna uyğun təşkil olunmayan oxunun təlim səmərəsi az olur. Oxu üzrə işin optimal təşkili şagirdlərin təsviri, nəqli, mühakimə və tədqiqat xarakterli mətnlərlə, bədii nümunələrlə tanışlığını, onları bir-birindən fərqləndirə bilməsini təmin edir.

İbtidai siniflərdə təsviri, nəqli, mühakimə və tədqiqat xarakterli mətnlərin, bədii nümunələrin, elmi-kütləvi mətnlərin oxusu zamanı oxunun düzgünlüyü, sürəti, şüurluluğu və ifadəliliyinin gözlənilməsinə ciddi diqqət yetirilməlidir. Lakin bu yeganə məqsəd deyildir, bədii nümunələrin oxusunun təşkili yolları, əsərin ideya və məzmununu müəyyən etməyin üsullarını da öyrənmək zəruridir. Şagird oxunan əsərin quruluşunu və obrazların xarakterindəki başlıca cəhətləri müəyyən etməyi bacarmalıdır. Hətta bununla da kifayətlənmək olmaz. Şagirdləri yaradıcılığa təhrik etmək, yönləndirmək əsas məqsədlərdən biri olmalıdır. Çünki şagirdin malik olduğu bilik və bacarıqları tətbiq etməklə yeni bədii nümunələr hazırlayıb yolaşlarına oxuması onun yaradıcılıq sferasının açarıdır. Odur ki, müəllim ifadəli oxu təliminin səmərəli yollarını axtarıb tapmalı, fəal təlim metodlarından istifadə etməklə şagirdləri öyrənməyə sövq etməli, ifadəli oxu bacarıqları aşılamalıdır.

Bununla belə, ifadəli oxu zamanı nəzərə alınacaq bəzi məqamları bilmək lazımdır:

- bədii mətnlərdə əks olunan fikrin dəqiq və aydın şəkildə dinləyiciyə çatdırılması, *məntiqi ifadəlilik*;
- mətndə əksini tapan fikirlərin dəqiq və düzgün verilməsi ilə yanaşı onun emosional və obrazlı ifadəliliyinə nail olunması, *emosional-obrazlı ifadəlilik*;
- nitq vərdişlərinin yaradılması, məşq etdirilməsi, səs, tələffüz və tələffüz üzrə müvafiq bacarıq və vərdişlərə yiyələnmək, *nitq texnikası*(12 ,5).

Ümumiyyətlə, ifadəli oxu şagirdlərə kiçikhəcmli bədii nümunələrin mahiyyətini anlamağa, sözün təsir gücünü dərk etməyə kömək edən ən güclü vasitədir. İfadəli oxu bacarıqlarına yiyələnmiş şagird oxumağı sevir, oxuduğu əsərlərdən bəhrələnə bilir, onun həm şifahi, həm də yazılı nitqi inkişaf edir.

İbtidai siniflərdə ifadəli oxu bacarıqlarının inkişafında inteqrasiya prinsipinə əsaslanmaq şagirdlərin təlim fəaliyyətinin yüksəlməsinə, həmçinin digər elm sahələrinə aid biliklərin möhkəmlənməsinə səbəb olur. Məsələn, fonetikanın orfoqrafiya və orfoepiya ilə əlaqəli tədrisi ifadəli oxu vərdişlərinin inkişafı üçün çox əhəmiyyətlidir. Adətən məktəblərimizdə çox vaxt müəyyən səhvlər üzündən kitab dilinə, hərfi tələffüzə üstünlük verilir. Bu oxu prosesində özünü daha bariz göstərir. Şagirdlər müxtəlif bədii mətnləri məhz yazıldığı kimi oxumağa meyl göstərirlər və öz aləmlərində bunu düzgün sayırlar. Əslində isə

bu, çox zərərli bir vərdişdir. Kitab dilinə meyl ifadəli oxu normalarını pozur, dili təbiiliyindən uzaqlaşdırır. Ona görə də müəllim fonetikanın tədrisi prosesində orfoqrafiya və orfoepiya üzərində iş apararkən yazılışı ilə tələffüzü arasında fərq olan sözlərin orfoepiyasını öyrətməklə şagirdlərin ifadəli oxu vərdişlərini inkişaf etdirmiş olur.

Bir çox hallarda şagirdlər, məsələn, sonu cingiltili samitlərlə (b, d, z, q, c və s.) bitən sözlərin ayrı-ayrılıqda yazılışı və tələffüzü arasındakı fərqi deyir, izah edir, bunlara dair müxtəlif misallar da göstərirlər. Lakin oxu prosesində onların ədəbi tələffüz qaydalarına müvafiq tələffüz olunmasına riayət etmirlər. Müəllim çalışmalıdır ki, fonetikanın tədrisi ilə bağlı öyrədilən hər bir ofroqrafik və ya orfoepik qaydaya şagirdlər yazı və oxu prosesində əməl etsinlər, öyrənilən qaydaları əməli fəaliyyətlərində tətbiq etməyə səy göstərsinlər. İşin belə təşkili, söz yox ki, şagirdlərin ifadəli oxu vərdişlərinin inkişafına çox müsbət təsir göstərmiş olur.

Həmçinin rəcrübəli müəllimlər III sinifdə cümlənin intonasiyaya görə növlərinin tədrisini məntiqi vurğu üzrə işlə əlaqələndirirlər. Belə əlaqələndirmə həm cümlənin intonasiyaya görə növlərini dərindən mənimsəməyə kömək edir, həm də məntiqi vurğu haqqında şagirdlərin biliyini artırır. Belə əlaqələndirməyə lap ilk məşğələlərdən başlamaq məsləhət bilinir. Məsələn, nəqli cümlələr üzrə aparılan ilk məşğələlərdə müəllim şagirdlərin diqqətini bu cümlələrin tələffüz tərzinə cəlb edir və göstərir ki, nəqli cümlələrdə səs ucalığı orta dərəcədə olur. Lakin hər cümlədə əsas məqsədi ifadə edən bir söz olur ki, bu söz cümlədəki o biri sözlərlə nisbətən bir qədər qüvvətli tələffüz edilir. Cümlədə müəyyən bir sözün başqa sözlərə nisbətən qüvvətli tələffüz edilməsinə isə məntiqi vurğu deyilir. Məntiqi vurğu ilə deyilən söz isə vurğulu söz adlanır. Məntiqi vurğulu söz cümlənin mərkəz sözü sayılır və həmin cümlədə ifadə edilən fikrin məqsədini özündə cəmləşdirir. Cümlədə ifadə ediləcək fikrin məqsədindən asılı olaraq məntiqi vurğu həmin cümlədəki müxtəlif sözlərin üzərinə də düşə bilər.

Müəllim bunu şagirdlərə başa salmaq üçün bir cümlə götürür və həmin cümlədə məntiqi vurğunu müxtəlif sözlər üzərinə keçirməklə tələffüz edir və hər dəfə əsas məqsədin nə olduğunu şagirdlərdən soruşur. Məsələn:

1. **Azər** kəndə getdi.
2. Azər **kəndə** getdi.
3. Azər kəndə **getdi.**

Belə çalışmalar şagirdlərin məqsəddən asılı olaraq məntiqi vurğudan istifadə etmək bacarığını artırır və nəqli cümlənin mahiyyətini anlamağa imkan yaradır. Cümlənin sonunda nöqtə, sual və ya nida işarəsinin düzgün işlədilməsi nəqli, sual və nida cümlələrinin intonasiyası ilə bağlıdır. Belə ki, bu cümlə növlərindən hər birinin özünəməxsus intonasiyası vardır. Bunu bilmədən, əvvəla, cümlənin növünü müəyyənləşdirmək çətin olar, ikincisi həmin cümlələrdən sonra məhz hansı işarənin qoyulmasını şagird dəqiqləşdirə bilməz, üçüncüsü, oxu prosesində həmin cümlələri intonasiya baxımından düzgün tələffüz edə bilməz.

Odur ki, məqsədə görə cümlənin növləri üzrə iş ifadəli oxu və nitq bacarıqlarının inkişafı ilə sıx əlaqələndirilməli, cümlə və onun mahiyyəti, nitqdəki əhəmiyyəti barədə şagirdlərin anlayışı genişləndirilməlidir.

İbtidai siniflərdə şagirdlərin ifadəli oxu üzrə ilkin vərdişlərə yiyələnmələri müəllimin özünün bu vərdiş nə dərəcədə yiyələnməsindən, şagirdlərə necə

nümünə olmasından asılıdır. Müəllim əsəri ifadəli oxumalı, onun ideyası üzərində düşünməli, yazıçının nə demək istədiyini bilməlidir. O,oxu prosesində hadisələrin iştirakçısı kimi hərəkət etməli, əsərin ruhu ilə yaşamalıdır. Müəllimin yaradıcı təsəvvürünün köməyi ilə şagird oxunanı "görməli" və "göstərməyə" çalışmalıdır. Şagird əsərdə bədii istifadə vasitələrini tapmalı, məzmuna və formaya uyğun olaraq oxumağı bacarmalıdır. Yalnız belə olduğu halda, şagirdin ifadəli oxuya yiyələnməsindən danışmaq olar.

İfadəli oxu məktəb şəraitində tətbiq olunan bədii oxu sənətidir. İfadəli oxunun əsas məqsədi bədii və elmi-publisistik mətnlərdə əks olunan məzmunu şagirdlərə daha yaxşı mənimsətmək, obrazları, hadisə və ya əhvalatın təsvirini, gedişatını olduğu kimi canlandırmaqla şagirdlərə estetik zövq və yüksək əxlaqi mənəvi dəyərlər aşılamaqdır(12, 5).

İbtidai siniflərdə ifadəli oxu üzrə ilkin vərdişlərə yiyələnməinin başlıca məqsədi şagirdləri bədii oxu sənətinin incəlikləri ilə tanış etmək və onların intellektual inkişafını təmin etməkdən ibarətdir. Bu strategiya tələb edir ki, dərs zamanı müəllim şagirdin idrak fəallığını stimullaşdırmaq üçün əvvəlcə "İntellektual tələblər"qurmalı, maraqlı problem situasiyalar yaratmalıdır. Şagird ona bələdçilik edən müəllimin yardımı ilə malik olduğu oxu bacarıq və vərdişlərindən yararlanaraq ifadəli oxu üzrə bacarıq və vərdişlərə yiyələnməlidir. Beləliklə, sagird oxuya dair biliklərini sistemləşdirmək, analiz, sintez və tətbiq etməklə ifadəli oxuyadək bir yol keçir ki, bu da müasr dərsin idraki aspektini təşkil edir.

Ədəbiyyat

1. Balıyev H. Müasir Azərbaycan dilindən sintaksis bəhsi üzrə metodik göstəriş. Bakı, 1987
2. Həsənov M. Azərbaycan dili sintaksisinin tədrisində qarşıya çıxan çətinliklərvə onların aradan qaldırılması yolları. Bakı: Maarif, 1972
3. İbtidai siniflərdə sintaksis təliminin təşkili (metodik tövsiyə). Bakı, 1988
4. İbtidai siniflərdə sintaksis tədrisinin bəzi məsələləri. Bakı, 1991
5. İsmayılov R., Orucova G., Xəlilov Z., Cəfərova D. Azərbaycan dili (2-ci sinif üçün dərslik). Bakı: Altun Kitab, 2009, 208 s.
6. İsmayılov R., Orucova G.,Cəfərova D., Xəlilov Z. Azərbaycan dili (3-ci sinif üçün dərslik). Bakı: Altun Kitab, 2010, 207 s.
7. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikasının nəzəri problemləri. Bakı: Nasir, 2005
8. Tağıyev B. Oxu təlimi. Bakı, 2006
9. Tağızadə Z. Müasir Azərbaycan dilinin sintaksisi. Bakı, 1960
10. Təhsil lüğəti. Bakı, 2011
11. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı: Təhsil, 2008, 480 s.
12. Yusifov F. İfadəli oxu. Bakı: ADPU, 2005

Н.ДЖафарова

Прививание способностей выразительного чтения

Резюме

Учителя начальных классов должны стараться внедрять ученикам знания выразительного чтения, создавать привычки и навыки, способствующие активации выразительного чтения, технику, а также должны держать под присмотром данные требования. Способность учеников учиться выразительному чтению формируются именно в начальных классах. Приступая к обучению выразительному чтению, учителю нужно очень многое знать и уметь. Но прежде всего нельзя забывать о том, что чтение-это раздел практического курса родного языка.

N.Cəfərova

Assignment of abilities of expressive reading

Summary

The teacher of initial classes should try to introduce to the schoolboys of knowledge of expressive reading, to create habits and skills promoting activation of expressive reading, engineering, and also should hold under supervision the given requirements. Ability of the schoolboys to study in expressive reading are formed in initial classes.

Rəyçi: Professor Sayalı Sadıqova

AYTEN IBISHOVA
ASPU
ayten/ibishova@mail.ru

AMERICA IS RUINING ENGLISH

Açar sözlər: İngilislər, amerikanlar, şəhzadə, məhf etmək, barbarlar, dil, fərq, dəyişmək.
Ключевые слова: Англичани,американцы, принц, уничтожить, барбары, язык, разница, менять.
Key words: English, Americans, prince, ruin, barbarism, language, different, change

America is ruining the English language – everyone knows that. We have heard it from early days right up to the present. We have heard it from English men and English women, of course, but from Americans as well – self-confessed linguistic vandals. We have heard it from the famous and the obscure. So it must be true. But in what does the ruination lie? How are Americans ruining English?

In the early days, British travelers in the American colonies often commented on the 'purity' of the English spoken in the new world. It wasn't until the American impertinence of 1776 that Americans seem to have begun ruining English. Yet, as early as 1735, a British traveler in Georgia, Francis Moore, described the town of Savannah: 'It is about a mile and a quarter in circumference; it stands upon the flat of a hill, the bank of the river (which they in barbarous English call a bluff) is steep.' The Americans had taken an adjective of nautical and perhaps Dutch origin, meaning 'broad, flat and steep', to use as a noun for the sort of river bank that hardly existed in England and for which, consequently, earlier English had no name.American English is 'very corrupting'

In 1995, in much the same vein as the comment of 260 years earlier, His Royal Highness the Prince of Wales was reported by The Times as complaining to a British Council audience that American English is 'very corrupting.' Particularly, he bemoaned the fact that 'people tend to invent all sorts of nouns and verbs and make words that shouldn't be.' By this time the barbarous use of bluff for a steep bank had been civilized by being adopted into the usage of the motherland, but doubtless if the Prince had lived about nine generations earlier, he would have agreed with Francis Moore that bluff was a word that shouldn't be.

The Prince concluded: 'We must act now to insure that English – and that, to my way of thinking, means English English – maintains its position as the world language well into the next century." His concern seems to be as much commercial as merely ethnocentrically aesthetic, the English language being one of England's most popular exports, along with gossip about the escapades of the Royals. The Prince, after all, was only doing his bit to keep the English pecker up.One way Americans are ruining English is by changing it.

One way Americans are ruining English is by changing it. Many of us, like Francis Moore and Prince Charles, regard what is foreign to us as barbarous and corrupt. We owe the term barbarous to the Greeks; they pitied the poor foreigner

who could only stammer ‘bar-bar’ and hence was a ‘barbaros’. Barbarians are simply those who do not talk as we do, whether they are outsiders, Yanks or fellow countrymen and countrywomen whose style we do not admire.

The journalist Edwin Newman is a linguistic prophet who sees the language style of his fellow Americans as deadly. In 1974 he vaticinated in a book called Strictly Speaking, which was subtitled Will America be the Death of English? In it, he too objected to the invention of all sorts of nouns and verbs and words that shouldn’t be. In particular he objected to verbosity and euphemism as bad style. A number of Americans bemoan the baleful influence of their fellow citizens on the health or integrity of the language, but only a few, like Edwin Newman, have been able to make a career of it.

In England, on the other hand, a perception that America is ruining the language pervades the discourse of the chattering classes. Indeed, a fair number of British intellectuals regard ‘new’, ‘distasteful’, and ‘American’ as synonymous. A knowledgeable British author complained about the supposedly American pronunciation conTROVersy and was surprised to hear that the antepenult accent is unknown in the States, being a recent British innovation. The assumption is that anything new is American and thus objectionable on double grounds.

Change in language is, however, inevitable, just as it is in all other aspects of reality. Particular changes will be, in the eyes of one observer or another, improvements or degenerations. But judgements of what is beautiful or ugly, valuable or useless, barbarous or elegant, corrupting or improving are highly personal idiosyncratic ones.

There are no objective criteria for judging worth in language, no linguistic Tables of the Law, no archetypical authority called ‘The Dictionary’, though there are wannabe authoritarians aplenty.

A language - or anything else that does not change - is dead

On the other hand, no one is required to like all or any particular changes. It is, in the great Anglo-American tradition, our God-given right to have our own opinions and to take it or leave it when it come to style in couture, diet, entertainment, religion and language. We need not be equally enthusiastic about catsuits and muu-muus, macrobiotics, and haute cuisine, grunge rock and Philip Glass, the World Wide Web and MTV, bank and bluff or conTROVersy and CONtroversy. We don’t have to like particular changes, or even the fact of change itself. But a language or anything else that does not change is dead.

The eighteenth-century hope that language could be ‘fixed’ – that is, improved, or changed in a way some self-appointed linguistic judge would approve of until it reached a state of perfection and then preserved so that it would not thereafter degenerate or change in a way the judge disliked – was a chimera. It was an illusion based on misunderstandings about the nature of language, values and human nature.

In all these cases these structural kinds of sentences in Azerbaijani and English are learned and investigated in scientificinvestigation works and textbooks.

Rəyçi: Yusif Suleymanov
filologiya üzrə fəlsəfə doktoru, dosent.

ГЮНАЙ МИРЗОЕВА
Азербайджанский Институт Туризма
m.guna@inbox.ru

ПРОБЛЕМА ПЕРЕВОДА ТЕРМИНОЛОГИИ В АНГЛИЙСКОМ ЯЗЫКЕ В ТЕКСТАХ ПО АВТОМОБИЛЕСТРОЕНИЮ

Açar sözlər :terminologiya ,mətn ,inglis dili
Ключевые слова : терминология ,текст, английский язык
Key words :termonology, text, english language

Непрерывно развивающийся мир и человек находятся в тесном взаимодействии и взаимовлиянии. Человек активно преобразует окружающую действительность. Посредником между человеком и познаваемым миром выступает язык, который «создает возможности для упорядочения и систематизации в памяти множества знаний для построения характерной для каждого данного этнокультурного коллектива языковой картины мира».На рубеже XX-XXI веков активно идёт процесс колоссальных глобальных преобразований, влияющий на все сферы промышленности. Одной из ведущих отраслей машиностроения многих стран мира является автомобилестроение. Терминология данной отрасли становится все более востребованной и приобретает первостепенное значение в современной ситуации.

Термины, связанные с автомобилестроением, с техническим устройством автомобиля, а также различных машин и механизмов, используемых как в быту, в личном пользовании, так и на производстве, постоянно встречаются в нашей жизни. Знание этих терминов сегодня становится обязательным не только для специалистов, но и для обычных людей, имеющих личные автомобили или сельскохозяйственную технику. В настоящее время наибольшей популярностью пользуются автомобили и сельскохозяйственная техника иностранных производителей. Не удивительно, что растет и поток технической документации, различных рекомендаций по ремонту и уходу за автомобилем и другими механическими и электрическими техническими устройствами, написанных на английском языке.К сожалению, в настоящее время особенности перевода на русский язык англоязычных технических терминов изучены недостаточно. Недостаточно специальных словарей и глоссариев подобной терминологии, а в переводных технических документах, относящихся к обслуживанию автомобилей и сельскохозяйственной техники, обнаруживаются досадные ошибки и неточности, могущие привести к весьма серьезным неприятностям и даже трагедиям.Известно, что автомобильная лексика возникла на рубеже XIX-XX веков в период мощного развития технологий и всеобщей индустриализации. В английский язык термин «automobile» был заимствован сначала как прилагательное из французского в 1883 году. И только к 1890 году появилось существительное, обозначающее «самодвижущееся транспортное средство». Исторически период становления автомобильной терминосистемы можно условно разделить на четыре периода.

К первому периоду относятся термины, появившиеся до возникновения первых автомобилей в 1889 году. В этот период делались попытки создания прототипов автомобилей, а также были изобретены основные узлы и агрегаты, которые дали толчок появлению первых полноценных транспортных средств. В этом периоде преобладают термины, обозначающие узлы и агрегаты, составляющие первичную основу автомобиля. В частности, больше половины понятий этого периода связаны с конструктивными особенностями, либо частями и параметрами двигателя внутреннего сгорания, например, прижимная сила – pressing force , витая пружина – coil spring, одометр – odometer, форсунка – electric fuel injector, бензиновый двигатель – petrol engine.

Второй период (1889-1934) – время развития и совершенствования систем автомобиля, характеризующееся ростом автопроизводства. Отмечается, что в этот период образовалось более половины терминов. Это объясняется тем, что в эти годы сформировывается конструкция автомобиля. К концу периода схема и компоновка становятся в большей степени схожими с современными транспортными средствами. Если в первом периоде наибольшее количество терминов номинирует понятия, относящиеся к двигателю внутреннего сгорания, то во втором – преобладают понятия, характеризующие эволюцию автомобиля. Появляются такие термины, как генератор переменного тока – alternating current generator, трансмиссия – transmission, свеча зажигания – sparking plug, карданный вал – drive shaft и др. Вместе с этим, совершенствуются уровень комфорта и внешний вид автомобиля. Этому способствует разработка таких систем, как усилитель рулевого управления – power-assisted steering, рейлинг – roof railing, несущий кузов – unitized body и др.

Появление первого переднеприводного автомобиля в 1934 году послужило началом третьего периода развития автомобиля. Концом данного периода следует считать начало применения электроники на серийных автомобилях в 1975 году. Именно в указанный период была заложена современная концепция автомобилестроения. В этот период появились термины рычажная подвеска – wishbone suspension (спортивные автомобили класса Формула – 1, 30-е годы XX века), топливный насос высокого давления – high-pressure fuel injection pump, шаровая опора – ball joint и др.

Четвертый период (1975 по настоящее время) характеризуется растущей ролью безопасности и комфорта.

Разные авторы по-разному интерпретируют понятие «термин». М. М. Глушко констатирует, что «термин – это слово или словосочетание для выражения понятий и обозначения предметов, обладающее, благодаря наличию у него строгой и точной дефиниции, четкими семантическими границами и поэтому однозначное в пределах соответствующей классификационной системы» [2,с. 79]. А.А. Реформатский определяет термины «как однозначные слова, лишенные экспрессивности»[6,с. 204]. С.В. Гринев характеризует термин “как номинативную специальную лексическую единицу (слово или словосочетание) специального языка, принимаемую для точного наименования специальных понятий” [3,с. 22]. За основу в исследовании было взято

определение Бархударова Л.С., где под термином традиционно понимается слово (словосочетание), означающее понятие специальной области знания или деятельности. [1,с. 6]

При переводе текстов автомобильной тематики можно столкнуться с четырьмя основными проблемами:

1). Синонимия термина;

Например, коробка передач в английском языке может означать слова gearbox, transmission; датчик – pickoff; pickup; sensor; transducer, detecting element, sensing element.

2). Многозначность термина:

например, «nut» - гайка, муфта; «pulley» - ролик, шкив; «lead (n) » - проводник, питающий провод, вывод (батареи), подъём резьбы, шаг резьбы; «joint» - стык, шов, шарнир, прокладка; «strainer» - натяжное устройство, фильтр, сетчатый фильтр (на заборном конце всасывающего шланга); «sensor» - сенсор, датчик

3). Выбор способа перевода термина

Наиболее распространенными способами перевода терминов являются следующие:

1). Оптимальным способам перевода служит выявление в языке перевода эквивалента термина языка оригинала. Применение этого способа возможно в тех случаях, когда страны, в которых распространены язык оригинала и язык перевода, достигли одного и того же научного, технического или общественного уровня или прошли этот уровень в какой-то период своей истории. Другой особенностью этих терминов является то, что обычно термины-эквиваленты разных языков уже существовали в обоих языках в момент перевода (heater – обогреватель, flywheel – маховик).

2). Новый термин в языке перевода может быть создан путем придания существующему в этом языке слову или словосочетанию нового значения под воздействием термина языка оригинала. Данный способ перевода может быть назван семантической конвергенцией.

3).При поиске эквивалента и семантической конвергенции в процессе перевода терминов не создаются новые лексические единицы, а используются ранее существующие в языке. Применение этого перевода ведет к образованию новых слов или словосочетаний. Этот процесс называется калькированием. Имеет место два вида калькирования:

а) если структура переводимой лексической единицы в обоих языках совпадает, мы имеем дело с семантической калькой. Семантическое калькирование может быть применено, когда структура словосочетаний в языке оригинала и языке перевода близка или совпадает (direct digital control – прямое цифровое устройство).

Б) если структура сложной лексической единицы заимствуется при переводе вместе с этой единицей, мы имеем дело со структурной калькой, или собственно калькой. При этом в языке перевода появляется новая, чуждая ему модель слова или словосочетания (gearbox – коробка передач).

4). Когда в процессе перевода из языка оригинала в язык перевода переходит лексическая единица со всеми своими содержательными и

формальными признаками (семантика, словообразовательная структура, звуковой состав и написание), мы имеем дело с заимствованием. Проблеме заимствований в сфере терминов посвящена большая литература.

5). В ряде случаев термин, должен переводиться описательной конструкцией. Этот способ перевода применяется для безэквивалентных терминов, отражающих реалии определенной страны (overhaul period – интервал между переборками двигателя). [4,с. 44]

4). Перевод сокращений и аббревиатур

Например, A/C – система кондиционирования воздуха ; EGR – рециркуляция выхлопных газов; NVH – шум, вибрации, неплавность движения; Rpm – число оборотов в минуту; HFC-134a – фреон 134a.

Термины классифицировались на однословные (однокомпонентные) и многословные (многокомпонентные). В свою очередь, однословные делятся на

a) простые или непроизводные (однокорневые) wheel – колесо, fuel – топливо, clutch – сцепление;

b) производные, образованные от однокорневых слов и аффиксов ventilation – система вентиляции, heater – обогреватель, cylinder – цилиндр;

c) сложные, имеющие в своём составе не менее двух корней crankshaft – коленчатый вал, gearbox – коробка передач, automobile –автомобиль.

А многословные (многокомпонентные или составные) на :

a) с примыканием, при котором атрибутивные и некоторые релятивные (в основном наречные) компоненты сочетаются между собой, а также с определяемым компонентом, и образуют терминологические словосочетания steel body – стальной кузов, power plant – силовая установка, rear axle – задний мост;

b) различными грамматическими средствами, среди которых основную роль играют предлоги gasket of oil pump – прокладка масляного насоса,screen of oil strainer – сетка маслоприемник

Литература

1. Бархударов Л.С. Язык и перевод: Вопросы общей и частной теории перевода. – М.: Международные отношения, 1975. – 240 с.
2. Глушко М.М. Функциональный стиль общественного языка и методы его исследования. – М.: 1974.
3. Гринев С.В. Введение в терминоведение. – М.: Московский лицей, 1993. – 309 с.
4. Лейчик В.М. , Шелов С.Д. Лингвистические проблемы терминологии и научно-технический перевод – М.,1990. – 62с.
5. Позднышева И.Н. Сопоставительный анализ автомобильных терминосистем в английском, французском и русском языках: автореф.дис. …канд. Философ. Наук/ МПГУ, - М.: МГПУ, 2007. – 23 с.
6. Реформатский А. А. Что такое термин и терминология? // Вопросы терминологии. М., 1961. С. 49 – 51.

G.Mirzəyeva

İnglis dilində maşinqayırmaya aid mətnlərdə terminlərin tərcüməsi zamanı yaranan problemlər

Xülasə

Məqalədə maşınqayırmaya tərcüməsindən bəhs edir. Əsasən də, ingilis dilindən tərcüməsi zamanı tərcüməçinin qarşılaşa biləcəyi çətinliklər haqqında danışılır və onların bir sıra həll yolları göstərilir ki bunlar da tərcüməçilərin işini müəyyən qədər asanlaşdırır. Göstərilən üsullar tanınmış linqvistlərin fkirlərinə və mülahizələrinə əsasən qeyd olunub. Bundan əlavə, məqalədə bu sahəyə aid olan terminlərin yaranma tarixindəndən və növlərindən söhbət açılaraq nümunələr göstərilir və onların geniş izahı verilir.

G.Mirzəyeva

The problem of translation of terminology in the English language in the texts on the automobile industry

Summary

This article focuses on the problems of translation of automobile industry terminology. Mainly, the difficulties are disscussed that translators may face during translations and some solutions are given to such problems. As a result, it makes easier the translator to achieve a good translation. The methods that are mentioned are given according to the well-known linguists' thoughts and theories. Besides, the article also deals with the etymology of terms and their types. Some examples are mentioned and explained, as well.

Rəyçi : Şahin Xəllili
filoloqiya elmləri doktoru

SABINA TAGHIYEVA
ATI
tagiyeva_sabina@rambler.ru

TRANSLATION OF NEOLOGISMS

Key words: neologisms, abbreviations, translation methods;
Açar sözlər: neoloqizmlər, abreviaturalar, tərcümə metodları;
Ключевые слова: неологизмы, аббревиатуры, методы перевода;

Neologisms are words emerging as a result of development of society, creation a new notions, concepts. As a word *"neologism"* is first used in old Greek in the meaning of "new word" and then in 1772 this term came to the English language from French. The most evident examples of neologism may be the Azerbaijani words such as *aşkarlıq, tezləşdirmə, yenidənqurma.* These words are not new by their forms, but their meanings express nowadays quite new notion. The same can be said of English words *straw man* (*diqqəti yayındırmaq üçün yalançı namizəd*) and so on. The widely spread types of translation involved to convey the meanings of neologisms are:

1) by using transcription or transliteration
2) by using calque
3) by using loan translation
4) by using descriptive translation

The method of transcription and transliteration. Transliteration is conveying the graphical form of the word in the Source Language by the same means of the Target Language. These methods are used in translation of foreign proper and geographical names, the names of various companies, firms, ships, hotels, newspapers, magazines and so on. For example: "*General electric company*" – "*General elektrik kompaniyası*"; " *Bank of America*" – " *Bank of Amerika*"; "*steel lobby – poladəritmə kompaniyası lobbisi"*. These methods are also used to convey realias: it is especially widely spread in social-political literature, in publicistics dealing with the lives and events abroad, and in newspaper information. Thus, nowadays the pages of our newspapers are fully of words like *traybalizm – tribalism*; *breyn-dreyn – brain-drain*; *pablik skul – public school* and so on. The same method is used in bilingual dictionaries.

In practice the translators give much space to transliteration and transcription, but one use of it always affects the quality of translation negatively.

The method of calque. As a term calque means *"to copy, to imitate"*. As a method of translation it aims at imitating the form of the word of the SL in the TL. For example: *grand jury – böyük juri*, *backbencher – sıravi parlament üzvü*, *Mədəniyyət evi – House of Culture*, *mədəniyyət və istirahət parkı – Park of culture and rest*, *Elmlər Namizədi – Candidate of Science*, *street people – küçə adamları*.

Transcription, transliteration, as well as calquering don't always disclose the meaning of the translated word or word combination if the reader does not know the SL. The reason is that very often the sum of meanings of a compound word, or word combination, are not the same with the meanings of their components. For

example: if the reader doesn't know English he will not understand the meanings of *"sıravi parlament üzvü* and *böyük juri* without commentary or explanation.

Loan translation. Loan translations occupy the position right in the middle of translatable and quasi-untranslatable methods of rendering of neologisms. It is "untranslatable" because in loan translation the inner form of the word is maintained. Loan translation presupposes the existence of bilateral interlingual correspondence between elementary lexical units, which are used as the basis for reconstruction of inner form of loan word or a word that is translated. Loan translation as the way of creation of an equivalent is akin to literal translation – the equivalent of the whole word is made by means of simple composition of components of these equivalents. It follows that only compound neologisms undergo loan translation. For instance, the word *multicurrency* consists of *multi* and *currency*, each of them taken separately can be translated as *çoxlu-* (suffix which indicates plurality) and *valyuta*, and when we put them together then we get *multivalyuta* (for example *kredit*). The advantage of the loan translation is in shortness and simplicity with which an equivalent is made and in its definite correlation with the source word.

Descriptive translation. Descriptive translation differs from loan translation, because in descriptive methods of rendering neologisms, the invariant of translation is the meaning of the loan word irrespectively of its relations with outer structure of the word. And in loan translation the invariant of translation is the form of the source word. This method can be applied both for giving the explanation in the dictionary, and for translating of neologisms in concrete texts.

There are following examples about translation of egologisms:

1) A strong northerly wind that found a few weary, ***half-skeletoned*** leaves to play with. In this sentence the word *half-skeletoned* means *xəzan***;**

Xəzanı göyə sovuran güclü şimal küləyi.

1) ***To coventrate*** every town under the sun – such is the wild dream of the ***war-mongers*** and is there much difference between them and the ***brink-mongers***?

In this sentence the word *to coventrate* means *bombardman etmək; war-mongers – müharibə qızışdırıcıları; brink-mongers – müharibə tarazlığı yaradanlar;*

Yer üzündə hər bir şəhəri bombardman etmək müharibə qızışdırıcılarının vəhşi arzusudur və görəsən müharibə tarazlığı yaradanlarla onlar arasında çox böyük fərq var?.

2) The ***parassaboteurs*** are special troops, specially trained, specially equipped and provided with a special morale to do their task.

In this sentence the word *parassaboteurs* means *Divirsantlar**;***

Divirsantlar onlara verilən tapşırığı yerinə yetirmək üçün xüsusi təyinatlanmış, avadanlıqla təchiz olunmuş, təlim keçmiş xüsusi qoşunlardır.

3) I do not think a working girl should take her standards from a **socialite**.

In this sentence the word *socialite* means *kübar cəmiyyət***;**

Mən belə fikirləşmirəm ki, işçi qız öz standartlarını kübar cəmiyyətdən götürməlidir.

4) The stage of ***coccoondom*** for modern boys is soon gone out of.

In this sentence the word *coccoondom* means *arxasında durmaq*;

Müasir oğlanlar üçün ailə qurmaq məfhumu mərhələsi yox olub gedəcək.

Neologisms are very common in mass media. In the past it was very popular to read newspapers, magazines or listen to the radio in order to be informed of developments of society. But nowadays they are almost replaced with the modern technology such as the Internet. Thanks to the ways of getting information I mentioned above, journalists used and still use the words that are new to listeners' or readers' ears. So they are considered to be the quickest waty of spreading of neologisms.

In the age of international communication through the Internet new words have come to English and one of them is *'Google (əməliyyat axtarış sistemi)'* that is used as a verb but not as a noun. For instance, before we used to say, *'You can search for this information in Google'* but nowadays we use '*You can Google this information'*. The translations of these both sentences are the same *'Sən məlumatı Google-da axtara bilərsən.'*

We can consider the words *"X-ray (röntgenograph) – roentgen; radar (Radio Detection And Ranging) – radiolokator; laser (Light Amplification by Stimulated Emission of Radiation) – lazer"* as neologisms used in science and technology. English is a widespread language and therefore some English words also have become neologisms in other languages. One of such neologisms is the word '*OK (okay)'*. This word is almost used in every language as in English although there exists the translation of it. We can also consider our Azerbaijani language in this case, because, mostly we do not use *'yaxşı; oldu'* instead. Another neologism that came to the English usage is the Spanish word *'fiesta'* and its English translation is *'party'*. But as a neologism both words are acceptable in English. *'I wore my best suit to the fiesta/ party. – Mən ən yaxşı kostyumumu şənliyə geyindim.'* Further examples I would include are *"adios – goodbye (sağ ol); alligator – lizard (kərtənkələ); amigo – friend (dost); 'loco – mad, crazy (dəli)"* and so on. Literature is an image of our life, thus we can meet a lot of neologisms in poems, novels, stories and so on. For example, the word *'quixotic'* means *'donkixot (qeyri-həyati ideyalar uğrunda gülünc və səmərəsiz mübarizə aparan xəyalpərəst)'* and it is referred to the titular character in *Don Quixote de la Mancha* by Cervantes. An English writer Charles Dickens in his Christmas Carol describes a main character with the name of Scrooge. He is a greedy person and nowadays as a neologism 'scrooge' is used to refer to such people.

Apart from the names of characters used in the works of writes or poets, the names of authors also have become neologisms. People use "Orwellian" in order to mean the works of George Orwell or "Ballardian" for J.G. Ballard's works.

It is a well known hypothesis that there is no such thing as a brand new word; if a word does not derive from various morphemes then it is more or less phonaesthetic or synaesthetic. All sounds or phonemes are phonaesthetic, have some kind of meaning. Nevertheless the etymology of many words, in particular dialect words, is not known and can hardly be related to meaningful sounds.

Nowadays, the main new coinages are brand or trade names such as 'Bisto', 'Bacardi', 'Persil', 'Oxo' and these are usually transferred unless the product is marketed in the TL culture under another name or the proper name may be replaced by a functional or generic term, if the name has no cultural or identifying significance.

Most neologisms derived by analogy from ancient Greek and Latin morphemes usually with suffixes such as –ismo, -ismus, -ija, etc., naturalised in the appropriate language. For example, the word 'television' is a derived from Greek word 'tele' – 'far' and Latin word 'visio' whis means 'sight'. In Azerbaijani it is 'televizor'. As we can from the examples that the changes are made were only in suffixes both in English and Azerbaijani.

But medical neologisms like 'chronopharmacology', 'somatomedin' and particularly the approved chemical names of generic drugs can often be reproduced with a naturalised suffix such as 'French *–ite*, English *–itis*; French *–ine*, English *–in'*.

Abbreviations are one of the most noticeable features of modern English. The one of the reasons for using abbreviated forms is the desire for linguistic economy – the same motivation which makes us want to criticize someone who uses two words where one will do. Mentioning the ideas in a short way and precision are highly valued, and abbreviations can contribute greatly to a concise style. They also help to convey a sense of social identity: to use an abbreviated form is to be 'in the know' – part of the social group to which the abbreviation belongs. For example, if we talk about computers, we may use abbreviations such as ROM and RAM, of DOS. But no one uses read-only memory, random-access memory, disk operating system, respectively. Because, it would only irritate computer-literate colleagues and waste time if one keeps deciphering such abbreviated forms. And the same applies to those abbreviations which have entered everyday speech. It would be strange indeed to hear someone routinely expanding BBC, NATO, USA, and all the other common abbreviations of contemporary English. The vast majority of abbreviations fall into this category. Not all use only the first letters of the constituent words: PhD, for example, uses the first two letters of the word *philosophy*. There are also some abbreviation neologisms that seem to be one word. NATO, UNESCO can be examples for them.

Like figurative words, idioms, slangs, neologisms are also the words that are derived from our daily life, culture or intercultural relations. Therefore in most cases such words are impossible to find in ordinary dictionaries and as a result there arises problems of translation of them. The way out for this problem is always the same – to get informed with the text, paragraph, chapter or somewhere else in which the neologism is used. I think the translator has to distinguish the serious derived neologisms of industry from the snappy ingenious derived neologisms created by the media, including the advertisers, which may be short-lived. Whether they are permanent or not, the translator has to consider their function before deciding whether to re-create them in the target language or to translate the completed component of the blends.

Bibliography

1. Allan A. Metcalf. Predicting New Words. (2004)
2. Allain R. Essays on Terminology. (1995)
3. Arnold V.I. English Word. (1995)
4. Assya Humesky. Majakovskij and his neologisms. (1964)
5. Barnhart, David K. Evaluating neologisms. (1989)

6. Catford, John C. A Linguistic Theory of Translation. (1965)
7. Craig M. Carver. A history of English in its own words. (1991)
8. Foster B. The Changing English Language. (1971)
9. Galperin I.P. Stylistics. (1977)
10. Gloria Pierre. New words. (2005)
11. Howard Ph. New words for Old. (1980)
12. Jacqueline. A study of semi-technical vocabulary in computer science texts, with special reference to ESP teaching and lexicography. (2001)
13. Jonathon Green. Neologisms: new words since 1960. (1991)
14. Laurie Bauer. English word-formation. (1989)
15. Longman Dictionary of Contemporary English. (2003)
16. Niska, H. Explorations in translational creativity: Strategies for interpreting neologisms. (1998)
17. Niska, H. Neologisms. (2003)
18. Peter Newmark. A textbook of translation. (1988)
19. Peter Newmark. About translation. (1991)
20. Peter Newmark. An approach to translation. (1976)
21. Réka Benczes. Creative compounding in English. (2006)
22. Roswitha Fischer. Lexical change in present-day English. (1998)

Səbinə Tağıyeva

Neologizmlərin tərcüməsi

Xülasə

İngilis dili neoloqizlərin ən çox işləndiyi bir dildir və əsasən yunan, latın, fransız və ispan mənşəli yeni sözlər üstünlük təşkil edir. Həmin neoloqizlərin qarşılığının olmasına baxmayaraq, hər iki variant tez-tez istifadə olunur. İngilis dilində neoloqizlərin müəyyən tərcümə metodları vardır ki, bunlar da tərcüməçinin tərcümədə qarşılaşdığı problemləri aradan qaldırmaqda kömək edir. Bir neçə növ neoloqizm formaları vardır və bunlardan ən geniş yayılmışı abreviaturalardır.

Сабина Тагиева

Перевод неологизмов

Резюме

В английском языке использование неологизмов очень распространено ,большинство новых слов заимствованы из греческого, латинского, французского и испанского языков. Несмотря на наличие эквивалентов оба варианта очень часто употребляются. В английском языке существуют определенные методы перевода неологизмов, с помощью которых можно решить проблемы, с которыми переводчик сталкивается во время перевода. Существует несколько типов неологизмов и самым распространенным среди них являются □ббревиатуры.

Rəyçi: Şahin Xəlili
filoloqiya elmləri doktoru

AYNUR MƏMMƏDOVA
ADNA
aynur@mail.ru

İNGİLİS DİLİNDƏ ÖNLÜKLƏR

Açar sözlər önlük, zaman, məkan, mücərrəd, ifadə, istiqamət, nitq hissələri, köməkçi nitq hissələri, dilçilik
Key words preposition, time, place, abstract, expression, direction, parts of speech, structural parts of speech, spoken language
Ключевые слова предлог, время, место, абстрактный, выражение, дирекция, часть речи, вспомогательный часть речи, лингвистика .

Dildə mövcud olan sözlər məna baxımından, adətən, ikili xarakter daşıyır; onlar həm nominativ, həm də qrammatik mənaya malik olur. Sözlər nominativ baxımdan çoxmənalı ola bildikləri kimi, qrammatik baxımdan da çoxmənalı ola bilir. Məsələn: a boy, a table sözləri mövcud qrammatik formada isim, tək, ümumi hal və s; long, beuatiful sözləri sifət, adi dərəcə və s.; to work sözü isə fel, məsdər, məlum növ və s. Kimi qrammatik mənalara malikdir.

Yuxarıda verilmiş sözlərə müasir ingilis dilində bir neçə qrammatik formada rast gəlmək mümkündür. Məsələn, a boy, boys, boy`s; a table tables; long, longer, longest və s. Sözlərə xas olan bu qrammatik formalar onların qrammatik mənaları ilə bağlıdır; hər bir forma müəyyən bir (yaxud bir neçə) qrammatik məna ifadə edir. Sözün qrammatik (morfoloji), forması ya sintetik (tables, boy`s, works) ya da analitik (is working, has worked, shall work) ola bilir.

Dildə mövcud olan sözlər leksik mənalarına, morfoloji əlamətlərinə, sintaktik funksiyalarına, başqa sözlərlə əlaqəyə girmə xüsusiyyətlərinə və əsas düzəltmə əlamətlərinə görə müəyyən qruplara bölünür ki, bunlara ənənəvi olaraq nitq hissələri deyilir.

Sözün leksik mənasına, morfoloji əlamətinə, sintaktik roluna, əlaqəyə girmə xüsusiyyətinə və əsas düzəltmə xassəsinə görə sözlər müasir ingilis dilində aşağıdakı nitq hissələrinə bölünür:

1. İsim (the Noun)
2. Sifət (the Adjective)
3. Əvəzlik (the Pronoun)
4. Say (the Numeral)
5. Fel (the Verb)
6. Zərf (the Adverb)
7. Vəziyyət bildirən sözlər (the Adlinks)
8. Modal Sözlər (the Modal Words)
9. Nida (the İnterjection)
10. Artikl (the Article)
11. Önlük (the Preposition)
12. Bağlayıcı (the Conjunction)
13. Ədat (the Particle)

Müasir ingilis dilində mövcud olan nitq hissələri dildəki və nitqdəki rollarına görə bir-birindən fərqlənir. Onların bir qismi həm nominativ, həm də qrammatik mənaya malikdir. Buna görə də onlar müstəqil kommunikativ funksiya daşıyır və müstəqil cümlə üzvü olur. Bu qəbildən olan nitq hissələrinə əsas nitq hissələri deyilir.

Digər qisim sözlər, məsələn, artikl, sözönü (önlük), bağlayıcı və s. Müstəqil nominativ mənaya malik olmadığından cümlədə də müstəqil üzv ola bilmir. Dildə mövcud olan bu qisim sözlərə isə köməkçi nitq hissələri deyilir.

Dilçilikdə belə bir ümumi fikir vardır ki, köməkçi nitq hissələrinə daxil olan sözlər tarixən müstəqil mənası olan leksik vahidlərdən əmələ gəlmişdir. Hazırda dildə mövcud olan köməkçi nitq hissələrinin müstəqil – lüğəvi mənası yoxdur. Onlar ancaq söz birləşməsi və cümlə daxilində müəyyən qrammatik məna qazanaraq sözlər arasında müxtəlif tipli əlaqələri və məna çalarlığı yaradır. Köməkçi nitq hissələrinin bir neçə əlaməti vardır.

1. Köməkçi nitq hissələri heç bir suala cavab vermir.
2. Ayrılıqda lüğəvi məna bildirmir.
3. Cümlə üzvü rolunda işlənə bilmir; qoşulduğu sözlə cümlə üzvü olur.
4. Heç bir morfoloji dəyişikliyə uğramır.

Dilçilikdə nitq hissələrinin müstəqil və köməkçi nitq hissələrinə bölünməsinə baxmayaraq, onların arasında dəqiq sərhəd olmadığı göstərilir. Köməkçi nitq hissələri əsas nitq hissələri ilə müqayisədə sayca azdır. Ümumiyyətlə, bu nitq hissələri cümlə üzvləri arasında əlaqə yaradan, nominasiyada iştirak etməyən söz qruplarıdır, yəni onlar əşya, hadisə, hərəkət və s. Adlandırmır.

Önlük – köməkçi nitq hissəsidir.

Müasir ingilis dilində ismin hal kateqoriyası morfoloji baxımdan çox kasıb olduğundan cümlədə isim yaxud əvəzlik ilə digər nitq hissələri arasında mövcud olan qrammatik əlaqələr önlük vasitəsilə ifadə edilir.

Önlüklər adətən üç əsas əlamətinə görə müəyyən edilir:

1. Önlük köməkçi sözdür, belə sözlər müstəqil sintaktik funksiyaya malik olmur, ona görə də cümlə üzvü kimi çıxış edə bilmir.
2. Önlük müstəqil mənalı sözlər arasında tabelilik əlaqəsi ifadə edir.
3. Önlük mütləq substantivdən əvvəl işlənir, sağ tərəfdə isə həmişə ya isim, ya da ismin sintaktik ekvivalenti kimi çıxış edən söz durur.

Önlüklər müəyyən leksik mənaya malikdir. Bu məna onlara müstəqil söz statusunu qazandırır. Bundan başqa, önlüklərin sintaktik funksiyası da maraq doğurur. Bu zaman biz dilin iki səviyyəsini (v) fərqləndirməliyik: cümlə və söz birləşməsi. Söz birləşməsində işlədilən önlüklərin funksiyası sözləri bir-birinə bağlamaqdır. Cümlə səviyyəsində isə önlük heç vaxt cümlə üzvü olmur. O, aid olduğu isim, əvəzlik və cerundla birlikdə cümləyə daxil olur və birlikdə bir cümlə üzvü olur.

Önlüklər digər nitq hissələrindən əmələ gəlmişdir. Önlüklər cümlə üzvüləri arasında əlaqə yaradır. Onlar, digər köməkçi nitq hissələri kimi, morfoloji xüsusiyyətə malik olmur, onların əksəriyyəti qədimdən dəyişikliyə uğramış kök sözlərdir. Lakin, demək olmaz ki, önlüklər tamamilə qapalı sinfə aiddir. Onlar təsadüfən bir çox morfoloji formaların semantikasının dəyişməsi hesabına yaranmışdır. Önlüklər tarixi inkişaf prosesinin məhsuludur. Onlar tarixən müstəqil mənalı sözlər kimi işlənmiş, zaman keçdikcə öz leksik məzmunlarını tədricən itirərək, yeni

qrammatik məna kəsb etmişdir. Önlüklərin mənası həm özündən sonra gələn sözün leksik məzmunundan, həm də önlüyün təcrid olduğu ilk mənbə ilə hələ də mövcud olan məna əlaqəsindən, həm də qrammatik mənasından çox asılıdır.

Müasir ingilis dilinə xas olan önlüklər iki baxımdan təsnif edilə bilər:

1. Morfoloji quruluşlarına görə
2. İfadə etdikləri leksik-qrammatik mənaya görə.

Morfoloji qurluşuna görə önlüklər aşağıdakı qruplara bölünür:

a) Sadə önlüklər: at, by, on, in və s.

b) Mürəkkəb önlüklərdə bir önlük digəri ilə eyni mənanı verir, başqa sözlə desək, mürəkkəb önlüklər eyni mənalı önlüklərin birləşməsindən əmələ gəlir: within, out of, into, throughout, outside, və s.

c) Tərkibi önlüklər (adətən isim və ondan əvvəl və sonra gələn önlükdən yaranır) by means (vasitəsilə), with regard to (münasibətdə), in spite of (baxmayaraq) və s.

d) Düzəltmə önlüklər: behind, along, across və s.

Önlüklər, adətən, qovuşduğu sözün əvvəlində gəlir. Önlük sual cümləsinin, tamamlıq və təyin budaq cümləsinin sonunda işlənə bilər.

Önlüklərin çoxu qrammatik baxımdan polisemantikdir, yəni müxtəlif məna-ya malikdir. Önlüyün mənası ya önlükdən əvvəl gələn ismin mənası vasitəsilə, ya da önlüklü birləşmənin asılı olduğu sözün mənası vasitəsilə yaranır.

Ifadə etdikləri leksik-qrammatik mənalara görə önlüklər aşağıdakı qruplara bölünə bilər:

a) məkan bildirən önlüklər: in, at, on, between, və s.
b) istiqamət bildirən önlüklər: to, into, from, along və s.
c) zaman bildirən önlüklər: for, after, before, in və s.
d) mücərrəd əlaqələr ifadə edən önlüklər: with, by, about, because of və s.

Məkan önlükləri Azərbaycan dilindəki məkan bildirən hallara daha çox uyğun gəlir. Buna görə də ingilis dilində məkan bildirən önlüklərin qarşılığını Azərbaycan dilində məkan hallarə kimi vermək məqsədə çox uyğunduրş

Müasir ingilis dilində məkan önlüklərinə monosemantik və polisemantik önlüklər daxildir. Məkan mənası bildirən önlüklərin iki tipi vardır:

a) Hərəkətin baş verdiyi yeri bildirən önlüklər. Bu önlüklü birləşmələr "hara" sualına cavab verir. Onlar aşağıdakılardır: in, at, on, by, beside, in front of, beyond, outside, around, about və s.

b) Hərəkətin yönəldiyi istiqaməti bildirən önlüklər. Bu önlüklü birləşmələr «where» və «from where» suallarına cavab verir. Aşağıdakı önlüklər istiqamət bildirir: to, through, over, across, under, out of , into və s.

Cümlədə şərh olunan hadisə hər hansı bir ana uyğun gələ bilər, ondan əvvəl və ya sonar baş verə bilər. Buna görə də zaman önlüklərini aşağıdakı qruplara bölmək olar:

a) Zamanın müəyyən anına və ya vaxtına uyğun gəlib, hadisə və faktı göstərən önlüklər. Bu qrupa ingilis dilində işlənən about, within, around, through, at, on, in və s. Önlükləri daxildir. Bu önlüklər zaman zərfliklərinin tərkibinə daxil olduqda onu göstərir ki, cümlədə haqqında bəhs etdiyimis fakt bu zərfliyin ifadə etdiyi zamana aiddir.

b) Zamanın müəyyən anından sonra baş verən hadisə və faktı işarə edən zaman önlükləri. Buraya after, from, since önlükləri başqa cümlədə şərh olunan faktların ifadə etdiyi zaman müddətindən sonrakı hadisələri təsvir edir.

c) Zamanın müəyyən anından əvvəl baş verən hadisə və faktı göstərən zaman önlükləri. Bu qrupa before, by, till, until, to önlükləri daxildir.

d) Zamanın müəyyən anından sonra baş verən hadisə və faktı göstərən zaman önlükləri. Bu qrupa after, from, since və on önlükləri daxildir.

e) Hərəkətin və əlamətin həm başlanğıc, həm də qurtaracaq zamanını bildirmək üçün işlənən önlüklər. Bu qrupa since....till (to), from.....till (to) və between önlükləri daxil edilir.

Hərəkətin istiqamətini bildirən önlüklər: Buraya aşağıdakıları aid etmək olar: to, from, across, up, down, into, out of, about və s.

Bu qrup dörd yarım qrupu özündə birləşdirir:

1. Hərəkətin çıxış nöqtəsini bildirən önlük – from
2. Hərəkətin son nöqtəsini bildirən önlüklərdən ibarət yarım qrup: to və for
3. Hərəkətin həm çıxış, həm də son nöqtəsini bildirən önlüklər: from, to
4. Hərəkətin keçdiyi yolu bildirən önlüklər: Buraya through önlüyü daxildir.

Müasir ingilis dilində mücərrəd əlaqələr ifadə edən önlüklər də var. Zaman və məkan önlüklərindən fərqli olaraq, bu önlüklər sözlər arsında müxtəlif qrammatik əlaqələrin yaranmasına xidmət edir. Bu önlüklərin ingilis dilində təzahürü ingilis dilinin tədricən hal kateqoriyasından imtina etməsi ilə əlaqədardır. İngilis dili tədricən ismin hallarını itirdikcə, itən, dildən çıxan şəkilçilərinin funksiyalarını yerinə yetirmək üçün yeni qrammatik vasitələrə ehtiyac duyulur; bu ehtiyacə ödəmək üçün xalqın dil şüuru artıq mövcud olan zaman və məkan önlüklərini yeni məna ifadə etmək üçün "ixtisaslaşdırır", onlar kifayət etmədikdə artıq mövcud olan önlüklərin kombinasiya edilməsi hesabına tərkibi önlüklər düzəldilir. Bu proses hal kateqoriyası sabitləşənədək, yəni indiki vəziyyəti nəzərə alsaq ingilis dilində iki hal qalanadək davam etmişdir.

Mücərrəd əlaqələr ifadə edən önlüklərə for, about, of, to, by, in, at from, because of, due it, as for və s. Misal göstərmək olar.

Müasir ingilis dilinə xas olan önlüklər Azərbaycan dilinə əsasən iki vasitə ilə tərcümə edilir:

1. hal şəkilçiləri və ya hal şəkilçisi qəbul etmiş alt, üst, ara və s. Sözlər vasitəsilə;
2. qoşmalar vasitəsilə

Önlüklərin konkret olaraq həmin vasitələrdən hansı ilə tərcümə edilməsi, onların hər dəfə ifadə etdiyi qrammatik mənada asılı olur:

a) məkan bildirən önlüklər dilimizə ya yerlik hal şəkilçisi, ya da yerlik hal şəkilçisi qəbul etmiş alt, üst, ara və s. Sözləri ilə tərcümə edilir. Məsələn: Your coat is one the sofa. Sizin paltonuz divanın üstündədir.

b) istiqamət bildirən önlüklər dilimizə əsasən ya yönlük, çıxışlıq – hal şəkilçisi, ya da boyunca sözü vasitəsilə tərcümə edilir. Məsələn: The travellers were going along the river. Səyahətçilər çay boyunca gedirdilər.

c) zaman bildirən önlüklər Azərbaycan dilinə ya yerlik hal şəkilçisi, ya sonra, ya də əvvəl, qabaq önlükləri ilə tərcümə edilir; yaxud da heç tərcümə olunmur. Məsələn: We must finish our work before holiday. Biz işimizi bayramdan əvvəl qurtarmalıyıq.

İngilis dilinin mücərrəd qrammatik məna bildirən sadə önlükləri müasir Azərbaycan dilində ya hal şəkilçiləri, ya hal şəkilçiləri ilə birgə qoşmalar, ya köməkçi sözlər, ya da köməkçi sözlərlə birgə hal şəkilçiləri ilə ifadə edilir. Bu önlüklər dilimizə yiyəlik hal şəkilçisi və qoşmalar vasitəsilə tərcümə edilir. Məsələn: the door of the room was painted. Otağın qapısı rənglənmişdi. The teacher spoke abou new booksş Müəllim yeni kitablar haqqında danışdış.

Ədəbiyyat

1. A. Qurbanov. "Ümumi dilçilik". Bakı-2004.
2. O. Musayev "İngilis dilinin qrammatikası". Bakı-1979.

A.Məmmədova

Prepositions in English
Summary

This article deals with the prepositions. The prepositions are structural parts of speech. The grammatical relations between noun (or pronoun) and other parts of speech are expressed by prepositions. This article is directed to clearly recognize the essence of prepositions. The prepositions are divided into some groups according to their morphological structure and lexical meaning. This article helps to understand the use of different types of prepositions. The prepositions are very important in learning English

А. Мамедова

Предлоги английского языка
Резюме

В этой статье говориться о предлогах. Предлог – вспомогательный часть речи. Грамматический взаимосвязь существительного (или местоимения) с другими части речьями выражается с предлогами. Приставки разделяются на несколько групп по морфологическим и лексико-грамматическим признакам. Данная статья поможет понять использование различных видов приставок. Приставки обладают исключительной важностью в преподавании английского языка.

Rəyçi: Sevil Qazıyeva
filologiya elmlər namizədi, dosent

GÜLƏR HƏSƏNOV
Azərbaycan Dillər Universiteti
ravnur@mail.ru

MÜASİR TƏLİMİN ƏSASLARI

Açar sözlər: müasir, təlim, fəal, müəllim, prinsip, texnologiya
Key words: modern, teaching, active, instructor, principle, technology
Ключевые слова: современный, обучение, активный, преподаватель, принцип, технология

Ölkəmizin dünyaya sürətlə inteqrasiya olunması və mədəni əlaqələrin genişlənməsi gənclərimizdə mühüm ümümbəşər dəyərlər formalaşdırmaqla yanaşı, həm də milli adət-ənənələrimizi, mənəvi dəyərlərimizi qoruyub saxlamaq və inkişaf etdirmək zərurəti doğurur. Ona görə də, indi hər bir valideyn övladını məktəbə yola salarkən haqlı olaraq bütün bunları çox həssaslıqla nəzərə alır. Onun çağdaş bilgi və bacarıqlara yiyələnmiş, milli mənəvi dəyərləri mənimsəmiş bazar iqtisadiyyatı şəraitində çevik fəaliyyət göstərməyi, özü, ailəsi və ölkəsi üçün faydalı olmağı bacaran bir şəxs kimi yetişəcəyini istəyir.

Təhsilin, dövlətin və cəmiyyəti möhkəmləndirməyin prioritet sahələrindən biri hesab edən Azərbaycanın başlıca məqsədi də demokratik, dünyagörüşlü, bacarıqlı, məsuliyyətli vətəndaşlar yetişdirməkdə görür. Bütün bunlar uşaqlardan gələcəyə, get-gedə mürəkkəbləşən cəmiyyətə hazırlığı ilə bağlı məsələlərə, xüsusən də, təhsil konsepsiyasına yeni nəzərlə baxmağı tələb edir. Aydındır ki, ailənin, cəmiyyətin və dövlətin gələcəyə yönəlmiş bu sifarişini illər boyu formalaşmış ənənəvi fənyönümlü təlim sistemi ilə yerinə yetirmək qeyri mümkündür. İndi məktəbin əsas məqsədi şagirdlərin yaş və fərdi xüsusiyyətlərini, meyl və maraqlarını nəzərə almaqla onlarda əqli, əxlaqı, etik, estetik və fiziki inkişafa kömək göstərmək, gündəlik həyatda rastlaşdıqları problemləri həll etmək üçün zəruri bacarıqlar formalaşdırmaqdır. Çünki, yaşadığımız yüksək texnologiya əsrində biliklər unudulsa, bacarıqlar əhəmiyyətini itirmir.

Təhsil əsri, intellekt əsri, hesab edilən XXI yüzilliyin cəmiyyət həyatında baş verən yenilikləri qırmızı xətt kimi təhsildən, təlim prosesindən keçir. Təhsildə modernləşmə mütləq milli baza əsasında onun inkişaf səviyyəsi kimi nəzərdə tutulmalı, tarixilik, varislik, müasirlik vəhdətdə və dinamikada nəzərdə alınmalıdır.

İnkişaf etmiş ölkələrin təhsil təcrübəsi göstərir ki, adi ünsiyyət yaratmaqdan tutmuş, kiçik iqtisadi layihələr qurub reallaşdırmağa qədər ən müxtəlif qabiliyyətləri özündə əks etdirən bacarıqlar mükəmməl bir sistemin tərkib hissəsidir. Belə sistemləri şagirdi sinifdə təlimin obyekti kimi yox, subyekti kimi qəbul edən şagirdyönümlü təlim metodları və inteqrativ fənlərin köməyi ilə yaratmaq mümkündür. Ona görə də, yerli və beynəlxalq təcrübələr nəzərə alınmaqla, Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyasına (Milli Kurikuluma) bu vəzifələrin yerinə yetirilməsində mühüm rol oynayacaq inteqrativ təlim adlı yeni didaktik prinsip daxil edilmişdir. Təhsil prosesində şagirdlərin qazanıb gündəlik həyatlarında tətbiq edə biləcəkləri bilik, bacarıq və vərdişlərin formalaşdırılması həm fənlərin, həm də onların əhatə etdikləri mövzuların əlaqəli-inteqrativ şəkildə tədrisi tələb edir.

Çağdaş təhsil təcrübəsi göstərir ki, təlim prosesində yeni təlim metodlarından istifadə etmədən hər hansı bir fənnin tədrisində müvəffəqiyyət əldə etmək qeyri-mümkündür. Bu məqsədlə də təlim prosesində motivasiyanın yaradılması, fəallığın artırılması, məzmunun hərtərəfli aşılanması və şagirdlərdə müasir dünyagörüşün formalaşdırılmasında inteqrasiyaediciliyin rolu danılmazdır.

Hazırda təhsilin təşkili formaları, məzmunu, təlimin metod və vasitələri, qiymətləndirmə, pedoqoji prosesi idarəetmə və digər məsələlərə elmi və praktik olaraq yenidən baxılır, milli və dünya təcrübəsi dəyərləri nəzərdən keçirilir, nəticələrə gəlinir. Hazırda pedaqogika elmində təlimin fəal metodları, metod və texnologiyalar, keyfiyyətin qiymətləndirilməsi, işgüzar səs-küy, inteqrasiya, mübahisə, tənqidi təfəkkürün inkişaf etdirilməsi və digər anlayışlar işlədilir.

Müasir təlim texnologiyası öyrətmə və öyrənmə fəaliyyətinin təşkilində, pedaqoji prosesin gedişində, yeniləşdirmədə, qiymətləndirmədə və digər təlim xarakterli işlərdə nəzərə alınan, istifadə olunan iş, forma, üsul və tərzlərin kompleks və əlaqəli həyata keçirilməsidir.

Təlim texnologiyası təhsilin pillə və mərhələsinə, məzmununa, formasına, təlim tipinə görə müxtəlif çalarlı ola bilər. Fəal təlimin peşakarlıqla tətbiq edilməsi məktəbdə şəraiti, şagirdin təhsilə münasibətini dəyişə bilir, pozitiv və fəal həyat mövqeyini formalaşdırmağa şərait yaradır. Belə üsullar həmçinin biliklərin müstəqil mənimsənilməsi və yeniliklərin kəşf edilməsi, qazanılmış biliklərin yaradıcılıqla yenidən işlənməsi, təcrübədə onlardan istifadə edilməsi, problemi həll etmək üçün yoldaşları ilə əməkdaşlıq etməyi bacarmaq, özünü realizə yollarını axtarıb tapmaq kimi keyfiyyətlərin əldə edilməsinə şərait yarada bilər. Belə dəyişikliklərin qarşıya çıxardığı çətinliklərə sinə gəlmək üçün təlim prosesində daha çox İKT-nin köməyindən istifadə edilir. Təlimin texniki vasitələri şagirdlərə informasiyaları çatdırmaqda, bilikləri dərk etməkdə, yadda saxlamaqda, tətbiq edilməsində və təlimin nəticələrinin dəqiqləşdirilməsində istifadə olunan qurğulardır. İKT şagirdlərin istifadə etdiyi resursların çeşidini zənginləşdirməklə yanaşı onlara yaşadıqları dünyanı dərk etməkdə köməklik edə bilər.

Fəal təlim üçün metod və texnologiyalar qarşıya qoyulmuş məqsəd və şəraitdən asılı olaraq seçilməlidir. Müəllimlər məqsəd və şəraitə, fənnə, mövzuya şagirdlərin təcrübə və bilik səviyyəsinə görə bütün təlim modellərindən, müxtəlif metodika və texnologiyalarından istifadə etməlidirlər. Əsas odur ki, təlim uşaqları etdirsin, onların düşünmək, müstəqil fikir söyləmək, biliklərini tətbiq edə bilmək bacarıqlarını açıqlasın. Onlarda ünsiyyət, anlaşma mədəniyyəti, öz problemlərini həll etmək qabiliyyəti formalaşdırsın. Şagird biliklərin mənimsənilməsi prosesinin başlıca simasına çevrilməsi üçün, özünün və müəlliminin mövqelərini dəqiqləşdirir. Şagirdin mövqeyi kəşf edən olmalıdır. O, gücü çatdığı məsələlər və problemlərlə üzləşərkən, müstəqil tədqiqat prosesində bunları həll edir. Müəllimin mövqeyi bələdçi, aparıcı olmalıdır. O, sistemli şəkildə şagirdlərlə əməkdaşlıq edir, problemli vəziyyəti təşkil edir, tədqiqat məsələlərinin qoyuluşunda, şagirdlərə istiqamət göstərir. Müəllimin pedaqoji fəaliyyəti müvəffəqiyyətlə yerinə yetirməsi onun öz qarşısında duran funksiyaları necə həyata keçirməsindən asılıdır.

Müəllimin şəxsiyyəti onun peşə fəallığının mənbəyi və hərəkətverici qüvvəsidir. Müəllimin əməyində onun şəxsiyyəti aparıcı yerlərdən birini tutur. Müəllimin şəxsiyyəti lazımi səviyyədə formalaşmazsa cəmiyyətin onun qarşısında

qoyduğu sosial sifarişi həyata keçirə bilməz. Axı müəllim gənc şəxsiyyətin mənəvi aləminin memarı, cəmiyyətin etibar etdiyi şəxsdir. Pedaqoji fəaliyyətin müvəffəqiyyəti üçün hər bir müəllim təbiət və cəmiyyət haqqında dərin biliklərə yiyələnməklə yüksək inam və bir sıra mühüm keyfiyyətlərə yiyələnməlidir. Bu keyfiyyətlər belə xarakterizə olunur:

a) Hər bir müəllim öz fənninə dərindən yiyələnməlidir;

b) İdrak nəzəriyyəsini və pedaqoji elmi mükəmməl bilməlidir;

c) Ayrı-ayrı anlayışlar arasındakı əlaqə və münasibətləri açmağı bacarmalıdır;

d) Şagirdləri fəallaşdırmaq məqsədilə müxtəlif metod və vasitələrdən istifadə etməyi bilməlidir.

Fəal təlim üsullarının müvəffəqiyyətlə həyata keçməsi ümün müəllimin fəaliyyətində təcrübə, bilik, bacarıq və adətlər özünəməxsus yer tutur. Müasir müəllim öz ixtisasının müxtəlif sahələrini, sosial-iqtisadi, istehsal və mədəni problemləri həll etmək üçün imkanları və tədris etdiyi elmə aid bütün yenilikləri, onun perspektiv imkanlarını mükəmməl bilməlidir.

Müasir təlim prosesində müəllimin fəaliyyəti şagirdin tədris və idrak fəaliyyətini təşkil etmək, şagirdin tərbiyəsinə və inkişafına yönələn fəaliyyəti qurmaq, şagirdi fəallığa həvəsləndirməkdən ibarətdir ki, bu da Azərbaycanın dövlət müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını qorumağa, respublikamızı inkişaf etmiş demokratik dövlətlər səviyyəsinə qaldırmağa qadir olan vətəndaşlar yetişdirməyə köməklik göstərməkdir.

Təhsil müəssisələrində, o cümlədən, orta ixtisas təhsili müəssisələrində də tədris prosesində yeni təlim texnologiyalarının tətbiqi, dünya təhsil sisteminə inteqrasiya məsələlərinə ciddi yanaşılır.

Təhsilin keyfiyyəti bir təkcə şərt deyil, həm də prosesdir. Keyfiyyətli təhsil prosesin əsas tərkib hissələrindən biri dərsin təşkilidir: onun mərhələləri, təlimin forma, üsul və metodlarıdır; onun qurulması optimal düzgün həllin tapılmasıdır.

B.A.Suxamlinski demişdir: "Dərs müəllimin ümüumi və pedaqoji mədəniyyətinin güzgüsüdür, onun intellektual zənginliyinin ölçüsüdür, erudusiya dünyagörüşünün göstəricisidir. "Hər birimiz dəfələrlə özümüzə suallar veririk: "Mən nə edim ki, şagirdlərimin biliklərinin keyfiyyəti yüksək olsun?", "Təlimin effektiv forma metodlarından istifadə edirəmmi?", "Şagirdlərə yanaşmamız düzgündürmü?"

Ənənəvi dərs – doğma insan kimidir; müasir tələblərə cavab verməsə də, bu dərsdə hər şey tanışdır. "Bəlkə heç nəyi dəyişməyə ehtiyac yoxdur?" Ənənəvi dərs – digər dərs növləri üçün əsasdır, bu elə böyük tarixdir ki, burada bir neçə nəsil öyrənib təhsil alıb.

Müasir dərs nədir? Dərsə müasirlik verən nədir? Bugünkü dərs dünənkindən nə ilə fərqlənir? Dərslərin analizi göstərir ki, həm şagirlər, həm də müəllim üçün dərs onda maraqlı ola bilər ki, o sözün geniş mənasında müasir olsun. Müasir – bu həm tamamilə yenidir, həm də keçmiş ilə əlaqələri kəsməyəndir, bir sözlə aktualdır. Aktualdır – müasir dövr üçün vacibdir, zəruridir. Əgər dərs müasirdirsə, onda o mütləq gələcək üçün əsas qoyur, keyfiyyətli təhsilin əsasını qoyur. Müasir dərs – yeni texnologiyanın köməyilə təşkil olunan, ümumi məqsədlərə çatmaq üçün əməkdaşlıqdır.

Müasir dərsdə müəllim hər bir uşağı görür, onun potensialından maksimum istifadə edir. Müasir dərs – bütün iştirakçıların qarşılıqlı inam və etibarı əsasında canlı ünsiyyətdir. Müasir dərs – İKT-lərin istifadəsi ilə keçirilən dərsdir. Müasir dərs, ona xas olan bütün əlamətləri saxlamaqla, variativ deyil, həm də mütəmadi inkişaf edən forma kimi keçirilməlidir. Bu inkişafın əsas istiqaməti onda görünür ki, dərs nəinki müəllimin, həm də şagirdin yaradıcılığının nəticəsi olsun.

Müasir dərs necə olmalıdır? Müasir dərs – hər şeydən əvvəl müəllimin şagird şəxsiyyətinin inkişafı üçün, onun elmi inkişafı üçün, bilikləri dərin, şüurlu mənimsəməsi üçün, mənəvi əsaslarının formalaşması üçün bütün imkanlardan bacarıqla istifadə etdiyi dərsdir. Müasir dərs – şagirdlərin maraqları əsasında qurulub, onların tələbatlarının ödənməsinə istiqamətlənən, səmimi atmosferdə təşkil olunan, fəal təlim metodlarından istifadə edilən, əyani vəsaitlərin elmi informasiyanı müşayət edən, şagirdlərin müstəqil fəaliyyəti əsasında qurulan dərs olmalıdır.

Müasir dərsin xarakteristikasını nece verə bilərik:

1. Müasir dərsdə darıxmağa, qorxuya, hiddətə, hirsə yer yoxdur.
2. Müasir dərsdə maraq, inam və əməkdaşlıq atmosferi hökm sürür.
3. Müasir dərsdə hər bir şagirdə yer var, ona görə ki, müasir dərs onun gələcəkdə müvəffəqiyyətinin rəhnidir.

Müasir dərsə qoyulan tələblər:

 Dərsin didaktik məqsədləri və məzmunu ilə təyin olunan, ciddi və vahid daxili məntiqi olmalıdır;

 Proqram tələblərini və dərs standartlarını, şagirdlərin bacarıq və tələbatlarının diaqnostikasını,müəllimin imkanlarının özünü qiymətləndirməsini nəzərə alaraq qurulmalıdır;

 Konkret nəticələrə istiqamətlənməlidir;

 Rasional quruluşa və tempə malik olmalıdır;

 Materialın öyrədilməsi öz quruluşuna görə variativ olmalıdır;

 Biliklərin əksər hissəsi yaradıcı tapşırıqların yerinə yetirilməsi yolu ilə müstəqil axtarış prosesində əldə edilməlidir;

 Dərsin əsas tərəfi fərdi təlim olmalıdır.

 Müasir dərsin effektivlik kriterləri bunlardır:

 Konkret formalaşdırlmış gözlənilən nəticəyə istiqamət;

 Şagirdin canlı, şəxsi dəyərli biliklərinə istiqamət;

 Dərsin istiqamətverici və tərbiyəvi məsələlərinə diqqət;

 Şagirdin yaradıcı idrak fəaliyyətinə əsaslanma;

 Şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alır;

 Dinamikliyi, intensiv təlim metodlarını nəzərə alır;

 Kəşf etməklə öyrənmə;

 Diskussiyaların varlığı;

 Şəxsiyyətin inkişafı.

Belə dərsi hazırlamaq və keçirmək asan deyil, bunun üçün müəllimlik fəaliyyətinə məsuliyyətlə yanaşmaq lazımdır. Bu gün müəllim üçün yaxşı fənn müəllimi olmaq kifayət deyil, ona yeni informasiya texnologiyalarını bilmək, şagirdləri müstəqil qərarı qəbul etməyi bacarmaq, onlar üçün məsuliyyət daşımağı öyrətmək zəruridir.

Müasir dərs dedikdə fəal (interaktiv) dərs nəzərdə tutulur. Fəal (interaktiv) təlim nədir? " Fəal (interaktiv) təlim" şagirdlərin fəal idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçılarla əməkdaşlıq şəraitində həyata keçirilən təlim nəzərdə tutulur. Son illərdə respublikamızda çox müəllim fəal təlim üsulu ilə tanış olmuş və müxtlif treninqlərdə iştirak etmişdir. Müəllimlərdə fəal dərslərin hazırlanması, planlaşdırılması və onların həyata keçirilməsi üçün vacib olan ilkin təcrübə toplanmış, əsas bilik, bacarıq və vərdişlər formalaşmışdır.

Fəal (interaktiv) dərs müəllimin çəkdiyi zəhmətin, yaradıcı axtarışın nəticəsini müəyyən edir. Bu gün məktəblərdə və orta ixtisas təhsilli müəssisələrdə də müasir təlim metodları və dərsdə yeni pedaqoji texnologiyaların tətbiqi baxımından qarşıda duran məqsəd və vəzifələr müəllim tərəfindən planlaşdırılır və təlim prosesində həyata keçirilir. Dərsin hər bir dəqiqəsi nə qədər səmərəli və şagirdlərin fəallığı şəraitində keçərsə, nəticədə bir o qədər sevindirici olur. Müasir təlim metodlarının tətbiqi, elektron dərslərin təşkili, qabaqcıl müəllimlərin iş təcrübələrinin öyrənilməsi və işdə tətbiqi, açıq dərslərin dinlənilməsi və təhlili dərsdə istifadə edilən təlim üsullarının məqsədyönlü olması, texniki vasitələrdən və əyani vəsaitlərdən, müəllimin fasilitator bacarıqları, verdiyi tədqiqat sualı tələbələrin çalışqanlığını artırır, onların təqdiqat apararaq elmlərin əsaslarına sərbəst yiyələnməsinə səbəb olur. Müasir təlim metodlarındn istifadə zamanı tələbələrin təfəkkürü, idrakı inkişaf edir. Bu, müxtəlif tapşırıqların qruplarda icrası, təhliletmə və nəticəçıxarma, layihələrin hazırlanması və s. Tədbirlərin həyata keçirilməsi ilə formalaşır. Fəal təlim metodlarının əsas məqsədi tələbələri müasir dünyadakı həyata hazırlamaq, müstəqil düşünmək, sərbəst fikir və rəy söyləmək, qərar qəbul etmək, tənqidi təfəkkürü formalaşdırmaq, onlarda cəmiyyətimizin demokratikləşdirilməsi işində fəal iştirak etməyə lazım olan keyfiyyət və bacarıqları inkişaf etdirməkdən ibarətdir.

Təlimlə tərbiyənin vəhdəti də müasir dərsin qarşısında qoyulmuş mühüm tələbdir. Dərs şagirdlərin mənəvi inkişafına, əxlaqca təkmilləşməsinə xidmət göstərməlidir. Qruplarda aparılan tədqiqat işləri zamanı tələbələrin əməkdaşlığı nəticəsində bir çox problemlər meydana çıxır ki, müəllim bunun da öhdəsindən ustalıqla gəlməli və tələbələrin şəxsiyyətinə, tərbiyyəsinə, əxlaqına qiymət verərək onları düzgün istiqamətləndirməlidir.

Təlimin şagirdyönümlü olması müəllimi dərsə daha ciddi, yaradıcı münasibət bəsləyərək planlaşdırma aparmasına sövq edir. Müəllimlər müasir dərsi planlaşdırarkən, ilk növbədə, motivasiya və tədqiqat sualını hazırlamalıdır. Bunun nəticəsində tələbəyə həm mövzu, həm də tədqiq edəcəyi sual aydın olur. Bu sual dərsin digər mərhələləri üçün sütun olmalı, mövzunun bünövrəsi olmalıdır. Tədqiqat zamanı paylanan materialın dolğunluğu, düzgünlüyü və yığcamlığı tələbənin vaxtında nəticə çıxarmasına səbəb olur. İşçi vərəqlərində verilmiş suallar tətbiqetmə zamanı tələbənin yaradıcılığını üzə çıxarmağa şərait yaradır. Müasir təlimdə aşağıdakı təlim prinsipləri təcrübədən keçirilir:

1. Şəxsiyyətə yönəlmiş təlim prinsipi.

Nə üçün uşaqlar erkən yaş dövründə daha fəal olurlar?

Elmi araşdırmalar göstərir ki, insan bütün ömru boyu qazanılan məlumatın təxminən 70%-ni 6 yaşa qədər əldə edir. Paradoks ondan ibarətdir ki, məktəbə daxil olduqdan sonra uşağın idrak fəallığı mühüm dərəcədə ləngiməyə başlayır. Bu nəyə görə baş verir? İş ondadır ki, məktəbə qədər dövrdə uşaq dünyanı bir tədqiqatçı

kimi dərk edir: o suallar verir və suallara cavab tapmaq üçün imkanı daxilində olan müxtəlif mənbələrdən istifadə edir və ilk növbədə, öz təcrübəsinə əsaslanır. Onu əhatə edən dünyanı müstəqil dərk edərək uşaq öz maraqlarına görə fəaliyyət göstərir. Birinci sinifə daxil olarkən uşaq elə bir təlim mühitinə düşür ki, harada onun vərdiş etdiyi, ona yaxın və təbii olan təlim üsulunu dərk etmək tələb olunur. Müəllim tələb edir ki, uşaq ona diqqətlə qulaq asıb dediklərini yadda saxlasın, təlimatlarını dəqiq həyata keçirsin və bu təlimata aid olmayan sualları az versin.

Bununla şagirddən demək olar ki, passiv mövqeyin tutması, tədqiqatçı roldan imtina etməsi və müəllim tərəfindən verdiyi məlumatla kifayətlənməsi tələb olunur. Bu cür təlim prosesinin mərkəzində şagird yox, müəllim olur. Məhz müəllim təlim prosesinin fəal iştirakçısı olur və şagirdə nəyi və necə dərk edilməsini diktə edir. Bunun nəticəsi olaraq şagirdin dərk etmə imkanları məhdudlaşır, onun ehtiyacları, maraq və qabiliyyəti nəzərə alınmır.

Deməli, şagirdi fəallaşdırmaq üçün, ilk növbədə, vacibdir ki, o bir şəxs kimi təlim prosesinin mərkəzi obyekti kimi çıxış etsin. Təlim uşağın maraq və tələbatlarına, onun bilik səviyyəsi, imkan və qabiliyyətlərinə yönəlməlidir. Müəllim şagirdə şəxsiyyət kimi yanaşmalı, onun fərdi cəhətləri nəzərə alınmalı və hörmət əsasında münasibət göstərilməlidir.

2. Fəal idrak prinsipi

Tədris prosesi elə təşkil olunmalıdır ki, idrak fəallığını, təbii öyrənmə fəaliyyətini doğursun, şagirdə "ilk kəşf" sevinci keçirməyə imkan versin, onda yeni biliklərə yiyələnmək həvəsi yaratsın. İdrak fəallığı, ilk növbədə, təfəkkürün fəallaşması əsasında yaranır. Buna nail olmaq üçün təlim prosesində idrak fəallığını stimullaşdıran problemli situasiyalar yaradılmalıdır. Uşaqda bu problemin həlli tələbatın yaranması nəticəsində bütün idrak prosesləri də fəallaşır, o yeni bilikləri kəşf etməyə yönəlir.

3. İnkişafedici təlim prinsipi.

Görkəmli rus psixoloqu, müasir pedaqogikanın banilərindən biri olan L.S.Viqotskinin nəzəriyyəsinə görə təlim inkişafı qabaqlamalı, uşağın "qarşıdakı (yaxın) inkişaf zonasına" yönəldilməlidir. Bu inkişaf zonasında uşağın potensial imkanları mərkəzləşib və onların aktuallaşması üçün xüsusi təlim şəraiti yaradılmışdır. Buna nail olmaq üçün şagirdlərə onların imkanlarına uyğun lakin bir qədər mürəkkəb tapşırıqları müstəqil həll etmək üçün vermək və eyni zamanda, müəllim və digər böyüklərin tərəfindən bunun üçün suallar verməklə, vasitələr göstərməklə istiqamətləndirmək lazımdır. Yəni təlim uşağın özünün müstəqil fəaliyyəti və ya böyüklərin köməyi sayəsində aşkarlanan bilik bacarıqları əldə etmək imkanlarına tuşlanmışdır. İnkişafedici təlim, ilk növbədə, təfəkkürü və yaradıcılığı formalaşdırır.

4. "Qabaqlayıcı təlim" prinsipi.

Müasir dövrdə baş verən sürətli dəyişikliklər təlimin qarşısında şagirdlərin həyata hazırlanması məsələsini daha kəskin qoyur. Bunun üçün, ilk növbədə, təlim cəmiyyətin inkişaf təmayüllərini əks etdirməli və yeni nəsilləri yaxın gələcəkdə təşəkkül tapacaq dünyada fəaliyyətə hazırlamalıdır. Məsələn, məktəb şagirdə əsas baza bilik, bacarıq və vərdişləri verməklə kifayətlənməməlidir və eni zamanda, onun dərketmə fəallığını, hər şeyi öyrənmək həvəsini və digər zəruri keyfiyyətləri formalaşdırmalıdır. Şagirdə zəruri olan informasiyanı müstəqil əldə etməyi, onu yenidən işləməyi və düzgün tətbiq etməyi öyrətməlidir.

5. Təlim – tərbiyə sisteminin çevikliyi prinsipi.

Təlim – tərbiyə sisteminin çevikliyi onun real şəraitdə uyğunlaşmaq qabiliyyətinin olmasında öz təzahürünü tapır. İctimai mühitin və şagirdərin dəyişən tələbləri nəzərə alınmaqla, təlim proqramlarının məzmununun, tədris proqramlarının qurulmasının, təlim-tərbiyə prosesinin təşkilinin, pedaqoji texnologiyaların seçilməsinin sistematik təzələnməsi baş verməlidir. Çevik təlim-tərbiyə sistemində daha çox təlimin diferensiallaşmasına, şagirlərin müxtəlif məlumatın işlənməsi və mənimsənilməsi üsullarının nəzərə alınmasına üstünlük verir. Buna nail olmaq üçün müəllim çalışmalıdır ki, hər bir şagirdə fərdi yanaşsın. Təlim-tərbiyə sisteminin çevikliyi bir nəticə olaraq şagirdlərin biliklərin daha çox yaradıcı və prktiki tətbiqinə yönəlməsində öz əksini tapır.

6. Əməkdaşlıq prinsipi.

"Müəllim-şagird" qarşılıqlı münasibətləri sistemində onların hər biri təlim prosesinin gedişində tərəf müqabil kimi iştirak etməlidirlər. Əməkdaşlıq təlim prosesinin kollegial və dinamik şəkildə keçməsində öz əksini tapır. Əgər şagird təlim prosesində müəllimlə bərabər hüqüqlu şəxs kimi çıxış edərsə, bu onun fəaliyyətində yeni bir keyfiyyət yaradır: şagirdin özünə inamı artır, o öz fikrini çatdırmağa qorxmur, öz potensial imkanlarını gerçəkləşdirir. Əməkdaşlıq prinsipi müəllimdən tələb edir ki, o şagirdin qiymətləndirilməsində daha çox dəstəkləyici qiymətlərdən istifadə etsin. Əməkdaşlıq təlim mühitini şagird üçün daha əlverişli edir.

7. Dioloji təlim prinsipi.

Məsələlərin birgə həlli gedişində özününü və qrup üzvlərinin fikirlərini, imkanlarını və təcrübələrini müəyyən edə bilməsi və faydalanması məqsədi ilə hər bir şagirdin müzakirələrdə və qrupun işində iştirakı təmin edilməlidir. Təlim prosesinin bütün şagirdlərin müxtəlif nöqteyi-nəzərlərini və fikirlərini nəzərə almaqla, dialoji təlim tədrisin məzmununu daha da zənginləşdirmək imkanı yaradır, nəticə çıxarma prosesinə təsir edir.

DEMOKRATİKLƏŞDİRMƏ	Təhsil prosesinin demokratikləşdirilməsində maraqlı olan bütün tərəfləri, dövlət strukturları və ictimaiyyət nümayəndələrini (müəllimləri, şagirdləri, valideynləri) təhsil prosesinə fəal iştirak etməyə cəlb etmə deməkdir; tədris müəssisəsinin "şəffaflığı" prinsipinin həyata keçirilməsidir.

HUMANİSTLƏŞDİRMƏ	Təhsilin humanistləşdirilməsi şagirdə münasibətin dəyişməsini nəzərdə tutur, o cümlədən, yaradıcı inkişaf qabiliyyəti və humanist yönümlü şəxsiyyətin formalaşdırılması; əqli və fiziki imkanlarından, öyrənmə qabiliyyətindən asılı olmayaraq şagirdin xasiyyətinə hörmətlə yanaşma;şagirdin qabiliyyət və təmayüllərinin aşkar edilməsi və onların inkişafı üçün şəraitlərin yaradılması.
DİFFERENSİALLAŞDIRMA	Təlimin differensiallaşdırılması şagirdlərin imkanlarının nəzərə alınması ilə qurulur.
FƏRDİLƏŞDİRMƏ	Təhsilin fərdiləşdirilməsi şagirdlərin fərdi maraq və tələbatlarının nəzərə alınmasıdır.
İNTEQRASİYA	Təhsilin inteqrasiyası fənlərin öyrənilməsi zamanı fənlərarası əlaqələrin aşkar edilməsi əsasında qlobal təfəkkürün formalaşdırılmasının vacibliyini nəzərdə tutur.

HUMANİTARLAŞDIRMA	Təhsilin humanitarlaşdırılması şəxsiyyətin yaradıcı inkişaf prosesinin şərti kimi çıxış edir və təhsilin məzmununun formalaşmasına yeni yanaşmanı nəzərdə tutur. Bu ümumbəşəri dəyərlərin yaradılması ilə bağlı fənlərin rolunun artmasını, öz xalqının mədəniyyətinə birləşmə və dünya mədəniyyətinin dəyərləri ilə tanışlığı ifadə edir.

XXI əsrin əsas tendensiyası yüksək texnologiyaların inkişafı, elmi nailiyyətlərin real həyata geniş tətbiqi, cəmiyyətin informasiyalaşdırılmasıdır. Hazırki cəmiyyətdə informasiya texnologiyalarının rolu çox böyükdür və bu gün cəmiyyətin intellektuallaşması prosesində, təhsil sisteminin və mədəniyyətin inkişafında onlar mərkəzi yer tutur. İnsan fəaliyyətinin müxtəlif sahələrinə tətbiqi informasiya texnologiyaları ilə tanışlığın zəruriliyini diktə edir. Təhsil və elm cəmiyyətin informasiyalaşdırılması prosesinin obyektlərindən biridir. İnformasiya texnologiyalarının təhsilə tətbiqi onların düzgün seçilməsini tələb edir. İKT-nin təhsil sahəsinə aktiv tətbiqi mütəxəssis hazırlığının səviyyə və keyfiyyətinin artırılmasına yönəldilməlidir. İKT-nin təhsilə tətbiqi müəyyən məsələnin reallaşmasını müəllimin qarşısına məqsəd qoymalıdır:

- Tələbənin düşüncə tərzinin inkişaf etdirilməsi;
- Bilik, bacarıq və vərdişlərin əldə edilməsi fəaliyyəti insanın bütün növ dərketmə fəaliyyətinin inkişafına kömək etməsi;
- Dərs prosesinin fərdiləşdirilməsi prinsipinin onun tamlığını saxlamaq şərti ilə reallaşdırılması.

İKT-nin təhsilə tətbiqi sahəsindəki bütün nailiyyətlər, telekommunikasiya şəbəkəsinin yaradılması və orada informasiya selinin təmin edilməsi, verilənlər və bilik bazasının yaradılması və müşayət edilməsi, hamısı bir məqsədə İKT-nin təhsil sahəsinə tətbiqinin metodoloji əsasının işlənilməsinə xidmət etməlidir. Hal-hazırda cəmiyyət qarşısında bir məsələ durur- kompyuterin təhsil sistemində düzgün, optimal və ziyansız istifadəsi. Kompyuter texnologiyalı təlim informatika prinsiplərinə əsaslanan və kompyuterlə reallaşan təlimdir. KTT-in ənənəvi təlimindən fərqi kompyuterin dinamik inkişaf edən təlim vasitəsi kimi istifadə edilməsidir. Elektron təhsil sistemi bir çox informasiya texnologiyalarını birləşdirir. Bunlara kompyuter şəbəkələri, noutbuklar, interaktiv sinif lövhələri, planşet kompyuterlər, cib cihazları, internet və s. Daxildir. Kompyuter sadəcə- olaraq elektron dərslik deyil. Bu, dərs, sorğu, arayış, məlumat, ədəbiyyatların, müxtəlif bilik sahələri üzrə verilənlər bazası, iş dəftərlərini özündə birləşdirən bir çantadır. Kompyuter təhsilin keyfiyyətini yüksəltməyə və materialın mənimsəmə sürətini artırmağa, həmçinin kollektiv iş və münasibət üçün yaxşı mühitdir. Kompyuter vasitəsilə tələbələr ümumi tapşırıqları yerinə yetirə bilər və həmçinin müəllimlərdən kömək ala bilərlər. Avropada artıq çoxdandır ki, informasiya texnologiyalarına gənclərin təhsilinin keyfiyyətini artırmaq üçün effektiv vasitə kimi baxırlar. Yeni texnologiyalar düzgün istifadə edildikdə ibtidai, orta, ali təhsilin səviyyəsini

yüksəltməyə və intelektual cəmiyyətin formalaşmasını sürətləndirməyə qadirdir. Baxmayaraq ki, ölkələrin təhsil sistemləri müxtəlifdir, istifadə etdikləri texnologiyalar da fərqlidir.

Yeni qurular təhsildə idrakı inkişafın parametrlərini nəzərə almaq, ona imkan və şərait yaratmaq əsas amil hesab edilir. Təhsili bilavasitə inkişafyönümlü bir proses kimi stimullaşdırmaq əsas vəzifəyə çevirilir. Təhsilin keyfiyyəti, eyni zamanda, rəqabətliliyi zəruri cəhətlər kimi diqqət mərkəzində saxlamalıdır. Təbii ki, keyfiyyət anlayışında şagirdlərin bir şəxsiyyət kimi təhsil prosesində qazanmış olduğu dəyərlər (kompetensiyalar) əhatə olunur. Onlar şagirdin idrakı, hissi və psixomotor fəaliyyətlərinin fonunda bütöv şəxsiyyətin inkişaf səviyyəsini göstərə bilir. Bunlar şagirdlərin qazanmış olduğu və hələ qabiliyyətlər səviyyəsinə çatmayan bilik və bacarıqlarından fərqlənir.

Məktəb həm özünün maddi-texniki bazasına, həm resurslarına, həm də əldə etdiyi nəticələrə görə başqa təhsil müəssisələri ilə müqayisə fonunda irəliləməli, rəqabət xofu onun fəaliyyətini zəiflətməməlidir. "2008-2012"-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması" üzrə Dövlət Proqramı çərçivəsində ölkəmizdə təhsil şəbəkəsi yaradılır. Firkimizcə, bu gün milli təhsil sistemləri üçün ən vacib və ən son dərəcə zəruri olan odur ki, öyrənənlərdə sadəcə oxumaq, yazmaq və hesab vərdişləri yaratmaq, onlara təbiət, sosial və digər elm sahələrindən biliklər verməklə kifayətlənməyərək, vətəndəşlarda heç kəsin, o cümlədən, gələcək nəsillərin hüquq və maraqlarına xələl gətirməkdən özünün, xalqının və ümumən, insanın inkişafına yönələn dərk edilmiş fəal həyat mövqeyi formalaşdırmaq, layiqli yaşayış üçün lazımi qabiliyyət, bacarıq və vərdişlər aşılamaqdır. Başqa sözlə, müasir təhsil sistemi insana özü və təbiətlə ahəngdar yaşamağı öyrətməli, insanı, şəxsiyyəti əsas götürən, təbiətə istiqamətlənsirən dünya görüşü formalaşdırmalıdır.

Təhsilin köməyi ilə davamlı inkişafa nail olmaq müəllim və şagirdlərdən cəmiyyətin inkişafı, onların mövcud dəyərlər və məqsədlər arasındakı ziddiyətlərin üzə çıxarılması məsələlərinin öyrənilməsinə ciddi yanaşmanı tələb edir. Bunlar isə öz növbəsində təhsil almaqla yeni motivasiya yaradır, çünki, təhsil onlara davamlı inkişafı və ona alternativ baxışları qiymətləndirmək, sonra bu görüşlərin həyata keçirilməsində birgə keçirilməsində çalışmaq imkanı verir.

Bu gün hamı aydın görür ki, şagird özününü "təmin obyekti" rolu ilə razılaşmaq istəmir, müəllimin "hər şeyi bilən, bütün suallara doğru cavabı olan, həmişə haqlı olan, bütün mümkün hüquqların yeganə sahibi" olduğuna şübhə ilə yanaşır. Müəllim, marağı olmayan dinləyici qarşısında heç bir fayda verməyən monoloqundan əl çəkərək şagirdin mənafeyini, arzu və istəklərini, bacarıq və qabiliyyətlərini nəzərə almalı, ona yanaşmaq bacarıqları verməli, müasir cəmiyyətdə öz yerini tapmaqda yardımçı olmalı, həyati bacarıqları sərbəst əldə etməyin yollarını öyrətməyə üstünlük verməlidir. Şagirdə güclü informasiya axınından ona lazım olan, onu maraqlandıran məlumatı axtarıb seçməkdə, qarşılaşdığı problemləri həll etməyi bacarmaqda, özünü müstəqil inkişaf etdirə bilən fəal şəxsiyyət kimi formalaşdırmaqda yardımçı olmaq gərəkdir. Müəllim şagirdə nəyin yaxşı, nəyin pis olmasını onun özünün müəyyənləşdirilməsi üçün müvafiq şərait yaratmalı. Həyati vacib məsələlərə onlarda öz münasibətlərinin yaranmasına istiqamət verməli, həyat keşməkeşlərində bələdçi olmalıdır.

Ədəbiyyat

1. Z.Veysova. Fəal / interaktiv təlim.
2. F.Əliyeva, Ü.Məmmədova. Müasir təlim texnologiyaları.

Gular Hasanova

Modern teaching basis

Summary

The article is dedicated to the organization forms of modern teaching, its content, methods and ways, principles and other problems. The main aim of modern teaching is to train the students to modern life, to think independently, to express free opinion, to make a decision, to form critical thoughts and so on. The instructor has to direct the students properly appreciating their personality, education, morals. While using modern teaching methods intellect and thoughts of students develop.

Гюляр Гасанова

Основы современного обучения

Резюме

Статья посвящена формам, содержанию, методу и средствам, принципам и другим вопросам организации современного обучения. Основные задачи современного обучения подготовить студентов к жизни в современном мире, к независимому мышлению, к свободному выражению мысли, принятию решений, формированию критического мышления. Педагог оценивая личность, воспитание, этику студентов, должен правильно их направлять. При использовании современных методов обучения, развивается мышление студентов. Применение таких методов, организация электронных пособий, использование технических средств, фасилитационные способности педагогов, способствуют освоению студентами основ науки.

Rəyçi: Professor G.C.Hüseynzadə

ЛЕЙЛА ВЕЗИРОВА
АГПУ
leyla-v@mail.ru

О СЕМИОЛОГИЧЕСКОЙ ПРИРОДЕ ЯЗЫКА

Açar sözlər: Semialogiya, işarələr sistemi, semiotika, dil, konsepsiya.
Ключевые слова: семиология, знаковая система, семиотика, язык, концепция.
Key words: semiology, sign sistem, semiotics, language, concept.

История лингвистических теорий свидетельствует о том, что всякое явление и всякий факт в языке могут быть достаточно эффективно изучены только при отношении к нему как к знаковому явлению и факту. Если правомерно считать, что сущность языкового статуса любой единицы определяется только с учетом системных особенностей, т.е. система доминирует над каждым отдельным фактом, то и в теоретическом аспекте общее доминирует над частностями. Следовательно, семиологический аспект доминирует над языковым. Отсюда следует, что, изучая языковые факты, нужно всегда иметь в виду их семиологическую природу.

Ф. Де Соссюр, как известно, склонен был рассматривать язык как всего лишь одну из знаковых систем, функционирующих в обществе. Ученый писал: «Язык есть система знаков, выражающих понятия, а следовательно, его можно сравнивать с письменностью, с азбукой для глухонемых, с символическими сигналами и т.д. и т.п.

Он только наиважнейшая из этих систем. Следовательно, можно представить себе науку, изучающую жизнь знаков в рамках жизни общества; такая наука явилась бы частью социальной психологии, а следовательно, и общей психологии; мы назвали бы ее семиологией (от греч. Sēmeîon «знак»). Она должна открыть нам, что такое знаки и какими законами они управляются» (7, 54).

Как отмечал в своей время Р.О.Якобсон, «Я всячески приветствовал развитие семиотики, науки, способной продемонстрировать специфику языка на фоне всех прочих знаковых систем и в то же время обнаружить инварианты, связывающие язык с родственными знаковыми системами»(4, 3).

Действительно, релевантность семиотических идей проявляется, с одной стороны, в возможности дедуктивного экстраполирования общих идей на частные, с другой стороны, в обнаружении инвариантов.

Если в одно время и были споры относительно основоположников семиотики, то сегодня уже ни у кого не вызывает возражения однозначное связывание происхождения этой науки с именем выдающегося американского философа и логика Ч.С.Пирса. Так, Г.Е.Крейдлин и М.А.Кронгауз пишут: «Придумал и саму науку семиотику, и ее название американский ученый Чарльз Сандерс Пирс (1839-1914).

Основные книги и статьи Ч.Пирса были опубликованы после его смерти, так что фактически семиотика как наука появилась только в 30-е годы XX века»(3, 6).

Чтобы до конца разобраться в идеях Ч.С.Пирса, на наш взгляд, совершенно необходимо увязать их с концепцией философской феноменологии в том чистом виде, в каком она представлена в трудах ее создателя Э.Гуссерля. Основными понятиями философии Э.Гуссерля являются понятия «феноменальности» и «интенции». Согласно Э.Гуссерлю, психический опыт субъекта начинается с психического переживания. В структуре психического переживания представлен и сам предмет, и его сущность.

Психические переживания ученый называет феноменами. Следовательно, в философии Э.Гуссерля речь идет о феноменах, понимаемых как то, что является в сознании. По мнению В.А.Канке, «Пожалуй, лаконичнейшее истолкование гуссерлевской философии состоит в ее определении как феноменальности, осваиваемой рефлексивно. Феноменальность предполагает тех субъектов, которым является нечто» (2, 17).

Как отмечает сам Э.Гуссерль, «Все, что доступно нам благодаря рефлексии, имеет одно замечательное общее всем свойство – быть сознанием о чем-то, осознанием чего-либо, или, коррелятивно, быть осознанным – мы говорим об интенциональности. Это сущностная характеристика психической жизни в точном смысле слова и, таким образом, просто неотделима от нее» (1, 65).

Содержание термина *интенциональность* непосредственно связано с его внутренней формой. Термин обозначает *направленность* сознания на объект переживания. Впоследствии стали говорить о когитуме и когитации, интентуме и интенции. Когитум или интентум – это то, на что направлено сознание. Когитация или интенция – это работа самого сознания. Как указывает В.А.Канке, «понятие интенциональности используется едва ли не всеми современными философскими течениями»(2, 18).

Характерно, что труд Ч.С.Пирса «Логические основания теории знаков» начинается с главы, которая называется «Принципы феноменологии». И уже первое предложение этой главы и соответственно книги носит, на наш взгляд, программный и стратегический характер. Ч.С.Пирс указывает: «Фанероскопия [или Феноменология] дает описание фанерона. Под фанероном я имею в виду общую совокупность всего, что так или иначе, в том или ином смысле является наличным (is present to) сознанию, совершенно независимо от того, соответствует ли наличное какой-либо реальной вещи» (5, 6).

Ч.С.Пирс делит основные категории познания на три фундаментальных класса или, как он их называет, модуса бытия: идеи первичности, вторичности и третичности. Первичность, по Пирсу, это понятие бытия или существования, не зависимого ни от чего другого, это «чистое присутствие феномена», не зависящее от апплицированных концептуальных схем и установок. Вторичность – это факт сам по себе, как данность, понимаемый исключительно через отношение к объекту.

Отношение к объекту представляет собой факт, осуществляющий экспансию в реальности в состоянии оппозиции. Третичность – это фактически мир виртуальных ценностей.

Это интеллигибельное измерение реальности, панорама универсалий и законов, сущностей, которые организуют любые множества. Как отмечает Пирс, «Значение всегда, с той или иной степенью успеха, в конечном счете сводит противодействие внешнего к собственной форме. Более того, только в силу выполнения этой функции оно и может быть названо значением. Поэтому я называю данный элемент феномена, или объекта мысли, Троичностью. Последняя есть то, что она есть, благодаря тому, что приписывает качество возможного будущему противодействию» (5, 30).

Согласно Пирсу, мышление носит знаковый характер, оно состоит из знаков. Даже человек является знаком, он должен быть интерпретирован как знак. За пределами знаковой реальности нет вообще мышления. По своей природе, по утверждению Пирса, мышление носит знаковый характер, язык же – публичен. Знаки не тождественны вещам, а представляют их в каком-то их качестве. Говоря об отношениях знака и предмета, который он замещает, Пирс выделил три типа знаков. Первый он назвал *иконическим*.

К иконическим знакам относятся рисунки или фото. Второй тип он назвал *знаками-индексами*, к которым он относит сигналы. Третий тип – это *знаки-символы*, к которым он относит, например, книгу.

Как видим, Пирс дает исчерпывающую характеристику возможным знакам, однако различие между собственно знаком и символом остается неясным. Например, он пишет: «Символ «Символ это» Знак, который конституирован как знак просто, или главным образом благодаря тому факту, что он используется и понимается как таковой – имеет ли привычка его использования и понимания естественный или конвенциональный характер – безотносительно к мотивации, обусловившей его выбор»(5, 96).

Возможно, в методологическом отношении для концепции Пирса, действительно, не важно разграничение мотивированных и немотивированных знаков, которые он называет символами. Может быть, действительно, нерелевантно разграничение мотивированных и немотивированных знаков в пределах единой знаковой системы, например, языка.

Однако такое разграничение, на наш взгляд, релевантно в пределах разных систем. В противном случае само понятие «символа» берется только в одном и ограниченном смысле.

Например, с точки зрения языковой системы и на самом деле категориальная сущность слова может игнорировать разграничение по мотивированности. Как известно, во всех языках наряду с мотивированными словами существуют и немотивированные.

С точки зрения лексико-семантической системы и глобальной системной функции лексического знака это разграничение не является существенным. Важно то, что в системе языка существует некоторое количество знаков, обнаруживающих общность по трем системно релевантным параметрам: по

форме, содержанию и функции. Это обстоятельство делает совершенно несущественным разграничение по мотивированности/немотивированности.

Подобное разграничение становится существенным в абсолютной позиции, т.е. вне каких-то конкретных и единых систем.

Для системы важно системно релевантное, поэтому все, что для системы не является существенным, может быть проигнорировано. Когда же Пирс рассуждает о символах и знаках вообще, то правомерно исходить из критерия мотивации, что и позволяет понять суть символа, как раз и отличающего его от знака. То есть символ, как нечто просвечивающее смыслом, естественным образом отличается от чистого знака как всецело конвенциональной сущности.

Однако, справедливости ради, следует отметить, что Ч.С.Пирс использует термин *знак* как наиболее общее название для таких явлений, как фотография, сигнал (например, указание пальцем) и всякое обозначение мысли. Пирс ссылается на Аристотеля и Бургерсдайка, пытаясь объяснить, что он имеет в виду. При этом он вводит также понятие «тема».

Например, «*Тема* (thema): термин впервые использован в 1635г. Бургерсдайком в его *Логике* для того, «quod intellectui cognoscendum proponi potest». Кажется, он имел в виду как раз то, что Аристотель иногда без особых разъяснений обозначает как *λόγος*, непосредственный (immediate) объект мысли, значение.

Тема обладает природой знака, причем такого, значимый характер которого обусловлен свойством, которое придает ему тот факт, что он будет интерпретирован как знак. Безусловно, что вообще ничто не может быть названо знаком, если не интерпретируется в качестве такового»(5, 96-97).

На такое терминоупотребление обратил внимание Р.О.Якобсон, который в своей знаменитой работе «В поисках сущности языка» пишет следующее: «Первоначально слово “символ” употреблялось в сходном смысле также Соссюром и его учениками, но позже он возражал против употребления этого термина, потому что в традиционном понимании последнего предполагается некоторая естественная связь между означающим и означаемым (например, весы как символ правосудия), и в заметках Соссюра было предложено для условных знаков, входящих в условную знаковую систему, название *сема*, в то время как Пирс использовал термин «сема» для особой, совершенно отличной цели.

Достаточно сопоставить употребление Пирсом термина «символ» с различными значениями слова символизм, чтобы осознать, что здесь имеется опасность досадных двусмысленностей; но за неимением лучшего мы вынуждены сохранить термин, введенный Пирсом»(6, 104).

Здесь мы вынуждены не согласиться и с Р.О.Якобсоном. На наш взгляд, *сохранять термин, введенный Пирсом, только за неимением лучшего* – не совсем верно и методологически не оправданно. Дело в том, что иконические знаки и индексы достаточно четко отличаются от того типа знаков, которые используются в языке. Более того, необходимо, видимо, различать символ как таковой и символическую функцию языкового знака.

Например, весы как символ правосудия реализует одну символическую модель, когда один предмет выступает в чьей-либо системе интерпретации символом другого предмета. В этом случае важно то обстоятельство, что символы такого рода обладают абсолютной ценностью, совершенно не зависящей от системы интерпретирующих координат.

Например, слон в системе ассоциаций, характерных для русской ментальности, остается символом неуклюжести, в то время как для индусов это бесспорный и совершенно очевидный символ грациозности.

Должно быть понятно, что животное слон обладает абсолютным статусом и значимостью, совершенно не зависящими от той или иной национально-ментальной интерпретации.

Вот именно такого рода символы, на наш взгляд, могут группой знаков по отношению к иконам и индексам считаться третьей группой знаков по отношению к иконам и индексам.

Литература

1.Гуссерль Э. Амстердамские доклады. 1992,№3,с.62-80.
2.Канке В.А. Основные философские направленияи концепции науки.Итоги **20** столетия. М.: Логос, 2000, 320с
3. Крейдлин Г.Е., Кронгауз М.А. Семиотика или Азбука общения. М.:Флинта: Наука, 2007,240 с.
4.Мечковская Н.Б. Семиотика: Язык. Природа. Культура. М.:2004,432 с.
5.Пирс Ч.С. Логические основания теории знаков. 2000, 352 с.
6.Семиотика. М.:Радуга, 1983, 636 с.
7.Соссюр Ф.де. Труды по языкознанию. М.:Прогресс, 1977, 696 с.

L.Vəzirova

Dilin semioloji təbiəti haqqında

Xülasə

Semiologiya dilin işarələr sistemini bildirir. Bu termini elmə semiologiyanın banisi olan Ferdinand de Sosyur gətirmişdi. O, hesab edirdi ki, semiologiya işarələr haqda elmdir və əgər insan öz fikrini başqa üsularla çatmaq istəyirsə bu sadəcə şərti xarakteri daşıyır.

Məqalədə dilin semioloji təbiətindən danışılır. Burada tanınmış dilçi və alimlərin bu haqda söylədi fikirlərdən bəhs edilir və bu fikirlər təhlil olunur.

L.Vazirova

On Semiological Nature of Languages

Summary

This article deals with sign system of language which is called as semiology. This term was brought to linguistic by the founder of semiology Ferdinand De Sosyr.

It was considered by him that semiology is a science of signs and a human can to express his thoughts by signs in other way up to him and it is carried only conditional character.

The well-known scientists thoughts on semiological nature of the language are analysed in the article too.

Rəyçi: Professor Mikayıl Cəfərov

SEVİNC BAĞIROVA
ADİU
sevinc.@.mail.ru.

TABELI MÜRƏKKƏB CUMLƏ DAXİLİNDƏ TƏYİN BUDAQ CÜMLƏLƏRİN İŞLƏNMƏSİ
(Azərbaycan və ingilis dilləri materialları əsasnda)

Açar sözlər:cumlə,ingilis dili,azərbaycan dili,təyin.
Ключевые слова:предложение,английский язык, азербайджанский язык, определение.
Key words: sentence,englais,azerbaijany,hepithete.

İctimai həyat yarandığı vaxtdan mürəkkəb və çox cəhətli, dilçilik elminin qarşısında mahiyyətcə aktual həlli baxımından çətin bir sıra problemlər qoymuşdur. Ümumi dilçilik cümlə üzvlərini, cümlə, onun növlərini, yazının əmələ gəlməsi və inkişafını, dilin əmələ gəlməsini və cəmiyyətin inkişafı ilə əlaqədar olaraq onun qanunlarını, dillərin təsnifatını və.s öyrənir. Deməli: "cümlə" problemi də dilçilik elmində araşdırılır və öyrənilir.

Dil haqqında elmin bölmələrindən biri olan qrammatika iki hissədən ibarətdir:

1) Morfologiya
2) Sintaksis

Qrammatikanın məhz cümlə və onun tərkibini öyrənən sahəsi sintaksisdir.

Sintaksis dilçiliyin çox əhəmiyyətli bir sahəsidir. Çünki dilin ən başlıca funksiyası, ünsiyyət vasitəsi olmaq funksiyası da elə sintaksisin vasitəsiylə reallaşır.

Sintaksisin əsas tədqiqat obyekti söz birləşmələrini, söz birləşmələrinin tərkibini, onların növlərini, cümlə və söz birləşməsinin oxşar və fərqli cəhətlərini, cümlənin quruluşunu öyrənməkdən ibarətdir. Məhz buna görədə sintaksisin tədqiq etdiyi sahələrdən biri söz birləşməsi, digəri isə cümlədir.

Bildiyimiz kimi quruluşuna görə cümlə sadə və mürəkkəb olmaqla iki yerə bölünür.

Bir predikatiya mərkəzi olan, cümlə intonasiyası ilə müşayət edilən, hər hansı bir fikri ifadə edən sintaktik konstruksiya sadə cümlə adlanır.

İki və daha artıq predikativ mərkəzi olan, vahid cümlə intonasiyası ilə müşayət edilən, hər hansı bütöv bir fikrin ifadəsinə xidmət edən sintaktik konstruksiyaya isə mürəkkəb cümlə deyilir.

Sadə cümlə sözlərdən, söz birləşmələrindən təşkil olunursa, mürəkkəb cümlə sadə cümlələrdən və onların müxtəlif şəkildə birləşməsindən ibarət olur. Mürəkkəb cümlə tabeli və tabesiz olmaqla iki yerə bölünür.

Bir baş və ya bir neçə budaq cümlədən ibarət olan mürəkkəb cümləyə tabeli mürəkkəb cümlə deyilir. Müasir Azərbaycan dilində olduğu kimi İngilis dilindədə tabeli mürəkkəb cümlənin tərkibinə daxil olan budaq cümlələr muxtəlif qrammatik funksiya daşıyırlar. Onların daşıdığı sintaktik funkusiyalar cümlə üzüvlərinə uyğun gəldiyi üçün məhz bir sıra dilçilər İngilis dilində budaq cümlələri aşağıdakı qruplara ayırmağıda məqsədəuyğun hesab edirlər.

1.Subject clauses.

2. Predicative clauses.
3.Object clauses.
4. Attributive clauses.
5. Adverbial clauses.
1) Adverbial clauses of time.
2) Adverbial clauses of place.
3) Adverbial clauses of cause.
4) Adverbial clauses of purpose.
5) Adverbial clauses of condition.
6) Adverbial clauses of concession.
7) Adverbial clauses of result.
8) Adverbial clauses of monner.
9) Adverbial clauses of comparison.

V. L. Kouşanskaya və bir çox müəlliflər kollektivi " a Grammar of the English Language" – kitabında yuxarıda qeyd olunmuş təsnifata tərzi – hərəkət budaq cümləsinidə əlavə etmişdir.

N. A. Kabrina, E. A. Korneyeva, M. İ. Ossovskaya, K. A. Quzeyeva " an English Grammar" (syntax) əsərində budaq cümlələri daşıdıqları funksiyalara görə üç qrupda cəmləşdirmişlər.

1) Nominal clauses.
2) Attributive clauses.
3) Adverbial clauses.

Bizi bu bölgüde təyin budaq cümləli tabeli mürəkkəb cümlələr maraqlandır-dığından onun üzərində geniş dayanaq.

Tabeli mürəkkəb cümlə tərkibində təyin funksiyası daşıyan budaq cümləyə təyin budaq cümləsi deyilir. Təyin budaq cümləsi baş cümlədə isimlə yaxud əvəzliklə ifadə edilmiş hər hansı üzvə aid olur onu təyin edir. Məsələn:

ıl came into the room uhere
she and my mother uere sitting. (Dickens)

Təyin budaq cümlələri baş cümləyə aşağıdakı vasitələrdən biri ilə bağlanır.

Nisbi əvəzliklərlə: vho, vhose, vhich, that, as.
5) Nisbi zərflərlə: vhen, vhere, hov, vhy.
6) Nisbi that bağlayıcısı ilə. Misallar:

1. Cl dont like girls vho cant hold their tongues, (Black)
2. The cloud vhich came on nove vas like an april cold, as if a bright shover of rain must follou. (efalsvorthy)
3. Clt vas that part that cl did not lik. (voynich)
4. Cln the evening he vent to the seminary, vhere he found montanelli, ... (voynich)
5. Cl dont like the method hov he explained the matter
6. But he could se nou no reason vhy he should not smoke. (London)

Təyin budaq cümlələri sözönü ilə də işlənə bilir. Məsələn:

1) Ue arrived at the house in uhich cl lived. (mougham)
2) The uoman rose: she opened a door, though uhich cl dimly sau a passage. (Bronte)

3) He nou resumed the book uith uhich he had been occcupied before tea.

Təyin budaq cümlələri üç cür olur:

1) Məhdudlaşdırıcı təyin budaq cümlələri (Limiting attributive clauses)

2) Təsviredici təyin budaq cümlələri
(Descriptive attributive clauses)

3)Əlavə təyin budaq cümlələri
(additinal attributive clauses)

Məhdudlaşdırıcı təyin budaq cümlələri təyin olunan sözü mənaca məhdudlaşdırır, dəqiqləşdirir və müəyyənləşdirir. Bu növdən olan təyin budaq cümlələri baş cümləyə üç yolla bağlanır:

1) Nisbi əvəzliklərə (vho, vhich, that)

2) Nisbi zərflərlə (vhen, vhere, hou, vhy)

3) Heç bir bağlayıcı vasitə olmadan, yanaşma yolu ilə

Məhdudlaşdırıcı təyin budaq cümləsi ilə baş cümlə arasında bir qayda olaraq vergül qoyulmur; Məsələn:

1) At first cl did not recognize the person vho called me. (yalsuorthy)

2) As for some alher things vhich vere in his mind at the time, mr. Squires said nothing. (mougham)

3) Cl vell not describe the picture that Strickland shoued me. (mougham)

4) The first dog cl ever had vas called Prince. (Greene)

5) That vas the time vhen thousands of vorkers in the area uere streaming out of plants ... (Carter)

6) At the bureau the officer on duty pointed out the room vhere cain vas vaiting. (Carter)

7) The number she had copied out of the phone book vas 4076 Bank. (Carter)

Məhdudlaşdırıcı təyin budaq cümlələri baş cümləyə ancaq yanaşma üsulu ilə birləşən növünə kontakt budaq cümlələr (contact clauses) deyilir. Təyin budaq cümləsinin bu növü baş cümlə ilə daha sıx əlaqədə olur. Buna görə də baş cümlə ilə budaq cümlə arasında nə fasilə edilir nə də vergül qoyulur; Məsələn:

1)The room ve stood in vas the largest cl d ver seen is a private house ... (Braine)

2)The only person cl ve seen is Rose Vaterford. (maugham)

3)There vas anather thing cl liked in mr. Strickland. (maugham)

4)Clt is one of the best things cl have even done. (Vilde)

İkinci qrupa daxil olan budaq cümlələr, yəni təsviredici təyin budaq cümlələri təyin olunan söz haqqında əlavə məlumat verir. Bu qəbildən olan təyin budaq cümlələri baş cümləyə nisbi əvəzliklərlə, xüsusən "vho" və "vhich" nisbi əvəzliklərlə bağlanır. Məsələn:

1) Cl stepped forvard into the bareness vhich had benn the living room. (Braine)

2) Emily vho thought she kneu him so vell vas alarmed.

Təsviredici təyin budaq cümlələrlə baş cümlə arasında əlaqə nisbətən zəif olur. Buna görə də onun işlənməsi, buraxılması cümlənin ümumi mənasına xələl gətirmir. Məsələn:

7) Tom, vho vas a naughty boy in his childhood, became a serious man.

Təsviredici təyin budaq cümlələri baş cümlədən vergüllə ayrılır.

Davametdirici (Continuative) budaq cümlələridə təsviredici təyin budaq cümlələrinin bir növüdür. Bunlar ele budaq cümlələridir ki, onların tərkibindəki "vho" və "vhich", "and he", "and she", "and it", "and they" ilə əvəz oluna bilər. Məsələn:

1) Cl explained to the lady hov it vas, vho then rang a bell, and called aut, "Villiam"! shov the coffuroom. (Dickens)

B. İlyiş qeyd edir ki, qədim ingilis dilində də təyin budaq cümlələri baş cümləyə nisbi əvəzlik və zərflərlə və ya yanaşma üsulu ilə birləşmişdir. Qədim ingilis dilində mövcud olan budaq cümlələrin bütün növləri orta ingilis dili dövründə də mövcud olmuşdur. Lakin budaq cümlələrin bəzi növlərinə, məsələn xəbər budaq cümləsinə orta ingilis dili dövründə az təsadüf edildiyi halda, təyin cümlələri bu dövürdə çox geniş yayılmışdır.

Sual əvəzlikləri olan "vho", "vhom", "vhose", "vhich" orta ingilis dili dövründə nisbi əvəzliklər kimi işlədilməyə başlanmışdır.

Orta ingilis dili dövrünün sonunda "that" çox geniş yayılmışdır, lakin, müasir ingilis dilində "vh" əvəzliklərinin, xüsusiylə "vho" əvəzliyinin geniş yayılmasının şahidi olduq.

Bununla yanaşı müasir ingilis dilində də "that" ilə baş cümləyə bağlanan təyin budaq cümlələri mövcutdur.

a) All, everything, nothing, something, anything, much, little, fev, əvəzlikləri ilə:

Məsələn: 1) But vhy could he not do all that lis father could have done? (Yalsvorthy).

2) Vas there anybody that cl dont make clear. (C.Dogbe)

b) Üstünlük dərəcəsində olan sifətlər və "the first" sıra sayı ilə; Məsələn:

1) Clt vas the hottest place that cl had ever been in. (G. K. Gorome)

2) Clt is the first really grovn-up party that cl have been inveted to and cl am a little uncomfortable. (Ch. Dickens)

Qeyd etmək lazımdır ki, əgər təyin olunan söz canlıya aiddirsə, əksər hallarda təyin budaq cümləsi "vho" nisbi əvəzliyi ilə başlayır. Əgər təyin olunan söz cansızlara aiddirsə, təyin budaq cümləsi "vhich" nisbi əvəzliyi ilə təqdim olunur; Məsələn:

1) Miss Noylor, vho had gone into the hause, came back. (Yalsvorthy)

2) About room, vhich served for studio, bedroom and sitting room, vas fare and dusty. (Yalsvorthy)

Bundan başqa müasir ingilis dilində əlavə təyin budaq cümlələridə mövcutdur. Əlavə təyin budaq cümlələri mücərrəd isimlə ifadə edilmiş (idea, thought, nevs, question və.s) təyin olunan sözün mənasını açır və onu aydınlaşdırır. Bu qəlibdən olan təyin budaq cümlələri baş cümlədən vergüllə ayrılmır. Onlar baş cümləyə "that" bağlayıcısı (bəzən vhether) və yaxud nisbi əvəzliklər (vho, vhich, vhat) və ya nisbi zərflər (vhere, vhen, vhy, hov) vasitəsiylə birləşir; Məsələn:

1) He had grovn so aceustomed to the idea that she led her ovn life apart from this. (Voynich)

2) Harry vas alarmed at the notion that his friend vas about to leave him. (Thackeray)

3) He vas again tortured by the doubt vhether or not he might venture to meet Antonia at the station. (Yalsvorthy)

Ədəbiyyat:

1.Ə.Dəmirçizadə:Azərbaycan dilinin üslubiyyəti,Bakı.1979 il.
2.İ.Rəhimov:İngilis dilinin praktik grammatikası.”Mffrif” nəşr.Bakı.2001-il.

С.Багирова

Опреде лительные придаточные предложения в составе сложноподчиненного предложение

Резюме

В статье рассматривается определительные придаточные предложения которые употребляется в составе сложноподчиненное предложения в английском и азербайджанском языках и их некоторые аспекты в современном литературном языке.В статье также исследуется координация порядок слов в простых и сложноподчиненных предложениях их роль и значимость в практическом разговорнм речи английского языка и его адекватность в азербайджанском языке. Вданной статье также рассматривается структурно-семанттические модели определительные прдаточные предложения сложноподчиненного предложнния английского и азербайджанского языков.

S.Baguirova

Complex sentence hepithete of subordanite english and azerbaijani

Summary

The article deals with the structural-semantical models of the complex sentense of the hepithete subordanite of English and Azerbaijani fnd their comparisionel analise of theoretical character.The article speaks about the word-order compare with Azerbaijani,also some kinds of simple and sentences of the English language.The article dealse with the structural models of contemporary English and Azerbaijani language and their comparisonal analize of theoretical character.The article is devoted to the investiguation of this situation and serves to the spreading of the syntactico-semantical relation which exists between.

Rəyçi: Nuriyyə Rzayeva
filologiya üzrə fəlsəfə doktoru,dosent

AYBƏNİZ RƏFİYEVA
ADU
aybaniz.a@yahoo.com

ÇALIŞMALAR – XARİCİ DİLİN TƏDRİSİNDƏ VASİTƏ KİMİ

Açar sözlər: Danışıq dili, Fərdi danışıq dili, Metodiki prinsiplər, Aiddo-linqvistik sistemli çalışmalar, eşidib-görmək çalımaları.
Ключевые слова: Диалоговая речь, Монологическая речь, Фраза, Методдический принцип, Систематичность упражнений, Аудио-лингвистический способ, Аудиовизуальный
Key words: Dialogue speech, Monologue speech, Phrase, Methodological principle, Systematicness of the exercises, Audio-lingual method, Audiovisual

Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində xarici dillərin kommunikativ məqsədlə tədrisi və bu məqsəddən irəli gələn vəzifələrin həyata keçirilməsi – şagirdlərə öyrəndikləri xarici dildə ünsiyyət yaratmaq vərdişi və bacarığının aşılanması ilə səciyyələnir. Xarici dillərin tədrisi prosesində əldə edilmiş təcrübə göstərir ki, öyrənilən dil ünsiyyət vasitəsi olmalı və ondan kommunikativ məqsəd üçün istifadə olunmalıdır. Bu xarici dillərin tədrisini şərtləndirən əsas amildir. Xarici dillərin tədrisinin əsas məzmunu və məqsədi şagird şəxsiyyətinin inkişaf etdirilməsi ilə yanaşı, onların linqvistik qabiliyyətlərinin üzə çıxarılmasına, xarici dildə nitq inkişafına böyük maraq və həvəsin yaradılmasına yönəldilməlidir.

Təlimin klassik metodları və yeni texnologiyalar təlimin prinsipləri ilə (tərbiyələndirici, inkişafetdirici, ümumtəhsil və praktik-kommunikativ) vəhdət təşkil etməlidir. Şagirdlərə təlim-tərbiyə prosesində təqdim olunacaq tematik materiallar – insanı əhatə edən mühit, təbiət və cəmiyyət, məişət və həyat tərzi, əşya və hadisələr arasında əlaqə, səbəb və nəticə asılılığı və eləcə də təqdim olunan rəngarəng informasiya – onlarda yaradıcı təfəkkürün, mədəniyyətin, müasir və eyni zamanda milli düşüncə tərzinin formalaşdırılmasına xidmət etməlidir. Nitq nəaliyyətinin tədrisinin həyata keçirilməsinin əsas vasitəsi – çalışmalarıdır.

Qeyd etmək lazımdır ki, çalışmalarda həmişə məqsəd var. Sözsüz ki, hansısa çalışma kənar effekt də verə bilər, yəni elə bir mexanizmlərin inkişafına təsir edə bilər ki, onların formalaşmasına bilavasitə yönəlməmişdir. Bu cür vəziyyəti tədris prosesində istifadə etmək çox vacibdir. Ancaq, hər bir çalışmanın əsas məqsədini təyin etmək daha vacibdir. Çalışma təkcə iş görmə deyil, o, xüsusi formada təşkil olunmalıdır.

Çalışma həmişə hərəkətin yerinə yetirilməsi üsulunun təkmilləşdirilməsinə yönəldilməlidir. Buna görə çalışma hərəkətin dəfələrlə təkrar edilməsini nəzərdə tutmalıdır. Lakin dilin tədrisi zamanı tək bir çalışma, demək olar ki, heç vaxt əsas nəticəyə gətirib çıxarmır. Buna görə də çalışmaların əlaqələnməsi zəruridir.

Hər bir çalışma xüsusi keyfiyyətlərə malikdir. Bu keyfiyyətləri psixoloji, pedaqoji və başqa tərəflərdən xarakterizə etmək olar. Lakin metodiki cəhətdən çox vacibdir ki, hər bir çalışma öz yerində istifadə edilsin, vərdişi və ya onun hansısa bir keyfiyyətini formalaşdırsın, hansısa aralıq məqsədə nail olsun.

Başqa sözlə desək, çalışma adekvat olmalıdır. «Çalışmanın adekvatlığı» metodikanın əsas anlayışlarından biridir. Bu anlayış çalışmanın müəyyən məqsədə çatmaq üçün xidmət etməsinin potensial imkanını göstərir.

Çalışmanın adekvatlığı hər şeydən əvvəl onu göstərir ki, nitq fəaliyyətinin hər bir növü əsasən çalışmaların həmin növdə icra edilməsinə görə mənimsənilir.

Çalışmaların metodik xarakteristikasını dərk etmək və onlardan ən adekvat olanları seçmək bacarığı hələ də mənimsəmə deyil.

Mənimsəmə prosesinin təşkilində çalışmalar sistemi aşağıda göstərilənləri təmin etməlidir:

1) bu ya başqa vərdişin, ya bacarığın xarakterinə uyğun olan lazımi çalışmaların seçimini;

2) çalışmaların lazımi ardıcıllığının təyin edilməsini, ona görə ki, mənimsəmə sistemmiz, qaydasız şəkildə deyil, o, hansısa mərhələdə və təyin olunmuşmetodik prinsiplərdən keçir.

3) materialın yerləşməsini və onun əlaqələnməsini;

4) təyin olunmuş materialların və çalışmaların sistematikliyini;

5) bir-birindən fərqli olan nitq fəaliyyətlərinin bir-biri ilə və öz daxilində düzgün qarşılıqlı əlaqə yaradılmasını.

Çalışmalar sistemi bir neçə üsul vasitəsi ilə yaradılır. Avropa və Amerika metodikalarında, daha geniş yayılan, audiolinqval və audiovizial üsul sistemləri əsas yer tutur.

Audiolinqval üsulun çalışmalar sistemi dörd mənimsəmə mərhələsindən ibarətdir:

1) strukturun istifadə edilməsini göstərən məqsədi ilə dialoq üzərində aparılan iş dialoqun əzbərlənməsi;

2) strukturun şüurlu seçimi və öyrənilmiş strukturla onun tutuşdurulması;

3) imitasiya, əvəzetmə, transformasiya, cümlənin əlavə edilməsi və birləşməsi və sual –cavab çalışmalarında strukturların işlənməsi;

4) sərbəst nitqdə strukturların istifadə edilməsi (məsələn, filmlərin təsviri və şərhi).

Audiovizual üsulun çalışmalar sisteminə gəldikdə isə, o da yuxarıda haqqında danışdığımız audiolinqval üsula oxşayır.

Bu üsulda da dörd mərhələ mövcuddur:

1) filmin şərhinin köməyi ilə materialın təqdimatı;

2) filmin şərhi – onun sonrakı yazılışının kontrolu ilə;

3) məşq etmə (çalışmalar)

4) nitq praktikası (situasiyanın əsasən ilyustrasiya ilə təsviri).

Bu çalışmalar sisteminin çatışmamazlıqları bunlardır.

1. İmitasiyaya çox böyük yer ayrılıb – mənimsəmə buna əsaslanır və bunun nəticəsində əksetdirmə prosesi çox çətinləşir.

2. İntuisiyaya istinad (izahat etdirilmədən), bu da ki, nitq vahidlərinin əksetdirmə zamanı anlayışına zəmanət verir.

3. İlyustrasiyaya daimi istinad, bu da ki, real nitqin inkişafına imkan vermir və əgər bu çalışmaların çox hissəsinin mexanistik olduğunu qeyd etsək, bu sistemin qeyri-mükəmməl olduğunu görərik.

Müasir dövrdə şifahi nitq xarici dil tədrisində təlimin həm məqsədi kimi, həm

də vasitə kimi çıxış edir. Xüsusi ilə bu ilkin mərhələdə böyük əhəmiyyət kəsb edir. Məsələn: şifahi nitq şagirdlərdə dilə qarşı maraq oyatmaq imkanına malikdir. Təlimin ilk iki ili ərzində şagirdlər oxu texnikasına yiyələndiyi zaman, onların yaddaşları həddindən artıq yüklənir və gerilənməyə gətirib çıxardır, bu da öz növbəsində xarici dilə mənfi münasibət yaradır. Yaxın iki-üç şifahi nitq üçün xarakterik olan fraza və on leksik vahid danışıq situasiyası yaratmağa imkan verir və şagirdlərdə xarici dili öyrənərkən özlərində inam hissi yaradır. Əgər təlimin tədrisin ilkin mərhələsində şifahi nitq şagirdlərdə əqli fəaliyyətin tanıma və yadda saxlama kimi inkişaf etdirirsə, sonralar o, şagirdlərdən daha çox əqli aktivlik tələb edir.

Dərslərdə müəyyən problemli situasiyalar yaradılır. Şagirdlər nitqi vəzifənin bir neçə növ həllini tapmalıdırlar, eyni zaman onlar istifadələrindən olan dil vasitələrindən istifadə etməlidirlər. Bu da onların əqli fəaliyyətinin inkişafına xidmət edir. Metodistlərin fikrinə görə təlimin əsasını hər iki növ nitq fəaliyyəti – dialoji və monoloji – nitq təşkil etməlidir, monoloji nitq dialoji nitqi qabaqlamaq şərti ilə. Onlar bu fikri belə əsaslandırırlar: monoloji nitq dialoji nitqdə daha çox məntiqi düşüncəni inkişaf etdirir, səbəb – nəticə əlaqələrini nəzərə almaq imkanı verir.

Şifahi nitq fəaliyyəti başqa nitq fəaliyyətləri növlərindən (oxumaq, yazmaq) şagirdin pisixiki durumu, ünsiyyətə girmək istəyi ilə bağlıdır.

Şagirdin inam hissi nitq vəzifəsinin müvəffəqiyyətlə yerinə yetirilməsindən asılıdır.

Şifahi nitq şəraitində şagird istinadlara əsaslanır, yəni onun həmsöhbəti nitqini başa düşüb düzgün cavab verir. Dialoji nitqin öyrədilməsi zamanı əsasən nitqi çalışmalardan istifadə edilir. Yaxın dialoqa xas olan ştamlarda frazalarla tanışlıq nitq şəraitindən ayrı da aparıla bilər. Bu çalışmaların yerinə yetirilməsində məqsəd dialoqa daxil olan replikalar arasında sıx əlaqələr yaratmaqdır, yəni replikaların funksional əlaqələrini avtomatlaşdırmaqdır. Kontekstdən kənar leksikanın variativliyini təmin etmək olar. Bundan başqa replikaların leksik tərkibinə və qrammatik quruluşuna görə dəyişdirilməsi: material üzrə iş aşağıdakı üç mərhələdən ibarətdir.

Məsələn, dialoqu əzbər öyrənmək, replikaların funksional əlaqələr əsasında kombinə etmək, onları leksik və qrammatik cəhətdən dəyişdirmək. Dialoji birləşmələr tərkibində mənimsənilmiş replikalar, bundan sonra yeni kombinasiyalara daxil edilir. Məqsəd interval əlaqələrin yaranmasıdır. Bu növ çalışmaları hazırlıq çalışmalar adlandırmaq olar.

Çalışmaların istifadə metodikasını aydınlaşdırması və praktik nümunələrlə onlara aydınlıq gətirməsi müəllimin əsas məqsədi olur.

Dilin öyrənilməsində qrammatika da eyni zamanda bir vasitə kimi böyük praktik əhəmiyyətə malikdir. O, qrammatik nitq vərdişlərinin yaradılmasına xidmət edir. Nitq bacarıığı minlərlə nitq hərəkətlərindən, nitq vərdişlərindən ibarətdir ki, bunlar da düşünülmüş təlim prosesi nəticəsində formalaşır. Əvvəllər təlimdə əsasən müəllim fəal olur, şagirdlər isə passiv – müəllim deyil, danışır, izah edir, düşünür, şagirdlər isə əsasən qulaq asır, dinləyir, yadda saxlamağa çalışırdı. Yeni anlayışa əsasən müəllimin də, şagirdin də funksiyaları təlimdə xeyli dəyişir.

Dilin öyrənilməsində eyni zamanda leksik vərdişlərin mürəkkəbliyi onları mənimsəmə prosesində ayrı-ayrı çalışmaların yox, bütöv bir leksik çalışmalar sistemini yerinə yetirilməsini tələb edir. Hər bir çalışma müəyyən bir əməliyyatın

yerinə yetirilməsinə yönəlmiş olmalıdır, əvvəl yerinə yetirilən və sonrakı çahşmalarla sıx üzləşməlidir, strukturu və həcminə görə optimal olmalıdır. Təəssüf ki, sistemlik baxımından çalışmalar yetərincə işlənməyib, lakin buna baxmayaraq aşağıdakı leksik materialın mənimsəməsinə xidmət edən çalışmaları göstərmək olar.

1. Real lüğət ehtiyatını mənimsəməsinə yönəlmiş çalışmalar, potensial lüğət ehtiyatını genişlənməsinə yönəlmiş çalışmalar.
2. Resepsiv leksik (dinləmə, oxuma) reproduktiv (danışmaq, qismən yazı) çalışmaları.
3. Müxtəlif növ leksik vahidlərin mənimsəməsinə yönəlmiş çalışmalar (nitq klişeləri, frazeologizmlər və s.)

Bu çalışmalar öz növbəsində şifahi, yazılı və s., ikidilli, birdilli, kontekst və yaxud kontekstən kənar, ilkin mənimsəməyə xidmət edən, məşq çalışmaları, təkrar və mənimsənilən leksik materialı sistemləşdirən çalışmalar.

İlkin mərhələdə birdilli şifahi kontekstual çalışmalar üstünlük təşkil edir. Onlar müəllimin rəhbərliyi altında xor şəklində sinifdə yerinə yetirilir. Bu mərhələdə əyanilikdən də istifadə etmək tövsiyə edilir.

Orta mərhələdə evdə yerinə yetirilən yazılı çalışmalar üstünlük təşkil edir; fonoqram çalışmalar, kontekst istifadə edən və kontekstdən kənar çalışmalar.

Yuxarı mərhələdə çoxmənalı sözlər üzərində qurulmuş çalışmalara üstünlük verilir, söz entiyyatının genişlənməsinə xidmət edən çalışmalar təlim prosesində böyük yer tutur.

Leksik materialın təkrarlanması məsələsinə gəldikdə, o funksional baxımdan həll edilməlidir. Təkrar zaman baxımından düzgün seçilməlidir.

Təlim zamanı şagirdin başlıca funksiyası işləməkdən, düşünməkdən ibarət olur, müəllimin funksiyası isə öyrətdiyi dilin əsasını, nitq bacarığını və nitq vərdişlərini şagirdlərə düzgün başa salmaq; onların fikri və nitq vərdişlərini şagirdlərə düzgün başa salmaq, onların fikri və əməli fəaliyyətlərini təşkil etməkdir, bu fəaliyyətə istiqamət vermək, ona rəhbərlik etməkdir.

Bu məqsədlə metodistlər çalışmalar sistemi tərtib etməyi tövsiyə edir.

Çalışmalardan istifadə edərkən onun hansı vərdişi formalaşdırdığını aydın təsəvvür etmək lazımdır. Bunun üçün hər növ çalışmanın hansı növbə olmasını bilmək lazımdır. Nitq hazırlığı – şərti nitq çalışmaları, əvəzedici, sual-cavab və başqa cür çalışmalar – öz yerində, yəni təlimin müvafiq mərhələsində, işləndikdə, onlar reproduktiv sonralarsa produktiv nitqin inkişafına gəlib çıxarırlar.

Ədəbiyyat:

1. Ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün ingilis / fransız və alman dillərindən Proqram. Bakı, 2000
2. Qazıyeva M. Səhnə nitqinin linqvistik problemləri. Bakı, 2004
3. Гусейнзаде Г. Обучение речевой коммуникации на иностранном языке. Баку, 2001

Айбениз Рафиева

Упражнения – в качестве средства преподавания иностранного языка

Резюме

В статье говорится о том, чтобы иметь плавную и беглую речь необходимо осознанно использовать фонетические, лексические и грамматические упражнения. В тоже время, в статье указывается на важность правильной стратегии грамматического изучения речи. В работе основательно изучены вопросы формирования сильных навыков и усовершенствования речевых способностей посредством фонетических, лексических и грамматических упражнений об аспектах речи.

Aybaniz Rafiyeva

Exercises as a mean of teaching foreign language

Abstract

This article tells about necessity of using phonetic, lexical and grammatical exercises to have fluent and smooth speech. In the meantime, article indicates the importance of a proper strategy for grammatical speech study. Development and improvement of strong speech skills by means of phonetic, lexical and grammatical speech exercises are thoroughly studied in this work.

Rəyçi: Professor Kamal Dadaşov

MƏLAHƏT MƏHƏRRƏMOVA
Azərbaycan Dillər Universiteti
malahat @mail.ru

SÖZ NİTQ PROSESİNDƏ ƏSAS DİL VAHİDİ KİMİ
(Azərbaycan dili ilə müqayisədə)

Açar sözlər: söz, abstrakt, mücərrəd, alman dili, suffiks, ümumişlək sözlər, metafor.
Key words: a word, abstract, unknown, German language, suffix, common used words, metaphore.
Ключевые слова: слова, абстрактный, отвлеченных, немецкий язык, суффикс, общеупотребительные слова, метафора.

Dilin lüğət tərkibini təşkil edən vasitələrdən birincisi sözdür. Söz ən başlıca dil vahididir və dil vahidi olmaqla səs tərkibi vasitəsi ilə əşyalar, proseslər, hadisələr və onların arasındakı əlaqələr haqqında məfhumu ifadə edir.

Söz leksik, tarixi bir kateqoriyadır və səslər əsasında yaranır. Bütün fonetik, qrammatik və leksik-semantik əlamətlər də bir toplu halında sözdə vəhdətləşir. Söz hamı tərəfindən geniş istifadə olunur. Odur ki, dildə yaranan sözlərin müəyyən bir sistemə tabe olduğunu söyləmək çətindir. Bu, bütün dillərdə, o cümlədən alman dilində də belədir (1, s.176).

Leksik nöqteyi-nəzərdən lüğət tərkibini təşkil edən sözlər F.Veysəllinin "German dilçiliyinə giriş" əsərində aşağıdakı kimi üzvlənir: konkret və abstrak sözlər; peşə ilə bağlı sözlər, sahə terminləri, arxaizmlər, neologizmlər, müstəqil mənalı sözlər, sadə, düzəltmə, mürəkkəb sözlər, sabit və sərbəst söz birləşmələri (1, s. 148-149).

Burada, həmçinin fəal və qeyri-fəal sözləri, dar və geniş mənada işlənən sözləri, ictimai-siyasi sözləri və s.-ni də əlavə etmək olar.

Yuxarıda göstərilən bütün bu üzvlənmə ənənəvi olaraq hər bir dil üçün xarakterikdir. Hər bir dildə həmin sahələrə rast gəlmək mümkündür.

Abstrakt, yəni mücərrəd söz dedikdə buraya yalnız mücərrəd isimlərin aid olduğu nəzərdə tutulur.

Mücərrəd sözlər keyfiyyət, əlamət, vəziyyət və s. anlayışları bildirir. Onun əsas əlamətləri bundan ibarətdir ki, onlar həm şəkilçilərlə, həm də şəkilçi qəbul etmədən də işlənir: Məsələn*: das Volk (xalq), die Angst (qorxu), der Schaf (yuxu), der Haß (nifrət), die Glaube (inam) və s.*

Abstrakt məfhumların şəkilçiləri, əsasən bunlardır; *-heit, -keit, -ung, -nis, -schaft.* Məsələn: *die Freiheit (azadlıq), die Schönheit (gözəllik), die Ewigkeit (əbədiyyət), die Gesehwindigkeit (tezlik, yeyinlik), die Hoffnung (ümid), die Kräftigung (möhkəmlədilmə, möhkəmlətmə), die Erkenntnis (şüur, idrak), das Bedürfnis (tələbat, ehtiyac), die Leidenschaft (meyil, həvəs), die Freundschaft (dostluq) və s.*

Misallardan göründüyü kimi, həmin məfhumlar Azərbaycan dilində də abstraktlıq bildirir və bəziləri söz yaratmada *–lıq, -lik, -luq, -lük; -ma, -mə* şəkilçiləinə uyğun gəlir: insanlıq, savadlılıq, yaxşılıq, gözəllik və s.

Göründüyü kimi, mücərrəd sözlər abstrakt şəkildə keyfiyyət, əlamət, vəziyyət, hərəkət anlayışlarını bildirir, onun əsas əlamətləri bundan ibarətdir ki, onlar sözyaratma prosesində həm sözdüzəldici şəkilçilərlə, həm də şəkilçi qəbul etmədən də işlənir. Mücərrəd sözlərə bəzi hallarda yalnız isimlərdə deyil, başqa nitq hissələrində də təsadüf edilir. Bunu sifətlərdə (məsələn: *traurig-qəmgin, faul-tənbəl, streng-ciddi, sərt*) və fellərdə (*məsələn: denken-fikirləşmək, sich freuen-sevinmək, şadlanmaq, sich ängstigen-qorxmaq, hassen-nifrət etmək*) rast gəlmək olur.

Bunun əsasında da deyə bilərik ki, "mücərrəd leksika" məfhumunu geniş mənada da anlamaq lazımdır. Belə olduqda, mücərrəd leksika konkret leksika ilə qarşılaşdırılır və konkret olaraq hiss üzvləri vasitəsilə qavranılmayan denotat adlar mücərrəd hesab olunur.

Qeyd edək ki, dildə işlənən bir çox sözlər tarixən inkişaf etdikcə mürəkkəb və abstrakt mənalar kəsb edir.

Konkret sözlərə isə aşağıdakıları nümunə göstərmək olar:

das Buch (kitab), der Tisch (stol), der Löffel (qaşıq), der Sfuhl (stul), das Bett (çarpayı), das Bild (şəkil) və s.

Dilin lüğət fonduna daxil olan sözlər öz işlənmə dərəcəsinə görə aktiv (fəal) və passiv (qeyri-fəal) deyə iki qrupa ayrılır.

Aktiv sözlərə gündəlik həyatda da tez-tez rast gəlinir və geniş dairədə işlədilir. Ünsiyyət üçün ən vacib sözlər məhz dilin aktiv ehtiyatını yaradır. Hər bir alman, istərsə də hər bir azərbaycanlı aktiv sözlərdən həmişə istifadə edir, çətinlik çəkmədən bir-birilərini başa düşür.

Dilçilikdə aktiv söz yaradıcılığının iki növü fərqləndirilir: 1) ümumxalq sözlər; 2) müəyyən dialekt və ictimai qruplar tərəfidən məhdud dairədə işlədilən sözlər.

Ümumxalq sözlərə - ümumişlək, danışıq, loru, kitab, poetik və rəsmi sözlər daxildir.

İkinci növə isə - dialektizmlər, peşə-sənət, termin, jarqon sözlər daxildir.

Birinci növə aid olan sözlərə aşağıdakıları nümunə kimi verə bilərik: *das Brot (çörək), der Salz (duz), das Wasser (su), das Essen (yemək, xörək), das Haus (ev), die Tür (qapı), das Fenster (pəncərə), der Teller (boşqab), der Löffel (qaşıq), die Gabel (çəngəl), das Glas (stəkan) və s.*

Ümumişlək sözlər həyatın, insan fəaliyyətinin bütün sahələrində istifadə edilən, gündəlik tələblərə cavab verən, ən zəruri anlayışları ifadə edən sözlərdir.

Ümumişlək sözlər neytral üslubi söz olmaqla geniş yayılmış anlayışları, məfhumları ifadə edir, hamı üçün aydın və anlaşıqlı olur. Ümumişlək sözlər həqiqi məna bildirməklə yanaşı, məcazi mənalarda da işlədilir.

Sözün həqiqi mənası bu və ya digər əşyanı və hadisəni adlandırmaq üçün işlənir. Buna nominativ məna da deyilir. Məcaz isə sözün semantikasından irəli gələn bir hadisə olmaqla, onun əsas mənasından törəyir.

Məcazın yaranmasında çoxmənalılıq əsas şərtdir. Deməli, məcaz əsasən sözlərin çoxmənalılığı nəticəsində yaranmaqla, əsas (həqiqi) mənadan uzaqlaşır. O da məlumdur ki, çoxmənalı sözün ilk mənası həmişə həqiqi, digəri isə ya başqa

mənada işlənir və ya məcazi olur. Fikrimizi bir-iki misalla nəzərə çatdırmaq istərdik: isim, sifət və felə aid bir neçə nümunə göstəririk:

Breite, die: 1. <Ausdrehnung in einer Richtung> die B. eines Brettes, Bandes, eines Flusses, einer Straße; ein Stoff von 90 cm B. // die Fahrbahn hat eine große B., eine B. von 6 Metern. - 2. <geographiche Breite> die Stadt liegt [auf] 50 Grad nordlicher, südlicher B., liegt in unsere Breiten. – 3. <übertr.> um eines Haares B. (beinahe) wäre er gefallen: in epischer, behaglicher (großer) B. erzählen; in die B. gehen (umg; breite Schultern, Hüften bekommen); das ist eine zu sehr in die B. gehende Darstellung (2, s. 125).

dünn: 1. <nicht dick> dünnes Papier; ein dünnes Heft, Kleid; ein dünner Stoff; eine dünne Schicht, Haut, Schale, Nadel, dünne Beine; eine dünne Stelle [im Ärmel] // d. [wie ein Faden] sein; Farbe, Zeim, Kleister, eine Schicht d. auftragen – 2. <nicht dick> dünnes Haar; ein dünner Schleier // das Land ist d. bevölkert; diese Tier-; Vogelart ist hier d. gesät (umg; spärlich vorhanden) – 3. <wässerig gehaltes> dünner Kafee; dünne Brühe, Suppe, Milch. – 4. <schwach> eine dünne Stimme haben; mit einem dünnen Lächeln antworten. – 5. <übertr.> mit jmdm. durch dick und d. gehen (umg: alles mitmachen); das ist [aber] d.! (umg: inhaltsarm) (2, s. 142).

Spuken: 1. <angeblich umherrgeistern, nicht geheuer sein> hier, in diesem Hause scheint es zu s., soll es s.; in diesem Schloß hat es, hat ein Geist gespukt – 2. <übertr.> bei dem spukt`s wohl im Kompf? (umg; er ist nicht ganz normal); dieser Gedanke, dieser Aberglaube spukt (umg; treibt sein Unwesen) noch immer unter den Lenten; der Unbekannte spukt (umg; zeigt sich) schon seit längerer Zeit in der Gegend (2, s. 566).

Hər üç misalın axırıncı mənası məcazda işlədilmişdir.

Yeri gəlmişkən, onu da qeyd edim ki, "almanca-azərbaycanca məcazi məna bildirən sözlər lüğəti tərtib edib çap etdirmişəm. orada hər bir sözün məcazi mənası öz əksini tapmışdır.

Müasir alman dilində məcazın iki növü fərqləndirilir: poetik metafora və leksik metafora (s. 129).

Poetik metafora leksik metafora kimi təsirlidir, ifadəlidir və incə məna çalarları yaradır. Məsələn: die Flamme (alov, atəş), die Liebe (eşq, məhəbbət), ein Strom von Erinnerungen (3, s. 129)

Poetik metafora sözlərin yeni mənasını yaratmır, o, ancaq üslubi məqsədə xidmət edir, müəllifə öz fikrini təsirli, rəngarəng, ifadəli etməyə kömək edir. Fridirch Şillerdən bir misal gətirək:

Und geheimnißvoll über dem Kühnen Schurmmer.
Schließt sich der Rachen.

"der Rachen" sözü həqiqi mənada heyvanlarda *"ağız"* məfhumunu bildirir.

Gətirdiyimiz misalda isə həmin söz məcazda işlədilərək *"su burulğanı"* mənası kimi ifadə olunur.

Leksik metafora poetik metaforaya nisbətən bir neçə növdə yarana bilir.

1. Formanın oxşarlığı
2. Rəng oxşarlığı
3. Daxili əlamətin, keyfiyyətin oxşarlığı
4. Səma cisimlərinin adları

5. Təbiət hadisələrinin adları
6. Müəyyən heyvan adlarının məcazlığı
7. Müəyyən quş adlarının məcazlığı və s.

Məcazi məna bildirən sözlərə aid bir neçə missal göstərək:

1. İsimlərdə məcazlaşma:

əsas məna	**məcazi məna**	
die Grille	*qarışqa*	*şıltaqlıq; naz, tərslik*
das Gift	*zəhər, ağu*	*qəzəb, kin*
die Abfahrt	*getmə, yoladüşmə*	*əcəl, ölüm*
der Abschied	*vidalaşma, ayrılma*	*istefa*
die Beleuchtungişıq	*landırma*	*aydınlaşdırma*
der Bezirk	*rayon*	*sərhəd, hüdud*
der Flor	*flor (parça növü)*	*pərdə, örtük*
das Gewürm	*1) sürünən heyvanlar;*	*nacins*
	2) qurd, soxulcan	

2. Sifətlərdə məcazlaşma:

abwesend	*qaib*	*fikirli, fikri dağınıq*
beschwingt	*qanadlı*	*ruhlanmış, qanadlanmış*
gällig	*ödlü*	*tündməcaz, tez özündən çıxan*
gerade	*təmizürəkli, safürəkli*	*namuslu*
gerissen	*cırıq*	*bic, çoxbilmiş*
geschwollen	*şişmiş, köpmüş ibarəli,*	*təmtəraqlı*
gewichtig	*ağır*	*qiymətli, tutarlı, mötəbər*
goldig	*qızılı, qızılrəngli*	*əziz, sevimli*

3.Fellərdə məcazlaşma:

abfallen	*düşmək; dəyişdirmək; arıqlamaq*	*payına düşmək*
abhetzen	*ovlamaq*	*təqib etmək*
anstellen	*yanaşı qoymaq; işə götürmək,düzəltmək*	*etmək, vadar etmək*
behexen	*ovsunlamaq, tilsimə salmaq*	*məftun etmək, valeh etmək; yoldan çıxarmaq*
herrschen	*ağalıq etmək*	*hökmranlıq etmək*
herausfühlen	*əlləmək, əli ilə yoxlayıb tapmaq*	*duymaq*

Bəzi sözlər də vardır ki, həm həqiqi, həm də məcazi eyni məna kəsb edir. Məsələn: *aufflammen (alovlanmaq), aufrütteln (silkələmək, çırpmaq), impfen (calaq etmək), zerspringen (çatlamaq, partlamaq) və s.*

Yuxarıda bəhs etdiyimiz danışıq və loru sözlər şifahi leksikanın tərkib hissələridir. Danışıqda işlədilən sözlər ünsiyyət prosesində yaradılır, əsasən də dialoqda və fərdi xarakter daşıyır.

Müasir alman ədəbi dilinin danışıq leksikasında işlənən sözlər çoxdur. Buna misal olaraq aşağıdakı nümunələri göstərmək olar: *der Hauptmacher (başçı), zopfig (köhnəlmiş), die Zitze (məməcik), die Zinke (ətli burun), wiehern (qəhqəhə ilə gülmək), verplempern (korlamaq, israf etmək), verkleistern (ört-basdır etmək, israf etmək); unglünbig (allahsız, allaha inanmayan), umlegen (həbs etmək) və s.*

Qısa olaraq qeyd edək ki, ümumişlək sözləri aşağıdakı kimi qruplaşdırmaq olar: ad bildirənlər, hal və hərəkət bildirənlər, məkan və zaman bildirənlər, əlamət və keyfiyyət bildirənlər, miqdar və qeyri-müəyyən kəmiyyət bildirənlər və s.

Ümumişlək sözlər ümumxalq dili lüğət tərkibinin özəyini təşkil edir və dilin bütün üslublarında işlənir. Bədii əsərin hər bir növündə sadə, aydın, anlaşıqlı işlətmək mümkündür. Bəzən, istər şair, istərsə də yazıçı heç bir bədii-ifadə vasitəsinə müraciət etmədən ümumişlək sözlərdən gözəl lövhələr yarada bilər.

Alman şairi Haynrix Haynenin bir lirik şeirinə fikir verək:

Wenn zwei voneinander scheiden,
So gehen sie sich die Hände,
Und fangen an zu weinen,
Und seufzen ohne Ende.

***

Wir haben micht geweinet,
Wir seufzen nicht Weh and Ach!
Die Tränen and die Seufzer,
Die kamen hintennacht.

Həmin lirik şeiri şair-tərcüməçi Yusif Savalanın tərcüməsində veririk:

Sevənlər ayrılanda
Əl verməz gülə-gülə.
Ah çəkər, gözlərindən
Yaş gələr gilə-gilə.

***

Bu həsrətin qəmindən
Özümüzü saxladıq.
Sonra dözə bilməyib
Hönkür-hönkür ağladıq (5, 66-67).

Göründüyü kimi, bu şeir ümumişlək sözlər əsasında yazılmışdır. H.Hayne bu cür sadə dildə yazdığı şeirdə aydın sözlərlə dərin hisslər ifadə etmişdir. Bununla, o, qüvvətli bədii təsvir yaratmışdır.

Qeyd edək ki, şairin şeirlərinin çoxu gözəl və sadə dildə yazılmışdır. Deməli, spesifik sözlərin yaranması üçün ümumişlək sözlər ən gözəl, əlverişli bir vasitədir.

Ədəbiyyat

1. F. Veysəlli. German dilçiliyinə giriş. Bakı, 2003.
2. Wörter und Wendungen/ Leipzig, 1975.
3. A.İskos, A.Lenkowa, Deutsche Lexikologie. Leningrad, 1970.
4. Almanca-azərbaycanca lüğət. Bakı, 1971.
5. Haynrix Hayne. Şeirlər. Bakı, 2008.

Malahat Maharramova

A word as language item in speech process
(in comparison with Azerbaijan language)
Summary

The presented article deals with lexical items used in speech process in contemporary German language. And here mainly the words which are used in common speech language are paid attention, much spoken about metaphores and abstract words.

Metaphores are widele dealt with, the role of then are shown in noun, adjective and verb. Some examples in German language are shown and their eguivalentsin in azerbaijani language are given as well.

Малахат Магеррамова

Слова в процессе речи как основная языковая единица.
(В сравнении с азербайджанским языком)
Резюме

В статье говорится о лексических единицах используемых в роцессеречи в современном немецком языке. Здесь речь идёт в основном об общеупотребительной лексике, метафорах, абстрактных, отвлечённых словах.

Особое место в статье уделено метафоре, её роли в образовании существительных, прилагательных, глаголов. Дана примеры из немецкого языка и их эквиваленты в азербайджанском языке.

Rəyçi: Professor Sərxan Abdullayev

Fil.e.n. dos. ELŞAD SƏFƏRLİ
Lənkəran Dövlət Universiteti
elshadsafarli@mail.ru
UOT: 8.82

SONETLƏR ÇƏLƏNGİ – "BİR CƏNUB ŞƏHƏRİNDƏ"

Açar sözlər: Sonet, sonetlər çələngi, tac, akrokonstruksiya, akromagistral, transformasiya, atren, terset, sonetoloq.
Key words: sonnet, a wreath of sonnets, crown,acroconstruction, acromagistral, transformation, catren, terset, sonetologist
Кдючевые слова: Сонет, венок сонетов, корона, акроконструкция, акромагистрал, трансформация, катрен, терцет, сонетолог

Məqalədə lirikamızda sonetin formalarından, şəkildəyişmələrindən biri hesab edilən sonetlər çələnginin ilk dəfə "bir cənub şəhərində" – Lənkəranda yaranması, inkişafı, tematika və poetika problemləri araşdırılmışdır. İstedadlı şair Şəkər Aslan Azərbaycan poeziyasında bu formanın ilk yaradıcısı kimi göstərilməklə yanaşı, onun bu sahədə davamlı bir ənənənin əsasını qoyduğu da vurğulanmışdır.

Həmçinin, məqalədə sonetlər çələngi, akrokonstruksiyalar sahəsində eksperiment və yeniliklərin paytaxtda, ədəbi mühitin qaynar məkanında yox, məhz əyalətdə, periferiyalarda meydana gəlməsi səbəbləri də müəyyənləşdirilmişdir.

x x x

1978-ci il... Azərbaycan soneti təcrübəsinə yeni sonetlərin və onun ən mükəmməl poetik formalarından biri olan sonetlər çələnginin gətirilməsi ili...Maraq doğuran hallardan biri odur ki, Abbas Abdulla sözügedən ildə öz sonetlər silsiləsini, Şəkər Aslan və Vaqif Hüseynov isə poeziyamızın tarixində ilk dəfə olararaq sonetin yeni bir şəklini – sonetlər çələngini yaratdılar. Düzdür, bu sahədə ilkinlik Şəkər Aslana məxsusdur. Çünki o, 1978-ci ilin fevral ayında yazdığı «Ömrün yayında» adlı ilk sonetlər çələngi ilə bu janrın tarixinə yeni, şanlı bir səhifə yazmış oldu. Və həmin ildə «Azərbaycan» jurnalının 11-ci sayında [1, s.136-141] dərc edilmişdir. Belə bir yeni janrın poeziyamızda yaranması, əlbəttə ki, böyük bir maraq kəsb etməli idi. Beləliklə, bir cənub şəhərində – Lənkəranda poeziya aləminə göz açan sonetlər çələngi Azərbaycan şeiri üfüqlərində səs-səda yaratmış oldu. Ilk çələngin uğurundan və əks-sədasından ruhlanan şair bir il keçəndən sonra – 1979-cu ildə «Azərbaycan» adlı ikinci sonetlər çələngini yazdı və 1980-ci ildə «Ulduz» jurnalının 4-cü sayında [2,s. 22-24] çap etdirdi. 1978-ci ildə, eyni zamanda Ş.Aslanın həmyerliysi, istedadlı şair Vaqif Hüseynov «İnsan» sonetlər çələngini yazır.

Vaqif Hüseynovun «İnsan» sonetlər çələngi onun ölümündən sonra 1996-cı ildə «Dünya» nəşriyyatında çap edilmiş «Vətən, sənə borcum qaldı» kitabında dərc edilmişdir. Bu sənət uğurunun davamı kimi o, «Lənkəran» adlı sonetlər çələngini

yazır. Bu çələngin altında onun yazılma tarixi qeyd edilməsə də, əsərin Azərbaycanda Sovet hakimiyyətinin qurulmasının 60 illiyi münasibətilə yazılmasından ehtimal etmək olar ki, 1980-ci ildə yazılmışdır. Bu tarixi ehtimal olunan tarix kimi ona görə qeyl edirik ki, əsər ithaf olunduğu tarixi hadisəyə görə yarım il, yaxud bir il qabaq da yazıla bilərdi. Tədqiqatçı H.Həşimli də çələngin yazılma tarixini 1980-ci il kimi qəbul edir və biz də bu tarixi daha məqbul hesab edirik. «Lənkəran» sonetlər çələngini bu janrın Azərbaycan poeziyasında ilk yaradıcısı olan Şəkər Aslana itaf etməklə, bu janrın ilk nümunəsinin sahibinə özünün poetik ehtiramını göstərməklə yanaşı, həm də artıq bu sahədə yaradılmış ənənənin dayanmayacağını, davam etdiriləcəyinə böyük bir inam hissini ifadə etmiş oldu.

Maraqlıdır ki, V.Hüseynovun «İnsan»adlı ilk sonetlər çələngi 1983-cü ildə «Yazıçı» nəşriyyatında çap edilən «Dəniz çağırır» adlı ilk şeirlər kitabında deyil, ölümündən sonra çap edilən ikinci kitabında dərc edilmişdir. Şair görünür, bu janrın ilk yaradıcısına dərin ehtiramına və məlum tarixi hadisəinin əlamətdarlığına görə ilk kitabında «Lənkəran» sonetlər çələnginin çapını daha məqsədəuyğun hesab etmişdir.

Bir cəhəti də qeyd etmək lazımdır ki, Azərbaycan soneti xüsusi bir mərhələ kimi 1978-1979-cu illərdə məhz çiçəklənmə dövrü keçirmişdir. Belə ki, bu illərdə A.Babayevdən sonra Ş.Aslan, V.Hüseynov, Abbasağa, S.Mustafa, A.Abdulla və M.Faiq kimi sonetçilər qələmlərini sınamışlar. Bu dövrü sonetin Azərbaycanda geniş şəkildə ilk kütləviləşmə dövrü kimi xarakterizə etmək olar.

Şəkər Aslanın məlum iki sonetlər çələngindən sonra bu sahədə işinin davamını görməsək də, Vaqif Hüseynovun isə yaradıcılığında bu ənənəni sonralar da davam etdirməsi barədə elmi mənbələrdə, araşdırmalarda məlumatlara rast gəlirik. Belə ki, görkəmli ədəbiyyatşünas alim S.Əsədullayev V.Hüseynovun arxivində «Məhəbbət əyləncə deyil» adlı bir sonetlər çələnginin də mövcudluğundan məlumat verir. Həmin çələngin də 1978-ci ildə yazıldığı göstərilir. Biz araşdırma zamanı şairin qızı, ədəbiyyatçı Xalidə Hüseynova ilə əlaqə saxladıq. Və şairin belə bir sonetlər çələnginin və çap edilməmiş bir neçə sonetinin də olduğu haqqında dəqiq məlumat əldə edə bildik. S.Əsədullayevin qeydi də X.Hüseynovanın məlumatına əsaslanır.

Şəkər Aslan bir daha sonetlər çələngi yazmasa da, o, müstəqil, ayrıca sonetlər yazmağa başlayır və bu işin bəhrəsi kimi onun 1991-ci ildə «Yazıçı» nəşriyyatında çap edilən «Evə məktub» kitabında «Lənkəran sonetləri» adlı sonetlər silsiləsi verilmişdir. Bu sonetlər silsiləsi 1987-ci ildə yazılmağa başlandığı ilk sonetindən (konkret hansı tarixdən yazıldığı bəlli olmur) və 29 iyun 1987-ci il tarixində başa vurulduğu sonuncu sonetin altında yazılan tarixdən məlum olur. Və bu tarix həm də Ş.Aslanın sonet yaradıcılığında son nöqtədir.

Sonetlər çələnginin mövcudluğu Azərbaycan poeziyasında nadir bir hadisədir və bu poetik hadisəinin Lənkəranda – «Bir cənub şəhərində» təzahürü də məsələnin maraq doğuran digər bir tərəfidir. Məsələnin maraq doğuran bu digər tərəfi ilə bağlı müəyyən qədər suallar da doğur. Bu suallardan biri ondan ibarətdir ki, Lənkəran sonetçilərinin əksəriyyətinin yaradıcılığında – Ş.Aslan, V.Hüseynov başda olmaqla (təkcə bu sətirlərin müəllifi - E.Səfərlinin sonet yaradıcılığı istisna olmaqla) niyə ayrı-ayrı, müstəqil sonetlər yaradılmadan birbaşa sonetlər çələngi yaradılmışdır. Bu ədəbi faktın özü, ibtidaidən aliyə, sadədən mürəkkəb gedən dialektik inkişafın əzəli

prinsipinin Lənkəran sonetçilərinin yaradıcılığında görünməmiş inkarı deyilmi? Çünki, axı sonetlər çələngi janr xüsusiyyətlərinə görə daha mürəkkəb struktura, daha mürəkkəb poetik kanonlara, gözlənilməsi mütləq və vacib olan prinsiplərə malikdir. Ayrı-ayrı, müstəqil sonetlər yazmadan, təkmilləşmədən, müəyyən qədər təcrübə toplamadan, janrın ilkin, sadə növlərində heç bir nümunəyə malik olmadan, sonet nəzəriyyəsindən, poetikasından bixəbər ola-ola belə bir mürəkkəb, ciddi sahədə qələm sınamaq böyük bir poetik hünərin, cəsarətin göstəricisi deyilmi? Avropa sonetçilərinin yaradıcılığında bu böyük hünər, cəsarət yaratmış olduqları kamil poetik örnəklərdə onların güclü sənətkarlıq, yüksək bədiilik, kamil məzmun-forma, obrazlılıq və digər keyfiyyətlərilə şərtlənir. Bəs görəsən, Lənkəran şairlərinin sonetlər çələngləri bu deyilən sənətkarlıq keyfiyyətlərini özündə ehtiva edirmi? Dünya sonet təcrübəsindən o da bizə məlumdur ki, ən məşhur sonetçilərin bir qismi bu janrın ustaları ola-ola bütün yaradıcılıqları boyu ya ayrı-ayrı sonetlər yazmış – A.Dante, F.Petrarka, İ.Bunin, A.Puşkin, P.Ronsar,V.Şekspir, İ.Bexer, M.Kuzmin, İ.Severyanin, L.Qrossman kimi bəlkə də sonetlər çələngi yazmağa özlərində poetik hünər tapmamış, digər bir qismi isə buna görə bu sahədə, yalnız böyük təcrübə toplayaraq V.Bryusov, K.Balmont, V.İvanov, V.Solouxin, İ.Selvinski, M.Voloşin və digərləri kimi ayrı-ayrı sonetlər yazmaqla, təkmilləşdikdən sonra sonetlər çələngi yazmışlar. Qeyd edək ki, bəzi tədqiqatçılar F.Petrarkanın sonetlər çələngi yazmasını inkar etsələr də, sonetoloq V.Q.Melentyev isə bu formanın dahi italyan şairinə bəlli olduğunu, hətta çələngin magistral sonetində akrokonstruksiyanı (akromagistral) tətbiq etdiyini vurğulamışdır [3, s.5].

Elmi cavab tələb edən suallardan biri isə Ş.Aslan, Abbasağa, A.Abdulla, S.Mustafa yaradıcılığında ayrıca sonet kimi yazılan nümunələrin müstəqil sonet kimi yox, sonetlər silsiləsi şəklində çapı məsələsidir. Bu hal da bizcə, tədqiqatçıları düşündürməlidir.

Aşağıda çalışacağıq ki, bir forma kimi sonetlər çələngi, müstəqil sonetlər haqqında və yuxarıda qeyd etdiyimiz maraq doğüran suallara imkanlarımız çərçivəsində münasibət bildirək. Düzdür, sonetlər çələngi haqqında tanınmış rus alimi O.İ.Fedotov [4,s.402-410], Azərbaycan alimlərindən S.Əsədullayev[5,s.52-60],H.Həşimlinin monoqrafiya və məqalələrində[6,s.25-28] müəyyən qədər elmi-nəzəri təsəvvür öz əksini tapır. Lakin biz deyilən fikirləri təzədən şərh etməklə lüzumsuz təkrarçılığa yol vermək istəmirik. Amma özümüzün də bu və digər qeyd etdiyimiz suallara cavab, aydınlıq gətirə biləcək müəyyən qədər qənaətlərə malik olduğumuzu düşünür,buna görə də tədqiq-təhlil zamanı doğan suallar ətrafında söyləyəcəyimiz fikirlərin əhəmiyyətsiz olmayacağını və bu mənada həmin məsələlərə münasibət bildirməyi məqsədəmüvafiq hesab edirik.

Bir məsələyə isə elə əvvəlcədən münasibət bildirmək istəyirik. Bu sonetlər çələnginin və akrokonstruksiyalar sahəsində yeniliklərin şəhərdə, ədəbi mühitin qaynar məkanında yox, əyalətlərdə, periferiyalarda meydana gəlməsi ilə bağlıdır. Maraqlıdır ki, sonet müəyyən qədər şəhər ədəbi mühitində inkişaf dövrü keçirdikdən sonra onda elə bil ki, susqunluq mərhələsi başlayır. Bu təbii ki, janrın yüksəliş və eniş xüsusiyyətləri ilə bağlıdır. Bu hal təkcə Azərbaycan soneti üçün yox, ümumilikdə dünya sonet təcrübəsinə xas olan bir əlamətdir. Və Azərbaycan sonetinin A.Babayevdən sonrakı nisbətən qısa durğunluq dövründə sonetin bölgələrə doğru yerdəyişməsi, xüsusən Lənkəranda peyda olması hadisəsi baş vermişdir. Və bu vaxt

maraq kəsb edən cəhət ondan ibarətdir ki, mərkəzdə sonet janrı sahəsində mövcud olmayan yeni poetik bir forma - sonetlər çələngi əyalətdə meydana gəlir. Sonra isə janrın akrostix və akrokonstruksiyalar sahəsində yenilikləri də məhz burada intişar tapır. Yuxarıda qeyd etdiyimiz kimi Avropa təcrübəsində bu hala təsadüf etmək mümkündür. Ədəbiyyatşınas-alim T.Andreyuşkina «Alman soneti: janrın təkamülü» doktorluq dissertasiyasının avtoreferatında sonetin inkişaf mərhələləri ilə bağlı yazır: «Второй этап включает в себя XVIII в. Как время перемешения сонета из центра на периферию литературы эпохи Просвещения и временное угасание интереса к жанру, которое в конце века род влиянием штормеров и романтиков сменяется возрождением сонета на немецкой почве» □7, s.9□. Sitatda analoji prosesin Avropa sonetistikasında da özünü büruzə verməsi faktı ədəbi hadisənin sonet təcrübəsində hardasa ümumi köklərə malik olmasından soraq verir. Lakin bu ümumi ortaq səbəbin nədən ibarət olması haqqında məlumata isə nə T.Andreyuşkina, nə digərlərinin, həmçinin Azərbaycan sonetoloqları; S.Əsədullayev və H.Həşimlinin də monoqrafiyalarında təsadüf etmədik.

İkinci maraqlı cəhət isə sonet sahəsində eksperiment və yeniliklərin də çox vaxt əyalət nümunələrində meydana gəlməsi amili ilə bağlıdır. Sonetlər çələnginin, akrostix, kodalı akrostix, «sonet haqqında sonet», digər akrostix konstruksiyaların və eksperimentlərin ilk dəfə olaraq əyalət şəhərində – Lənkəranda sonet strukturunda işlədilməsi artıq məlum faktdır. Belə bir hal dünya sonet təcrübəsində, xüsusilə rus sonetində çoxdan mövcuddur. Rus sonetoloqu P.Kovalyova müraciət edək: «Экспериментированием над сонетом занимаются не только столичные, но и провинциальные поэты. Так, у орловского автора В.Йермакова можно найти несколько сонетов, выпольненных по трансформированной франко-итальянской модели…» □8, s.5□. Sitatda göstərilən ədəbi fakt və Azərbaycan əyalət sonetində analoji mənzərənin mövcudluğu, əsasən reminissensiya xarakterlidir, yaranma səbəbləri bizcə, əyalətlərdə sonetə daha həssas münasibətin, janrın poetikasına dərindən bələdliyin və bu sahədə yeniliklər etmək üçün aparılan səmərəli yaradıcılıq axtarışlarının nəticəsidir deməyə əsas verir. Hər halda hesab edirik ki, gəcələkdə aparılacaq tədqiqatlar bu sahədə bir sıra suallara da aydınlıq gətirəcəkdir.

Sonetlər çələngi sonet janrının bütün formal əlamətlərini özündə ehtiva edən bir növü, bir forması kimi yaransa da, əslində janrın özündən daha geniş süjet-kompozisiya quruluşuna, strofik prinsiplərə, fərqli forma, ideya-bədii və sənətkarlıq xüsusiyyətlərinə malikdir. Mükəmməl poetik forma kimi sonetlər çələngi çox mürəkkəb struktur göstəricilərinin daşıyıcısıdır, eyni zamanda janrın klassik, normativ poetika qanunlarına, estetik tələb və prinsiplərinə ciddi riayət edilməsini tələb edir. Sonet estetikasının kanonik qaydalarını gözləmək baxımından bu formaya müəyyən qədər mühafizəkarlıq, konservatizm xasdır. Paradoksal görünsə də, bu poetik formanın maraq kəsb edən cəhəti, gözəlliyi, cəlbediciliyi də müəyyən qədər elə onun mühafizəkar formal əlamətlərə malik olmasındadır. Bu mühafizəkarlıq bəzən şairlərə bu formanın hüdudlarında özlərini çox da sərbəst aparmağa imkan vermir. Buna görə də sonetlər çələngi yazmaq sonetçilərdə xüsusi poetik vərdiş, məharət və hünər tələb edir. Burada şairdə elə məharət olmalıdır ki, istifadə etdiyi forma heç də məzmuna üstün gəlməsin. Əks təqdirdə formalizmə

uğramış şeirin ideya-məzmun xüsusiyyətləri sönük təsir bağışlayır və belə nümunə söz yığınına çevrilir.

Sonetlər çələnginin vətəni də İtaliyadır. Bu formanın yaranmasını orta əsrlər dövrünün intibaha keçid mərhələsi ilə, yəni XIII əsrlə bağlayırlar. İlk yaradıcıları italyan şairlərindən Folqore de Can Djeminyano və Vinçenso Monti hesab edilir. Düzdür, tədqiqatçı V.Q.Melentyev biblioqrafik göstəricisində hər iki sonetçinin sonetlər çələngini heç də kamil formada yazmadıqlarını, hətta onların sonetlərinin çələngdə klassik kanonun prinsipləri ilə uzlaşmadığını qeyd edir [3,s.5].

Sonetlər çələngi 15 müstəqil sonetdən ibarət olur. 15-ci sonetə tac sonet, yaxud da magistral sonet deyilir. Bu poetik formanın maraqlı xüsusiyyətlərindən biri ondan ibarətdir ki, əvvəlki 14 sonetin birinci misraları 15-ci sonetdə say ardıcıllığı ilə cəmləşir. Və bu sonetlərin birinci misralarının belə cəmləşməsi nəticəsində 15-ci sonet yaranır. Belə təsəvvür yaranır ki, əslində şair 15 sonet yox, 14 sonet yazır və 14-cü sonetin birinci misrası da daxil olmaqla yalnız əvvəlki sonetlərdəki birinci misraları sıra ardıcıllığı ilə axırda alt-alta düzür, cəmləyir və cəmləmənin nəticəsi kimi 15-ci sonet meydana gəlir. Və bu yolla da sonetlər çələngi yaranmış olur. Lakin məsələ zahiri görüntünün yaratdığı təsəvvürün əksinədir. Belə ki, sonet praktikasında sonetlər çələnginin yaranması prosesin gedişinin əvvəldən-axıra prinsipi ilə deyil, axırdan-əvvələ prinspi ilə baş tutur. Yəni 15-ci sonet əvvəl yazılır, əvvəlki sonetlər isə onun misaraları üzrə ardıcıl olaraq meydana gəlir.

Fikrimizin təsdiqlənməsində bu məqamda bizə ədəbiyyatşünas alim Araz Dadaşzadənin "XVIII əsr Azərbaycan lirikası"nda bir qeydi yardımçı olur. Belə ki, o, sözügedən əsərində XVIII əsr Azərbaycan şairi Məhcur Şirvaninin "Gəl vəqtidir" rədifli şeirini təhlil edərkən diqqəti onun strukturuna yönəldir; 11 misradan, 12 bənddən ibarət şeirin birinci bəndindəki hər misranın növbəti bəndlərin sonunda təkrarlanmasını "nəticədə, bir növ Qərbi Avropada orta əsrlərdə çox işlənən sonetlər çələngi poetik formasına bənzər bir kompozisiya alınır" kimi ifadə etmişdir. Sonra isə sonetlər çələnginin struktur – kompozisiya quruluşu ilə bağlı yazır: "Həmin forma bir – biri ilə bağlı 15 sonetin birləşməsi nəticəsində yaranır. Sonuncu sonet (magistral) əsasdır. Birinci sonet magistralın birinci misrası ilə başlayıb onun ikinci misrası ilə bitir, ikinci sonetin birinci misrası isə birincinin son misrasını təkrarlayır və s. Beləliklə, sonuncu bəndin bütün misraları 14 sonet içərisində əridilir" [9,s.180]. Bu sitatda bizim diqqətimizi daha çox cəlb edən alimin "Beləliklə, sonuncu bəndin (sonuncu sonetin – E.S.) bütün misraları 14 sonet içərisində əridilir " ifadəsidir. Belə ki, müəllifin bu ifadəsində "tac"ın əvvəlki 14 sonetdəki birinci misraların 15-ci sonetdə cəmlənməsilə yox, məhz 15-ci sonetin, yəni "tac"ın əvvəl yazıldığına, onun misralarının əvvəlki sonetlərə paylanması yolu ilə sonetlər çələnginin yaradılmasına bir növ işarə edilir. Həm də sonuncu sonet prosesin gedişində əsas kimi götürülür, daha doğrusu, tac sonetin hər misrası ardıcıllıqla əvvəlki sonetlərin yaradılmasında əsas rolunu oynayır. Bu qənaətlə bir daha sübut olunur ki, sonetlər çələnginin yaranmasında proses əvvəldən sona yox, əksinə, unikal şəkildə, yəni nadir yaradıcılıq hadisəsi, aktı kimi məhz sondan əvvələ doğru aparılır. Əslində bu prosesi sonetlər çələnginin yaradılmasında əvvəldən sona doğru aparmaq heç mümkün də deyil. Buna görə də S.Əsədullayev bu mümkünsüzlüyü nəzərə alaraq K.Balmontun[10,s.440-445] sonetlər çələngi sahəsindəki yaradıcılığı

ilə bağlı məqaləsində yazır: « Можно ли венок сонета начать с первого сонета, а потом собрать все 15 сонетов в корону (магистрал). Что почти невозможно, создаст большие трудности и просто запутает автора. Есть предположение, что поет сначала пишет корону (магистрал), а потом строки его распределяет по отдельным сонетам » [11, s.26]. Tədqiqatçının gəldiyi qənaətin təsdiqində ona alman mütəfəkkiri İ.Bexerin məlum araşdırmasındakı çələnglə bağlı bir qeydi yardımçı olur: « Наши исследования подтверждают, что венок сонетов всегда начинают плести с короной. Что значит, что корона составляется первой, а затем следует сонеты от первого до четырнадцатого … Вместе с тем в композиции венка сонетов заключена и другая интересная проблема искусства, а именно-построение поетического произведения с конца" [12,s.431-432]. Bu sitat yalnız S.Əsədullayevin yox, həm də A.Dadaşzadənin irəli sürdükləri mülahizələrinin bir növ təsdiqidir. Beləliklə, hər üç tədqiqatçının mövqeyini arqumentli və doğru hesab edirik, çünki sonetlər çələnginin ədəbi praktikada bu cür yaradılması danılmaz faktdır və biz bunun şahidiyik.

Belə ki, görkəmli rus sonetisti Maksimilian Voloşin (1878-1932) 1909-cu ilin avqustunda yazdığı «Korona Astralis»(Ulduzlu tac) adlı sonetlər çələngi ilə bunu əyani şəkildə göstərmişdir. Maraqlıdır ki, o, ədəbi təcrübədə mövcud ənənənin əksinə gedərək, 15-ci tac soneti çələngin axırında yox, əvvəlində vermişdir [13,s.338]. Bir növ bu təşəbbüslə o, oxucunu «çaşdırmaq» yolu ilə deyil, sonetlər çələnginin yaranmasında prosesin heç də əvvəldən axıra yox, məhz axırıncı sonetdən başlanmasına işarə edir və buna görə də, axırıncı tac soneti elə əvvəldə verməyi məqsədəuyğun saymışdır. Həmçinin, Voloşin çələngin 14 sonetini sıra ardıcıllığı ilə nömrələmiş, lakin əvvəldə verdiyi 15-ci tac sonetinin sıra nömrəsini göstərməyi isə lazım bilməmişdir.

Tac, yaxud magistral sonet bir növ poetik nüvədir (yadro). Eyni zamanda qüvvələrin cəmləşdiyi mərkəzdir. Bu baxımdan əvvəlki sonetlərin birinci misraları mərkəzdənqaçan qüvvələr kimi səciyyələnir və yaradıcılıq prosesində həmin qüvvələr – «yeraltı çaylar dənizə axdığı» kimi ümumi mərkəzə, yaxud obrazlı desək, yolların qovuşağı olan magistrala can atır. Bu mənada biz axırıncı, 15-ci sonetin magistral sonet adlandırılmasını daha doğru hesab edirik.

Göründüyü kimi, magistral sonetdə təmsil olunan əvvəlki sonetlərin birinci misraları heç də tacın yaradılmasında «pay sahibləri» deyillər. Əslində həmin misralar tacın – karonanın sonetlərdə təmsil olunan «nümayəndələridir». Və hərəsi bir poetik ideyanın mənsub olduğu sonetdə açılışına xidmət edən funksiyanın daşıyıcısı rolundadır. «Yerlərdə» müəllif ideyasının hərtərəfli, çoxistiqamətli açılışı yönümündə öz poetik funksiyalarını yerinə yetirdikdən sonra, tacda əvvəlki yerlərinə qayıdır və bu prosesi tacda təzədən təmsilolunma– mərkəzdənqaçan qüvvələrin mərkəzə dönməsi, başlanğıc mövqeyinə qayıdışı kimi də xarakterizə etmək olar. Həmin misralara «tac»da vəhdət tapmış tamın sonetlərdə – hissələrdə təzahürü, tamın təkdə ifadəsi kimi də baxmaq olar. Çünki sonetlər çələngində dialektik əlaqə – ümuminin təkə, təkin ümumiyə olan münasibətilə şərtlənir.

Sonetlər çələngində poetik fikrin inkişafı baxımından birinci soneti magistral sonetlə bağlayan süjet xətti mövcuddur. Hər bir müstəqil sonetin strükturdaxili dinamik inkişaf xətləri də ümumi süjet xəttinə birləşir və bu bağlılıqda zəncirdəki mühüm həlqələr kimi təzahür edir. Əgər hər bir müstəqil sonetin ifadə komponetləri

sırasına gərgin kontrastlar, bədii təzadlar xasdırsa, sonetlər çələnginin ümumi ansamblında isə kəmiyyət etibarı ilə bədii təzadların böyük bir silsiləsinə təsadüf etmək olar. Dram əsərlərinə məxsus kompozisiya quruluşuna malik xüsusiyyətlərin, xüsusən tezis+inkişaf+antiteza=sintez nəzəriyyəsinin sonetlər çələngində tətbiqi poetik fikrin, hadisə, obrazın əhvali-ruhiyyəsinin ifadəsində emosionallığın, dramatizmin güclənməsini, bədii dilin ekspressivliyinin artmasını təmin edir. Zəncirin hər bir həlqəsində katrenlər və tersetlərarası məzmun-məna bağlılığı, ümumi poetik ideyanın sintezini şərtləndirdiyi kimi, hər bir sonetin formaca da bütövlüyünü təmin edir. Və hər bir sonetin axırıncı misrası ideya-məzmunun açılışında mənsub olduğu həlqədə mühüm rol oynamaqnan yanaşı, həm də növbəti sonetin birinci misrası kimi çıxış edir, bu sonetləri məzmunca bir-biri ilə bağlayır və elə bil ki, növbəti sonetin məzmun davamını təmin edir. Bu proses magistral sonetə qədər eyni qaydada, zəncirvari bağlılıqla həyata keçirilir. Nəticədə, müəllifin tac sonetdə öz yüksək ifadəsini tapan poetik ideyası, qayəsi çələngin məna-məzmun bütövlüyünü təmin etdiyi kimi, onun süjet-kompozisiya bütövlüyünü də adekvat olaraq şərtləndirir. Sonetlər çələngində lirik poemalara mənsub poetik elementlərin və süjet ünsürlərinin mövcudluğu bu şeir formasına poema kimi yanaşanların fikirlərini də təsdiqləyir. Çünki sonetlər çələngi ideya-bədii, süjet-kompozisiya xüsusiyyətlərinə və mövzunun xarakterinə görə poema janrının tələblərinə də cavab verir. Məhz bu aspektdən bəzi rus sonetçiləri öz sonetlər çələnglərini cəsarətlə poema adlandırmışlar. Bu tendensiyanın, əlbəttə ki, müəyyən səbəbləri var idi. Belə ki, yaradıcılıq yolunun əvvəlindən dünyanın epik qavrayışına və ifadəsinə daha çox meylli olan istedadlı şair İlya Selvinski buna görə də üstünlük verdiyi xeyli böyük həcmli poetik formaları həvəslə sonetlər çələngində eksperimentdən, sınaqdan keçirtmişdir. O, M.L.Qasparovun da qeyd etdiyi kimi " sonetlər çələnginin semantik məna tutumunun genişləndirilməsi yolu ilə onu lirik yox, olduqca epik ehtiyaclar üçün uyğunlaşdırmaqla tamın eynilik elementlərindən imtina etmiş, yeknəsəqliyi qəbul etməmiş və sonetin ənənəvi olmayan formalarından geniş istifadə etməyə çalışmışdır [14, s.218]. Nəticədə, yaradılan bu tipli sonetlər çələngi lirik silsilədən çox, poemanı xatırladır " [15,s.406]. İ.Selvinski bu amildən bəzi sonetlər çələngini poema adlandırırdı. Heç təsadüfi deyildir ki, şair Ş.Aslan da «Evə məktub» kitabında məlum iki sonetlər çələngini «poemalar» başlığı altında vermişdir.

«Sonetlər çələngi» maksimum yığcamlıq sevən, poetik predmet kimi yalnız mühüm, tipik detalların seçilməsini, məcazlar sistemindən istifadədə müəyyən tələbləri gözləməyi, kompozisiya və qafiyə quruluşuna riayət etməyi, poetik ideyanın ifadəsində ümumiləşməyə xüsusi diqqət yetirməyi, bədii dilin, üslubun ciddi, dəqiq, aydın və səmimi olmağını tələb edən bütöv poetik formadır. Sonetlər çələngində sonetlər biri-biri ilə zəncirvari, həlqələr şəklində birləşir və bu zəncirvarilik bütün başqa cəhətləri də özü ilə çəkib gətirir, canlı bir aləm yaradır. O, hər cür söz oyununu, quru mühakiməni, obrazlılıqdan süni istifadə, didaktika və nəsihətçilik hallarını inkar edir. Bu mənada Şəkər Aslanın sonetlər çələnginin quruluşu ilə bağlı bir qeydi maraqlıdır: «Əlbəttə, bu quruluş şərdə oyunbazlıq etməyə, sözçülüyə yol verməyə, məzmunu unutmağa heç bir haqq vermir» □16, s.4□. Gətirdiyimiz sitat sonetlər çələnginin necə qayda-qanunlara malik bir forma olduğu haqqda təsəvvürlərimizin bir növ təsdiqidir.

Ədəbiyyat

1. Aslan Ş. Ömrün yayında (sonetlər çələngi)// Azərbaycan, Bakı, 1978,№11, s. 136-141
2. Aslan Ş. Azərbaycan (sonetlər çələngi) // Ulduz, 1980, №4, s.22-24
3. Мелентив Г.В. Венок сонетов: Библиографический указатель – Сараиск, 1988, - с.5
4. Федотов О. И. Основы русского стихосложения. Теория и история русского стиха. Кн. 2: Строфика. – М. : Флинта: Наука, 2002. 488 с.
5. Əsədullayev S.Q. Azərbaycan poeziyasında sonet janrı. Bakı: Mütərcim, 2002, 68s.
6. Həşimli H. Azərbaycan poeziyasında sonet və terset. Bakı:Elm, 2003, 312 s.
7. Андреюшнина Т.Н. Немецкий сонет: эволюция жанра. Автореф. дисс. на соиск. док. фил. и. М. : 2008, 32 с.
8. Ковалев П.А. Русский сонет и новая поэтическая традиция. Орловский государственный университет. Вестник ВГУ. Серия: Филилогия. Журналистика. 2008, №2
9. Dadaşzadə A. XVIII əsr Azərbaycan lirikası. Bakı: Elm, 1980, 228s.
10. Асадуллайев С. Литература и современность. Баку, Мутаржим, 2009, 142 с.
11. Бальмонт К.Д. Светлый час. М.: Изд. «Республика», 1992, 590 с.
12. Бехер И. Р. Философия сонета, или малос наставление по сонету // о литературе и искусстве. М.: 1981, 408 с.
13. Волошин М.А. Стихотворения и поэмы. Сер. Библиотека поэта. Большая серия. М.: Изд. «Наука», 1995, 704 с.
14. Гаспаров М.Л. Русский стих начала XX века в комментариях. 2-е изд. М.: Фортуна Лимитед. 2001, 288с.
15. Сельвинский И.Избранное Произведения Сер. Библиотека поэта. Большая серия. Л. : Советский писатель. 1972, 958 с.
16. Aslan Ş. Evə məktub.Bakı: Yazıçı, 1991, 206 s.

Safarli Elshad

The wreath of sonnets – “In a southern town”

Summary

The article deals with the wreath of sonnets containing sonnet forms and formchanging and its being created, developed in Lankaran for the first time, the problems of theme and poetry are investigated. Shakar Aslan as the first creator of this form in Azerbaijan poetry in mentioned and his laying a continuous tradition in this fied in stressed.

The reasons of written of sonnets not in the capital but in a region and experiments and innovation in the shere of acroconstructions are defined.

Эльшад Сафарли

Венок сонетов – «В одном южном городе»

Резюме

В статье рассматриваются венок сонетов, считавшийся одним из форм, видо изменений сонета в нашей лирике, который впервые создан «в одном южном городе » - Лянкяране, развитие, тематика и поэтические проблемы этих сонетов.Талантливый поэт Шякар Аслан указан как первосоздатель этой формы. Наряду с этим, в статье освещается заслуга поэта, как основоположник продолжительной традиции в этой области.

Также, в статье определяется причины появления венков сонета, в области акроконструкций експериментов и новшевсть не в столице – в зоне кипящей литературной среде, а в провинции, периферии.

Rəyçi: Professor Əmirxan Xəlilov

KHAMROYEVA ORZIGUL DJALOLOVNA
PhD student of National University of Uzbekistan
azfolklor@yahoo.com

WISDOMS OF KHOJA AKHMAD YASSAVI IN FITRAT WORKS

Açar sözlər: Kolleksiya, m üdriklik, nüsxə, əlyazma, dördlük, ikilik, mətn, nümunə
Key words: Collection, wisdom, copy, manuscript original, quatrain, distich, text, source, sample
Ключевые слова: Коллекция, мудрость, копия, оригинальная рукопись, четверостишие, двустишие, текст, источник, образец

There was important to research art features and authorship of Akhmad Yassavi wisdoms, also researching his creative. Abdurauf Fitrat, one the great scientists of his times, is the first who proceeded to research this issue. We can be witness of serious researches on this issue on the assumption of samples from "Devoni Khikmat", introduced to such articles, as "Akhmad Yassavi" [1, No. 6, pp. 29-3], "Researches on Akhmad Yassavi followers" [2, No. 5-6, pp. 49-52], on collection "Uzbek literature samples" [3, p. 97] by Abdurauf Fitrat. There are many researches in literary on Akhmad Yassavi life and creative work, literal heritage, their rhyme, art scale, Yassavi school poems. Khazrat Alisher Navoi, the conspicuous poet adduced important information on Akhmad Yassavi in his "Nasoim ul-muhabbat". The great thinker characterized Yassavi as "Preceptor of wise men of Turkistan" [5, p. 53]. Especially, during independent years could be observed going up to new level of Yassavi creative researching. Before him, this issue was studied by such leading scientists as Abdurahmon Sa'di, Abdurauf Fitrat, B.Dustkoraev, Ibrohim Hakkul, R.Abdushukurov. Particularly, in article "Who was Akhmad Yassavi" by Abdurahmon Sa'di the Akhmad Yassavi life is at stake and analyzed his wisdoms. By the discussion of language and style of wisdoms, he has been set above Navoi in using Turkic. "It must be admitted openness, simplicity, sonority, naturalness, beauty and pictorial form of Yassavi wisdoms. There is no artificiality in his style and language. Both Yassavi and followers of his doctrine never use Arabian and Persian words, not acquired and settled down into language". [4, No. 2] A.Sa'di stated, that Yassavi wisdoms are harmlessness to rhythm, rhyme, meaning, even their rhyme are in complementarily and tried to argue the importance of Yassavi wisdoms in popularization of Turkic. Exactly in the same time, as continuation of researches in article of A.Sa'di, Abdurauf Fitrat in his articles "Ahmad Yassavi" and "Researches on Akhmad Yassavi followers" raised most important research problem. In his "The earliest explorers of Turkic literature", Fuod Kuprulu, Turkish scientist tabled this problem. This scientific problem is on authorship of Khodja Ahmad Yassavi wisdoms. On this issue F.Kuprulu gave his concrete conclusions. There is no any copy of "Devoni Khikmat", created in near period with life period of Yassavi. Therefore, it is abstract up to date issue of "Devoni Khikmat" authorship, was it written by Yassavi himself, or disciples, or followers. As was stated by F.Kuprulu, "It is impossible to clarify this problem,

until the "Devoni Khikmat" original copy of period, when lived Yassavi will not be found". [13, 1918]. Reason of Khoja Akhmad Yassavi wisdoms authorship problem is that, in quantity, various pen names and titles under. Following hemistich is in the Kazan copy of "Devoni Khikmat" "*to□rt ming to□rt yuz hikmat aytdim Haqdin farmo*" (four thousand and four hundred wisdoms has been told by me by the name of God). On the assumption of this can be concluded, that there are 4400 wisdoms of Yassavi. Kamol Erslan, who published "Devoni Khikmat" in Turkish stated that this assertion is near to legend more than truth. This problem of literature is actual up to date. To the being time "Devoni Khikmat" has been republished plural times. They can be observed not only in Uzbek, but also in foreign, mostly in Turkish literature. Kamol Erslan published "Devoni Khikmat" in Turkish under the name of "Prose's of "Devoni Khikmat" [6, p. 5]. In the introduction the author stated, that "Devoni Khikmat" has many copies and conjectured, that authors of wisdoms can be such followers of Yassavi school, as Kul Sulaymon, Azim khodji, Xolis, Mashrab, Khodji Khomid, Huvaydo, Kul Sharifi, Ubaydi, Navbuti, Koniy, Darvesh Ali, Shams and Zalili. Abdurauf Fitrat in his article "Ahmad Yassavi" adduced following poets – followers of Yassavi school: *Mansur ota, Uzun Khasan ota, Ismoyil ota, Isok ota, Sadr ota, Badr ota, Ali shayx, Mahdud shayx, Kamol shayx, Xodim shayx, Xalil ota.* But, Fitrat distrusted of authorship of those wisdoms. And with it, it can't be met anywhere their wisdoms. Among them well-known are wisdoms of Sulaymon ota Bokirgoni, which are published as separate publication. By the exemplifying samples from Yassavi wisdoms, in own collection "Uzbek literature samples" Fitrat also exemplifies samples from Sulaymon ota Bokirgoni wisdoms too. Fitrat consolidated wisdoms of Sulaymon ota Bokirgoni around one general theme [3, p. 97]. Samples in collection consists of 7 quatrains entitled "Tales of Bokirgoni about sons missing". Publication of Bokirgoni wisdoms published in Kazan under name "Bokirgons book" [11, 1906]. Fitrat in his "Researches on Akhmad Yassavi followers" comprehensively informed about Bokirgoni wisdoms [2, No. 5-6. pp. 49-52]. The book consists of 75 pages. Also, wisdoms are 1180 hemistiches. Author of not all wisdoms in the book is Bokirgoni. On assumption of information by Abdurauf Fitrat, only 35 wisdoms are belongs to Sulaymon ota Bokirgoni, and other part of wisdoms are belongs to other poets. "Bokirgons book" is republished in the independence period. [12, 1993.] Akhmad Yassavi wisdoms are republished in the independence period plural times. "Devoni Khikmat" published R.Abdushukurov [7, 1992] and Ibrohim Hakkul [8, 1991]. For the text of "Devoni Khikmat", published in 1991 by Ibrohim Hakkul as base served "Prose's of "Devoni Khikmat", published by K.Erslan in Turkish in 1983. And for the text of "Devoni Khikmat", published in 1992 by Rasulmuhammad Ashurboy oglu as base served copy, published in Kazan in 1936. In his collection "Who was Yassavi?" B.Dostkoraev, in 1994 enclosed articles of A.Sa'di and Fitrat with a part of "Devoni Khikmat", published in Kazan in 1878. And this by-turn caused for beginning of serious researches of Yassavi wisdoms. In 2001 was published serious source "Khoja Akhmad Yassavi: life, art, traditions" [9, 2001]. In this book was collected most important research materials of foreign scientists on life and art of Akhmad Yassavi. Major of that materials consists of materials of conferences on art of Akhmad Yassavi, holt in May 1-2, 1993 and November 25-26, 1993in Istanbul

and Izmir. Also in 2008 was published "Comparative-text research of "Devoni Khikmat" copies", which consists of results of the research and comparison materials of "Devoni Khikmat". In this work was comparative researched and examined distinctive and similarities of main and complete copies of "Devoni Khikmat" [10, 2008]. At present days there are few printed and manuscripts of "Devoni Khikmat" remained. In article "Akhmad Yassavi", Abdurauf Fitrat dwelled on remaining 2 copies of "Devoni Khikmat". Also he stated, that the copy, published in Istanbul is pen named Yusuf Bayzaki, and Kazan copy – with Kul Garib, which are disciples of Yassavi [1, No. 6, pp. 29-35]. By the publishing of "Devoni Khikmat", Kamol Erslan has been used of few printed and manuscript copies. As the base of this publishing served 3 printed copies (Kazan copy, 1295; Tashkent copy, 1314; Istanbul copy, 1299) and 9 manuscript copies [6, p. 5]. All copies of "Devoni Khikmat" are created in 17th century. Even if the earliest published copy of them belongs to 18th century, its completed and grammatical copy was republished in 19th century. In prefabricated-comparative texting of "Devoni Khikmat", M.Eshmukhamedova used efficiently such completed and grammatical copies [10, 2008]. M.Eshmukhamedova in Introduction part of book stated, that there are 102 copies of "Devoni Khikmat". There are 42 copies of this work is being kept in fund of Oriental studies Institute of the Uzbek Academy of Sciences, and 59 in fund under Khamid Sulaymonov. Therefore, M.Eshmukhamedova counted 102 copies on the assumption of them. This source, published by M.Eshmukhamedova is one of the most important step towards finding out the original copy, original text of "Devoni Khikmat". This book serves as important source in comparison of wisdoms of Khoja Akhmad Yassavi in Fitrat collection. In restoration of prefabricated-comparative texts of wisdoms, M.Eshmukhamedova compared 4 main, complete, grammatical copies of "Devoni Khikmat" and pointed to their differences and similarities. First copy is being kept under No.178 in Institute of manuscripts under Khamid Sulaymonov [At present days this manuscript is being kept in Museum fund under Alisher Navoi]. This copy was wrote down in 1311 by the Hegira. And the second copy, which was wrote down by Mulla Mukhiddin Namangoni in 1298 by the Hegira, is being kept under No.5716 in Oriental studies Institute of the Uzbek Academy of Sciences. Next copy, which is being kept under No.3764 in Institute of oriental studies, was published in 1311 by the Hegira in the printing house under Mukharram afandi in Istanbul. In "Uzbek literature samples", Abdurauf Fitrat adduced selected wisdom texts from "Devoni Khikmat". It should be noted, that Abdurauf Fitrat one of the great scientists and researchers of Uzbek literary history. Even in due time, Fitrat was who seriously researched ticklish questions and invented many discoveries. The scientist's most important contribution on this issue was the fact, that he published the earliest form of the collection. "Uzbek literature samples" of Fitrat is not only scientific novelty of due time, but also at present days serving as manual for literary science and as the base for collections, being composited. Fitrat in his "Uzbek literature samples" not just exemplified relevant samples, but seriously and scrutinized researched them, on the assumption of which stated own conclusions. Wherethrough "Uzbek literature samples" is collection, its samples are in various genres. In the collection Fitrat adduced most main and complete texts in various genres of great authors till

15th century. The scientist by the adducing of samples from lithography source, earlier than even first forms of literal works, tried to reduce to reader samples of earliest germs of prose art and its niceties. "Chistoni elig tale" in collection is considered the earliest sample of tale genre. Even if this tale is very simple and mismatches to rules of tale genre, it is very value for literature as the earliest sample o tale genre. Also the scientist handled songs and **marsiya**, reflected lifestyle, traditions and ceremonies of Turkic people. These songs and **marsiya** are written out from "Devoni lugotit turk" by Makhmud Koshgary, which consist of beautiful Turkic ethnographic songs. The scientist formatted them as whole book. In collection "Uzbek literature samples", Fitrat sampled both type of literal and folk epics. By the sampling from such folk epics, as "Alpomish", "Kitobi Dadakurkud"; also from such literal epics, as "Yusuf and Zulaykho", "Khamsa" of Navoi enriched the collection with another one genre. Quatrains and distiches in "Devoni lugotit turk" reflected in collection as whole form. Consequently, the scientist adduced in his work samples from the earliest quatrains and distiches. By the creating of "Uzbek literature samples" used wisdoms of Yassavi and his disciple Bokirgoni, earliest poems of Rabguzi in Turkic, most beautiful and selected rubaiy, tuyuks (*homonymous quatrains*), **tarjeband, mustazod, muxammas**, which are reasoned for completeness of work. Also, in the work the scientist assigned large place for various works of Navoi in different genres. The scientist presented to attention of readers **muxammas, musaddas, mustazod, poems, rubaiy, tuyuks** from lyric epics of "Xazoin ul-maoni". Particularly, he adduced flashing rows, reflecting culminations from "Khamsa" epics. Also the scientist in his work adduced samples from such scientific works of Navoi, as "Mezon ul-avzon", "Mukhokamat ul-lugotayn", "Makhbub ul-kulub" and his epistolary works. Last part of the work dedicated to works of Bobur. Collection finished with complete lyrics and samples of "Boburnoma" of the poet, the scientific, literal, ethnographic, autobiographic, historical gem of Uzbek literature. Above mentioned works are republished few times to present days. Observation of these texts gives an opportunity to reveal phonetic and punctuation distinctions. These distinctions are connected to publication sources. Some texts of some sources are substantially distinctive and some of them are inessential. Major of these distinctions depends on copying works in various periods and lingual features changing by times. Observations should be continued with texts of Yassavi wisdoms in collection. We compared all available complete and grammatical copies of "Devoni Khikmat", to for identifying its copy, served as fundament for collection of Fitrat. Fitrat widely and in-depth studied meaning of text and every word in wisdoms. He analyzed words, reflecting the essence and expanding the meanings of wisdoms. He tried to restore the most truly text of "Devoni Khikmat" by comparing of its all copies. Therefore, some words in wisdoms are can't be found in any copy. Some words are added to wisdoms for rationalization of rhythm or meaning of its texts. Samples in Fitrat collection looks more like to text of Istanbul copy. Exactly these samples are served as fundament to collecting. Fitrat copied texts from original with changing their meanings. Therefore texts in collection are not completely similar to original texts. But, we observed, that in spite of "Uzbek literature samples" of Fitrat with Istanbul copy of "Devoni

Khikmat" similarity, words forms are not similar. These distinctions in the texts are sighted in following words.

1. Distinctions in sonant and surd using: **j – ch, g – k, d – t**…

uj-uch, qilg□oni-qilgoni.

2. Fitrat didn't use in collection hesitating Arabian alphabetic character. Also he adduced both of two pair consonants in texts. Should to be said, that in "Devoni Khikmat" is used one of pair consonants and putted hesitating character over it.

3. In collection Fitrat used of long vowel much times.

4. As is known, there various forms of one letter in Arabian. For example, z, s, h... in "Devoni Khikmat" copies these letters are used in their places. But, only one from of these letters used in collection of Fitrat. The scientist used letter ***ze*** as *z*, also letters ***hoyi havas*** and ***hoyi hutti***, as letter ***h***. There is no letter ***g*** in "Devoni Khikmat" copies. While Fitrat in wisdoms, placed in collection used the letter ***g***.

As is known, our ancestors from 8th century to 1929 used old Uzbek letter as state written language. In texting the collection, Fitrat productively used old Uzbek letter. Abdurauf Fitrat sampled wisdoms in quatrain form of Khodja Akhmad Yassavi scores of times. Wisdoms of Khodja Akhmad Yassavi consist of quatrains in 12 (4+4+4), 14 (7+7), and 16 (8+8) footed forms. In collection Fitrat sampled from wisdoms in 12 (4+4+4) and 14 (7+7) forms. For example:

12 (4+4+4) form:

Ummat bo‘lsang "g‘ariblarg‘a" tobe bo‘lg‘il,
Oyat, hadis har kim aytsa somig‘ bo‘lg‘il,
Rizqu ro‘zi harna bersa qoni' bo‘lg‘il,
Qoni' bo‘lub shavq sharobin ichtim mano.

Abdurauf Fitrat adduced wisdoms in 14 (7+7) foot forms not in distich, but in quatrain form.

Dunyo maning deganlar,
Jahon molin olg‘anlar,
Katkas qushdek bo‘lubon
Ul haromg‘a botmishlar.

Bibliography

1. Абдурауф Фитрат. Аҳмад Яссавий.//"Маориф ва ўқитғувчи", 1927. 6-сон. Б. 29-35.
2. Абдурауф Фитрат. Аҳмад Яссавий мактаби шоирлари тўғрисида текширишлар. // "Маориф ва ўқитғувчи", 1928. 5-6-сон. Б. 49-52.
3. Абдурауф Фитрат. Ўзбек адабиёти намуналари. Тошкент-Самарқанд. 1928.
4. Абдураҳмон Саъдий. Яссавий ким эди? // Инқилоб. 1922. 2-сон.
5. Алишер Навоий. Насойим ул-муҳаббат. Асарлар. 15-жилд. Тошкент. 1968. Б.53
6. "Ahmad-I Yesevi, Divani hikmat"ten seçmeler (Haz. Prof. Dr. K. Erslan) 1983. 5. S
7. Аҳмад Яссавий. Девони ҳикмат. Нашрга тайёрловчи: Р. Абдушукуров. Тошкент. 1992.

8. Аҳмад Яссавий. Ҳикматлар. Нашрга тайёрловчи, сўзбоши ва изоҳлар муаллифи. И.Ҳаққулов. Тошкент. 1991.
9. Яссавий Хожа Аҳмад: ҳаёти, ижоди, анъаналари. (Тўпловчи ва нашрга тайёрловчилар: И.Ҳаққул, Н. Ҳасан, Азиза Бектош).-Т. Ўзбекстон ёзувчилар Уюшмаси Адабиёт жамғармаси нашриёти. 2001
10. “Девони ҳикмат”нинг йиғма-қиёсий матни (Нашрга тайёрловчи: М. Эшмуҳамедова.). –Т. 2008.
11. Боқирғон китоби. Қозон. 1906.
12. Боқирғон китоби. Ғафур Ғулом номидаги адабиёт ва санъат нашриёти. 1993. (нашрга тайёрловчи ва сўзбоши муаллифи И. Ҳаққул)
13. Ф.Купрулу. Турк адабиётида илк мутасаввуфлар. Истанбул. 1918.

Хамроева Орзыгуль

Творчество Ходжа Ахмеда Ясави в работах Фитрата

Резюме

Абдурауф Фитрат, один из великих ученых истории литературы, его исследования значительные не только в течение его времен, но и для настоящего времени. Особенно, коллекция “Узбекские литературные образцы” ученого является выдающимся литературным источником, появилась в результате трудоемких исследований и событий. “Узбекские литературные образцы” как первая коллекция в узбекской литературе, представленные живые творческие образцы, начинающие литографии 7-го века к Закриддин Мухаммад Бобур творческие работы. Большая часть коллекции состоит из творчества Ходжа Ахмеда Ясави, где Фитрат не только иллюстрировал их, но и серьезно проанализировал образцы. В целях восстановления оригинального текста он попытался составить почти оптимальный текст к оригиналу для сравнения изданных вариантов и оригинальной рукописи. В статье были обсуждены исследования Фитратом этих проблем.

Khamroyeva Orzigul

Fitrət əsərlərində Xoca Əhməd Yəsəvi hikmətləri

Xülasə

Abdurauf Fitrət, ədəbiyyat tarixinin böyük tədqiqatçılarından biridir. Onun tədqiqatları çağdaş dönəm üçün əhəmiyyətlidir. Xüsusilə, alimin "Özbək ədəbiyyatının nümunələri" toplusu dəyərli ədəbiyyat mənbəyidir, mükəmməl tədqiqatlar və təcrübə nəticəsində ortaya çıxmışdır. Özbək ədəbiyyatında ilk toplama kimi "Özbək ədəbiyyatı nümunələri", Zakhiriddin Məhəmməd Bobur yaradıcılığı təmsil edir. Toplanan nümunələrin böyük hissəsi Fitrət yalnız toplamaqla qalmadığı, həm də ciddi təhlil etdiyi Xoca Əhməd Yəsəvi hikmətlərindən ibarətdir. Orijinal mətn bərpa məqsədləri üçün, o dərc olunmuş variantları və əlyazmaları orijinallarla müqayisə etmiş, orijinala yaxın optimal mətni bərpa etməyə çalışmışdır. Məqalədə bu məsələlər Fitrətin tədqiqatları əsasında işıqlandırılır.

Rəyçi: Afaq Ramazanova
filologiya üzrə fəlsəfə doktoru, dosent

XOŞQƏDƏM HACIYEVA
Azərbaycan Müəllimlər İnstitutunun
xoshu1987@hot mail.com

CƏLİL MƏMMƏDQULUZADƏNİN "ÖLÜLƏR" PYESİNDƏ CƏHALƏTİN TƏNQİDİ

Açar sözlər: tərəqqi, cəhalət, fanatizm, dramaturgiya, tragikomediya, milli, ədib
Ключевые слова: прогресс, невежество,фанатизм, драматургия, трагикомедия, национальный, литератор
Keywords: progress, ignorance, fanaticism, drama, tragicomedy, national, writer

XX əsr ədəbiyyatımızın yaradıcıları sırasında Cəlil Məmmədquluzadə ön cərgədə durur. C.Məmmədquluzadə Azərbaycan ədəbiyyatı tarixinə böyük demokrat ədib, vətəndaş, milli yazıçı, kiçik hekayənin böyük ustadı kimi daxil olmuşdur. Uzun əsrlər boyu söz sənətində, ədəbi fikirdə yaranıb formalaşma prosesi keçirmiş milli ideyalar Cəlil Məmmədquluzadənin yaradıcılığında öz zirvəsinə, ən yüksək səviyyəsinə çataraq, Azərbaycan ədəbi-bədii fikrinin dəyərli qaynaqlarından birinə çevrilmişdir.

Orijinal bədii nəsri, dramaturgiyası və publisistikası ilə C.Məmmədquluzadə Azərbaycan tənqidi realizm cərəyanının əsasını qoymuşdur. Dövrün, mühitin nöqsanlarını ifşa edən, tipik xarakterlər yaradan, fanatizm və cəhalətə ağır zərbələr vuran, cəmiyyətin yeniləşməsi zərurətini meydana qoyan tənqidi realizm ədəbiyyatı ölkəmizdə azadlıq və tərəqqi ideyalarının yayılmasına, milli şüurun oyanışına və dirçəlişinə böyük xidmət göstərmişdir.

Görkəmli yazıçının əsərlərinə geniş oxucu kütləsi və tədqiqatçılar tərəfindən çox müraciət edilməsinin əsas səbəbi, ilk növbədə, onun yaradıcılığında millilik, yüksək vətəndaşlıq, tipiklik, ideyalılıq, vətənpərvərlik, sadəlik kimi xüsusiyyətlərin qabarıq ifadə olunması ilə əlaqədardır.

Ədəbi tənqidin haqlı olaraq qeyd etdiyi kimi, C.Məmmədquluzadə realist ədəbiyyatın qanunlarına uyğun olaraq, bədii yaradıcılığında geniş ictimai-tarixi dövrü əhatə etmiş, satira, faciə və lirikanı vəhdətdə götürmüşdür. "Ölülər" yarandığı dövrdən bu günə kimi neçə-neçə nəslin mənəvi, əxlaqi tərbiyəsinə, azərbaycançılıq ideologiyası ruhunda formalaşmasına müsbət təsir göstərir. "Ölülər"in yüksək ideya-bədii dəyəri, təsir gücü onda idi ki, o, şüurlarda dərin kök salmış fanatizmə, mənəvi şikəstliyə, ətalət və nadanlığa nifrət, azadlıq, həqiqət, ağıl və zəkanın qələbəsinə həmişə inam oyatmışdır.

"Ölülər" tragikomediyasında iki qüvvə qarşı-qarşıya durur: xalqın tərəqqipərvər qüvvələrini təmsil edən İskəndər və fanatizmdən, cəhalətdən öz çirkin məqsədləri üçün istifadə edən Şeyx Nəsrullah. İskəndər həyat həqiqətlərini açıq-aşkar söyləyən, həyatda gördüyü rəzalətlərə qarşı kəskin mövqe bildirən, zahirən sərxoş, daxilən son dərəcə ayıq-sayıq bir insandır. Şeyx Nəsrullah isə fırıldaqçı, tüfeyli və hiyləgər insanların təmsilçisidir. Birincisi cəmiyyətdəyaranmaqda olan yeni, ayıq, sağlam mühakiməni, ikincisi ölməkdə olan köhnə, çürük, puç mövhumi görüşlərin timsalıdır.

Beləliklə, "Ölülər"də əsas konflikt mövhumat, cəhalətlə ağıl, kamal, elmi dünyagörüşü arasındakı toqquşmadan ibarətdir ki, nəticədə bu toqquşma ağılın qələbəsi ilə nəticələnir: Tərəqqini, həqiqəti təmsil edən İskəndər haqlı olduğuna görə qalib gəlir.

"Ölülər"in süjetinin əsasını ağıllı, nəcib, mübariz qəhrəmanla onu əhatə edən təəssübkeş fanatiklər, mühafizəkarlar arasında gedən konflikt və onun həlli təşkil edir. C.Məmmədquluzadənin təsvir etdiyi bu konfliktin həyati əsasları düzgün və tarixən inandırıcıdır. Böyük satirikin yaradıcılığında birtərəflilik olmur. Dövrün qabaqcıl ideyaları səviyyəsində duran sənətkar mütləq geriliyi və köhnəliyi, həyatın mənfi cəhətlərini müsbət ideallar naminə kəskin tənqid edir.

X.Əlimirzəyevin fikrincə, "Ölülər" ideya–məzmun, emosional təsir və idrakın əhəmiyyətinə görə əhatəli, geniş mündəricəli bir əsərdir. Onun tənqid etdiyi hədəflər və toxunduğu problemlər, ailə, əxlaq, kəbin, təhsil, tərbiyə, qadın hüququ məsələlərindən tutmuş, demək olar ki, ictimai həyatımızın və milli şüurumuzun bütün sahələrini əhatə edir» (2, s.19)

Akademik Kamal Talıbzadə yazır ki, Azərbaycan mətbuatında «Ölülər» komediyasının dərin təhlilini verən, onun böyük ədəbi hadisə olduğunu qeyd edən və eləcə də «Ölülər»in əleyhdarlarına qarşı qəti və ardıcıl mübarizə aparan tənqidçilərdən biri Seyid Hüseyn idi. Onun «Açıq söz» qəzetinin 2 may 1916-cı il 176-cı sayında «Bilirəm, bir çox möhtərəm ağalar Mirzə Cəlil cənablarının «Ölülər»ini Qoqolun «Revizor»u ilə müqayisə edəcəklər. Mən isə bundan irəli getmək istəyirəm. Zira «Revizor»da Kefli İskəndər kimi bir qüvvə yoxdur ki, «elm oxuyun alim olun» deyib «adam olun» deməyənlərə, doqquz yaşında ərə gedən qızlara, qardaşının, ata və anasının dirilməsindən ötrü fikirləşməyə gedənlərə, «dirildikdən sonra» evlərinə, yurdlarına qayıtmaq istərkən qapısı üzünə açılmayan ölülərə gülsün; doqquz yaşında Nazlılarını Şeyx Nəsrullahlara məcburən arvad etmək istəyən atalarının üzünə tüpürməklə ağlasın və ağlatsın" fikirləri əsərin məziyyətlərini yüksək səviyyədə açıqlayır. (8, s. 257)

Şeyx Nəsrullah və onun müridi Şeyx Əhməd surətlərini yaratmaqda dramaturqun məqsədi yalnız iki nəfər İsfahan lotusunu ifşa etmək olmamışdır. Məqsəd, ümumiyyətlə, fırıldaqçı ruhaniləri, onların ikiüzlülüyünü xalqa tanıtdırmaq idi. Bu məqsədinə görə "Ölülər" baltanı dibindən vuran bir əsər idi (Üzeyir Hacıbəyov). "Ölülər" bir-iki nəfəri yox, bütün cahil şeyxləri və şarlatanları qamçılayan bir əsər idi (Nəcəf bəy Vəzirov).

"Ölülər"in müsbət qəhrəmanı İskəndər coşqun, mübariz ruhlu, müasir dünyagörüşlü, gördüyü rəzalətlərə göz yuma bilməyən bir gəncdir. O, yaşadığı, cəmiyyətdə hökm sürən cəhalətə, "ölülər", mövhumat, avamlar, fanatik dindarlar, mahir fırıldaqçılar mühitinə qarşı üsyan edir. İskəndər xalqın avamlıq, nadanlıq faciəsindən sarsılıb şəraba qurşanmış ziyalıdır. O, mübarizədə sözdən başqa heç bir silahı olmayan qəhrəmandır. Söz isə onun müasirlərinin çoxuna kar eləmir. Təzad da elə bundadır ki, təsvir edilən cəmiyyətdə bir yaxşı, ağıllı adam varsa da, o da özünü kefli kimi göstərib bu yolla fanatikərdən qorunmağa məcbur olan İskəndərdir.

İskəndər keçən əsrin əvvəllərində Azərbaycan cəmiyyətində nəzərə çarpan milli ziyalı təbəqəsinin ümumiləşmiş obrazıdır. Ali təhsil almış, oxumuş, ətrafında baş verən hadisələri dərindən dərk edən İskəndər həmvətənlərinin gözünü açmaq üçün var gücü ilə səy göstərir. Lakin mövhumat və cəhalət onların gözlərini qapat-

mışdır. Cəmiyyətdə mizan-tərəzi itdiyi üçün atası Hacı Həsən, anası Kərbəlayı Fatma xanım, şəhər sakinləri Məşədi Oruc, Məşədi Baxşəli, Hacı Kərim, Hacı Kazım, Mir Bağır ağa kimi «diri ölülər» İskəndərə dəli kimi baxırlar.

Mir Cəlal haqlı olaraq yazırdı ki, İskəndər Azərbaycan ədəbiyyatında müəyyən tarixi-bədii mərhələni göstərən bir tip, yeni realist ədəbiyyatımızın ən məşhur qəhrəmanlarından biri, köhnə adət-ənənələri vurub dağıtmaq istəyən bir gəncdir. (7, s. 569.)

Mirzə Cəlilin böyük sənətkarlıqla yaratdığı İskəndər surəti M.F. Axundzadənin Şahbaz bəy və Hacı Nuru, N.Vəzirovun Fəxrəddin, Ə.Haqverdiyevin Fərhad surətləri kimi Azərbaycan cəmiyyətindəki mütərəqqi, Şeyx Nəsrullah, Şeyx Əhməd isə mürtəce, mühafizəkar sosial qüvvələri təmsil edir.

H.İsrafilov qeyd edir ki, C. Məmmədquluzadənin komediyalarında dramatik ünsürlər komizmə qarışır, gülüş və kədər yan-yana yaşayır, komik vəziyyətləri güclü dramatik vəziyyətlər müşayiət edir. C.Məmmədquluzadə şadlıq içində ələmi, zarafat içində ciddiyyəti göstərir, komediya içində faciə tapır.M.F.Axundov komediyalarından fərqli olaraq, C.Məmmədquluzadənin komediyalarında kiçik, məzlum adamların və pisliyin, iyrəncliyin əzab çəkən qurbanlarının taleyi daha qabarıq şəkildə verilir. C.Məmmədquluzadə kiçik, talesiz adamlarla hakim qüvvələrin və qanunların arasındakı kolliziyanı həll edərkən dərin psixoloji səhnələr yaratmağa çalışır. Bu dramaturgiyada komizmlə tragizm qaynaq təşkil edir, xalis komediyadan daha çox komik, dramatik ünsürlərin "qaynağı " yaradılır. M.F.Axundovun Kərəməli, Pərizadına nisbətən Nazlı və kərbalayi Fatmaların, Molla Abbas və Sonaların , zəhrabəyimlərin taleyi daha qəmli və faciəlidir. (3, s.31)

Dərin fəlsəfi və ictimai məzmuna malik olan "Ölülər" bir tərəfdən ruhaniliyə, fanatizmə və xalqı qəsdən cəhalətdə saxlayan siyasi köləliyə, ikinci tərəfdən vətəndaşları bir-birinə düşmən edən xüsusi mülkiyyətçilik ehtiraslarına, meşşanlığa qarşı üsyan idi, həm də yalnız müəllifin deyil, cəmiyyətin bütün mütərəqqi qüvvələrinin üsyanı idi. Əsərin böyük şöhrət qazanmasının səbəbi də bu idi.

F.Qasımzadənin fikrincə, C.Məmmədquluzadə çox məharətlə komediya içərisində faciə, çılğın qəhqəhələr içərisində göz yaşı dramı yaratmışdır. Bu səbəbə görə də "Ölülər"də ümumi mənzərə həm gülməli, həm də kədərlidir (Nəcəf bəy Vəzirov), yenə bu səbəbə görədir ki, "Ölülər"in hər bir səhnəsində acı bir fəryad qopur (Hüseyn Cavid). Bu fəryad isə vəziyyəti ağır və sarsıdıcı bir faciə olan İskəndərin fəryadları, 22 yaşlı ağıllı gəncin göz yaşı içərisində qəhqəhələrdir.

Bu əsərlə C.Məmmədquluzadə ədəbiyyatımıza orijinal milli obrazlar, xarakterlər gətirdi. "Ölülər"dəki gülüş, satira ayrıca, təkcə bir şəxsiyyətin qəbahətlərinə qarşı deyil, geriliyi təmsil edən geniş ictimai təbəqələrə qarşı çevrilmişdir.

"Ölülər"in dili ilk növbədə müəllifin fərdi yaradıcılıq üslubu ilə sıx bağlı olan fərdi satirik dildir.Öz müasirliyini, ideya-bədii qüdrətini, ictimai əhəmiyyətini qoruyub saxlayan bu dahiyanə əsərin ayrı-ayrı hikmətamiz ifadə və aforizmləri indi də dildən düşmür.

Xəlqilik və sadəlik C.Məmmədquluzadənin əsərlərinin, o cümlədən "Ölülər"in ruhunu, mayasını təşkil edir. Onun əsaslandığı əsas meyar ana dilimizin zəngin söz xəzinəsi, hər tipin xarakterinə uyğun canlı danışıq dilidir. Əsərin dili də dram sənətinin qanunlarına uyğundur. Tiplərdən hər biri öz xarakterinə uyğun bir

şəkildə danışır. Sadə, yığcam, obrazlı, aydın mükalimələrdə dramaturqun ustalığı xüsusilə nəzərə çarpır.

C.Məmmədquluzadə ölülər aləmini təmsil edən bir qrup fanatik kərbəlayı və məşədilərin, yerli ruhanilərin fonunda bütövlükdə cəmiyyətdə olan geriliyi təsvir etmişdir. Müəllif "Ölülər" əsərində mövhumatçı zehniyyəti, patriarxal münasibət nəticəsində tamamilə kütləşmiş, insani hislərini itirmiş avam, nadan camaatı göstərir. Mövhumat fırıldaqçıları bu adamların canına daraşmışlar. Avamlığı üzündən kor, lal və duyğusuz olan bu adamlar fırıldaqçıların qurbanına çevrilir, miskin duruma düşşürlər.

Cəlil Məmmədquluzadənin bir yazıçı olaraq vətəndaş mövqeyinin ucalığı, mövqe aydınlığı onda idi ki, o, "Ölülər"i ölülər üçün yox, dirilər üçün yazmışdı.

Əhəd Hüseynov yazır ki, Mirzə Cəlil qüdrətli bir sənətkar kimi zarafat və eyhamların, istehza və inkarın içərisindən həqiqət və ədalətə, insaniyyət və gözəlliyə olan daxili inamı elə məharətlə keçirir ki, qaranlıq dünya tədricən işıqlanır, fikirlər aydınlaşır, hisslər durulur, təəssürat təzələnir. Lakin ictimai bəlalar, köhnə düşüncələr, yüngül mühakimələr, həyatın xırdalıqları, xürafat və qara kölgələr haqqında gülə-gülə danışmaq, mənalı təbəssümü, həyata nikbin münasibəti, xoşbəxtliyə inamı bu kölgəliklər içərisindən keçirib, oxucuya aşılamaq, gözəllik haqqında doğru estetik qiyməti ona dərk etdirmək çox çətindir.

Cəlil Məmmədquluzadənin satira fırçasına tükənməz qüvvət verən amil xalqın gələcəyinə böyük inam idi. Onun gülüşü ilk baxışda "mülayim" görünsə də, daxili bir atəşlə yanırdı. Müraciətlər, daxili narahatlığın, təlaş və qəzəbin ifadəsi idi. (4, s.95)

Qüdrətli ədibimiz Cəlil Məmmədquluzadənin digər əsərləri kimi "Ölülər" də müstəqil Azərbaycanın yeni nəsillərinə əsil mənada yüksək vətəndaşlıq, həqiqi millilik, yetkin azərbaycançılıq, böyük mənada insanpərvərlik dərsi aşılamaq imkanı verir.

Ədəbiyyat

1. Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə. III cild. Bakı: EA-nın nəşriyyatı.1957.
2. Əlimirzəyev X. Problemlər və xarakterlər dramaturgiyası. Bakı: Yazıçı, 1979.
3. İsrafilov H. "Ölülər."Bakı: EA-nın nəşri, 1966.
4. Hüseynov Ə. Sənət yanğısı. Bakı: Yazıçı, 1977.
5. Qarayev Y. Faciə və qəhrəman.Bakı: Azərb. EA-nın nəşriyyatı, 1965.
6. Məmmədquluzadə C. Seçimiş əsərləri. Bakı: Çaşıoğlu, 2004.
7. Mir Cəlal, F.Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 1989.
8. Talıbzadə K. Azərbaycan ədəbi tənqidinin tarixi. Bakı,1984.

X.Гаджиева

Критика невежества в пьесе «Мертвецы» Дж. Мамедкулузаде

Резюме

В статье анализируется идейный замысель и конфликт в произведении «Мертвецы». выдающегося Азербайджанского драматурга Дж. Мамедкулузаде. Отмечается различие между образами Искендер, представляющий прог-

рессивные силы общества и Шейх Насруллах, использовавший религиозные чувства верующих в своих корыстных целях.

H.Gadzhieva

Criticism of ignorance in the play "Corpses" J. Mammadguluzadeh "

Summary

The article analyzes the ideological concept and conflict in work "Corpses." outstanding Azerbaijan playwright J. Mammadguluzadeh. There is a difference between the images of Iskandar, representing the progressive forces of society and Sheikh Nasrullah, to use the religious feelings of believers for their own selfish purposes.

Rəyçi: Bilal Həsənli
pedaqogika üzrə fəlsəfə foktoru, dosent

RÖYA MÜRŞÜDOVA
ADU
roya.meftunqizi@mail.ru

MÜASİR ROMANLARDA DƏYİŞƏN ZAMAN VƏ BAŞQALAŞAN DÜNYA MODELİ

Açar sözlər: şəxsiyyət, təbiət, cəmiyyət, roman,
Ключевые слова: личность, природа, общество, роман
Key words: personalty, nature, society, novel,

"İnsanın bir fərdi həyatı, bir də bu fərdi həyatın cəmiyyətlə bağlı tərəfi var-S.Əhmədovun romanlarında insan məhz bu aspektdən bədii tədqiqat obyektinə çevrilir. Onun romanları bədii tədqiqat xarakteri daşıyır. Müəllif qələmə aldığı həyatı və insanları analitik bədii təfəkkürün obyektinə çevirir. Onu maraqlandıran insanın daxili aləmidir, daha dəqiq desək, yazıçını obrazın psixoloji yönü cəlb edir". (10. s.96) Sabir Əhmədlinin bu yönümdə qələmə aldığı və ideya yükünə görə tədqiqatçıların daha çox diqqət və marağını çəkmiş əsərləri sırasında "Dünyanın arşını" xüsusi yer tutur. Bir sıra, sosial, siyasi problemlərin işıqlandırılmasına baxmayaraq sözügedən romanda da S.Əhmədlini yaratdığı obrazların psixoloji vəziyyəti, ətraf mühitə olan münasibəti daha çox məşğul edir. Romanın əsas hədəfi olan Arif doğmalarını görmək üçün kəndə gəlir. Onun rayonda məsul işdə çalışan qardaşı Rəhman valideynləri ilə birlikdə yaşayır. Arif kəndə gəlmədiyi müddətdə təzə yurdda qardaşının yaxşı ev-eşik düzəltdirdiyinin şahidi olur. Evin ikinci mərtəbəsinə çıxanda buranı bahalı, şıq rumın mebeli ilə bəzəndiyini görür və bu bər-bəzəkli evi özünün kasıb komaası ilə müqayisə edir. Atasıgilin köhnə yurdunda isə bacısı Bənövşə ailəsi ilə qalır. Arif burada qardaş və bacı arasındakı soyuqluğu hiss edir. Yeganə bacılarının doğmalarına olan incik münasibəti onlardan uzaqda yaşayan Arifdə təəssüf hissi doğurur. Onlar yəni, iki qardaş və yeganə bacı yaxınlıqdan, uzaqlıqdan aslı olmayaraq bir-birindən mənən uzaq düşmüşdülər, yadlaşıb, yabançılaşmışdılar. Sanki bu üç doğma insan kökdən qopub parçalanmışdılar. Soyuqluq Rəhmanla Bənövşənin ruhuna çökmüşdür. "Arifi indi bu bacı ilə o qardaşı nəyin birləşdirdiyi düşündürürdü. Bundan daha artıq, yalnız Bənövşə ilə Rəhmanı deyil, ailəni, onların hamısını bir-birinə bağlayıb yaşadan şah tel sanki hardasa zədələnmiş, hətta tirfələnmişdi".(5. s.293)

Özgələşmə problemi romanda əsaslı, narahatlıq doğuran məsələ kimi qoyulur və problemin kökü o qədər dərindir ki, sona kimi müsbətə doğru həllini tapmır. Adamların "adamlıqdan çıxıb" bir-birinə yadlaşdığına, qohumların, bir ailənin üzvlərinin də vəzifəyə, mənsəbə görə bir-birinə yaxınlaşma cəhdləri və ya uzaqlaşmaları Arifin bacısının əri Sultanın simasında mənfi sifət kimi tənqid olunur. Təmənnalı münasibətlərin nəticəsidir ki, Arifin qardaşı ilə bacısı arasında "soyuq müharibə" gedir və bu acı gerçəklik evin kiçik övladını narahat edir. Evlərindəki acınacaqlı vəziyyəti müşahidə edən Arif ürək ağrısı ilə yaranmış gərginliyi bacardığı qədər yumşaltmağa çalışır, özüdə barışmazlığın içində dolaşığa düşür. "Yadına qurumuş göllər, ölmüş dənizlər, oğurlanmış dağlar düşürdü. Həqiqət təsəvvürdəki idi. zamanın axını onların bütövlüyünü xırda-böyük adalara, qitələrə parçalamışdı". ".(5. s.294)

Kənddə müvəqqəti qonağ olan Arif sevimli bacısına nə qədər dilxoşluq etsədə o yaxşı anlayır ki, evlərindən qopmuş boynu bükük qız bir də əvvəlki kimi olmayacaq. Yazıçının bacılarını Bənövşə adlandırması da təsadüfi deyil. Doğmalarına qarşı etinasızlıq, soyuq münasibət artıq Bənövşənin gözlərinə qədər gedib çıxmışdır. Bacısının gözlərində arıyıb axtarmağa çalışdığı şəfqəti, istliyi Arif orda görə bilmir. bacısının qardaşlarına qarşı istəyi maddi istəklər fonunda zaman-zaman öləzimiş nəhayətdə yoxa çıxmışdı. Yaşadıqları rayonun rəhbəri olan qardaşı Rəhmanın onun ailəsinə qarşı rəhmindən pay verməməsi bacını özündən çıxarır. Qardaşından çox şey uman Bənövşə onun səlahiyyətindən faydalanmadığı üçün ona da, valideynlərinə də qarşı qəzəblidir.

"Dünyanın arşını" da S.Əhmədli Sovetlər İttifaqının uçurumun bir addımlığında olduğunu, qısa zaman kəsiyində nəhəng imperiyanın dağılacağını sətiraltı şəkildə oxucuya ötürür. "Embrioloqlar maraqlı hal müşahidə etmişlər. ayrı-ayrı üzvləri, hissələri yaradan hüceyrələr sonra birdən özləri ayrıca, müstəqil varlıqlara çevrilmək istəyirlər. elə bil dünyanın içində ayrıca dünyalar törənir. Əvvəlcə tamı yaratmaq, tamın hissəsi olmaq üçün könüllü birləşir, sonra özlərini itirdikdə elə bil ayılıb, ayrılmaq qəsdinə düşürlər. Qəribədir, hər birləşmədə ayrılıq həsrəti, hər böyüklükdə parçalanmaq təhlükəsi, hər yüksəlişdə enmək ehtiyatı!" (4. s.264) Yazıçı bir daha göstərməyə çalışır ki, insanlıq mövcud olduğu gündən əsarətə, basqıya qarşıdır. Müqvimət yalnız müqavimət doğurur. Azadlığa meyl insanın fitrətində, cövhərindədir. İnsan orqanizmi haqqında düşünncələrə dalan Arif onun simasında ezop dili ilə dövlətlərin müstəqilliyə can atmasını təbii qanunauyğunluq kimi səciyyələndirir. Və hesab edir ki, bu prosesin qarşısını heç nə ala bilməz.

Arif hesab edir ki, insan xoşbəxt olmaq üçün aza qane olmağı bacarmalıdır. Bacarmazsa, həyat onun üçün əsl işgəncəyə,əzaba çevriləcək. Əgər yaradılanın sonu quru torpağa dönməkdirsə onda bu maddi dünyada can çəkişdirməyə dəyməz. Həyat, zaman onsuzda insanın ömür səhifəsində, zahiri görnüşündə öz izlərini qoyur. İnsanlar yaşlanır, qocalır, onların yerini yeni, pöhrə cavanlar tutur. Dünya "bir yandan boşalıb, bir yandan dolur". Bəşər övladının bu amansız həqiqətə, qanunauyğunluğa təslim olmaqdan başqa heç bir yolu qalmır. Valideynlərinin qocalmış, yıpranmış, dəyişmiş vucudunu müşahidə etdikcə bir övlad sevgisi ilə köksünü ötürür, kədərlənir. Bu baxımdan Arifin fəlsəfi mühakimələri olduqca maraqlı və düşündürücüdür: "Hər il, hər ay keçdikcə zamanın görünməyən əli hamının, hər kəsin dəftərinə işarə qoyur, hesab aparır: bir, iki, on, əlli... Atası ilə üzləşəndə zamanın qələmi titrəmişdi. Bu dəftərin vərəqləri çox sərt idi. Zaman onun ancaq zahirində səliqəsiz, tələsik cızıqlar çəkmişdi.həyatı iztirabla keçənlər qocalmırlar, çünki onlar heç vaxt cavan olmayıblarş onlar ölmürlər də. axı əslində başlanmayan həyatın sonu yoxdur. Belə insanların qələbəsi ondadır ki, doğulmaq, yaşamaq və ölmək qanunu onları sarsıtmır".(4. s.270)

Bu əsərdə də S.Əhmədli kəndin təbii, səmimiyyətlə qaynaşan halını cansıxıcı şəhər mühitinə qarşı qoyur. Kökdən bir-birinə yad olan insanların doğmalaşmasını, bir-birinin xeyrinə-şərinə şərik olmasını qeyri-təbii, mümkün olmayacaq gerçəklik kimi qəbul edir. "Böyük şəhərlərin sakinlərinin gözlərindəki etinasızlıq pərdəsi aramsız bir təzyiqə qarşı qoruncdur. Orda nəinki addımbaşı bir-biri ilə qarşılaşan, biri digərinə baxan, səsin eşidən, bir avtobusda gedib-düşən adamlar biri digərini görmür, hətta hər gün eyni idarədə. eyni otaqda işləyənlər, eyni blokda, bir binada olanlar belə bir-birindən xəbərsizdirlər. görürlər, danışırlar. Söhbət eləyirlər, gülür-

lər. Amma bunun hamısı yuxu və xəyaldakı kimi cansız-qansızdır. Böyük şəhərlər balaca kəndlərdən doğulub-düşünürdü, öz-özünə deyirdi. Əslindən qopmuş hər şeydə canlı-cansız bir sifətsizlik, yabançılıq olmalıdır, olur da..."(4. s.283) "El bir olsa zərbi-kərən sındırar" fikri hər halda gəlişi gözəl söz deyil, zamanın sınağından çıxmış ustad sözü, ağsaqqal sözüdür. Burdan bir nəticə hasil olur ki, şəhərdə nə qədər yaşayırsan yaşa insanlar heç vaxt toplum halına gəlib bu müqəddəs sözün içində əriyib El olmağı bacarmırlar. El kəndin şəhərə heç bir vaxt güzəştə getmədiyi birlik, həmrəylik formasıdır.

Sözügedən romanda qaldırılan problemlərdən biri də Sabir Əhmədli yaradıcılığı üçün xarakterik olan vətənimizin ərazi bütövlüyü məsələsidir. Yazıçı Azərbaycanın ikiyə parçalanması ilə bağlı tariximizi yenidən səhifələyir, qan yaddaşımızı oyatmağa, mövcud gerçəkliyə etirazını bədii dilin vasitəsilə açıq və ya üstüörtülü şəkildə nəzərə çatdırır. Araz çayını, Sınıq körpünü müşahidə edən Arif tarixi faciəmizin nə qədər dərin olduğunu dərk edir, qarmaqarışıq, gərgin, üzüntülü fikirlər burulğanında çıxış yolu axtarır. Onu öz kəndinə bağlayan əsas səbəblərdən biri də Araz çayının onun yurdundan başlanğıc götürməsidir. "Hardan başlayır Vətən?" sualının bu əsərlə birbaşa əlaqəsi olmasa da Arif üçün vətən məhz Araz çayından, Sınıq körpüdən başlayır. Araz çayının yanındakı xaraba qalmış Sınıq körpü xalqımızın tarixi faciələrdən yıpranmış sınıq qəlbinin rəmzi kimi səciyyələndirilir: "Araz beş addımlıqda idi. Bir qədər yuxarıda Sınıq körpü dayanırdı. Körpü yatağından tərpənə bilməyən illər xəstəsi təki ağappaq ağarmış, solmuşdu, saçı-birçəyi elə bil tökülmüş, yolunmuş, sümükləri çıxmışdı. Bu yerin hər otunda, tək-tək gözə dəyən qaraellə, göyrüş və söyüdlərin görünüşündə küskünlük, dilsizlik donmuşdu. Arazın suyu azalmış, ağlayıb-ağlayıb kirimişdi. Məcrasının o biri sahilinə yatmışdı. Dərdini-fikrini qəlbində çəkir, hərdən də uzaq, qarlı dağlardan, dərələrdən. meşələrdən baş alıb gələn, bu möhnəti öz gözü ilə görüb, nəhayət, qadağan məcradan aşağılarda, çox uzaqlarda qurtulacaq qəmsiz sulara eyni bir bayatı oxuyurdu". (4. s.372)

S.Əhmədlinin qəhrəmanı təkcə qüvvəsi daxilində deyil, qüvvəsi xaricində olan məsələlər barədə fikirləşir. Düşüncələrin axarına düşərək ictimai-siyasi hadisələrin hansı məcraya düşəcəyini soyuq başla analiz edir. Yazıçı Sovet adamının mənəvi, sosial baxımdan sıxışdırılması məsələsinə toxunaraq gələcək insanın düşüncə, əməli azadlığına qarşı qoyur. Ümid gələcəyədir prinsipi romanın başlıca ideyasıdır. "Mənə elə gəlir, indiki insan modeli yer üzü üçün nəzərdə tutulmuşdur. Yerin imkanlarından yaranmışdır. Onun idrak qəlibi ancaq bunu sığışdırır. Beyin hüceyrələri və duyğu zəncirləri ancaq iqtidarı çatan yükü götürə bilər. Dəniz, okean intəhasız görünsə də min, milyon ləpələr özlüyündə necə azad, asudə çağlasalar da bütün bu tərpəniş bir sahilin dairəsindədir. Beyində milyon, milyarda funksiya yerinə yetirən yüz milyon hüceyrə təxmin edilir. Bununla belə məhduddur. Kainatın həcminə uyğun kosmik insan modeli sonra yaranacaq. Bu yerin və insanın tarixində ikinci təkamül dövrü olacaq həmin adamın ürəyi. ciyəri, başı və digər duyğu orqanları kosmik-ölçüsüz imkanlara malik olacaq. Zaman, məkan, hərəkət barədə anlayışı büsbütün başqa cür olacaq". (4. s.388) Arifin qardaşı ilə söhbətini izlədikcə S.Əhmədlinin düşünən və düşündürən bir söz adamı olduğunu görürük. Yazıçı üçün onunla eyni zamanı, məkanı bölüşən insanların əsaslı bir addım atacağına, mənəvi köləliyə qarşı üsyan edəcəyinə, mövcud duruma qarşı etiraz səsini ucaldacağına köklü inam hissi yoxdur. Onun üçün yeni zaman, təzə abu-hava yeni insandan,

təzələnmiş, təmizlənmiş təfəkkürdən başalyır. Elə bu səbəbdəndir ki, o gələcək insana ümid bağlayır. Hələki mənəvi məhkumluğunu dərk edən Sovet adamı ictimai quruluşun dörd bir yandan əhatələdiyi "dəmir barmaqlıqlar" arasından canını qurtara bilmir. Belə bir cəmiyyətdə istənilən etiraz, təpki sərt reaksiya doğurur. Təzyiqlərə tuş gələn insanlar "sayqısızlıqlarını" özünün və ailəsinin canı hesabına ödəməli olur. İctimai-siyasi hadisələri düzgün analiz edən yazıçı Sovet İttifaqının birləşdirilən dövlətlərin yalnız zor gücünə əsarətdə saxlandığını və gec-tez bu yalançı birliyin axırı olmayacağını dönə-dönə vurğulayır. Bu "həmrəyliyin" millətin tarixi yaddaşı, milli təfəkkürlü oğul və qızlarının qanı bahasına başa gəldiyi üçün bir gün tökdüləri qan içindəcə məhv olacağına romanda gizli bir ümid var: "Zor, güc sayəsində nə yaranırsa, hamısı qondarmadır, fərəhsizdir. Ən yüksək və doğru ahəngdarlıq insanın və ürəyinin istəyində, təbii sövqündədir". (4. s.318) Yazıçı sözü gedən əsəri ilə sanki hakim imperiyaya barmaq silkələyərək sonunun gəlib çatdığını və ictimai-siyasi səyin heç bir səmərə verməyəcəyini onların nəzərinə çatdırmağa çalışır. Heç də təsadüfi deyil ki, üstüörtülü şəkildə yaddaş məsələsinə toxunan müəllif hesab edir ki, "İnsan özündən də uzun müddət ayrıldıqda, nəhayət, özünü tanımaya, özü ilə yadlaşa bilər". (4. s.448) Yetmiş il soyundan, tarixindən, gerçəkliyindən ayrı düşmüş xalqın yenidən özünə qayıtması hər halda böyük iradə hesabına başa gələ bilərdi.romanın sonunda sübh tezdən Bakıya yola düşən Arifi yaşlı valideynləri yatdığı halda Rəhman və onun balaca oğlu Aqil yola salır. Yazıçının gələcək nəslə olan ümid və inamı Aqilin simasında öz mətiqi təsdiqini tapmış olur.

S.Əhmədli Rəhmanın əməli addımlarını təsvir etməklə vəzifənin özünəməxsus sərt qanunlarla idarə olunduğunu göstərir. Əks halda normal idarəetmdən söhbət gedə bilməz. "İnsanların səni sevməyindənsə, səndən qorxması daha yaxşıdır fikri bu mənada real səslənir. Rəhman camaatı onları istəyinə görə deyil, özünün düzgün bildiyi prinsiplərlə idarə edir. Şəhərin sakitləşməyən uğultusunadan yaxa qurtaran Arif kəndin səssizliyində öz-özü ilə baş-başa qalır, dünyanın arşınının hara qədər məsafə qət ediyi barədə düşüncələrə dalır. Bu baxımdan romanın adı əsaslı məntiqə dayanır. Əsərdəki təsvirlərdən dolayı belə bir nəticəyə gəlinir ki, dünyanın arşını nə qədər uzanırsa uzansın gəlib insan qəlbindən keçir. Hər bir halı ilə insan taleyində əsaslı, silinməz izlər qoyur.

İnsan, təbiət və cəmiyyət arasındakı əlaqə görkəmli yazıçı S.Əhmədli yaradıcılığının ana xəttini təşkil edir. Onun yaratdığı insan təbiətin də, cəmiyyətin də bir parçasıdır. Lakin o təbiətə yaxınlaşanda nə qədər zənginləşir,təmizlənir, saflaşırsa, cəmiyyətə yaxınlaşdıqca bir o qədər "kasıblaşır", özündən uzaq düşür, təklənir, özgələşir. Elə bu səbəbdən də təbiət onun qəhrəmanlarının mənəvi sığınacaq yeridir. Çünki təbiət səmimidir, safdır, onun fitrəti boyadan, riyakarlıqdan uzaqdır.

S.Əhmədlinin bu kimi mürəkkəb məsələləri əks etdirmə baxımından ən maraqlı romanlarından biri də "Azığa doğru" əsəridir. Valeh müəllim doğma ata-baba yurduna qonaq gəlir. Onun kəndə gəlişinin bir səbəbi doğmaları ilə görüşməkdirsə, digər səbəbi də ona verilmiş ərazidə yurd salıb ev tikməkdir.

Valeh müəllim qardaşının, bacısının qonağı olur, onların tikib yaratdıqları ev-eşiyə, həyət bacaya tamaşa etdikcə nə qədər fərəh hissi keçirirsə, boş qalmış yurdu, tikilməmiş evi haqqında düşünüb bir o qədər kədərlənir. Valeh müəllimin daxili monoloqlarını izləyən oxucu onun şəxsiyyəti, xarakteri haqqında tam təsəvvürə yiyələnir. O, şəhərdə yaşayır. Lakin bu cür yaşayış-onun heç kimi tanımadığı, özü-

nün də əsli-kökü bilinməyən bir yerdə ömür-gün keçirməsi ürəyincə deyil. "Valeh indiyənə qədər dünyada, özünün də etiraf etdiyinə görə, bir növ kirayənişin kimi, qonaq kimi yaşamışdır, içərisində dolaşdığı aləmlə heç cür uyuşa, doğmalaşa bilməmiş, ayağının altında möhkəm təməl hiss etməmiş, həmişə varlığını bir tələş, səbatsızlıq sıxmış, daxilini uçuntu sarsıtmışdır. "Mənim heç nəyim yoxdur!"-nidası ömrünün payız fəslinə adlamış bir insanın daha çox mənəvi özülsüzlüyünün ifadəsi, sanki məhvərindən qopmuş bir qəlbin acı fəryadı kimi səslənir". (6. s.284)

Valeh müəlim demək olar heç kimin bir-birini tanımadığı, salam vermədiyi şəhərdə sıxılır, mənəvi əzab çəkir, özünü qərib, kimsəsiz, kökündən qopmuş ağac kimi hiss edir. Valeh müəllim yaxınları ilə söhbəti zamanı şəhərdə özünü nə üçün qərib hesab etdiyini çox orijinal bir məntiqlə izah edir: " –Qardaş, bilirsən nə var, doymuşam, vallah-billah, şəhərdən doymuşam. O gün, bir yerdə, bir məclisdə bir qəribə söhbət danışdı. Özümüzdük, tanış-dost, o da deyəsən şoferdi, onlarla gəlmişdi. Dedi siftə bu şəhərə düşəndə gözüm qorxdu. Baxdım ki, küçə dolu, sel təki adam axır. Dedim, ey dili qafil, ay dədə, mən bu bir belə adama hər gün, hər səhər necə salam verib çatdıracam. Sonra gördüm yox, bunlar bir-birinin yanından dinməzcə, salam-kəlamsız ötürlər. Ürəyim yerinə düşdü. İndi qardaş, bəlkə yaşlanmışıq, kövrəlmişik. Amma daha mən istəyirəm ki, səhər-səhər küçəyə çıxanda birinci gördüyüm adama salam verim, salam alım. Axı, ola bilməz, insan insanla qabaqlaşsın, yan ötsün. Adam təki bir-birinin gözünə baxsınlar, lal təki ötüb keçsinlər. Qabağına yüz cür adam çıxır, yüz cür sifət görürsən, gözün əlli rəngdə gözə sataşır. Bunun hamısı sənə heç nə demir. Lap elə özcə blokunda, adam var, mən ömrüm boyu üzünü görmək istəməzdim. Di gəl, hər gün dimdik çıxacaq sənlə üzbəüz. Sən o göz məsələsinə elə baxma. Qabağına səhər-səhər kim çıxıb, bunlara elə boş söz təki baxma..." (5. s.163) Valeh müəllimin ürək ağrısı ilə dediyi sözlər kənddən şəhərə gəlmiş hər bir oxucunun ürəyinə toxunur, onu öz taleyi haqqında yenidən düşünüb daşınmağa sövq edir. "Nəticədə müəllif milli insan daxilində baş verən prosesləri Qərbdə geniş yayılmış təklik-tənhalıq-ekzistensiya fəlsəfəsi çərçivəsində təhlilə çalışır. Məhz öz daxili azadlıq duyğularına tapınan insan ümumi kütlədən qopmağa, "düşüncə qəhrəmanı"na, son halda cəmiyyət içində "qərib"ə çevrilməyə başlayır". (8. s.25)

El-obasına bütün varlığıyla bağlı olan Valeh müəllimi ev tikməkdən soyudan bir səbəb də var. O da yurd yerinin narahat ərazidə olmasıdır. Bəzi tənqidçilər bunu Valeh müəllimə irad tuturlar. Bildirirlər ki,əgər doğulduğu bu yer ona bu qədər əzizdirsə yurd yerinin nə fərqi var. S.Əhmədli qələminin özünəməxsus cəhətlərindən biri də yaratdığı obrazları təbii, boyasız, yalançı, populist vətənpərvərlikdən və digər mənəvi keyfiyyətlərdən uzaq olmalarıdır. Əksinə, Valeh müəllim ürəyinə yatmayan yerdə ev tikdirməyə cəhd göstərsəydi bu çox süni, yapma bir istək olardı, heç inandırıcı da olmazdı. Hər bir kəs harda olmasından aslı olmayaraq evinin gözəl, baxımlı bir yerdə olmasını arzulayar. Bu təbiidir. Vətənin, el-obanın hər qarışı əzizdir, lakin bu o demək deyil ki, at getməz, maşın işləməz yerdə o tərəddüdsüz yurd salmalıdır. Valeh müəllim də insandır, yurd yerinin bir o qədər də xoşuna gəlməməsi təbii insani hisslərdir.

80-ci illərdə qarşıdan gələn faciənin bir sənətkar uzaqgörənliyi ilə qabaqcadan duyan yazıçı ermənilərlə bağlı məsələlərə toxunur, həqiqətləri oxucuya çatdırmaq niyyəti ilə bəzi məqamlar barədə düşünüb nəticə çıxarmağa sövq edir. Ermənilərin

ciddi-cəhdlə torpaqlarımızda əl-qol açıb bağ salıb, ev qurub yaşamaq cədlərinin mənasız olmadığına xalqımızın hələ də qəflət yuxusunda oluğuna işarə edir "-Ermənilər qayaların üstünə torpaq gətirib tökür, bağ salırlar, bostan becərirlər". (5. s.183) Valeh müəllim isə yurd yerinin narahat olması barədə düşünüb qaya üstündə xaniman quran düşmənə fürsət verir. Yazıçı millətimizin saf, xainlikdən uzaq olan nəfsi, gözü tox olan təbiətinə işarə etməklə bu keyfiyyəti milli faciəmiz kimi nəzərə çatdırır.

"Azığa doğru" romanı yaddaşla bağlı yazılan əsərlər silsiləsindəndir. Bir çox ictimai-siyasi, sosial problemləri işıqlandıran yazıçı roman boyu oxucunu vətən, torpaq, tariximiz barədə düşüncələrə kökləyir, onu sözügedən məsələlər barədə götürqoy etməyə, nəticə çıxarmağa təhrik edir. İkiyə parçalnmış vətənimizin kədərli, aqibəti, faciəli tarixi Arazla bağlı epizodda yenidən təzələnir, qan yaddaşımızı silkələyib oyadır. Tarixi faciəmizin kökü, şahidi kimi ürək ağrısı ilə təsvir olunur. Söz adamlarımız zaman-zaman Arazı başımıza gətirilən faciənin görkü, nişanəsi kimi qəlbimizdə heykəlləşdiriblər. O taylı bu taylı azərbaycanlıların ortaq kədərinin, facəsinin, müsibətinin rəmzi kimi Araz ədəbiyyatımızda obrazlaşıb. B.Vahabzadənin, X.R.Ulutürkün, M.Arazın yaradıcılığında şeirləşən Araz, S.Əhmədlinin nəsr dili ilə yeni bir çalar, yeni bir rəng alır: "Nağıl Arazdı, söhbət Arazdı! İki körpünün arasında dolub-doluxsunub, qıraqlarda, elə yatağın özündəcə dikəlmiş daş-qayaya çırpılaraq həzincə səslənən sular, onca addım eni olan çay bir elat bayatısıyla hənirlənə-hənirlənə başıaşağı axıb gedirdi. Çayın yovşan ətirli sərin payız nəfəsi həndəvərə yayılır, şeh çilənirdi. Qum-çınqıl yuyulur, daşlar-qayalar əriyirdi. Bağ-bağça, çöl-biçənək təki çay da payız fəslində saralıb, xəzəllənməyə üz qoymuşdu. Çayın üzünə elə bil dünya-aləmin yarpağı, xəzanı tökülüb gedirdi.(5. s.219) Xalq inancından doğan "Kitabi Dədə Qorqud" boylarından üzü bəri yaddaşın rəmzi kimi qəbul edilən yovşan keçmişlə bu gün arasında əlaqə, körpü kimi səciyyələndirilir, ikiyə bölünmüş vətənimizin tarixi gerçəkliyi ilə bağlı bir çox həqiqətlərini milli azadlıq ərəfəsində olan xalqın yaddaşında bir daha təzələməklə bədii vasitə kimi istifadə olunur.

Valeh müəllim üçün inam hər şeydir. Həyatın hərəkətverici qüvvəsidir. Ona görə inamsız yaşamaq qeyri-mümkündür. Onun qənaətinə görə öz əlinlə, halallıqla tikilmiş ev məbəddi. Bütün varlığıyla kəndə bağlı olan Valeh müəllim illərdir ki, şəhər mühitinə alışıb, onunla doğmalaşa bilməyib, nəticədə təklənib, tənhalaşıb. Özünü tapa bilmədiyi şəhər ona zövq verib, ruhunu oxşamadığı üçün tədricən nəzərlərində əzəmətini də itirib. İnsan təbiətə nə qədər yaxındırsa demək bir o qədər safdır, təmizdir. Düşünürük ki, vətən məhz evdən, ocaqdan başlayır. Bu evdə ayağın torpaqdan rişə çəkmirsə demək qol-budaq atmağın mümkünsüzdür. Yazıçıya görə bu cür ev təbiilikdən, təbiətdən, ilkinlikdən uzaqdır. "Mənimsə könlümün ən birinci istəyi dünyada özümə bir yurd salmaq, binələnməkdi. Bu təkcə dünyanı tutub axır zamana kimi yer üzündə qalmaq yanğısından doğmamışdı. Yox, mən özümü öz əllərimlə tikdiyim evdə görmək istəyirdim. İnamım bu idi ki, insan yalnız öz əməyilə, saf əməyilə tikdiyi evdə özünü tapa bilər, özü ola bilər. Kəndlərimizdə, qəsəbələrimizdə, Araz qırağında və çay yaxalarında, çaylaq üstündə və s. div dərəsindəki evlər hamısı birlikdə bir şəhərdi. Kənddə şəhər! bunları mən bir yadigar, örnək, görk təki qoyub, hamısından əl çəkib qayıdıram o yerə, o evə ki, o allahdan, peyğəmbərdən, dindən-imandan əsər-əlamət olmadıqda vardı. Tikilməmişdi

demirəm, əsl ev tikilməyəndi! Onu gərək təbiət özü yaratmış olsun". (5. s.293) Həqiqətən də insan hündür binalarda yaşadıqca təbiətin oğlu olduğunu unudur, "mədəniləşir", təbii şeylərə isə yabançılaşır, nəhayətdə hardan gəlib hara getdiyini belə dərk etmir və nəticədə mənəvi boşluğa yuvarlanır. İnsan və təbiət arasındakı qarşılıqlı münasibət məsləsinə toxunan Ə.Ağaoğlu qeyd edir ki, "J.J.Russo və Tolstoy kimi yüksək ideallı, dərin düşüncəli fikir adamları mədəniyyəti ancaq fəlakət hesab etmişlər. Təbiəti taparcasına sevən J.J.Russo mədəniyyəti pozucu və aldadıcı adlandırmışdır. Onun fikrincə, təbii hala yaxın insanlar yalnız daha əsil, daha təmiz, daha əxlaqlı deyil, eyni zamanda daha xoşbəxtdirlər. Tolstoy isə bu günkü milyonlarca nüfuzu daşıyan şəhər yığınlarını və sənaye mərkəzlərini sadəcə bir fəlakət kimi görür. Bu fikir adamına görə, elm və fənn, hətta ədəbiyyat və fəlsəfə belə insanlığın qurtuluşuna deyil, fəlakət və soysuzlaşmasına səbəb olur və "insanlar nə ilə yaşayırlar" adlı əsərlərinə incilin bir tək cümləsi qədər qiymət vermir. Tolstoya görə, insanlar üçün tək xoşbəxtlik çarəsi şəhərləri buraxıb köylərə daşınmaq, təbii hala qayıtmaqdır". (1. s.31) Roman boyu getdikcə Valeh müəllimin ev haqqında düşüncələri daha da dərinləşir, maraqlı bir istiqamət alır. Yaxınları ilə ilk insan məskəni olan "Azığ mağarası"na səyahəti zamanı onun evlə bağlı qənaətləri dəyişir, ümumbəşəri səciyyə daşıyır. Düşünür ki, ən əzəli və əbədi ev təbiətin qurub yaratdığı evdir. Əgər bir evin tikilməsində, bir ağacın əkilməsində insan əli varsa o artıq özündən, əslindən dönmədir.

Valeh müəllimin ev tikmək ilə bağlı arzuları tənqidçi Fərhad Mədətovun təhlillərində tamam fərqli istiqamət alaraq siyasi baxımdan mənalandırılır. O yazır ki, "Ev müstəqilliyin, azadlığın rəmzi kimi, yerin ürəyə yatmaması isə imperiya sərhədləri daxilində müstəqilliyin mümkünsüzülyü kimi qavranmalıdır. Valeh yerin könlünə yatmadığını elan etməyə cəsarət etmir, çünki bu yerə "hələ deməzdən", neçə yerdən "göz dikən, müştəri çıxan" olduğunu yaxşı başa düşür. Torpaqlarımızın imperiya dövründə hissə-hissə itrilməsi, bu gün isə ən yüksək həddə çatdırılması Valehin narahatlığının əbəs olmadığını təsdiq edir. Onun "özüm-özümün deyiləm" ifadəsi müstəqillyi itirilmiş ölkənin fəryadı idi". (6 s.138) Düzdür romanda tarixi siyasi hadisələrə müəyyən məqamlarda açıq və ya sətiraltı münasibət, keçmişimizi yaddaşımızda təzələmək istəyi və cəhdi var, lakin Valeh müəllimin evlə bağlı olan düşüncələri fikrimcə sırf sosial-mənəvi mahiyyət daşıyır.

Valeh müəllim açıq fikirli, dərin mühakimə sahibi olduğu üçün cəmiyyəti çulğamış bəla kimi kənddən şəhərlərə olunan güclü axının sonucda müsbət nəticə verməyəcəyini dərk etdiyi üçün narahatçılıq keçirir. S.Əhmədli ustalıqla yaratdığı bu obrazın vasitəsilə sənətkar uzaqgörənliyilə həyəcan təbili çalır. Valeh müəllimin yurd haqqında, ev haqqında fikirləri, planları dəyərlidir, hər bir kəsi içindən oynadacaq kəndə, təbiətin qoynuna qaytaracaq gücə malikdir. Lakin sona kimi həyata keçməyən məqsəd, çin olmayan arzu, gerçəkləşməyən, əməli ifadəsini tapmayan niyyət təəssüf hissi doğurur, ilk başda oyanan ümidləri boşa çıxarır. Ev tikməyə olan həvəs, istək yalnız onun düşüncə və xəyallarındadır. Valeh elinə, obasına aşiq olan Məcnun kimidir. O Leylası olan yurdunu sevir, lakin əməli addım atıb xəyallarını gerçəkləşdirmir, pul, xahiş, minnət gücünə onu əldə etmək istəmir. Bu cür yollarla tikəcəyi evin müqəddəsliyinə xələl gətirəcəyindən qorxur.

Ədəbiyyat

1. Ağaoğlu Ə. Üç mədəniyyət. Bakı:Mütərcim, 2006
2. Cabbarov N. Sözə bağlı ömür. "Azərbaycan"jurnalı. 1980, N:7
3. Cahangir Ə. Kitabi-Dədə Sabir. "Azərbaycan"jurnalı. 2000, N:7
4. Əhmədli S. Dünyanın arşını . Bakı: Yazıçı, 1984
5. Əhmədli S.Yasamal gölündə qayıqlar üzürdü . Bakı: Yazıçı, 1984
6. Hüseynov A. Sənət meyarı. Bakı: Yazıçı, 1986
7. Mədətov F.Sabir Əhmədlinin yaradıcılığı. Bakı.1998
8. Məmmədova S. Azərbaycan ədəbiyyatında yeni yaradıcılıq meyllərinin təşəkkülü (XX əsrin 80-90-cı illəri). Bakı.2009
9. Salamoğlu T. Müasir Azərbaycan romanı: janr təkamülü (XX əsrin 80-ci illəri). Bakı, Nafta-press, 2007
10. Yusifli V. Tənqid və bədii söz. Bakı: Mütərcim, 2002

Р.Мефтун кызы

Модель изменчивою времени и меняющиеся мира в современных романах

Резюме

Сабир Ахмедли-выдающийся представитель литературы Азербайджана. Писатель известен как самый плодородный романист своего времени. Эти произвидения и по тематике, и по идейному содержано- очень великолепные произведение.

В статье произведения Сабира Ахмедли представлены в контексте современного творчества. Писатель смог проанализировать и прояснить такие проблемы как роль и место личности, трудности, отношение человека и природы в нашем изменяющемся мире.

R.Meftunqizi

In modern roman's variable time and other world model

Summry

S.Ahmedli is a famous writer of Azerbaijan literature. Writer is famous that the most polific roman. Every this roman's according to the idea, content very excellent works. In article works S.Ahmedle that the modern roman creations. The stories and large- scale story's writer according to the idea, content, themes by value in all period preserved your weight.

In variable world the role and position of the person, the relations of man and nature by analyzing and solve the problems.

Rəyçi: Tofiq Hüseynov
filologiya elmləri doktoru, professor

ƏHMƏD ŞƏBANİ MİNAABAD
Bakı Dövlət Universiteti Şərqşünaslıq fakültəsi
ahmad.namin2012@yahoo.com

FARS ƏDƏBİYYATININ GÖRKƏMLİ YAZIÇI VƏ ŞAİRLƏRİNİN ƏSƏRLƏRİNİN QURANI KƏRIM AYƏLƏRİNDƏN, HƏDİSLƏRDƏN VƏ MÜTƏNƏBBİNIN ŞEİR DİVANINDAN İSTIFADƏ ETMƏKLƏ ƏN ÖNƏMLI STİL VƏ NÖVLƏRİ

Açar sözlər: önəmli metodlar, Qurani Kərim ayələri, hədislər, Mübtəninin şerləri, fars şerləri.
Key words: different ways of being influenced, verses of the Holy Quran, narrations, Mutanabbi's poems, Persian poems
Ключевые слова: нужные методы, стихи Корана, рассказы, стихи Мотанабби, персидские стихи.

İslam coğrafiyasında və xüsusilə İranda ərəb dilinin geniş yayılmasının səbəbi ondan ibarətdir ki, Allah öz Qurani Kərimini bu dildə göndərmişdir. Bu Quran mükəmməllik və ədəbilik baxımından elə bir əl çatmaz nöqtədə idi ki, hamının, xüsusilə də söz ustadlarının, ədəbiyyatçıların, incəsənət ustadlarının qəlbini ram edir və onları özünə məftun qoyurdu. Digər tərəfdən isə maarif, məna, quruluş və ehkam baxımından hamını heyran qoyur qəlblərin mənəvi susuzluğunu yatırırdı. Bütün bunlardan əlavə, o Məhəmməd peyğəmbərin möcuzəsi idi və o özü insanları təkallahlılıq uğrunda mübarizəyə qaldırmışdı. Bundan əlavə, onun dərin və möcüzəli bir daxili aləmi vardı. Bütün bunlar müsəlman tədqiqatçılarının Quranın mənəvi gözəlliklərinin və möcüzələrinin yenidən işıqlandırılması və onun daxili məzmunun yenidən açılması və onun daxilində verilmiş maarifçilik ideyalarının və əsaslarının şərh edilməsi və genişləndirilməsi sahəində mübarək tədqiqatlar aparmasına zəmin yaratdı. Bu tədqiqatların nəticəsində bir tərəfdən lüğətçilik, qrammatika, natiqlik, şərhçilik və s. kimi eləmlərin meydana gəlməsinə və inkişaf etməsinə, digər tərəfdən isə çoxlu sayda risalə və kitabların yazılmasına və sinifləndirilməsinə səbəb oldu.

Fars dilli şerin Quran və hədislərdən təsirlənməsini genişləndirən mədəni amillərin bir hissəsi aşağıda verilmişdir:

1. Şerin dini təbliğat vasitəsi kimi seçilməsi və bir sıra məktəblərin genişləndirilməsi üçün ondan istifadə. Bunun ən gözəl nümunələrini hicri təqviminin 5-ci əsrində Nasir Xosrovun yaradıcılığında görmək olar.
2. Şerin didaktik və ibrətamiz mövzular janrına çevrilməsi və ondan xalqın saflıq və paklığa qovuşması, bütün çirkinliklərdən uzaq tutulması üçün bir vasitə kimi faylanmaq. Bu cür yanaşmanı biz Nasir Xosrovun, Cəmaləddinin, Əbdülrəzzaqın, Sənayinin, Xəqaninin, Əttarın, Mövləvinin, Sədinin vəs. yaradıcılığında aydın şəkildə müşahidə edirik.
3. Şerin ürfan və təsəvvüfün aparıcı ədəbi janrına çevrilməsi, davranış kodekslərinin, dünyadan əl çəkmək və cənab Haqqa qovuşmaq kimi məsələlərin məhz bu janrla ifadəsi, bu yolda irəliləyən müridlərin şer yazması və tapdıqları gizli nəti-

cələri və şahidi olduqlarını bu janrla ifadə etmələri. Bunun ən gözəl və zərif nümunələrini Sənayinin, Əttarın, Mövlevinin, Hafizin və s.lərin əsərlərində görmək olar.

Məhşur və görkəmli ərəb şairləri arasında İraqın məhşur şairi, İslamın qızıl əsri adı ilə məşhurlaşmış Abbasilər sülaləsi dövründə yaşayan və Mütənəbbi adı ilə tanınan Əbu Təyyib Əhməd bin Hüseynin (miladi təqvimlə 915-ci ildə anadan olub) şerlərinin və kəlamlarının qüdrəti artıq neçə əsrdir ki, öz ana dili sərhədləri çərçivəsindən çıxmış və onun fəlsəfi, ürfani, əxlaqi məsələlərlə, Quranın gözəl mövzuları ilə zənginləşdirilmiş şerləri bir çox şer və söz ustadlarının diqqətini cəlb etmişdir. Şairin şer və ədəbiyyat sahəsindəki şöhrəti o dərəcədə geniş yayılmışdı ki, istisnasız olaraq heç bir başqa şer və şair haqqında onun qədər söhbət açılmamışdır. Keçmişdən indiyə kimi Misir, Livan, İran və s. kimi bir çox ölkələrdə onun şerlərinə 40-dan artıq şərh yazılmışdır. Onun şerləri İran və Azərbaycanın bir çox iki və daha çox dillərdə şer yazan Mövlana, Hafiz, Nizami, Xəqani, Saib Təbrizi kimi bir çox şairlərini öz təsiri altına almışdır. Onun təsiri altına aldığı şairlər arasında qərbdən Əbu Hani Əndəlusini də misal gətirmək olar.

Yazıçı və şairlərin əsərlərin təsirli metod və növləri

Sözlə təsir:

Bu təsir növündə şair özünün və ya başqalarının təsiri altında olduğu bir çox söz və tərkiblərdən istifadə edir. Yəni, onun istifadə etdiyi söz və tərkiblər birbaşa və ya dolayı yolla şairə və ya başqalarına dərin təsir göstərən söz və tərkiblərdir. Bu yolla da həmin söz və tərkiblər təkcə öz ədəbi əsərlərinə deyil digər millətlərin də ədəbiyyatına daxil olur. Belə söz və tərkiblərə misal olaraq Quranın ayələrini və peyğəmbər haqqında olan hədisləri göstərmək. Belə söz və tərkiblər həmin millətlərin ən qabaqcıl şair və yazıçıları tərəfindən istifadə olunmuş və sözlərin məna yükünün artırılmasına və gücləndirilməsinə və inkişafına xidmət göstərmişdir.

Sözlə təsirin özü də 3 yerə- alınma, tərcümə və nəticə çıxarma qruplarına bölünür.

1. Alınma: bu növdə həmin söz və Qurandan, hədislərdən və ya şerlərdən götürülmüş tərkiblər ərəb, fars və ya digər dillərdə işləndiyi orijinal quruluşunlarına heç bir dəyişiklik edilmədən və ya onun ərəbcə quruluşuna heç bir xələl gəlməmək şərti ilə azca söz və ya məna baxımından dəyişiklik edilərək fars və digər xalqların dilinə və ədəbiyyatına gətirilir. Buna aid misal kimi Mütənəbbinin şerlərində işlədilən "Uhud və zimən" sözlərinin eynilə götürülərək Hafizin şerlərində istifadə olunmasını göstərə bilərik.

لا أدَبٌ عِندَهُمْ و لا حَسَبٌ
و لا عُهُودٌ لهُمْ و لا ذِمَمُ

(Divanı, birinci cild, səh- 217, 3-cü beyt)

Tərcüməsi: nə ədəbləri var, nə razılıqları, nə əhd tanıyırlar, nə də peyman.

Hafiz isə özünün 315 nömrəli qəzəlinin 4-cü beytində deyir:

پیمان شکن هرآینه گردد شکسته حال
انّ العهودَ عند مليك النُّهي ذِمَم

Tərcüməsi: peymanlarını sındıranların öz əhdlərini tapdaladıqları üçün hər an halları pisləşə bilər. Amma həmin peymanlar ağıllı insanların yanında təhlükəsizlikdədirlər.

2. Tərcümə: bu üsulla şairlər sözləri və ya Qurandan götürülmüş tərkibləri ərəbcə quruluş xüsusiyyətlərini saxlamaq şərti ilə onlara azca dəyişilik etməklə tərcümə edirlər. Bu zaman tərcümələr öz əvvəlki xüsusiyyətləri saxlamaqla yanaşı fars dilinin xüsusiyyətlərini də mənimsəyirlər. Buna aid Mütənəbbinin aşağıdakı beytini misal verə bilərik:

بَيْضاءُ تُطْمِعُ فيها تَحْتَ حُلَّتِها
وَ عَزَّ ذٰلِکَ مَطْلُوباً إذا طُلِبا

(Divanı, birinci cild, səh- 223, 6-cü beyt)

Şərhi: şair burada deməkistəyir ki, məşuqun vüsalına çatmaq asandır, amma onun tələbləri çox çətindir. Xəqani də özdivanın 64-cü səhifəsindəki 3-cü beytində **تُطمِعُمَطلُوباً**sözlərini fars dilinə uyğun quruluşa salaraq aşağıdakı kimi işlətmişdir:

طمع آسان ولی طلب صعب است
صعبی یافت از طلب بتر است

Tərcüməsi: acgözlük və nəyisə istəmək asandır amma onun əldə olunması aydalarına riayət etmək istəməkdən xeyli çətindir.

3. Nəticə çıxarma qrupunda isə bir söz və ya tərkibə onların hır hansı bir şerdə, cümlədə, hədisdə, ayədə və s. işlənməsindən asılı olmayaraq ayənin, şerin və ya hədisin məzmununa uyğun olaraq quruluş verilir. Başqa sözlə desək bu cür söz və tərkiblər hər hansı bir hədis, ayə və ya şerdən çıxarılan nəticədir. Buna uyğun Mütənəbbinin aşağıda bir beyti verilmişdir:

کُلُّ شَیءٍ مِنَ الدِّماءِ حَرامٌ
شُرْبُهُ ما خَلا دَمَ الْعُنْقُودِ

(Divanı, birinci cild, səh- 133, 1-ci beyt)

Tərcüməsi: qandan olan hər bir şeyin içilməsi haramdır, üzüm salxımının qanı kimi

Şərhi: fars ədəbiyyatında "دم العنقود" tərkibi "üzüm suyu- qanı" mənasında işlədilmişdir. Buna görə də Hafiz sonda onun halal və pak olmayan insan qanına nisbətən halal və pak olmasını ağıllı bir şəkildə öz 25-ci qəzəlinin 7-ci beytində irəli sürür və deyir:

جه شود گر من وتو چند قدح باده خوریم
باده از خون رزانست نه از خون شماست

Tərcüməsi: mənim və sənin bir iki qədəh şərab içməmizin nə eybi varki? Bu şərab insan qanından olan şərabdan daha pakdır və üzüm salxımının qırmızı suyu sizin kimi insanların qanından daha pakdır.

Xəbər, cümlə və ya birləşmə şəklində təsir :

Bu təsirin özü də iqtibas və həll və ya təhlil kimi qruplara bölünür:

Iqtibas və götürmə : Bu növdə şair Qurandan və ya digər bir şerdən cümlə və ya bir tərkibi əvvəlki ərəbcə quruluşuna heç bir dəyişiklik etmədən və ya vəzninə ağırlıq gətirməmək şərti ilə kiçik bir dəyişikliklə öz şerində işlədir. Qurandan və hədislərdən bu cür istifadə müxtəlif məqsədlərlə bağlıdır.Təbrik etmə, bəyan və izah etmə, yada salma və diqqət çəkmə, təşbih və təmsil, bəzəmə, şahid gətirmə və istinad, incəliklərin sadalanması, savad və mədəniyyət nümayiş etdirmə kimi mövzuların hamısı iqtibasa zəmin yaradan bir çox mövzulardan hesab olunur. Misal üçün dahi Nizami Gəncəvinin "Sirlər Xəzinəsi" əsərindən aşağıdakı ayəni göstərə bilərik:

بسمِ اللّهِ الرَّحمنِ الرَّحيم

O, bu ayəni fəqət təbrik məqsədi ilə heç bir dəyişikliksiz iqtibas etmişdir.

بسمِ اللّهِ الرَّحمنِ الرَّحيم
هست كليد در گنج حكيم

Tərcüməsi: Bağışlayan və mehriban Allahın adı ilə başlayıram ki, onun adı Quran kimi bir xəzinəni açmaq üçün bir açar kimidir. Mütənəbbinin də aşağıdakı beyti böyük İran şairi Mövlana tərəfindən istifadə olunmuşdur:

فؤادٌ ما تُسَلّيهِ المُدامُ
وَ عيشٌ مِثلَ ما يَهَبُ الِئامُ

(Divanı, birinci cild, səh- 227, 1-ci beyt)

Tərcüməsi: Elə ürəklər var ki, mey və şərab onlara sakitlik və təsəlli verir, elə həyatlar var ki, insanlar üçün bədbəxtlik və rəzillik gətirir. Mövlana da "Şəms" divanının 2181-ci qəzəlinin 28-ci beytində Mütənəbbinin həminki beytindən ikinci misranı iqtibas edərək yazır:

خمش از پارسی تازی بگویم
فؤادٌ ما تُسَلّيهِ المُدامُ

Tərcüməsi: dodaqlar fars dilində danışmaqdan yumur və ərəb dili və ləhcəsi ilə bəstələyirəm, o qədər ürəklər var ki, şərab onlara təsəlli və sakitlik verir.

Təhlil: iqtibas və götürmədə bəzən müəllif vəzn və qafiyəni qorumaqdan ötrü ayə və hədislərin əsas quruluşlarına zərər yetirmədən azacıq düzəlişlər etmyə məcbur olur. Amma qeyd olunmalıdır ki, bir tərəfdən vəzn və qafiyənin sıxıcılığı, digər tərəfdən isə iqtibaslara olan həvəs bəzən şairi öz şerini ayə, hədis və məşhur bir kəlamla bəzəməkdən ötrü onlara həddindən artıq düzəliş etməyə və onların əvvəlki quruluşlarını pozmağa vadar edir. Ayə, hədis və ya məşhur bir şeri öz vəznindən kənarlaşdıracaq dərəcədə düzəlişlərə məruz qoymaq ədəbiyyatda təhlil adlanır. Möləvi öz "Məsnəviye mənəvi" əsərinin birinci cildinin 882-ci beytində yazır:

وين نفس جان های ما را همچنان
اندک اندک دزدد از حبس جهان

تا الی یصعد اطیاب الکم
صاعداً منّا الی حیث علم

Tərcüməsi: insanın aldığı hər bir nəfəs onu ölümünə yaxınlaşdırdığı bir addımdır. Bu addımlar bizim ruhumuzu dünya zindanından tədricən azad edir. Gözəl sözlər və pak niyyətlər insanı öz Allahına tərəf daha da ucaldır. Bu beytdə pak ruhlar gözəl sözlərlə ifadə olunmuşdur. Həmin beytin 3-cü misrası Quranın "Fatir" surəsinin 10-cu ayəsidir ki, orada Allah buyurur:

إلیهِ یَصعَدُ الکَلِمُ الطیبُ

Tərcüməsi: gözəl sözlər Allaha tərəf gedər.

Xəbər şəklində təsir:

bu cür təsirdə şair ayə, hədis və məşhur şairlərin şerlərini 2 cür- tərcümə və izahla fars dilinə tərcümə edir. Bəzən şairin adını çəkməklə onun sözlərini nəql edir, bəzən isə öz sözləri ilə verir :

1. Tərcümə: ayə, hədis və məşhur şairlərin şerlərini tərcümə digər tərcümələr kimi bəzən qapalı sözlərin təsiri altında, bəzən isə açıq və azad şəkildə edilir. Qapalı tərcümədə fars dilinə çevirilmiş mətn həm məna və məzmun baxımından ərəb dilindəki orijinalı ilə bərabər olur, həm də quruluş baxımından onunla ayaqlaşır. Bu növdə ayə, peyğəmbər kəlamları və məşhur şairlərin şerləri məna, məzmun və quruluşlarına heç bir dəyişiklik olunmadan fars dilinə tərcümə olunur. Məsnəviye mənəvidə, 2-ci cilddə, 845-ci beytdə deyilir:

آدمی مخفی است در زیر زبان
این زبان پرده است بر درگاه جان

Yuxarıdakı beytin ilk misrası Əmirəl möminin aşağıdakı sözünün qapalı tərcüməsidir:

اَلمَرءُ مَخبُوءٌ تَحتَ لِسانِهِ

Tərcüməsi: insan öz dilinin altında gizlənir.

Mütənəbbi də yazır:

وَ جُرْمٍ جَرَّهُ سُفَهاءُ قَوْمٍ
فَحَلَّ بِغَیْرِ جانِیهِ الْعَذابُ

(divanı, 2-ci cild, səh-160, beyt 2)

Tərcüməsi: ağılsızların törətdikləri çoxlu günahların cəza və işgəncələri günahsızlara çatır.

Saib Təbrizinin aşağıdakı beyti də Möbtəninin yuxarıda verilmiş beytinin qapalı tərcüməsidir:

بیگناهان در غضب حدّ گنهکاران خورند
می زنند از خشم ، شیران بر زمین دنبالها

(divanı, birinci cild, səh-155-156, 303 nömrəli qəzəli)

Tərcüməsi: insan əsəbləşdiyi zaman günahsızları belə günahkarlar qədər cəzalandırır, şirlər də əsəbləşdikləri zaman öz günahsız quyruqlarını şiddətlə yerə çırpırlar.

2. Təfsir (izah): Bu növdə şair ayə, hədis və ya bir şrin məğzvə məzmununu açıb onu öz şerində şərh edirMütənəbbi yazır:

خُذْ ما تَراهُ و دَعَ شیئاً سَمِعْتَ بِه
فی طلْعَةِ البَدْر ما یُغْنیکَ عَنْ زُحَل

(divanı, 2-ci cild, səh-105, beyt 3)

Beytin tərcüməsi: gördüyün yerə get, eşitdiyini boş ver. Çünki, günəşin üzünə olan şey səni Satruna gtmək üçün ehtiyacsız edəcək. Mövlana da yuxarıdakı beytin məzmununa diqqət yetirərək öz "Məsnəviye mənəvisində" 5-ci cild 3907-3910-cu beytlərdə ətraflı izah verir.

کرد مردی از سخندانی سؤال
حقّ و باطل چیست ؟ ای نیکو مقال
گوش را بگرفت و گفت این باطلست
چشم حقّ است و یقینش حاصلست
آن به نسبت باطل آمد پیش این
نسبتست اغلب سخن ها ای امین
ز آفتاب ار کرد خفّاش احتجاب
نیست محجوب از خیال آفتاب

Tərcüməsi: bir nəfər gözəl nitq qabiliyyətinə malik söz ustadına haqla batil haqqında və onların arasında olan fərq barəsində sual verir. Həmin söz ustadı onun qulağından tutmaqla deyir ki, bu qulağın vasitəsilə eşitdiyin hər bir söz onun həqiqət qarşısında nə dərəcədə düzgün olmasını müəyyənləşdirmək imkanının olmamasına görə gözün qarşısında batildir. Göz və gözün müşahidə edərək şahid olduqları isə həqiqətdir və bu həqiqət sanki varlığı hətta kor olan yarasalara belə məlum olan günəş kimidir.

Istinadla təsir :

Bu növdə şair öz sözünü Quran ayəsi, rəvayət və ya bir şerin təsiri ilə ilhamlanaraq yazır. Amma bilərəkdən bu şeri yazarkən bir işarə və ya əlamətdən istifadə edir. Bu cür yolla şair ədəbiyyatla tanış olan öz oxucularını qabartmaq istədiyi məqamlara istiqamətləndirir. Digər trəfdən isə ədəbiyyatla tanış olmayan oxucuları axtarış aparmağa, maraqlanmağa vadar edir. Bu cür istinadla təsirlənmənin ən böyük fərqi də məhz budur. Buradakı işarə və aləmatlər daha çox ayələrdən, hədislərdən və ya şerlərdən sitatlar gətirməklə yaradılır. Böyük ərəb şairi Mütənəbbi yazır:

وَ فُتّانَة العَیْنَیْن قَتّالَة الْهَوَی
إذا نَفْحَتْ شَیْخاً رَوائِحُها شَبّا

(divanı, 2-ci cild, səh-86, beyt 7)

Tərcüməsi: o iki gözləri aşiqin qəlbini aldadan yarın gözləri xatirimdən keçdi, o yarın ki, gözəl ətri bir qocanın burnuna dəysə cavanlaşar.

Böyük İran şairi Hafiz Şirazi Mütənəbbinin yuxarıdakı beytinin məzmununu saxlamaq məqsədi ilə özünün 336 nömrəli qəzəlinin 6 beytində cavanlıq və qocalıq dövrlərinə işarə edən شَبا və شَیخsözlərinin dəqiq mənasını götürməklə özünün Mütənəbbidən təsirlənməsi göstərməklə bərabər ondan daha gözəl bir şəkildə yazır:

گرچه پیرم تو شبی تنگ در آغوشم کش
تا سحرگه ز کنار تو جوان برخیزم

Tərcüməsi: Əgər mən qoca və zəif olsam da sən məni bir gecə möhkəmcə ağuşuna alsan inan ki, səhər sənin yanından avan bir oğlan kimi qalxacam.

Təfsir şəklində təsirlənmə :

Bu növdə şair öz diqqətini çəkən ayə, hədis və ya bir şerin təfsiri, şərhi və ya izahını verir. Öz diqqətini çəkən ayə, hədis və ya bir şerdən yeni təfsir verməklə gözəl və dərin mənalar yaradır. Digər açıq və gizli təsirlənmələrdən fərqli olaraq bu təsirlənmə həmişə aşkar şəkildə olur. Mütənəbbi öz şerlərində yazır:

وَ فِی الیَمِیْنِ عَلَی مَا أ نْتَ وَاعِدُهُ
مَا دَلَّ أَنَّکَ فِی المِیْعادِ مُتَّهَمُ
(divanı, 2-ci cild, səh-210, beyt 2)

Tərcüməsi: söz verdiyin bir şey üçün and içmənin özü onu göstərir ki, sən öz vədəndə dürüst deyilsən. Saib Təbrizi də özünün 1049-cu qəzələninin 9-cu beytində yuxarıdakı beytin məzmununa uyğun təfsir verərək yazır:

هیچ برهانی برای کذب چون سوگند نیست
راستی چون پرده بردارد ، قسم نامحرم است

Öz sözünün düzgünlüyünü bildirmək üçün and içmək onun yalan olmasını bildirən ən böyük dəlildir. Çünki, sözün doğruluğu aşkara çıxdıqda onun and içməyə ehtiyacı qalmır. Başqa bir yerdə 1669-cu qəzəlinin 4-cü beytində yazır:

سخن شمرده وسنجیده گوی بی سوگند
که شاهد سخنان دروغ ، سوگند ست

Tərcüməsi: öz sözlərini ölçüb- biçib andsız amansız de. Çünki, sözün yalan olmasını göstərən şey elə and içməkdir.

Müqayisəli təsir :

Bu növ təsir bir baxışdan təfsirlə təsirə yaxndır. Burada yazıçı və ya şair ilk baxışdan əlaqəsiz görünən ayə, hədis və ya beytləri bir- biri ilə müqayisə edir. onlar bu cür müqayisəni ayə, hədis, büytlərin daxili və zahiri mənalarına heç bir tənqid, inkar, təfsir, izah etmədən edirlər. Burada demək olar ki, adətən ayə, hədis və beytlərin əsas və ilkin mənalarına diqqət yetirmirlər. Müqayisəli təsiri təfsirlə təsirdən fərqləndirən ən böyük amil də məhz budur. Yəni, təfsirlə təsirdə ya bir növ anlaşılması zahirən çətin olan bir ayə, hədis və ya beytin təfsirindən ibrətamiz və ürək oxşayan mənaların çıxarılmasına çalışılır, ya da şairin diqqətini çəkən ayə, hədis və

ya beytin həqiqi dərinliyini və daxili aləmini müəyyənləşdirməyə çalışılır. Amma müqayisəli təsirdə bunların heç biri yoxdur. Bu növ təsir iki ayrı ayə, hədis və ya beytin bir- birinə birləşdirilməsi və birinin digəri üzərində müqayisəsi üzərində şairin hazırcavablığını və zövqünü göstərir. Bu cür birləşdirmədə təşbih və təmsilinin bir-birinə birləşdirilməsi kimi onların arasında heç bir zahiri əlaqə mövcud deyil. Buna görə də Quran və hədislərlə müqayisə olunan təşbih və təmsilləri də təsvir ilə təsirlə yanaşı müqayisəli təsir də hesab etmək olar. Allah Quranda "Kəhf" surəsinin 18-ci ayəsində buyurur:

وَ تَحسَبُهُم اَیقاظاً وَ هُم رُقُودٌ وَ نُقَلِّبُهُم ذاتَ الیَمینِ وَ ذاتَ الشِّمال

Tərcüməsi: "Əgər sən "Əshabi Kəhf"-i görsəydin oyaq sanardın. Halbuki, onlar yatıblar və biz onları bəzən sağa və sola döndəririk". Bu ayənin məzmunu "Əshabi Kəhf"lə (yeddi kişi) bağlıdır. Böyük İran şairi Mövlana onların vəziyyətlərini Allahın peyğəmbərləri ilə müqayisə etmiş, onların yatmışla ayıq vəziyyətlərini, onların yoxluq və ixtiyarsızlıq vəziyyətlərini, onların sağa və sola hərəkətlərini Allah tərəfindən edilən hərəkətlərilə müqayisə etmiş və öz Məsnəviye mənəvisində 1-ci cild 3187-3190-cı beytlərdə yazır:

اولیا اصحاب کهفند ای عنود
در قیام و در تقلّب هم رقود
می کشدشان بی تکلف در فعال
بی خبر ذات الیمین ذات الشمال
چیست آن ذات و الیمین فعل حسن
چیست آن ذات الشمال اشغال تن
می رود این هر دو کار از اولیا
بی خبرزین هردوایشان چون صدا

Tərcüməsi: ey inadçı və hər şeyi tənqid edən insan. Allahın Peyğəmbərləri Əshabi Kəhf kimidirlər. Hər zaman hərəkət edir və dəyişirlər. Dünyada uyur, cənabi Haqqın dərgahında oyaqdırlar. Allah onları heç bir zəhmətsiz işlərə göndərir, özlərindən xəbərsiz onları sağa, sola döndərir. O sağ tərəf nədir? Birbaşa olaraq pak və mömin bir varlıq. Nədir o sol tərəf? Birbaşa maddiyat və dünya işləri. Bu iki hal hətta peyğəmbərlərdə də vardır. Amma onların bu iki anlayışdan xəbərləri yoxdur və sanki bir maneəyə dəyib əks olunan səs kimidir.

Təsviri təsir :

Bu təsir növündə şair öz şerinin təsvirini Qurandan, hədis və bir şerdən götürür. Onun bu təsvirdə məqsədi müxtəlif rollar, surətlər və obrazlar yaratmaqdır ki, buna da ədəbiyyatda təşbih, istiarə, məcaz, kinayə kimi müxtəlif adlar qoyulmuşdur. Buna görə də şair bir ayə və ya hədisdə verilmiş hər hansı bir məcaz, kinayə və ya istiarəni götürərək birbaşa və ya dolayı yolla öz şerində əks etdirir. Həmçinin şair öz istədiyi spzləri də bu bədii üsullar vasitəsilə də ifadə edə bilər. Məsələn Qurandan və ya rəvayətlərdən bir məqamı öz təşbih və təmsilləri ilə müqayisədə verir. Sənayi öz divanının 57-ci səhifəsində yazır:

مگردان عمر من چون گل که در طفلی شود کشته
مگردان حرص من چون مُل که درپیری شود برنا

Tərcüməsi: ey Allahım! Mənim də ömrümü güllərin ömrü kimi qısa eləmə. Yoxsa məndə uşaqlıqda qırdığımız çoxlu güllər kimi nakam ölüb gedəcəm. Şərab bir ömürdən sonra necə tündləşirsə qocalıqda hirs və nəfs də canlanmağa başlayır. Buna görə də ey böyük Allahım! Mənim ömrümü o qədər uzun eləmə ki, mən də öz nəfsimin əsiri olum.

Ikinci misranın təsviri, yəni, qocalıqda cavanlaşmaq Həzrət Rəsuli Əkrəmin "Mizanəl Hikmət" əsərinin 10-cu cildinin 29-cu səhifəsindəki bu beytindən götürülmüş ola bilər.

يَهرَمُ ابنُ آدَم وَ يَشُبُّ فيهِ خَصلَتانِ :« اَلحِرصُ عَلى المالِ وَالحِرصُ عَلى العُمر

Tərcüməsi: insan övladı qocaldıqca onun istəkləri- mala- mülkə və yaşamağa olan nəfsi daha da cavanlaşır.

Struktur baxımından – üslubi təsir :

Bu növdə şair Qurandan və ya hədisdən bir quruluşu nümunə kimi götürür və öz sözünü həmin quruluşla eyni bir quruluşda verir. Nümunə kimi Mövlana Cəlaləddin Məhəmməd Bəlxinin məsnəvisini göstərə bilərik ki, onun quruluşu müqəddəs Quranın quruluşu ilə müəyyən yaxınlıq v oxşarlıqlara malikdir. Bunun səbəbi isə ondan ibarətdir ki, Quranın üslubi xüsusiyyətləri biri digərinin üzərində, getdikcə dərinləşən və bir-birinə qarışan bir strukturla qurulmuşdur. Amma bu müqəddəs kitabla ilk dəfə tanış olan tədqiqatçılar ilk başda belə fikirləşirlər ki, surələrdə düzülən ayələr, digər tərəfdən isə bütün Quranda verilən surələr bir- birilə heç bir əlaqəyə malik deyil və təsadüfi olaraq yığılmışdır. Amma daha sonradan Quranla tanışlığını genişlədirən tədqiqatçılar görürlər ki, zahirən bir- birilə əlaqəsiz və təsadüfi görünən ayələr və surələr daxilən gizli bir əlaqəyə malikdirlər. Bu əlaqələr isə çox dərin, geniş və olduqca möhkəmdir. Əgər onlardan birini götürüb digərinin yerinə qoysaq üslub və vəzn baxımından onların arasında uyğunsuzluq meydana gələcəkdir. Mövlananın da məsnəvisindəki mövzular da zahiri baxımından bir- birilə əlaqəsiz görünür. Bəziləri elə düşünürlər ki, əlaqəsiz, nizamsız, ordan- burdan yığılmış, məzmunca bir- birindən ayrı məqalələr və digər mövzulardan ibarət bir məcmuə kimi təsəvvür edirlər. Amma məsnəvinin daxili aləmini və məzmununu anlaya bilən insanlar bu pərakəndə və məzmunca ayrı-ayrı məqalələrdən ibarət məcmuə kimi düşünülən bu əsərdə verilən mövzuların hər birinin bir- biri ilə gizli əlaqəyə malik olduğunu görür. Mövlana daim Qurana bağlı bir insan olduğundan öz məsnəvisinin hər bir səhifəsində ondan bəhrələnmiş və heç də təsadüfi deyildir ki, o, öz məsnəvisinin quruluşunu Quranın quruluşuna uyğun bir şəkildə vermişdir. Quranda Ənfal surəsinin 17-ci ayəsində Allah buyurur:

... وَ مَا رَمَيْتَ إِذْ رَمَيْتَ وَ لكِنَّ اللَّهَ رَمَي وَ لِيُبلِيَ الْمُؤمِنِينَ مِنْهُ بَلاءً حَسَناً ، إِنَّ اللَّهَ سَمِيعٌ عَلِيمٌ

Tərcüməsi: Sənin atdığını (Ey peyğəmbər! Sənin onlar tərəfə atdığın oxu) sən yox Allah atıb (bəli Allah kafirləri məğlub etmək istəyib) və möminləri gözəl

bir sonluqla sınayıb. Buna görə də Allah eşidən və biləndir. Mövlana da yuxarıdakı ayənin təsiri ilə "Məsnəviye mənəvinin" birinci cildinin 616-cı beytində yazır:

گر بپرّانیم تیر آن نی ز ماست
ما کمان و تیر اندازش خداست

Tərcüməsi: Əgər biz öz vücudumuzdan kaman düzəldib onunla söz və ya düşüncələrimizi oxla atsaq əslində bu bizim tərəfimizdən icra olunmur. Çünki, biim bütün ixtiyarımız Allahın əlindədir. Çünki biz bir kaman kimiyik və bu kamandan da ox atan Allahdır. Zahiri quruluş və mənəvi dərinlikdən əlavə Quranla Məsnəvi arasında digər quruluş oxşarlıqları da mövcuddur. Buna misal olaraq deyə bilərik ki, Quranda Surələr, surələrdə isə ayələrlə sinifləndirmədən başqa heç bir sinifləndirmə mövcud deyil. Məsnəviye mənəvi də sinifləndirmə baxımından dəftərlərə (cildlərə), dəftərlər isə dastanlara bölünür. Digər tərəfdən Quran nazil olarkən "oxu!" (اقرأ)ilə başlamış, məsnəviye mənəvi isə buna uyğun olaraq "eşit!" sözü ilə başlanmışdır.

بشنو این نی ، چون حکایت می کن
از جدایی ها ، شکایت می کند

Tərcüməsi: bu neyin nalərinə qulaq as ki, ayrılıqdan və hicrandan şikayətlənir.

Mütənəbbi də Allahın kəlamlarına böyük məhəbbət bəsləmiş və onun divanının hər bir parçası Allahın gözəl kəlamlarının xoş ətri ilə bəzədilmişdir.

Allah Quranda, Bəqərə surəsinin 264-cü ayəsində buyurur:

يَا أَيُّهَا الَّذِينَ ءَامَنُواْ لاَتُبْطِلُواْ صَدَقَاتِكُم بِالْمَنّ وَ الأذَى ...

Tərcüməsi: ey iman gətirənlər! Öz sədaqətinizi minnətlərə və qınamalara görə korlamayın. Mütənəbbidə yuxarıdakı ayənin təsiri ilə yazır:

يُعْطى فَلا مَطْلَةً يُكَدّرُهَا
بِهَا وَ لا مَنّةً يُنَكّدُهَا

(divanı, ikinci cild, səh -120, beyt 1)

Tərcüməsi: dayanmadan hədiyyə edir və minnət qoymaqla öz hədiyyəsinin dəyərini azaltmır.

Nəticə

Şairinin şerinin onun şəxsiyyətinin, daxili aləminintəcəssümü olduğu fikrini qəbul edərkən müxtəlif istisnalar ortaya çıxır. Amma şairin geniş şəkildə şerlərində təcəssüm olunan bildikləri və öyrəndiklərinin onun intellekt və zövqünün əsasını təşkil etdiyi məqamına diqqət yetirsək artıq heç bir şübhə yeri qalmır. Bəli, şair öz xəzinəsini öyrəndikləri və bildiklərindən alır, onları öz coşqun sinəsində öz hiss və xəyalları ilə boyayaraq bu qarışıqda oxucunun və dinləyicinin zövqünə uyğun müxtəlif mənzərələr və tablolar yaradır. Məhz bu səbəbdəndir ki, biz şairin hiss, həyəcan və xəyalları ilə yoğrulmuş şerlərində əfsanə, tarix, tibb, astranomiya, fəlsəfə və s. sahələrdən qaynaqlanan müxtəlif amillərə rats gəlirik. Bu amillər isə şairin öyrəndikləri və bildikləri ilə sıx şəkildə bağlıdır. Buna görə də, əgər şairlər ayələr-

dən, hədislərdən və ya Mütənəbbi kimi böyük ərəb şairlərinin şerlərindən məlumatlı olsalar bu amillərin də onların şerlərində təcəlli etdirilməsi çox təbii bir hadisə olardı.

Ədəbiyyat

1. Qurani Kərim
2. Əşşeyx Nasif Əlyazci, 2003, Ələrəf Əltəyyib Fi şərhe Divani Mütənəbbi, Doktor Yasin Əyyubinin təqdimatında, Beyrut, Darülməktəbülhəlal.
3. Hənna Əlfərruxi, 1368, Ərəb dilli ədəbiyyat tarixi, Əbdülməhəmməd Ayətinin tərcüməsi ilə, II nəşr, Tus nəşriyyatı.
4. Edvard Braun, 1335, İran ədəbiyyat tarixi, Paşa Salehin tərcümə və redaktəsində, Tehran, II nəşr, İbn Sina kitabxanası.
5. Nikelson Renold Dallin, 1380, Ərəb ədəbiyyatı tarixi, Kivanduxt Keyvaninin tərcüməsində, I nəşr, Vistar nəşriyyatı.
6. Zəbiollah Səfa, 1369, İranda ədəbiyyat tarixi, X nəşr, Tehran, Firdovsi nəşriyyatı.
7. Sirus Şəmisa, 1378, Şer üslubiyyatı, Tehran, IV nəşr, Firdovsi nəşriyyatı.
8. Bədiüzzaman Foruzanfər, 1362, Məxəze Qesəs və Təmsilate məsnəvi, III nəşr, Tehran, Əmirkəbir nəşriyyatı.
9. Bəhaəddin Şəmsəddin Məhəmməd Hafiz, 1375, Divan, Xəlxəli nüsxəsi əsasında və Badeliyan nüsxəsi ilə qarşılaşdırma əsasında, Nilufər Xürrəmşahi nəşriyyatı, II nəşr.
10. Əfzələddin Bədil bin Əli Nəccar Xaqani Şirvani, 1374, Divan, Ziyaəddin Səccadinin redaktorluğu ilə, V nəşr, Zəvvar nəşriyyatı.
11. Kərim Zamani, 1378, Məsnəviye Mənəvinin şərhi, V nəşr, Ettelaat nəşriyyatı.
12. Nizami Gəncəvi, Sirlər Xəzinəsi, Seyyid Həmidiyanın redaktəsində, Sareng nəşriyyatı, Qətre nəşriyyatı.
13. Saib Təbrizi, 1383, Divan, Məhəmməd Qəhrəmanın redaktəsi ilə, IV nəşr, Elmi və mədəni nəşrlər nəşriyyatı.
14. Sənayi Qəznəvi, 1375, Divan, Müdərris Rızaəvinin redaktəsində, Tehran, Sənayi kitabxanası nəşriyyatı.
15. Ünsüri Bəlxinin şerlər divanı, Məhəmməd Dəbir Səyyaqinin redaktəsi ilə, Sənayi kitabxanası nəşriyyatı.

Ahmad Shabani Minaabad

Types and Varieties of Affectedness of the Works of Prominent Poets and Writers of Persian Literature by the verses of the Holy Quran, Traditions and Poetry Collection of Mutanabbi

Abstract

Advantages taken by Persian poets of the verses of the Holy Quran, traditions, and poems of the great Arabian poets such as Mutanabbi, just like other advantages taken from any other literary phenomena has various ways and forms; ways and forms that are not at the same level and weight concerning from the both viewpoints of emergence and hiddenness, and artistic and rhetorical; that is advantages taken by them are sometimes obvious and clear and everyone who is a bit familiar with these categories, understands them easily and very quickly, and some other times

they are covered and hidden, so that if someone is not enough familiar with these categories and does not take necessary steps towards investigation, then he will not achieve them; just as the advantages taken by them are sometimes artistic and sweet and in other times they are stereotypical and not very pleasant.

Ахмед Шабани Минаабад

Самые важные стили и разновидности произведений выдыющихся поэтов и писателей персидской литературы при использование стихов, рассказов из Корана и стихотворного дивана Мотанабби

Резюме

Пользование персоязычных поэтов из стихов, рассказов Корана и великих арабских поэтов как Мотанабби, наблюдаются своеобразными видами и разновидностями при пользование иных литературных чуждых элементов. Эти формы и методы хотя из точки зрения скрытости и открытости и хотя с точки зрения литературности и совершенства не были в одном уровне. Тоесть воспользование их этими факторами иногда до такой степени выявляются открыто и ясно, что каждый имеющий понятие об этих задачах может очень легко наблюдать это. А иногда они пользуются ими так скрыто и незаметно, что не мыслящий в этой части и не обратящий нужное внимание к этим задачам люди не смогут его различать. Иногда воспользование ими бывает литературным и сладким, иногда грубым и неприятным.

Rəyçi: Akademik V.M.Məmmədəliyev

AYGÜL ZÜLFÜQAROVA-MUSAYEVA
AMEA Əlyazmalar İnstitutu

KOCA RAQIB PAŞA "DİVAN"I ƏLYAZMALARININ ANKARA NÜSXƏLƏRİ

Açar sözlər: Koca Mehmet Raqib Paşa, əlyazmaları, Divanı əlyazmalarının Ankara nüsxələri, elmi-paleoqrafik təsvirlər.
Ключевые слова: Коджа Рагиб Паша, рукописи, рукописи Дивана в Анкаре, научно-палеографические описания.
Key word: Goja Raqib Pasha, manuscripts, Ankara copies of Divan, scientific-paleographical descriptions.

Koca Mehmed Raqib Paşa XVIII əsrdə Osmanlıların yüksək mövqe, elmi məqam və ədəbi şöhrət qazanmağa nail olmuş şəxsiyyətidir. Nasir, şair, tərcüməçi kimi üç dildə yazıb-yaradan Rağib Paşanın əsərlərinin tarixin yaddaşında qalan, bəzisi hətta avtoqraf sayılan əlyazmaları - "Təhqiq və Tovfiq"inin, "Səfinətül-Raqib"inin, "Məcmuə"sinin, "Münşaat"ının və sairə əsərlərinin, xüsusilə "Divan"ının nüsxələri fərqli məmləkətlərin, daha çox isə Türkiyənin əlyazma xəzinələrində mühafizə olunmaqdadır.

Qaynaqlarda Ragıb Paşanın şeirlərini bir Divan halında toplamadığı göstərilir, qeyd olunur ki, bunlar sonradan Müstəqimzadə tərəfindən tərtip edilərək Divan halına gətirilmiş və daha sonralar isə "Münşəat"ı ilə birlikdə h. 1253 (m.1837)-cü ildə Bulaqda basılmışdır . Divanda Raqib Paşanın öz dövrünün böyükləri üçün yazdığı bir neçə qəsidəsi ilə yanaşı bir çox təxmisləri, qəzəl və sairə şeirleri yer almaqdadır. Mütəxəssislər etiraf edirlər ki,ümumilikdə bütün əlyazma irsi kimi gəzəlləri də daha çok hikəmi - fəlsəfi özəllikləri ilə tanınmış və sevilmiştir. Divanın əlyazma nüsxələri dünyanın bir çox kitabxanasına yayılmıştır. Divan üzərində araşdırmalar aparan Ömər Dəmirbağ 1999-cu ildə Van Yüzüncü Yıl Üniversitesinde bir doktora tezi hazırlamışdır . Ankara Milli Kitabxanasında "Divani-Raqib"in 12 nüsxəsini aşkarlamişiq. Bu nüsxələr haqqında "Milli kütüphane yazmalar (Türkçe divanlar) kataloğu"nun 2001-ci ildə Ankarada nəşr olunan VI cildində bilgi verilmişdir (s. 244- 249, №491- 502). Ankara Milli Kitabxanasındakı Raqib Paşa Divanı əlyazmalarının qısa elmi-paleoqrafik təsvirlərini təqdim edirik:

1. **راغب، قوجه محمد پاشا . ديوان** Raqib, Koca Mehmed Paşa Divanının **F. B. 356** şifrli bu nüsxəsi

نقدر اولسه ادب پرده کش راز بکا شوخی اشکم اولور آهله غماز بکا

Nə qədər olsa ədəb pərdəkeşi-raz bana, Şuxi-əşkim olur ah ilə ğəmmaz bana.
beyti ilə başlamaqdadır. Həcmi 1I+41 vərəq, ölçüsü 20,5x14,1(14,2x7,9) sm, kağızı üzümlü taç filigranlı, sətir sayı 14, xətti təliq, köçürülmə tarixi h.1147 (m.1734)-ci ildir. Vərəqlərin böyük qismində qurd yeməsi əlamətlətləri görünməkdədir. Üst tərəfi dağınıq, altı və kənarları qəhvə rəngli meşin, kağız qablı bir cild içərisindədir.

دخی چوق کیمسه بزم کبی کلوب کتسه کرك بویله در فاعدهء وضع سپهر ودآدر Dəxi çoq kimsə bizim kibi gəlüb-getsə gərək, Böylədir faidəyi- vəzi-sipehrü dadər
beytiylə sona yetməkdədir. Əlyazmada 174 gəzəl, 4 tarix, 3 muxəmməs, 2 qitə vardır. Üzərindəki qeydlərdən görünür ki, Fahri Bilgə varislərindən satın alınmıştır (

№ 491). **Fahri Bilge** əfəndi (1879-1950) din alimi,müderris ve bir sıra orijinal əsərlərin müellifdir. Konyanın Taşkent qəzasının Pirlerkondu köyündə doğulub. Sivaslı Ali Kemali əfəndidən dərs alıb, Nəqşbəndi- Xalidi şeyxlərindən Bahaəddin əfəndiyə intisab edib. Fahri Bilgəyə məxsus olmuş geniş həcmli, zəngin əlyazma kolleksiyası hal-hazırda Ankara Milli kitabxanasında mühafizə olunmaqdadır. Raqib Paşa Divanın burada bilgi verdiyimiz bir neçə nüsxəsi məhz həmin kolleksiyadandır.

2. **راغب، قوجه محمد پاشا . ديوان** Raqib, Koca Mehmed Paşa Divanın **F. B. 196** şifrli bu nüsxəsi

حبذ افرخنده شب صدر ليلة القدرش فدا ميشود كرد سر صحش هزار ايام عيد Hebza

fəxündə şəbi-sədr leyləti-l-qədrəş fəda,

Mişəvəd kərd sərsəhəş hezar əyyami-eşq

beyti ilə başlamaqdadır. Həcmi 25 vərəq, ölçüsü, 21,8x16,2(15,9x12,2) sm, sətir sayı 15, kağızı xoruz filigranlı, xətti nəsx, köçürülmə tarixi h. 1172 (m.1758)-ci ildir. Cədvəllər qırmızı mürəkkəblədir. Arxası yıpranmış qəhvə rəngli meşin, səthləri əbru kağız qaplı bir cild içərisindədir.

بيكده برواقع اولور بويله دلار اتاريخ اولدى كونه طرب آور هبة الله سلطان

Bində-bir vaqe olur böylə dilar atar yox,

Oldi günə tərəb avər hübbətullah sultan

beytiyle sona çatmaqdadır. Divana 1 qitə, 87 gəzəl, 1 müxəmməs və 1 tarix daxildir. Nüsxə Fahri Bilgə varislərindən satın alınmıştır (№ 492).

3. **راغب، قوجه محمد پاشا . ديوان.** Raqib, Koca Məhməd Paşa Divanın **A. 1632/3** şifrli bu nüsxəsi

ايدنجه خامهء سحر آفرينم خرده جولانى اولور نقش هر طاوس داغ حسرت مانى

Edincə xaməyi-sehri- afərinəm xürdə cevlani,

Olur nəqşi hər tavusi-dağı-həsrət mani

beyti ilə başlamaqdadır. Həcmi əlyazma kitabının 202b-250a vərəqlərini əhatə edir, ölçüsü 21,2x14,3(14,8x8,6) sm, sətir sayı 15 xətti təliq, kağızı hərf filigranlı krem rəngli, köçürülmə tarixi h.1183 (m.1769)-cü ildir. Katibi Müdərris Nedimdir. Mətn boyunca başlıqlar qırmızı mürəkkbəblədir. Albalı rengi meşin cild içərisindədir.

شعلهء ادراك خرمنى سوز ثروتدر بكا آب اوسيلاب سامان و تائتدر بكا

Şöləyi-idrak xərmənsuzi-sərvətdir bana, Ab o seylabi- samanü tayətdir bana

beyti ile sona yetməkdədir.Tərkibində 1 qəsidə, 6 tarix, 141 gəzəl, 4 təxmis, 6 rübai, 3 mətlə vardır (№ 493).

4. **راغب، قوجه محمد پاشا . ديوان.** Raqib, Koca Mehmed Paşa Divanın **A. 7254/2** şifrli bu nüsxəsi

نه عجب سرعتله كلدى بو ييل ماه صيام چكدى بر باش كلوب بلدهء بغداده لجام

Nə əcəb sürətilə gəldi bu yıl mahi-səyam,

Çəkdi bir baş gəlüb bəldəyi-Bağdadə- l-əcam

beyti ilə başlanır. Həcmi 7-47a vərəqlərini əhatələyir, ölçüsü 21,4x15(16,2x10,1) sm-dir. Sətir sayı 21, kağızı incə ipək, xətti nəsx, katibi Numan Necib, tarixi h. 1201 (m.1786/87)-ci ildir. 7b, 16b vərəqlərindəki mehrabiyyələr müzəhhəp rəngli naxışlıdır. Cədvəllər və başlıqlar qırmızı mürəkkəblədir. Cildi albalı rəngli şəmsəli meşindir.

شعلهء ادراك خر منسوز ثروتدر بكا آب رو سيلاب سامان دناء تدر بكا

Şöləyi-idraki- xərmənsuzi-sərvətdir bana, Abi-ru seylabi- samanü dənayətdir bana

beyti ilə bitir. Divanda 3 qəsidə, 8 tarix, 4 təxmis, 166 qəzəl, 9 qitə, 3 mətlə vardır. 48b vərəqində farsca 2 beyt, 49b vərəqində Sədinin bir beyti yazılıdır. Nüsxənin Turan Şipsadan satın alındığı bildirilir (№ 494).

5. **راغب ، قوجه محمد پاشا . ديوان.** Raqib, Koca Mehmed Paşa Divanın **F. B. 294/2** şifrli bu nüsxəsi

ايدنجه خامه سحر افرينم خرده جولانى اولدور نقش هر طاوسى داغ حسرت نانى

Edincə xaməyi-sehri- afərinəm xürdə cevlani,
Oldur nəqşi hər tavusi-dağı-həsrət nani

beytiylə başlamaqdadır. Həcmi 83b-135 vərəqlərini əhatə edir.Ölçüsü 21x14,3-(13x7,5) sm, sətir sayı 15, xətti təliq, kağızı hərf filigranlı, bəzi vərəqlərində rütubət ləkələri görünür. Başlıqları qırmızı mürəkkəblədir. Qəhvə rəngli meşin cild içərisindədir.

تهى مغز نشاطم كاسئه طنبوروش راغب فلك كوش ايلمم را مشكر بزم ايتسه ناهيدى

Töhi məğzi-nişatəm kasəyi- tənburvəş, Raqib,
Fələk guşi-l-məmra məşkəri-bəzm etsə Nahidi

beytiyle sona çatmaqdadır. Nüsxədə 1 qəsidə, 6 tarix, 3 təxmis və 150 qəzəl yer almaqdadır. Fahri Bilge varislərindən satın alınmışdır (№ 495).

6. **راغب ، قوجه محمد پاشا. ديوان .** Raqib, Koca Mehmed Paşa Divanın F. B. 355 şifrli bu nüsxəsi

نقدر اولسه ادب پرده كش راز بكا شوخ اشكم اولور اهله غماز بكا

Nə qədər olsa ədəb pərdəkeşi-raz bana, Şuxi-əşkim olur ah ilə ğəmmaz bana

beytiylə başlamaqdadır. Həcmi II+42 vərəq, ölçüsü 20,6x14,4(14,2x8,1) sm, sətir sayı 15, xətti nəsx, kağızı üzüm salxımı filigranlıdır. Sərlövhəsi ve ilk iki cədvəli təzhibli, başlıqları ve cədvəlləri qırmızı mürəkkəblədir. Vərəqləri rütubət lekelidir. Qara meşin cild içərisindədir.

چقاروب لشكر كفار ديدم تاريخن بلغرآد قلعه سنى الدى محمد پاشا

Çıqarub ləşkəri-küffar dedim tarihini, Belqrad qələsini aldi Məhəmməd Paşa

beytiylə sona çatmaqdadir. Divana 127 qəzəl, 3 təxmis, 1 qıtə, 4 tarix daxildir. 38a vərəqində Koca Raqib Paşanın Sultan Mustafa ilə bir münazirəsi vardır. Fahri Bilge varislerinden satın alınmıştır (№496).

7. **راغب ، قوجه محمد پاشا . ديوان.** Raqib, Koca Mehmed Paşa Divanının **A. 438** şifrli bu nüsxəsi

نقدر اولسه ادب پرده كش راز بكا شوخى اشكم اولور آهله غماز بكا

Nə qədər olsa ədəb pərdəkeşi-raz bana, Şuxi-əşkim olur ah ilə ğəmmaz bana

beytiylə başlamaqdadır. Həcmi 37 vərəq, ölçüsü 21,4x12,7(15,5x7,7) sm, sətir sayı 17, xətti təliq, kağızı filiqranlıdır. Sərlövhə və cədvəllər təzhibli, cildi albalı rəngli meşindir.

اقبال سه روزه ايله تغير كلمز مست اولسه ده حبط ايلمز ارباب شعور

İqbal isə ruzə ilə təğyir gəlməz, Məst olsə də həbt eyləməz ərbabi-şəvur

beytiylə sona çatmaqdadır.Tərkibində 137 qəzəl, 3 təxmis, 5 tarix ve 1 qitə vardır. Ali Özsoydan satın alınmışdır (№ 497). **.**

8. **راغب ، قوجه محمد پاشا .ديوان** Raqib, Koca Mehmed Paşa Divanının **A. 2703/2** şifrli nüsxəsi

نه عجب سرعتله كلدى يو هسيل ماه صيام چكدى برباش كلبوپ بلدهء بغداده الجام

Nə əcəb sürətilə gəldi yu həsil (?) mahi-səyam,
Çəkdi bir baş gəlüb bəldəyi-Bağdadə ləcam

beytiylə başlamaqdadır.Həcmi 5b-45b vərəqlərini əhatə edir, ölçüsü 23x13,5 (18,2x7,5) sm, sətir sayı21, xətti təliq, kağızı madalyon filigranlı, Katibi İbrahim b. Hamedarzadə Mehmeddir. İstanbulda Raqib Paşa kitabxanasında yazılmışdır. Mehrabiyyə ve cədvəllər qızıl suyu ilə bəzənib. Arxası təmir görmüş, qəhvə rəngli meşin cild içərisindədir.

شعلهء ادراك حرمنسور ثروتدر بكا آبرو سيلاب سامان دنائتدر بكا

Şöləyi-idrak hərmənsuzi-sərvətdir bana, Abü seylabi- saman dinatayətdir bana

beytiylə bitir. Divan 2 qəsidə, 160 qəzəl, 1 müxəmməs, 8 qitə, 5 təxmis və 1 mürəbbe və müfrədatdan ibarətdir. Vərəq 46a-47b-də Nabidən, 46a-b-də Sabitən müvafiq olaraq hər birindən 1 qəzəl, 47a-da Nesibdən müxəmməs, 48b-də təxmisi-Nabi, 49b-də "Müxəmməsi- Nahifi qəzəli- Hafız Şirazi", 50b-də "Nəzireyi- Şani", 51a-da "Gufteyi- Baki dər haleti- nezi^{c}", 51a-b-də Rahidən 7 qəzəl, 52a-da Xaqanidən iki qəzəl, 52b-də Nəfidən qəzəl, 53a-da Şəhidi, İsməti və Məntıqidən qəzəllər, 53b-də Sübhi və Nabidən qəzəl, 54a-da Ruhi və Füzulidən, 54b-də Fasihi ve Şaridən qəzəllər vardır (№ 498).

9. **راغب ، قوجه محمد پاشا . ديوان** Raqib, Koca Mehmed Paşa Divanının **A.3280/1** şifrli bu əlyazma nüsxəsi

حبذ افرخنده شب صمد ليلة القدرش مبشوٴ كرد سر صبحش هزار ايام عيد

Həbz afər xündə şəbi-sədr leyləti-l-qədrəş,

Mibşuyi kərd sər səbəş hezar əyyami-eşq

beytiyle başlamaqdadır. Raqib Divanı əlyazmanın100b-149b vərəqlərindədir, ölçüsü 20,5x12(15x8,5) sm, sətir sayı15, xətti nəsx, kağızı sütün filigranlıdır. Ön cild qapağı qopuq, arxası qəhvə rəngli meşin, əbru kağız qablı bir cild içərisindədir.

تأليف رآزنامهء دهر ازبرمده در

"Talifi-raznaməyi- dəhr əzbərimdədir" mısrası ile bitməkdədir. Divana 6 qitə, 162 qəzəl, 3 müxəmməs və 1 qəsidə daxildir. Ali Koçak Esenden satın alınmıştır (№ 499).

10. **راغب ، قوجه محمد پاشا. ديوان** Raqib, Koca Mehmed Paşa Divanının bu nüsxəsinin şifri **A. 5264/1** –dir.

نقدر اولسه ادب پرده كش راز بكا شوخئ اشكم اولور آهله غماز بكا

Nə qədər olsa ədəb pərdəkeşi-raz bana, Şuxiyi-əşkim olur ah ilə ğəmmaz bana

beytiylə başlamaqdadır. Həcmi 1b-32a vərəqlərini əhatələyir, ölçüsü 23x15(15x9) sm, sətir sayı19, xətti təliq, kağızı hərf filigranlıdır . Cildi ətrafı dağılmış, arxası təmir görmüş qəhvə rəngli meşindir.

شعلهء ادراك خرمنى سوز ثروتدر بكا آب سيلاب سمان وتائتدر بكا

Şöləyi-idrak hərmənsuzi-sərvətdir bana, Abü seylabi- saman dinatayətdir bana

beytiylə sona yetmkdədir. Tərkibində 130 qəzəl, 3 təxmis, 8 qitə, 1 müfrəd və 3 mtlə yer alıb. Birinci vərəqdə farsça beyitler, ikinci vərəqdə Nuri, Sıdki və, Müştaqtan şeirlər vardır. Bülent Ateşdən satın alınmışdır (№ 500) .

11. **راغب ، قوجه محمد پاشا. ديوان** Raqib, Koca Mehmed Paşa Divanının bu nüsxəsi **A. 6253** şifri altında saxlanılmaqdadır.

ايدنجه سحر آفرينم خرده جولانى اولور نقش بر طاوسى داغ حسرت مانى

Edincə xaməyi-sehri- afərinəm xürdə cevlani,

Olur nəqşi hər tavusi-dağı-həsrət mani

beytiylə başlanır. Həcmi 32 vərəq, ölçüsü 25x16,5(19x11)sm, sətir sayı 22, xətti təliq, kağızı filiqranlıdır. Arxasıı meşin, kağız qablı cild içərisindədir.

صدر عصری بنده سی راغب دیدی تاریخنی جامع رعنا بنای شاه سلطان مصطفی

Sədri-əsri bəndəsi Raqib dedi tarixini,Cameyi- rəna binayi Şahi Sultan Mustafa beytiylə sona çatır. Divanda 2 qəsidə, 4 tarix, 147 qəzəl, 4 təxmis, 6 rübai, 4 mətlə, 2 qitə vardır. Hilmi Mert Türkməndən satın alınmışdır (№ 501).

12. راغب ، قوجه محمد پاشاد. دیوان Raqib, Koca Mehmed Paşa Divanının bu əlyazması **A. 8073** şifrlidir.

ایدینجه خامهء سحر آفرینم خرده جولانی اولور نقش پرطاوس داغ حسرت مانی

Edincə xaməyi-sehri- afərinəm xürdə cevlani,
Olur nəqşi pür tavusi-dağı-həsrəti mani

beytiyle başlamaqdadır. Həcmi 44 vərəq, ölçüsü 21,2x14(14,5x7) sm, sətir sayı15, xətti təliq, kağzı hərf filigranlıdır. Başlıqlar və cədvəllər qırmızı mürəkkeblədir. Cildsizdir.

شعله ادراك حرمن سوز ثروت در بکا آبروسیلاب سان ذمائتدر بکا

Şöləyi-idraki hərmənsuzi-sərvətdir bana, Abi-ru seylabi saman dinatayətdir bana beytiylə bitir.Divanda 1 qəsidə, 6 tarix, 3 təxmis, 133 gəzəl, 7 rübai və 4 mətlə vardır. Vərəq 44a-da ”Muribu’l-İzhar”la,44b-də Şeyh İbn Hasan et-Tusinin “Risaleyi- Mamule fi’-l-Aruz” şerhi ilə bağlı təqrizlər (Təqriz - bir əsər haqqında yazılan rəy, resenziya - A.Z.-M.) vardır. Ömər Suat Zapçıdan satın alınmışdır (№ 502).

Haqqında bilgi verdiyimiz bu 12 nüsxədən yalnız 4-ünün köçürülmə tarixi məlumdur,digər 8-i isə tarixsizdir.Tarixi məlum nüsxələr 1734, 1758, 1769, 1786/87-ci illərə aiddir ki, bunlardan 2-si hələ müəllifin sağlığında köçürülmüşdür. Əlavə etmək yerinə düşər ki, Raqib Paşa Divanı əlyazmaları ən çox İstanbulda mühafizə olunmaqdadır. Həmin nüsxələrlə bağlı əldə etdiyimiz bilgiləri ayrıca təqdim etməyin daha müvafiq olacağını düşünürük.

Ədəbiyyat

1. Baykal Bekir Sıtkı. Rağib Paşa. İA, IX, İstanbul, 1964.
2. Bursalı M. T. Osmanlı müellifller,c. II,İstanbul,1333.
3. İstanbul Kitaplıkları Türkçe Yazma Divanlar Kataloğu, c. III,İstanbul,1959.
4. Karahan A. Rağib Paşa, İslam Ansiklopedisi, c. IX, İstanbul, 1964.
5. Kocatürk V.M.. Türk Edebiyatı Tarihi, Ankara, 1964.
6. Milli kütüphane yazmalar kataloğu (Türkçe divanlar), c. VI, Ankara, 2001.
7. Raqib, Koca Mehmed Paşa. Divan, Ankara Milli kitabxanası: A. 1632/3; F. B. 196; A. 1632/3; A. 7254/2; F. B. 294/2; F. B. 355 ; A. 438; A. 2703/2; A.3280/1; A. 5264/1; A. 6253 ; A. 8073.
8. Sami Ş. Kamusu-l- Alam, İstanbul,1308, III. 2247;
9. Süreyya M. Sicilli- Osmaniyye,İstanbul,1911, II. 358;
10. Ziya Paşa. Harabat, İstanbul, 1292.

Айгуль Зульфугарова-Мусаева

Списки рукописей "Дивана" Коджи Рагиба Паши в Анкаре

Резюме

Коджа Мехмет Рагиб являлся личностью, поспособствовавшей в XVIII веке достижению высокого положения Османов, их научных возможностей и

успехов в литературе. Рукописи прозаика, поэта, переводчика, творившего на трех языках Рагиба Паши глубоко запечатлелись в истории, а копии некоторых из них, которые считаются автографами - это "Тахгиг и Товфиг", "Сафинатиль-Рагиб", "Маджмуа", " Муншаат" другие произведения, в особенности "Диван"а, хранятся в разных уголках мира, в большей мере рукописных сокровищницах Турции.

В национальной библиотеке Анкары были выявлены *1*2 копий "Дивани-Рагиб". В статье представлены короткие научно-палеографические описания - объем, дата переписки, количество строк, разновидности почерка и бумаги, переплет, переписчики, количество стихов в их составе в соответствии с жанрами, начальный и конечный бейты этих рукописей.

Aygul Zulfugarova-Musayeva

Ankara`s copies of manuscripts "Divan" of Goji Ragib Pasha

Summary

Goja Mehmet Raghib was a person contributed in the XVIII century to achieve a high position Ottomans, their scientific advances and success in the literature. Manuscripts of novelist, poet and translator Ragib Pasha, who created in three languages, deeply etched in history. And copies of some of them which are considered autographs - is "Tahgig and Tovfig", "Safinatil-Raghib", "Majmua", "Munshaat" and other works, in particular the "Diwan", are stored in different parts of the world, are more in treasures of manuscripts in Turkey.

In the Ankara`s National Library were revealed 12 copies of "Divani-Raghib". In the article presents the short scientific- paleographical descriptions - volume, date of rewriting, the number of lines, varieties of handwriting and paper, binding, copyists, the number of verses in their composition taken into account the genres, starting and ending beyts these manuscripts.

Rəyçi: Tahirə Həsənzadə
tarix üzrə elmlər doktoru

ŞÜKUFƏ VƏLİYEVA
Gəncə Dövlət universiteti
e-mail: shukufe_1987@.gmail.com

POL OSTERIN ROMANLARINDA POSTMODERN PARADİQMA

Açar sözlər: American ədəbiyyatı, Pol Oster,postmodern paradiqma, ideya, model, azadlıq
Ключевые слова: Пол Остер, постмодернистская парадигма , идея, модель, свобода
Key words: Paul Oster, post-modern paradigm, idea, model, freedom

Tədqiqatçıların yekdilliklə təsdiq etdiklərinə görə, postmodernizm və onun nəzəri baxımdan qavranılması mövcud dünyagörüşü konsepsiyalarında müvafiq "epistemoloji partlayışın" təsiri altında formalaşmışdır. Postmodernizmin nəzəriyyəçilərinin hamısı J.F.Liotarın "Postmodern vəziyyət" adlı səsrinin böyük əhəmiyyətindən bəhs edirlər (1979), burada "postmodernizm" anlayışı metatəhkiyəyə inamsızlığı bildirir. Fransız nəzəriyyəçisi üçün müasirlik bütövlükdə "böyük metatəhkiyəyə" inamın eroziyaya uğraması deməkdir. Postmodern erasının mədəniyyətinin əsas əlaməti eklektizmdir və bu da öz növbəsində "mədəniyyətin sıfır dərəcəsidir".

Ümumdünya ədəbi prosesinin tarixini, onun müxtəlif dövrlərdə üzə çıxan meyllərini öyrənmək bizim milli ədəbi prosesin də qanun və qanunauyğunluqlarını çözmək baxımından, fikrimizcə aktualdır. Məlumdur ki, bu məsələ bizim ədəbiyyatşünaslıqda iki üsulla yerinə yetirilir: 1.Müqayisəli ədəbiyyatşünaslıq kontekstində, yəni, Azərbaycan ədəbi prosesinin hər hansı hadisəsini dünya ədəbi prosesinin bu və ya digər hadisəsi ilə müqayisədə öyrənmək, onların fərqli və oxşar cəhətlərini üzə çıxarmaq; fikrimizcə, bu, daha çox milli ədəbi prosesdə önəmli yer tutan, onun necə deyərlər, sifətini müəyyənləşdirən hansısa görkəmli söz ustasının ədəbi portretinə əlavə, tamamlayıcı cizgilərin əlavə edilməsi ilə səciyyələnir. Məsələn, milli dəbi prosesin bir növ istiqamətini dəyişdirən, XVI əsrdən üzü bəri üslub dəyişməsi prosesində öz dövründə həlledici rol oynayan, Azərbaycan ədəbiyyatına Avropa formalarını gətirən M.F.Axundovun yaradıcılığını qərbi Avropa maarifçi sənətkarları ilə müqayisədə öyrənmək birincinin yerinə yetirdiyi missiyanı daha dəqiq konturlarla nəzərə çarpdırmaqla müşayiət edilir. 2. Dünya ədəbi prosesinin konkret faktlarını öyrənmək, ölkənin mədəniyyət, humanitar təfəkkür tarixinə ekskurs etmək və beləliklə də dünya ədəbi prosesində özünə önəmli yer tutan, ən müxtəlif parametrlər baxımından artıq ənənə yaradan hadisələri öyrənmək. Bizdə belə bir fikir formalaşıb ki, fransız ədəbiyyatını fransızlardan, Amerika ədəbiyyatını Amerika tədqiqatçılarından, Rumın ədəbiyyatını rumın ədəbiyyatşünaslarından, yaxud polyak şeirini Polşada yetişən milli tədqiqatçılardan daha yaxşı öyrənmək mümkün deyildir. Fikrimizcə, bu, absurddur və heç bir elmi əsasa malik deyildir. Dünya ədəbiyyatşünaslığında bunun əksini sübut edən xeyli sayda nümunələr mövcuddur. Məsələn, "Azərbaycan" jurnalının keçən ilki nömrələrinin birində fransız tədqiqatçısı Pol Balanfanın bir yazısı çap edilmişdi: Niyazi Misrinin mistik təlimlərində ruhani yoxsulluq və qara işıq. XVII əsr türk mistik şairinin yaradıcılığı-

nı fransız tədqiqatçı dərindən öyrənmiş, bu zaman özünə bir köynək uzaq olan ədəbi prosesin ayrı-ayrı hadisələrini müasir Türkiyə tədqiqatçılarından daha yaxşı incələyə bilmişdir. Mixail Baxtinin belə bir fikri məşhurdur ki, "ədəbi hadisə uzaqdan daha ayrıntılı şəkildə görünür". Bu fikri iki istiqamətdə anlamaq mümkündür: a) uzaqdan, yəni müəyyən zaman keçdikdən sonra, b) başqa, fərqli ədəbi meyarlar baxımından. Bütün bunların nəticəsində ədəbi fakt və ya hadisə bütün dərinliyi ilə açıla bilir. Qeyd etmək yerinə düşər ki, bu kimi hadisələrin belə bir rakursda öyrənilməsi müasir Azərbaycan ədəbiyyatı və ədəbiyyatşünaslığı, habelə tənqidi üçün də faydalıdır. O mənada ki, əvvəla bizim tədqiqatın predmetini təşkil edən yazıçılar və onların dünyaca məşhur əsərlərinin ən müxtəlif metodikalar müstəvisində araşdırılması mükəmməl bədii mətnin öyrənilməsi yolunda faydalı ola bilər; ikincisi, adı çəkilən əsərlər geniş, yaxud ucsuz-bucaqsız məkan kimi götürüldükdə orada ən müxtəlif ədəbi hadisələr baxımından araşdırmaların aparılması bizim müasir ədəbi prosesin öyrənilməsi, hazırkı mərhələdə keçdiyi yolun və əldə etdiyi nəticələrin saf-çürük edilməsi baxımından həlledici addım sayıla bilər; üçüncüsü, adı çəkilən müəlliflər və onların tədqiqata cəlb edilən əsərləri müxtəlif dövrlərdə Azərbaycan dilinə tərcümə edilmiş, müxtəlif elmi müstəvidə artıq öyrənilmişdir. Uilyam Folknerin "Avqust işığı" romanı Tehran Vəlizadə tərəfindən tərcümə edilərək əvvəlcə "Xəzər" jurnalında, sonra isə Slavyan Universitetinin "150 cildlik dünya ədəbiyyatı kitabxanası" seriyasından ayrıca kitab şəklində çap edilmişdir. Bundan başqa Folknerin hekayələri mərhum tərcüməçi Natiq Səfərov tərəfindən tərcümə edilib. O ki qaldı müasir amerikan yazıçısı Pol Osterə bu barədə, zənnimizcə bizim ədəbi prosesdə məlumat yetərincə deyildir, halbuki onun bütün dünyada məşhur olan əsərlərini həm tərcümə etmək, həm də öyrənmək bizim proses üçün faydalı ola bilərdi. Bi cəhəti də qeyd edək ki, Dostoyevski Peterburqu, Coys Dublini, Pamuk İstanbulu necə öz ədəbi dünyasının mərkəzi edirsə, Oster də Nyu Yorku - Bruklini o cür yazır. Müsahibələrində Amerikaya olduqca maraqlı rakursdan baxan Osterin yaradıcılığından keçən qızıl xətt, təkcə onun məşhur trilogiyasında ümumiləşməyib, həm də onun bir neçə müsahibəsi var ki, bu müsahibələrdə o, bütün yaradıcılığı xarakterizə edib. Rus jurnalisti Sergey Taskla söhbətindən bəzi məqamlar xeyli maraqlıdır:

"– Müsahibələrinizin birində deyirsiniz, Amerika yer üzündə yeganə ölkədir ki, təxəyyül məhsuludur. Bəlkə bu fikrinizi izah edəsiniz?

– Amerika ideya kimi yaranıb. Başqa ölkələr öz kökləri, ənənələri, keçmişləri üzərində bərqərardır, Amerika isə həmişə gələcəklə bağlıdır. Bu ölkənin idealları onun üçün hər şeydən öndə gəlir, o bütün dünyaya hakim olmaq istəyir, amma ironiya burasındadır ki, özü heç vaxt bu ideallara sadiq olmur. Biz uzun müddət hinduları incitmişik, onları qul vəziyyətində saxlamışıq. Sonra Vətəndaş müharibəsi zamanı bir milyona yaxın adam burda, öz evimizdə həlak oldu. Amerika həmişə qanlı və ikiüzlü olub, amma bununla bərabər, qeyri-adi dərəcədə idealizmini saxlayıb. Buna görə də amerikalı olmaq çətindir. Burda yaşamaq üçün həmişə müəyyən bir tarazlıq tapmaq lazımdır". Bu hissədə deyilən "ikiüzlülük" Osterin bütün romanlarının ana xətti, "tarazlıq cəhdi", qəhrəmanlarının başlıca arzusudur. Onun qəhrəmanları həmişə cilddən-cildə girir, tez-tez adları dəyişir, bir neçə adam olurlar, ikiləşmək nədir, üçləşirlər, beşləşirlər.

Pol Osterin bütün romanlarında onun qəhrəmanları güzgü kimi çiliklənib həm öz həyatlarına, həm də başqalarının ömrünə dağılıblar. Onun romanlarında qəhrəman yoxdur, səyahəti sevən, intellektli, hər şeyi şansa buraxan adamlar var. Bu adamların heç biri nə istədiyini bilmir - onlar postmodern dünyanın sakinləridir. Qısa şəkildə desək, hər iki yazıçının bədii sistemində Amerika iki istiqamətdə öyrənilir – Amerika ideya kimi və Amerika ideyadan doğan mif kimi. Tədqiqatda bu iki istiqamətin ardıcıllığı, onların bir-birinə nüfuz etməsi və həm də ədəbi prosesin təkamül prosesi öyrənilir. Bu problemlərin öyrənilməsi müasirlik baxımından önəmlidir, hər şeydən öncə ona görə ki, araşdırmanın mərkəzində insan taleyi durur, bu insan tarixin müxtəlif dönəmlərində mənəvi cəhətdən transformasiyaya uğrayır və bu günə, müasir həyata dəyişə-dəyişə gəlib çıxırlar. Ədəbiyyatın insanı keçmişdən bu günə hansı yöndə öyrənməsi sistemli şəkildə izah edilir.

Məsələn, Pol Osterin "İllüziyalar kitabı" romanının süjetini nəzərdən keçirmək olar. ədəbiyyat professor Devid Zimmer təyyarə qəzasında arvadını və iki uşağını itirir. Yarım il ərzində cəhənnəmin bütün künc-bucaqlarını gəzib dolaşır, içir, içini yeyir və həyata bütün marağını itirir. Ancaq günlərin bir günü televizorda nümayiş etdirilən səssiz kinonun bir fraqmenti olmazın möcüzə yaradır, keçən dövr ərzində ilk dəfə Devidin simasında təbəssüm yaranır. İndi əlində heç bir təcili işi yoxdu (pulu var – həyat yoldaşının həyatını sığortalayıb, universitetdən akademik məzuniyyət götürüb), buna görə də gülməyi yadırğamış adamı gülməyə məcbur edən şəxs haqqında roman yazmaq qərarına gəlir. Bu, 50 il qabaq karyerasının pik nöqtəsində olduğu zaman qeyb olmuş komik hektor Mann adlı şəxsdir. Hamı güman edir ki, bu adam çoxdan bu dünyadan köç eləyib. Ancaq kitabçıxdıqdan az müddət sonra Zimmer Nyu-Meksikadan məktub alır, deyilir ki, Mann yaşayır və onunla görüşmək arzusundadır. Bu kitab həyatlarını illüziyalar üstündə quran insanlardan bəhs edir. Nə olursa-olsun insan sonda tək qalır, həyatını daxildən qurub tənzimləyə bilməzsə, gec ya tez, karton evcik uşub dağılanda qarşısında nəhəng uçurum açılır (1,13).

"Cənab Vertiqo" uşmaq qabiliyyəti olan bir oğlandan bəhs edir. Master İequda cındır paltar geyinmiş Uoltu küçədən tapnda onun cəmi-cümlətanı doqquz yaşı vardı və bu zaman Uoltla müqavilə bağlayır: on üç yaşında Uolt uça bilməzsə, gəlib ustadın başını balta ilə bədinindən ayıra bilər. Üç ildən sonra, bir sıra təhlükəli və qorxunc təcrübələri sınadıqdan sonra Uolt doörudan da uçur. "İllüziyalar kitabı"ndan fərqli olaraq, bu qeyri-adi dərəcədə optimist romandır. Bəlkə kitabın təlqin etdiyi həqiqəti əxz etdikdən sonra insanlar gerçəkdən uçmağı öyrənəcəklər? Niyə də yox. Yeganə problem budur ki, uşmağı ağıllarından belə keçirməyiblər, bu arzu ilə yaşamayıblar. Bu hadisə Nəhəng Depressiya dövründə Amerikada baş verir - hər yer qanqsterlərlə doludur, ölkə aclıq və fəalkət içindədir. Kitab sözün əsl mənasında insanı tilsimləndirir (3, 15). Onun janrını müəyyənləşdirmək çətindir – şübhəsiz ki, fantastika deyil, magik realizm saysaq, burada magiya azdır – uşaq uçmağı öyrənir, bunun harası fantastika, ayxud sehrbazlıqdır.

Osterin ən məşhur romanlarından biri "Leviafan" adlanır. Bu roman osterin avtobioqrafik detallarla ən zəngin əsəridir – təhkiyəni aparan qəhrəmanın taleyi Osteri xatırladır: nöqtəbənöqtə. İlk uğursuz nikah, bu nikahdan bir oğlan uşağının olması, ikinci uğurlu nikah (romanda ikinci qadının adı İrisdir, Osterin öz qadının adı isə Siridir – məşhur yazıçı). Qız uşağının dünyaya gəlməsi. Romanın baş qəhrə-

manı benjamin Saksı əsərin elə ilk cümlələrindən tanımalı oluruq, növbəti dəfə "Azadlıq heykəlini" uşurmaq üçün hazırladığı mina partlayır. Romanın əsas teması terrorizmdir. Bu əsər haqqında bir qədər təfərrüatlı danışmaq zərurəti var. Digər romanlarında olduğu kimi bu əsərdə də cəlbedicilik əsas prinsipdir, oxucunu cəlb edib oyuna qatmaq və ona müəyyən ideyaları aşılamaq. Bu əsərdə Pol Oster iki yazıçının dostluğundan bəhs edir – daha doğrusu onun qəhrəmanı Piter Aaron dostu Saks Benjamindən bəhs edir. Saks katolikdir, Rusiyada doğulub. Ata xətti ilə əcdadları talnlar zamanı Rusiyadan qaçıb Amerikaya pənah gətiriblər. Ancaq Saks təkcə bu faktın təsdiqi ilə işini bitmiş hesab etmir. Atasının ailəsindən bəhs edərkən Saks bir dəfə belə bir ifadə işlədir ki, tanrı öldükdən sonra ona Nyu-Yorka köçməkdən başqa əlac qalmır. Bu sözü deyəndə nəyi nəzərdə tutması gizlin deyil: Rusiyada talanlar çar İkinci Aleksandr qətlə yetirildikdən sonra başlanmışdı, çarı nihilistlər öldürmüşdülər. Demək lazımdır ki, bu halı ilə bombistlərin (terrorçuların) baxış və əməllərini Saks da bölüşür. İndi Amerikada yaşamasından rəncidə olmasa da, narodovolçuların ideologiyası onun ruhuna daha yaxındır. Bütün təhkiyə zamanı boyunca Saks özünü rəsmi dövlət sisteminə qarşı qoyur - əvvəlcə yaradıcılığında , sonra isə daha fəal əməli sahəyə adlayır. Demək, bu anlamda Saks həm də nihilistlərin metaforik nəslinin nümayəndəsidir, onun doğulduğu şərait son dərəcə simvolikdir, yəni "Amerikanı partlatmaq" on**un** əzəldən alnına yazılıb.

Bütün roman qəribə "üst-üstə düşmələrlə" zəngindir. Qəhrəman doxsanıncı illərin əvvəllərində ahəngdar həyat tərzi qurulmuş Amerikada yaşayır. Ancaq bu qəhrəmanların ömürlərinin açar məqamları həmişə, demək olar bütün hallarda tsəadüflə müəyyənləşir (5, 94). İnsanların və hadisələrin qeyri-məntiqi şəkildə üzüzə gəlib toqquşması. Bir tərəfdən dövlət, hakimiyyət maşının dəqiq çalışması, digər tərəfdən insan həyatının qəribə xaotikliyi, təsadüflərin meydan sulaması ... romanın fəlsəfi süjet qatını ortaya qoyur: dünyada mənasız heç nə yoxdur – hər şey bir-biri ilə sız qarşılıqlı əlaqədədir. Varlığın xaotikliyi Amerikanı "Leviafan dövləti" kimi təcəssüm etdirən Azadlıq heykəlinə qarşı durur. Saksın həyatında ən dramatik anlar məhz heykəllə əlaqəlidir. Uşaqlıqda anası onu abidənin içinə ekskursiyaya aparmışdı, qapalı məkanda anası və rəfiqəsi tələşlanmış, Saks isə yüksəklikdən qorxma xəstəliyinə düçar olmuşdu. Saks elə belə də deyir: "Bu mənim ilk siyasi dərsim oldu. Başa düşdüm ki, azadlıq təhlükəlidir. Bircə anlığa özünü buraxsan – yoxsan." Şübhəsiz ki, bhu sözlər ümumən azadlığa yox, onun simvollaşdırdığı "dövlət azadlığına" aiddir. Belə bir fonda Saks intihar etmək istəyir, özünü evin damından atır. Saks növbəti romanında dövlət ideyasını inkişaf etdirmək niyyətində olsa da, özündən asılı olmayaraq başgicəlləndirici hadisələr burulğanına düşür və bun nəticəsində oturduğu yerdən qalxıb bütün Amerikanı qarış-qarış gəzməli olur. Bu zaman gözünə yəhudi sol radikal partiyasının mənsubu, Rusiyada doğulmuş Aleksandr Berkmana həsr edilən bir dissertasiya sataşır və bu Saksın həyatında dəyişmə nöqtəsinə çevrilir. Ədəbiyyatdan birdəfəlik ayrılmaq qərarına gəlir. Ömrünün qalan hissəsini Azadlıq Kabusu adı ilə siyasi bəyanatlarla çıxış etməyə həsr etmək qərarına gəlir və hər dəfə bu bəyanatlar yayaıldıqda müvafiq aksiyalarla müşahidə edilir – qismən konseptual-bəddi, qismən də terrorismin imitasiyası. Beləkiklə Saks Berkmanı özünün sələfi qismən də özünün oxşarı hesab edir. İkiləşmə motivi məlumdur ki, Pol Osterin yaradıcılığında mühüm yer tutur. Kitabı diqqətlə mütaliə etdikdə oradan Saksın digər oxşarlarını da tapmaq olar, bunların

arasında hətta tarixi şəxsiyyətlər də yox deyildir. Hətta dostu və romandakı təhkiyəçi Aaron da Saksın oxşarıdır. Hər ikisi yazıçıdır, demək olar eyni təkamül yolunu keçirlər, eyni zamanda, yaxud növbə ilə eyni qadınlara vururlar. Saks hətta gizlin şəkildə dükanlarda Aaronun kitablarını müəllif kimi imzalayır. Aaron isə üsyançı deyil, sənətkardır, elə beləcə qalır, vəd edilən azadlığın sərhədlərini aşmır. "Leviafan" romanında Saks və Aaronun sevgililəri parlaq boyalarla rəsm ediliblər, onlardan biri yazıçının arvadıdır, ilham pərisi və yol göstərənidir, ikincisi sərsəm bir rəssamdır, üçüncüsü Lilian adlı fahişədir – Azadlıq ideyasının əsl təcəssümü – nə işlə məşğul olursa-olsun vicdan əzabı çəkməyi birdəfəlik unudub. Məhz onunla görüşdükdən sonra Saks daxilində yatan gücü aşkarlayır və məhz bu fahişənin sayəsində kabinet yazıçısı əsl Robin Quda çevrilir. Məhz Hollivud ənənələri çevrəsində romanda sentimantal və ehtiraslı sevişmə səhnələri yer alıb, burada eyni zamanda heç bir məntiqə sığışmayan cinayətlər törədilir. Və beəliklə bizə xalis postmodernist ekşen təklif edilir – eyni zamanda həm amerikansayağı, həm də anti-amerikan əhval-ruhiyyəli ekşen.

İntervülərində Pol Oster dəfələrlə qeyd edib ki, onu daha çox mif ölkəsi kimi Amerika obrazı maraqlandırıb. Bu ideya inanılmaz əhvalatlar süzgəcindən keçirilərək oxucuya təqdim edilir, bu ideya bəzən ani şəkildə insan taleyini dəyişən qeyri-adi hadisələr fonunda açılır. Romanın qəhrəmanı Azadlıq Kabusu qarşısına belə bir məqsəd qoyur ki, mexaniki obrazdan, yaxud dəhşət doğuran obrazadan daxilində yatan mifə çevirmək istəyir. Qəhrəman heykəli dil açıb danışmağa, nəfəs alıb yaşamağa məcbur etmək istəyir: *«Ayıl, Amerika. Eyni şeyi deyib, başqa şeyi etməkdən yorulmadınmı. Heykəllərin havada uçmasını görmək istəmirsənsə sübut elə ki, ikiüzlülüyə birdəfəlik yox deyibsən » (6,103).*

Ədəbiyyat

1. Caws M.A. Paul Auster: The Invention of Solitude Текст. /M.A. Caws //The Review of Contemporary Fiction. 14.1 (Spring 1994). - P. 7-8.
2. Contemporary novelists. Текст. Fifth ed. [Ed. L. Henderson]. -L., Chicago: St. James Press, 1991. 1053 p.
3. Powell P. The End Is Only Imaginary Текст. /P. Powell //N.Y.Times. May 17,1987. — P. 11.
4. Rodefer S. Translation Текст. /Rodefer S. // Auster P. The Art of Hunger. /P. Auster. Harmondsworth: Penguin, 1992. - pp.261-263.
5. Shapiro D. Author Turns Auteur Текст. /D. Shapiro //People Weekly. 42, 9;1. Aug 29, 1994.-p.26.
6. Shilon I. Paul Auster and Postmodern Quest: on the Road to Nowhere. Текст. /I. Shilon. N.Y.: Lang, 2002. - 22lp.

Ş.Valiyeva

The development tendencies of the 20-th century american literature

Summary

Paul Oster, the well-known american writer of the 20-th century has repeatedly noted that he is interested in an image of America as the country of myth. He submits this idea to the reader in various forms. Sometimes it is revealed against a background of irreal events. This article deals with the analysis of the main tendencies revealed in the development of the 20-th century of American Literature that is carried out based on concrete theoretical and literary works. It is to be noted that using the traditional mythological models and elements in the works representing the classical direction or tendencies of the literary mythology is typiical for our research. In the structure analysis of the texts there are revealed the binary-logical schemes: it reflects the dichotomy of good and evil (we see the competitor of negative nature in comparison with the positive hero); life and death (fear of death and love for life); youth and old age (Children and elderly people are involved).

Ш.Велиева

Тенденции развития американской литературы 20-го века

Резюме

Пол Остер, известный американский писатель 20-го века неоднократно отмечал, что его интересует образ Америки как страна мифов. Он представляет эту идею читателю в различных формах. Иногда это выясняется на фоне ирреальных событий. Эта статья посвящена анализу основных тенденций, выявленных в развитии американской литературы 20-го века, которая осуществляется на основе конкретных теоретических и литературных произведений. Следует отметить, что использование традиционных мифологических моделей и элементов в работах, представляющих классическое направление или тенденции литературного мифологии типичных для нашего исследования. В структурного анализа текстов выявлены двоично-логических схем: она отражает дихотомию добра и зла (мы видим конкурента негативный характер по сравнению с положительного героя); жизнь и смерть (страх смерти и любви к жизнь); молодость и старость (дети и пожилые люди).

Rəyçi: Cavanşir Yusifli
filologiya elmləri doktoru

ÜLVİYYƏ HƏSƏNOVA
AMİ
qskar@mail.ru

SÜLEYMAN SANİ AXUNDOVUN YARADICILIĞINDA MAARİFÇİ GÖRÜŞLƏRİN , MƏNƏVİ - ƏXALQİ İDEYALARIN BƏDİİ ƏKSİ

Açar sözlər : tamahkarlıq , cəhalət , köləlik, köhnəlik.
Ключевые слова : жадность , невежество , рабство , устарение
Key words : greed , ignorance , slovery , obsolescence.

S. S.Axundovun bədii yaradıcılığı zəngin və çoxcəhətlidir. O , hekayə ustası , görkəmli dramaturq, xalq müəllimi, mədəniyyət xadimi kimi tanınmışdır. Bədii yaradıcılıq xalq mənafeyini güdən, vətəndaşlıq vəzifəsini hər şeydən uca tutan xalq müəllimi S.S.Axundovun ictimai fikirlərini əks etdirən bir vasitə idi. O , "Nicat " cəmiyyətində çalışdığı müddət ərzində bir sıra maraqlı hekayələr yazmışdır.

S.S.Axundov dramaturgiyamıza M. F. Axundovun məşhur "Hacı Qara" əsərinin təsiri ilə yazdığı "Tamahkar " (1899) komediyası ilə gəlmişdir. Bu pyesdə o, dövrün bir sıra mənfiliklərinə, xəsisliyə, tamahkarlığa, qadın əsarətinə qarşı çıxmış, Imran, Gülizar, Şərəf xanım kimi müsbət surətlər yaradaraq, oxucu və tamaşaçılarda gözəl həyat arzuları oyatmağa çalışmışdır.

"Tamahkar " sadə, aydın dildə yazılmış realist komediadır. Əsərin mənfi komik qəhrəmanı Hacı Muraddır. O , xəsis, tamahkar, qorxaq və hiyləgərdir.

Ədib Hacı Muradla ikinci xəsis Məhərrəm bəyi qarşılaşdırır. Hər iki mənfi qəhrəmanın varlanmaq üçün bir – birinə hiylə gəlmələri, xəsis və tamahkarlığı aydın nəzərə çarpır. Məsələn, Hacı Murad 18 yaşlı gözəl, ağıllı , ismətli qızı Gülzarı Qoca Məhərrəm bəyə puluna görə satmaq niyyətindədir. Malına, puluna görə Məhərrəm bəyi aslana, tərlana, lakin sədaqətli və gənc İmranı isə tülküyə bənzədir. Əsərin sonunda öz nökərləri tərəfindən onun talan olunduğunu görürük. Yetimin, kasıbın pulunu kəsərək dövlətlənmək istəyi Hacı Muradın ürəyində qalır. İmranın atasının pullarını mənimsəyərək qızını ona verməyə söz verib üstündə durmaması ona baha başa gəlir. Qızı Gülzar Imrana qoşulub qaçır. Evində işləyən nökərlərin pulunu kəssə də , məvaciblərini verməsə də Hacı Muradın pulları quldurlara qismət olur.

Müəllif bununla demək istəyir ki , xəsislik , tamahkarlıq insana xoşbəxtlik gətirmir , əksinə "əli aşından da olursan , vəli aşından da ".

1906 – cı ildə S. S. Axundov burjua cəmiyyətini və əxlaqını ifşa edən kiçik formalı komediyalar – "Dibdad bəy ", "Türk birliyi" ni yazır. Bu pyeslərdə o, duma seçkilərinə mollanəsrəddinçilər mövqeyindən baxmışdır. Hər iki komediya ilə yazıçı dramaturgiyamıza ictimai – siyasi mövzu gətirmişdir.

"Eşq və intiqam" beş pərdə, yeddi şəkildə yazılmış realist faciədir. Əsəsrin mövzusu Azərbaycanda insanları fəlakətə salan vəhşi adət - ənənələrdən, qanlı faciələrdən, gəncliyin bu müsibətlərdən xilas olmaq cəhdlərindən , onların azad məhəbbətindən və haqsızlığa qarşı mübarizə edənlərin həyatından bəhs edir.

Əsərdə qanlı adət - ənənələri davam etdirən bəy – mülkədar sinfinin nümayəndəsi Şahbaz bəydir. O, pul gücünə Həcər xanımı özünə arvad etmişdir.

Həcər xanımın simasında qadının hüquqsuz, kölə vəziyyətini, Şahbaz bəyin şəxsində isə zorakılığın, əyyaşlığın, özbaşınalığın ailəni necə dağıtdığını görürük. Bütün müsibətlər Həcər xanımın sevmədiyi Şahbaz bəyə ərə verildiyindən sonra başlayır və əsərdəki qurbanların sayı çoxalır. Əgər zəmanənin qurbanı Həcər xanım idisə, sonra o sıralara Çingiz və Zöhrə xanım da qatılırlar. Əgər vaxtı ilə Həcər xanımın sözü eşidilsə idi, istəyi nəzərə alınsaydı Çingiz doğma ata - anasının yanında böyüyərdi və bu müsibət də baş verməzdi. Lakin hadisələrin başqa cür cərəyan etməsi Çingiz və Zöhrənin müsibətinə səbəb olur. "Məni öz bacıma aşiq yetirməkdə fikrin nədir , ey çərxi - fələk ? " deməsi ilə intiharı bir olur.

Yazıçı bu insanların arzularının puç olmasında ancaq zəmanəni günahlandırır. S. S. Axundovun maraqlı əsərlərindən biri də " İki yol " (1922) əsəridir. Əsas məqsəd köhnəliklə mübarizədir. Əsərin qəhrəmanı gənc ziyalı aktyor Məmməddir. O , azadlığın saf məhəbbətin tərəfdarıdır. Məmməd atasının seçdiyi yolu – vaizlik , rövzəxanlıq, mərsiyəxanlıq etmək istəmir. Teatrı kəsərli , əhəmiyyətli tərbiyə vasitəsi hesab edir. Atası Mir Kazımağa teatrı "lotular yığıncağı" adlandırır. Dayısı Molla Fəttah "şeytan yuvası" na bənzədir. Açıq fikirlərinə görə dayısı ona "mürtəd " , atası isə " qoyduğum ad sənə haram olsun , cəddim səni tezliklə əlindən alsın" deyir. Onu anlayan yalnız bacısı Gülsüm və nişanlısı Qonçadır.

S.S. Axundov "tək - tək ayılan" şəxslərin necə bir çətinliklə , tənqidlə və təhqirlə rastlaşdıqlarını bizə göstərmişdir.

Keçmişdən qalma mənfi adət - ənənələrin tənqidi , köhnə əxlaq normalar üzərində qələbəsi, komediyada müsbət surətlərdən istifadə etmək meyili S. S. Axundovun "Molla Nəsrəddin Bakıda", "Şahsənəm və Gülpəri", "Bir eşqin nəticəsi " , " Yeni həyat " komediyalarının ideya bədii xüsusiyyətlərini təşkil edir.

Sovet dövrü Azərbaycan dramaturgiyasında bioqrafik formada yazan ilk sənətkar S. S. Axundovdur. Onun "Molla Nəsrəddin Bakıda" məzhəkəsi Cəlil Məmmədquluzadəyə həsr edilmişdir. Burada o, Molla Nəsrəddin surətini ilk dəfə səhnəyə çıxarır, köhnəliyə qarşı çıxan şəxs kimi təqdim edir. Cəlil Məmmədquluzadənin bir şəxsiyyət kimi xarakterik sifətlərini göstərir.

"Şahsənəm və Gülpəri " pyesi hüququnu anlayan, ictimai həyata atılmaq istəyən qadınlardan bəhs edir. Teatra gedən qadınlara pis baxdıqları üçün Pinəçi Qafar və Mirzə Fərəc arvadlarını da oraya getməyə qoymurlar. Bu cür köhnə fikirli ərlər teatrın ancaq kişilər üçün olduğunu iddia edirlər. Komediyanın sonunda onlar öz səhvlərini başa düşüb arvadları ilə barışır və mədəni həyata qədəm qoyurlar.

Köhnəliklərə qarşı çıxan yazıçı qadın hüquqsuzluğu haqqında daha bir pyes yazmışdır. "Bir eşqin nəticəsi" pyesində o vaxtki bəlalardan biri – qoca kişilərin on bir , on iki yaşlı qız uşaqları ilə evlnmələri göstərilmişdir. Əlli yaşlı Kərbəlayi Nəbinin arvadı bir aydır ki, ölüb. O isə evlənmək fikrinə düşüb. On iki yaşlı Şövkəti aldadaraq özünə sığə edir. Lakin kommunist Maral xanımın köməkliyi ilə Kərbəlayi Nəbi ifşa olunur və arzusu ürəyində qalır. Ədib Məşədi Səftərqulunun timsalında yalançı məşədiləri də tənqid atəşinə tutmuşdur.

Sənətkarın dram janrından hekayə yazmağa meyl etməsinin müəyyən səbəbləri var idi. S.S.Axundov bir qabaqcıl müəllimkimi hiss edirdi ki, yaradıcılığın bu növü kiçik yaşlı uşaqların, gələcək nəslin əxlaqi və mənəvi yüksəlişinə əsaslı, dərin təsir edə bilər. Həm də bu sahədə (uşaq ədəbiyyatı sahəsində) görülən iş qənaətbəxş deyildi.

Azərbaycan məktəblərində ana dili tədrisi zəif olduğu kimi mətbuatda dərc olunan əsərlər də gənc oxucuları təmin etmirdi. Məktəb həyatı və maariflə bilavasitə əlaqədar olan məcmuələrdə, əsasən, tərcümə ədəbiyyatı dərc edilirdi ki, bunun da estetik və tərbiyəvi təsiri istənilən nəticəni verə bilməzdi. Uşaq ədəbiyyatı sahəsində orijinal əsərlərin sayca azlığını hiss edən Axundov uşaqların öz ana dilində , onların ruhuna uyğun hekayələr yazmağa başladı.

S.S.Axundov yaradıcılığı boyu hekayə janrına xüsusi diqqət yetirmiş, "Qan bulağı" , "Ümid çırağı" , "Cəhalət qurbanı ", "Qatil uşaq", " Nə üçün", "Təbrik", "Sona xala", "Zarafat", "Müalicə", "Yoluxma xəstəliyi" , "Mister Qreyin köpəyi" , "Son ümid" , "İki dost" , "İki düşmən" kimi əsərlər yazmışdır.

S. S. Axundov qələmə aldığı "Qan bulağı" (1923) , "Ümid çırağı" (1923), "Cəhalət qurbanı" (1923), "Qatil uşaq" (1924), "Nə üçün" (1925) əsərlərinin mövzusunu da əsrin əvvəllərindəki cəmiyyətdə mövcud olan qaranlıq mühitdən almışdır.

"Qan bulağı" hekayəsində qan düşmənçiliyi kimi adətlərin insanlara gətirdiyi faciələr iki nəslin övladları – Teymur xan və Paşa xanın faciəsi timsalında əks etdirilir. Əsərin sonunda hər iki gəncin ölümü bu mənfur adəti yaşadanlara ittiham kimi səslənir.

Ovda qarşılaşan gənclərin ölüm səhnəsi təsirli bir dillə əks etdirilir: " ...bu iki cavanın qılıncı od parladıb qayalara səs salır. Xeyli müddət çarpışırlar , lakin biri – birlərinə zərər yetirə bilmirlər. Bu halda günəş dağın dalında tulu edir. Onun zərrələri Teymur xanın gözlərinə ox kimi sancılıb qamaşdırır və bu anda Teymur xanın sinəsindən vurur. Teymur xan yıxılır. Qan çeşmə kimi sinəsindən axıb baharın təzə və tər otlarını , çiçəklərini boyayır."

Teymur xanın yarasını bağlamaq üçün sinəsini açan Paşa xan onun qadınolduğunu bildikdə fəryad edir. Teymur xan bu çirkin adətə nifrətini bildirib , gözlərini əbədi yumduqda Paşa xan da xəncərlə özünü öldürür. Bir müddət sonra həmin yerdə , qayaların arasında qan bulağı yaranır.

"Ümid çırağı" hekayəsində də qan düşmənçiliyinin yoxsul bir ailəyə gətirdiyi faciədən , ananın yeganə övladının – günahsız tələbə gəncin ölümündən bəhs olunur. Əsər həyatda yeganə ümid çırağı sönmüş ananın istirablarının, sonsuz, heç vaxtsağalmayacaq dərdinin təsviri ilə bitir: "bir saat belə keçir. Qəflətən bir tüfəng açılıb dağlara səda salır , dərin sükutu pozur. İkinci bir qadın çığırtısı bu sədaya cavab verir , yatmış qonşuları oyadır. Gənc tələbə yerə sərilir. Bir saat bundan əqdəm böyük ümidlər bəsləyən gənc, bir qəddar düşmənin, rəhimsiz düşmnənin güllələsinə qurban oldu. Sahibsiz ananın ümid çırağı söndü...

Yenə zülmət yenə dərin sükunət... Lakin balaca otaqdan :

- Yox, oğlum, sən ölməmisən, ancaq yatmısan. Yat , ümidim, rahat ol, sabah yenə duracaqsan imtahanlarını verəcəksən, anacığını yenə bəxtiyar edəcəksən...

Həzin qəlbləri oxşayan oxşama səsi gəlirdi."

"Qatil uşaq" hekayəsində seyid adıilə əxlaqsızlıq edən fırıldaqçının ibrətamiz aqibəti təsvir edilir. Cəsur bir uşaq olan Mərdan yağışlı bir gündə evlərinə qonaq adı ilə gəlmiş pırtlaqgöz seyidin binamus hərəkətini gördükdə atasından qalmış ov tüfəngi ilə atəş açaraq anasının harayına yetişir. Ədib əsərin sonunda tüfəngin səsinə və Qızxanımın qışqırığına gəlmiş qonşuların dili ilə Mərdanın hərəkətini alqışlayır: " Əhsən sənə, igid və namuslu oğlan, lənətolsun belə binamus seyidə."

"Cəhalət qurbanı" hekayəsi S.S.Axundovun uşaqlıq xatirələri ilə bağlıdır. Yazıçı yoxsulluq ucbatından atası ilə onların evinə sığınmış on dörd yaşlı Tamamın səmimiyyəti , xeyirxah təbiətindən söz açır. Avamlıq , cəhalətin hökm sürdüyü bir cəmiyyətdə Tamamın pul gücünə "gözəl , dövlətli cavan oğlan" adı ilə dəli bir gəncə ərə verilməsi heç kəsi narahat etmir. Həqiqəti bilən Tamam həmin gecə şiddətli yağış yağmasından istifadə edib, dağlara üz tutur. Üstü günbəzli əski bir məzarlıqda gizlənən Tamamın meyitini Qarqar çayının o biri sahilində tapırlar.

"Nə üçün " hekayəsində Peterburqda 1905 – ci ilin qanlı yanvar hadisələrinin günahsız qurbanlarından söz açılır. Balaca Lena çar babanın ac , səfalət içərisində yaşayan fabrik , zavod fəhlələrinə imdad əli uzadacağına inanır. O , anası Veraya qoşulub fəhlələrlə birlikdə çara dərdlərini söyləməyə , imdad istəməyə gedir. Lakin polislərin , əsgərlərin güllə baranına tuş gələn insanlar qana boyanır. Vera ağır yaralanır , balaca Lenanı isə qəddar kazak nizə ilə qətlə yetirir.

"Uşaqlıq həyatından xatirələr" əsəri müəllifin uşaqlıqxatirələridir. Əsərdə qəhrəmanın doğma yurdun təbiətinə məhəbbəti , qarşılaşdığı xeyirxah , əməksevər , insanlar haqqında düşüncələri , uşaq həyatının maraqlı , əyləncəli anları cəlb edici təhkiyə əks etdirilmişdir.

1911-ci ildə Bakıda uşaqlar üçün "Məktəb" adlı jurnalın ilk nömrəsi işıq üzü gördü. Bu jurnalın fəaliyyət göstərməsində N.Nərimanov, A.Səhhət, A.Şaiq, S.S.Axundov kimi qələm sahiblərinin böyük rolu olmuşdur. S.S.Axundov məcmuədə "Qorxulu nağıllar" (1912-1914) sərlövhəsi altında "Əhməd və Məleykə", "Abbas və Zeynəb", "Nurəddin", "Qaraca qız", "Əşrəf" hekayələrini çap etdirmişdir. Bu hekayələrdə yazıçı azərbaycanlı ailələrin yoxsul güzəranını uşaqların faciəli həyatını və bu fəlakətləri doğuran səbəbləri qələmə almışdır.

"Əhməd və Məleykə" hekayəsində xoş günlərdən məhrum olmuş uşaqların ağır, acınacaqlı həyatı təsvir edilir. Ehtiyac üzündən çörək dalınca ev-eşiyindən didərgin düşmüş atanın arabası ilə uçuruma düşərək faciəli surətdə həlak olması yetim qalmış Əhməd və Məleykənin iztirablı günlərinin daha da ağırlaşmasına gətirib çıxarır. Yoxsulluğun girdabından qurtulmaq üçün müxtəlif xilas yolları axtaran Xədicə uşaqlarını müdhiş aclıqdan qurtara bilmir. Oğlu Əhmədin "Ana" bu aclıq ildə atasız necə dolanacağıq, acından öləcəyik deyiminə qarşı ananın gücü yalnız: "Qorxam oğlum, bu saçlarımı satıb sizi ac qoymaram" deməklə uşaqlarına təsəlli verməyə çatır. Lakin bu hekayənin sonunda xeyirxah insan olan səyyah Cəmaləddinin nəcib hərəkəti cərəyan edən sonrakı hadisələri müsbət məcraya salır və əsər nikbin əhval-ruhiyyə ilə başa çatır.

"Abbas və Zeynəb" hekayəsindən amansız mühitin törətdiyi vəhşiliklərin, hərc-mərcliklərin insan həyatına bəxş etdiyi faciələrin bədii təsviri verilmişdir. Dünyanı hələ yetərincə dərk etməyən uşaqların – Abbas və Zeynəbin qan ədavətinin günahsız qurbanlarına çevrilməsinin şahidi oluruq. Hacı Səməd törədilmiş vəhşiliyin, zalımlığın səbəbini uşaqlar belə izah edir: "... quldurlar elmsiz, tərbiyəsiz tayfadan çıxarlar. Heyvanın vəhşisi qurd, pələng və şir olan kimi insanında vəhşisi bunlardır. Ancaq təfavütləri odur ki, quldurlar onlardan neçə qat rəhmsiz, insafsız və zalımdırlar." Hekayənin əsas ideyası da buradan doğur. Bu hekayədə təsvir edilən kənd mənfi qüvvələrin vəhşiliyinə məruz qalır. belə ki, Abbasgilin yaşadığı kənd gülləboran edilir, hətta heyvanlar və quşlar quldur Səfərin "vəhşi hərəkətlərindən elə xofa düşmüşdülər ki, hələ cürət edib yuvalarından çıxa

bilmirdilər.” “Abbas və Zeynəb” əsərinin finalından çıxan nəticələrdən biri budur ki, belə özbaşınalıq hökm sürən kəndlərdə Abbas və Zeynəblərin, Fatmaların taleləri bir tükdən asılıdır. Kənddə dərəbəyilik hökm sürür. Təsadüfi deyildir ki, S.S.Axundov quldur Səfərin başına topladığı “dəliqanlıların” Qayadibi kəndini yandırıb kül etməsinə qarşı nə kimi cəza tədbirləri görüldüyünü göstərmir.

Süleyman Sani bütün yazılarında bir müəllim kimi oxucuları tərbiyə etməyə, onlara ibrət verməyə çalışmışdır. Bu cəhətdən də “Qorxulu nağıllardakı”, “Nurəddin” və “Qaraca qızı” hekayələri çox səciyyəvidir. Nurəddinin anası Həlimə sədaqətli qadındır. Nurəddin çox mehriban bir ailədə tərbiyə almışdır. Həlimənin vaxtsız ölümündən sonra Nurəddinin həyatının ikinci dövrü başlayır. Hacı Nəsir elə güman edir ki, Gülpəriyə evlənməklə oğlunun kədərini yox edə bilər. Lakin Gülpəri ilə evlənməsi Hacı Nəsirə ailə sədaqəti gətirmir. Çünki Gülpəri bədxasiyyət, xəbis və xaindir. Nurəddini incitdiyinə görə Hacı Nəsir Gülpərini boşamaq istəyir, lakin qəflətən ölür və Nurəddin əzablı günləri bundan sonra başlayır. Burada S.S.Axundov öz oxucularına çatdırmaq istəyir ki, Nurəddin kimi övladı olan ata ikinci dəfə evlənərkən ciddi düşünməlidir. Əvvəllər ata-anasından mülayim rəftar görən Nurəddin indi yad nəfslərdən boğulmaq təhlükəsi ilə üz-üzə qalmışdır. O, atasını itirəndən sonra ögey anası Gülpərinin və onun əmisi oğlu Əmiraslanın yaratdığı soyuq mühitdə yaşamaq məcburiyyətində qalır. Uşaq olsa da onların dəfələrlə qurduğu kələkləri öz fərasəti sayəsində hiss edir. Hekayədə mənfi obrazlarla yanaşı müsbət xarakterli obrazlara da rast gəlirik.

Həmişə Nurəddinin qayğısına qalan, onu Gülpəri ilə Əmiraslanın hiyləsindən qoruyan İmamverdi baba, Hacı Nəsirin ailəsinə doğma münasibət bəsləyən qulluqçu Bahar, yaxşılığı heç vaxt unutmayan Rəhim, dilənçilik həyatı keçirən, lakin xoş xasiyyəti ilə seçilən Cənnətəli kimi surətlər hekayənin nikbin sonluqla bitməsinə xidmət edir.

S.S.Axundovun ən kamil, ədəbi nümunələrindən biri “Qaraca qız” hekayəsi sayılır. Bu hekayə ilk dəfə “Məktəb” jurnalında dərc olunsa da, 1936-cı ildə əsərlərini kitab halında çapa hazırlayan ədib siyasi repressiya dalğasından edərək “Qaraca qız” əsəri üzərində işləməyə məcbur olmuş, mülkədarlığa qarşı tənqidi gücləndirmək məqsədilə bir sıra əlavələr etmişdir. Müəllif əsərin ilk variantında müsbət obraz kimi təsvir etdiyi Hüseynqulu ağa və Pəricahan xanımı sonrakı variantda mənfi obraz kimi vermişdir. Hekayənin əsas qəhrəmanı zəlzələ zamanı ata-anasını itirmiş Tutu – Qaraca qızdır. O, zahirən çirkin olsa da, çox rəhmdil və səxavətli bir uşaqdır. Gənc qaraca qadın Yasəmənin gözəl xasiyyətini görüb ona isinişir. Lakin arvadı Yasəmənə qarşı belə amansız olan Yusifdən xoş sifət görməyən Qaraca qızın vəziyyəti dözülməz həddə çatır. Xilaskarı Yasəmənin faciəli surətdə vəfatından sonra daha da vəhşiləşən bu əzazil adam səbəbsiz yerə onu döyür, rəqs etməklə yığdığı pulları zorla əlindən alıb əyyaşlığa sərf edir. Sərxoş halda əl ayısının döyərkən belə dilsiz heyvan bu zülmə dözmür belə dilsiz heyvan bu zülmə dözmür, onu parçalayır. Bundan sonra Qaraca qız yeni bir mühitə - mülkədar Hüseynqulu ağanın evinə düşür. Onun həyat yoldaşı Pəricahan xanım özünün tərbiyə üsulu ilə Ağcanın uşaqlığını əlindən almışdır. Onun Qaraca qızla dostlaşdığını mümkün hesab etmir, ondan pis xasiyyət götürəcəyindən ehtiyatlanır. Qaraca qız “Baba, o xanım qızını nə üçün mənimlə oynamağa və söhbət etməyə

qoymur?" Sualına Piri baba çox sakit tərzdə cavab verir. "Qızım, onlar bəydirlər, biz rəiyyət, onlar ağadırlar, biz nökər. Bizimlə onların nə yoldaşlığı."

Ağca xanım mülkədar qızı olsa da, öz yaşıdları ilə oynamaq istəyir. Uşaqlıq illərinin yaşıdları ilə oynamaq istəyir. Uşaqlıq illərinin şirin çağlarını istədiyi kimi keçirə bilməyən Ağca xanım Qaraca qıza həsəd aparır. Uşaq olsa da başa düşür ki, əsl xoşbəxtlik insan azadlığındadır. Lakin yoxsulluq bu uşaqlara mane olan ən əsas səbəbdir.

"Qaraca qız" ədibin nəsr yaradıcılığının şah əsəridir. Yazıçı Qaraca qızın simasında ədəbiyyatımızda ilk dəfə olaraq sadə ailədən olan uşağın təsirli, unudulmaz obrazını yaratmışdır.

"Qorxulu nağıllar" başlığı altında yazılmış əsərlərdən biri də 1914-cü ildə "Məktəb" jurnalında dərc olunmuş "Əşrəf" hekayəsidir. Tacir oğlu Əlimərdan Nəsibə adlı gözəl bir qızla evlənir. Onların Əşrəf adlı oğlu olur. Əlimərdan gəmiçilik edir. Sonra bir cuhud onu yoldan çıxarır. Osmanlı torpağından gətirdiyi qaçaq malı Əlimərdanın gəmisinə yığıb Rusiyaya aparır. Nəticədə Əlimərdan həbs edilib ailəsi ilə birlikdə sürgün edilir. Hekayədə əsas diqqət balaca Əşrəfin ata-anasından ayrı düşdükdən sonra Nikolya İvanoviç adlı bir müəllimin himayəsində tərbiyə alması məsələsinə yönəldilmişdir. Nikolay İvanoviç qayğıkeş, həssas, alicənab rus müəllimidir. Onun arvadı Sofiya Aleksandrovna da ağıllı, əri kimi humanist qadındır.

S.S.Axundovun ilk müəllim surətini milliyyətcə rus olan Nikolay İvanoviçin simasında qələmə alması təsadüf deyildir. O, hələ Qori Müəllimlər Seminariyasında tələbə olarkən burada rus pedaqoqlarının azərbaycanlı şagirdlərinin təlim-tərbiyəsinə müsbət təsirinin şahidi olmuşdur.

Beləliklə S.S.Axundov öz hekayələri ilə insanları tərbiyələndirməyə və öz oxucularına gözəl hislər çalışmışdır.

Ədəbiyyat

1. Hacıyev A. Azərbaycan Sovet uşaq nəşri. Bakı. Maarif, 1989.
2. Azərbaycan Sovet ədəbiyyatı. Bakı. Maarif, 1988.
3. Azərbaycan ədəbiyyat tarixi. Bakı. EA-nın nəşriyyatı, 1960.

Ульвийя Гасанова

Художественное отражение духовна – нравственных идей в творчестве С. С. Ахундова

Резюме

В этой статье можно увидеть насколько богато художественное творчество С.С.Ахундова.Надо отметить его особую заслугу в азербайджанском просвещении. Посредством художественной литературы он уделял особое внимание воспитанию детей и просвещению народа. Важную роль в своем творчестве С. С. Ахундов отводил моральному воспитанию и просвещению молодого поколения. Его произведения призывали детей и молодежь к образованию. Он критиковал невежество , жадность. Творчество С.С.Ахундова

насыщено событиями поучительного характера. В своих произведениях он широко отоброзил проблемы беспокоющие общество , горькую боль народа.

Ulviyyah Hasanova

Artistic image of edicational views , moral ideas in the activities of S.S. Akhundov

We seeonce more have much rich artistic achtivities of S. S. Akhundov. He has played a great role in the enlightenment of Azerbaijan.S.S. Akhundov gave a great aftention to the getting education of nation , to edicate children by means of belles – lettres/ He has more stressed moral values of young generation , educational problems in his activities. S.S.Akhundov s work call the children , the young to get education. We see once again that Akhundov has criticized ignorance , absoles cence and greediness. The activities of writer are rich in edifying events. S.S. Akhundov had given a wide place to the problems of society , sufferings of nation in his works.

Rəyçi: Könül Məmmədova
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

YILDIZ MEHMET SONER
Bakı Slavyan Universiteti Pedaqogika və psixologiya kafedrası
qafqazlisoner@hotmail.com

YUNUS ƏMRƏ ƏSƏRLƏRİNDƏ TÜRK İSLAM ƏXLAQI ANLAYIŞI

Açar sözlər: Yunus Əmrə, tərbiyə, əxlaq, İslam, türk islam əxlaqı, kamil insan.
Ключевые слова: Юнус Эмре, воспитание, мораль, Ислам, тюркский мораль Ислама, совершенный человек.
Key words: Yunus Emre, upbringing, morality, Islam, Turkish Islam, the perfect man.

İslamda tərbiyə anlayışı geniş mənanı ifadə edir. İslam insanın kamilləşərək yüksəldilməsini nəzərdə tutur. Bununla yanaşı, İslamda tərbiyə daha geniş anlamda başa düşülərək insanın yaşadığı cəmiyyətin inkişafına öz töhfələrini verməsi, onu hər cür düşmən təcavüzlərindən müdafiə etməsi, xalqının adət və ənənələrini, dilini, dinini qoruması, ona hörmət etməyə çalışmasıdır.

Dünya tarixinə nəzər salsaq, türklərin də islamı ürəkdən qəbul edən millətlərdən biri olduğunu görərik. Qədim türklərin ən əsas xüsusiyyətlərindən biri adət-ənənələrinə bağlılıqları idi. Türk adət-ənənələri dildən-dilə, nəsildən-nəslə ötürülürdü. Hökmdarlar da daxil olmaqla, hər kəs adət-ənənələrə tabe olmaqla məsul idi. Türk adət-ənənələrində ağır cəzalar da vardı, ancaq doğruluq və ədalətdən ayrılmazdılar. Bu adət-ənənə əsrlərin təcrübəsinin məhsulu idi. Adət-ənənə bir növ ölkənin əsas qanunu idi. Türklər İslamı könüllü qəbul ediblər. Bu, bütün tarixçilərin yekdilliklə qəbul etdiyi məsələdir. Türklərin Göy Tanrı inancları ilə İslam arasında bəzi bənzərliklərin olması bunda mühüm rol oynamışdır. Məhz buna görə də Türklərin həyatında islam adət-ənənələri xüsusi yer tutur. Onların dini həyatını araşdırdıqda islam əxlaqının, bu əxlaqa yüksək dəyər verən tərbiyənin aşılandığının şahidi olarıq.

Türklər İslamı qəbul etdikdən sonra İslam bayrağını daim yüksəklərə qaldırmışdır. Türklər İslamı yaşatmaqla özləri də var olmuş və öz monoteist inanclarına uyğun bir həyat tərzini davam etdirmişlər [5].

Professor Erol Güngör söylədiklərimizi belə ifadə edir: "Türklər İslam dinini özlərinin milli dininə çevirdilər, bütün mənlik və səmimilikləri ilə bu dinə bağlanaraq XI əsrdən etibarən İslam dünyasının bütün düşmən qüvvələrə qarşı qorunmasını təkbaşına boyunlarına götürdülər. İslama qədər türklər hər cür yüksək xüsusiyyətə malik, ancaq hələ dünyada öz yerini tam tapmamış bir millət idi. İslam onun yolunu aydınlandıran işıq oldu və türk milləti bu işığı təqib etdikcə daima yüksəldi" [9].

Türk ədəbiyyatının ən görkəmli simalarından biri olan Yunus Əmrə də dünyaya göz açdığı torpağın, ona həyat verən insanların dini inanclarını və bu inanclardan irəli gələn əxlaqi görüşləri əks etdirən şeirləri ilə diqqəti cəlb edir. Tanrı qorxusuyla deyil, Tanrı sevgisinə dayanan ilahi tərzdə yazdığı şeirləri ilə Yunus Əmrə islam əxlaqı və bu əxlaqdan doğan tərbiyə məsələlərinə xüsusi dəyər verirdi.

Şairə görə Tanrı eşqi insanı bir çox çətin mərhələlərdən keçirərək onu kamilləşməyə doğru aparır, fədakarlıq, məğrurluq kimi hisslər tərbiyə edir. Tərbiyə

mühit və ünsiyyət prosesində meydana gəlir. Onun formalaşması insan münasibətləri xüsusiyyətləri ilə bağlıdır. İslami tərbiyə insanı Allahın qarşıya qoyduğu məsələləri həll etməklə təmizlənməsinə, beləliklə, bir şəxsiyyət kimi formalaşmasına kömək edir. Yunus Əmrə əxlaqi keyfiyyətləri araşdırarkən, ilk növbədə dövrünün pedaqoji-psixoloji təfəkkürünə əsaslanmışdır. Bunu aşağıdakı nümunədə görmək olar:

Aşiq oldum ərənə irməg ilə,
Həqq buldum ər yüzin görməg ilə.
Kəbə sənün eşiqündür, bilmiş ol,
Bulamazsın yol çəkib armağ ilə.
Binar idüm, ərənlər qıldı nəzər,
Dəniz oldum dört yana irmağ ilə [2, 116].

Öz dövrünün təhsilli və ziyalı adamlarından biri kimi Yunus Əmrə düzgün həyat keçirən və xalqına fayda verən insanların yetişdirlməsində tərbiyənin əvəzolunmaz rolunu görmüşdür. O, islami əxlaq tərbiyəsinin məqsəd və vəzifələrini təsəvvüf baxımından görür və izah etməyə çalışırdı. Çünki təsəvvüfün son məqsədi Allahın və Onun yaratdığı aləmin son məqsədidir. Bu məqsəd öz gerçəkliyini yanlız cəmiyyətdə tapa bilər. Cəmiyyətdən kənarda kamil insan, şəxsiyyət anlayışı mövcud deyildir. İnsan kamilləşmək üçün öz mənəviyyatı əxlaqı və ictimai fəaliyyəti ilə ətrafındakılara bir örnək olmalıdır. Yunus Əmrə kimi "məndə bir mən vardır məndən içəri" və s. kimi mənaları ifadə etməklə məqsədyönlü bir şəkildə kamil insan və şəxsiyyət formalaşdırılmasına çağırır. Bunu o, belə ifadə edir:

Ey eşq əri, aç gözünü,
Yer üzünə qıl bir nəzər.
Gör bu zərif çiçəkləri,
Bir gün köçər, bir gün bəzər... [4, 107]

XIII-XIV əsrlərin sufi şairləri "Qurani-Kərim"ə istinadən sadə bir dillə xalqa İslam dinin insanın qarşısına qoyduğu əxlaqi tələbləri izah etməyə çalışırdılar. Yunusun da vəhdəti-vücud fəlsəfi görüşlərinə dərindən bələd olduğunu, haqqa eşqlə çatmağın mümkünlüyünü qəbul etdiyini göstərir. Bu eşq adi, dünyəvi məhəbbət hissi deyil, insanı Allaha doğru səsləyərək vəcdə gətirən eşq idi [8, 76].

Yunus Əmrə insan ağlına, zəkasına yüksək qiymət verərək onu daim təkmilləşdirmək zərurətini qeyd etmişdir. İnsanı ağıl, elm və bilik əxz etməklə nəfsdən uzaqlaşıb kamilləşir. Ağılla görülən işlər daima fayda verir və insanı nəfsdən uzaqlaşdırır. Beləliklə də nəfsə qalib gələrək daxili aləmin işıqlanmasına və mənəvi cəhətdən saflaşmasına səbəb olur. Bunu aşağıdakı misralarda da görmək olur:

Nəsihət qəndilindən bir işarət göründi,
Tənüm içində canum andan yana süründi.
Nəfsümün əjdərhası döndi bana həml etdi,
Qənaət hay deməzsə yerü gögi yer imdi [2, 151].

Bütün dövrlərdə və xalqlarda maddi sərvətlərə qənaətkarlıqla yanaşmaq tərbiyəsinin formalaşdırılması insanın mənəvi keyfiyyətləri aləminə daxil edilmişdir. Qənaətcillik tərbiyəsi qədim tarixə malik olması ilə seçilir. İslami dəyərlərdə də qənaətcilliyə mühüm yer verilmişdir.İmam Əli (ə) buyururdu: "O kəs ki, müdrik olar - qənaət edər". Yunus Əmrə də hesab edirdi ki, ağıl qənaəti onun dəyərlı təsirlərinə görə seçir. Ağıl qənaəti insanın xeyirinə olan bir əməl kimi tanıyır. Şair qənaətcillik tərbiyəsinin formalaşdırılmasını insanın maddi və mənəvi həyatının təmin olunmasında önəmli cəhətlər sırasına daxil etmişdir. Yunus bir pedaqoq kimi məharətlə göstərir ki, nəfsə uymaq insanı öz qəlbində paxıllıq, həsəd kimi mənfi hisslərin yaranmasına gətirib çıxarır:

Qənaəti yar edin, uyma nəfs diləginə,
İrəsin həqiqətə, yerün buldun, tur imdi.
Qənaət dedügini əgər sən dutmaz isən,

Nəfsinə uyar isən, sərgərdan ol yor imdi [2, 152].

Gözəl xasiyyət müsəlman üçün ən mühüm keyfiyyətlərdən biri sayılır. İnsanın başqaları ilə ünsiyyətcilliyi, mülayim xasiyyətə malik olması, ətrafdakılarla mehriban davranması, gülərüzlülüyü ümumilikdə əxlaqın gözəlliyi kimi dəyərləndirilir. Yunus Əmrə xoş, gözəl xasiyyətin Allah tərəfindən gəldiyini bildirərək, bunun xoş bir nemət kimi qədrini bilmək lazım gəldiyini söyləyir:

Dost, sənin eşqin oxu
Ən möhkəm daşdan keçər.
Eşqinə düşən adam
Can ilə başdan keçər [2, 152].

Yunus Əmrəyə görə də müsbət əxlaqi dəyərlər insanın daxili aləminin gözəlliyi mənasını verir. İnsanın zahiri görünüşü Allahın əlindədirsə, batini dünyasının vəziyyəti onun öz ixtiyarındadır. Yunus Peyğəmbərimizin "Allah səni xilqətdə gözəl yaradıb, sən də öz əxlaqını gözəlləşdir" sözlərini əsas götürürdü:

Yüz min cövr, yüz min cəfa
Kölgə sala surətimə.
Günbəgün artar şadlığım,
Çünki xoşdur səni sevmək [4, 30].

İnsanın dəyəri onun fərdi ibadətləri ilə deyil, əxlaqının gözəlliyi ilə ölçülür. Şair də göstərirdi ki, ibadət Allahdan ötrü edilir.

İlahi şəriət, Allahın qoyduğu qaydalara riayət etmək İslamda tərbiyənin önə çıxardığı məsələlərdən olmuşdur. Yunus Əmrə insanı Allahın yaratdığı məxluqlardan ən ağıllısı olduğunu göstərir. Əgər uca Tanrının ona bəxş etdiyi fiziki, zehni sağlamlığın qeydinə qalınarsa, yaşanılan mühitə düzgün yanaşmaq və baş verən hadisələrdən nəticə çıxarmaq olar.

Diqqət yetirsək, Quranın bir çox ayələrində müəyyən tapşırıqlardan sonra insanlara "düşünməzsinizmi?" (əl-Ənam, ayə 80), "fikirləşməzsinizmi?" (əl-Ənam, ayə 50), "anlamazsınızmı?" (əl-Əraf, ayə 169), "ibarət almazsınızmı" (Ğafur, ayə 58) deyə müraciət edildiyini görərik. Ümumiyyətlə, Quranda elm, bilik və onunla bağlı sözlər 779 dəfə, ağıl sözü 49 dəfə, fikir sözü 18 dəfə işlədilmişdir. Bu o deməkdir ki, Allah insanın ağıl işlətməsini, şeylərin və hadisələrin mahiyyətinə nüfuz etməsini, seçimini öz ağlı və azad iradəsinə əsasən etməsini istəyir [1, 175].

Yunus Əmrə də ağlın insanı qiymətləndirmək, onun kamilliyini müəyyən etmək üçün meyar, onu mükafatlandırmaq və tərbiyə etmək üçün mizan tərəzi olduğunu bildirirdi:

Əqlün irərsə sor bana, bən əvvəldə qanda idüm,
Dilər isən deyü verəm, əzəli vətəndə idüm.
"Qalü bəla" söyləmmədin, tərtib düzən eyləmmədin,
Həqdən ayru degül idüm, ol ulu divanda idüm.
Əyyub ilə dərdə əsir, anlamadum çəkdüm cəza,

Bilqeys ilə təxt üzərə möhri-Süleymanda idüm [3, 69].

İslamın gətiridiyi dəyərlərdə məqsəd insanlarda yüksək əxlaq, doğruluq, dürüstlük keyfiyyətləri tərbiyə etməkdir. Yunus Əmrə öz lirik parçalarında islam əxlaq qaydalarını tövsiyə etməklə yanaşı, onları davranış tərzinə çevirməyə çalışır:

Biz bizi bilməz idük, bizi yaradan eylədi,
Aşikarə bizi qıldı, kəndüyi pünhan eylədi.
Biz bilə pünhan idük, ğeyri sənü bən idük,
Mütləq bigüman idük, həm bigüman eylədi [3, 133].

İslam iman və təslim olmaqdan başlayır. İslam müsəlmanlığın bədəni, iman isə onun ruhudur. İslamı qəbul etmək və müsəlman olmağın ilkin şərti Allahın yeganəliyinə və Həzrəti Məhəmmədin onun rəsulu olduğuna şəhadət verib təsdiqləməkdir. Lakin islamın ruhuna-həqiqi imana isə yalnız qəlbən iman gətirib əməldə təsdiq etməklə nail olmaq mümkündür. Bunun üçün ilk əvvəl İslam dininin etiqad, əməl və əxlaqdan ibarət olan sahələrini öyrənmək və ona əməl etmək lazımdır (6, 28). İslam əxlaq normaları və əxlaq tərbiyəsi İslamın çox mühüm bölməsi olan islam əxlaqında özünə yer tutur. Yunus Əmrəyə görə də islama görə əxlaq imandan doğur. O, bildirir ki, iman ilk növbədə Allahın varlığına, Onun birliyinə etiqadın olmasını və bu etiqadın əsasında Ona bəndəlik edilməsini nəzərdə tutur:

İlahi, bir eşq ver bana, qandalığum bilməyəyin,
Yavu qılayın bən bəni, istəyübən bulmayayın.
Söylə heyran eylə bəni, bilməyəyin dündən güni,
İstəyəyin daim səni, ayruq nəqşə qalmayayın [3, 197].

Hələ tərbiyə elminin "pedaqogika" adı ilə formalaşmasına qədər Şərqdə "əxlaq elmi" adı ilə geniş yayılan tərbiyə prosesi həyata keçirilirdi. İslam dinin tədqiqatçılarından biri olan Ə.Əhmədov yazır ki, "Əxlaq elmi insanların mənəvi

aləmində olan nasazlıqları müalicə etmək, onu saflaşdırmaq, rəzil və çirkin xislətlərdən təmizləyib cəmiyyət üçün faydalı və pak bir üzvə çevirmək məqsədi güdür. Odur ki, bu elm elmlərin ən şərəflisidir, çünki, o, kainatın ən şərafətli məxluqu olan insanın mənəviyyatının xilaskarıdır" [7, 20].

Yunus Əmrə Şərqin "əxlaq elmi" ilə yaxşı tanış olmuş milli adət-ənənələri saxlamaqla, islam dünyagörüşnü təbliğ edə bilmişdir. Yunus özünün təriqət şeirlərində Məhəmməd peyğəmbərin şəxsiyyətinə hörmətlə yanaşmaqda iki cəhəti-dinin ülviliyini və onun böyük bir şəxsiyyət kimi müsbət cəhətlərini, insani hisslərini, dərin zəkaya malik təfəkkürünü nəzərə çatdırırdı:

Ərəfat dağıdır bizüm dağımız,
Anda qəbul olur bizim duamuz,
Mədinədə yatar peyğmbərümüz,
Ya Mühəmməd, canum arzular səni [2, 262].

O, Peyğəmbərin simasında dinin üstünlüyünü konkretləşdirməklə, böyüklərə hörmətin körpəlikdən təlqin olunduğunu bildirir. Ümumiyyətlə, şair İslamda adı hörmətlə çəkilən böyük şəxsiyyətlərdən-Həzrəti Əbubəkr, Həzrəti Ömər, Həzrəti Osman, Həsrəti Əli, Peyğəmbərimizin sevimli nəvələri-Həzrəti Həsən və Həzrəti Hüseyn haqqında məlumat verir, bu simaların özlərindən yaşlılara və kiçiklərə böyük ehtirmla yanaşdıqlarını bildirir:

Zərrəcə qalmadı könlümdə hilə,
Sidq ilə girmişəm bən bu Həqq yola,
Əbubəkr, Ömər, Osman da bilə,
Ya Məhəmməd, canum arzular səni.
Əli ilə Həsən, Hüseyn anda,
Sevgüsi könüldə, məhəbbət canda,
Yarın məhşər günü olur divanda,
Ya Mühəmməd canum arzular [2, 262].

Bu insanların Haqq yolunda apardıqları mübarizə və cəmiyyət üçün gördükləri işlər insanlarda qəhrəmanlıq mübarizəsini formalaşdırır. Şair göstərir ki, Məhəmməd Peyğəmbərimizin yolunu davam etdirən bu insanlar öz mənəvi qüvvələrini Allahdan almışdır.

Yunus Əmrənin təriqət şeirlərində pedaqoji görüşləri üzə çıxır və öz tərbiyəvi əhəmiyyətini saxlayır. O, sanki bir pedaqoq kimi dinin tərbiyəvi, elmi cəhətlərini öz irsində əhatəli şəkildə əks etdirməklə, insanın tərbiyəsinə müsbət təsirini göstərir.

Ədəbiyyat

1. Əliyev R. Dinin əsasları. Bakı, 2003, 268 s.
2. Əmrə Y. Əsərləri. Bakı, 2009, 357 s.
3. Əmrə Y. Əsərləri. Bakı, 2004, 326 s.
4. Əmrə Y. Əsərləri. Bakı, 1992, 228 s.
5. Kazımov S. Türklərin İslamdan əvvəlki inancları.-www. uluturk.info

6. Seyidmiri F. İslamı olduğu kimi tanıyaq. Bakı, 2010, 152 s.
7. Məmmədov K. Şərq pedaqoji fikir tarixindən. Bakı, 2011, 134 s.
8. Hümmətova X. Yunus Əmrə. Bakı, 2006, 188 s.
9. Qədim Türklər və İslam.-www. meqaleler.com

Йылдыз Мехмет Сонер

Мораль Ислама в творчестве тюркская Юнуса Эмре

Резюме

В творчестве Юнуса Эмре было выражено Тюркская мораль Ислама. Он пропагандировал Исламское мировоззрение и придерживался средневекового исламского отношения. Для поэта чувство любви связывает всех живых существ друг с другом, указывает им путь в божественный мир. Для него настоящая любовь, как и настоящая дружба, всегда бескорыстна. В известном смысле Всевышний – лучший друг человека.

Yıldız Mehmet Soner

Islam works of Turkish Yunus Emre concept

Summary

Islam works of Yunus Emre concept, which became well-acquainted with preserving national traditions, Islam has been able to promote outlook. His creativity has been able to find a description of the great Turkish Islamic morality. God's laws, God's discipline to follow the rules of Islam to the fore the issues were the main topics of the poet's works.

Rəyçi: Professor Kərim Məmmədov

ŞÜKUFƏ QƏDİMOVA
BDU Şərqşünaslıq fakültəsi
Türk filologiyası kafedrasının dosenti
şukufe qadimova@mail.ru

ORTA ƏSR TÜRK DİVAN ƏDƏBİYYATINDA DİNİ-TƏSƏVVÜFİ MÖVZULAR

Açar sözlər: İslam, təsəvvüf, Qur`ani-Kərim, hədislər, Əhməd Fəqih, Şəyyad Həmzə
Ключевые слова: Ислам, суфизм, Коран, хадисы, Ахмед Факих, Шеййад Хамза
Key words: Islam, Sofism, Qoran, Hadith, Ahmed Fakih, Sheyyad Hamza

Orta əsrlər mədəniyyətinin təşəkkül tapmasında dini mətnlərin təsiri olduqca böyükdür. İstər Yunan-Avropa, istər Hind-Çin və istərsə də ərəb-müsəlman mədəniyyətində bədii yaradıcılıq bu və ya digər şəkildə dini mətnlərin çeşidli təsirinə məruz qalmışdır. Qeyd etmək lazımdır ki, dini mətnlərdə təkcə ibadət və etiqad prinsiplərinin təlimi nəzərdə tutulmur. Həmin mətnlərin təhlili göstərir ki, burada insanların həyat tərzi, adət və ənənələri, ictimai məsələlər, əxlaq və davranış qaydaları ilə yanaşı, müxtəlif mifik təsəvvürlər, mövcud cəmiyyətin ayrı-ayrı problemləri, kainatın yaranması və quruluşu haqqında düşüncələr, mifik, dini və elmi fikirlər geniş yer tutur. Digər tərəfdən, dini mətnlərin toplumunda geniş miqyasda folklor materialı işlənir. (3, s. 137)

Eyni zamanda dini mətnlər öz emosional təsiri və bədii quruluşu baxımından bədii yaradıcılığın bir çox xüsusiyyətlərini özündə cəmləşdirir. Buna görə də ədəbi prosesdə gedən bu cür qarşılıqlı əlaqə və təsir nəticəsində dini mətnlərin bədii əsərlərə təsiri güclüdür. Bu baxımdan, müsəlman xalqlarının ədəbi yaradıcılığı xüsusilə seçilir. Qur`an Şərqin əksər dahi söz ustalarının yaradıcılığında dəyərli bir qaynaq kimi təmsil edilir.

Orta çağlarda tarixçilər, katiblər, xətiblər, yazıçı və şairlər Qur`anın təkcə məna və məfhumlarından deyil, hətta bədii-üslubi xüsusiyyətlərindən və bəlağət sistemindən faydalanmışlar. Onlar öz yaradıcılıqlarının etibar və dərəcəsini artırmaq üçün Tanrı kəlamına söykənmişlər. (3, s. 138) Belə bir şəraitdə müxtəlif təriqətlər meydana gələrək, dini-təsəvvüfi anlayışları xalq arasında yaymağa başlamışdılar.

Anadoluda təsəvvüf XIII əsrdə yavaş-yavaş yayılmağa başlamış və onun təriqətləri müxtəlif şəhərlərdə kök salmışdır. Bu da ondan irəli gəlirdi ki, müxtəlif daxili və xarici çəkişmələrdən və muharibələrdən bezmiş xalq təriqət başçılarının ətrafında toplaşaraq mənəvi təskinlik tapırdılar. Orta əsrlərdə sufizm cərəyanı güclənmiş və bir çox mütəsəvvüflər yetişdirmişdir. Sözsüz ki, sufizm bədii-fəlsəfi cərəyan olduğundan, öz əksini ilk növbədə dövrün söz sənətində tapmışdır. Tanınmış füzulişünas-alim G. Əliyeva-Kəngərli həm də mükəmməl sufizm nəzəriyyəçisi kimi çıxış edərək belə bir dəqiq elmi-nəzəri fikir irəli sürür ki, "Bədii ədəbiyyat prizmasından yanaşdıqda sufizm mükəmməl tarixə, konseptual nəzəri struktura, etik, poetik, estetik və metodoloji özəlliyə malik bədii-fəlsəfi cərəyandır" (12, s.8). Həqiqətən də, təsəvvüfün cazibəsi, fikir və sənət sahəsində dərin bir ilham mənbəyi

olmuş və əsrlər boyu mütəfəkkirlər bunu izah etməyə çalışmış, şairlər isə şeirlərində tərənnüm etmişdirlər. Hər hansı bir fikrin ən mükəmməl ifadəsini ədəbiyyatda gördüyümüz kimi, təsəvvüfün də ən gözəl nümunələrinə ədəbiyyatda rast gəlirik. (1, s.44)

Qeyd etmək lazımdır ki, orta əsrlərin Divan şairləri təsəvvüfün təsiri altında qalaraq öz əsərlərində dini-təsəvvüfi fikirlərə geniş yer vermişdilər. Hədislərə ibrət gözü ilə baxan şairlər, görünənlərin arxasında gizli olanları kəşf edərək onları öz şeirlərində tərənnüm edirdilər. Divan şairlərinin ədəbi nümunələrindəki həqiqətlərin xalqa yaxın tərzdə yazılmış olması və sadə insani hisslərin əks olunması, onları daha da dəyərli edirdi. Buna görə də, divan şeirləri mahiyyət etibarı ilə müxtəlifdir və bir çox mövzuları əhatə edir. Bu mövzuların ən əsasları "xəzinə qaynağı" (1, s.101) hesab edilən Qur`an və hədislərdən alınırdı. Şairlər ayələri və hədisləri bəzən tam, bəzən bir hissəsini, bəzən də yalnız mənasını əsas götürərək şeirlər yazırdılar. Buna bənzər bəzi nümunələr gətirək.

Aşıq Paşanın "Qəribnamə"sindən:

Cümle alem yoğiken ol var idi
Şöyle eksiksiz gani cebbar idi.
"Küllüşey`in halikün"den sonra hem
Kala "illavechehu" bibişu kem.

(bax: 1, s.110)

(Bütün aləmlər yox ikən O var idi. Heç bir qüsuru olmayan bir əzəmət və qabiliyyət sahibi idi. Şübhəsiz, hər şey həlak olacaq, yalnız onun vəchi qalacaqdır). Şair burada "Kullişey`in halikün illavechehü" kəlməsini eyni məna daşıyan Qur`ani-Kərimin "Kasas surəsi", 88-ci ayəsindən almışdır: *"Ve lated`u meahallahi ilahen ahar, le-ilehe-ille hüve, külluşey`in halikün ille vechehu, lehul hükmu ve ileyhi türcun"*. ("Və Allahla bərabər başqa bir ilaha dua etmə (ibadət etmə). O`ndan başqa İlah yoxdur. O`nun Zatından başqa hərşey həlak olucudur. Hökm O`nundur. Və Ona dönüləcəkdir).

Şeyxinin "Fərhad və Şirin"indən:

Ol kevnü-mekana sığmayan Şah
Viraneye kurdu barigahı.

(6, s.157)

(Bütün kainata sığmayan Allah (Şah), otağını viranəyə bənzəyən könüldə qurdu). Şair burada məşhur hədisdən istifadə etmişdir. (darultavhid.com)

Ruhinin bir tərkibənddən:

Sanıman bizi kim şirei engur ile mestiz
Biz ehli harabattanız mesti Elestiz.

(6, s.310)

(Bizim şərabla sərxoş olduğumuzu zənn etməyin, biz xərabət əhliyik. Əzəldən bəri sərxoşuq) beytində, şair Qur`andakı "Elestü birabbikum", yəni, "Mən sizin Rəbbiniz deyiləm mi?" xitabına işarə edir və özünü o xitabın sərxoşu hesab edir.

Əhmədidən də bir nümunə gətirək:

Bibekadır bu meclis ey ahbab
Fetteküllahe ya ülil`elbab. (1, s.104)

(Boşunadır bu məclis, ey ahbab, Ey ağıl sahibləri, Allahdan qorxun!). Şair öz beytində Qur`ani-Kərimin "Talak surəsi" (65-ci surə), 10-cu ayəsindən istifadə etmişdir: "Allah onlara çətin bir əzab hazırladı. Elə isə, ey iman edən ağıl sahibləri, Allahın əmrlərinə uyğun hərəkət edin!".

Buna bənzər nümunələrə bir çox Divan şairlərinin əsərlərində rast gəlmək mümkündür. Bu da ondan irəli gəlirdi ki, orta əsr Anadolusunda İslam mədəniyyəti ən çiçəklənən dövrünü yaşayırdı, və Anadolunun ictimai, siyasi, iqtisadi, mədəni və mənəvi həyatının İslamın əsasları üzərində qurulması ən dolğun şəkildə ədəbiyyatda özünü biruza verirdi. Başqa sözlə, məhz ədəbiyyat islami dəyərlərin yayılmasını öz üzərinə almışdır.

IX əsrdən başlayaraq, demək olar ki, əksər türk şairləri öz yaradıcılıqlarında Qur`ani-Kərim və hədislərdən istifadə etmişdirlər. XIII əsrdə Anadoluda təsəvvüfün yayılması, ərəb və fars dillərindən zəngin təsəvvüfi ədəbiyyatın mövcudluğu, şübhəsiz, türk dilində də eyni ədəbiyyatların vücuda gəlməsini tələb edirdi. (6, s. 48) Bu ədəbiyyatları türk xalqına tanıtmaq isə, sözsüz ki, ədiblərin vəzifəsi idi. Belə şəraitdə də təsəvvüfi türk ədəbiyyatı təkamül etməyə başlamışdır ki, onun ilk təmsiçiləri, tanınmış türkoloq A.Abi Aydının sərrast ifadəsilə desək "Türkiyə ədəbiyyatında anadilli poeziyanın ilk yaradıcıları" (13, s.243) Əhməd Fəqih (Ahmet Fakih), Şeyyat Həmzə, Sultan Vələd və Yunus Əmrə kimi şəxsiyyətlər olmuşdur.

Əslən xorasanlı olan Xoca Ahmet Fakih müxtəlif mənbələrin verdiyi məlumata görə, təxminən XII əsrin sonu - XIII əsrin I yarısında Konyada yaşamışdır. Mənbələrdən birində qeyd olunur ki, o, Mövlananın atası Sultanül-Ulema Bahaəddin Vələdin müridi olmüş və ondan hüquq dərsləri almışdır, buna görə də ona "fakih" (fiqh elmini oxuduğu üçün) demişlər. Xalq arasında böyük nüfuz sahibi olan Ahmet Fakihin şöhrəti "bektaşi" və "mövləvi" təriqətlərinin səyi nəticəsində XVI əsrə qədər gəlib çıxmışdır. (4, s.107) Çünki, Ahmet Fakih dövrünün güclü hüquqçusu olmaqla bərabər, həm də dərin zəkaya malik sufi-şair olmuşdur. Davamlı olaraq bir ilahi eşq və cəzbə içində yaşayan bu dərviş, ətrafında bir çox müridlər toplamış və təsəvvüf fəlsəfəsini yaymaq məqsədilə əsərlərini türkcə yazmışdır.

Ahmet Fakih haqqında məlumat verən ilk qaynaq Əhməd Əflakinin "Menakibül-Arif" adlı əsəri olmuşdur.(2, s.310) Sənət dəyəri baxımından isə ilk olaraq M.F.Köprülü bu əsəri araşdırıb, nəşr etmişdir. Daha sonra isə Mecdut Mensuroğlu "Çarxnamə"ni dil-üslub baxımından incələmişdir. Ahmet Fakihin qəsidə şəklində yazılmış "Çarxnamə"si və "Kitabu Evsafı Mesacidi`ş-Şerife" adlı bir məsnəvisi mövcuddur.

"Çarxnamə" əruzun "məfailün məfailün failün" qəlibiylə yazılmış 100 beytlik bir mənzümə olaraq, dini-təsəvvüfi mövzuları əhatə edən nəsihətamiz bir əsərdir. Anadolu-Oğuz türkcəsinin ilk örnəklərindən olan bu əsərdə ahmet Fakih dünyanın faniliyindən, dünya zövqlərinə uymağın ziyanından, qiyamət gününün dəhşət və qorxusundan söz açaraq, ölümü xatırladır. Bu dunyada axirət üçün yaşamağın gərəkliyindən, dünyada yoxsullara əl tutmaq, insanların bir-birinə qarşı səbirli və sadə olmaqlarından bəhs edərək, bir çox əxlaqi dəyərləri təblığ edir. (4, s. 310) Buna nümunə olaraq, "Çarxnamə"dən bəzi misraları misal gətirək:

Bilür misin niçin geldün cihana:

Seni kullık için yaratdı Sultan.
...gözün aç, gaflet içre yatma iy dost
Ki göçmeğe dutupdur yüzi kervan.
Eğer nam ister isen ahiretde
Yidirgil Hak yolına dünyada nan.
Bu dünyaya niçün pek yapışursın
Seni andan koparur çarh-ı devran.
Bu dünya lezzetine mağrur olma
Bu nefsi beslemegil hem çü hayvan.
Gün ola ki kopa dağlar yirinden
Beraber ola düpdüz dağ u yaban
Kıyamet kopıcağız, bil hakikat,
Kelebek gibi dağıla bu insan.
Bizi korkduğumuzdan kurtar iy Hak!
Bize ayruk tapıtma anda hicran.
... ...
Ölüm bir kapudur geçmek gerekdür
Beraber anda sultan ile çoban.(2, s.310-311)

Qeyd etdiyimiz kimi, Ahmet Fakihin ikinci məlum əsəri "Kitabu Evsafı Mesacidi`ş-Şerife"dir. 339 beytdən ibarət olan bu əsər, "Çarxnamə"dən daha həcmlidir. Əsərin əruzun "məfailün məfailün failün" qəlibi ilə yazılmış bir məsnəvi olmasına baxmayaraq, müəllif bəzən qəzəllərdən və qafiyələnmiş beytlərdən də istifadə etmişdir. Məsnəvinin sonundakı Qüdsün tərifinə həsr olunmuş misralar isə heca vəznində qələmə alınmışdır. Əsərin qısaca məzmunu belədir: "Bazı arkadaşlarıyla hacca giden müellif, bu seyahatı sırasında gezip gördüğü ve ziyaret ettiği Şam, Kudüs, Mekke, Medine ve buralardaki kutsal yerleri anlatır. Bu şehirlerden Kudüs`ü çok beğenen şair, hac dönüşü iki ay kadar orada kalir ve bu şehir hakkında bazı methiyeler kaleme alır. Memleketine dönünce eserini hacca gitmemiş arkadaşlarına ithaf edip, onlara da bu ziyaretin nasip olmasını temenni eder". (4, s.108)

Ahmet Fakihin "Kitabu Evsafı Mesacidi`ş-Şerife" adlı əsərinin yeganə əlyazması British Museumda saxlanılır. 1954-cü ildə ilk olaraq elm aləminə Hasibə Mazıoğlu tanitmış və onu mətni və hazırladığı lüğəti ilə birlikdə nəşr etmişdir.

Anadoluda XIII əsrin sonu XIV əsrin əvvəllərində yaşamış daha bir təsəvvüf şairi Şeyyad Hamza olmuşdur. Əski Anadolu türkçəsinin öndə gedən şairlərindən olan Şeyyad Hamzanın həyatı haqqında çox az məlumat var. Onun haqqında elm aləminə ilk məlumatı Fuat Köprülü vermişdir. (4, s 111)

Sufi-xalq şairi olan Şəyyad Hamza şeirlərini əsasən xalqa xitabən yazmışdır. Onun əruz və heca vəznində şeirləri də mövcuddur. Yaradıcılığında əsasən məsnəvi, qəsidə və qəzəllərə yer verən şair, bəzən dördlüklərdən də istifadə etmişdir. Şeyyad Hamzanın "Yusuf u Zeliha" dastanı Anadoluda türkiyyə türkçəsində yazılmış ilk eşq məsnəvisi kimi önəm daşıyır. (2, s.351)

Ən qədim dini hekayələrdən biri olan "Yusuf u Zeliha"nın qaynağı "Tövrat" olmuşdur. Bu haqda Qur`ani-Kərimdə "ahsenü`l-kassas" (hekayələrin ən gözəli) kimi *"Biz bu Qur`anı nazil edərək, sənə hekayələrin ən gözəlini anlatdıq"* (Yusuf surəsi, üçüncü ayə) deyə söz edilmişdir. İslamiyyətin ilk çağlarından başlayaraq Hz.Yusifin hekayəsi "Destan-ı Yusuf", "Kıssa-i Yusuf", "Yusuf u Zeliha", "Ahsenü`l-Kassas" kimi, müxtəlif adlar altında ədiblər tərəfindən yazılmışdır. Hekayə üzərində işləyən müəlliflər, hekayənin mövzusunun dini olduğundan və bir peyğəmbərin həyatını əks etdirdiyindən, məzmunda dəyişikliklərə yol vermirdilər. Şairlər hekayənin əsasını Qur`ani-Kərimdən alıb, öz duyğu və düşüncələrini əlavə etməklə onu sadə, səmimi və canlı şəkildə anlatmağa çalışmışlar.

İlk dəfə öz əksini Bibliyada tapan Hz.Yusif hekayəsi Qur`anda 111 ayədən ibarət olan "Yusif surəsi"ndə verilir. Bu mövzunu İslam ədəbiyyatında məsnəvi şəklində ilk dəfə fars şairi Firdovsi qələmə almışdır. Türk dilində ilk "Kıssa-i Yusuf" hekayəsini Ali adlı bir şair yazmışdır. (4, s.114) Anadoluda isə "Yusuf u Zeliha" ("Yusif və Züleyxa") məsnəvisini, yuxarıda qeyd etdiyimiz kimi, Şeyyad Hamza qələmə almışdır. Əruzun *failatun failatun failat* vəzniylə yazılmış olan 1529 beytlik bu didaktik-romantik poemanın tam adı "Destan-ı Yusuf aleyhi`s-selam ve haza ahsenü`l-kasasi`l-mübarek"dir. Əsərin ilk bölümündə Allaha övgü və şükürlər edilir (Münacat):

Tanrı adın anuban girem söze
Ta ki ine Tanrı`dan rahmet bize. (5, s.322)

Sonra əsərin Nət hissəsində Hz.Məhəmməd (sas) tərif edilir:

Senün ışkın kamu derde devâdur yâ, Resûlallâh
Senün katunda hacetler revadur ya Resüîallâh
Tenünden açılır güller, sözünden şehd ü şekkerler
Senimle haste gönüller şifadır ya Resûlallâh
Ay u güneş yedi yıldız, seni öğer kamu düpdüz
Senün sözünden ayrık söz hatadır ya Resûlallâh
Şeyyad-ı Hamza ol şâhdan diler kim kurtıla âhdan
Seni medhitmek Allâhdan atâduryâ Resûlallâh. (Bax: 9)

Səbəb-i təlif bölümündə şair Qur`ana-Kərimə istinadən Yusif hekayəsinin ən gözəl hekayə olduğunu qeyd edir. (13-17 beytlər) 18-ci beytdə hekayənin əsas məzmunu açıqlanır (Ağaz-ı Destan). Son olaraq, əsərin xətm hissəsində (Hatime) Şeyyad Hamza oxucudan xeyir-dua istəyir və Allaha dua edir: (Bax: 10)

Şeyyâd Hamza kemine kulun senün
Yazugm bağışlagıl yâ Rab anun
Rahmet eyle koşana, işidene
Afvunı hem şefaat et yazana
Fâilâtün, fâilâtün fâilât
Bin günâhı aîv ider bir salâvât. (Bax: 11)

Şeyyad Hamzaya aid "Dastan-i Sultan Mahmud" adlı, (79 beytlik) daha bir kicik məsnəvi mövcuddur. Şeyyad Hamzanın bu məsnəvisinin də əsasını dini dəyərlər təşkil edir. Əsərin qisa məzmunu belədir: *"Bir gün Sultan Mahmud ova çıxar və yolda bir dərvişə rast gələr. Sultan dərvişin yoxsul və pərişan halını görüb, onun qabağında öz var-dövlətiylə ihtişamlı vəziyyətiylə oyünər. Onların arasında belə bir xoşagəlməz söhbət baş verər. Sultan dərvişə xitabən: "Hak bizi daha çok sever, zira bize daha çok mal vermiştir. Seni ise başkalarına dilendiriyor" deyərək onu alçaltmağa cəht etmişdir. Sultanın düşüncəsizcə söylədiyi sözlərinə qarşılıq olaraq, dərviş: "Padişahsın ama aklın eksik, servetin çok, fakat söylediğin sözü bir deli bile söylemez. Bu dünyada sırmalı, incili ipekliler içinde bulunan tenini mezarda yılanlar ve çiyanlar yer. Ahirette seni kimse dinlemez, feryadına kimsenin faydası olmaz. Yarın ahirette olacakları hatırlayıp aklını başına topla. Nefsin sana binmiş, seni esiri etmiştir. Sen nasıl sultansın? Biz ise nefsimize binmiş ve onu esir almışız. Sen bey görünürsün ama gerçekte "nefis iti"nin eşeğisin. Kendini nasıl ulu görürsün?Kişi ancak nefsine hakim olduğu zaman ulu ve yücedir. Öyle ise aklını başına toplayıp sonunu düşünmez misin? Gerçi kimimiz derviş, kimimiz sultandır, ama her ikimizin dokuz arşın kefenle gideceği yer aynıdır. Bu hazin akıbet karşısında gülmek değil ağlamak gerekir. Bu dünyada ağlayan öteki dünyada gülecektir. Hz.Peygamber "Ölmeden evvel ölünüz" buyurmuştur. Bu sözün ifade ettiği mana ise daha bu dünyada nefsi öldürmekten ibarettir"*(4, s.113). Dərvişin bu sözlərilə bitən əsərdə məlum dini məzmun eynilə saxlanılsa da, A.A.Aydının qeyd etdiyi kimi, poemaya yeni personajlar, yeni süjet xətləri, əlavə motivlər də daxil edilmişdir.(13, s.249)

İbrət və nəsihət dolu bu əsər, klassik məsnəvi tərtibinə uyğun olaraq yazılmışdır. Iki hissədən ibarət olan bu məsnəvinin birinci hissəsində Şeyyad Hamza, Sultan Murad və dərvişin simalarında zənginlik və yoxsulluğu qarşılaşdıraraq, əsl sultanlığın insanın öz nəfsinə hakim olması fikrini oxuculara catdırmaq istəmişdir. Ikinci hissədə isə, müəllif nəfsə uymağın zərərindən, var-dövlətin insanları doğru yoldan çəkindirməsindən söz açaraq, dünyanın faniliyindən və Tanrıya qovuşmaq üçün hər bir insanın öz nəfsinə qalib gələrək, əməllərinə cavabdeh olmasının zəruriyyiliyindən bəhs edir. Şeyyad Hamzanın bu məsnəvisindən bir parçanı nümunə gətirək:

Allah adiyle dilümüz açalum
Hem bu dünya sözlerinden geçelüm
Tanrı adıyle söze başlayalum
Kafiri taşlar ile taşlayalım
Tanrı adıyla işi dutsa kişi
Kamudan artuk gele her bir işi. (5, s.323)

Şeyyad Hamzanın ayrı-ayrı şeirlərini ilk dəfə ədəbiyyatşünaslar Sadeddin Buluç və Mecdut Mansuroğlu araşdıraraq nəşr etdirmiş, poemanı isə görkəmli ədəbiyyatşünas Dehri Dilçin 1946-cı ildə çapdan buraxmışdır. A.A.Aydının verdiyi bilgiyə görə, məsnəvi rus dilinə türkşünas N.A.Anikeyeva tərəfindən tərcümə edilərək 1992-ci ildə Moskvada işıq üzü görmüşdür (13, s.247).

Müəllifin bütün şeirlərində, qeyd etdiyimiz kimi, dini-təsəvvüfi fikirlər üstünlük təşkil edir. Demək olar ki, dünyanın faniliyi və ölüm haqqında düşüncələr, bütün şeirlərinin əsas mövzusuna çevrilmişdir. Öz şeirlərində, o, insanları cəmiyyətdəki vəziyyətlərindən asılı olmayaraq (hökmdar, varlı, kasıb, gözəl, çirkin), bu dünyadakı müvəqqəti anlayışlara bağlanmamalarını, Qur`ani-Kərimə sarılaraq, Allahın buyurduqlarına uyğun yaşamaqlarını tövsiyyə edirdi.

Fikirlərimizi ümumiləşdirərək, qeyd etmək istərdik ki, orta əsrlərdən başlayaraq, bir çox sənətkarlar öz yaradıcılığında dastan, hekayə və qissələrdən istifadə edərək, onlardan öz yüksək bədii-estetik ideallarının daha bəlağətli ifadəsi üçün bir örnək kimi faydalanmışrlar. Qissə qədim tarixə malik bir növdür. Qur`an qissələri öz tarixiliyi və hər şeydən əvvəl, ibrətamiz məqamları ilə sənətkarların diqqətini cəlb etmişdir. Şair və ədiblərin öz yaradıcılığında Qur`andan faydalanmaları müxtəlif və rəngarəng olmuşdur. Sənətkarların yaradıcılığında Qur`an ayələri həm İslamın müqəddəs kitabı, həm möhtəşəm sənət abidəsi, həm əxlaqi-mənəvi qaynaq, həm də yığcam ibrətamiz ifadələr şəklində işlənmişdir və əksər şairlər öz sözünün etibarını artırmaq üçün Qur`an ayələrinə istinad etmişlər. Qur`ani-Kərimdən istifadə sadəcə şair və ədibin Tanrı kəlamına olan rəğbətinin bəyanı deyil, həm də sənətkarın ifadə etdiyi düşüncələrin daha təsirli və məzmunlu olmasına xidmət etmişdir. (3, s.139-140)

Ədəbiyyat

1. Agah Sırrı Levend. Divan Edebiyatı. İstanbul, Enderun kitabevi, 1984
2. Ahmet Kabaklı. Türk Edebiyatı. 5 ciltte, c.2, İstanbul, Türk Edebiyatı Vakfı yayınları, 2006
3. Mahirə Quliyeva. Qur`an bəlağəti və Azərbaycan ədəbiyyatı. Bakı, "Nafta-Press", 2008
4. Mustafa Özkan. Türk Dilinin Gelişme Alanları ve Eski Anadolu Türkçesi. İstanbul, Filiz kitabevi, 1995,
5. Nihat Sami Banarlı. Resimli Türk Edebiyatı Tarihi. 2 ciltte, İstanbul, MEB yayınları, 2004,
6. Sadeddin Nuzhet. Tanzimata kadar Muhtasar Türk Edebiyatı Tarihi ve nümuneleri. İstanbul, Suhulet kitabevi, 1931
7. Qur`ani-Kərim.
8. İmam Nevevi. Kırk Hadis. Tercüme ve şerhi. İstanbul, Ravza yayınları, 2012
9. http://www.liseedebiyat.com/index.php/ders-notlari/31-9-sinif-tuerk- edebyati/1976-eyyad-hamza.html
10. http://turkoloji.cu.edu.tr.
11. Milli Folklor, 2004, Yıl 16, Sayı 61.
12. Gülşən Əliyeva-Kəngərli. Sufizm. Bakı, Aspoliqraf., 2014
13. Aydın Abi Aydın. Türkiyə ədəbiyyatı tarixi (müqayisəli), I cild. Bakı, Təknur, 2010.

Ш.Гадимова

Религиозно-суфийская тематика в турецкой светской литературе (диван) средних веков

Резюме

В формировании средневековой культуры и литературы немаловажная роль принадлежит распространению религиозных текстов. Нужно отметить, что независимо от того, когда и где возникала та или иная религия, она всегда оказывала огромное влияние на культуру и литературу, быт и обычаи народов. В данной статье рассматривается роль исламской и суфийской философии в формировании средневековой турецкой литературы (Диван) на основе творчества таких средневековых турецких поэтов-суфиев, как Ахмед Факих и Шеййад Хамза, приводятся конкретные примеры из их произведений.

Sh.Gadimova

Religious sufi themes in the turkish secular literature (divan) of the middle ages

Summary

In the formation of medieval culture and literature an important role belongs to the dissemination of religious texts. It should be noted that regardless of when and where occurred one or other religion, she always had a tremendous influence on the culture and literature, everyday life and customs of the peoples. This article discusses the role of Islamic and Sufi philosophy in the formation of the medieval Turkish literature (Divan) on the basis of the work of such medieval Turkish Sufi poets, as Ahmed Fakih and Sheyyad Hamza and concrete examples of their works.

Rəyçi: Mahirə Quliyeva
filologiya elmləri doktoru

АФЕР АЛИЗАДЕ
Бакинский Славянский Университет
Диссертант кафедры «Мировой литературы»

ЛЮБОВЬ В ХУДОЖЕСТВЕННОМ МИРЕ ЛЮДМИЛЫ ПЕТРУШЕВСКОЙ

Açar sözlər: məhəbbət, ailə, məqsədə çatmaqda inadkarlıq, xəyanət, ağlını itirmə
Ключевые слова: любовь, семья, упорство в достижении цели, предательство, душевное помешательство
Key words: the love, the family, insistence in end of purpose, betrayal, soul's insanity.

Проза Людмилы Петрушевской характеризуется многогранностью – она исследует и отображает внутренний мир отдельной личности, многочисленные нюансы человеческих взаимоотношений, поднимает серьезные морально-этические, социальные и психологические проблемы. Нравственные искания героев определяются их включенностью во внешний мир, полный противоречий. Особенно интенсивно они осуществляются в моменты принятия героями ответственных решений, в ситуации нравственного выбора, при разрешении запутанных конфликтов.

Герои большинства рассказов Петрушевской «маленький человек женского пола» (12, с.56), к которому судьба повернулась не слишком благосклонно. Писательница вовсе не задается целью идеализировать женщину. Автор, как замечает Т.Касаткина, «…со стороны женщины» (2, с.216) рассматривает женские образы, подчеркивая в них неутомимые поиски любви, жажду семейственности, совестливость. В анализируемых рассказах именно женщина является носителем нравственных начал. В рассказе «Осталась там» перед взором рассеянного посетителя Русского музея оживает полотно с изображением девушки в лодке, сияющей молодостью и жизнелюбием. Картина повествует о драматической судьбе Рены, пережившей предательство подруги, измену мужа, душевное помешательство. Мажорным нотам нет места в реальности. Они остались там, на полотнах. В рассказе «Порыв» Петрушевская рисует историю жизни Дарьи, особо останавливаясь на необузданности, безудержности и стихийности ее натуры. «Огонь в крови, что называется цепь химических реакций, буквально в преддверии атомного взрыва!», - пишет писательница (10, с.21). Дарья, вынесшая измену и побои, добивается желаемого, отвоевывает свою любовь. В рассказе «Платье» молодая женщина Алевтина надевает платье темно-вишневого цвета с глубоким вырезом и отправляется в ресторан. Попадая в светское общество, героиня неоднократно «…действует все по одной и той же схеме, которая увенчивается особым хитроумным битьем бокалов, совершаемым как бы в растерянности просто расслаблением пальцев» (7, с.87-88). Сидя за столиком с целью заострения внимания на своей одинокой персоне, она привычно отстегивает бант на платье. Далее по ритуалу следуют примыкание в зале танцующим, знакомство с молодым человеком, оказавшимся женатым. Бедная женщина, обделенная

мужским вниманием, своим соблазнительным нарядом и дерзким поступком примеряя на себе роль строптивой и избалованной светской красавицы, вовсе не руководствуется корыстными принципами. Все продиктовано стремлением войдя в чужой образ, познать искушенность, привлечь внимание окружающих. В рассказе «Свобода» Петрушевская повествует о нелегких взаимоотношениях дочки и матери. Здесь демонстрирован, по словам О. Славниковой, «…конфликт поколений не в традиционном идеологическом плане «отцов и детей», но в плане бытийном» (11, с.213). Строгая натура матери не приемлет бесшабашное поведение юной Норы, ее постоянные опоздания в институт, поздние возвращения домой. Напрасно надеется мать на понимание со стороны дочери – в порыве отчаяния, устав от бесконечных назиданий, Нора уходит из дома, поселяется в темной комнатке Рустама, молодого человека с сомнительным прошлым, работающим ночным сторожем на водокачке. Холодный и бесчувственный, не проявляющий свои эмоции, непритязательный в быту, не способный оценить любовь и заботу девушки, Рустам живет по инерции. Нора же томная героиня, ищущая романтических отношений, тепла и понимания, предстает в рассказе как воплощение жизни. Вкус свободы оказывается горьким. Остро ощутив скованность и безволие, будучи на свободе, Нора решает не обременять его собой, «…а тихо и бесследно исчезнуть, тем самым перейдя из вечно униженного состояния в состояние гораздо более высокое, в состояние женщины, освободившейся и свободной по собственной воле» (7, с.90). Удрученная обстоятельствами опустошенная девушка возвращается к матери. Мотивы отстраненности героев писательницы А.Куралех видит в их излишней сосредоточенности на себе, порождающей чрезмерное равнодушие к интересам и существованию окружающих. Герои с эгоистическими устремлениями не способны замечать «…в чужом одиночестве отголосок своего и приравнять чужую боль к своей, соединить свою жизнь с жизнью другого человека…» (3, с.65). Нежелание общения, обособленность и замкнутость коренятся в самой человеческой природе, исковерканной атрофией духовных контактов.

Тема несвободы проскальзывает также сквозь рассказы «Рассказчица» и «Случай богородицы». В «Рассказчице» автор мотив непонимания отцов и детей доводит до крайности. Воспоминания о детстве для Гали замыкаются только на желчных замечаниях отца, жестоких побоев с его стороны, безосновательно подозревавшего дочь в нечестности, ежедневно поджидающего ее у школы, посредине ночи неожиданно входившего к ней в комнату в готовности наброситься с кулаками. В отце поражает не отеческая властность, а именно буйность нрава, необузданность, сверхподозрительность. В «Случае Богородицы» Петрушевская показывает самоотверженную любовь матери, доходящей до безумия, к своему единственному сыну. «…мать не щадила его. Она как будто стосковалась по родной семье, которой у нее давно не было, и только ждала, когда немного вырастет сын, чтобы приблизить себя к нему еще больше, объяснив ему, насколько он принадлежит ей, насколько он ее» (4, с.37). Своей ревностной, защищающей, собственнической привязанностью, она давила на его личность, лишая той внешней и внутренней свободы, жизненно необходимой для раскрытия, узнавания себя и других. Владельческие

чувства матери стирают ту святую дистанцию, изначально существующую между родителями и детьми, приводят к постепенному угасанию сыновнего уважения: он отдаляется от нее. Нелюбящая своего мужа, трепетно вздрагивающая от мысли, что своему женскому началу она обязана не ему, а именно сыну, мать в нем видела результат своих невыразимых мук – главный аргумент своего существования.

В рассказе “Темная судьба» одинокая незамужняя тридцатилетняя женщина связывается с женатым человеком, ищущим приключений, без какой-либо привязанности к семейному началу. Героиня заранее чувствует уготованную ей незавидную участь любовницы, блеклые краски сосуществования с непостоянным партнером. Подавленная, смирившаяся со своей жалкой, темною судьбой, ниспославшей ей «старого, плешивого» (9, с.87) мужика с толстым брюхом и инфантильным рассудком, она терзается совершаемыми собою промахами, мучительно постигая суть подобных временных отношений. Клава, героиня рассказа «Богема», студентка библиотечного факультета, одаренная от природы творческими наклонностями, занимающаяся писательской деятельностью, считавшаяся в своем округе единственной женщиной богемы, не находит применения своим способностям. Петрушевская передает небольшой отрезок из истории жизни совсем юной, но уже зрелой женщины, познавшей горечи действительности. Маня, героиня одноименного рассказа, добрый, отзывчивый человек приятной наружности, преданный работе, питает искренние сердечные чувства к сослуживцу Юре – человеку прагматичному, бескомпромиссно преследовавшему одну жизненную цель – продолжение рода. Будучи в прежнем браке бездетным, он даже в заявлении о разводе конкретно указывает на бездетность как главное основание к разводу. В свои тридцать с лишним лет не ожидая от жизни особых подарков, Маня в разговоре с сотрудниками допускает непростительную оплошность, приведшую к нежелательному исходу: она простодушно упоминает про незначительный недуг в состоянии своего здоровья. Ничего не обещавшие красивые ухаживания Юры заканчиваются его уходом. В рассказе «Бессмертная любовь» Лена, испытав на себе замужество не по любви, рождение сына – калеки, несмотря на наличие обязательств перед мужем, ребенком и матерью, пережившей травму, вызванной болезнью внука, любит своего сослуживца Иванова. Она, сменив географию, следует за ним в другой город на семь лет. Но героиня Петрушевской так и не обретает долгожданного счастья и стабилизации в жизни, не успевает отведать любви и покоя рядом с любимым мужчиной: она попадает в психиатрическую лечебницу. Оба героя оказываются «…во мраке и запустении» (4, с.110). Автор не указывает на реальную причину разрыва героев. Отъезд Иванова объясняется его бесчестным поступком на работе и последующего за ним увольнением. Душевное помешательство Лены является следствием разочарованности в любимом, не видевшем смысла продолжать отношения с женщиной, один раз уже произведшей на свет парализованного ребенка. Эгоистический герой, проникнутый амбициями, «…неутоленным, несбывшимся желанием продолжения рода…» (4, с.111), страшится и страхует себя от ожидающей его перспективы. Любовь как высшая человеческая ценность немного расплывчата у Петрушевской. Герои

большинства рассказов охвачены не светлой и чистой бессмертной любовью, а подобием любовного чувства, имитацией любви, в конечном итоге, приводящей к ее стиранию, аннигиляции. Бессмертная любовь отсутствует, есть глубокая преданность и ответственность, подтолкнувшие покинутого мужа, порядочного и корректного Альберта приехать за женой и после семилетней разлуки привести обратно в семью. Эгоизм, собственные интересы и прихоти, невосприимчивость к чувствам других, доведенная до предела, мешают проявлению высоких чувств, осуществлению подлинных ценностей. Бессмертной любви нет в неоднозначных отношениях мужа и жены в рассказе «Отец и мать» – она уступает супружеской неверности, проявленной мужем, отцом многодетной семьи. Организующий центр рассказа составляют отец, неотступно склонный к сохранению видимости семьи во избежание общественных пересудов и мать, болевшая «…острой ненавистью к своему мужу, ненавистью труженицы и страдательницы к трутню, к моту и предателю интересов семьи…» (4, с.87), яростно стремившаяся предать огласке его безнравственное поведение. Супруги погружены в притворную реальность, поддельное существование. Таня, старшая дочь, несущая тяжести и домашние хлопоты на своих хрупких девичьих плечах – единственный светлый и разумный человек в доме, под конец утомленная ежедневными семейными конфликтами и руганью, уходит из дома, соединяет судьбу с надежным человеком в поисках покоя и безмятежности. Пульхерия, героиня рассказа «По дороге бога Эроса», кроткая женщина средних лет, погруженная в домашние заботы. Она в пределах привыкания выносливо и по-своему понимающе относилась к изменам мужа, неоднократно получала угрозы со стороны его многочисленных любовниц. После смерти мужа, выдав дочерей, бедная женщина хочет начать новую жизнь. Слишком порядочная, уступчивая, ответственная на работе, она, познав свободу и необремененность домом, «…оттолкнулась от житейского берега и взмахнула веслами, чтобы уже никогда больше не возвращаться в прежнюю жизнь» (5, с.106). Пульхерия знакомится с мужчиной: их объединяет общность интересов и вкусов. Пребывание в состоянии платонической влюбленности прерывается его внезапным исчезновением. Он оказывается психически нездоровым человеком и мужем ее сотрудницы Оли.

Саша, героиня рассказа «Жизнь это театр», четко для себя сформулировала кредо своей работы, сводимого к изучению жизни во всех ее проявлениях. Журналистика и режиссура, которым она посвятила лучшие годы жизни, в ее понимании не предполагают просто сбор жизненного материала; они вбирает в себя все грани ее существования, личностное переживание, весь спектр эмоции. С лозунгом познания жизни, она, будучи человеком увлекающимся, не приглушающим свои желания, несмотря на семейное положение, проживала бурную эмоциональную жизнь. «…жила как женщина свободная и желанная, ценная, сама осторожно выбирала кого хотела, иногда любила даже двоих – но нигде не зацеплялась надолго, что-то ее не устраивало там или там, короче, бродила по жизни, имея, видимо, цель изучать жизнь, отсюда таинственность и вечные недомолвки. Изучала, вероятно, все эти свои явки – ночевки, их хозяев, копила в копилочку, собирала своими

жидковато блестящими глазами тихо и незаметно: коллекционировала всех, спала с мужиками всякого пошиба, не брезгуя и депутатами из народа в гостиницах, когда брала у них интервью…» (6, с.14). Ее не смущали злословия, периодические переезды, вызванные работой, кочевой образ жизни журналиста. Упорством в достижении поставленной цели, неотступностью, жизненной отвагой она сумела сделать себе карьеру в столице, завоевала должность художественного руководителя студии в профсоюзном клубе. Но не только патологическая тяга к продвижению по службе, рвение выйти в люди (репетиции, организация спектаклей, интервью) являлись движущей силой героини Петрушевской. Как и каждой женщиной, ею двигало твердое, временами даже болезненное желание материнства. Однако жизнь диктует свои земные страдания: потеря работы, ограниченность в средствах, унижения, побои. Саше нелегко дается пережить происходящее и по-шекспировски отнестись к зигзагам жизни, но, тем не менее, она стоически принимает жизнь со всеми ее дарами и утратами, взяв на себя тяжкий груз обязательств. Ею руководит осознанно выбранная жизненная стратегия наблюдателя.

Рассказ «Выбор Зины» описывает драматическую историю молодой вдовы, которая в тяжелые военные годы во имя выживания и сохранения жизни двух старший дочерей, отказывается от трехмесячного сына. Голод, бедственное положение, страх остаться без работы с грудным ребенком на руках вынуждают женщину совершить подобный поступок: она намеренно выводит в суровые зимние вечера малыша на мороз. В рассказе «Бедное сердце Пани» описана судьба сорокалетней женщины, в столь позднем возрасте готовящейся произвести на свет ребенка. Неграмотная многодетная чернорабочая Паня, страдающая тяжелыми последствиями перенесенного инфаркта, пытается прервать, несмотря на довольно большой срок, беременность. Доктор Володя, врач-акушер по призванию, неоднократно спасший жизнь матерям и их младенцам, человек, которому не чуждо сострадание к чужой боли, исходя их гуманистических побуждений, втайне от Пани, сохраняет жизнь ее ребенку, поместив новорожденную недоношенную девочку в инкубатор.

В рассказе «Дочь Ксени» писательница поднимает тему проституции. Ее героиня – женщина средних лет, Ксеня – проститутка; незавидное стечение обстоятельств вынуждают и ее дочь обратиться к столь постыдному ремеслу. Несчастная женщина стоит в длительных очередях, в тесной толпе, насильно пробираясь к входу, чтобы избежать нежелательных разговоров и передать осужденной дочери провизию, состоящую из папирос и печенья.

Рассказ «Упавшая» обрисовывает жизнь женщины, не вынесшей брошенности, последующего за ним унижения и умершей от перенесенного нервного потрясения. Развод родителей, холодные отношения в семье, двойная жизнь отца, смерть матери, одиночество толкают тринадцатилетнюю девочку к продажности. На долю покинутого всеми создания, несмотря на юные годы, выпадает многое – лечение в психиатрической лечебнице, в венерологическом диспансере, нахождение в колонии для несовершеннолетних. Марина мужественно переносит испытания судьбы, обретает семью,

становится примерной матерью, дает своим детям то тепло, которого сама была лишена. Сюжет рассказа «Майя из племени майя» примыкает к ряду событий в рассказе «Упавшая». Ревность, желание пристыдить мужа за тайные романы на стороне принуждают героиню устроить слежку за ним. Майе тяжело вынести лишение семейного уюта. Глубоко страдающая женщина в попытке отчаяния принимает успокоительные средства, выпрыгивает из окна и умирает от паралича, оставив пятнадцатилетнюю дочь.

Мужских героев современной прозы М.Абашева причисляет к типу пожирателей и потребителей. «Потребление становится их сутью» (1, с.10), - замечает критик. Наглые и пробивные герои не останавливаются ни перед чем в своих эгоистических стремлениях достичь материальных благ. Мужские герои Петрушевской, добившись глубокого проникновения в сознания и души женщин, не видя перспективы в совместном проживании, чудовищным образом бросают их, обрекая в мучительное существование. Открытость души, доверительность, растворение себя в любви не оцениваются должным образом («Маня», «Сережа», Свобода», «Бессмертная любовь», «Упавшая», «Майя из племени майя»). Именно цель иметь ребенка от физически здоровой женщины с хорошей наследственностью, эгоистическое намерение оставить после себя след, а не отцовство как духовная потребность, руководят Юрой. Андрею, герою рассказа «Смотровая площадка», была присуща неординарная черта назначать встречи своим избранницам на смотровой площадке у Ленинских гор. Героя манили не просто в поисках индивидуального прекрасная панорама, величие университета, просторы, по которым прохаживала московская элита: им руководило особое трепетное, доставляющее ему умиротворение, ощущение укрощения столицы, «…чувство победы над огромным городом…», (8, с.56) определяя его столь необычный выбор. Глубоко уверенный в непостоянстве сердечных отношений, видящий в противоположном поле либо исключительно доступных падших созданий, изначально лишенных способности к сопротивлению, либо ко всему с подозрением относившихся циничных старых дев, Андрей незначительный человек с мелкой душой. Сущность его сводилась в полном игнорировании духовных ценностей, ироничном отношении к порядочности и естественности в обществе, занятом только внешними красками и утратившем высокие человеческие отправления. Петрушевская неслучайно противопоставляет совершенно непохожих происхождением и назначением два пространства – простор, навевающий искренние чувства и с удушающей атмосферой ресторан, замкнутый на определенном круге бесчувственных людей, место, выполняющее функцию «платы, взятки» (8, с.57), духовный вакуум, притупляющий высокое, в котором не соблюдаются даже внешние приличия. Семантика слов «любовь», «привязанность» неоднозначны в художественной концепции писательницы. Тяга к высоким чувствам, поиски идеала не должны деформироваться в материальные ценности. В потребностях Андрея не во временных, а в прочных узах, на наш взгляд, проявляются его патриархальные устремления и в то же время, ему мешает чрезмерная осторожность в отношениях с людьми, боязнь лишиться свободы и оказаться в зависимости. Неверие в подлинно нравственное, непритязательность в быту, вызванное

холостяцким образом жизни, направляют дальнейшее поведение героя, эмоции которого давно уступили холодной педантичности. В отношениях инертного героя к женщинам доминируют «экономичность и отсутствие душевных движений» (8, с.59). Попытки Андрея расположить к себе людей неопределенны. Взрослый герой Петрушевской лишен того стержня, обеспечивающего в человеке внутреннюю самодостаточность, реализованность. Поэтому он не достигает желанной победы над городом, так как «победитель» – понятие в данном случае беспочвенное, соединяющее в себе беспринципность и неполноту духа. В рассказе присутствует вводный эпизод, непосредственно обнажающий безразличие Андрея. Он не в состоянии даже ухаживать за растениями, на время доверенными ему сослуживцем. Андрей повреждает мебель, поливает алоэ хлорированной водой. Случай с алоэ демонстрирует то, «во что может превратиться существо, зависящее от Андрея…» (8, с.63). Алоэ сумело приспособиться к существованию, выжить. Сможет ли человек выжить в атмосфере равнодушия и нелюбви?

Герой рассказа «Цитадель» – Валентин, вынужденный инсценировать собственную смерть, исчезнуть, чтобы избежать угнетающей его безнадежности: двоеженства, незаслуженного пренебрежения к своему таланту архитектора, непонимания. Он сознательно отгораживается от ранее знакомых ему людей, поселяется в курортном городе, в котором находит не просто убежище, а покой и умиротворенность, освобожденность от давящих условностей. В рассказе «Музей человека» несправедливо обвиненному герою не дают шанса оправдываться, он лишается надежды, прав, работы, самовыражения. Обиженным жизнью людям, униженным и раздавленным приходится нелегко «…среди огромного рогатого стада…» (10, с.130). В рассказе «Пара гениев» писательница затрагивает вопрос о несовместимости жгучего желания самореализации и реальных возможностей. Елизавета и Степан – актеры-дилетанты, не имеющие высшего театрального образования и профессиональных навыков, грезившие сценой, зрительской любовью, бурной овацией. Необласканные жизнью и придавленные обстоятельствами герои Петрушевской обладают поразительной силой характера. Искусство для них ресурс заполнения и осмысления жизни. Они, слившиеся со своими ролями, репетируют в вестибюлях театров, на вокзалах. Автор показывает неосуществление мечты, «…отчаянную веру в свое особенное предназначение…» (10, с.70). Искусство не разрешает противоречия жизни, но оно непосредственно облегчает ее восприятие, придавая героям заряд духовной силы, выдержки, доброты.

Рассказы Петрушевской демонстрируют противоречия жизни. Паня, не желая оставить детей сиротами, решается на аборт, а врач, движимый состраданием, сохраняет жизнь ребенку. В «Темной судьбе» и в других рассказах героини жаждут семьи, а избранники оказываются недостойными. Любовь у Петрушевской приобретает трагическое звучание. Чаще всего она у писательницы незамеченная, несостоявшаяся. Проявившись, она не выдерживает испытания временем, браком, семьей и приводит к грустной развязке – одиночеству, безумию, самоубийству, гибели. Именно любовь, отзывчивость на чужую беду возвращает человека в мир духовности, подчеркивает

самое лучшее и высокое в нем. Страшно наблюдать нравственное падение, прозябание души, приводящее к ее омертвлению. Писательница исследует феномен любви у женщин и у мужчин, пытается определить его влияние на их судьбы и психологию, выявить их противоречивые реакции. В женщинах любовь, исходя из естества натуры, и душевной потребности любить и быть любимой, проявляет себя открыто. Природное, стихийное начало позволяет им всецело отдаться любви. Альтруистическая любовь, предполагающая самопожертвование, преданность семье, высвечивает внутреннюю жизнь женских героев. В состоянии любви раскрываются лучшие черты героинь. В мужских героях же наблюдается не любовь, а ее имитация. Она носит поверхностный характер и выражается холодно, грязно.

Литература

1. Абашева М. Чистенькая жизнь не помнящих зла. / Литературное обозрение. – 1992. – №5-6. – с. 9-14.
2. Касаткина Т. «Но страшно мне: изменишь облик ты…» // Новый мир. – 1996. – №4. – с.212-220.
3. Куралех А. Быт и бытие в прозе Людмилы Петрушевской. // Литературное обозрение. – 1993. – №5. – с. 63-67.
4. Петрушевская Л.С. Бессмертная любовь: Рассказы. – М.: Московский рабочий, 1988. – 223 с.
5. Петрушевская Л. В садах других возможностей. Рассказы. // Новый мир. – 1993. – №2. – с.105-126.
6. Петрушевская Л. Дом девушек. Рассказы из книги «Реквиемы». // Знамя. – 1996. – №11. – с.10-34.
7 . Петрушевская Л. Рассказы: Платье; Светлана; Свобода. // Родина. – 1990. – №2. – с. 87-91.
8. Петрушевская Л. Смотровая площадка: Рассказ / Людмила Петрушевская. // Дружба народов. – 1982. – №1. – с. 56-70.
9. Петрушевская Л. Три рассказа. / Людмила Петрушевская // Нева. – 1987. – №7. – с.85-91. Содержание: Дядя Гриша; Темная судьба; Элегия.
10. Петрушевская Л. Черная бабочка: (рассказы, диалоги, пьеса, сказки) / Людмила Петрушевская. – СПб.: Амфора. ТИД Амфора, 2008. – 299 с.
11. Славникова О. Людмила Петрушевская. Маленькая Грозная. // Новый мир. – 1998. – №10. – с.213-215.
12. Славникова О. Петрушевская и пустота. // Вопросы литературы. – 2000. – №2. – с.47-62.

A.Əlizadə

Lüdmila Petruşevskayanın bədii təxəyyülündə məhəbbət

Xülasə

Lüdmila Petruşevskayanın nəsri mövzu baxımından çoxşaxəliliklə xarakterizə olunur. Ədib insanların bir-birilə qarşılıqlı münasibətlərinin çoxsaylı nüanslarını tədqiq edir, ciddi mənəvi-əxlaqi, ictimai və psixoloji problemlərə toxunur. Qəhrəmanların mənəvi axtarışları təkcə onların taleyinin peripetiyaları ilə deyil, həm də ziddiyyət və təzadlarla dolu ətraf aləmə qaynayıb-qarışması ilə müəyyənləşir. Təhlil olunan hekayələrdə məhz qadın mənəvi dəyərlərin daşıyıcısı kimi çıxış edir. Müəllif qadın obrazlarının təcəssümündə onların yorulmaq bilməyən məhəbbət və qarşılıqlı anlaşma axtarışlarını, ailəyə bağlılıq və vicdanlılığını nəzərdən keçirir. Məhəbbət Petruşevskayanın əsərlərində faciəvi səslənir, çox vaxt nəzərə çarpmır, hiss edilmir, qarşılıqsız olur. Bəzən özünü biruzə versə də zaman, nigah, ailə anlamları sınaqlarından keçmir və qəmgin notlarla – tənhalıq, dəlilik, özünəqəsd, intihar, ölümlə bitir. Ancaq məhz məhəbbət, başqasının dərdinə şərik olma, xeyirxahlıq, qayğıkeşlik kimi müsbət keyfiyyətlər insanın yüksək mənəviyyatlıq palitrasını formalaşdırır.

A.Alizada

The love in artistic imagination of Lyudmila Petrushevskaya

Resume

Prose of Lyudmila Petrushevskaya can be characterized as many- sided phenomenon. The writer investigates the mutual relations of people, all most gentle shades of them. The writer touches also many different serious problems, such as moral, social and psychological ones. The moral searches of people are defined not only by varieties of fortune, but by their mixing with their surrounding, full of contradictions and conflicts. So, in studied stories the woman is bearer of moral values. The woman is embodiment of love and search of mutual understanding. In Petrushevskaya's works the love looks in tragic way, it doesn't seem very clearly and isn't felt, it isn't mutual. Sometimes it can be seen, but even in such case it cannot stand life testing. As a result it ends by sad notes, such as madness, loneliness, suicide, death. Only positive features of human character, such as sharing somebody's grief, kindness and charity can form the high moral face of person.

Rəyçi: Professor Naidə Məmmədxanova

SADIQ QARAYEV
Azərbaycan Universitetinin dissertantı
sadiq-zaman@mail.ru

KAMAL ABDULLANIN ROMANLARINDA TRİLOGİYA ANLAMI

Açar sözlər: Kamal Abdulla, roman, trilogiya, çağdaş ədəbiyyat.
Ключевые слова: Камал Абдулла, роман, трилогия,
Key words: Kamal Abdulla, novel, trilogy, modern literature

Azərbaycan ədəbiyyatının uzun illər ərzində sovet ideologiyasının buyruğu altında olması təkcə söz sənətini deyil, bütünlüklə milli mədəniyyətimizi dəmir məngənə arasında sıxırdı. Bu cəhətdən, bir növ öz qınında yaşayan sovet ədəbiyyatının yalnız sosializm realizmi məkanında fəaliyyət göstərməsi onu Qərb mədəniyyətində zaman-zaman meydana çıxan yeni meyl və tendesiyalardan təcrid edirdi.

Müstəqillik Azərbaycanın təkcə ictimai-siyasi həyatında deyil, sənət aləmində də bir sıra meyarların yenisi ilə əvəz olunmasına rəvac verdi. Cəmiyyətin ictimai-siyasi həyatında olduğu kimi, ədəbi-mənəvi sferada da köklü dəyişikliklərin əsası qoyuldu. Ədəbiyyatda sosializm realizminə son qoyulması isə ədəbi-estetik fikirdə çoxmetodluluğun inkişafına, sənətdə demokratizm meyllərinin güclənməsinə təkan verdi.

Hazırda qloballaşmanın hər sahədə sürətlə baş alıb getdiyi çağdaş dövrdə Azərbaycan ədəbiyyatında mühüm ədəbi proseslər baş verməkdədir. Bu hər şeydən əvvəl dünya ədəbi prosesində baş verən hadisələrlə səsləşir. Məhz belə bir dövrdə ədəbiyyatımıza yeni nəfəs verən ədiblərin fəaliyyəti maraq doğurur.

1. **Kamal Abdulla müasir Azərbaycan nəsrinin təhkiyə resurslarını cəsarətlə dəyişən ciddi islahatçı kimi.**

Bu baxımdan, tanınmış elm xadimi, professor Kamal Abdullanın yaradıcılığı həm məhsuldarlıq, həm də diapozon genişliyi baxımından diqqət çəkir. Milli söz sənətinə yeni bədii təfəkkür və üslub gətirmiş bu novator sənətkarın imzası bu gün hər kəsə yaxşı tanışdır. Çoxşaxəli yaradıcılığının bütün sahələrinə böyük sevgi və məsuliyyətlə yanaşan K.Abdullanın elmi, publisistik əsərləri hər zaman böyük maraqla qarşılanır. Ədibin bədii yaradıcılığı isə onu bir yazıçı kimi də bütün dünyada şöhrətləndirib.

Kamal Abdullanın romanları Azərbaycan ədəbiyyatında indiyə qədər bənzəri olmayan sənət nümunələridir. Məhz bu xüsusiyyətlərinə görə o, haqlı olaraq, müasir Azərbaycan nəsrinin təhkiyə resurslarını cəsarətlə dəyişən ciddi islahatçı kimi dəyərləndirilir: «Yalnız onu deməm gərəkir ki, Kamal Abdullanın romanları yenidir, illərdir Azərbaycan oxucusuna roman adına yedirilən fərqli olaraq gerçəkdən romandır. Buna görə də onları roman olaraq dəyərləndirmək, incələmək və ələşdirmək gərəkir» [1.səh.9].

Rüstəm Kamal isə yazıçının ədəbiyyatımıza gətirdiyi mühüm yenilikləri qısaca olaraq belə şərh edir: «Kamal Abdullanın öz sistemi - öz estetikası, fərdi

mifologiyası var. Kamal Abdullanın romanları bizim nəsr məkanınızı köklü şəkildə dəyişdirir» [4].

2. «Kitabi-Dədə Qorqud» boylarına müraciət bu möhtəşəm türk abidəsinə olan böyük məhəbbətdən qaynaqlanır.

Kamal Abdullanın 2004-cü ildə işıq üzü görən ilk romanı nəsr məkanımızda, sözün həqiqi mənasında, çox böyük yenilik olsa da, «Yarımçıq əlyazma»da Dədə Qorqud boylarına fərqli münasibət ədəbi mühitdə birmənalı qarşılanmadı, mətbuat səhifələrində bir-birindən fərqli fikir və mülahizələr yer aldı…

Bu yerdə bir haşiyəyə çıxaraq qeyd edək ki, Azərbaycan ədəbiyyatında «Kitabi-Dədə Qorqud» dastanlarına müraciət hələ ötən əsrin 70-ci illərindən yüksələn xətt üzrə artmağa başlayıb, bu mövzu poeziya, nəsr, dramaturgiya və elmi publisistikamızda davam etdirilib. Türk dünyasının bu möhtəşəm abidəsinin təkcə süjet və obrazları deyil, bütünlükdə ruhu müasir ədəbi nümunələrə çevrilərək, keçmişlə müasirliyi bir məcrada qovuşdurub.

Dastanın motivləri əsasında qələmə alınmış Altay Məmmədovun «Dəli Domrul»u, Nəbi Xəzrinin «Əfsanəvi yuxular» poeması, «Torpağa sancılan qılınc», «Burla Xatun» mənzum dramları və digər əsərlər hər şeydən əvvəl «Kitabi-Dədə Qorqud» boylarındakı vətənpərvərlik hisslərini, yadelli işğalçılara qarşı nifrəti, insana olan inam və məhəbbəti müasir oxucuya aşılamaq məqsədi daşıyırdı.

Kamal Abdullanın «Kitabi-Dədə Qorqud» dastanına müraciəti isə bunların hamısından fərqlənir. Hər şeydən əvvəl qeyd edək ki, yazıçının bu möhtəşəm türk abidəsinə müracəti böyük məhəbbətdən, həmçinin dastana mükəmməl bələdçiliyindən qaynaqlanır. Kamal Abdullanın yaradıcılığı ilə tanış olanlara bəllidir ki, ədib yaradıcılığının ilk vaxtlarından türk dünyasının bu möhtəşəm yazılı abidəsinə xüsusi münasibəti ilə seçilib. Yada salaq ki, Kamal Abdulla «Kitabi-Dədə Qorqud»da sintaktik paralelizm» adlı dissertasiyanın, «Gizli Dədə Qorqud», «Sirriçində dastan və yaxud Gizli Dədə Qorqud-2» monoqrafiyasının, «Sirriçində nəğmələr» poemasının müəllifidir. Bundan əlavə, yazıçı Dədə Qorqud motivləri əsasında iki sanballı pyes - «Beyrək» və «Casus»u qələmə alaraq, milli dramaturgiyada yeni mərhələnin başlanğıcını qoyub… Bir sözlə, «Kitabi-Dədə Qorqud» (yunan mifləri ilə yanaşı) Kamal Abdullanın ən çox sevdiyi və inandığı mətndir» [4].

İftixar Piriyevin «525-ci qəzet»də qeyd etdiyi kimi, «Kamal Abdulla araşdırmaları zamanı Dədə Qorqud dövrü kimi çətin və dərin fəlsəfi layları olan bir zənginliyə varid olduqca və daha dərin qatlara getdikcə, həmin dövrün ruhi qidasından aldığı enerji ilə, yaradıcılıq aləminə baş vurduqdan sonra mistikada axtardığı müasirliklə, müasirlikdə axtardığı mistikanın inikasını yarada bildi». Və nəticədə müəllifin «Yarımçıq əlyazma» kimi, sanballı romanı ərsəyə gələrək, heç nəylə təəccübləndirilməsi mümkün olmayan müasir oxucunu, sözün yaxşı mənasında, təəccübləndirə bildi.

3.Kamal Abdullanın romanlarının bədii məziyyətləri.

Tezliklə «son onilliyin əsəri» seçilən «Yarımçıq əlyazma» dünyanın bir çox dillərinə tərcümə edilərək, xarici ölkələrdə də çap olundu. Haqqında çoxlu məqalə, resenziyalar dərc olundu, məşhur tənqidçi və ədəbiyyat xadimləri tərəfindən «postmodernizmin ən parlaq nümunəsi» kimi dəyərləndirildi.

"Yarımçıq əlyazma" müasir Azərbaycan ədəbiyyatımızın hadisəsinə çevrilmiş orijinal sənət nümunəsi kimi tək qalmadı. Bunun ardınca "Sehrbazlar dərəsi", "Unutmağa kimsə yox…" romanları işıq üzü görərək, ədəbi mühütdə böyük rezonans yaratdı. Kamal Abdullanın bu əsərləri də Azərbaycanın hüdudlarında ilşib qalmadı, səsi-sorağı uzaq-uzaq ellərdən gəldi, haqqında xarici mətbuatda da sanballı məqalələr dərc olundu… Beləliklə, müasir nəsrimizə prinsipial yeniliklər gətirən hər üç roman ölkəmizin hüdudları kənarında da şöhrət taparaq, Azərbaycan nəsrinin potensial imkanlarını dünyaya bir daha nümayiş etdirdi.

Onu da əlavə edək ki, çağdaş ədəbiyyatımızın maraqlı ədəbi hadisəsinə çevrilən bu romanlar haqqında dərc olunun rəy və resenziyalar heç də birmənalı deyil. Bu yazılar içərisində həmin əsərləri müxtəlif prizmalardan (daha çox ənənəvi) keçirərək, yazıçının mövqeyi ilə razılaşmayan müəlliflərin yazıları da var.

Amma bütün bu fikir müxtəlifliyinə baxmayaraq, «Kamal Abdullanın "Yarımçıq əlyazma", "Sehrbazlar dərəsi" və "Unutmağa kimsə yox…" romanları XXI əsr Azərbaycan nəsrinin janr-üslub axtarışlarında yeni mərhələnin əsasını qoyan dəyərli əsərlərdir» [5].

Bu fikrə şərik çıxan Asif Hacılı isə Kamal Abdullanın romanlarını belə səciyyələndirir: «Əgər "Yarımçıq əlyazma", mənim zənnimcə, tarixin və mifin şəxsiləşdirilməsi (epik qəhrəmanlar canlanır, səsi, nəfəsi, hənirtisi olan, eyni zamanda rəmziliklərini saxlayan obrazlara çevrilir) və təhtəlşüur qavrayış modelləri, "Sehrbazlar dərəsi" fövqəl aləmin insanın iç dünyası ilə sufisayaq çulğaşması üzərində qurulmuşdusa, "Unutmağa kimsə yox…" artıq şəxslərin və tarixin mifləşməsi təəssüratını oyadır. Şəxsin seçimi tarixin seçimi olur, şəxsi tale tarixi taleylə qovuşur» [2.səh.97].

Qeyd edək ki, K.Abdullanın mətnlərində ənənəvi romanlarda müşahidə edilən tanış mühitin olmaması yazıçının ədəbiyyatımıza gətirdiyi yeniliklərdəndir. Bəlkə, elə ona görədir ki, bu romanlar ilk baxışdan oxucuda mürəkkəb əsər təsiri bağışlayır. Əslində, bu ilkin təəssüratların arxasında isə milli ədəbiyyatımızda indiyədək müşahidə etmədiyimiz fərqli bir dünyanın təsviri verilir.

Kamal Abdullanın qələmindən çıxan hər üç roman məzmunca yaxın olmasalar da, mahiyyətcə bir bütövün ayrı-ayrı strukturları təsiri bağışlayır. Bu ədəbi nümunələr quruluşca da bir-birindən xeyli fərqlənir. Lakin bütün bunlara baxmayaraq, bədii gerçəklik baxımından bunlar "qohum" əsərlər sayılır. "Unutmağa kimsə yox…" romanına ön söz yazmış Arif Acaloğlu da hər üç əsərdə paralelliyin olduğunu belə açıqlayır: «Romanın özünə məxsus süjeti, personajları və epizodları olsa da bunların hamısı əvvəlki romanlarla paralellik göstərir… Həm struktur, həm də anlamlandırma sahəsindəki ortaq özəlliklər sayəsində bu üç romanı ayrı ayrılıqda deyil, bir arada oxumaq imkanı var. Hətta belə bir oxuma zəruridir» [1].

Etimad Başkeçidin kitabın "Unutmağa kimsə yox…" kitabının üz qabığında verilən sitatı da bir növ buna işarədir: "Buradakı içindən işıq saçan daş "Yarımçıq əlyazma"dakı Nur daşıdır. Buradakı Balaca "Sehrbazlar dərəsi"ndəki Qarağacdır. "Hadisələrin üfüqü"ndən Gunortac və Düzəngah yolu boylanır. Mənəvi rişələrin bir ucu "Yarımçıq əlyazma"ya, digər ucu isə "Sehrbazlar dərəsi"nə gedib çıxır, çevrə qapanır».

Xatırladaq ki, "Yarımçıq əlyazma" qədim əyyamlardan, "Sehrbazlar Dərəsi" orta çağlardan, "Unutmağa kimsə yox…" da isə müasir dövrün hadisələri əks

olunur. Yazıçının öz romanlarını bu cür xronoloji ardıcıllıqla təqdim etməsi, «təkcə estetik mülahizələri ifadə etmir. Bu üç əsər bütövlükdə cəmiyyətimizin tarixi evolyusiyasının özünəməxsus şərhidir».

Buradan «maraqlı bir məqam ortaya çıxır - Kamal Abdullanın trilogiya adlandıracağımız bu üç əsəri yalnız mövzu, obraz və motivlərlə bütövləşmir, bu əsərlərin hər birinin poetikası milli mədəniyyət, etnik psixologiya və tarix fəlsəfəmizin təkamül mərhələlərini əks etdirir: zaman ("Yarımçıq əlyazma"), zaman-məkan ("Sehrbazlar dərəsi") və məkan ("Unutmağa kimsə yox") konseptləri milli dünya mənzərəsinin inkişaf ardıcıllığına uyğun olaraq mətnlərin struktur və semantik səciyyəsini müəyyənləşdirir [2.səh.101-102].

K.Abdullanın romanları üçün səciyyəvi olan daha bir xüsusiyyət bu mətnlərdə hər bir hadisənin saysız-hesabsız variantlarının ola bilməsidir. Bəzən bu variantlar yazıçı tərəfindən hazır şəkildə təqdim edilir, çox vaxt isə oxucu bunları özü təsəvvür etməli olur. Burada bir hadisə başqasını açıqlamaq vəzifəsini də daşıyır. Başqa sözlə, hər biri özündən əvvəlkini anlamaq və açıqlamaq üçün açar verir.

Bildiyimiz kimi, xeyir və şər kimi bəşəri ideyalar bütün dövrlərdə yazılı və şifahi ədəbiyyatın aparıcı mövzularından olub. Lakin çağdaş zaman bu mövzuya tamamilə başqa prizmadan yanaşmağı tələb edir: «Dünya yalnız xeyirdən və ya şərdən oluşmaz. Bu, çox qədim və yayqın olaraq bilinən bir gerçəkdir, amma hər mədəniyyət, hər dövr və hər bir ədəbi əsər bu gerçəkliyi fərqli anlayışlar əsasında modelləşdirir. Bu ənənəyə görə dünyada müxtəlif yönlü olay və olqların (fenomenlərin) meydana gətirdiyi ilahi bir nizam (ahəng, uyum, dəngə) mövcuddur. Ancaq bu qədim ənənə daxilində "xeyir" ilə "şər" mütləq cizgilərə sahibdir və həmişə tanına bilən bir durumdadır» [1.səh.20].

Bu baxımdan, Kamal Abdullanın romanlarında əks olunan xeyir və şər motivləri tamamilə fərqli rakursdan təqdim edilib. Başqa sözlə desək, bu əsərlərdə mütləq şəkildə "xeyir" və şər" anlayışı yoxdur. Belə ki, bir vəziyyətdə "xeyir"i təmsil edən, başqa vaxt "şər" qismində çıxış edə bilir. «Kamalın romanları bir tərəfdən "xeyir" ilə "şər"in, bilinənlərlə bilinməyənlərin, digər tərəfdən də olanlarla ola biləcəklərin (və olmuşların) sərhədlərini müəyyənləşdirməyə yönəlmiş mətnlərdir. Və bilinməyənlərin bilinənlərə nisbətən daha təsirli və önəmli olduğunu anlatmağa çalışır» [1.səh.20].

Kamal Abdullanın əsərlərində zaman anlayışı da özünün çoxfunksiyalılığı ilə fərqlənir. Belə ki, ənənəvi romanlarda hadisələr zaman baxımından çox vaxt bir istiqamətdə cərəyan edir. Kamal Abdullanın mətnlərində isə hadisələr zaman baxımından öz yerini asanlıqla dəyişə bilir. Lakin yazıçının zaman daxilində bu cür sərbəst gəzişmələri oxucuya zaman yarımçıqlığını hiss etdirmir. Hadisələrin arasına girən müxtəlif anlatmalar, xatirələr isə əsərə genişlənmiş zaman özəlliyi verir «Bu zamansızlıqda hələ ki an var, dünən və sabah şərtidir və ya anın içindədir - "bu gün", "həmin axşam" dünənə, sabaha qarşıdır, dünən donuqdur, sabah hələ olacaq, məkanda qərarlaşmış bu ansa var və bütün mübhəmlikləri içinə yığıb... Buna görə də zaman anlayışının aktual olduğu "Yarımçıq əlyazma"dan, zaman-məkan vəhdətinin "dolğun an"da aşkarlandığı "Sehrbazlar dərəsi"ndən fərqli olaraq, "Unutmağa kimsə yox"dakı poetik modeli sistemləşdirən amil məhz bədii məkana xas elementlərdir (mağara, alma, hasar, zəncir, yagış, bulud, səma, dağ, yuxarılar, aşağılar…)» [2].

Postmodernist yazıçı üçün əsas məzmun deyil, forma üstündür. Dil isə yazıçı üçün məzmunu, ideyanı ortaya çıxaran əsas məqsəddir. «Postmodern romançı özünü ümumilikdə bir topluluq, qrup, dəstə içində görməkdən qaçır. Hər romançı özünə aid bir anlayış və yazı texnikası yaratmağa, kimsəyə bənzəməməyə çalışır. Xüsusən, dil oyunlarını sevir, dilin əks etdirici yox, yaradıcı bir alət olduğu düşüncəsini əsas götürərək maraqlı, adət etdiyimiz qrammatik quruluşdan, söz sırasından fərqli olan mətn ortaya qoymaqdan ləzzət alırlar» [7]. Bu baxımdan, Kamal Abdulla öz romanlarında «sərhədsiz təxəyyül atını istədiyi kimi çapmağı bacarır».

Estetik dil duyumuna malik bir yazıçı kimi Kamal Abdullanın əsərlərində dil quruluşu, üslub özünəməxsus ümumi poetikaya uyğundur. Burada da çoxqatlılıq özünü göstərir, fərqli üslublar normativlik dilin təbii stixiyasında əriyir. Kamal Abdullanın «Romanların heç birində "müəllif dili" ön planda deyil və ya hiss edilmir. İstər "Yarımçıq əlyazma" və "Sehrbazlar dərəsi" kimi tarixi özəllikləri olan mətnlərdə, istər "Unutmağa kimsə yox..." kimi çağımızda cərəyan edən bir romanda dil bir çox özəlliyi eyni zamanda əks etdirir. Bu, əslində, çox çətin bir yoldur, amma "paralel dünyalar" olaraq təqdim edilən gerçəkliyi doğru, dürüst ifadə etmək baxımından zəngin potensiala sahibdir. Əsərlərin başlıca personajları yeri gəldiyində sadə xalq dilində, yeri gəldiyində spesifik ifadə və terminlərdən istifadə edərək danışırlar. Həm dialoqlarda, həm də təhkiyə dilində Azərbaycan və Anadolunun tarixi və müasir dialekt və şivələrinə aid özəlliklər görünür. Yəni, çoxvariantlılıq, alternativ yozum imkanları əsərin dilində də özünə əsaslı şəkildə yer etmişdir» [1.səh.20-21].

4. Trilogiya, yoxsa «üçüz»

Göründüyü kimi, Kamal Abdullanın romanlarında oxşarlıq və paralelliklər çoxluq təşkil edir. Lakin bu «qohumluq» əlaqəsinin ənənəvi terminlə adlandırılması bir növ yerinə düşmür.

Bu mənada, Arif Acaloğlunun fikirləri orijinal səslənir. O bildirir ki, bu üç roman "trilogiya" kimi anlaşılmamalıdır. Çünkü bu əsərlərdəki hadisə və personajların bir-birləri ilə hər hansı bağlantısı yoxdur. Eyni zamanda, süjet xətti də bir-birini təkrarlamır. Bunlar arasındakı əlaqə genetikdir. Belə ki, romanlarda eyni dünya qavrayışı və eyni anlam yaradıcı mexanizmləri fəaliyyət göstərir; fərqli müstəvilərdə və fərqli miqyaslarda gerçəkləşən ifadə tərzi isə onların arasındakı fərqləri meydana gətirir.

«Romanın («Unutmağa kimsə yox…») özünə məxsus süjeti, personajları və epizodları olsa da bunların hamısı əvvəlki romanlarla paralellik göstərir. Bu baxımdan, mən bu romanları bir arada oxumanın və hətta araşdırmanın tərəfdarıyam. Daha öncə ilk iki roman arasında çoxyönlü ilişkiləri nəzərə alaraq mən bunları "əkiz romanlar" adlandırırdım. "Unutmağa Kimsə Yox..."u oxuduqdan sonra artıq "üçüz romanlar" deməyi tərcih edirəm. Bu ifadənin "trilogiya" kimi anlaşılmaması lazımdır. Çünkü bu romanlardakı hadisə və personajların bir-birləriylə hər hansı ilişkisi yoxdur; birindəki süjet xətti sonrakılarda davam etmir. Bunlar arasındakı əlaqə məhz əkizlərdə (üçüzlərdə) olduğu kimi genetikdir» [1].

Arif Acaloğlu daha sonra bildirir ki, həm struktur, həm də anlamlandırma sahəsindəki ortaq özəlliklər sayəsində bu üç romanı ayrı ayrılıqda deyil, bir arada oxumaq imkanı var. Hətta belə bir oxuma zəruridir. Bu oxuma sonrasında yavaş-

yavaş anlaşılır ki, yazıçı bir şey axtarır və ya bizə bir şey anlatmağa çalışır. Və bu "şey" hər romanda fərqli baxımlardan və fərqli yönləriylə anladılır. Yalnız üç roman da diqqətlə oxunduqdan (ki, bədii mətn başqa cür oxuna bilməz) sonra, əslində, bütün bu mətnlərdə eyni dünyadan və eyni mətləblərdən bəhs edildiyi anlaşılır.

Nəticə

…Çoxşaxəli yaradıcılığının hər sahəsində böyük uğurlar qazanan Kamal Abdulla söz sənətində də öz məhsuldar fəaliyyəti ilə fərqlənib, Azərbaycan nəsrində bir çox yeniliklərə imza atıb. Onun qələmə aldığı romanlar çağdaş ədəbiyyatımızın maraqlı ədəbi hadisəsinə çevrilərək, həm Azərbaycanda, həm də ölkəmizin hüdudlarından kənarda xüsusi maraqla qarşılanıb. Bu sənət nümunələrinin dünya dillərinə tərcümə edilərək, xarici ölkələrdə çap olunması isə təkcə müəllifin uğuru deyil, eyni zamanda Azərbaycan nəsrinin potensial imkanlarının göstəricisidir.

Kamal Abdullanın romanları ayrı-ayrı dövrlərdən, mövzulardan bəhs etsə də, burada çoxlu paralelliklər, ortaq özəlliklər mövcuddur və hər üç roman mahiyyətcə bir bütövün ayrı-ayrı strukturlarıdır. Məhz elə ona görə də əksər tənqidçilər bu romanları bir yerdə trilogiya adlandırırlar.

Lakin Kamal Abdullanın romanlarındakı bu «qohumluq» əlaqəsinin ənənəvi terminlə adlandırılması bir növ yerinə düşmür. Və Arif Acaloğlunun da qəti şəkildə qeyd etdiyi ki, bu üç roman "trilogiya" kimi anlaşılmamalıdır. Ən azı ona görə ki, bu əsərlərdə süjet xətti bir-birinin təkrarı deyil, həmçinin hadisə və obrazların da bir-birləri ilə əlaqəsi yox dərəcəsindədir.

Həm də trilogiya silsilə təşkil edən böyük bir romanın ayrı-ayrı hissələri sayılır. Kamal Abdullanın romanlarının isə hər birinin ayrı-ayrılıqda süjet xətti, obrazları, müstəqil mövzusu var. Bunlar arasındakı yaxınlığı isə Arif Acaloğlunun qeyd etdiyi kimi yalnız «genetik» xarakter daşıyır və ona görə də tənqidçi haqlı olaraq onları "üçüz romanlar" adlandırır.

Göründüyü kimi, Arif Acaloğlu Kamal Abdullanın romanları kontekstində «üçüz» (və ya üçəm) kəlməsini ədəbiyyatşünaslığımıza yeni termin kimi əlavə edir. Bununla da sözügedən romanların milli nəsrimizdə daha bir keyfiyyət fərqini diqqətə çatdırılır. Bəlkə də, bundan sonra qələmə alınacaq bu tipli mətnlərin «genetik» yaxınlığı diologiya və ya triologiya kimi deyil, "əkiz romanlar", yaxud «üçüz» (və ya üçəm) romanlar kimi ifadə olunacaq.

Ədəbiyyat

1. Arif Acaloğlu, fevral, 2011, İstanbul- Bakı
   Kamal Abdullanın "Unutmağa kimsə yox…" romanına ön söz.
2. Asif Hacılı. «KAMAL ABDULLA: SEÇİMİN MORFOLOGİYASI»,
   Bakı: Mütərcim, 2010. 132 səh.
3. Kamal Abdulla. «Sehrbazlar dərəsi», Bakı: Mütərcim, 2006. 224 səh.
4. Rüstəm Kamal. Dialoq - sözü anlama məqamı / 28.01.2012 / www.525.az.
5. Timuçin Əfəndiyev, «Sonsuzun dərkinə uzanan yol», «525-ci qəzet»
   18.05. 2011.
6. Vaqif Nəsib "TANIDIĞIM KAMAL (və ya Kamala çatmış amal)",

"Ədalət" qəzeti, 14.03.2009.
7. Vurğun Əyyub, «Postmodernizm və "Unutmağa kimsə yox..." dilemması», «525-ci qəzet» 10.03.2012.

Садых Караев

Смысл трилогии в романах Камал Абдуллы

Резюме

Известный азербайджанский писатель Камал Абдулла достиг больших успехов в художественном творчестве. Он является автором ряда новшеств в Азербайджанской публикации. Его произведения «Неоконченная рукопись», «Долина кудесников», «Некого забыть», встречают с большим интересом, как в Азербайджане, так и за ее пределами.

Несмотря на то что, события в его романах охватывают разных эпох и тем, в них наблюдается параллельность и своеобразие. Поэтому, большинство критиков называют эти романы «трилогией». Но, «родственная» связь в его произведениях носят «генетический» характер. Как отмечает Ариф Аджалоглу, эти произведения должны называться «тройней», а не «трилогией», как принято.

Sadig Garayev

The meaning of a trilogy in Kamal Abdulla's novels

Abstract

Famous Azerbaijani writer Kamal Abdulla has made great achievements in the field of artistic creativity. His penned "Unfinished Manuscript", "Wizards Valley", "There's no one to forget ..." novels have also sparked the interest of the country and abroad.

The writer's novels talking about different times and issues, but there are many parallelism and common characteristics. Therefore, many critics called a combination of novels "trilogy". However this "relationship" appears as a "genetic" bond in Kamal Abdulla's novels. Therefore, as noted by Arif Acaloglunun, there should not be called as "trilogy", but as "triple novels".

Rəyçi: Buludxan Xəlilov
filologiya elmləri doktoru, professor

ŞƏHLA ABDULLAYEVA
filologiya üzrə fəlsəfə doktoru
abdullayevashakhla@gmail.com

RUDƏKİ SƏMƏRQƏNDİNİN "KƏLİLƏ VƏ DİMNƏ" MƏNZUM TƏRCÜMƏSİ

Açar sözlər: Rudəki, Kəlilə və Dimnə, Pançatantra, tərcümə, təmsil
Ключевые слова: Рудаки Самарканди, Калила и Димна, Панчатантра, перевод, басня
Key words: Rudaki, Kalila and Dimna, Panchatantra, translation, fable

Qədim Şərq dünyasının dildən-dilə keçərək müxtəlif xalqlar arasında yayılmış, sonradan işlənərək mükəmməlləşdirilmiş və yazıya köçürülmüş, eləcə də ayrı-ayrı şairlər və söz sənətkarları tərəfindən ya nəsrlə, ya da nəzmlə qələmə alınmış, müxtəlif dünya xalqlarının dilinə tərcümə edilmiş ölməz abidələrindən biri "Kəlilə və Dimnə"dir.

Bir çox alim və tədqiqatçılar bu fikirdədirlər ki, "Kəlilə və Dimnə" mənşə etibarilə hind brəhmənlərinin hind folkloru əsasında qələmə aldıqları "Pançatantra", "Xitopadeşa" və digər bu qəbil əsərlərlə sıx bağlıdır (2, s.71). Rəvayətə görə, "Kəlilə və Dimnə" yuxarıda adını çəkdiyimiz "Pançatantra"nın tərcüməsidir. Həmin əsər təxminən III-IV əsrlərdə şifahi şəkildə yaranmış, sonradan hind brəhmənləri onu yazılı şəklə salmışlar. "Pançatantra", yaxud "Pənçə təntrə" sanskritdən tərcümədə "beş dastan" və ya "beş dəftər" mənasını verir. Bu əsər 1 dibaçə və məzmun baxımından bir-biri ilə bağlı olan 5 müstəqil hekayətdən ibarətdir. Ümumilikdə əsərdə bir-birinin məntiqi davamı olan əxlaqi-ictimai məzmunlu 37 dastan vardır. "Pançatantra" əsərindən bu günə sanskrit və prakrit dilində 13 müxtəlif rəvayət gəlib çatmışdır (7, s. 541).

Əsər ilk dəfə sanskritdən pəhləvi dilinə tərcümə olunmuşdur. Bu tərcümə haqqında belə bir rəvayət vardır ki, məşhur Sasani padşahı Xosrov Ənuşirəvan (531-579) Hindistanda padşahlar üçün çox faydalı bir kitab olduğunu eşidir və öz saray təbibi Bərzuyəni bu kitabı gətirmək üçün Hindistana göndərir. Bərzuyə Hindistana gedərək "Pançatantra"nı gətirir və onu pəhləvi dilinə tərcümə edir. Lakin "Kəlilə və Dimnə"ni sadəcə tərcümə hesab etmək doğru olmaz. Görkəmli şərqşünas alim mərhum Rəhim Sultanovun fikrincə, təbib Bərzuyə "Pançatantra"nı pəhləvi dilinə tərcümə edərkən digər məşhur hind kitablarındakı hekayə və rəvayətlərdən də bəhrələnərək onları öz tərcüməsinə əlavə etmişdir. "Pançatantra" 5 fəsildən ibarət olduğu halda, Bərzuyənin tərcüməsi ilk variantda 14, ya 16 fəsildəb ibarət olmuşdur (1, s.8).

Bərzuyənin əsəri ilk olaraq pəhləvi dilindən Suriya dilinə Bud adlı bir rahib tərəfindən tərcümə edilmişdir. Alimlər digər tərcümələrlə müqayisədə bu tərcümənin pəhləvi nüsxəsinə daha yaxın olduğunu qeyd etmişlər. Lakin həmin tərcümə əsəri tarixi bir abidə kimi əhəmiyyətli olsa da, "Kəlilə və Dimnə"nin yayılması, məşhurlaşması məsələsində heç bir rol oynamamışdır (1, s.310, 311).

"Kəlilə və Dimnə"nin dünyada məşhurlaşmasına və geniş coğrafi ərazidə yayılmasına onun ərəb dilinə tərcüməsi səbəb olmuşdur. Əsəri ilk dəfə ərəb dilinə islam dinini qəbul etməmişdən əvvəl adı Ruzbeh Daduyye olmuş məşhur tərcüməçi, ədib Abdullah ibn əl-Müqəffa (720-759) çevirmişdir. İbn əl-Müqəffa Bərzuyənin əsərini ərəb dilinə tərcümə etməklə yanaşı, ona bir sıra yeni fəsillər də əlavə etmişdir.

Əbu Reyhan Biruni (973-1048) İbn əl-Müqəffanın "Pançatantra"dan ərəb dilinə tərcüməsi haqqında belə bir fikir söyləyir ki, bu kitab bir dəfə İranlı təbib Bərzuyə tərəfindən Sasanilər dövrü farscasına, ondan sonra da həmin dildən ərəbcəyə tərcümə olunmuşdur. Hər iki tərcümədə orijinala sadiq qalınmamış, mütərcimlər əsərə öz fikirlərini də əlavə etmişlər. Əl-Müqəffanın "Kəlilə və Dimnə"si əsl "Pançatantra"dan çox fərqlidir və mütərcim zındıq və manilik tərəfdarı olduğu üçün öz tərcüməsinə "Təbib Bərzuyə" adlı fəsil əlavə edərək özünün maniliyi təbliğ edən dini-fəlsəfi fikirlərini də Bərzuyənin dilindən əsərə daxil etmişdir. Bundan başqa, Biruni əl-Müqəffanın əsəri ilə əsl "Pançatantra" arasındakı fərqi göstərmək üçün bu əsəri yenidən ərəbcəyə tərcümə etmək fikrində olduğunu da bildirir (bax: 13, s.324, 325).

İbn əl-Müqəffanın ərəbcə tərcüməsi Samani hökmdarı II Nəsr ibn Əhmədin (914-943) fərmanı ilə məşhur vəzir Əbül-Fəzl Məhəmməd ibn Übeydulla əl-Bələmi (vəf.940) tərəfindən fars dilinə nəsrlə tərcümə olunur. Sonra, çox güman ki, elə Bələminin özünün təşviqi ilə Əbu Abdullah Cəfər Rudəki Səmərqəndi (860-941) bu məşhur əsəri nəzmə çəkir (bax: 11, s.33).

Farsdilli xalqların "şairlərin Adəmi" adlandırdıqları Rudəkinin tərcüməsinin yazılma tarixi müxtəlif mənbələrdə h.320-330/m.931-941-ci illər arası qeyd olunmuşdur (bax: 6, s.7; 9, s.455; 12, s.38). Bu illərdə artıq Rudəkinin kor olduğu ehtimal edilir. Buna dahi Əbülqasim Firdovsinin (934-1025), "Şahnamə"sində verilmiş beytlər də şahidlik edir. Firdovsi əsərin Rudəkiyə mütərcim, yəni Bələmi tərəfindən oxunduğunu qeyd etmişdir (4, s.254):

گزارنده را پیش بنشاندند همه نامه بر رودکی خواندند...
بپیوست گویا پراگنده را بسفت اینچنین در آگنده را

(Söyləyəni [Rudəkinin] qarşısında oturtdular [və] bütün dastanı Rudəkiyə oxudular; Belə iri mirvariləri deşib dastançı bu pərakəndə mirvariləri birləşdirdi).

Lakin Əbül-Fəzl Bələminin, eləcə də Rudəkinin özünün h.329-340/m.940-941-ci illərdə vəfatını nəzərə alsaq, əsərin yazılma tarixi kimi h.320 /m.930-cu illəri götürmək daha ağlabatan olar (12, s.38, 39).

Şeyx Bəhai (1546-1622) özünün məşhur "Kəşkül" əsərində Rudəkinin "Kəlilə və Dimnə" əsərini 12000 beytdə nəzmə çəkdiyini qeyd edir (9, s.455). Lakin bu rəqəm şişirdilmiş hesab olunur. Firdövsinin "Şahnamə"sinə nəzər salaq (5, s.210):

نبیند کسی نامه پارسی نوشته به ابیات صد بار سی

(Kimsə ["Şahnamə"dən əvvəl] farsca 100 dəfə 30 beytdən artıq həcmdə dastan görməmişdir).

Bu beytlərdən məlum olur ki, "Şahnamə"dən öncə heç bir şair fars dilində 3000 beytdən böyük həcmli dastan nəzmə çəkməmişdir.

Müxtəlif mənbələrdə, eləcə də Ünsürinin (980-1039) bir beytində, bu əsərə görə Rudəkiyə Nəsr ibn Əhmədin 40 min dirhəm verdiyi qeyd olunur (3, s.151):

چهل هزار درم رودکی ز مهتر خویش عطا گرفت بنظم کلیله در کشور

([Rudəki] öz hökmdarından Kəlilənin [öz] ölkə[sində] nəzmi üçün 40 min dirhəm bəxşiş aldı).

Lakin, çox güman ki, burada Kəlilənin adının çəkilməsi katiblərin əlavəsinin nəticəsidir. Çünki Rudəkinin öz şeirlərindən bəlli olduğu kimi, ümumiyyətlə, şairin öz məmduhlarından aldığı mükafatın ümumi dəyəri 40 min dirhəm olmuşdur (8, s.24):

بداد میر خراسانش چهل هزار درم وزو فزونی یک پنج میر ماکان بود

(Xorasan əmiri ona 40 min dirhəm verdi, [bu məbləğə] Makan əmiri 5 min əlavə etdi).

Bununla belə, məşhur təzkirəçi Məhəmməd Ovfi (1171-1242) "Lübabül-əlbab" əsərində Nəsr ibn Əhmədin verdiyi 40 min dirhəmdən başqa, qoşun əhlinin də Rudəkiyə 60 min dirhəm verdiyini qeyd etmişdir (10, s.7).

Rudəkinin yaradıcılığı ilə məşğul olan tədqiqatçılar ilk zamanlar "Kəlilə və Dimnə" əsərindən yalnız aşağıdakı beytin mövcudluğunu və onun məhz həmin beytlə başlandığını hesab edirdilər (8, s.106):

هر آن که نامخت از گنشت روزگار نیز ناموزد ز هیچ آموزگار

(Ruzigardan heç nə öyrənməmiş kəsə, heç bir ustad heç nəyi öyrədə bilməz).

Zaman keçdikcə tədqiqatçıların araşdırmaları sayəsində müxtəlif təzkirə və cünglərdə Rudəkinin bu əsərindən toplanmış parçalar hal-hazırda təxminən 120 beyt təşkil edir. Onu da qeyd edək ki, əsərin əldə edilən beytlərinin çoxu Əsədi Tusinin (vəf.1072) "Lüğəti-Fürs" əsərindən götürülmüşdür.

Rudəkinin "Kəlilə və Dimnə"si rəməli-müsəddəsi-məqsurda (fA`ilAtun fA`ilAtun fA`ilun) yazılmışdır. Əsərin bablarından əldə olanlar yalnız bunlardır: Müqəddimə; Təbib Bərzuyə haqqında fəsil; Şir və Öküz fəsli; Dimnənin işinin yoxlanması fəsli; Alabaxta göyərçin fəsli və ya qarğa, kəsəyən, göyərçin, tısbağa və ahu təmsili; Bayquş və Qarğa fəsli; Meymun və tısbağa fəsli.

Məlum olduğu kimi, heyvanların dilindən verilmiş bu əsərdə hikmətamiz fikir və mülahizələr bütün hekayətlərin əsasında durur. Rudəkinin əsərin elə ilk beytlərində əks etdirdiyi fikirləri şairin bütün yaradıcılığının ana xəttini təşkil edir: həyatdan yalnız o zaman bir şey öyrənmək olar ki, insan özü ona tərəf can atsın. Şairin bu fikir və ideyalarının mənbəyi onun həyat təcrübəsi və müdrikliyi idi.

Rudəki əsərdə dünyanın müxtəlif xalqlarının ümumi mədəniyyət məxəzinin yaradılmasında iştirakları, elm və mədəniyyətin hər zaman təkamüldə olduğuna işarə edir (8, s.110):

تا جهان بود از سر آدم فراز کس نبود از راز دانش بي نياز
مردمان بخرد اندر هرزمان راز دانش را به هر گونه زبان
گرد کردند و گرامي داشتند تا به سنگ اندر همي بنگاشتند
دانش اندر دل چراغ روشن است وز همه بد بر تن تو جوشن است

(Dünya Adəmin sirrindən agah olduğu zamandan bəri elm sirrinə ehtiyacı olmayan bir kəs olmamışdır; Hər dövrdə müdrik insanlar hər cür dildə elmin sirlərini toplamış və qorumuş, daşlar üstə həkk etmişlər; Bilik – qəlbdə [parlayan] nurlu çıraqdır və bədənini bütün pisliklərdən qoruyan zirehdir).

"Kəlilə və Dimnə" sözün həqiqi mənasında hikmət xəzinəsidir. Burada şair düzlük, insanlara xidmət, az danışmaq, xoş günləri səbirlə gözləmək, əldə olunanın qədrini bilmək, ağıl və biliyin tərifi, yersiz və xoşagəlməz hərəkət və sözlərdən çəkinmək və s. kimi hikmətli fikirləri təbliğ edir.

Rudəki inanır ki, hər qaranlıq gecədən sonra işıqlı sabah gəlir (8, s.111):

کار چون بسته شود، بگشایدا وز پس هر غم طرب افزایدا

(İş düyünə düşübsə, O [bu düyünü] açacaq və hər qəmdən sonra şadlıq gətirəcək).

İnsan gərək öz elmi və savadı, var-dövləti və məqamı ilə öyünməsin, çünki sonunda insan hər şeyini qoyub gedir – həm cahil, həm alim, həm varlı, həm kasıb, həm

axmaq, həm müdrik – hamısı bir torpaq altında yatır, hər kəs özü ilə bir tək kəfən aparır (8, s.118):

ابله و فرزانه را فرجام خاک جایگاه هر دو اندر یک مغاک

(Axmağın da, ağıllının da aqibəti torpaq [altıdır], hər ikisinin yeri bir çaladadır).

Rudəkinin "Kəlilə və Dimnə" əsəri bizə tam şəkildə gəlib çatmadığı üçün onun tam şəkildə tərcümə edilib-edilməməsi qəti şəkildə müəyyən olunmamışdır. Əsərdən yalnız pərakəndə beytlər qaldığı üçün onun bədii xüsusiyyətləri, kamilliyi haqqında da tam fikir yürütmək çətindir. Lakin buna baxmayaraq, Rudəkinin əldə olan pərakəndə beytləri belə onun bu əsəri necə böyük məharət və ustalıqla, orijinala mümkün qədər yaxın bir şəkildə tərcümə etdiyini göstərir. Lakin bəzən bütov bir rəvayətdən yalnız bir beytin əldə olması tədqiqatçıların işini daha da çəinləşdirir. Bununla belə, "Kəlilə və Dimnə" ilə yaxından tanış olan tədqiqatçı və ya oxucu, elə bu təkbeytlərdən də tərcümənin əsərin hansı hissəsindən olmasını ayırd edə bilər. Məsələn, "Şir və öküz" fəslindən Kəlilənin nəql etdiyi rəvayətlərdən birində deyilir ki, bir dəstə meymun dağda yaşayırdı, bir gün hava çox soyuq olur və yazıq meymunlar soyuqdan donmağa başlayırlar. Bu zaman onların gözləri bir atəş böcəyinə sataşır və onlar elə bilirlər ki, bu, oddur. Böcəyin üstünə çör-çöp yığıb hər tərəfdən üfürməyə başlayırlar. Bu zaman ağacda oturmuş bir quş onlara bu "od"un əslində bir böcək olduğunu söyləyir, lakin meymunlar onu dinləmək istəmirlər. Bu zaman oradan keçən bir şəxs quşa deyir ki, nahaq yerə özünü yorursan, meymunlar sənin sözünü dinləməyəcəklər. Çünki belələrinə nəsihət vermək, qılıncı daşa vurmaq və şəkəri su altında gizlətmək kimi bir şeydir. Lakin quş o şəxsin sözünə qulaq asmır, əksinə meymunlara daha da yaxınlaşıb onlara hərəkətlərinin mənasız olduğunu anlatmaq istəyir. Bu zaman meymunlar onu tutub başını üzürlər. Xeyirxahların nəsihətlərinə qulaq asmamağın nəticələrini anlatmağa çalışan bu rəvayət Rudəki tərcüməsində yalnız 2 beytlə qalmışdır (8, s.107):

شب زمستان بود، کپی سرد یافت کرمکی شب تاب ناگاهی بتافت

کپیان آتش همی پنداشتند پشتهی هیزم بدو برداشتند

(Qış gecəsi idi, meymunlar üşüyürdülər, qəfildən bir atəş böcəyi parladı; Meymunlar onu atəş hesab etdilər, üstünə bir yüklük odun yığdılar).

Rəvayətin yalnız başlanğıcı əldə olsa da, elə bu iki beytin özü elə dəqiq və məharətlə verilmişdir ki, onun hansı rəvayətdən olmasını tapmaq çox asandır.

Daha bir nümunə göstərək: yenə həmin "Şir və öküz" fəslindən bir rəvayət misal gətirək. "Siçanın 100 batman dəmir yediyi bir ölkədə çalağan çəkisi on batman olan bir uşağı aparsa, bu, təəccüblü deyildir" deyən tacirin əhvalatı Rudəki tərcüməsinin əldə olan hissəsində yalnız bir beytlə ifadə olunur (8, s.113):

اندر آن شهری که موش آهن خورد باز پرد در هوا کودک برد

(Siçanın dəmir yediyi o şəhərdə, qartal havada uçub uşağı aparar).

Lakin elə bu bir beytdən artıq onun hansı rəvayətə aid olması asanlıqla bəlli olur.

Daha bir nümunə: şirin dovşanın qurduğu tələyə düşüb həlak olması haqqında rəvayətin Rudəki tərcüməsindən yalnız aşağıdakı bir beyt qalmışdır (8, s.118):

شیر خشم آورد و جست از جای خویش وآمد آن خرگوش را الفغده پیش

(Şir əsəbləşdi və öz yerindən sıçradı və o dovşanın qurduğu [hiylə] həyata keçdi).

Onu da qeyd etmək lazımdır ki, Rudəkinin tərcümədə işlətdiyi sözlərdən bir çoxu müasir fars dilində işlənmir. Məsələn, yuxarıdakı beytdə işlənmiş "الفغده" sözünün hərfi mənası "əldə edilmiş", "toplanmış", "nəzərdə tutulmuş"dur və müasir fars dilində ona rast gəlmirik.

"Kəlilə və Dimnə"dəki "sonrakı peşmançılıq fayda verməz, necə ki namərd şərikə fayda verməsə" rəvayətindən də Rudəki tərcüməsində 2 beyt qalmışdır (8, s.109):

وز درخت اندر گواهی خواهد اوی تو بدانگاه از درخت اندر بگوی
کان تبنکوی اندر دینار بود آن ستد زیدر که ناهشیار بود

(Və o ağacdan şahidlik istəyəcək, o zaman sən ağacın içindən söylə ki, o küp dinarla dolu idi, [onu] buradan o axmaq götürdü).

Burada da, "تبنکوی" və "زیدر" sözləri hətta klassik fars şairləri arasında çox az sayda söz ustadının işlətdiyi sözlərdir ki, birincisi "səbət", "sandıq", "küpə", ikincisi isə "buradan" mənalarını verir.

Ümid edirik ki, gələcək axtarışlar öz bəhrəsini verəcək və Rudəkinin "Kəlilə və Dimnə"sindən yeni-yeni parçalar tapılaraq bu dahi şairin yaradıcılığında önəmli yer tutan həmin əsərin daha mükəmməl bir nüsxəsi əldə edilərək Şərq ədəbiyyatı "xiridar"larının ixtiyarına veriləcəkdir.

Ədəbiyyat:

1. Kəlilə və Dimnə. (Farscadan tərcümə edəni, şərh və izahların müəllifi prof. Rəhim Sultanov). Bakı, 1989.
2. Бертельс Е.Э. Очерк истории персидской литературы. Л.: Издание Ленинградского Восточного Института имени А.С.Енукидзе, 1928.
3. Мирзоев А.М. Рудаки. Жизнь и творчество. М.: Наука, 1968.
4. Фирдоуси. Шах-наме. Критический текст. В 9-и томах. Том VIII (Составитель текста Р.М.Алиев; под редакцией А.Азера), М.: Наука, 1970.
5. Фирдоуси. Шах-наме. Критический текст. В 9-и томах. Том IX (Составитель текста А.Е.Бертельс; под редакцией А.Нушина), М.: Наука, 1971.
6. تربیت، محمدعلی. موسیقی و موسیقی شناسان ایران. مجله گنجینه معارف، شماره ۸ ، تبریز: سرطان، ۱۳۰۲.
7. حمیدی، بهمن. گزارش تازه ای از کلیله و دمنه. مجله چیستا، اسفند ۱۳۷۸ و فروردین ۱۳۷۹، شماره ۱۶۶ و ۱۶۷، صص ۵۴۱-۵۴۵.
8. رودکی، جعفر بن محمد. دیوان. تهران، ۱۳۷۷.
9. شیخ بهائی. کشکول. تهران، ۱۳۱۹.
10. عوفی، محمد. لباب الالباب. به سعی و تصحیح ادوارد براون. در دو جلد، جلد دوم. لیدن، ۱۳۲۱.
11. قزوینی، محمد. بیست مقاله. تهران: ابن سینا، جلد دوم، ۱۳۳۲.
12. نفیسی، سعید. چند نکته تازه درباره رودکی. مجله دانشکده ادبیات و علوم انسانی دانشگاه تهران، فروردین ۱۳۳۸، شماره ۳ و ۴ ، صص ۳۹-۲۱.
13. هنر،علی محمد. فروخوان از کلیله نکته ای چند. مجله آینه پژوهش. مرداد و شهریور ۱۳۸۳، شماره ۸۷، صص ۸۵-۷۶.

Shahla Abdullayeva

The translation work "Kalila and Dimna" by Rudaki Samarghandy

Summary

Abu Abdullah Rudaki, one of the famous persian poets, a founder of the of the Persian-Tajik classical literature lived and created in III/IX and IV/X centuries at the

court of Samanid rulers in Bukhara. He was glorified as a poet, singer and musician. The article gives short information about his masnawi “Kalila and Dimna”, written by Rudaki by order of Nasr II ibn Ahmad, Amir of the Samanid dynasty. This theme, taken from the Indian collection of parables, known as “Panchatantra” was very popular in the Moslem East, and in course of time was translated into many languages of the world from Arabic and Persian versions.

Шахла А.Абдуллаева

Переводное произведение «Калила и Димна» Рудаки Самарканди

Резюме

Абу Абдаллах Рудаки, один из известных персоязычных поэтов, который считается основателем персидско-таджикской литературы, жил и творил в III/IX-IV/X вв. при дворе Саманидских правителей Бухары. Он был прославлен как поэт, певец и музыкант. В статье дается краткая информация о его маснави «Калила и Димна», которую он создал по приказу II Насра ибн Ахмада, эмира из династии Саманидов. Эта тема, взятая с индийского сборника притч, известного под названием «Панчатантры» была очень популярной в мусульманском Востоке, а со временем с арабского и персидского вариантов была переведена на многие языки мира.

Rəyçi: Möhsün Nağısoylu
filologiya elmləri doktoru, professor

ЛАЛА ГАДЖИЕВА
доктор философии по филологии,
БГУ
email: osmanqizi@gmail.com

ВОПРОСЫ БЕЖЕНЦЕВ ПЕРВОЙ МИРОВОЙ ВОЙНЫ НА СТРАНИЦАХ РУССКОЯЗЫЧНОЙ ПЕЧАТИ Г. БАКУ

Açar sözlər: Birinci Dünya Müharibəsi, Qafqaz, qaçqınlar, rusdilli mətbuat
Ключевые слова: Первая мировая война, Кавказ, беженцы, русскоязычная печать
Key words: First World War, Caucasus, refugees, press in Russian

Со вступлением Османской Империи в мировой военный конфликт из Турции, а также входящих тогда в состав России Карса и Батума начался нескончаемый поток беженцев в пределы Кавказа. Первые из них прибыли уже в первых числах ноября 1914 года. Газета «Баку», издаваемая Х.Вермишевым, взывала к милосердию, к необходимости братской помощи и организации соответствующих комитетов по сбору пожертвований в их пользу, «чтобы дать им приют и средства к существованию, пока пройдет гроза войны…» (15, 2). Газета поясняла читателю разницу между семьями запасных и раненых, которым население уже оказывало свою посильную помощь, и беженцами, лишившимися крова, родных пепелищ и, бежавших без оглядки для спасения себя и своих детей. «Это не семья наших запасных, это не наши раненые, о которых и власть, и общество уже подумали и позаботились»,- поясняла газета (там же).

Надо заметить, что, говоря о беженцах, газета имела в виду исключюючительно беженцев-армян родом из Турции. Хотя покидали родные места не только они, и мусульмане беженцы тоже. О них, всех беженцах писала газета «Каспий», издаваемая известным меценатом З.А. Тагиевым, на первых порах не разделявшая страждущих по религиозному признаку. Для газеты они были такими же нуждающимися в помощи, как и семьи запасных и раненые. Газета писала об объединении сил, о согласованности действий, для того, чтобы все помыслы и идеи всех граждан были направлены на помощь отечеству в деле решения проблем беженцев. «С самого начала возникновения войны, мы видим, как живо мусульмане во всех уголках нашего обширного отечества откликнулись на грянувшие события»,- писала газета (23, с.4).

И действительно следует отметить, что с первых же дней войны азербайджанцы, как и все мусульмане России, активно вступили в дело всеобщей помощи военным нуждам. Об этом свидетельствуют многочисленные новости и заметки из газет, в которых наряду с материальной поддержкой мусульманского населения, описывается труд отдельных групп населения, в частности азербайджанских женщин, занятых заготовкой белья и постельных принадлежностей для лазаретов. «Мусульманские женщины, это те, которых мы с вами, читатель, не видели, за исключением группы интеллигенции, и за исключением тех, которых случайно видим на улицах в чадрах. Массу

мусульманок мы не знаем, и вот они, эти невидимые, теперь заняты работой по заготовке белья для русских раненых воинов», - писала газета «Бакинец» (6, с.5).

В начале войны редакция газеты «Каспий» инициировала сбор вещей для раненых, в том числе, «около 20.000 экземпляров разных книг, журналов, приложений к журналам» (там же). Сама газета также много писала о пожертвованиях населения, в том числе, мусульманского населения военным нуждам, раненым и т.д. Однако заседание, проведенное в Городской Думе в конце 1914 г. и посвященное вопросам беженцев, а также предвзятое отношение проармянских изданий города («Баку», «Кавказский Телеграф», «Кавказская Копейка» - Л.Г.) к мусульманским беженцам из Карса и Батума, заставило каспийцев пересмотреть свою политику беспристрастности и сосредоточиться в основном на проблемах единоверцев-беженцев. Как писала газета, некому было «зарегистрировать их, некому заботиться о них» (26, с.4). В указанном заседании Городской Думы рассматривался «проект организации общества помощи беженцам без различия национальностей», число которых достигало 100.000 человек. «Преобладают армяне,- сообщала газета «Баку»,- но много среди беженцев молокан, духоборов и мусульман, в виду этого, учредители и пришли к заключению, что общество помощи беженцам должно быть основано на принципе интернациональности…» (8, с.5).

Непредвзятость к беженцам была лишь на словах. Тут же обговаривалось, что необходимо разделить беженцев «на две резко различные группы: беглецов из Турции, Персии и мест, непосредственно застигнутых войной – и беглецов из Карса, Батума и других более отдаленных областей» (там же). Заседание в основном обращало внимание на печальное положение первых, а беженцев из Карса и Батума именовало «выселенцами» и положение их считало вполне благоприятным (там же). Более благосклонно ко всем беженцам относилась также газета «Бакинец», издаваемая Гр. Джиноридзе, считавшая их невольными жертвами войны. «Никакой художник пера и кисти не в состоянии передать весь ужас, переживаемый беженцами …»,- отмечалось в газете (7, с.2).

Положение любого беженца печально, как бы их не именовали, будь то выселенцами или вынужденными переселенцами. Нам это известно из собственной недавней истории, когда миллионы ни в чем неповинных людей оставляли свои дома, нажитое годами имущество, ища спасения для своих семей.

Тогда же, в начале января 1915 года, из обращений временного генерал-губернатора Карской области Зубова, фрагментами опубликованных в местных газетах, общество узнало об особо тяжелом положении мусульманских беженцев. В них говорилось о бесчинствах армянских дружинников в Карской области и насилиях над мусульманами. Генерал-лейтенант Зубов, до того являвшийся комендантом Карской крепости в своем первом обращении писал следующее: «Наблюдавшееся с начала войны с Турцией враждебное отношение некоторой малокультурной части христианского населения области к местным мусульманам вылилось в последние дни в открытые нападения, последствием коих было убито несколько мирных мусульман…»

(20, с.4). Обращение Зубова вызвало бурную полемику на страницах Бакинских газет. Каждая сторона старалась вложить в слова Карского коменданта свой смысл и донести его до общества. Газета «Баку» пыталась сместить действия армянских боевиков в плоскость локального конфликта между темными и малокультурными массами христианского и мусульманского населения. «Представить дело так односторонне, значило бы искажать глубокий смысл и дух приказа Карского генерал-губернатора, который в этом отношении не делает и не может делать никаких исключений и имеет в виду и мусульман, и христиан…»,- отмечает газета (12, с.3).

«Каспий» же требует не искажать смысл сказанных генералом Зубовым слов, где он говорит о «совершенно определенном явлении: о враждебном отношении – к мусульманам, неповинных в настоящих обстоятельствах» (20, с.4). Вот почему автор статьи Джейхун Гаджибейли называет обращение генерала односторонним, направленным к одной стороне, к благомыслящей части христианского населения, как являющейся в данном случае активной стороной.

Эти факты подтверждаются и агентурным донесением от 20 января 1915 года самого коменданта Карской крепости Зубова начальнику штаба Кавказской армии. В нем генерал говорит о дружинниках и их руководителях, с которыми возникают серьезные недоразумения и с местной властью, и с населением «на почве убийств, грабежей и всякого рода насилий, а также ввиду антидисциплинированности и распущенности дружинников вообще» (5, с.90).

Тем временем в Баку, на Кавказе, Петрограде активно организовывались комитеты по оказанию помощи беженцам-армянам. Их было настолько много, что, с целью объединения разрозненных по России комитетов и подкомитетов, в марте 1915 года в Эчмиадзине был созван съезд (16, с.3-4). Вскоре после съезда был распространен кондак католикоса всех армян Георга, в котором отмечалось, что в Эчмиадзине под его покровительством учрежден центральный орган – главный распорядительный комитет братской помощи в составе из представителей ведущих комитетов в Эчмиадзине, Тифлисе, Баку, Нахичевани, Петрограде, который и будет координировать деятельность всех комитетов (17, с.5).

Газета «Каспий» с восхищением писала об организованности, сплоченности армян в этом благом для их пострадавших от войны собратьев деле. В статье под названием «Добрая зависть» автор, подписавшийся под псевдонимом Старый, обращает внимание на то, что больше всех на Кавказе от войны пострадали «армяне и мусульмане» (говоря мусульмане, имеются в виду турки, азербайджанцы, аджарцы – Л.Г.) (22, с.5). Однако с точки зрения национального самосознания в вопросе помощи своим беженцам, армяне, в отличие от азербайджанцев, в сравнительно короткий промежуток времени, смогли сконцентрироваться, сплотиться и создать десятки комитетов оказания помощи беженцам. Рассказывая о них, автор указывает на планомерную и хорошо поставленную работу этих комитетов, занимающихся сбором средств, «жертвуемых армянскими общинами, отдельными состоятельными лицами, благотворительными и культурно-просветительными учреждениями, коммерсан-

тами и рабочими, горожанами и крестьянами» (там же). Помощь не ограничивалась одной материальной поддержкой. На местах открывались пункты снабжения беженцев продуктами, необходимой одеждой, летучие амбулатории для раненых и больных. Вся эта работа ложилась на плечи армянской интеллигенции, среди которой «нашлись сотни лиц, забывшие свои личные дела и самоотверженно бросившиеся в гущу национально-альтруистической работы на местах же – на Соганлугских высотах» (недалеко от Сарыкамыша – Л.Г.) (там же). Автор не скрывает, что он хочет расшевелить азербайджанскую интеллигенцию, в грозные дни войны немного впавшую в панику, нерешительность. «Нам кажется, что единственная причина этому – отсутствие инициативы среди мусульманской интеллигенции, не имеющей за собой большого навыка в общественной деятельности…»,- отмечает автор (там же).

Вопрос о беженцах, о помощи собратьям по языку и религии, сыграет огромное значение в сознании азербайджанцев, до того времени именовавших себя просто мусульманами, отбросив на второй план свое национальное происхождение, свои тюркские корни. Война, которую называли «войной народов», способствовала пробуждению в них чувства национальной самобытности. Неслучайно, в грозную военную годину увидела свет газета «Ачыг сёз», издаваемая М.Э.Расулзаде. Во главу угла издания стоял национальный вопрос. «İştə millətimizin bir qəzetəçisi olmaq hesabilə öhdəmizə düşən rəhbərlik vəzifəsinin ifası üçün tutacağımız yolun nöqteyi-əzimətini təşkil edəcək əsas – milliyyət əsası» (1, c.172).

А пока на повестке дня стоял вопрос объединения национальных сил во имя спасения своих соплеменников из Карса, Ардагана и Батума. В начале 1915 года обвинявший национальную интеллигенцию в некоторой нерасторопности в вопросе подачи ходатайства о разрешении сбора пожертвований для беженцев,(20, с.6) Дж.Дагестани позже признавал, что этот вопрос задерживался из-за некоторых затруднений, созданных высшей в крае властью. Для этого «понадобилась посылка особой депутации в Тифлис, к бывшему Наместнику графу Воронцову – Дашкову, доступ к которому оказался нелегким» (18, с.5-6). После многих формальностей, разрешение на сбор пожертвований в пользу беженцев-мусульман Карской области, было, наконец, дано Бакинскому мусульманскому благотворительному обществу. В течение короткого времени были организованы подкомитеты в разных городах Бакинской и Елисаветпольской губерний.

Деятельную работу по оказанию помощи Карским беженцам развернуло созданное в ноябре 1914 года мусульманское женское благотворительное общество во главе с супругой известного бакинского нефтепромышленника М.Мухтарова Л.Мухтаровой. Общество смогло «доказать обществу,- как писала газета «Каспий»,- что мусульманская женщина, допущенная к участию в общественных делах не хуже мужчин справляется со своими обязанностями» (27, с.5). Собранные средства, комитет направлял на заготовку теплой одежды, постели. Комитет неоднократно со страниц «Каспия» обращался к женщинам-мусульманкам с просьбой присоединиться к благому делу помощи беженцам, «не останавливаясь ни перед какими затруднениями и препятствиями» (25, с.3). Позже по инициативе женских благотворительных

организаций неоднократно проводились так называемые «кружечные сборы» и акции «Братской помощи» в пользу мусульманских беженцев, в которых наравне с молодыми ребятами принимали участие и девушки из азербайджанских семей, что было доселе невиданным явлением в общественной жизни Баку. Рассказывая о них, М.Э. Расулзаде с восхищением отмечает возросшее национальное самосознание общества, неотъемлемой частью которой является азербайджанская женщина. Лет десять назад, - пишет он, - таких сознательных женщин можно было по пальцам сосчитать, их имена упоминались с осторожностью. Сегодня же, для спасения своих несчастных собратьев – мусульманских беженцев, они ходят по домам, обходят улицы, магазины, чтобы собрать пожертвование в их пользу. Из двухсот сборщиц, 150 были азербайджанки (2, с.159).

Весной 1915 года в пределах Кавказа находилось по данным Бакинской прессы около 100.000 беженцев - мусульман и 120.000 армян. Среди беженцев были также ассирийцы, русские-молокане, евреи, греки. Их численность была значительно меньше. Более всех защищенными были армяне и евреи, их общественные организации и имущие слои населения в короткие сроки смогли организовать помощь им. Так, в исследуемый период из общей суммы в 800.000 рублей, собранных для армянских беженцев, 500.000 приходилось на долю кавказских армян-крестьян. Рассказывая о них, газета «Баку» отмечала особую роль пограничного с Турцией армянского населения, которое «приняло беженцев с исключительным радушием, делилось с ними последним» (10, с.5). А всего лишь 15 состоятельных евреев из Петрограда, «приглашенных к одному из своих коллег на «чашку чая», для своих беженцев пожертвовали 265.000 рублей (19, с.5). Эта сумма значительно превышала пожертвованную всеми мусульманами России сумму, исчисляемую 70.000-ми рублей. «Это 25 миллионов народу!»,- с негодованием писал Дж. Дагестани, подчеркивая численность всех мусульман России и ее несоразмерность к собранным средствам (там же).

Даже крупные пожертвования не спасали беженцев от неминуемой смерти и болезней. Этих средств было недостаточно. По подсчетам газеты «Баку» на каждого армянского беженца приходилось всего лишь 15 копеек в день, что позволяло питаться «одним только хлебом, единственные дни, когда они раза два видели горячую пищу, были пасхальные» (10, с.5). Нетрудно представить, каково было положение еще менее защищенных беженцев-мусульман. А поток беженцев, особенно армянских на Кавказе, и с западного театра военных действий в тыловые губернии России летом 1915 года еще больше увеличился, поскольку русская армия терпела неудачи по всему фронту. В результате, по данным российских источников, к октябрю общая численность армянских беженцев превысила 200 тыс. человек, а всего на Кавказе было около 300 тыс. беженцев (4). Тогда Ставкой был дан приказ очистить оставляемую врагу территорию, как от населения, так и от всего, что представляло ценность. Эти же меры были предприняты первой волной армянских беженцев перед бегством из турецких вилайетов в конце 1914 года. Собственный корреспондент газеты «Баку» С.Джино, командированный в турецкий театр военных действий, отмечал, что все было уничтожено и преда-

но огню. «Были разрушены и уничтожены даже дома. И это в целом ряде селений, в богатых местечках. Так что у себя дома беженцев ожидают одни развалины» (9, с.4-5). Однако позднее, газета «Баку», подсчитывая убытки армянских беженцев и необходимую сумму для их обратного водворения в турецкие вилайеты, вину за уничтоженные дома и хозяйства взвалит на курдов. По подсчетам особой комиссии, организованной при Эчмиадзинском съезде, размер нанесенного урона составлял 15.400.000 рублей. «Для того, чтобы их снабдить скотом, земледельческими орудиями, материалами для восстановления *совершенно разрушенных курдами жилищ* (курсив наш – Л.Г.) и т.п., необходимо до 3.500. 000 руб.»,- отмечала газета (10, с.5).

О возвращении армянских беженцев заботились не только армянские общественные организации в Закавказье и в целом России, но и само Османское правительство, которое «приняло меры к охране жизни и имущества «перемещаемых» (11, с.5). Об этом было указано в опубликованном в 1916 году, в Стамбуле отчете турецкого правительства под названием «Правда об армянском революционном движении и мерах правительства». В отчете Османское правительство объясняло причины репрессивных мер, принятых в отношении турецких армян. Отмечалось, что эти меры носили вынужденный и временный характер. Несмотря на многочисленные случаи насилия, беззакония со стороны армян над мусульманским населением, заявляло правительство, оно «воздерживалось от применения каких бы то ни было репрессивных мер по отношению к армянам до того дня, когда вспыхнуло Ванское восстание в середине апреля 1915 года» (там же). Известно, что главной мерой явилось перемещение армянского населения, расположенного в военной зоне, в места более отдаленные от фронта и «иностранного вмешательства» (там же). Большинство из них были выселены в Сирию. Там и в других местах компактного переселения армян численность их составляла, по данным газеты «Баку» 500.000 человек. Газета писала, что на страдания беженцев откликнулось правительство США, которое добилось «разрешения у турецкого правительства на отправку … отрядов (имеются в виду специальные продовольственные и медицинские отряды – Л.Г.), которые сооружены на средства американских армян и на пожертвования американского общества» (13, с.3).

Помощь же российского правительства беженцам началась после неудачной весенне-летней кампании 1915 года, когда, как отмечалось выше, вглубь страны хлынули потоки беженцев с Западных приграничных районов. Был издан Закон «Об обеспечении нужд беженцев», которым в дальнейшем и определялось основное содержание политики «государственного попечения» о беженцах. Беженцами признавались «лица, оставившие местности, угрожаемые неприятелем или им уже занятые, либо выселенные распоряжением военных или гражданских властей из района военных действий, а также выходцы из враждебных России государств» (4). Согласно закону, призрение беженцев возлагалось на МВД, а также губернаторов и градоначальников, на земские учреждения и городские общественные управления, местные комитеты. Было также учреждено «Особое совещание по устройству беженцев»,

которое было уполномочено «высшими государственными установлениями» (3, с.31).

Если до сих пор призрение беженцев ложилось на плечи общественных организаций, то принятием данного закона, основная доля необходимых средств выделялась из государственной казны. Газета «Баку» признает, что до принятия этого закона борьба общественных организаций с нуждой беженцев носила партизанской характер, несмотря на проявленную самоотверженность и колоссальную энергию. Но «все-таки этих сил было недостаточно, необходима была «регулярная армия», руководимая единым главнокомандующим с единым штатом и вполне обеспеченная всеми средствами» (14, с.5).

В «Особое совещание по устройству беженцев» от местных благотворительных комитетов были делегированы свои представители: армянский центральный комитет представлял депутат 1V Государственной Думы М.С. Аджемов, а Бакинское мусульманское благотворительное общество депутат М.Ю. Джафаров.

На повестке дня армянских комитетов было возвращение осевших в Закавказье армянских беженцев в покинутые турецкие вилайеты. Для этого разрабатывался общий план действий между существующими обществами вспомоществования на Кавказе и в России, которые посредством своего представителя в «Особом совещании» собирались ходатайствовать у правительства ассигнования необходимых средств. Бакинское мусульманское благотворительное общество в первую очередь позаботилось о призрении сирот, которое «требовало принятия экстренных мер к спасению их от голодной смерти» (24, с.4). Газета «Каспий» сообщала, что депутат «Джафаров исходатайствовал у особого совещания о беженцах ассигновку в 60.000 рублей на устройство приюта для детей пострадавших от войны мусульман» (там же). По данным Х.Вердиевой, от неминуемой гибели были спасены 12 тысяч сирот. Всего же в 1915 году казна отпустила председателю Особого совещания 25 млн. рублей, что, по мнению исследователя, иллюстрирует катастрофическую гуманитарную ситуацию того времени (3, с.31).

Использованная литература:

1. Rəsulzadə M.Ə. Tutacağımız Yol. Əsərləri. 111 cild,- Bakı: “Elm”, 2012,-596 s.
2. Rəsulzadə M.Ə. Qardaş köməyinin müvəffəqiyəyi. Əsərləri. 111 cild,- Bakı: “Elm”, 2012,-596 s.
3. Вердиева Х. Первая мировая война и беженцы – мусульмане Кавказа. «Ирс», №2(44), 2010
4. Курцев А.Н. Беженцы первой мировой войны в России. http://historystudies.org
5. Перинчек Мехмет. Армянский вопрос в 120 документах из российских государственных архивов. М.: Лаборатория Книги, 2011.- 256 с.
6. Газета «Бакинец», №50, 29 сентября 1914 г. «Эхо дня».
7. Газета «Бакинец», №50, 9 сентября 1915 г. «Баку, 9 сентября».
8. Газета «Баку», №1, 1 января 1915 г. «С театра Кавказской войны. (От нашего корреспондента). Беженцы».

9. Газета «Баку», №1,1 января 1915 г. «Общество помощи беженцам».
10. Газета «Баку», №100, 7 мая 1915 г. «Из армянской печати. Армяне-беженцы».
11. Газета «Баку», №150, 10 июля 1916 г. «Правда» турок об армянах и правда фактов». (По поводу брошюры турецкого правительства «Правда об армянском революционном движении и мерах правительства». Константинополь. 1916 г.).
12. Газета «Баку», №16, 21 января 1915 г. «Пресса».
13. Газета «Баку», №175, 10 августа 1916 г. «Армянская жизнь. На помощь 500.000 армян».
14. Газета «Баку», №216, 29 сентября 1915 г. «Помощь беженцам».
15. Газета «Баку», №245, 1 ноября 1914 г. «Баку, 1 ноября».
16. Газета «Баку», №45, 26 февраля 1915 г. «Эчмиадзинскому съезду».
17. Газета «Баку», №72, 3 апреля 1915 г. «Кондак католикоса».
18. Газета «Каспий», №1, 1 января 1916 г. «Мусульманская жизнь в 1915 году».
19. Газета «Каспий», №102, 9 мая 1915 г. «Заметки мусульманина. Когда же, наконец?».
20. Газета «Каспий», №17, 22 января 1915 г. «Одностороннее» положение»».
21. Газета «Каспий», №20, 25 января 1915 г. «Заметки мусульманина. Неуменье или преступление»
22. Газета «Каспий», №20, 25 января 1915 г. «Добрая зависть».
23. Газета «Каспий», №202, 11 сентября 1914 г. Заметки мусульманина. Что нам нужно делать? 1.
24. Газета «Каспий», №223, 8 октября 1915 г. «Заметки мусульманина. О детском приюте».
25. Газета «Каспий», №227, 13 октября 1915 г. «Воззвание».
26. Газета «Каспий», №4, 6 января 1915 г. «О помощи беженцам-мусульманам».
27. Газета «Каспий», №40, 20 февраля 1915 г. «Заметки мусульманина. Не забудьте».

Lalə Hacıyeva

Birinci Dünya Müharibəsi qaçqınlarının məsələləri
Bakının rusdilli mətbuatında

Xülasə

Birinci Dünya Müharibəsinin gətirdiyi bəlalardan biri qaçqın problem idi. Təkcə Osmanlı İmperatorluğundan, Qars və Batumdan Qafqaza 300 minə yaxın qaçqın pənah gətirmişdi. Məqalədə Bakıda rus dilində nəşr olunan qəzetlərin qaçqın məsələlərinə münasibəti təhlil olunur. Tədqiqat ilkin mənbələr – araşdırılan dövrün qəzet məqalələri əsasında aparılmışdır.

Lala Hajiyeva

Questions of refugees of the First World War on pages
of Russian-speaking press of Baku

Summary

With the beginning of the First World War began a never-ending stream of refugees from Ottoman Empire, Kars, and Batumi to Caucasus. Their number exceeded 300.000 the person. In article is investigated the attitude of the Baku press in Russian to refugee problem. Research has been carried out on primary sources of the examined period.

Rəyçi: Şamil Vəliyev
filologiya elmləri doktoru, professor

ZİYƏDDİN MƏHƏRRƏMOV
filologiya üzrə fəlsəfə doktoru,
Azərbaycan Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının dosenti
ziyaddin@mail.ru

"FAZİL İRƏVANİ" KİMİ TANINAN AYATOLLAXUL-UZMA MOLLA MƏHƏMMƏD İBN MƏHƏMMƏD BAĞIR

Açar sözlər: İrəvanlılar və İrəvan şairləri, "Azərbaycan ədəbiyyatı, "Qızılgül və bülbül", Fazil İrəvani, "İrəvanilər" , Mamaqani, Vayya de Floribal
Key words: Iravanis and Iravan poets, Azerbaijan literature, Fazil İravani, Mamagani, Vayya de Floribal, "Rose and nightingale"
Ключевые слова: «Иреванцы и иреванские поэты», «Азербайджанская литература», «Роза и соловей».

Qərbi Azərbaycanın, xüsusən də İrəvan şəhərinin və onun ərazisinə daxil olan xanlıqların yaşayış məskənlərin taqədimdən hansı xalqa mənsub olduğunu, kimin vətəni olduğunu sübut sübut etmək üçün dəlillərə istinad etmək zərurətini yaradır. Həmin ərazidə gedən tarixi proseslərin daimi aboregen əhali olan azərbaycanlıların həyatında verdiyini, fövqəldövlətlərin himayəsi ilə ermənilərin bu əraziləri özününküləşdirməsi fürsətdən istifadə edərək er adlarını, toponimləri tez-tələsik dəyişdirməsi faktları Vətənini sevən hər bir azərbaycanlını düşündürmüşdür. Zəka sahibləri yer adlarının dəyişdirilməsinin mümkünlüyünü nəzərdə tutan məqsədləri pozmağa diqqətlə yanaşmışlar. Odur ki, İrəvan və onun əhatə etdiyi mahalların ərazilərində anadan olan alim və şairlərin, adlı-sanlə və ünlü şəxsiyyətlərin əksəriyyəti özlərinə soyad(nisbə,məkani təxəllüs) kimi qəbul edərək özlərini vətənləşdirmişlər. İrəvan xanlığının adlı-sanlı adamları Vətənlərinin əzəli Azərbaycan torpaqları olduğunu birr fakt kimi "İrəvani" nisbəsi məkani təxəllüsünü adlarına əlavə etmişlər. [M.Mahmudov, 1983,1983,181-191.] Bu torpaqlardakı yaşayış məskənlərinin özlərinin əzəli yurdları olmasını, heç bir yadellinin gələcəkdə özünə yurd-yuva çıxa bilməməsi üçün nisbələri ilə tarixdə yaşamasını məntiqi baxımdan dəyərli və maraqlı etmişlər. [E.Q. İrəvanilər , Çaşıoğlu, Bakı, 2000, s,3-8] Fazil İrəvani də bunisbə ilə tanınan tarixi şəxsiyyətlərdəndir. Neçə illərdir ki, torpaqlarımızın bir hissəsi qəsbkar qonşularımızın işğalı aıtındadır. Bu torpaqların Azərbaycana məxsus olduğunu sübüt edən sənəd və tarixi abidələri ermənilər təhrif edərək mənimsəyib özününküləşdirirlər. Onlar qədim Azərbaycan torpaqlarını mənimsəyir. Ancaq fakt fakt olaraq qalır, nəinki təkcə Dağlıq Qarabağ, Ağdam, Şuşa və sair rayonlar, hətta Ermənistanın indiki paytaxtı İrəvan şəhəri Azərbaycanın tarixi ayrılmaz tərkib hissəsi sayılır. İrəvan şəhəri Azərbaycanın tərkibindən ayrılana qədər müsəlman şəhəri olmuşdur. Bu şəhər bir çox müsəlman alimlərinin vətəni olmuşdur. Onlardan biri də Fazil İrəvanidir. "Fazil İrəvani" kimi tanınan Ayatollaxul-uzma Molla Məhəmməd ibn Məhəmməd Bağır 1782-ci ildə qədim İrəvan şəhərində anadan olmuşdur. Doğma şəhərində ilk ibtidai dini təhsilini aldıqdan sonra o, dini biliklərini təkmilləşdirmək üçün İraqa yola düşüb. Əvvəlcə o, Kərbəla şəhərinə gedir, təhsilinin birinci mərhələsini alır. 4 il ərzində onun əsas müəllimi "Zavabitül-üsul" kitabının müəllifi Seyid İbrahim Müsəvi

Qəzvini (təxminən 1846-cı ildə vəfat edib) olmuşdur. Bu müddət ərzində Fazil İrəvani müsəlman hüququnun incəliklərini və üsullarını mənimsəmişdir.

Sonradan F.İrəvani cəfəri təriqətinin elmi paytaxtı hesab edilən Nəcəf şəhərinə köçür. Vaxtilə burada o, böyük müctəhidlərin dərslərinə davam edir. Şeyx Həsən Kaşifül-Gita (1846-ci ildə vəfat edib), "Cəvahirül-kəlam" kitabının müəllifi Şeyx Məhəmmədhəsən İsfahani Nəcəfi (1850-ci ildə vəfat edib) və müctəhidlərin şeyxi Murtuza Ənsari (1799-1864) kimi elm nəhəngləri F.İrəvaninin biliklərini lazımi istiqamətə yönəltmişlər və onun qabiliyyətli müctəhid olmasına köməklik etmişdilər.

Tarixçilərin yazdığına görə, Fazil İrəvani təhsilinin son mərhələsində yalnız Şeyx Ənsarinin dərslərində iştirak edir. Uzunmüddətli təhsil və tədqiqatdan sonra o, öz müəllimləri Şeyx Murtuza Ənsari və Şeyx Məhəmmədhəsən İsfahani Nəcəfinin razılığı ilə özünü hərtərəfli müctəhid kimi formalaşdırıb göstərə bilmişdir. O, Nəcəf şəhərindəki elmi mərkəzdə dərs verməklə, müxtəlif elmi mövzularda mühazirələr oxumuşdur. Müsəlman hüququndan verdiyi dərslər məzmun və əhatəsinə görə çox yüksək qiymətləndirilmişdir.

Fazil İrəvani həm də Qafqazın ilk Şeyxülislamlarından biridir. İlk təhsilini molla məktəbində almış, 20 yaşında Qahirənin "Əl-Əzhər" universitetində ali dini təhsil almaq üçün göndərilmişdir. Təbrizin 1892-ci ildə vəfat etmiş şeyxülislamı Hacı Mirzə Mahmud onun yetişməsində xüsusi rol oynamışdır. Təhsilini başa vurduqdan sonra təxminən 25 il Qahirənin din xadimləri ilə çiyin-çiyinə çalışan bu görkəmli ilahiyyatçı İrana qayıtmış, Təbriz və İsfahan şəhərlərinin məscidlərində axundluq etmişdir. XIX əsrdə yaşamış, islam dini sahəsində məşhur xadim olmuşdur. Dərin ensiklopedik biliyə və bəlağətli nitq qabiliyyətinə malik olan Fazil İrəvani gənc nəslə islam dininin incəliklərini öyrətməklə yanaşı, yaradıcılıqla da ciddi məşğul olmuşdur. Onun qədim Şərq tarixinə, dini fəlsəfəyə, müsəlman dünyasının milli adət-ənənələrinə aid yazdığı qiymətli məqalələri təkcə İranda deyil, digər Yaxın Şərq ölkələrində də hörmət və ehtiramla qarşılanmış, müəllifinə böyük nüfuz qazandırmışdır. Doğma yurdunu özünə əbədi məbədgah sayan, daim öz əzizlərinin xiffətini çəkən Fazil bir neçə ildən sonra öz ana yurduna qayıdır və İrəvandakı Göy camenin baş axundu vəzifəsində fəaliyyətə başlayır [62]. Dini elmlərə, Şərq tarixinə və fəlsəfəsinə mükəmməl bələd olan Fazil İrəvani 1843-cü ildə müctəhid rütbəsi kimi yüksək elmi dərəcəyə layiq görülür və Qafqaz Müsəlmanları Şiə Ruhani İdarəsi sədrinin müavini vəzifəsinə irəli çəkilir. 1846-cı ildə isə Qafqaz Müsəlmanları Şiə Ruhani İdarəsinin sədri və şeyxülislamı seçilir. Qafqaz regionunda yeni dini məktəb və mədrəsələrin yaradılması, gənc nəslin bütün dinlərə hörmət və ehtiram tərbiyə edilməsi, milli mənsubiyyətindən və dini etiqadından asılı olmayaraq Qafqazda yaşayan bütün millətləri vahid bir ailənin üzvləri kimi yaşayıb-yaratmağa, dostluq və qardaşlığa dəvət etmək sahəsindəki uğurlu fəaliyyəti və xeyirxah əməllər carçısı kimi tanınması Rusiya və İran dövlətləri tərəfindən yüksək qiymətləndirilir. Onun həmin dövlətlər tərəfindən orden və medallarla təltif olunması da bu qiymətin bariz təzahürüdür.

Axund Fazil İrəvani bir sıra qiymətli ədəbi, tarixi və dini əsərlərin də müəllifidir. Həmin əsərlərin bəziləri müxtəlif dillərə tərcümə olunaraq İrəvanda, Təbrizdə, Sankt-Peterburqda, Berlində, Parisdə nəşr edilib. Görkəmli alimin "Kitabi-Təharət" ("Paklıq kitabı") əsəri 1883-cü ildə Təbrizdə çap olunub. Kitab Molla Əhməd

Kuzəkünanının tapşırığı ilə tacir Həsən Məhəmməd Mehdi Kuzəkünanı tərəfindən fars dilində çap edilmişdir. **[** Azərbaycan kitabı (bibloqrafiya). I cild 1780-1920-ci illər, Bakı,1963, səh.17. **]**

Tədqiqatçıların fikrincə, onun "Tarixi-İrəvan" adlı əsəri də əlyazma şəklində olmuşdur. Təəssüf ki, həmin əlyazma tapılmamış, erməni şovinistləri tərəfindən məhv edilmiş, ya da başqa ad altında Ermənistanın arxivlərində saxlanılır. Fazil İrəvani gənc yaşlarında "Qızılgül və bülbül" adlı bir povest də yazıb, əlyazması şəklində saxlanılıb. 1812-ci ildə Sankt-Peterburqda eyni adda iki kitab çap olunmuşdur. Erməni dilində kitabın adı "Qızılgül və bülbül haqqında əxlaqi roman", rus dilində nəşr olunan kitab isə "Qızılgül və bülbül haqqında alleqorik povest" adlanır. Müəllifi güya saray müşaviri, İrəvanlı Xocens Markar Geqamyandır. 1826-cı ildə "Qızılgül və bülbül" Parisdə Azərbaycan dilində çap olunub. Çox keçmədən Vayya de Floribal adlı bir şəxs kitabı fransız dilinə çevirib və 1832-1833-cü illərdə iki dəfə çap etdirib. Bir qədər sonra isə Jozef Fon Hammer əsəri alman dilinə çevirib. 1892-ci ildə "Qızılgül və bülbül" alman dilində çap olunaraq, İrəvani Xocens Markar Geqamyanın "orijinal əsəri" kimi erməni, rus, fransız, alman oxucularına təqdim edilmişdir. Fransız tədqiqatçısı Vayya de Floribal 1892-ci ildə məsələyə aydınlıq gətirərək bildirir ki, "Qızılgül və bülbül" türk müəllifi Fazil İrəvaninin əsəridir. Xocens Markar sadəcə olaraq onu erməni və rus dillərinə tərcümə edəndən sonra "öz əsəri" kimi çap etdirmiş, dünya oxucularını çaşdırmışdır. Kitabın əsl müəllifi bəlli olduqdan sonra belə, ermənilər "Qızılgül və bülbül"ü 1950-ci ildə yenə də erməni [106-203] müəllifinin əsəri kimi Freznada (ABŞ) çap etdirmişlər". Bunu görən Geqamyan plagiatlıq edərək əsəri öz adına çıxıb. Sonradan ermənilərin özləri tərəfindən etiraf edilib ki, "Qızılgül və bülbül" povesti X.M.Geqamyanın yox, Fazil İrəvaninindir. [136] Əsəri xaricdə yaşayan ermənilərin ləhcəsinə çevirib hissə-hissə "Anahit" jurnalında çap etdirən erməni Arşad Çobanyan da "Qızılgül və bülbül" povestinin Fazil İrəvaniyə məxsus olduğunu bildirib. Beləliklə, Markar Geqamyan ifşa olunub. Fazil İrəvaninin həmin "Qızılgül və bülbül" əsərinin orijinalı Matenadaranda – M.Maştos adına Qədim Əlyazmalar İnstitutunda saxlanılır. Irəvanda yerləşən bu institutun Şərq ədəbiyyatı şöbəsində 28 vərəqlik Azərbaycan dilində olan 222 nömrəli əlyazmanın da üzü Fazil İrəvani tərəfindən köçürülmüş, həmin məcmuədə Azərbaycan şairlərinin şeirləri və deyişmələri toplanıb. 1871-ci ildə Lənkəranda müəllim işləyən şair Mirzə İsmayıl Qasir (1805-1900) və məhkəmə katibi və Sadıq bəy Mehmandarov ağır ehtiyac içində yaşayan əhaliyə şəhərin Forştat hissəsində məskunlaşmış rusların və almanların əkdikləri kartofdan yemələrini məsləhət gördüklərinə görə ruhanilər onların hər ikisinin Lənkərandan qovulması barədə qərar çıxarırlar. Başqa əcnəbi millətlərin becərdiyi kartofu murdar adlandıran savadsız ruhanilər şair Qasiri və hüquqşünas Sadıq bəyi kafir adlandırır və kartofdan istifadəni camaata qadağan edirlər. Qasir və Sadıq bəy bu barədə məktubla Qafqaz şeyxülislamı Fazil İrəvaniyə müraciət edirlər. O, Lənkəran ruhanilərinin düzgün olmayan qərarını ləğv etməklə, hər iki açıqfikirli ziyalının məktubu ilə əlaqədər onların müdafiəsi mövqeyində dayanır.

Şeyxülislam 1872-ci ilin dekabrında tutduğu vəzifədən istefa verir və İrəvan şəhərinə köçür. İrəvanda olan məşhur "Şeyxülislam məhəlləsi" erməni-Azərbaycan münaqişəsi başlayanadək o böyük şəxsiyyətin – Fazil İrəvaninin adını daşıyırdı.

Axund Fazil İrəvaninin ən böyük xidmətlərindən biri də onun çoxlu tələbə yetişdirməsidir. O dövrdə Təbrizin şeyxülislamı, tanınmış alim Hacı Mirzə Məhəmməd (M.Tərbiyyət, "Danışməndani Azərbaycan". V -1987, səh.95), həmçinin bütün Qafqazda və İranda məşhur olan alim və tarixçi Mühəqqiq İrəvani də Fazil İrəvaninin yetirmələrindəndir.

İrəvani Fazil çətin hadisələrin ətraflı izah edilməsi sahəsində daha çox tanınırdı.

Fazil İrəvaninin dini nə dərəcədə tədris etməsinə misal onu göstərmək olar ki, Təbriz şəhərinin dörd yüz səksən il ərzində ardıcıl şeyxülislamı olan nəslin axırıncı şeyxülislamının təhsil alması ona ümid edilmişdir.

Fazil İrəvaninin həyatı, yaradıcılığı barədə hələ sağlığında yazan biblioqraflar onun əqlli, bilikli, elmləri bilən adamların istinad mənbəyi olduğunu qeyd etmişlər. Onun intellektual, rəvayətlər, hekayətlər və povestlər yazan, elmi biliklər üzrə peşəkar və məlumatlı, görkəmli alim olduğunu heç kim inkar etməmişdir. Onun müasirləri onun yüksək insani keyfiyyətlərini səciyyələndirərək deyirmişlər: "Nə qədər ki, Ayətullah Fazil İrəvani sağdır, mənə fitva vermək üçün yaxınlaşmayın, onun qarşısında öz fikrimizi demək bizə yaraşmaz" (Şeyx Məhəmmədhəsən Mamaqani, 1822-1905). F.İrəvani ömrü boyu islam maarifçiliyinin yayılmasına çalışmış, son qəpik-quruşunu təhsil alan tələbələrə xərcləməyi özünə böyük şərəf saymışdır [62].

Görkəmli ədib, alim və ictimai xadim Fazil İrəvani 1888-ci ilin noyabrında Nəcəf şəhərində vəfat etmiş və orada da dəfn olunmuşdur. Təəssüf doğuran odur ki, indiyədək Azərbaycan tarixindən və ədəbiyyatından bəhs edən kitablarda bu görkəmli şəxsiyyətin adına yalnız epizodik hal kimi rast gəlinir" [180].

Ədəbiyyat:

1. İrəvan xanlığı.AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu, BakıA, 2009,Azərbaycan, səh.,203.
2. Mahmudov Malik.VII-XI əsr ərəb dili, Azərbaycan alimləri, Bakı, Azərbaycan EA-nın nəşri, 1983, səh.,181-191.
3. E.A.Mehrəliyev, "İrəvanilər",, Çaşıoğlu, Bakı, 2000, səh., 3-10.
4. M.Tərbiyət. "Danışməndani Azərbaycan". Bakı, ADU-nun nəşri, V 1987, səh., 4,35, 77,95,110,189,345,230.
5. Ek- Shia.Open. Az.
6. İsrafil Məmmədov, İrəvan dəftəri,Bakı, "Adiloğlu" , 2008, səh., 21.
7. Gülməmməd Məmmədov, "Vedibasar" qəzeti, 1-15 avqust, 2008, N 16.
   Azəraycan kitabı(bibloqrafiya), I cild, 1780-1920-ci illər, Bakı, 1963, səh.,17.

Зияддин Магеррамов

Аятоллахуд-узма Молла Мухаммед Ибн Мухаммед Багир

Резюме

В статье представлены определенные сведения о жизни и деятельности одной из выдающихся личностей Азербайджана XIX века- **Аятоллахуд-узма Молла Мухаммед Ибн Мухаммед Багир**, известн под псевдонимом «Фазилъ Иревани», который имел особые заслуги в формировании и развитии XIX века «Иреваниской литературной среды».

Ziyaddin Maharramov

Ayatollakhul-uzma Molla Muhammed ibn Muhammed Bagir known as “Fazil Iravani”

Summary

Iravan was considered a Moslem city. It was the city of Moslem scientists. One of these scientists was Fazil Iravani. The article is devoted to some information about Fazil Irıvani’s biography and his works which were published from Armenian authors’ behalf. He is famous for his works such as “Tarixi İrəvan” (The History of Iravan), “Qızılgül və bülbül” (Rose and nightingale”. The article touches upon the works which were published from Armenian authors’ behalf.

Rəyçi: Professor Akif Bayramov

H.BAĞIROVA
Azərbaycan Müəllimlər İnstitutu
elay.salmanlı@gmail.com

ZAHİD XƏLİLİN UŞAQ ƏSƏRLƏRİNİN İDEYA-BƏDİİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: şair, şeir, mövzu, vətən, təbiət, uşaq, dil, ədəbiyyat, rlassik, müasir
Ключевые слова: поэт, стихотворение, родина, природа, ребенок, язык, литература,классический, современный
Keywords: poet, poem, homeland, nature, child, language, literature, classical, modern

Müasir Azərbaycan uşaq ədəbiyyatında özünəməxsus yeri olan tanınmış şair Zahid Xəlil gənc nəslə ünvanlanmış bir sıra dəyərli lirik , süjetli şeirlər, hekayələr, povestlər müəllifidir. Şifahi xalq ədəbiyyatına, klassik və müasir Azərbaycan ədəbiyyatına, eləcə də dünya uşaq ədəbiyyatına dərindən bələd olan Z.Xəlil öz yaradıcılığında folklor və klassik ədəbiyyat motivlərinə ardıcıl müraciət etmiş, uşaqların həvəslə mütaliə etdiyi dərin məzmunlu, yüksə sənətkarlıq nümunəsi olan şeirlər, poemalar, mənzum nağıllar, hekayə və povestlərlər yazmışdır.

Vaxtilə görkəmli sənətkarımız S.Vurğun uşaq ədəbiyyatına böyük tələblər mövqeyindən yanaşır, bu ədəbiyyatla bağlı məsələlərin heç də sadə və asan olmadığını dönə-dönə nəzərə çatdırırdı. Şairin aşağıdakı fikirləri onun uşaq psixologiyasına, uşaq dünyasına dərindən bələd olduğunu, oxucuya humanizm mövqeyindən yanaşdığını sübut edir: «Uşaq insandır! Onun sadə görünən oynaq, daim xoşbəxt və azad təbiətində böyük insanların bütün xassələri mövcuddur.

Düşünmək, duymaq, sevmək, küsüb-incimək, ağlamaq, gülmək, qəzəblənmək, xatırlamaq, xəyala dalmaq, ümid və arzulara bağlanmaq, yaxşılıq, hörmət, bütün insan xassələri uşaqlıq aləmində mövcuddur.

Demək istəyirəm ki, biz uşaqla danışdığımız zaman – insanla danşdığımızı, uşaq üçün yazdığımız zaman – insan üçün yazdığımızı unutmamalıyıq.»(s.36)

Z.Xəlilin şeir yaradıcılığı müasir mərhələdə bu tələblərə cavab verməsi, poetik ənənələri davam və inkişaf etdirməsi ilə seçilir. Onun yaradıcılığı mövzu, məzmun, janr, dil, üslub baxımından çoxşaxəli, rəngarəngdir.

Sənətkarın poeziyasında vətənə məhəbbət duyğularının tərənnümü, didaktik düşüncələrin bədii əksi başlıca yer tutur. Şairin şeirlərində uşaqlara əməksevərlik, təbiətə məhəbbət,elmə, biliyə həvəs oyadılması, onların idraki bacarıqlarının inkişafı da ön plana çəkilir.

Şairin əsərlərinin başlıca qəhrəmanı müasirimiz olan uşaqdır. Onun mənəvi aləmi, hiss və duyğuları, davranışı şairin əsərlərində poetik əksini tapır. Uşaqları elmə, biliyə, milli mənəvi dəyərlərə sadiqliyə səsləyən şeirlərində ədib gənc nəslin əxlaqi keyfiyyətlərə yiyələnməsi niyyətini ön plana çəkir.

Ədibin satirik şeirlərində əsas tənqid hədəfləri zahiri gözəlliyə aludə olanlar, nadanlıq və cəhalət, əqidəsizlik, öz nöqsanını görə bilməmək, kobudluq və s. mənəviyyata zidd olan hallardır. «Yalançı İmran» şeirinə diqqət edək:

Qabın ağzını açdı,
Mürəbbəni yedi o,
Amma gəlib yavaşca
Anasına dedi o,
Quyruğunu buladı,
Pişik gəlib yaladı,
Anası baxdı ona
İnanmadı sözünə
Mürəbbənin şirəsi
Bulaşmışdı üzünə.

Təbiət şairin uşaq əsərlərində müraciət etdiyi başlıca mövzulardandır. Z.Xəlilin təbiət şeirləri sadəcə təbiətin gözəlliklərinin təsviri deyil. Bu əsərlər kiçik yaşlı oxucularda təbiətə məhəbbət hissi ilə yanaşı, təbiətdə mövcud olan quşları, heyvanları, bitkiləri qorumaq, onların qayğısına qalmaq arzusu oyadır. Bu əsərləri oxuyan uşaqlarda təbiəti müşahidə etmək, öz müşahidələrinin nəticələrini ifadə etmək arzusu baş qaldırır. Təbiət şeirləri uşaqları mənəvi baxımdan zənginləşdirir, gözəllik duyğusunu inkişaf etdirir.

Məlumdur ki, bir çox gənc oxucular nəsr əsərlərində təbiət təsvirlərini oxumağı sevmir, mütaliə zamanı qarşılaşdıqları belə səhnələrin üstündən ötüb keçirlər. Oxucuların təbiət təsvrlərinə laqeydliyinin qarşısını almaq üçün peyzaj lirikası, təbiət mənzərələrinin təsvir edildiyi şeirlərin mütaliəsini təşkil etmək faydalıdır. Bu baxımdan Z.Xəlilin təbiət şeirləri nümunə ola bilər. Azərbaycanın zəngin təbiəti şairin bu mövzuda şeirlərində bütün əlvanlığı, rəngarəngliyi, çalarları ilə əks olunmuşdur.

Şairin yazın gəlişini təsvir edən aşağıdakı misraları bədii təsvirin orijinallığı, uşaq ruhuna, psixologiyasına uyğunluğu ilə diqqəti cəlb edir:

Bizim bağçamıza bir çəmən düşüb,
Sürüşüb, baharın çiynindən düşüb.
Gündüzlər o qədər quzu var orda,
Xırpaxırp otlayır quzular orda.
Səhər otlar üstdə şehdən inci var,
Şehlər quzuların gözütək parlar.
Düzü, başdan-başa tərifdir çəmən,
Quzu tükü kimi zərifdir çəmən.

Ədibin «Qaranquş», «Şanapipik», «Qartallar», «Durnalar», «Ağacdələn», «Sərçələrin nəğməsi» və s təbiət şeirlərində quşların həyat tərzi, əlamətləri, özlərinəməxsus xüsusiyyətləri, səciyyəvi hərəkətləri haqqında məlumat verilir. «Qaranquş» şeirində bu quşun özünəməxsus əlamətləri uşaq təfəkkürünə uyğun bədii dillə təqdim olunur:

Rəngi qara, döşü ağ,
Ay quyruğu haça quş.
Sən göylərdə uçanda,

Balaca təyyarəyə
Oxşayırsan, qaranquş!

Göründüyü kimi, şair uşaq poeziyası üçün ənənəvi olan bir mövzuya yeni münasibəti obrazlı bir dillə ifadə edə bilmişdir. Beləliklə, şair oxucunu quşlara qayğıkeş münasibət barədə düşünməyə sövq edir. Əsərdə quşları sevmək, onları qorumaq barədə gurultulu sözlər, ifadələr yoxdur. Lakin təsvir edilən hadisə ibrətamiz olduğu üçün balaca oxucunun hiss və duyğularına təsir edir, onu düşündürür, təbiətə münasibətdə öz mənəvi mövqeyini müəyyənləşdirməyə vadar edir.

."Nərə çəkdi dalğalar», «Tayalar», «Yay», "Şəffaf cığır", «Durnalar», «Dənizə axşam düşür», «Qar», «Sərçələrin nəğməsi» şeirləri də təbiət mövzusuna həsr olunmuşdur. Bu əsərlərdə təbiət təsvirləri bilavasitə uşaqla, onun hiss və duyğuları ilə əlaqədə verilir.

Məlumdur ki, Azərbaycan uşaq ədəbiyyatının qaynaqlarından biri də folklordur. «Azərbaycan folkloru elə zəngin mənəvi sərvətdir ki, burada epik dastanlarla, dərin fəlsəfi mündəricəli poeziya nümunələri, janrından asılı olmayaraq bu folkloru bir küll halında səciyyələndirən böyük bəşəri–ictimai problematika vüsəti, əsrlərin süzgəcindən keçib gəlmiş əsl xalq müdrikliyi ilə bərabər, yalnız uşaqlar üçün nəzərdə tutulmuş həm janr, həm də estetik çalarlar baxımından son dərəcə müxtəlif, rəngarəng nümunələr də çoxdur: bir tərəfdən sırf uşaq nağılları, biri tərəfdən tapmacalar, bir tərəfdən yanıltmaclar, o biri tərəfədən uşaq nəğmələri, bir tərəfədən saysız uşaq oyunlarının yüksək bədii səviyyəli poetik tekstləri, o biri tərəfdən dəcəl, şən, fərəhli uşaq şeirləri…»(1, s.43-44)

Z.Xəlilin uşaq əsərləri folklorla sıx bağlıdır. Belə ki, ədibin bir çox uşaq əsərlərində bilavasitə şifahi xalq ədəbiyyatına müraciət edilir, folklor mövzuları və janrlarından yaradıcılıqla istifadə olunur. Həmin əsərlərdə folklora xas olan xüsusiyyətlər – dilin aydınlığı, axıcılığı, şirinliyi, xeyirxahlıq, düzlük, mübarizlik, əməsevərlik, qəhrəmanlıq kimi mənəvi keyfiyyətlərin xalq deyim tərzində ifadəsi diqqəti cəlb edir. Bu da öz növbəsində uşağın təfəkkürünün, təxəyyülünün inkişafına gətirib çıxarır, uşaq ədəbiyyatının üslubi imkanlarını genişləndirir.

Z.Xəlilin yaradıcılığında da folklorun yanıltmac janrından yaradıcılıqla bəhrələnmək meyilləri diqqəti cəlb edir. Bu yanıltmacların öz orijinallığı ilə diqqəti uşaqların orfoepik qaydalara yiyələnməsi, nitq inkişafı baxımından böyük əhəmiyyəti vardır.

«Tutu», «Aşır», «At» şeir-yanıltmacları uşaqların dil qüsurlarının aradan qaldırılması, çətin tələffüz olunan ifadələrin səslənmə formasının öyrənilməsində çox əhəmiyyətlidir:

On iki yaşlı Tutu,
Çıxıb çırpırdı tutu.
Bir quş isə uzaqdan
Hey oxurdu: Tu-tu.
... Bağçaya tut əkildi,
Hər qayğısı çəkildi
Amma ki, bar vermədi,
Dedilər bu çəkildi.
(«Çəkil»)

Akademik Bəkir Nəbyev yazır: «Uşaq yazıçılarımız xalq nağıllarından mövzu götürüb işləməklə yanaşı, özləri də yeni nağıllar yazırlar; əsrlərin imtahanından çıxmış nağıl janrı uşaq qəlbinə, fikrinə təsir göstərmək, onu öz ardınca aparmaq üçün bacarıqlı yazıçının əlində çox gərəkli bir ədəbi vasitədir. Sahildə durub dənizə baxarkən üfüqlə suyun harada birləşib harada ayrıldığını müşahidə etmək mümkün olmadığı kimi, nağıllarda da bəzən zəngin həyat materialı ilə yaradıcı fantaziyanın bir – biri ilə necə qaynayıb - qarışdığını təyin etmək çətin olur.(9, s.135-136)

Tədqiqatçı yazır ki, nağıl işləyən yazıçıların əsərlərində cazibədar görünən hadisələr balacaları yalnız əyləndirmək məqsədi güdməyib, oxuduqlarının, gördüklərinin və eşitdiklərinin mahiyyətini dərindən anlamağa kömək edən vasitələr kimi düşünülmüşdür. Məhz azyaşlıların bilik səviyyəsinə və bədii zövqünə müvafiq ifadə vasitələri, obrazlar tapıb təsvir etmək yolu ilə həmin yazıçılar öz əsərlərində vacib tərbiyəvi nəticə, gərəkli ictimai məzmun verməyə nail olurlar. Belə olduğu üçün də müəlliflə oxucu arasında səmimi ünsiyyət yaranır, əsərin məqsədi haqqında nəsihətlərə, qeyri – bədii didaktik söhbətlərə ehtiyac qalmır.

Bu baxımdan Z.Xəlilin mənzum nağılları müasir uşaq ədəbiyyatımızda janrın ən dəyərli nümunələri kimi diqqəti cəlb edir. Ədibin yaradıcılığında mühüm yer tutan «Sərçələr», «Ovçu Paşabalanın macəraları», «Dəcəl çəpiş və qumral quzu», «Qara qulaq, ağ küçük», «Sıfırın nağılı» əsərlərində folklordan gələn motivlər diqqəti cəlb edir.

«Sərçələr» mənzum nağılında nağıllarımızn cövhərini təşkil edən xeyirlə şərin mübarizəsi mövzusu öz əksini tapıb. Yenicə dünyaya göz açmış, ətcəbala sərçə balaları qorxunc ilanı görərkən qorxuya düşüb əsim-əsim titrəyir, həyəcan keçirir, onları xilas edən kirpinin ilanla mübarizədə qalib gəlib onu öldürməsi uşaqlarda dərin təəssürat yaradır.

«Dəcəl çəpiş və qumral quzu» mənzum nağılı uşaqlar üçün ibrətamiz olan məsələlər - valideynin sözünə qulaq asmaq, davranış qaydalarına əməl etmək, dəcəllikdən əl çəkmək və s. öz əksini tapıb. «Sıfırın nağılı»nda digər rəqəmləri bəyənməyib tənhalığa qapılan lovğa sıfırın acınacaqlı taleyi uşaqları düşündürür, kollektivçilik hisləri aşılayır.

Z.Xəlilin istər folklorla sıx bağlılığı olan, istərsə də çağdaş həyat hadisələri təsvir olunan əsərləri üçün obrazlı dil, poetik fikir, bədii obrazlılıq, dil-üslub vasitələrinin zənginliyi səciyyəvidir. Şairin bir çox şeirləri başdan-başa güclü metafora, metonimiya, simvol və mübaliğələrlə bəzənmiş mükəmməl bir nümunə, bir söz hörgüsü, obrazlar sistemidir.

Ədibin yaradıcılığının ardıcıl tədqiqatçısı F.Əsgərli yazır ki, Z.Xəlilin uşaq poeziyasında üstün cəhəti ondan ibarətdir ki, onun öz siması vardır, bədii-estetik faktorlarla zəngin dilə malikdir, sənətdə poetik kəşflər etməyin dəyərini qiymətləndirə bilir. Ona bircə şey tam şəkildə aydındır ki, sirlərlə dolu olan bədii yaradıcılığın yolu çətin və mürəkkəbdir. Bu çətin və mürəkkəb yolu isə yalnız poetik fikir zənginliyi, üslubaydınlığı, bədii dilin saflığı, təbiiliyi, obrazlılığı və sərrast söz düzümü bacarığı ilə keçmək mümkündür. Ən nəhayət, bədii sənət əsərinin çoxyaşarlığı, uzunömürlüyü müxtəlif üslubi çalarlara malik olan söz və ifadələrin poetik gözəlliyindən asılıdır.

Z.Xəlilin uşaq şeirlərində dilimizin zəngin söz xəzinəsindən, bədii təsvir və ifadə vasitələrindən məqamında, orijinal istifadə yüksək dəyərləndirilməlidir.

Məlumdur ki, bədii sual lirik əsərlərdə məcazın geniş istifadə olunan növlərindəndir. İstər insanların gündəlik nitqində, bir-biri ilə söhbətlərində, istərsə də bədii əsərlərdə adi, qrammamtik sual verilərkən müəyyən məsələni öyrənmək, cavab almaq məqsədi izlənilir. Lakin bədii (ritorik) sual əsərdə cavab almaq məqsədilə deyil, bədii təsir gücünü artırmaq, fikri, ideyanı daha qabarıq nəzərə çatdırmaq məqsədlə işlədilir. Şairin dünyada ən müqəddəs varlıq olan anaya həsr etdiyi şeirdə bədii sualdan istifadə əsərin təsir gücünü qat-qat artırmışdır.

Eşqin ürəyimdən silinən deyil,
De, kim bağlamış məhəbbət sənə?
O, ağ saçlarına baxdım elə bil
Gümüş tac bəxş edib təbiət sənə…

Şair uşaq şeirlərində maraqlı və yaddaqalan bənzətmələrdən məharətlə istifadə etmişdir:

Dünyada əziz nə var
Məktəb yolları kimi.
Açılır qarşımızda
Ana qolları kimi.
Baxın bizim məktəbə
Dayanıbdır dağ kimi.
Bu dağdan axıb gedir
Cığırlar bulaq kimi.

Göründüyü kimi, şair bu poetik nümunədə məktəb yollarını ana qollarına, məktəbin özünü möphtşəm, vüqarlı dağa, məktəbdən evlərə gedən cığırları dağdan axan bulaqlara bənzətməklə əsərin oxucuya bədii təsir gücünü qat-qat artırmağa nail olmuşdur.

Məlumdur ki, müfəssəl təşbehdə sənətkar kimi, tək qoşmalarından istifadə edir. Mükəmməl təşbeh isə bənzətmə qoşmalardaından istifadə olunmadan yaradılır. «Çəmənin xalı" şeirində ədib mükəmmlə təşbehdən istifadə edərək göz önündə təbiətin əsrarəngiz bir lövhəsini canlandırmağa müvəffəq olmuşdur:.

Göy çəmənlər yamaca
Sərilmiş bir xalıdır.
Qızıl-qızıl lalələr
Yanağının xalıdır.

Ümumiyyətlə, Z.Xəlilin uşaq şeir yaradıcılığında özünü göstərən müxtəlif cəhətlər müəllifin geniş bədii-estetik diapazona malik bir qələm sahibi olduğundan xəbər verir. Onun şeir kitablarında həm folklor ənənələrinə, klassik sənətkarlarımızın yaradıcılıq yolunun davamına, həm də müasir Qərbi Avropa ədəbi ənənələrinin izlərinə rast gəlmək mümkündür. Şairin qələmindən çıxan hər bir poetik misra balaca oxucuları düşündürür, onların əqli və bədii-estetik zövqünün formalaşmasına xidmət edir. O, təsvir etdiyi hər bir varlığı yaradıcı xəyalının qüdrəti ilə bəzəyir, bədii təfəkkürünün gücü ilə onu qeyri-adi dərəcədə poetikləşdirə bilir.(2, s.14)

Gətirdiyimiz nümunələr uşaq ədəbiyyatımızın tanınmış nümayəndəsi Z.Xəlilin şeirlərinin ideya, mövzu aktuallığını, bədii gözəlliyini, idraki – tərbiyəvi əhəmiyyətini bir daha təsdiq edir. Bunlar onu göstərir ki, istedadlı şair, nasir Z.Xəlil Azərbaycan şifahi və klassik ədəbiyyatından, o cümlədən dünya uşaq ədəbiyyatından yaradıcılıqla bəhrələnərək, gənc nəslə ünvanlanmış əsərlərində ənənə ilə yeniliyin dialektik vəhdətinə nail olmuşdur.

Ədəbiyyat

1. Elçin.Azərbaycan uşaq ədəbiyyatı haqqında düşüncələr.//Ulduz, 1982 N 4. s.43- 47.
2. Əsgərli F. Sənətkarın uşaq dünyası. Bakı, ADPU-nun nəşriyyatı, 2003.
3. Xəlil Z.. Seçilmiş əsərləri. 6 cilddə. I cild. Bakı: ADPU nəşriyyatı, 2008. 388s.
4. Xəlil Z.. Seçilmiş əsərləri. 6 cilddə. II cild. Bakı: ADPU nəşriyyatı, 2008. 408s.
5. Xəlil Z.. Seçilmiş əsərləri. 6 cilddə. III cild. Bakı: ADPU nəşriyyatı, 2008. 408s.
6. Xəlil Z.. Seçilmiş əsərləri. 6 cilddə. IV cild. Bakı: ADPU nəşriyyatı, 2008. 408s.
7. Həsənli B. Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Müəllim, 2012
8. Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı (dərslik). Bakı:Maarif, 1984.
9. Nəbiyev B. Tənqid və ədəbi proses. Bakı, 1976, s.135-136ə
10. Vurğun S. Böyük sənət uğrunda.Bkı, 1970.

Х.Багирова

Идейно-тематические особенности детских произведений Захид Халила

Резюме

В статье анализируется детские произведения известного современного детского писателя Захид Халила. Отмечается тематические и жанровые особенности, художественное своеобразие, произведений автора. АннаЛизируется идейно –художественные особенности некоторых стихов, стихотворных сказок, посвященных родине, природе, нравственным ценностям.

X.Bagirova

Ideological and thematic features of children's books Zahid Khalil

Summary

The article analyzes the works of well-known contemporary children's children's writer Zahid Khalil. Celebrated thematic and genre features, artistic originality, the author's works. Analyzes the ideological and artistic features of some poems, poetic tales devoted to home, nature, moral values.

Rəyçi: Bilal Həsənli
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

HÜSEYİN KARAHAN
Bakı Slavyan Üniversiteti
huseyinkarahan25@hotmail.com

HÜSEYN CAVİD YARADICILIĞINDA MAARİFÇİLİK İDEYALARI

Açar sözlər: Hüseyn Cavid, romantizm, maarifçilik, təhsil, tərbiyə, məktəb
Key words: Huseyn Javid, romance, enlightenment, education, training, school
Ключевые слова: Гусейн Джавид, романтизм, просвещение,образование, школа

Azərbaycan xalqının iqtisadi və mədəni inkişaf tarixində müasirləşməyə, maariflənməyə doğru XIX əsrdən başlanan meyl bütün XX əsri əhatə etmiş, indi də davam etməkdədir. Maarifçiliyi milli oyanış, tarixi köklərə qayıdış kimi də qəbul etmək mümkündür. Azərbaycanda meydana gələn yeni kapitalist münasibətləri ənənəvi köhnəlmiş həyat tərzi, sosial-mədəni adət-ənənələr sistemi, ehkamçı təfəkkürü, bədii yaradıcılıqdakı hökm sürən prinsipləri dəyişdirdi. Yeni dövr mədəniyyətin bütün sahələrini, o cümlədən, ədəbiyyatı və incəsənəti, bədii fikri həyata yaxınlaşdırır və tələb edirdi ki, cəmiyyətdə hökm sürən gerilik və nöqsanlara qarşı mübarizəni gücləndirsin, millətin maariflənməsində vaxtında iştirak etsin.

Milli oyanış Azərbaycanın ədəbi-mədəni həyatında yeni yaradıcı nəslin meydana gəlməsinə səbəb oldu. Bu dövrdə Avropa və Rusiya örnəyi əsasında realist və romantik ədəbiyyatın Cəlil Məmmədquluzadə (1866-1932), Mirzə Ələkbər Sabir (1862-1911), Hüseyn Cavid (1884-1944), Məhəmməd Hadi (1880-1920), Abbas Səhhət (1874-1918), Abdulla Şaiq (1881-1959), Nəriman Nərimanov (1870-1925), Əbdürrəhim bəy Haqverdiyev (1870-1933) kimi görkəmli nümayəndələri öz yaradıcılıqları ilə Azərbaycan ədəbiyyatını dünya ədəbi-mədəni fikrinin ən yaxşı nümunələri səviyyəsinə qaldırırdılar.

Mövcud maarifçi ictimai-ədəbi mühitin tanınmış simalarından biri və öz ideya dostlarının işlərini uğurla davam etdirə və XX əsrin əvvəllərində onu həm sənətin, həm də qarşıya qoyulan məqsədin ən yüksək zirvələrinə qaldıran sənətkarlardan biri Hüseyn Cavid olmuşdur. Hüseyn Cavid Azərbaycanın tarixi bölgələrindən olan Naxçıvan ədəbi mühitində böyümüş, Təbrizdə gözəl dini təhsil almış, o dövr üçün Şərqin Avropası sayılan Türkiyədə maarifin sirlərinə yiyələnmişdir. İstanbul Universitetinin ədəbiyyat şöbəsində təhsilini başa vurduqdan sonra 1909-cu ildən Naxçıvanda, Tiflisdə və Bakıda yaşamış, müəllimlik etmiş və ədəbi fəaliyyət göstərmişdir. Naxçıvan-Təbriz-İstambul-Tiflis-Bakı şəhərlərinin ədəbi-mədəni mühiti H.Cavidin dünyagörüşünü, mənəvi aləmini, həyata və sənətə baxışlarını formalaşdırmışdır. Onun sənəti Azərbaycan ədəbiyyatının milli köklərindən qaynaqlanmışdır. Şairin yaradıcılığı öz bədiiliyi və həssaslığı ilə fərqlənmişdir.

Cavid həyatının mənasını yaşayıb yaratmaqda, insanların dünyanın bütün nemətlərindən bolluca istifadə etməsində, bütün zövqlərin və və gözəlliklərin insana tabe olmasında, bütün xalqların və millətlərin təntənəsinə nail olmaqda görürdü. (8, 18)

Cavid yaradıcılığı Azərbaycan romantizmi tarixində özünəməxsus yer tutur. İnsan ruhunun, onun gerçək aləmə münasibətinin öyrənilməsində Cavid romantizminin çox böyük rola malikdir.

Turana qılıncdan daha kəskin ulu qüvvət,
Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət!

-deyən Hüseyn Cavid öz yaradıcılığında maarifçilik ideyalarına yüksək qiymət verirdi. Mütərəqqi romantizmin nümayəndələrindən biri olan Cavid gələcəyə böyük ümid bəsləyir, əsərlərində qabaqcıl fikirlər irəli sürürdü. "O, kamil bir sənətkar kimi dini fanatizmə, milli məhdudluğa qarşı etiraz səsini ucaltmaqla yanaşı humanist ideyalı bir şair kimi nəzəri cəlb edirdi". (7, 49)

Hüseyn Cavid istedadlı söz ustası olmaqla yanaşı, həm də bacarıqlı və qayğıkeş müəllim, maarifpərvər bir insan idi. O, ziyalı ailəsində dünyaya gəlmiş və tərbiyə almışdı. Atası Molla Abdulla bir rövzəxan, bir molla olsa da, elmə, təhsilə yüksək qiymət verən insan idi. Şairin kiçik qardaşı Əlirza müəllim idi. Digər qardaşı-Şeyx Məhəmməd Rasizadə ruhani təhsili almışdı ki, o da az sonra ruhaniliyi tərk edib, ömrünün 35 ilini müəllimlik etmişdir. Məhəmməd Rasizadənin Cavidin mənəvi inkişafında təsiri çox böyük olmuşdur.

O, mükəmməl təhsil almış insanlardan biri idi. Cavid ibtidai təhsilini Naxçıvanda, Məhəmməd Tağı Sidqinin məktəbində almışdı. Məhəmməd Tağı Sidqi XIX əsrin 80-90-cı illərində Azərbaycanın hər iki hissəsində tanınmış görkəmli maarifçi ziyalılardan biri idi. Məhəmməd Tağının "Məktəbi tərbiyə"sində təhsilini 1898-ci ildə müvəffəqiyyətlə bitirir. Elə həmin ildə həm mübtəla olduğu göz ağrısını müalicə etdirmək, həm də təhsilini davam etdirmək məqsədilə Təbrizə qardaşı Məhəmməd Rasizadənin yanına gedir. Cavid Cənubi Azərbaycanda 1898-ci ildən 1903-cü ilin may ayına qədər qalmışdır. 1903-cü ilin iyul ayında o, ali təhsil almaq məqsədilə İstambula gedir.

1905-ci ilin may ayında Cavid ikinci dəfə İstambula gedir və darülfununa daxil olmaq üçün hazırlaşır. "Burada 5-6 ay orta məktəb proramı ilə hazırlaşdıqdan sonra arzusuna nail olur. Türkiyədən yazdığı məktublarından görünür ki, Cavid ali məktəbə hazırlaşdığı zaman birneçə ay müddətində həftədə bir-iki saat Türkiyə şairi və filosofu Rza Tövfiqin də yanında oxumuşdur." (4, 27)

Cavidin oxuduğu İstanbul Universitetinin ədəbiyyat şöbəsi üçillik idi. Şair təhsil məsələsinə çox ciddi, şüurlu münasibət bəsləyirdi. Şairin Türkiyədən qardaşına, dostlarına yazdığı məktublarında dini fanatizmlə elm və maarifin zidd, düşmən olduğu bildirilirdi. Şair insanın, millətin inkişafı üçün maariflənməyi, mədəniləşməyi yeganə yol hesab edirdi. "Cavid vətəni Azərbaycanın parlaq gələcəyi üçün görüləcək işlərdən bəhs edərək yazırdı ki, "Bizə yalnız məktəb lazımdır. Bütün inqilabati-mədəniyyə həp məktəb məhsuludur." (4, 30) Onun fikrinə görə əsarətə və mədəni geriliyə səbəb ancaq şəriət, mövhumat və mollalar idi. Buna görə də o, məscidin dövlətdən ayrılması ideyasını müdafiə edir, ziyalıların başlıca vəzifəsini məktəblərdə dünyəvi elmlərdə əsaslandırmaqda görürdü.

1909-cu ildə geriyə qayıdan şair bir müddət sonra Naxçıvanda, Tiflisdə və Bakıda məktəbdarlıq etmiş, müəllimliklə məşğul olmuşdur. O, Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra da müəllimlik fəaliyyətini davam etdirmiş, Bakı teatr texnikumunda və Bakı darülmüəllimində (müəllimlər İnstitutunda) dil-ədəbiyyat müəllimi təyin olunur, maarif işlərində, məktəblər üçün yeni dərslik və proqramların tərtibində yaxından iştirak edir. 1920-1925-ci illərdə Cavid

Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universitetində) müəllimlik edir. Beləliklə, Cavidə görə əvvəlcə məktəb, maarif, sonra da inqilab gəlirdi. "Hüseyn Cavid haqlı olaraq, belə bir doğru qənaətə gəlmişdi ki, təlim-tərbiyədə müəllimin rolu böyük, bəzən də həlledici amildir. O, deyirdi: "Bir millətin tərəqqi tədənnəsini (yəni, inkişafını) bilmək üçün həmin millətin məktəblərini görmək kifayətdir" ". (6, 5) Hüseyn Cavid Azərbaycan ədəbiyyatının ilk romantiklərindən olmuş, sonralar isə Azərbaycan sovet uşaq ədəbiyyatının yaradıcılarından biri sayılmış Abdulla Şaiqlə birlikdə "Ədəbiyyat dərsləri", "Qəvaidi-ədəbiyyat" və s. dərsliklər hazırlamışdır. Bu dərsliklər uşaqların tərbiyəsinə, təlim məsələlərinə həsr olunmuşdur. Onu uşaq şeirləri dəfələrlə Abdulla Şaiqin hazırladığı milli uşaq dərsliklərində, o cümlədən "Türk çələngi", "Qiraət kitabı", "Türk ədəbiyyatı" kimi milli dərslik kitablarında nəşr edilmişdir.

Hüseyn Cavid yazdığı əsərlərdə sıxıntıya, səmərəsizliyə, tənbəlliyə qarşı çıxmışdır. O, öz əsərləri ilə gənc nəsildə ideyalılıq, həyatilik, doğruçuluq, yüksək bədiilik, zəngin bədii təxəyyül və sair kimi əxlaqi keyfiyyətlər tərbiyə etməyə çalışmışdır. "Uşaqları yormadan, onları darıxdırmadan ədəbiyyat vasitəsilə onlara bilik vermək və tərbiyə etmək Cavidin arzusu olmuşdur. Şair uşaqları uydurulmuş sayıqlamalarla aldatmağın əleyhdarı, həyat həqiqətlərinin uşağa şərh edilməsinin tərəfdarı idi." (1, 1)

Hüseyn Cavidin "İlk bahar", "Qız məktəbində", "Çiçək sərgisi", "Şərq qadını", "Xatirə" kimi şeirlərində məktəb, müəllim, tərbiyə kimi məsələləri ön plana çəkmişdir. Məsələn, "Qız məktəbində" adlı şeirdə müəllim və şagird münasibətləri, təmizlik, nəciblik, dostluq kimi xeyirxah hisslər ön sıraya çəkilmişdir. Şagirdlə dialoq şəklində aparılan söhbət zamanı məktəbli qız müəllimini valideynləri səviyyəsinə qaldırmışdır.

– Pək doğru söz... Bu dünyada sənin ən çoq sevdiyin
Kimdir, quzum, söylərmisin?
– Ən çoq sevdiyim ilkin
O Allah ki, yeri-göyü, insanları xəlq eylər.
– Sonra kimlər?
– Sonra onun göndərdiyi elçilər.
– Başqa sevdiklərin nasıl, yoqmu?
– Var...
– Kimdir onlar?
Anam, babam, müəlliməm, bir də bütün insanlar... (2, 49)

Şair-müəllim küçədə səfil həyat keçirən, dövranın, zamanın həyata atdığı uşaqların öz ailələrində yaşamalarını, dövlət və valideynləri tərəfindən himayə edilmələrini arzu edirdi. "Küçük sərsəri" adlı şeirində küçədə sərsəri kiki ömür sürən kiçik bir uşaqdan söhbət açır.

Uyuyor... caməxabı toz, topraq;
Nə bir ümmidi var, nə kimsəsi var.
O bir öksüz, o bir soluq yapraq;
Nə də məhzun göküs keçirməsi var!? (2, 45)

Bu balacanın heç kimə ümidi yoxdur. Şair cəmiyyətin etinasızlığına qəzəblənir və ətrafdakı insanlardan köməklik gözləyir.

Haqqa varmaq, pərəstiş etmək için
Yücəlir bir tərəfdə məbədlər.
Daş, çamur, haq rizası namümkün...
Aldanır, aldanır zavallı bəşər. (2, 45)

Hüseyn Cavid qadına hörmətlə yanaşır, onun hər zaman yüksək mənəvi qiymətini verir və ananı ən böyük müəllim hesab edirdi. Bu baxımdan "Qadın" şeiri çox maraq doğurur.

Bütün evladi-vətən iştə bu gün
Yalınız səndən umar sədrə şəfa,
Yalınız səndə bulur ruha qida.
Ana evladını bəslər, böyütür,
Anasız millət, əvət, öksüzdür.
Sənin aləmdə vəzifən, hissən
Nə böyük, həm nə ağırdır, bilsən!? (2, 43)

"Mütəfəkkir şair həyatın bütün sahələrində məktəbin, maarifin rolunu dəyərləndirir və onu müxtəlif yerlərdə bir neçə cür açıqlayır: "Hər iş sahibi öz işini layiqlə bacara bilmək üçün bəhərhal qüsurlarını anlayıb, sənətində mahir olmalıdır, o məharəti bizə öyrədən şey isə elmdir, məktəbdir" ". (6, 5)

Cavid gənc oxucuları üçün yazdığı şeirlərinin bir qismində onların ətraf aləm haqqında tanışlığına, bilik və təsəvvürlərinin genişləndirilməsinə çalışırsa, digər bir qismində isə özünün pedaqoji baxışlarını, tərbiyə haqqında fikirlərini ön plana çəkir.

1912-1918-ci illərdə H.Cavid dalbadal ilk böyük faciələrini yazır. Mövzusu mülkədar həyatı, ailə və məişət münasibətlərindən alınan "Maral" (1912) əsərinin mərkəzində Azərbaycan qadınlığının faciəsi durur. Təsadüfi deyildir ki, ilk variantında əsərin adı "Zavallı qadın" idi. Dinə xələl gətirən mövhumatçı əxlaq normaları və bunlardan doğan qadağalara qarşı çıxan Cavid bu köhnə adət-ənənələrin, dini fanatizmin zavallı bir Şərq qadının taleyində oynadığı rolu bütün dəhşətləri ilə olduğu kimi göstərə bilmişdir.

"Şeyx Sənan" (1914) Hüseyn Cavidin ən qüvvətli faciələrindən biridir. Burada dramaturq gərgin dramatik münaqişə, parlaq xarakterlər yaratmış, nəcib bir məhəbbət və insanlıq fəlsəfəsi ifadə etmişdir. Şeyx Sənan səhnədən-səhnəyə yüksəlir, mənəvi böhranlardan, fırtınalardan kecir. Şeyx və mütəfəkkir, aşiq və insan-faciədə onun dindarlıqdan insanlığa doğru yolda kecdiyi əsas mərhələlərdir. O, dini təbliğ edən ruhani, qadınlara nifrət edən bir fanatik kimi əsərə daxil olur və tamamilə təbii bir inkişafdan sonra fədakar bir aşiq, inkarcı bir mütəfəkkir kimi son səhnəni tərk edir. Şeyx Sənan XX əsr Azərbaycan ədəbiyyatının ən böyük maarifçi obrazlarından biridir.

"İblis" faciəsi şər ensiklopediyası olmaqla başdan-ayağa "xəyanət" nəfsinin doğurduğu düşüncə və hərəkatlar silsiləsinə əsaslanır. Hüseyn Cavidin hələ 1917-ci ildə tamamladığı "Şeyda" isə dramaturgiyamızda tamamilə yeni bir hadisə kimi səsləndi. "Şeyda" öz məzmunu ilə "Şeyx Sənan" və "İblis" mövzusundan tamamilə fərqlənirdi. . Əsər, istismar dünyasına qarşı üsyan qaldİran, odlu-alovlu çıxışlar edən, lakin mübarizə yolunu tapmadığı üçün məğlub olan ziyalı gəncliyin faciəsi idi.

"Şeyda"dan sonra H.Cavid "Uçurum" faciəsini bitirir. Burada da Qərb dünyasında mövcud ictimai-siyasi münasibətləri birlikdə yayılan yeni əxlaqi münasibətlər və onların ölümə məhkum etdiyi sənətkar bir gəncin müsibəti təsvir edilir. "Afət" (1922) faciəsində burjua-zadəgan mühiti, kübar adətləri və əxlaq normaları tənqid olunur. 1920-1926-cı illərdə H.Cavid öz ənənəvi humanizm, xeyir-xahlıq və maarifçilik ideyalarını qanlı bir fatehin, ya da islam peyğəmbərinin dili ilə təqdim edən "Peyğəmbər" və "Səyavuş" dramlarını yazır. Ümumiyyətlə, Hüseyn Cavid "Azər", "Knyaz", "Səyavuş" və digər əsərlərində də Şərqlə Qərbi yazınlaşdırır, cəmiyyətdə baş verən hadisələrə yeni müstəvidən, bir maarifçi, bir humanist kimi tamamilə başqa nəzərdən baxmışdır.

Cavid sənəti bədii forma, janr sahəsində çox zəngin, əlvan olmuşdur. O, yüksək sənətkarlıqla yazdığı lirik şeirlərlə, poemalarla yanaşı, bir sıra publisistik məqalələrin də müəllifi olmuşdur.

Hüseyn Cavid "Urmiyyədən məktub", "Həsbi-hal", "Naxçıvanda nə gördüm", "Tiflisdə", "Müharibə və ədəbiyyat" və digər məqalələrində də bir maarifçi kimi çıxış edir. Burada o, maarifçiliyin müxtəlif sahələrinə toxunmuşdur. O, pedaqogikanın məqsəd və vəzifələrini, tərifini vermişdir. Məsələn,"Urmiyədən" adlı məqaləsində elmin insanı zülmətdən, cəhalətdən qurtardığını, onu bar verən ağaclar kimi kamala yetirəcəyini yazır.

O kəs kim elmdən məhrum, cəhlilə "fanatik"dir,
Demə insan o nadanə ki, bir heyvani-natiqdir. (3, 184)

"Naxçıvana nə lazım" məqaləsi də maraq doğurur. O, məktəbdə yazıb-oxumağı öyrənən uşaqların gələckdə də valideyinlərinə yardım edə biləcəklərini söyləyir və həm qız, həm də oğlan uşaqlarının təhsil almasını istəyir: " Ən əvvəl məktəbdən məqsəd yazıb-oqumaqdır ki, ibtidai məktəblər bunun içindir və hər millətin bütün əfradına vacib bir vəzifədir. Nasıl ki, Avropa hökumətləri bunu məcburi bir qanun şəklinə qoymuşlardır. Üç-dörd il zərfində istər qız olsun, istər oğlan olsun ibtidai təhsil görməlidir. Lakin bu məktəblərə gələn çocuqlar əksəriyyətlə fəqir, kasıb çocuqları olur ki, məktəbi ikmal edər-etməz iş arqasınca qoşacaq, özünə bir kəsbu kar arayacaq, atasına yardım edəcək." (3, 192)

Cavid Avropada, Yaponiyada, Türkiyədə fəaliyyət göstərən məktəblərdən və onların sayının çox olmasından bəhs edir və göstərirdi ki, bu ölkələrdə həm siyasətdə və dövlət işlərində, həm də daxili inkişafda məktəblərin rolu böyük idi. O, "Həsbi-hal" adlı məqaləsində yazırdı:"Demək ki, bir millətin hər halını tədqiq etmək için ən doğru meyar, ən kəsdirmə yol o millətin məktəbləridir. Dünyada hər iş, hər hərəkət bir qanuna, bir rəhbərə möhtacdır ki, o rəhbər də olsa-olsa yenə məktəblər ol bilir... Elmi-ziraətdən başı çıqmayan bir mülkədar, yaxud əkinçi buğda əkərsə çavdar biçər, həndəsə bilməyən bir me'mar qübbə ilə uğraşırkən divarları çatlamış bulur. Təlim və tərbiyədən anlamayan bir müəllim tənviri-əfkar edəcək yerdə fəsadi-əxlaqa bais olur. Fəzilət yerinə rəzalət öyrədir, elm yerinə cəhalət törətmiş olur." (3, 195)

Maarifpərvər şair belə hesab edirdi ki, məktəb həm şəriətə, həm məişətə əlverişli bir yerdir. Dünya və axirət də orada cəmləşmişdir. Hüseyn Cavid öz xalqının gələcəyini həmişə inkişafda görmək istəmiş və dövrünün bir sıra qabaqcıl ziyalıları kimi onun maariflənməsinə xüsusi diqqət vermişdir.

Bütün yaradıcılığı boyu xeyirlə şəri qarşılaşdİran və ümumbəşəri xeyirin qələbəsinə öz sənətkar töhfəsini verən Hüseyn Cavidi Azərbaycan ədəbiyyatının Şekspiri hesab etmək mümkündür. O, öz yaradıcılığı və ziya nuruna bürünmüş maarifçi ideyaları ilə Azərbaycan ədəbiyyatının Peyğəmbəri səviyyəsinə yüksələ bilmişdir.

Ədəbiyyat

1. Camalov,K. Hüseyn Cavidin uşaq şeirlərində təlim və tərbiyə məsələləri // Şərq qapısı.-2013.-11 aprel.-s.1.
2. Cavid,H. Əsərləri. C.I.-Bakı, 2005.-263 s.
3. Cavid,H. Əsərləri. C.V.-Bakı, 2005.-256 s.
4. Cəfər,M. Hüseyn Cavid.-Bakı,1960.-262 s.
5. Sadıqov,Ş. Hüseyn Cavid yaradıcılığında qəhrəman konsepsiyası.-Bakı, 2011-369 s.
6. Xəlilova,E. Hüseyn Cavid yaradıcılığında maarifçilik məsələləri // Azərbaycan müəllimi.-2003.-14-20 fevral.-s.5.
7. Xəndan,R.Z. Cavid sənəti.-Bakı, 1981.-234s.
8. Nəbioğlu,R. Hüseyn Cavidin estetik idealı.-B.: Nurlan, 2009.-158 s.

Karahan Hüseyin

Huseyn Javid's creative educational ideas

Summary

I always wanted to see in the future development of their people Javid and a number of leading intellectuals of the period gave special attention to his enlightenment. I started the drama in the works of his poems, journalistic writings can be seen. The only religious figure of the poet's heroes, military leader, not as a prophet and a teacher, a mentor made.

Карахан Хусейн

Творческие образовательные идеи Гусейна Джавида

Резюме

Своими произведениями, в которых нашли отражение мотивы философской лирики, вопросы гуманизма и человеколюбия, исторические драмы, Гусейн Джавид открыл новую страницу в литературе и драматургии Азербайджана. Г. Джавиду, как романтику, близки и понятны мотивы разочарования, мировой скорби, космического неблагополучия, которые были выражены в европейской романтической поэзии, возникшей с самого начала XIX века.

Reyçi: Professor Asif Hacıyev

GÜLLÜ SEYİDLİ
ADPU
nigar.turk@yandex.ru

HÜRUFİLİK VƏ NƏSİMİ POEZİYASI

Açar sözlər: Nəsimi, hürufizm, poeziya, ideya, təriqət
Ключевые слова: Насими, хуруфизм, поэзия, идея, секта
Key words: Nasimi, hurufism, poetry, idea, sect

Tarixə çevrilmiş insan odur ki, nəinki illər, hətta əsrlər belə ona qalib gələ bilmir. Belə şəxsiyyətlər heç vaxt unudulmur. İmadəddin Nəsimi kimi dühalarımız açdıqları yolla bir çoxlarına örnək olmuş və bu gün də bu yol öz nüfuzunu qoruyub saxlamaqdadır.

İmadəddin Nəsimi Nizamidən sonra, Füzuliyə qədər olan poeziyamızda ikinci bir günəşdir. O dövrdə doğma ana dilində bu cür aydın, səmimi, dərin və bədii yazan hansı sənətkarı göstərmək olar?! Həqiqətən də, həm sənətkar, həm də qeyri-adi şəxsiyyəti ona dünya şöhrəti qazandırdı.

İ. Nəsimi hürufu nümayəndəsi olub. Bu baxımdan biz hürufizmin tarixindən və onu Azərbaycanda yayan və poeziyasında bu və ya digər şəkildə təbliğ edən Nəsimi haqqında danışmaya bilmərik. İlk olaraq, Nəsimi və hürufizmin maraqlı tərəflərini, eyni zamanda dövrün tələblərinə uyğun formalaşan bu təriqətin mahiyyətinin açılmasında mənbə olaraq H.Orucəlinin "Ədəbi qeydlər" monoqrafiyasındakı "Nəsimi haqqında" adlı bölməyə əsaslanacağıq.

Hürufilərin məqsədi nədən ibarət idi? Bu suala H.Araslı əsərində bu cür cavab verir: "Hürufilər, hər şeydən əvvəl, rühanilərin nüfuzunu qırmaq, islam dinini hürufi ideyalarına uyğun izah etmək uğrunda mübarizə aparırdılar"(1,15). Eyni zamanda biz hürufiliyin Teymur istilaçılığına qarşı qoyulması ilə də razılaşa bilərik. Bu baxımdan da hürufizmin mahiyyəti daha geniş əhəmiyyətli bir təşkilata çevrilmiş olur. Burdan belə bir nəticə hasil olur ki, hürufilər islam dini əleyhinə başqa din nöqteyi-nəzərindən mübarizə aparırdılar. Başqa din dedikdə biz, onların özlərinin yaratmış olduqları tərqiəti nəzərdə tuturuq. Lakin hürufiliyin əsas xidməti olaraq, onların teymuriləri saxlayan islam dininə, ruhanilərə qarşı qoymaqla biz onların məqsədini məhdudlaşdırmış olarıq, çünki bu onların mübarizəsində ikinci planda duran məsələ olmuşdur. Biz təbrizli Fəzlullahın başçılığı ilə meydana çıxmış və Nəsimi yaradıcılığı vasitəsilə tanıdığımız hürufiliyin əsas xidmətini,- Azərbaycan xalqının ağır istila və talanlar dövründə, xalq azadlığı ideyasının amansızca boğulduğu bir dövrdə gizli çalışmağa məcbur edilmiş siyasi firqə olmasında görürük.

"Bu təşkilatın özünün siyasi-ideya proqramı, təşkilat prinsipləri olmuş və onun uğrunda yorulmadan mübarizə aparmışdır... Biz həmin proqramın maddələrini və o təşkilatın bütün prinsiplərini hələlik bilavasitə tarixi sənədlərlə təyin edə bilmirik, çünki o sənədlər indiyəcən meydana çıxarılmamışdır"(1,16). Bunun səbəbi isə oldquca aydındır. Belə ki, hürufilər məlum məsələlərdən ağır bir terror şəraitində fəaliyyət göstərirdilər, bu baxımdan öz proqramlarını açıq şəkildə nəşr etdirə bilmirdilər. Fəzlullah müridlərini diyarın müxtəlif yerlərinə göndərməklə, öz ideyalarını şifahi şəkildə yaydırırdı. Hürufilik, bir firqə təşkilatı kimi, xalqın qabaqcıl, qüvvətli

xarakterə malik olan adamlarını ətrafına toplamaq məqsədini qarşısına qoymuşdu. Onu da qeyd edək ki, hürufilər hər kəsi öz aralarına qəbul etmirdilər. Ancaq adamları mükəmməl yoxladıqdan sonra ürək sirrlərini, yəni əvvəldə qeyd etdiyimiz kimi proqramlarını müəyyən şəxslərə açmış və öz aralarına qəbul etmişlər. Mənbə olaraq, Fəzlullahın "Cavidannaməsi", Nəsiminin şeirlərinə və başqa bu kimi yazılı mənbələrə baxılarsa, onlarda öz əsrinin vətəndaşları üçün aydın olan bəzi şərti, üstü örtülü sözlərə, həqiqət barəsində işarə və eyhamlara rast gəlirik.

İnsan- hürufiliyin mərkəzi məsələsidir. "Hürufilər hərflərin insan simasında təcəssüm etdiyini söyləyir və nəticə etibarilə insanı həyat və kainatın mərkəzində hesab edirdilər"(1,17). İnsanı bu dərəcədə yüksəklərə qaldırmaları o zamanlar hiddətə səbəb olmuş və "Allahdan başqa Allah yoxdur" prinsipinə zidd gedənləri "şeytan" adlandırırdılar. Bu baxımdan da hürufilərə qarşı münasibət birmənalı olmamış, xüsusilə də rühanilərin nifrətini qazanmışlar. Buna səbəb isə hürufilərin, din pərdəsi altında xalqa zülm verən rühaniləri qəbul etməməsində idi.

Nəsiminin təmsil etdiyi hürufiliyin proqramındakı birinci və baş maddə humanizm olmuşdur. Ümumiyyətlə, hürufilər insanı yüksəltsələr də, fərdlərin hamısını bir-biri ilə eyniləşdirmirdilər. Onlar fərdləri kamil və nakamil, fəqir və qəni, tam və naqis deyə iki qismə bölürlər; mühüm vəzifə də,- naqislərin kamilləşməsi olmuşdur. Onlara görə, insanlar pisi-yaxşı və əyrini-düz etməyə çalışmalıdır.

Hürufilərin siyasi proqramındakı ikinci böyük məsələ,- onların hansı ictimai quruluşu yaratamaq istəyində olmasıdır.

XIV əsr Azərbaycan hürufiləri cəmiyyəti idarə məsələsində demokratiya tərəfdarı olmuşlar. Sözsüz ki, bu idarə quruluşu hürufilərin insanlara qarşı olan ümumbəşəri ideyaları ilə bağlı olmuşdur. Onlar insanların azadlığını, boyunduruq olmaqdan qurtulmalarını böyük bir məqsəd olaraq qarşılarına qoymuş və bunun uğrunda tarixə iz qoyacaq səviyyədə mübarizə aparmışlar. Hürufilər cəmiyyəti idarə məsələsində, umidlərini əsas etibarilə, zəhmətkeş xalqa bağlamışdılar. Onlar arasında ağıl və kamal sahiblərini xüsusilə qiymətləndirərək, cəmiyyətin müsbətə doğru inkişafında onlardan böyük dəstək gözləmişlər. Bu dəstəyi məlum olduğu kimi, böyük səviyyədə almışlar ki, bu da hakim dairələrin onlara qarşı mübarizəsinə səbəb olmuşdur. Bir sözlə, onların apardıqları təbliğat, insanlar arasında böyük nüfuz və rəğbət qazanaraq, Azərbaycanın hüdudlarını belə keçmişdir.

"Məlumdur ki, Şərq sxolastikası "sağ" məfhumunu həmişə yaxşılıq və ülviyyət, "solu" isə pislik və şeytənət ilə əlaqələndirmişdir. Hürufilər bunun qəti surətdə əleyhinə çıxmışlar"(1,25). Bu nöqteyi-nəzərdən hürufilər yunan filosofu Heraklitə daha yaxındırlar. Belə ki, Heraklit də ziddiyyətlərin bir-birinə çevrildiyini təsdiq edirdi.

"Hürufizm düşünüldüyü qədər də bütöv, vahid fikri istiqamətli bir cərəyan olmamışdır. Onun içində görünür mötədillər, sağa çəkənlər, Nəiminin radikal fikirlərinə qarşı çıxanlar da fəaliyyət göstərib və Nəimi onlarla barışmayıb ixtilafa girib"(2,130,131). Mirzə İbrahimovun "Niyəsiz, necəsiz bir yazısan sən"adlı monoqrafiyasında "Odlar yurdunun promoteyi" adlı bölməsində biz hürufiliyin yaranması, məqsədi və inkişafi ilə bağlı bəzi məqamları görürük. Hürufiliyin vahid fikirli cərəyan olmaması ilə bağlı fikirlər də əsassız deyildir. Belə ki, mübariz ruhlu ideyaları hürufizmin hakim dairələrdə qəbul edilməsi, onların hakimiyyətinin

devrilməsi demək olardı, eləcə də onların ətrafı hər vəchlə bu ideya tərəfdarlarının həbsinə və edamına çalışırdılar.

"Fəzlullahın "Vəsiyyətnamə"sindən görünür ki, zindanda olduğu zaman Nəiminin bütün varlığını iki şey məşğul etmişdir: Hərəkata, onun xadimlərinə təqiblərdən, ağır terrordan mümkün qədər nicat vermək və üç sahibsiz qızını "zalımların və müfidlərin əlinə düşüb bədnam olmaqdan" qorumaq"(2,130)! Fədakar bir başçı olan Fəzlullah belə bir vəziyyətdə özünün sağ əli olaraq yalnız Nəsimini-Seyid Əlini görürdü. Nəsimi böyük ustadının və müəlliminin vəsiyyətlərini əməl edərək nəinki "xidmətini əsirgəmədi", bütün həyatını onun idealı yolunda qurban verdi, hürufizmin işıqlı və mütərəqqi cəhətlərini böyük insanpərvərlik poeziyası ilə birləşdirib tərənnüm etdi.

Nəsimi birdən- birə sahib olduğu poetik təfəkkürü qazanmamışdır. "Nəsimi orta əsrlər Şərq şeirində yeni ruhlu bir şair kimi çıxış etdiyi üçün şöhrət tapmışdı"(2,132). Söz yox ki, Nəsimi XIV əsr Azərbaycan ədəbiyyatının ana dilində, fərqli ideya sahibi şəklində poeziyamıza daxil oldu. Təbliğ etdiyi hürufizm və poeziyasında da bunun əksi fövqəladə bir hadisə oldu. Cəmiyyətin həyatı, xalqın taleyi və mənəvi aləmi sənətkarı çox narahat etmiş və o həyatı boyu qarşısına qoyduğu məqsədə nail olmaqdan bir an belə çəkinməmişdir. Poeziyasının bu istiqaməti, sözsüz ki, onun birbaşa şəxsiyyəti ilə əlaqəli olmuşdur. İnsani keyfiyyətləri sənətkarın kamil, mübariz, azadlıq eşqi ilə alışıb-yanan bir dahi olduğuna dəlalət edir.

Nəsimi şeirləri və ictimai fəaliyyəti ilə dünyaya səs salsa da, şəxsi həyati ilə bağlı mənbələrdə heç bir şeyin olmaması qəribə görünə bilər. Lakin əslində bu təbii haldır. Çox güman ki, bu onun dinsiz, allahsız elan edilərək amansız ölümə məhkum olunması ilə bağlı onun haqqındakı məlumatlar məhv edilmişdir. Ancaq bu da sadəcə bir ehtimaldır.

"Nəsimi, Şərq və Avropa intibah ədəbiyyatının o cür şairlərindəndir ki, onların yaradıcılığında azadlıq idealı, qabaqcıl fəlsəfi-siyasi görüşlər bədii yaradıcılığın, poetik təfəkkürün mündəricəsini təşkil edir. Buna görə də Nəsiminin hər sətri, hər beyti, bizim zəmanədəki estetçilərə, sənəti ictimai mübarizələrdən, ideoloji cərəyanlardan, xalqların real həyatından ayırmaq istəyənlərə bir zərbədir. Nəsimi poeziyası "sənət sənət üçündür" nəzəriyyəsini qəbul etməz"(2,133). Nəsimi poeziyasında bəşəri ideyalar, azadlıq ruhu, mübarizlik danılmazdır və biz bunu onun şeirlərində açıq şəkildə görürük. Nəsimi şahidi olduğu cəmiyyətin eybəcərliklərini, haqsızlıqlarını görmüş və bu onun yaradıcılığında öz əksini tapmışdır.

Nəsimi ədəbiyyat tarixinə hürufizmin böyük şairi kimi daxil olmuşdur. Nəsimini hürufizmə cəlb edən də zəmanəsi, yaşadığı mühit olmuşdur. Nəsimi hürufizmdə insana, insanın şüuruna inam, hörmət və məhəbbət görürdü və onun poeziyasında hürufizm məhz bu cəhətdən tərənnüm olunur. Elə məhz buna görə də, bəzi tədqiqatçılar Nəsimini hətta ateist belə adlandırırdılar.

Nəsimi doğma Azərbaycan dilində böyük sənət yaratmış ilk sənətkardır. Öz bəşəri ideyalarını, öz mükəmməl poeziyasını məhz ana dilində tərənnüm etmişdir.

Nəsiminin poeziyası yalnız dövrünün fikri mübarizələrini, fəlsəfi görüşlərini, təhsil və biliyini deyil, eyni zamanda onu bir şəxsiyyət olaraq tanımaq üçün bizə etibarlı mənbə ola bilər. Nəsimi düzlüyə meyl etdiyindən bu onun poeziyasında da əksini tapır. O insanı kamil, humanist görmək istəyir və hamıdan uca tutur.

Nəsiminin şeir dilinin gözəlliyi və kamilliyi də onun yüksək zövq sahibi olmasından, dühasının böyüklüyünü, xalqa bağlılığını göstərən tərəfləridir.

Əqli- küll, ərşü kürsü, lövhü qələm,
Çar ünsür, nöh asimandır söz. (2,9)

Bu misralardan biz sözün qüdrətini, gözəlliyini və neçə-neçə mənalar kəsb etmə potensialına sahib olma qüdrətini görürük. Bu halda Nəsimi tək sənətkarın da öz ana dilinə olan məhəbbətindən, onun mövcud sözlər xəzinəsindən necə bacarıqla istifadə etdiyinin şahidi oluruq. Nəsimi elə oynaq və təbii bir şeir dili yaratmışdır ki, sonra gələn şairlərimiz də həvəslənmiş və ana dilə olan məhəbbət daha yüksək səviyyədə formalaşmışdır.

Nəsimi Azərbaycan şeirinə çox yeni mənalar, yeni fikirlər gətirmişdir. O, şeirimizi böyük bəşəri ideyalarla zənginləşdirmişdir. Nəsimi poeziyası, hec bir cəhətdən dar çərçivələrə sığan deyil. O bütün bəşər mədəniyyətinin, bəşər ideyalarının təbliğçisi olmuşdur.

Nəsimi poeziyasında əvvəldə də qeyd eydiyimiz kimi, əsas insan məsələsi durur. İnsan konsepsiyası onun sənətkarlığının əsas özəyidir. Nəsiminin insan anlayışında, insanı vəsf etməsində hürufizmin insan konsepsiyasına uyğun cəhətlər çoxdur. Lakin onun poeziyası insanı çox uzaqlara aparır, məhəbbətə doğru, insana olan məhəbbət. Bu onun poeziyasının əsas canıdır. Nəsimi insanı hamıdan yüksək tutur və onu hər mənada üstün bilir.

"Nəsimi eşqi, məhəbbəti mücərrəd şəkildə, ictimai ideallardan və fəlsəfi görüşlərdən ayrı tərənnüm etmirdi, daima dini təsəvvür və ehkamlarla qarşılaşdırırdı. Ancaq yarın gözəlliklərini vəsf edən sözdə bir məna tapırdı, qalan sözləri puç və əfsanə sayırdı.

Kim ki camalın sifətin söyləməz,
Söylədiyi qissə və əfsanədir" (2,155).

M. İbrahimovun tədqiqat əsərindən gətirilmiş bu hissədə yanlışlıq vardır. Ona görə də düzgün variantı sizə təqdim edirik:

Kim ki, camalın sifətin söyləməz,
Söylədiyi qüssəvü əfsanədir(5,255).

Nəsimi hürufi nümayəndəsi olaraq öz fəlsəfəsini poeziyasında da əks etdirməyə çalışırdı və bu yolla tərqiətini yayır və insanları mübarizəyə səsləyirdi.

Böyük hürufi etiqadı, fəlsəfəsi insanı insan zülmündən qurtarmağa, idrak darlığını qırmağa, azadlıq uğrunda mübarizəyə çağırırdı. Bu mübarizə özünü bəzən şəxsi fədakarlıqlarla da müşahidə olunurdu. Nəsimi buna baris nümunədir, o öz əqidəsi, ideyası uğrunda sona kimi mübarizə apardı.

Azərbaycanın böyük hürufi şairi Nəsimi belə yüksək fikirlərini, bədii surətdə təbliğ etdiyi xalq azadlığı ideyasının qurbanı oldu. Sənətkarın faicəsi təsadüfi deyildi. Bu faciə, verilən bütün bu qurbanlar bir məqsəd, bir amal uğrunda idi. Xalqın qırılmaqda olan inamı, mübarizəsi, istəkləri yaranmış müəyyən bir təriqət

timsalında bərpa olunmağa başlamış və insanlarda ümid hissini doğuraraq mübarizəyə çağırmışdır. Nəsimi ictimai insan, sənətkar-şair olaraq hürufiliyin daha da anlaşıqlı formada qəlblərə yol tapmasına köməklik etmiş və bu da onun poeziyasının qüdrəti hesabına olmuşdur.

Bu gün biz də Nəsimi dühasının ölməzliyini qəbul edir və Azərbaycanın tarixən bu cür istedada sahib olması bizdə şərəf hissi doğurur!

Ədəbiyyat

1. H. Orucəli "Ədəbi qeydlər", Bakı, 1961, 127 səh
2. M. İbrahimov "Niyəsiz, necəsiz bir yazısan sən", Bakı,"Yazıçı", 1985, 547səh
3. M. Quluzadə "Böyük ideallar şairi", Bakı, "Gənclik", 1973, 139 səh
4. H. Araslı "Fədakar şair", Bakı, 1942, 20 səh
5. İmadəddin Nəsimi "Seçilmiş əsərlər",2 cilddə, I cild Bakı, "Lider nəşriyyatı", 2004, 345 səh

Гюллу Сеидли

Хуруфизм и поэзия насими
резюме

Статье мы анализироваем хуруфизм и поэзию Насими. Насими был принципиальным человеком и как поэт он достиг успеха. И сыграл значительную роль в развитии азербайджанской поэзии. Так же статье мы обсуждаем Насими как лидера хуруфизма. Насими стал последователем главы хуруфизма Наими. Статье мы анализироваем принципы и так же програму хуруфизма. И так же какие правила являлись важными для участников секты. Хуруфизм повлияло в поэзию Насими и это явно чувствоваеться в его творчестве. Статье мы постарались показать главное стороны хуруфизма и поэзии Насими.

Gylly Saidli

Hurufism and nasimi's poetry
Summary

In this article we analyse hurufism and Nasim's poetry. Nasimi was a principial person and he got success as a poet. He played very important part of that Azerbaijan poetry.

In this article we also discuss Nasimi as leader of hurufism. Nasimi was continuer of creator hurufism-Naimi. We also analyse programs and principles of hurufism. It has been very important for members of the pantheistical sect. Hurufism also has influenced Nasimi's activity . In this article we analyse, basic sides of the hurufism and Nasimi's poetry too.

Rəyçi: Professor Rafael Hüseynov

ELNARƏ ƏZİMOVA
ADPU
elnare.ezimova @mail.ru

CƏLALƏDDİN RUMİNİN «MƏSNƏVİ» ƏSƏRİNDƏ ƏXLAQ VƏ DİDAKTİKA MƏSƏLƏLƏRİ

Açar sözlər: Allah, nəfs, səbr
Ключевые слова: Бог, желание, терпение
Key words: God, desire, patient

Mövlanə Cəlaləddin Rumi XIII əsr türk təsəvvüf ədəbiyyatının ən böyük şairidir. Mövlanə bütün əsərlərində nəfsin, həsədin və şəhvətin insanı fəlakətə apardığını dəfələrlə təkrar etmişdir. İnsanlar başa düşmürlər ki, bu yolla onlar özlərini cəhənnəmə hazırlayırlar. Allaha yox, maddi dünyaya vurğun olurlar. İnsanların başqa bir qismi isə düz yolla gedir, günahdan qaçır, bu dünyanın aldadıcı nemətlərinə tamah salmır, insanlarla yaxşı rəftar edirlər. Lakin bunu Allah üçün, mömin olduğu üçün deyil, ətrafdakıları aldatmaq üçün edirlər. Mövlana demişdir: «İnsanlardakı pis xasiyyətlər də yara və çibanlara bənzəyir. Özündə olanda insan ondan iyrənməz, inciməz, halbuki başqasında onu bir az görəndə iyrənir, nifrət edir. Sən ondan ürkdüyün kimi, o da səndən ürkür və inciyirsə onu xoş gör! Sənin inciməyin onun suçudur. Çünki onu gördüyün üçün inciyərsən. O da eyni şeyi görür. Peyğəmbər: «Mömin möminin güzgüsüdür» bildirmişdir. Kafir kafirin güzgüsü ola bilməz demək deyildir. Onun güzgüsü var, ancaq öz güzgüsündən xəbəri yoxdur.» (3, s.175)

Mövlanənin fikrincə, xeyirli iş bütün cəhətlərdən gözəldir, çünki onun əsli dürüstdür. Xeyirli işlər başqa bir şeyin əksi ilə, onun sayəsində gözəl olmur, onlar özlüyündə gözəldir. Xeyir işlərin üstünü müvəqqəti olsa nəfs, şəhvət və s. pis əməllərlə örtmək olur, lakin bütün bunlar çəkilib gedəndən sonra xeyrin parlaqlığı və lətafəti özünü göstərir. Mövlanə mənsəb və məqam üçün xalqa zülm edənlərə xəbərdarlıq edirdi ki, onlar özləri üçün quyu qazırlar.

Mövlanə göstərirdi ki, hiylə və riyakarlıq vasitəsilə həqiqəti üzə çıxarmaq olmaz. Nurlanmış insan zəkası hiyləni yaxın buraxmır. Həqiqəti öyrənmək üçün məzarda yaltaqlanma olmadığı kimi, ağıl və şüur üçün də hiylə yolu yoxdur. Rumi kamala çatmamış naqis insana xəbərdarlıq edirdi ki, o da öləcək, o biri dünyaya gedəcək, buradakı işləri bitməmiş qalacaq.

Ruminin fikrincə insan qəlbi daim narahatlıq içərisindədir, oradakı əks qüvvələr çəkişir, bir-birini inkar edir. «Kalpde her an bir çeşit şey baş gösterir… İnsan bazen şeytanlaşır, bazen melekleşir…. Bazen tuzak kesilir, bazan yırtıcı hayvan! Aslanların bildiği o acayip ormandan, gönüller tuzağına gizli bir yolu bulunan o meşelikten, İçten içe hırsızlık et, can mercanını çal! Ey kopekten aşağı, afilerin gönüllerinden o mercanı elde et! Mademki hırsızlık ediyorsun, bazi latif inciyi çal! Mademki hamallık ediyorsun, bari yüce bir yük yüklen!» (6, s.109)

Şöhrət düşkünlüyü və lovğalıq adamı xeyirli işdən uzaqlaşdırır, mərhəmət hissini məhv edir, insanı fəlakətə aparır. Belə xasiyyətli insan hiyləgərlik edir, başqalarını tora salmağa çalışır, lakin bilmir ki, öz hiyləsi özünün tələsi olacaqdır.

Onun ağlı kordur. Şöhrət düşkünü öz ağlının azlığından başqalarına qibtə edir, onların uca kamalından qəm-qüssəyə düşür. Mövlanə deyirdi ki, pis iş görmə, çünki atılan ox geri qayıtmır. Seli başdan bağlayıb, istiqamətini dəyişmək lazımdır.

Mövlanə şagirdlərinə öyrədirdi ki, yaxşılığı yalnız yaxşı adamdan öyrənmək olar. Pis xasiyyətli adamlar ətrafdakılara yalnız pis təsir edə bilərlər.

Məhəmməd peyğəmbər bir hədisdə deyirdi: «Allah mövcudatı üç növ yaratmışdır». Mövlanə Məhəmməd Peyğəmbərin bu sözlərini özünəməxsus qaydada şərh edirdi: «Məxluqatın bir hissəsi ağıl, elm və comərdlikdən ibarətdir. Bunlar mələkdir. Allaha səcdədən başqa bir şey bilmir. Yaradılışlarında hərislik, ehtiras, şövq yoxdur. O mütləq ruhdur və Allahın eşqilə yaşayır. Digər bir hissə elmsizdir… Heyvan kimi ot yeyib kökəlirlər. Onlar mal tövləsindən və ondan başqa bir şey görməzlər. Pislikdən də qafildirlər, ucalıqdan və yaxşılıqdan da. Məxluqatın üçüncü hissəsi isə Adəm oğullarıdır, insanlardır. Bunlar yaradılış baxımından yarı mələk, yarı heyvandır. İnsanların yarısı alçaqlığa, yarısı da ağıla meyl edir. İlk iki hissə (mələklər və heyvanlar) ziddiyyətdən, sevgidən uzaqdırlar, rahatlıq və sakitlik içindədirlər.» (3, səh.177)

Rumi deyirdi ki, əgər gözdə İlahi nur olmasa ətrafda yüz minlərcə nur olsa da insan ruhu nurların heç birini görmür. Nəfsin isə belə qabiliyyəti var. Nəfs və ruh başqa-başqa şeylərdir. İnsan yuxuda olan vaxt insan üçün çox qorxuludur, onun istəyinin hüdudu yoxdur. Nəfsdən azad olmaq istəyirsə Allah insana kömək edir, onun yolunu işıqlandırır. Mövlanə göstərirdi ki, Allah insanı dəyərinə və ağlına görə iki dünyaya bərabər tutur. Ancaq insan öz dəyərini bilmir, özünü dəyərindən ucuz satır. İnsan bilmir ki, Tanrı insanın nəfsini, istəyini, onlardan satın alıb ki, onlar yalnız Tanrıya inansınlar. Belə edənlər mütləq cənnətə gedəcəklər, etməyənlər yalnız özlərinə pislik edir və nəticədə əbədi olaraq cəhənnəm əzabına düçar olur.

Mövlanə inanırdı ki, insan nəfsi şübhə və inamsızlıq yuvasıdır, onları heç vaxt oradan çıxarmaq olmaz. Bunu yalnız İlahi eşq ilə etmək olar. Aşiqin qəlbində heç bir şübhə ola bilməz. Yaradanı deyil, yaradılanı sevən adam kor və şikəstdir. «Hırs yüzünden akibeti görmemek, kendi gönlüne, kendi aklına gülmektir. Aklın hassası, işin sonunu görmektir. Akıbeti görmeyen akıl, nefistir. Nefse mağlup olan akıl, nefis haline gelmiştir. Müşteri, Zuhal tesiri altında kalırsa Zuhalleşir.» (6, s.97)

Kim öz nəfsinin əleyhinə üsyan etmirsə, onun arzusunu yox etmirsə tələf olub gedir. Deməli, nəfsin ziddini müdafiə etmək lazımdır. Nəfs isə digər bir nəfs ilə yaxınlıq etməkdən xoşlanır və yol görünməz olur. Mövlanə məsləhət görürdü ki, nəfs sənə nə deyirsə, onun əksini et. Hətta nəfs desə ki, bu xəstəlik, bu ehtiyac pisdir, ona inanma, çünki nəfsin bütün işləri tərsinədir. Nəfsi ilə məsləhətləşən şəxs onu eşitməli, lakin onun tövsiyə etdiklərinin əksini icra etməlidir. Nəfs bütün hallarda pis yola aparır. Nəfsin istəyinə uyub heyvan kimi yaşamaq istəyən kəs insanlıqdan daha çox heyvan sifətindədir.

Mövlanə maraqlı bir sual verir və özü də bu suala cavab axtarır: «Ağıl nurani və yaxşı bir haqq və həqiqət axtarıcısı olduğu halda, nə üçün zülmani nəfs ona qalib gəlir? Çünki sənin ağlın bədənində qəribədir, nəfs isə öz evindədir.» (3, s.178). Belə vəziyyət bədənin ölümünə qədər davam edir. Bir də onu nəzərə almaq lazımdır ki, nəfsin həddən artıq çox dili və sifəti var. Onun məkr və hiyləsi o qədər çoxdur ki, onları müəyyənləşdirmək həmişə mümkün olmur.

Mövlanə deyirdi ki, insanda dörd pis sifət var ki, onlar ağlı çarmıxa çəkirlər. Həmin pis sifətlər bunlardır: şəhvət, hərislik, hədsiz istək, mənsəb və məqam düşkünlüyü. Mövlanənin fikrincə pis xasiyyətlər içərisində həsəd daha pis nöqsandır, hətta bütün əksliklərin ən bayağısıdır. Həsəd insanı yeni-yeni pis əməllərə təhrik edir, pis sifətlərin yaranmasına səbəb olur. «Ey qəlbində hava və həvəsi gizlicə təzələyən, imanını təzələ, fəqət yalnız sözdə deyil, qəlbində bərabər təzələ». Belə ol ki, gizli, pusquda durub sənə zərbə endirmək istəyən pis əməli qova biləsən. Allahı bir an yaddan çıxarsan nəfsin və həvəsin şimakı olursan, onların əlindən qurtarmaq isə o qədər də asan deyil. İnsan cismani rahatlıq tapanda, bundan zövq alanda elə hesab edir ki, dünya onunkudur. Ancaq başa düşmür ki, artıq tələyə düşüb. «Hava ve heves lezzetlerinin hepsi hiledir, riyadır. Her lezzet, etrafı karanlıklarla çevrilmiş şimşek işığına benzer. Derhal gelip geçen şimşek nuru, yalan və geçici bir şeydir. Çevresinde karanlıklar var, yolunsa uzaktır senin. Onun işığiyle ne bir kitab okuyabilirsin, ne bir konağa at sürebilirsin. Yalnız şimşek işığına kapıldığının suçu olarak doğu nurları senden yüz çevirir» (10, s.325).

Bütün pis əməllərin yaradıcısı olan şeytan insana qarşı çoxlu düşmən qüvvələri meydana gətirir. Mövlanə deyirdi ki, əgər dünyada düşmənlər olmasaydı, insanlardakı qəzəb və hiddət də yox olardı. Əgər əks tərəf yoxdursa, heç kim sənə qarşı deyilsə onda hirslənmək, qəzəblənmək üçün də əsas yoxdur. Belə yer bu dünya deyil, yalnız cənnətdir. Bu dünya sınaq və həm də mübarizə meydanıdır. Hirs və qəzəb atəşi dünyanı yandırır, cəhənnəmə çevirir. Burada Mövlanə maraqlı bir nəticəyə gəlir və cəhənnəm atəşinin nə üçün sönmədiyini izah edir və deyirdi ki, cəhənnəm tamamilə hiddət və qəzəb kimidir. Ona mütləq barışmaz düşmən lazımdır ki, yaşaya bilsin, yoxsa Allahın mərhəməti onu söndürər. Allah hər şeyə qadirdir və cəhənnəmin olmağını lazım bildiyi üçün onu söndürmür. Allah lütf üçün cənnəti, qəhr üçün cəhənnəmi yaradıb.

Pis əməllər insanı Allah yolundan kənara çəkir, onun qəlb gözünü bağlayır. Məsələn, Mövlanəyə görə, rüşvət almaq insanın həqiqəti görməsinə mane olur. Tamah güc gələndə kor və rüşvət verənin qulu olursan.

Mövlanə göstərirdi ki, nəfs və həvəsi aradan götürmək Allahın köməyi ilə insanın özündən asılıdır. Hərislik və həvəs çatanda ruhun səthini örtür və belə vəziyyətdə onlar sevinir, ağıl isə qüssələnir. Allah ağlın əl-qolunu açmasa, hərislik və həvəs çör-çöpü ruh suyunun üstünü örtə bilər. Çünki həris və tamahkar adamın heç vaxt gözü doymur, nə qədər var-dövlət toplasa da yenə də istəyir, dayana bilmir. Həris adam nə görürsə, hamısını istəyir. Belə adam əsl ləzzətlərdən məhrumdur. Mal-mülk dəyərsiz bez parçası kimidir, hərislik isə yaradır. Kimdə hərislik çoxdursa yarası da artır. Bu yaranı sağaltmaq mümkündür. Bunun üçün arzu və həvəsi atıb Tanrıya yaxınlaşmaq lazımdır. Mövlanə hər məqamda vurğulayır ki, Allaha bağlı mömin adama nəfs və hərislik yaxın düşə bilmir. «Tanrı korkusu, havanın ellerini bağlarsa Hak aklın ellerini çözer. Hizmetkarın aklı olursa sana galibolan duygular da mahkumun olur. Gaybe mensup sırlar, can aleminden zuhur etsin diye duyguları zahiri olmayan bir uykuya daldırır da… İnsan uyanırken ruyalar da görür, insana gök kapıları da açılır» (7, s.149).

İnsanın əl-qolunu bağlayıb maddi dünyaya birləşdirən pis sifətlərdən biri də şəhvətli olmaqdır. Bu xəstəliyə tutulan adamın həyatı zülmətə çevrilir. Rumi «Məsnəvi»də şəhvət mövzusuna da toxunmuşdur. O, deyirdi ki, şəhvət də nəfs kimi

su ilə sönməz, çünki bu atəş də cəhənnəm atəşi kimidir. Şəhvət insanı dibi görünməyən quyuya salır. İnsan özü-özünü bu tələyə atıb. Ona görə səbəbi başqa yerdə axtarmaq lazım deyil. İnsanı şəhvət düşkünü olmağa heç kim məcbur etməyib, o bu vəziyyətə günah etdiyinə görə düşüb. İnsan cəhənnəmə də, şəhvət quyusuna da etdiyi günahın ucbatından düşür. Bunu hər kəsin bilməsi lazımdır. Şəhvət qəlbi pozğun, çirkli adamları öz pəncəsinə keçirə bilir. Mövlanə inandırırdı ki, pis əməllərin bir çoxunun, məsələn, lovğalıq və kinin başlanğıcı şəhvətdir. Ona görə də insan ehtiyatlı olmalıdır. Çünki şəhvət möhkəmləndikcə adət halını alır və insanın xasiyyətinə çevrilir. Bundan sonra ondan azad olmaq müşkül iş olur.

Rumi belə bir fikri əsaslandırmağa çalışırdı ki, qəzəb və şəhvət insanı həmişə çaşdırır və bu yolla ruhun istiqamətini dəyişir. Axı şəhvət əsirində heyvani olsa da ruh var. Lakin bu ruh ağıldan məhrumdur. İlahi eşqə biganədir. Mövlanə belə bir nəticəyə gəlir ki, qəzəb və şəhvət kimdə varsa - istər qüdrətli hökmdar, istərsə də yoxsul bir adam, fərqi yoxdur, onların hakimidir. Qəzəbli və şəhvətli padşah da qəzəb və şəhvətin köləsidir, o heç vaxt düz yolla, yəni Allah tərəfə aparan yolla gedə bilməz.

Cəlaləddin Rumi səbr, tövbə, şükür məsələlərinə hər məqamda toxunmuşdur. O, deyirdi ki, səbirli olmayan adam heç vaxt əsl məqsədinə çata bilməz, yəni Allaha qovuşa bilməz, əbədi həyat qazana bilməz. O, Həzrəti Peyğəmbərin belə bir hədisini misal gətirir: «Təbiətində səbr olmayan kimsəyə Allah kamil, yetkin iman verməmişdir». Deməli, səbrli olmaq iman sahibinin xassəsidir. Rumi səbri üstündə «qələbə» yazılmış dəmir qalxana oxşadardı. O, deyirdi ki, Süleyman gedəndə şeytan padşah olduğu kimi, ağıl və səbr gedəndən sonra nəfsin sənə əmr etməyə başlayır. Səbr et ki, səni pis əməllərə sövq edən hisslərin sakitləşsin, sən də onları gör və müşkülün həll olunsun. Əks halda fəlakətə doğru gedərsən.

Mövlanə deyirdi ki, həyat üçün zəruri olan səbr yalnız İlahi eşq aşiqlərinə lazım deyil, onlar həddən artıq səbrsizdilər, öz varlıqlarını yox edib tezliklə vüsala çatmaq istəyirlər. Səbrlə eşq bir yerdə ola bilməz. Ağıl eşqin fəryadına yetişə bilməz, dərdinə dərman ola bilməz.

İslam dinində tövbə də ən əsas anlayışlardan biridir. Mövlanə bu məsələyə də xüsusi fikir vermişdir. Cənnətin səkkiz qapısından yeddisi bəzən açıq, bəzən də bağlı olur. Qapılardan biri - tövbə qapısı isə daim açıq olur. Mövlanə deyirdi ki, qapı açıqdır. Bu imkanı buraxma, nə pis iş görmüsənsə, tez gəlib tövbə et. Allah adildir, rəhmlidir.

Mövlanə İlahi eşqin qüdrətinə inanır, çoxlu günah iş görmüş, hətta yüz dəfə tövbəsini pozmuş adam eşq qapısına gəlirsə, ümidini itirməməlidir. Bidiyimiz kimi islamda təvəkkül və şükr etmə anlayışlarının mühüm əhəmiyyəti var. Təsəvvüfdə, o cümlədən Rumi yaradıcılığında bu anlayışlardan geniş istifadə olunur. Səbr edən təvəkküllə üz-üzə gəlir, yəni Allahı vəkil edir. Burada vəkil edən insan özünü düşünmür, Allahın varlığına doğru can atır. Səbr və təvəkkülə bağlanan kəs ahuzar, fəryad, şikayətdən yaxasını qurtarıb sakit və rahat bir həyata daxil olur. Buna təsəvvüfdə «riza» deyilir. Sufi yalnız Allaha ümid edir. Allahın sözü bütün sözlərdən dəyərlidir. Ona şükr et, ona sığın. Əgər İlahi elmləri öyrənmək istəyirsənsə İlahi sözü öyrən, bu dünyada bir sənət öyrənmək istəyirsənsə iş gör, çoxlu çalış, çünki zəhmət öz bəhrəsini verir.

Cəlaləddin Rumi əxlaq haqqında fikirlərini islam dininin tələblərinə uyğun olaraq əsaslandırırdı. Onun təsəvvür əxlaqı da mahiyyətcə Quran və hədislərdən doğur, hətta sufi terminləri də bu baxımdan dəyərləndirilir. Mövlanənin etikasında islam əxlaqına zidd olan fikirlər yoxdur. Fərqli cəhət İlahi eşqə daha çox yer verməkdir. Göstərildiyi kimi eşqdə səbr və tövbə yoxdur. Allahı məhəbbətdə ifrata yol vermək olar. Burada da İlahi eşq müstəsnadır. Bu da təbiidir. Çünki təsəvvüf İlahi eşqə əsaslanır.

Ədəbiyyat

1. Quliyev E. Türk xalqları ədəbiyyatı. Bakı, «Constant Empire», 2011, 567 s.
2. Rüstəmova A. Mövlanə Cəlaləddin Rumi. Bakı, «Elm», 2005, 176 s.
3. Rüstəmov Y. Mövlanə Cəlaləddin Ruminin sufilik fəlsəfəsi. Bakı, «Nurlan», 2006, 239 s.
4. Gölpınarlı A. Mevlana Celaleddin hayatı, felsefesi, eserleri, eserlerinden seçmeler. İstanbul, 1985, 334 s.
5. Mevlana. Mesnevi I. İstanbul, «Milli Eğitim Basımevi», 1991, 373 s.
6. Mevlana. Mesnevi II. İstanbul, «Milli Eğitim Basımevi», 1991, 334 s.
7. Mevlana. Mesnevi III. İstanbul, «Milli Eğitim Basımevi», 1991, 423 s.
8. Mevlana. Mesnevi IV. İstanbul, «Milli Eğitim Basımevi», 1991, 347 s.
9. Mevlana. Mesnevi V. İstanbul, «Milli Eğitim Basımevi», 1991, 391 s.
   Mevlana. Mesnevi VI. İstanbul, «Milli Eğitim Basımevi», 1991, 432 s.

Э.Азимова

Этика и дидактика в произведение «Маснави» Джалаладдин Руми

Резюме

Статье мы анализироваем Руми как поета высказавшый мораллизирующие мысли.

Мы знаем Руми как величайший поет 13-го века турецской суфийской литературы.Эго творчества источник мысли урфани каторое вдохновляет человека любить Бога,присоединиться к Богу.Он выделил чувства и любовь к Богу как единственный способ присоединение к Богу.Здесь мы коснулись морализирующие идеи Руми,такие как: чтобы избежать от плохих поступков как человеческое желание,похоть,воздействие славы,чванство,ярость и др. надо всегда быть терпеливым,каяться,быть блогодарным.Статье мы пытались обосновывать идеи Руми о морали в соответствии с требованиями ислама.

E.Azimova

Ethics and didactics problems in Jalaladdin Rumi`s work «Masnavi»

Summary

We analyze Rumi,who asked moralizing ideas.We know Rumi as the greatest poet of Turkish Sufism literature in 13 century.His work is the thinking urfani source,that inspires people to embrace God,love of God.He highlights the feel and love of God as the only way of reacing God.We inform here as Rumi`s moralizing ideas,that for get away people`s desire,lust,fame,swagger,anger and etc. bad features need to be patient,repent,satisfied.In this article we have tried to substantiate Rumi`s ideas on morality in accordance with the requirements of Islam.

Rəyçi: Professor Elman Quliyev

YEGANƏ QURBANOVA
Bakı Dövlət Universiteti
y.q.87@mail.ru

FİKRƏT SADIĞIN FİKİR DÜNYASINA BİR BAXIŞ

Açar sözlər: Fikrət Sadığın poeziyası, şeirdə fəlsəfilik və fəlsəfi fikir, fəlsəfə və poeziya
Ключевые слова: поэзия Фикрета Садыка, философичность и философская мысль в поэзии, философия и поэзия
Keywords: Fikret Sadiq's poetry, philosophy and philosophical thought in poetry, philosophy and poetry

Bədii yaradıcılıq, adətən, ədəbi-tənqidi müstəvidə fəlsəfi-estetik məzmununa, bu məzmunun ortaya çıxardığı dəyərlərə görə qiymətləndirilir. "Yaxşı yazıçı və ya şair həm də yaxşı filosofdur" fikri artıq bir aksiom kimi qəbul edilmişdir. Elə bu məntiqdəndir ki, ədəbiyyatşünaslıq elmi ilə yanaşı fəlsəfə elmi də bədii yaradıcılığı tədqiqata cəlb edir. Dünya şöhrətli fransız yazıçısı və filosofu A. Kamyu demişdir: "Filosof olmaq istəyirsənsə, roman yaz". Əlbəttə, burda Kamyu "filosof olmağın" arenasını bir qədər daraltmışdır. Bədii yaradıcılıqda fəlsəfə ortaya qoymağın yolları yalnız roman janrından, nəsrdən keçmir, poeziya, o cümlədən də dramaturgiya da bu işdə çox geniş imkanlara malikdir. Hətta, fikrimizcə, poeziyanın bu imkanları istənilən bir janrdan daha üstündür. Burda subyektin daha fəal müdaxiləsi, təsvir-təhkiyələrin deyil, düşüncələrin məzmun yaratması, fəlsəfənin isə düşüncə və fikir nəhri olması poeziya və fəlsəfəni bir-birinə yaxınlaşdırır. Yaxşı deyiblər ki, poeziya fəlsəfənin dili, fəlsəfə isə poeziyanın ruhudur.

Biz heç də o fikirdə deyilik ki, hər poeziya nümunəsi, hər şair qələmi bu yaxınlığa yüksələ, bu işin öhdəsindən gələ bilir. Milli poeziya sənətimizdə bu yüksəkliyi fəth edən sənətkarlar da var, bu yüksəkliyə gedən yolda görünən sənətkarlar da. Əlbəttə, heç bir şair qarşısına filosof olmaq məqsədini qoymur, yaxud da qoymamalıdır. Çünki belə məqsəd onları sənət əsəri yaratmaq işindən xeyli uzaqlaşdırardı.

Fikrət Sadıq da qarşısına belə bir məqsəd qoymasa da, şair kimi belə bir işi görə bilmişdir. Onun poeziyasında zəngin, sistemli fəlsəfi görüşlər, təmayül yarada biləcək bir dünyagörüşü olduğunu demək olmaz. Ancaq Fikrət Sadıq poeziyası özünün fəlsəfi-estetik məzmunundan söz açdırmaq gücünə və bacarığına malikdir. Elə bu güc və bacarığa istinad edərək biz tədqiqatımızı bu istiqamətdə aparmaq niyyətindəyik. Bəri başdan onu qeyd edək ki, tədqiqatımızın bu istiqamətində biz onun poziyasının fəlsəfi gücünü qiymətləndirmək kimi bir niyyətdən uzaq duracağıq, ona görə yox ki, bu qiymətləndirmədə Fikrət Sadıq poeziyası gücsüz görünə bilər. Ümumiyyətlə, biz fikirləşirik ki, tədqiqat sadəcə yaxşı və ya pis deyə qiymətləndirmə üzərində yox, şərh üzərində qurulmalıdır və əsil qiymət də nəticə kimi bu şərhdən çıxarılmalıdır. Odur ki, biz Fikrət Sadıq poeziyasının fəlsəfi məzmunundan onun imkanları və gücü daxilində danışacağıq. Şairin yaradıcılığı ilə bağlı sanballı monoqrafik tədqiqat aparan İfrat Əliyeva yazır: "F.Sadıq predmeti fəlsəfi cəhətdən qavrayan, bu və ya digər həyat hadisəsinin təsvirində yığcamlığı və

lakonikliyi gözləyən, qüvvətli xəlqilik və müasirlik ruhuna malik şairdir. O, irili-xırdalı bütün əsərlərində həmişə oxucunun şüur və mühakiməsinə müraciət edir, həyat faktını, hadisələri onunla birlikdə araşdırır, bir sözlə, daim öz oxucusu ilə fəal təmasda, münasibətdə olur" (3, s. 138).

Hər bir insanın həyat fəlsəfəsi onun əxlaqi-mənəvi dünyası, yaşadığı sosial şərait ilə sıx bağlıdır ki, fəlsəfi idrakın mahiyyətinə vardıqda onun hansı şərtlər altında formalaşdığını nəzərə almaq lazımdır. Bunda yaradıcı şəxslər də istisna təşkil etmir. Onların da fikir, düşüncə dünyası bu şərtlər asılılığında formalaşır. Ancaq yaradıcı insanlarda, adətən, bu formalaşma prosesi ilə baş çatmır, inkişaf prosesi də keçir ki, burada milli mənəviyyatdan, yaşadığı sosial şəraitdən alınanlara təfəkkür daha nələrisə əlavə edir. Bu prosesdə yaradıcı təfəkkürün elə tipi var ki, dominanta daha çox güvənir, onun mahiyyətindən çıxış edir, elə yaradıcı təfəkkür də var ki, dominantdan, ümumiyyətlə, imtina edir, müstəqilləşir. Fikrət Sadığın da yaradıcı təfəkkürü yaradıcılıq prosesində bu dominanta güvənən, onun mahiyyətinə əsaslanan bir idrak nümayiş etdirir. Odur ki, şairin fəlsəfəsi oxucu üçün tamamilə yeni bir məzmun və istiqamət ortaya qoymur. Onun dünyagörüşü və anlamı milli təfəkkürümüzlə sıx bağlıdır və onun bir hissəsi kimi görünür.

Fikrət Sadığın poeziyasının fəlsəfəsindən danışarkən onun hansısa əsərlərini fəlsəfi şeirlər başlığı altında qruplaşdırmaq kimi bir niyyətimiz yoxdur. Fikrimizcə, belə bir təsnifat ədalətli olmaz və elmi əsaslara söykənməzdi. Düzdür, onun əsərləri içərisində fəlsəfi məzmunun zənginliyi və kasadlığı ilə seçilən əsərlər vardır. Ancaq biz Fikrət Sadıq yaradıcılığının fəlsəfi-estetik tutumundan danışarkən, zənginliyi və ya kasadlığı əldə rəhbər tutaraq, tədqiq istinadgahlarını müəyyənləşdirmək onun sistemli dərkini əngəlləyə, təsəvvürü natamam vəziyyətə sala bilər. Çünki hər bir şeir şairin varlığından, insanlara və dünyaya baxışından, bütövlükdə dünyagörüşündən bir parçadır, tamı başa düşmək, onun haqqında bütöv bir təsəvvür əldə etmək üçün, hər bir parçanı öyrənməyin əhəmiyyəti vardır. Ona görə də Fikrət Sadıq yaradıcılığının poetik şeir istiqamətindən danışarkən məsələyə daha kompleksli şəkildə yanaşmaq, onu müxtəlif koordinantlardan izləmək niyyətindəyik.

Ədəbiyyatşünas Rəhim Əliyev şairin fikir dünyası haqqında yazır: "Fikrət Sadığın poeziyası fikir üstə boy atır. Amma bu fikir heç vaxt kitabdan, fəlsəfə dərsliklərindən gəlmir. Şairin şeirlərindəki fikirlər, çox vaxt müdrik fikirlər adi həyat müşahidələrinin ümumiləşməsidir. Şairi qüvvətli fantaziyası, gördüklərini özünə xas tərzdə mənalandırmaq bacarığı fərqləndirir. O, gördüyü, müşahidə etdiyi haqda sakit-sakit söhbət açır və parodoksal görünsə də, məhz bu yolla poetik müdrikliyə nail olur" (2, s. 367). Rəhim Əliyevin dediklərində bir həqiqət vardır. Şairin poeziyasında hər misranın belə öz fikir yükü vardır. Düzdür, bu fikir bəzən həddən artıq müstəqim, bədii boyaların zəif tonunda verilir. Ancaq tənqidçinin dediyi kimi, bu fikrin kitablardan yox, həyatdan gəlməsi, oxucunun dərdi-sərini ifadə etməsi onu oxucuya doğmalaşdırır. Oxucu Fikrət Sadıq şeirinin misralarında öz həyatını, öz problemlərini görür. R.Əliyevin mülahizələrindəki bir məqamla razılaşa bilmərik ki, şair gördüklərinin ifadəsində qüvvətli fantaziyaya yer verir. Onun fikri ifadə etməsində nəinki qüvvətli fantaziya, əksinə reallığın açıq-aydın, çılpaq təsvirləri də var.

Əlbəttə, bu təsvirlər fəlsəfi mənalandırmalarla müşayiət olunur. Onun lirik qəhrəmanının öz həyat fəlsəfəsi vardır. Bu həm də qəliz, mürəkkəb bir fəlsəfə deyil. Bu adi bir ömür yaşamaq istəyən sadə insanın fəlsəfəsidir. Şair böyük bir həyat

fəlsəfəsini kiçik bir şerin misralarında sadə bir insanın hislərinin ifadəsində verə bilir.

Bu insan bu gün mürəkkəbləşən, başqalaşan dünyanın insanı ola bilmir. O, sadə yaşam tərzini seçir, əcdadına, soyuna, ənənəyə sadiqlik yolunu tutur. Odur ki, onun sadəliyi mürəkkəbliklə yollaşa, özünə sadiqliyi isə başqalaşan dünyada özünü tapa bilmir. Sosial mühitə uyğunlaşa bilməyən sənətkar, bu mühitin çərçivəsindən çıxır, bəzən təbiətə tapınır, bəzən də dünənə dönür.

Şair təbiətə qalib gəlmək, onu özünə tabe etmək fəlsəfəsinin əleyhinədir, bu cür düşüncəni insanlığın bəlası hesab edir, Fikrət Sadığa görə insan təbiətin bir zərrəsidir, bu zərrə bütövdən ayrılarsa, onu fəlakət, acınacaqlı tale gözləyir. XIX əsr fransız maarifçisi və filosofu Jan Jak Russo belə fikirdə olmuşdur ki, "insandakı bütün gözəlliklər təbiətdən gəlir, ancaq o cəmiyyətə daxil olanda bu gözəlliklər məhv olur" (все прекрасное в человеке выходит из лона природы и портится в нем, когда он попадает в общество (12). Fikrət Sadıq da sanki böyük fransız filosofunun bu həyat fəlsəfəsini bölüşür və şairə görə insanlığın yolu, xilası təbiətə qayıdışdan keçir.

Günəşin bir zərrəsiyəm,-
İşıqdan gəlmişəm...
...İnsan olanda bilmişəm
İşığın qədrini.
Torpağın qaranlığı qorxutmur məni.
Ox kimi sancılıb
Yerin o üzündən çıxacağam,
İşığa dönmək üçün
Yenə Göyə qalxacağam (8, s. 382).

Bu şeirdə işıq təbiətin simvolu kimi poetikləşdirilmişdir. Lirik qəhrəmanın işığa dönmək arzusu təbiətə dönmək qətiyyəti, arzusu kimi mənalanır. O, işıq olanda sahib olduğu gözəlliyi insan olanda qoruya bilməmişdir, buna görə də bu gözəlliyin xatirinə qaranlıqları dəlib ilkinə dönməyə hazırdır.

Şairin həyat, ömür, tale ilə bağlı düşüncələrində onun fikir karvanı daha uzaqlara yol alır, həyati predmet daxilində yeni mənalandırmalara aparır, bu mənalandırmalarda təbii-elmi dərki lirik-fəlsəfi qavrayış əvəzləyir. Bu qavrayış oxucuda yeni ovqat, yeni baxış, yeni nəzər yaradır. Bu mənada Fikrət Sadığın şeirlərində doğum və ölüm faktı üzərində apardığı bədii-fəlsəfi ümumiləşdirmə maraqlıdır. Şair mahiyyətcə əks qütblərdə dayanan bu təbiət hadisələrini birləşdirən məqamı tapır, onun üzərində düşüncələrə dalır.

Tale belə kor olarmış,
Görəcəkli günüm varmış.
Bu dünya nə xarabaymış,
Gələn ağlar, gedən ağlar (7, s. 12).

Şairin həyat-ölüm fəlsəfəsi fiziki yaşam üzərində qurulmayıb. Fikrət Sadıq düşüncəsində mövcudluq hələ həyat demək deyil. Həyat gərəkli olmaq, fəaliyyət deməkdir. Fransız filosofu Jan Jak Russonun dediyi kimi: "Yaşamaq nəfəs almaq

demək deyildir, yaşamaq fəaliyyət deməkdir. Çox illər yaşamış insan deyil, çox şey hiss etmiş insan çox yaşamışdır" (Жить — это не значит дышать, это значит действовать. Не тот больше всего жил, который может насчитать больше лет, а тот, кто больше всего чувствовал (13). Bu mənada şairin "Daşlar" şeiri fəaliyyətsizliyin, gərəksizliyin faciəsini açıqlayır.

Yerin altında qalan,
Qaya olan,
Dağlardan dərələrə, düzlərə
Yuvarlanan
Daşların dərdi
Sığmır yerə-göyə:
"Niyə bizi görmürlər, niyə?
Niyə o biri daşlar kimi
Bizi də
Divara,
Qalaya,
Körpüyə
Hörmürlər, niyə?
Razıyıq, döşəsinlər
Lap ayaq altına.
Razıyıq, bünövrə olaq,
Düşək yerin ən alt qatına—
Təki yaşayaq".
Yaşayıb, heç şeyə
Gərək olmamaq dərdi
Ölümdən də betərdi! (7, s. 93).

"Daşlar" şeiri metaforik bir planda yazılmışdır. Təbii ki, şair daşların simasında insanları gərəkli bir ömür yaşamağa, ətalətdən hərəkətə keçməyə çağırır. Ancaq Fikrət Sadıq poeziyasında təbiət heç də həmişə metaforik bir planda verilmir, insan anlayışının bədii şərhi kimi poetik məkana daxil olmur. Cansız kimi qəbul etdiyimiz təbiət varlıqları şairin yaradıcılığında canlanır, daş da, ağac da bir tale, bir insan ömrü yaşayır. Bu tale, bu ömür şairi düşündürür. O yalnız cəmiyyətin taleyindən deyil, təbiətin taleyindən də narahatdır. Təbiət də cəmiyyət qədər canlıdır şairin yaradıcılıq dünyasında. Bu həm də yalnız bioloji canlılıq deyil. Fikrət Sadığa görə o, yaşayır, hiss edir, düşünür. Ona görə də şair Fikrət Sadıq ağac, daş, qaya, çiçək, işıq poetik məkanının ən duyğulu, sözlü, düşüncəli sakinlərindəndir. O, bizim nəzərimizdə taleyi yox, olsa-olsa bioloji yaşamı olan bu varlıqların sevincini də duyur, kədərini də hiss edir.

Bunlar şairin həssas qəlbininmi görüntüləridir, yoxsa onun yaradıcılıq fantaziyasınınmı məhsuludur? Demək çətindir. Ancaq şairin poetik üslubu üzərində aparılan müşahidələrdən bizdə bu qənaət var ki, onun qələmi yaradıcılıq fantaziyasının əsarətinə düşmür. Oğlu Orxan Fikrətoğlonun şairlə apardığı söhbətdə bizi bu sualın cavabına yaxınlaşdıracaq belə bir məqam var. Fikrət Sadıq çox inamla deyir: "Bu dünya əsl dünya deyil. Mən bunu həmişə dərk edirəm" (4, s. 489).

Bu dünyada ağaclar bitmir, doğulur, qurumur, ölür. Şairin "Düşüncələr" poemasında yarpağın, ağacın yaşantıları da onun fantaziyasından yox, varlığına inanadığı əsl dünyadan fraqmentlərdir.

İki cürdür meşədə yarpaqlar -
Solanı var, solmayanı var.
Solanlara baxa-baxa qalıb
solmayanlar,
Başlarını aşağı salıb
Ağlayırlar için-için
Xəzəl olmuş yarpaqların dalınca.
Bu da sənin işindir, dünya! (7, s. 171).

Fikrət Sadığın dünyaya fəlsəfi baxışında insan və təbiət bir-birindən ayrılmır, canlı cansız bir-biri ilə harmoniyadadır. İlham Abbas "Ümid işığı" məqaləsində Fikrət Sadıq poeziyasının yaradıcılıq problemlərini şərh edərkən yazır: "Fikrət Sadığın şeirlərində insanın mənəvi dünyası onu əhatə edən təbiətdən-daşların, ağacların, otların, quşların dünyasından ayrı görünmür və ən ümdəsi, şair bunlarsız insanın insan ola biləcəyinə inanmır!" (5, s. 383).

Unudulmaz şairimiz Əli Kərim dərin bir poetik-fəlsəfi məna və yük verdiyi "Daş" şeirində təbiətin bir hissəsi olan bu hissiz, duyğusuz, cansız varlığı insan mənəviyyatı üçün bir açara çevirib. Fikrət Sadığın poetik nəhrində isə daşın özünün də mənəviyyatı var.

Kövrəyi də var içində, sərti də.
Mərdi də, namərdi də.
Daş var, daşa qəhmər.
İşıqlısı çaxmaq daşı,
Soyuğu mərmər.
Daş var ulduzdan düşüb qalıb,
Daş da var buzdan düşüb qalıb.
Dünyanı gəzən piyada daş, atlı daş.
Dağdan qopan qanadlı daş.
Yumru daş, sivri daş, çay daşı, çınqıl;
Lovğa daş, sadə daş, qıyımlı, paxıl (8, s. 19).

Şairin poeziya müstəvisində mənalar dərinləşir, yeni çalarlar qazanır. Adi məişət detalları poetik dillə fəlsəfi mənalandırma qazanır. Görkəmli ədəbiyyatşünas, professor Təhsin Mütəllimov şairin fəlsəfəsi haqqında yazır: "Fikrətin poeziyasındakı müasirlik nəfəsinin və siyasi-ictimai pafosun əsl mənbəyi məhz belə həyati və fəlsəfi mövzulardır. Bu mövzular Fikrətin bütün yaradıcılığında qüvvətli bir xətt təşkil edərək, onun ictimai mündəricəsini daha da zənginləşdirir" (6, s. 361).

Cəmiyyətşünaslıq məsələləri onun yaradıcılığında sosial-siyasi yox, fəlsəfi-estetik xarakter daşıyır. O, ictimai hadisələrin fəlsəfəsini açmağa cəhd göstərir, özünəməxsus yozumlar verir. "Var" şeirində də Fikrət Sadıq həyatı Tanrı ilə Şeytan arasında olan bir məkan kimi verir.

Tanrı adından iş görən,
Göyün çərxi-fələyi var.
Gündə yerə gəlib-gedən,
Neçə-neçə mələyi var.

Adəmi aldadan şeytan
Əl çəkməyib bu dünyadan.
Yeri yerindən oynadan,
Tufanı var, küləyi var (7, s. 17).

Şairin bədii təfəkkürü Tanrıdan uzaqlaşıb Şeytana yaxınlaşan bəşərin taleyi, əməlləri ilə bağlı düşüncələrini şeirdən şeirə calayır. Fikrət Sadıq inanır və bircə bu inam da onu yaşadır ki, bu olanlar, baş verənlər əsl həqiqət, mahiyyət deyil, yuxudur, özü də uzun sürən bir yuxu.

Qarışıbdır yalan-gerçək,
Bu dünya olub görəcək.
Bu yuxu uzun sürəcək,
Qurğuşundan bələyi var! (7, s. 17).

Əsl həqiqət, mahiyyət isə hardasa uzaqlarda gizlənib, bütün insanlıq, o cümlədən də o, bu həqiqətə doğru gedir, bir gün mütləq bu pis yuxu bitəcək, onlar o həqiqətə qovuşacaqlar. Şairin içində bu inam olmasaydı, bəlkə "ömür boyu işıq gəzdim" (7, s. 16) deyən şeirlərinin də işığı sönərdi. Yəqin ki, elə bu işıq tənqidçi Rəhim Əliyevi "Yaddaş hasarı" məqaləsində bu qənaətə gətirir ki: "Fikrət Sadığın həyat müşahidələri üçün fitri bir pozitivlik səciyyəvidir. O, həyata nəzər salanda yaxşı, gözəl, ucaşeyləri görür; bəzən bu meyil aşkar bir sadəlövhlüyə çevrilir" (2, s. 368). Tənqidçi Rəhim Əliyev öz qənaətində bir qədər yanılır. Biz bir məqamda onunla razıyıq ki, şairin poeziyasında bir pozitivlik var. Ancaq biz onunla razılaşa bilmərik ki, bu onun həyat və müşahidələrində ümumiləşir, o, həyatda yaxşı, gözəl, uca şeylər görür və "bəzən bu meyil aşkar bir sadəlövhlüyə çevrilir". Əksinə, bizim fikrimizcə, Fikrət Sadıq poeziyası həyata sadəlövh baxışdan doğmur və o, gerçəkliyi, geniş mənada, varlığı sadəlövh qavrayışın nəticəsi kimi də vermir. Şairin olduqca maraqlı və orijinal poeziya dünyasında gözəlliyin də, eybəcərliyin də ifadəsində özlərinə layiq dəyərləndirilməsi var – desək, səhv etmərik. Ancaq burada eybəcərlik gözəlliyi inkar etmir. Gözəlliyin axtarışında, eşqində, həvəsində olan şair eybəcərliyin də mövcudluğunu xatırlamalı olur.

O uzaqda işıldayan
Gümüş deyil, dəmir imiş.
Ömrü boyu işıq gəzdim,
Demə, bu da ömür imiş.

Dünya oyun, dünya ilğım,
Təpə imiş uca dağım.

Bəyaz bilib tanıdığım
Qapqaraca kömür imiş (7, s. 16).

O, dərin düşüncəli, iti müşahidəli bir şair kimi həyatın, dünyanın özünə layiq olmadığı bir biçimdə, donda olmadığını görməyə bilməzdi. Fikrət Sadıq qələmində R.Əliyevin iddia etdiyi kimi ancaq yaxşı, gözəl, uca şeylər yox, bununla yanaşı naqislər, xırdalar, eybəcərlər də potik fikri ifadə üçün uğurlu bədii detala çevrilir. Ancaq bu meyil şairin pozitiv ola bilməməsindən doğmur. Neqativlər Fikrət Sadıq şerinə onun içindən, qəlbindən süzülüb gəlmir. Bu neqativlər onun poeziyasına onun daxili dünyasının sərhədlərindən kənardan - ətrafdan daxil olur. Onun həmişə xeyirə tapınan, şərə yoldaş ola bilməyən qəlbi, həmişə düşünən-daşınan zəkası, heç vaxt susa bilməyən üsyankar ruhu ən kiçik naqisliklərin belə yanından laqeydliklə ötə bilmir. İnamla deyəbilərik ki, Fikrət Sadıq bugünkü bəşəri faciələrin bitib-tükənməzliyində, ucsuz-bucaqsızlığında yaşamasaydı belə, ən kiçik, ötəri eybəcərliklərin şahidi olsaydı belə, yenə də onun şair qələmi daha çox sözü bu neqativlərə verəcəkdi. Çünki şair miqyasından, əhəmiyyətindən, yerindən asılı olmayaraq şərə inanan, ona təslim olan bəşəri anlaya bilmir. Ona görə də onlar şairin düşüncələrini daha çox məşğul edir, onun poeziyasında daha çox yer alır. Xeyrin harda, nə vaxt, necə şərə uduzması Fikrət Sadıq yaradıcılığının əsas axtarış hədəflərindəndir.

Tənqidçi Rəhim Əliyevin şairin yaradıcılığında "sadəlövhlük meyli" ilə bağlı dedikləri ilə razılaşa bilmərik. Bu müdrik şair oyuncağa aldanan, uşaq kimi həyatın parıltısına aldanan deyil. Həyatın bər-bəzəyi onu aldada bilməz, o həmişə mahiyyətə varır, predmetin zahiri üzərində deyil, batinində öz fikir dünyasını qurur. Şairin yaradıcılığında nəinki sadəlövhlük müşahidə edilmir, hətta onun poeziyasında sərt, mühakiməli, ən qəti qərarları verməkdən, ən ağır hökmləri oxumaqdan çəkinməyən lirik qəhrəman görünməkdədir. Onun ayıq nəzərləri predmeti ən daxili qatlarına qədər bədii təhlilə çəkir, rəngi, boyanı deyil, mahiyyəti üzə çıxarır. Milli poeziya sənətimizdə görməyə adət etdiyimiz romantik üsluba Fikrət Sadıq poeziyasında rast gəlmirik, bu poeziya üçün hissi-emosional deyil, rasional üslub daha xarakterikdir.

Fransız nəzəriyyəçisi J.Martsen belə hesab edir ki, "öz təbiəti etibarilə incəsənət və əxlaq bir-biri ilə əlaqədə olmayan iki müstəqil sahələrdir. Bu anlayışlar arasında yalnız zahiri və dolayı əlaqə mövcuddur. Belə ki, həndəsəşünasın həndəsi teoremi sübut etməsində onun mənəvi simasının heç bir rolu olmadığı kimi, bədii əsərin yaranmasında da sənətkarın mənəvi aləminin heç bir rolu yoxdur". Burda fransız nəzəriyyəçisi ilə mübahisəetmək olar. Biz isə iddia edirik ki, hər bir yaradıcılıq məhsulu yazıçının mənəvi aləminin süzgəcindən keçərək yaranır. Düzdür, bu o demək deyil ki, yazıçı yaradıcılığında özünüifadə edir. Poeziyamızın uğurlu tədqiqatçılarından olan Səfurə Quliyeva "Müəllif və qəhrəman" məqaləsində yazıçının mənəvi aləminin bədii inikası məsələsi haqqında yazır: "Özünüifadə" anlayışı məhz müəllifin gənc yaşlarında qələmə aldığı yazıları üçün səciyyəvi anlaşılır". Əlbəttə, kamil bədii yaradıcılıqda yazıçı özünü yox, həyatı ifadə edir. Belinskinin dediyi kimi: "Heç bir şair nə özündən, nə də öz vasitəsilə, nə öz şəxsi iztirabları, nə də öz şəxsi səadətinin gücünə böyük ola bilməz" (11, s. 586). Söhbətimizin əsas mübahisə məqamına qayıdaraq qeyd etmək istəyirik ki, biz də böyük rus tənqidçisi Belinskinin, milli poeziya sənətimizin tədqiqatçısı Səfurə Quliyevanın dediyi kimi, "özünüifadə" məsələsini bölüşürük, ancaq bədii əsərdə "özünüifadə-

nin" yoxluğu, Fransız nəzəriyyəçisi J.Martsenin iddia etdiyi kimi onda yazıçı mənəvi aləminin rolunu inkar etmir. Bir riyaziyyatçının kəşflərində onun mənəvi aləminin rolu ona görə sıfra bərabərdir ki, elmi bir kəşf yaradıcılıq prosesi deyildir, burda təfəkkür artıq mövcud olan, ancaq insan zəkasından gizli qalanlar üzərində düşünür və o öz düşüncələri ilə ona heç bir şey əlavə etmir. Ancaq bir yazıçının mövqeyi isə fərqlidir. Onun təfəkkürü üçün mövcud olanlar ancaq bazadır ki, onlar yazıçının təfəkküründə emal prosesi keçir, bədii təxəyyül onlara nələrisə əlavə edir, yeni forma və məzmun ortaya qoyur. Bu yaradıcılıq prosesi olduğundan yalnız təfəkkürə əsaslana bilməz, burda mənəvi aləmin də iştirakı labüd və qaçılmazdır. Bu faktı psixologiya elmi də təsdiqləyir ki, insanın yaratdıqlarının arxasında onun şəxsiyyəti dayanır. Bədii yaradıcılıq da həmişə tənqidçiyə də, oxucuya da imkan vermişdir ki, onlar yazıçının mənəvi portretini cızsınlar.

Fikrət Sadığın da yaradıcılığı oxucunun yaddaşında yalnız təsvir predmeti və lirik qəhrəmanın obrazı kimi qalmır. Onun əsərlərini mütaliə etdikcə oxucunun təsəvvüründə şairin özünün də obrazı yaranır. Bu obrazda ağsaqqal, dünyanı görüb-götürmüş, müdrik bir insanın siması vardır. Çox maraqlıdır ki, bu obrazı oxucu təsəvvürünə onun yalnız ahıllıq yaşlarında yox, əvvəlki dönəmlərdə yazdığı şeirlər də verir. Oxucu bu misraların arxasında məhz ahıl bir insanın dayandığını zənn edir.

Nəinki şairi zahirən tanıyan, hətta onun zahiri simasını ömründə bir dəfə də olsun görməyən oxucu şairi məhz bəyaz saçlı, müdrik baxışlı, cüssəli biri kimi təsəvvür edir və bu təsəvvüründə də yanılmır. Əksinə bu təsəvvür şeirdən şeirə daha da möhkəmlənir. Tənqidçi Vaqif Yusiflinin yazdıqları dediyimizi təsdiqləyir: "O, nəhəng cüssə, bəmbəyaz saçlar Fikrət Sadığı Dədə Qorquda oxşadır",- deyirik. Əlbəttə, insanı nəhəng görünən cisminə, ululuları xatırladan görkəminə görə hansı müqəddəs insanasa oxşatmaq bəzən yerinə düşmür. Ancaq Fikrət Sadığın görkəmi ilə şeirlərindəki, həyata münasibətindəki müdriklik üst-üstə düşürdü və bu tənasüb indi də pozulmayıb" (10, s. 464).

Fikrət Sadığın publisistikasını oxuduqca görürsən ki, şairin poeziyasının müəllif haqqında oxucuya verdiyi təqdimat yanlış deyilmiş, oxucu poeziyadan tanıdığı mətin, qəti mövqeli, həqiqətpərəst, üsyankar ruhlu, pislik görəndə bir qaya kimi sərtləşən, yaxşılıq görəndə uşaq kimi kövrəkləşən, yanar ürəkli bir insanı onun publisistik yazılarında da görür, eşidirik. Tofiq Abdin yazmışdır: "Təbiətcə çox ağır və sakit olan bir şair, sonda bütün ağrılara dözməyərək üsyan edir" (1, s. 4). Müşahidə çox dəqiqdir. Onun poeziyasının həzin, çox kövrək əhvali-ruhiyyəsini bəzən çox üsyankar bir ruh əvəz edir. Şair həyəcana gəlir, bəzən də qəzəblənir.

Onun şeirlərində "həqiqət aşiqi" bir şairin cəsarətli, qorxmaz obrazı vardır. Şair bu cəsarəti öz fiziki gücündən deyil, öz əxlaqından pay alır. O, nə itirəcəyi addan qorxur, nə də almayacağı mükafatın dərdinə qalır. Onun təmənnasız şair qəlbi, kimsədən sifariş almayan şair qələmi böyük Sabirin dediyi kimi: "əyrini əyri, düzü həmvar yazım" fəlsəfəsi ilə yazıb-yaradır. O, əyrilərə, düzlərə arşın olmağa çalışır. Onların taleləri ilə bağlı müşahidələrini isə belə ümumiləşdirir.

Əyrini divara dirədilər,
Güllələdilər,
Güllələr əyri getdi.
Düzü divara dirədilər,

Güllələdilər,
Güllələr düz getdi (7, s. 111).

Fikrət Sadığın poeziyası, desək ki, kədərin poeziyasıdır, səhv etmərik. Bu poeziya içində qəm yükünü daşıyıb sevinc axtaranların poeziyasıdır. Kədər, qəm Şərq poeziyasının, o cümlədən onun bir hissəsi olan milli poeziyamızın əsas motividir.Ancaq Fikrət Sadıq poeziyasının kədəri poetik nəsillər arasında bir körpü yaratmır. Onun kədəri klassik poeziyanın kədər fəlsəfəsindən xeyli fərqlidir. Fikrət Sadıq yaradıcılığında dünya bir "qəm evi" kimi, əzab-əziyyət insanın əzəli və əbədi qisməti kimi fəlsəfi məna qazanmır. Düzdür, şairin şeirlərində dünyanın bir qəmxana obrazı var. Ancaq Fikrət Sadıq fəlsəfəsinə görə dünya qəmə yox, sevincə məskən olmalıdır. Dünyanın qəmxana olması onun boyuna biçilmiş tale deyil, pis insanların əməllərinin nəticəsidir. Klassik poeziyamızın kədər fəlsəfəsinə görə öz ilkindən qopub bu dünyaya düşdüyü üçün insan hüzn içindədir, maddi dünyanın kədərindən ləyaqətlə keçən insan öz sevincini mənəvi dünyada tapacaq, Fikrət Sadığa görə isə insan bu dünyaya sevinc üçün gəlib, əvəzində qəm tapanda onun faciəsi başlayır, sevinc uman qəlbi kədərə təslim olur. O, kədərə təslim olmamalı, ona qalib gəlməli, öz sevinci üçün mübarizə aparmalıdır.

Fikrət Sadıq kədəri şəxsi kədər deyil, o, ictimai kədərdir. Bu kədər şairin poeziyasını nəcibləşdirir, müdrikləşdirir, dolğunlaşdırır. Professor Nizaməddin Şəmsizadə şairə ünvanladığı açıq məktubunda yazır: "Fikrət, sənin şeirlərin narahat ruhun fəryadıdır. Mən bu şeirlərdə Azərbaycan xalqının üzüntülü simasını gördüm. Sənin tənhalıq və imkansızlıq arasındakı fəzada aramsız çırpınan lirik mənin, arı çiçəkdən bal çəkən kimi, insanların üzündən hüzn yağır və onu ilham gülüstanında məhəbbətlə çiçəkləndirir. Bu sarı hüzn çiçəkləri bizə daha doğmadır, çünki onlar tənha xalqın kədərli təbəssümünün poetik ifadəsidir. Daş-kəsəkdə çiçək bitirmək hər bağbanın işi deyil, sənin füsunkar poeziyan "heç nə" adlandırdığın daş-kəsəkdən yaranıb-" sən bu daş-kəsəyə birdən-birə elə məhəbbətlə baxmısan ki, heyrətdən böyüyən gözlərin kədər bulağı-göz yaşı çağlayıb, onlara yazığın gəlib" (9, s. 424).

Fikrət Sadığın anlamında əsl şeir kədərdən doğulur.
Gərək ürək dərdnən dola,
Söz deməyə sözün ola.
Şeir onda çıxar yola,
Nə desin heçə şairlər (7, s.13).

Ümumiyyətlə, Fikrət Sadığa görə bədii yaradıcılığın yolu ilhamdan, qafiyədən yox, düz sözdən keçir. Onun fikrincə, əsl şair oxucuya öz uydurmalarını deyil, həyat həqiqətini çatdırmalıdır.

İlham alıb xam xəyaldan,
Yazıb özünü aldadan.
Qəlbi soyuq, şeri yalan...
Var belə neçə şairlər (7, s. 13).

Doğrudan da, elə şairlər vardır ki, sözü mirvari kimi sapa düzüb ona min bir rənglə bəzək vurur. Bu cür şeirlərdə sözün bəzəyinə oxucu dalır, mütailəsini ona

həsr edir, mütailə bitdikdən sonra oxuduqları onun yaddaşında, hissində heç bir iz buraxmır. Bu mənada oxucu Fikrət Sadığın poeziyasında parıltının yox, fikrin, həqiqətin cazibəsinə düşür. Fikrət Sadıq poeziyası hislərin ifadəsindən daha çox, ağlın səsləndiyi yerdir. Onun şeirlərində həyat həqiqəti bədii təxəyyülü üstələyir. Şairin poeziyası həqiqət axtarışları üzərində qurulub. Onun bir şair etiqadı odur ki, "həqiqət harada isə poeziya da oradadır" (11, s. 278).

Fikrət Sadıq yaradıcılığında fəlsəfi şeir, əlbəttə, özünün kamillik zirvəsində deyil. Ancaq onun şeirlərinin həyati gücü bu əsərlərə fəlsəfi bir məzmun gətirir. Bu məzmun onun poeziyasında bəzən də yazlaşmalarla, bəzən dədərinləşmələrlə müşahidə olunur. İstər dayazlıqlarda, istərsə dədərinliklərdə şair həyatdan, reallıqlardan uzaqlaşmır. Onun şeirləri həyatın, yaşayışın bədii analizidir. N.Şəmsizadənin şairə ünvanladığı açıq məktubunda belə bir maraqlı məqam var: "Tanış olduğumuz illər ərzində hər dəfə səni görəndə barələrində əsərlər oxuduğum, fəqət heç vaxt üzlərini görmədiyim sufiləri təsəvvür edirdim. Mənə elə gəlirdi ki, narın yerişinlə biz kənd uşaqlarını aldatmış Bakının küçələrindən keçə-keçə insanlara həyatın vecsizliyi haqqında sonu bilinməyən lirik nağıllar danışırsan" (9, s. 423). Doğurdan da, Fikrət Sadıq şeirlərində bir sonu bilinməzlik var. Bu şeirlər dövranın gərdişi ilə bağlı cavabsız sualları xatırladır. Şair sanki öz şeirləri ilə həmişə səfərdə, həmişə yoldadır, öz axtarışlarını davam etdirir.

Ədəbiyyat:

1. Abdin T. Şair atanın fəryadı // Sadıq F. Ağ-qara şeirlər. Bakı: "Vektor" Nəşrlər Evi, 2005, 52 s.
2. Əliyev R. Yaddaş hasarı // Sadıq F. Taleyin acığına. Bakı: Çinar-çap, 2003, 526 s.
3. Əliyeva İ. Poetik ilhamın özünəməxsusluğu. Bakı: Elm və Təhsil nəşriyyatı, 2009, 201 s.
4. Fikrətoğlu O. Gözümə bir yol görünür // Sadıq F. Taleyin acığına. Bakı: Çinar-çap, 2003, 526 s.
5. İlham A. Ümid işığı // Sadıq F. Taleyin acığına. Bakı: Çinar-çap, 2003, 526 s.
6. Mütəllimov T. Dəniz küçəmizə gəlir // Sadıq F. Taleyin acığına. Bakı: Çinar-çap, 2003, 526 s.
7. Sadıq F. İşlə ev arasında. Bakı: Gənclik, 1997, 179 s.
8. Sadıq F. Taleyin acığına. Bakı: Çinar-Çap, 2003, 528 s.
9. Şəmsizadə N. Şeir göydən enəndə // F.Sadıq. Taleyin acığına. Bakı: Çinar-çap, 2003, 526 s.
10. Yusifli V. Şair ömrü // Sadıq F. Taleyin acığına. Bakı: Çinar-çap, 2003, 526 s.
11. Белинский.В.Г. Полное собрание сочинения.в 30-ти томах, т.4., Издво АНСССР, М., 1955.
12. http://ortlib.narod.ru/perso/perso131.htm
13. http://citaty.info/man/zhan-zhak-russo

Егяна Гурбанова

Взгляд на мир размышлений Фикрета Садыга

Резюме

В статье рассматриваются интересные суждения о философской мысли в поэтическом творчестве Фикрета Садыка. Правда, Фикрет Садык не является философом, и никогда не ставил перед собой такой цели. Однако в его поэзии часто встречаются глубокие философские мысли, которые вызывают еще больший интерес у читателей к стихам поэта. Конечно, здесь нельзя говорить о каком-либо системном изложении философского видения мира или тенденции, из которых вытекает определенное мировоззренческое учение. Тем не менее, поэзия Фикрета Садыка по своему философско-эстетическому содержанию обладает силой и красотой мысли.

Yegana Gurbanova

A wiev on the Fikret Sadiq's thoughts world

Summary

The article deals with the interesting judgments about philosophical thought in Fikret Sadiq's poetry. Fikret Sadiq is not a philosopher, and never set out to do this. However, his poetry often deep philosophical thoughts that cause even more interest among readers to poems of the poet. Of course, one can not speak of any systematic exposition of philosophical vision of the world or trends, which imply a certain philosophical doctrine. Nevertheless, Fikret Sadiq's poetry in its philosophical and aesthetic content has the power and beauty of thought.

Rəyçi: Professor Tofiq Hüseynoğlu

ШАФАЯТ ДЖАФАРОВА
АГПК
shafa1973@mail.com

ТИПЫ ЖЕНЩИН В АЗЕРБАЙДЖАНСКОМ ФОЛЬКЛОРЕ

Açar sözlər: folklore, qadın, nağıl, tip, müqayisə
Key words: folklore, woman, tale, character, comparison.
Ключевые слова: фольклор, женщина, сказка, тип, сравнение

Фольклор — это традиционная, неофициальная часть картины мира, которая включает все знания, понятия, ценности, отношения, предположения, чувства и поверья, переданные традиционным способом из уст в уста или посредством традиционно сложившихся обрядов. Фольклор воспринимается как сокровищница народной мудрости и многовекового опыта, отражающий духовную жизнь народа, его мысли, мечты и героические устремления. Он содержит единую систему мифологических, религиозных, нравственных, социальных представлений и норм, которые в целом выражают своеобразную память этноса, его отношение к природе и обществу, нравственные принципы и взгляды на окружающий мир.

Поскольку фольклор является в большей степени устным народным творчеством, важно учитывать роль носителя или интерпретатора сюжета повествования, который каждый раз обогащает своим творческим компонентом его содержание. «Человеческая деятельность, включающая в качестве составной части культурную составляющую, одновременно и универсальна и национально-специфична. Поскольку язык отражает тот опыт, который приобретает народ за многие годы существования и творения, можно утверждать, что язык является орудием передачи национального опыта, накопленного веками, и способом вербализации фольклорной картины мира. Каждый народ фиксирует в языке свое специфическое восприятие действительности, которое связано с историческими факторами, национальными особенностями, культурой данного социума, то есть с картиной мира» (Богатырев, 1971).

Фольклорную картину мира мы трактуем как информацию об окружающей человека действительности, о внешнем и внутреннем мире, закрепленную различными средствами, в том числе и языковыми в фольклорных текстах. При этом все же сказитель отражает явления объективного времени и пространства, существующего в его собственном воображении, поскольку фольклорный текст отражает явления действительности, а также не исключает вымысел, трансформируя их в соответствии с собственным восприятием картины мира. Отметим еще такую особенность фольклорного текста, как «незамкнутость», которая отличает его от художественного текста. Смысл «незамкнутости» фольклорного произведения заключается в том, что каждый рассказчик является и автором, и соавтором, имеющим полное право на собственную импровизацию.

«Еще одну особенность фольклорного текста мы хотели бы отметить — это его индивидуальность, так как каждый сказитель ведет повествование через призму собственных желаний, настроения и стремления передать в своем понимании целостность полученной от предыдущего сказителя информации, при этом не повторяя ее, а привнося ей дополнительную красочность. Важно учитывать, что фольклорный текст не хранится в памяти сказителя в заученном виде, при каждом исполнении он как бы заново монтируется по определенным моделям (сюжетным, композиционным, жанровым)» (Богданов, 2001).

В данной статье мы рассматриваем роль и тип женщин в азербайджанском фольклоре. Существенный вклад в азербайджанское устное народное творчество внесли женщины. Поэтому самостоятельное изучение устного творчества женщин – своевременное и необходимое дело.

Раньше женщина, несмотря на ограниченность своих прав, играла большую роль в жизни народа. Она была не только матерью и надежной опорой семьи, ее хрупкие плечи несли на себе всю тяжесть заботы о благополучии семейного очага. Наряду с этим женщина, когда требовалось, была и воином; она вдохновляла мужчин на подвиги во имя свободы родины, была первой в радости и в горе. Непревзойденная хозяйка - она не имела себе равных в гостеприимстве. В радости и в беде, в непрерывных заботах женщина находила время и для поэзии.

Даже в ритуале оплакивания умерших, прощания с ними женщины играли главную роль. Путем импровизации женщинами созданы высокохудожественные поэтические тексты - в виде плачей в голос, прорицаний, часть трудовых и колыбельных песен. Особого внимания заслуживают «плачи в голос», традиция сочинения которых жива и поныне в районах юго-восточного Азербайджана, в основном в Астаре, Масаллы, Ярдымлы и Лерик. Например, интересно отметить, что по хакасскому обычаю, «на поминки обязательно приглашался сказитель- или, чаще, сказительница-хайджи, который под аккомпанемент чатхана исполнял героическое сказание всю ночь. Сказители или сказительницы пользовались большим уважением и часто приглашались в гости в разные концы Хакасии. Их с удовольствием брали в тайгу на охоту. Они ночами должны были исполнять героические сказания. «Горные хозяева» якобы любили слушать музыку и сказки. За полученное удовольствие они давали свой «скот», т.е. зверей. После охоты происходил равный раздел добычи между всеми членами артели. Героические поэмы исполнялись горловым пением, что придавало ощущение необычности. Согласно народным представлениям, умение петь горлом дает «хозяин» горлового пения *(хай ээз)*. Особенно интересно слушать древние плачи *(сыыт)* и песни об известных князьях (Оджен-бег, Ханза-бег) (Функ, Томилов, 2006, 608).

В Азербайджане раньше, оказывается, существовала даже профессия певицы, что, естественно, было бы немыслимо без поэтического слова, и, видимо, предполагало также и собственное творчество женщин. Удивительный поэтический дар азербайджанских женщин отчетливо проявляется в народной поэзии. В Азербайджане собирание образцов народной мудрости

приняло организованный характер в прошлом веке, но поэтический репертуар женщин особо не выделялся.

В настоящей статье мы также ставим целью четко определить творческий вклад женщин в развитие азербайджанского фольклора, роль простой труженицы в создании, развитии и распространении национальной народной словесности.

Почти во всех уголках Азербайджана есть свои сказительницы, но мы различаем сказительниц-носителей традиционного устного народного творчества и авторов-сказительниц, имеющих собственное поэтическое творчество. Последних удалось выявить главным образом в юго-восточном Азербайджане, причем исследования подтвердили, что горные районы Азербайджана по традиции стихосложения резко отличны от низменных. Более отчетливо проявляется роль женщин в народной поэзии в юго-восточном Азербайджане. Это подтверждают материалы, зафиксированные учеными-фольклористами во время полевых исследований в различных уголках республики (Азербайджанские тюркские сказки, 1935). Имена многих сочинительниц стихов растаяли со временем, но в их устных творениях все же сохранились следы, указывающие на личность авторов, а в некоторых случаях интересные сведения о них сохранил сам народ.

Мало дошло до наших дней древних образцов устного творчества женщин. Данное обстоятельство следует объяснять отнюдь не тем, что в далеком прошлом сочинительниц было меньше. Тут надо учитывать еще одну специфическую сторону сохранения и распространения народных стихотворений без фиксирования, определяемую различной ролью поколений в сохранении и распространении образцов устного народного творчества: стихотворение, понятное и любимое для одного поколения, другому могло не показаться таким, и оно предавалось забвению. К тому же репертуар ушедших из жизни оставался незафиксированным, что также способствовало его забвению.

В наше время устный поэтический репертуар женщин вызывает большой интерес у исследователей. Серьезная работа в этой области проделана учеными Х. Ализаде, А. Х. Таиров, М. Х. Тахмасиб, Баги Гусейнов и другими.

Великий композитор У. Гаджибеков, говоря об искусстве ашугов в Азербайджане, неоднократно повторял, что это искусство было распространено не только среди мужчин, но и среди женщин, и советовал его развивать. В нашей народной поэзии баяты, агы, лайла и большинство развлекательных песен необходимых для развития детей были созданы поэтессами и женщинами-ашугами. Женщина, врожденно обладающая поэтической и материнской душой, особое отношение проявляла к стиху. Несмотря на то, что из-за исламских законов большинство имен женщин-мастериц искусства до нас не дошло, у нас имеются сведения о некоторых из них. Последователями этого древнего искусства среди женщин были Ашуг Ширин, Ашуг Мелек, Ашуг Пери, Бейим ханым, Ашуг Мина, Ашуг Сона, из Шеки Махтаб ханым, Гызетер, Даглы кызы Лейла, Ашуг Набат, Ашуг Бести, Ашуг Сенем. Сведения о женщинах-ашугах очень ограничены. Например, живущая, в первой половине XIX века, маралянлы Ашуг Пери из Карабаха, ее современниками были Касым бей Закир и Мухаммед бей. Некоторые ее

гошма и герайлы привлекли наше внимание. В 1928 году А. Музниб в книге «Ашуг Пери и ее современники» впервые дал сведения об Ашуг Пери, и опубликовал образцы из ее гошма, герайлы и дейишмелер (состязание в импровизации стихов и в пении у ашугов). Ее мастерство можно увидеть в стихотворном (мензум) письме, написанном своему современнику Мирзаджану.

Görən pəh-pəh dedi şövkəti-şanə,
Biz də mail olduq qaşu-kamanə.
Alov-alov şölə salıb həryanə,
Sanasan ki, ləli-bədəxşan gəlib.

В работе из-за ограниченности ее объема мы можем дать творческий портрет лишь некоторых авторов. Но и на их примере можно составить ясное представление о поэтических возможностях простой труженицы и о традиции сочинительства женщин, об их роли в развитии народной поэзии.

В одной из далеких деревень Кельбаджара слепая женщина по имени Бести завоевала славу как маститый ашуг. Герайлы, написанные Ашуг Бести в обращении к горам, один из хороших примеров ашугских стихов.

Dağ üstündən çəkdin dağı.
De nəydi günahım, dağlar?!
Sən mənə kəsildin yağı,
Tutsun səni ahım, dağlar!

Qara gəlibdir dövranım,
Əl vurma tökülər qanım,
Hanı mənim Xançobanım,
Oydu qibləgahım, dağlar!

Когда апрельское солнце озарило лицо ашуга, ей было около ста лет. Она стихотворение с редифом «Гейрет ейле» встречает долгожданный светлый день:

Gəldi Şura, gəldi,
El, qeyrət eylə!
Yorulma, usanma,
El, qeyrət eylə!

К сожалению, народная память донесла до нас весьма скупые сведения о женщинах - мастерах поэтического слова, ввиду чего установление женского репертуара - дело нелегкое, хотя во многих стихотворениях зачастую обнаруживаются такие детали, которые убеждают, что их первоначальным автором должна была быть женщина (Mürsəlov, 1974, №5, 199). Интересной частью народного творчества женщин являются импровизированные тексты. Сочинение стихотворения посредством импровизации и его исполнение еще ярче подтверждают способности женщин в области стихосложения.

Например, рассмотрим жизнь и судьбу еще двух женщин, обладающих таким даром.

Первая, это красноречивая бабушка Агджагыз родилась в одном из этих мест Хагвердили. Очень рано вышедшая замуж за Маликмаммеда сына Гаджима в край Гаджиманлы, находящийся в Хагвердили, Агджагыз отличается от всех своим умом и умением красиво говорить. Экспромтом сказанные бабушкой Агджагыз баяты-гошма переходят в уста деревенских женщин. Радость и печаль души Агджагыз чувствуется в сказанных от души гошма и баяты, которые до сих пор живут в нашей деревне и переходят из уст в уста. Ниже ознакомимся с творчеством (гошма) Агджагыз (Narınc, 1981, №5, 18):

ALAÇIQ

Üstünə ha örtdük qalın gecələr
Qış boz gəldi yenə donduq, alaçıq!
Qamış işığına qaldıq gecələr,
İçində yuxular yorduq, alaçıq!

Ağcaqız söz deyər sözün xasını,
Alaçıq, o günün sən tut yasını!
Bu baharda ellər çaldı sazını
Axır yeni dövran qurduq, alaçıq!

QOCANIN

Nəsihət verəndə ağız ki, büzdü
Nə olsun gözəldi, qaməti düzdü.
Danışanda sözü elə bir gürzdü,
Vuracaq başına haman qocanın.

Səksəni, doxsanı vurmuşam başa,
Heç duz tökməmişəm şəkərli aşa,
Salam da verəndə çıxır savaşa,
Tapılmaz dərdin dərman qocanın.

Ağcaqız, bəd gəldi gəlin ilə qış,
Oğlunun evindən gəl indi yığış,
Qoy sənsiz başlansın evində yarış
Veribdir fərmanın zaman qocanın.

Вторая, Ашуг Набат (Набат Паша кызы Джавадова) родилась в 1914 году в бедной деревенской семье в деревне Балчы района Норашен. Набат еще с детских лет потерявшая родителей в 1934 году переехала в район Барда, здесь она три года была ученицей Ашуга Мусы Гейчайского, у него она научилась ашугскому искусству. Набат, с детства обладающая красивым голосом и врожденным талантом, очень быстро научилась играть на сазе, и

скоро прославилась как маститый ашуг. Певучий голос и красивое исполнение является отличительной чертой Набат среди женщин-ашугов. Ашуг Набат хорошо знает несколько народных дастанов, около 200 стихов народных поэтов, классиков-ашугов и современных ашугов. Она является автором нескольких гошма, герайлы, олицетворяющей нашу современную жизнь. Ашуг Набат несколько раз была удостоена почетной наградой за выступления перед трудящимися. Ашуг Набат наряду с мастерским исполнением на сазе, еще обладала талантливым поэтическим даром. Написанные ею определенная часть герайлы и гошмалар, посвященные родине, любви, были опубликованы, но большая часть, к сожалению, была забыта. Ее земляки говорили, что она безумно была влюблена в свое искусство, а также она могла увлечь всех своими интересными разговорами на разных торжествах. Говорят, она так талантливо исполняла сказки и разговоры таких мастеров саза, как Гурбани, Аббас, Хаста Гасым, Керем, Ашуг Алескер, что ею заслушивались до утра. Ее 89-летняя сестра Шарабаны рассказывала, что «у моей сестры была тяжелая жизнь. Она вышла замуж и переехала в Седерек. Но через некоторое время ее мужа убили. И моя сестра, сняв белое платье, одела черное - траурное. Потом брат решил выдать ее за одного старика. Она воспротивилась брату. И ушла неизвестно куда. Однажды мы услышали, что она, взяв в руки саз, начала петь. Она еще с детства мечтала петь с сазом на свадьбах. Ее голос раздавался из разных уголков нашей страны: Гянджа, Барда, Карабах. Самед Вургун был ей ближе отца родного. О ней существует много воспоминаний. Мы уверены, что в будущем фольклористы займутся исследованием творчества и жизнью Ашуг Набат». Ниже мы приведем несколько строк из стихов, написанных ашуг Набат (Rzayeva,1989, №2, 5):

DANIŞAQ

Şair qardaş, sən qələmlə mən sazla,
50 yaşlı bu bahardan danışaq!
Min gül açıb Azərbaycan torpağı,
Tükənməyən arzulardan danışaq.

Gözəllikdə qənirsizdir bu diyar,
Sərvəti var, neməti var, barı var.
Yurdumuzda əbədidir xoş bahar,
Aradakı düz ilqardan danışaq.

MƏHƏBBƏTİM VAR

Gözlərim axtarır, hanı Xan qızı,
O şeir pərisi, şeir ulduzu.
Adından da göründüyü kimi, "Dəhnamə" (on məktub) mövzusu klassik Azərbaycan ədəbiyyatında ilk dəfə fars dilində yazıb-yaradan şairlər tərəfindən işlənmiş və XIII əsrdə Hümam Təbrizi, XIV əsrdə Marağalı Övhədi yaradıcılığında öz bədii əksini tapmışdır. XVI əsr Azərbaycanının böyük sərkərdə və hökmdarı, eləcə də gözəl söz sənətkarı Şah İsmayıl Xətayi bu mövzunu ana dilində işləyən ilk sənətkardır. Ənənəvi süjet xəttinə sadiq qalsa da, Xətayinin "Dəhnamə" poeması tam mənasilə orijinal bir əsərdir və Azərbaycan epik poeziyasının şedevrlərindən biri kimi qiymətləndirilə bilər. Bu orijinallıq hər şeydən öncə, əsərin dilində və üslubunda özünü büruzə verir. Bu xüsusiyyətlər isə özlüyündə əsas qəhrəmanların – Aşiq və Məşuqə obrazlarının orijinal bədii təqdimatına imkan yaradır. Bu mənada, əsas qəhrəmanların münasibətlərindəki inkişaf dinamikasını izləmək də maraq doğurur.

Poemada klassik anadilli epik ədəbiyyatda öz əksini tapmış müsbət qəhrəmanlar sırasında aparıcı yeri tutan Aşiq obrazı və onun tərəf-müqabili olan Məşuqə tandemi barədə araşdırmaların konkret poetik material əsasında nəzərdən keçirilməsi müəyyən elmi qənaətlərə gəlməyə imkan verir.

Aydındır ki, klassik Azərbaycan ədəbiyyatı, o sıradan Şah İsmayıl Xətayinin də yaradıcılığı həm dünyəvi, həm də irfani araşdırmalar üçün material verir. Bu səbəbdən "Dəhnamə" poemasındakı qəhrəmanların da iki ipostasda alınaraq tədqiqata cəlb edilməsi məqsədəuyğun sayılır. Bunlardan birincisi, Azərbaycan klassik anadilli poeziyasının aparıcı istiqaməti olan dünyəvi ipostas, ikincisi isə bu poeziyada ikinci dərəcəli rol oynayan və daha çox formal xarakter daşıyan, İran təsəvvüf ədəbiyyatı ənənəsinin təsirindən gələn irfani ipostasdır. Qeyd etmək lazımdır ki, istər lirik, istərsə də epik qəhrəmanların sufi-mistik təqdiminə meylin zəifliyi, klassik Azərbaycan poeziyasının aparıcı xüsusiyyətlərindən biri olmuş və çağdaş dövrdə onun aktuallığını şərtləndirən əsas səbəblərdən biri kimi nəzərə çarpmaqdadır.

Aşiq-məşuqə qarşılıqlı münasibətlərinin mənəvi-psixoloji kontekstdə təhlili də klassik Azərbaycan epik poeziyasında maraq doğuran və müasir elmi səviyyədə həllini gözləyən problemlər sırasındadır. Həmin rakursdan yanaşdıqda, Şah İsmayıl Xətayinin "Dəhnamə" poeması kifayət qədər poetik material verir. O da maraq

doğurur ki, orta əsrlərin romantik sənət tipinin tələblərinə uyğun olaraq, əsas qəhrəmanlar statik vəziyyətdə deyil, poetik situasiyadan asılı olaraq müəyyən dəyişikliklərə məruz qalan dinamik obrazlar kimi təqdim olunur. Bu da onların mənəvi-psixoloji münasibətlərinin daimi bir dinamikada alınaraq təhlil edilməsinə imkan yaradır.

Ancaq onu da qeyd etmək lazımdır ki, poemadakı əsas qəhrəmanların münasibətlərindəki mənəvi-psixoloji dinamikanın gerçəkləşməsində köməkçi obrazların da özünəməxsus rolu vardır və bu baxımdan onlara da müəyyən mənada qəhrəman statusu vermək mümkündür. Əslində, qəhrəmanların münasibətləri məhz köməkçi obrazların vasitəçiliyi sayəsində baş tutur və bu da onlardan xüsusi səriştə və bəzən də fədakarlıq və qəhrəmanlıq tələb edir. Poemada Aşiq-Məşuqə münasibətlərinin nizamlanması prosesində köməkçi obrazlar bir sıra məhrumiyyətlərə və cəzalara məruz qalır, hətta həyatlarını belə qurban verməkdən çəkinmirlər. Əsərdəki Məktublardan birinin başına məhz bu fəlakət gəlir. Qəzəblənmiş Məşuqə onu parça-parça edərək havaya sovurur.

Poemanın əsas qəhrəmanları konkret obrazlar olsalar da, onları əhatə edən surətlərin bir çoxu mücərrəd səciyyə daşıyır ki, bunların da sırasında Səba yeli, Göz yaşı, Ah, Məktub obrazlarını göstərmək mümkündür. İndiyə qədər xətayişünaslıqda bu obrazların səciyyəsi haqqında müəyyən fikrilər söylənilmiş, onlar müəyyən rakurslardan təhlilə cəlb edilmişlər. Ancaq bunlarla yanaşı, Aşiq-Məşuqə münasibətlərinin nizamlanmasında birbaşa vasitəçilik etməyən, lakin süjetin inkişaf xəttində mühüm rol oynayan obrazlar da vardır ki, onların arasında Ürək (Könül, Dil), Tanrı, Hatif, Eşq odu, Eşq, Tale (Bəxt), Günəş və başqa mücərrəd obrazlar da vardır. Əlbəttə, bunların bir çoxuna biz müəllif təhkiyəsindəki müraciət anlarında rast gəlirik. Bununla belə, hadisələrin inkişafında onların da müəyyən rol oynadığını inkar etmək çətindir və yeri gəldikcə, onların poetik funksiyasının üzə çıxarılıb qiymətləndirilməsinə cəhd göstərəcəyik. Əlbəttə, əsas qəhrəmanların ideya-bədii xarakteristikasını verdikdən sonra.

Şah İsmayıl Xətayinin "Dəhnamə" poemasının baş qəhrəmanının Aşiq obrazı olmasına kimsə şübhə etməz. Ancaq bu obraz müəllif tərəfindən tamamilə formalaşmış bir şəkildə deyil, əsər boyu inkişaf və kamilləşmə dinamikasında təqdim edilməsi ilə maraq doğurur. Akademik Həmid Araslı məhz Aşiq obrazının kamil mərhələsini nəzərdə tutaraq, onu aşağıdakı kimi səciyyələndirmişdir: "Dəhnamə"də biz həqiqi eşq hissləri ilə çırpınan bir qəlbin döyüntüsünü, arzusuna qovuşmaq üçün hər şeyi qurban verməyə, hər bir çətinliyə sinə gərməyə hazır olan bir insanın tələşını, ən qorxunc fəlakətlər qarşısında özünü itirməyib öz eşqinə, öz məsləkinə sadiq olan bir aşiqin hicrandan qopan hıçqırıqlarını, həm də vüsaldan doğan sevincini dinləyir və duyuruq. Bu əsərdəki eşq o qədər təmiz, o qədər safdır ki, şair onun qarşısında diz çökür." (1, 304.)

Doğrudur, Aşiq obrazının bu elmi xarakteristikasında Sovet dövrü ədəbiyyatşünaslığının ideoloji tələblərindən irəli gələn bir qədər ideallaşdırma da nəzərə çarpır; ancaq bununla yanaşı, bütövlükdə alimin gəldiyi elmi nəticəni qənaətbəxş saymaq olar; belə ki, son nəticədə şairin nəzərdə tutduğu qəhrəman məhz bu şəkildə xarakterizə edilə bilər. Əslində isə bu mərhələyə, yəni kamil aşiq mərhələsinə çatana qədər poemanın baş qəhrəmanı doğrudan da bir çox əzablardan və çətinliklərdən keçməli olmuş, məhrumiyyətlərə qatlanmış, bəzən bunları ürək ağrısı ilə,

bəzən isə yumorla qarşılamış, son nəticədə öz məqsədinə nail olmaq istiqamətində doğru yol tutduğu məlum olmuşdur. O da maraq doğurur ki, Aşiq vüsala çatmaq yolunda olan maneə və təhlükələrlə birbaşa üzləşmir və həmin maneələrin aradan qaldırılmasını Məşuqə ilə öz arasında olan və bir növ bufer funksiyası daşıyan köməkçi obrazların vasitəsilə həyata keçirir. Əlbəttə, bu, Aşiqi müəyyən mənada cəngavərlik statusundan geri qoyur; ancaq hər halda bütün bunlar Aşiqə qarşı oxucuda etiraz və antipatiya doğurmur, onun eşqinin səmimiliyinə heç bir xələl gətirmir. Çünki bu köməkçi obrazların əksəriyyəti elə Aşiqin özü, onun varlığından qopan yaradıqlardır. Məsələn, Göz yaşı, Ah, Məktub və s. belə obrazlar sırasına daxildir.

Onu da qeyd etmək lazımdır ki, əsərin qəhrəmanının "Aşiq" adlandırılması da şərtidir və onun sonrakı mənəvi-psixoloji statusunun əlamətini ifadə edir. Halbuki, poemanın əvvəlində qayğısız, həyat nemətləri ilə təmin olunmuş, təbiətin gözəlliklərindən zövq almağı bacaran bir gənc təsvir olunur. Bu, qəhrəmanın ilk statusunun oxucuya təqdim edilməsidir. Bu təqdimatı şair, poemanın ənənəvi giriş hissəsindən və bahariyyədən sonra, "Aşiqin əhvalı" adlı bölmədə verir ki, bu adın özü də, aydındır ki, şərti xarakter daşıyır; belə ki, qəhrəman hələ aşiq olmamış və eşq odunun əzablarına düçar olmamışdır. Baharın oğlan çağında dağ-çəmən seyrinə çıxan qayğısız gənc hətta aşiq olmaq haqqında düşünmür belə; çünki bu barədə konkret təsəvvürü yoxdur və bu cür təsəvvür də başqalarının danışığından deyil, məhz öz şəxsi təcrübəsindən əldə edilməlidir:

Aləm qamusu bu dəmdə xoşhal,
Mən həm öz işimdə fariğülbal.

Gəh yürür idim çü ahu dağda,
Gəh axar idim çü cuy bağda.
Gəh könlüm ilən çəməndə xürrəm,
Gəh həmdəm ilən gəzəndə biğəm,
Məşuq ilə eşqi tanıməzdim,
Heç kimə könül verim, deməzdim. (2, 417.)

Göründüyü kimi, poemanın gənc qəhrəmanı öz qayğısızlığının təsvirindən daha çox, eşq məsələlərində cahilliyinin və təcrübəsizliyinin tənqidini vurğulayır və diqqəti buna yönəldərək oxucunu mövzunun bu istiqamətdə axacağına hazırlamış olur. Sonrakı beytlərdə təsvir olunan gəncin klassik ədəbiyyatdakı aşiq obrazının tamamilə əksi olan naseh kimi təqdimi də bu fikrin qüvvətləndirilməsinə xidmət edir. Şair-qəhrəman özünütənqidi üstüörtülü bir yumorla davam etdirərək yazır:

Derlərdi bu eşq qissəsini,
Dil zərrə yeməzdi qüssəsini.
Öz peşəmə, öz işimə qane,
Heç kimsə yox idi ola mane. (2, 417.)

Bununla şair göstərmək istəyir ki, əslində qəhrəman normal və sakit bir həyat sürür, öz işində-peşəsindədir, cəmiyyətin adi bir üzvüdür. Xətayinin təsvir etdiyi bu gənc, onun sələfi və ustadı İmadəddin Nəsiminin acımadan qamçıladığı eşqə düşmən kəsilənlər, gözəlliyi inkar edənlər sırasındadır:

Ey eşqə ədüvvü hüsnə münkir,
Təzvir ilə çəkmə munca ahı.
Gər neməti-cavidan dilərsən,
Heyvanlara qoy bu abü kahi! (3, 87.)

Əlbəttə, Nəsiminin mənfi qəhrəmanından fərqli olaraq, Xətayinin gənc və cahil (nahaq yerə azərbaycanlılar indi də çox vaxt "cahıl" sözünü "gənc" sözünün sinonimi kimi işlətmirlər – M.V.) qəhrəmanı eşqə düşənləri bədxahlıq və riya-karlıqla məzəmmət etmir; sadəcə onun dünyabaxışı, normal həyat anlayışı belədir və bütün bunları pis niyyətlə deyil, səmimiyyətlə edir. Bu həm də, qəhrəmanın öz avamlığının səmimi etirafı kimi səslənir və ona qarşı hüsn-rəğbət oyadır:

Kim desə mənə ki, aşiq oldum,
Rüsvayi-dili-xəlayiq oldum;
Əbləh, deyibən gülərdim ana,
Hər tənə ki var, qılardım ana. (2, 417.)

Daha sonra şair, klassik ədəbiyyatımızda az-az rast gəlinən, çox vaxt yalnız adı çəkilən tənə nitqinin mətnini naseh obrazının dilindən verir:

Ey əbləhü kəcxəyalü biəql!
Bu, sözmüdürür ki, eylədin nəql?
Ol oda salamı canı kimsə,
Qeyrə verəmi ənanı kimsə? (2, 417.)

Düzdür, Şah İsmayıl Xətayinin müasiri dahi Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasında da Leylinin anasının dilindən aşiqə qarşı naseh mətni təqdim olunur; ancaq burada subyekt və obyekt fərqli olduğundan, Xətayi qəhrəmanının bu baxımdan tam bir orijinallıq təşkil etdiyini söyləmək mümkündür. Çünki Xətayi "nasehinin" tənəsi başqalarını ifşadan daha çox, özünüifşa xarakteri daşıyır. Bu parçadakı "yanmayan oda nə bilir odu" misrası da gələcək aşiqin etirafı kimi səslənir.

Aşiqin birinci mərhələdəki əhvalını həm də Azərbaycan xalq müdrikliyinin örnəyi olan "gülmə qonşuna, gələr başına" atalar sözünün köməyi ilə ifadə etmək mümkündür. Poemanın qəhrəmanı olan gəncin məhz aşiqlərə qarşı öz nəsihətamiz nitqindən bilavasitə sonra eşqə düşməsinin təsvir edilməsi də Xətayinin bu ibrətamiz xalq deyiminin ifadə etdiyi mənadan yararlandığını söyləməyə əsas verir. Poemanı xalq dastanlarına yaxınlaşdıran başqa bir cəhət – aşiqə yuxuda ikən buta verilməsinin təsviridir. Bu da məhəbbətin bir Tanrı payı olduğunun, insanın öz iradəsindən asılı olmadığının bədii-fəlsəfi ifadəsi sayılmalıdır.

Ürəkaçan bir çəməndəki xoş bir kölgəlikdə dincələrkən "bir ləhzə" yuxuya gedən gənc elə o "bir ləhzənin" də qurbanı olur. Aşiqin əhvalındakı növbəti mərhələ onun əvvəlki həyatı ilə tam təzad təşkil edir və o, sanki bir az öncə aşiqləri məzəmmət etdiyi üçün cəzalandırılır. "Gəl gör ki, mənə nə qıldı dövran" deyən Aşiq böyük sələfi Yunus Əmrənin lirik qəhrəmanının halına düşür:

Bən yürürüm yana-yana,
Gəl gör bəni aşk neylədi.
Nə aqiləm, nə divana,
Gəl gör bəni aşk neylədi. (4, 310.)

Xətayinin aşiqinə nəzərən Yunusun şeirindəki üçüncü misra da diqqəti çəkir: "nə aqiləm, nə divanə". Burada tam bir təzad var; insan ya ağıllı olar, ya da dəli. Bunların heç birindən olmayan lirik qəhrəman bir növ dünya şöhrətli böyük Azərbaycan alimi Lütfi Zadənin qeyri-səlis məntiqinə cavab verir. Xətayinin lirik qəhrəmanı da bu təzadı özündə daşımaqdadır. Başqa sözlə, o, nə qədər ki, aqil idi, aşiqlərə divanə kimi baxırdı; aşiq olduqdan sonra isə aşiqləri ən ağıllı adam sayaraq, onların davranış və dünyabaxışlarını izləməyə başlayır.

Təbii ki, rahatlıq dairəsindən çıxaraq əzaba, qəm-qüssəyə düşmək, yeyib-içib istirahət etmək, rahat yatmaq əvəzinə qan-yaş tökərək yuxu üzünə həsrət qalmaq ilk vaxtlar qayğısız həyata alışmış Aşiqin o qədər də xoşuna gəlmir və o bu işin səbəbkarını axtararaq, bütün günahları Ürəkdə (Könüldə) görür və ona "nalə-nifrin qılmağa" başlayır:

Səbrim səbəbini pişə qıldım
Ki, mən bu xəyalı nişə qıldım?
Qıldım Könülə həzar nifrin,
Kim şad ikən etdi bizni qəmgin. (2, 419.)

Demək, Ağıl nə qədər müqavimət göstərsə və məntiqi dəlillər gətirsə də, sonunda Könülə təslim olur və onun istəyini yerinə yetirmək üçün fəaliyyətə başlayır. Aşiq obrazının poetik inkişafının növbəti mərhələsinin başlanğıcı məhz burada qoyulur.

Xətayi "Dəhnamə"sinin Aşiq qəhrəmanının, eləcə də klassik anadilli ədəbiyyatımızın bənzər obrazlarının müasir elmi səviyyədə araşdırılması elmi aktuallıqla yanaşı, həm də sosial əhəmiyyət kəsb edir. Lirik qəhrəman və müasirlik probleminə həsr edilmiş araşdırmalarda müasir qloballaşma şəraitində milli-mənəvi dəyərlərin qorunması yolunda klassik ədəbiyyatda öz əksini tapmış müsbət qəhrəmanın nə kimi rol oynayacağının üzə çıxarılması və bu sahədə istifadə olunmamış potensialların təhlilə cəlb edilərək qiymətləndirilməsi gənc nəslin milli vətənpərvərlik və milli mentalitetə hörmət ruhunda tərbiyə edilməsi üçün bu imkanlardan istifadənin yolları barədə mülahizələrin diqqətə çatdırılmasında və təbliğində böyük əhəmiyyət kəsb edir.

Ədəbiyyat

1. Araslı H. Şah İsmayıl Xətayinin yaradıcılığı // Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. Bakı: "Gənclik", 1998.
2. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. c.III. Bakı: "Elm", 1984.
3. Nəsimi. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1973.
4. Gölpınarlı A. Yunus Əmrə. İstanbul: "Altın kitaplar", 1991.

Магеррам Велиев

Динамика развития главного героя в поэме Шаха Исмаила Хатаи «Дехнаме»

Резюме

Главные герои в поэме «Дехнаме» Шаха Исмаила Хатаи, согласно требованиям типизации романтического искусства Средневековья, представлены не статически, а как динамические образы, претерпевающие определенные изменения в зависимости от поэтической ситуации. Это, в свою очередь, дает нам возможность провести анализ их духовно-психологических отношений в постоянном развитии. Исследование на современном научном уровне динамики развития героя-ашуга «Дехнаме» Хатаи, а также похожих образов классической азербайджанской литературы на родном языке, наряду с научной актуальностью, в то же время имеет социальное значение.

Muharram Veliev

Dynamics of hero's development in the Shah Ismail Khatai's "Dehname" poem

Summary

The main characters in the poem "Dehname" Shah Ismail Khatai, as required by typing romantic art of the Middle Ages, are not presented statically, but as dynamic images with some changes depending on the poetic situation. This, in turn, gives us the opportunity to analyze their spiritual and psychological relations in constant development. Research on the dynamics of a modern scientific level of the hero-ashug Khatai's "Dehname" poem, and similar images of classic mother-tongue Azerbaijani literature, along with the scientific relevance, at the same time has a social value.

Rəyçi: Dosent Sevinc Qocayeva

TURQAY HƏŞİMLİ
Naxçıvan Dövlət Universiteti
hashimli-h@rambler.ru

MƏHƏMMƏD FÜZULİNİN ƏSƏRLƏRİNDƏ DÖVLƏT İDARƏÇİLİYİ MƏSƏLƏLƏRİ

Açar sözlər: Azərbaycan ədəbiyyatı, Məhəmməd Füzuli, dövlət idarəçiliyi, hüquq
Key words: Azerbaijan literature, Muhammad Fuzuli, public administration, law
Ключевые слова: Азербайджанская литература, Мухаммед Физули, государственное управление, право

Azərbaycan dövlət və hüquq tarixinin, həmçinin siyasi və hüquqi təlimlər tarixinin öyrənilməsi sahəsində son vaxtlarda bir sıra dəyərli tədqiqatlar ortaya çıxmışdır. X.İsmayılovun (1), R.Əkbərovun (2), İ, Eyyubovun (3), N, Süleymanovanın (4) və bəzi digər müəlliflərin müvafiq kitabları bu baxımdan diqqətəlayiqdir. Araşdırmalar onu da yəqinləşdirir ki, müxtəlif dövrlərin, xüsusən orta əsrlərin Azərbaycan dövlət və siyasi-hüquqi fikir tarixinin öyrənilməsində bir sıra digər qaynaqlarla (qanunnamələr, fiqh kitabları,tarixi xronikalar, rəsmi sənədlər, ictimai-siyasi, fəlsəfi traktatlar, risalələr və s.) yanaşı, ayrı-ayrı ədiblərin bədii əsərləri də müvafiq material verir. Bu da təsadüfi deyil, çünki bizim zəngin və coxcəhətli orta əsrlər ədəbiyyatımızın bir çox nümayəndələri həm də tanınmış mütəfəkkir olmuş, qələmə aldıqları bədii əsərlərdə yeri gəldikcə cəmiyyət həyatı, dövlət idarəçiliyi, qanunçuluq, sosial ədalət, hökmdar və xalq problemi və s. məsələlərə də toxunmuş, müvafiq münasibət ifadə etmişlər. Bu baxımdan böyük Azərbaycan şairi Məhəmməd Füzulinin (1494-1556) yaradıcılığı dadəyərli mənbə sayıla bilər. Doğrudur, müxtəlif vaxtlarda bir sıra Azərbaycan alimləri mütəfəkkir şairin ictimai-siyasi, fəlsəfi dünyagörüşü barədə kitab və məqalələr yazmış, diqqətəlayiq elmi fikirlər söyləmişlər (5; 6; 7; 8 və s.). Lakin bu sahədə görüləsi işlər, öyrənilməli məsələlər də az deyil. Xüsusən şairin əsərlərində sosial-siyasi, hüquqi xarakterli məsələlərin qoyuluşu və həllinin yeni prizmadan əhatəli şəkildə öyrənilib dəyərləndirilməsinə ehtiyac var.

Ümumiyyətlə, orta əsrlərdəki bir sıra Azərbaycan şairlərinin, o cümlədən Məhəmməd Füzulinin əsərlərində dövlət idarəçiliyi, hüquqi-siyasi məsələlər də özünəməxsus yer tutur. Faktlar göstərir ki, şair bir sıra qəsidə və qitələrində, həmçinin bəzi digər əsərlərində dövlət idarəçiliyində sosial ədalətin, qanunların aliliyinin roluna xüsusi dönəm vermişdir. M. Füzulinin dövlət idarəçiliyinə baxışı özündə bir neçə mühüm cəhəti birləşdirir. Bunlardan biri hamı üçün eyni olan ədalətli qanunların mövcudluğudur. Mütəfəkir şairin fikrincə, ədalətli qanunçuluq, obyektiv hüquqi hökmlər olmasa, dünya üzünü zülm və fəsad bürüyər,cahan mülkü qayda-qanun, nizam tapmaz:

Hökm gər olmasa, dünyayə salır zülm fəsad,
Hökm gər olmasa, bulmaz nəsəqi-mülk bəqa.

Məhəmməd Füzuli dövlət idarəçiliyində hüquqi hökmlər verən, qanunları icra edən bütün məmurların, o cümlədən dövlət hakimlərinin qanunçuluğa, sosial ədalət prinsipinə nə dərəcədə əməl etməsinin vacibliyini də mühüm şərt kimi irəli sürmüşdür. Başqa sözlə desək, şair bu fikirdədir ki, əsl hakimin dili də, əməli də pak və saf olmalıdır. Əsl hakimin, dövlət məmurunun zatında tamah, əməlində riya olmamalıdır:

Hakim oldur ki, onun olmaya zatında təmə,
Hakim oldur ki, onun olmaya felində riya.

Əsl hakimin verdiyi hökmlər qanunlara əsaslanmalı, dövrün, cəmiyyətin reallıqlarına uyğun olmalıdır:

Hakim oldur ki, müvafiq ola hökmünə qədər,
Hakim oldur ki, mütabiq ola əmrinə qəza...

Füzuli onu da ayrıca vurğulayır ki, ədalətsiz hakim vəzifə, hökumət iddiasında olmamalıdır, çünki haqqa yaxınlığın mərtəbəsi məhz ədalətin nə dərəcədə bərqərar olması ilə əlaqədardır. Başqa sözlə deyilsə, cəmiyyət nə qədər ədalətlə idarə olunsa, ali həqiqətə, haqqa o qədər də yaxın olar:

Rəvişi-ədlidədir mərtəbeyi-qürbü qəbul,
Ədlsiz hakimə dəvayi-hökumət nə rəva?

Mütəfəkkir ədib bu fikirdədir ki, ədalət, ali hüquq hər şeydən ucadır, haram işlərlə məşğul olmuş bir şəxs yüz il ibadət etsə də, haqq dərgahına bir saatlıq ədalət qədər yaxınlaşa bilməz:

Bir vərə əhli əgər qılsa ibadət yüz il,
Saəti-ədlicə verməz əsəri-qürbi-xüda.

Füzuli öz fikirlərini davam etdirərək yazır ki, xalqın həyatda varlığı, yaxud onun ölümə məhkum olması hakimin verdiyi hökmlər ilə bilavasitə əlaqədardır. Hər hansı bir yanlış hökm, yaxud ədalətsiz qərar xalqı məhvə sürükləyə bilər:

Hökmdür vasiteyi-mövtü həyatı xəlqin,
Vay ol hakimə kim, eyləyə hökmündə xəta.

Şair məzlumların hüququnu qorumayan, onlara mərhəmət göstərməyən, öz mənafeyi, maddi marağı üçün zalımların tərəfini saxlayıb onların haqsız əməllərinə rəvac verən hakimləri qətiyyətlə lənətləyir, kəskin şəkildə pisləyir. Elin halından, gün-güzəranından daima xəbərdar olan, füqəradan öz lütfünü, köməyini əsirgəməyən, onların haqqını müdafiə edən hakimlərin isə ən yüksək hörmətə, rəhmətə layiq olduğunu vurğulayır:

Qıla məzlumləri mərhəmətindən mərhum,
Verə zalimlərə öz nəfi üçün istila.

Rəhmət ol hakimə kim,olmaya eldən qafil,
Nəqdi-övqatı ola bəzli-niyazi-füqəra.

Beləliklə, Məhəmməd Füzuli bir tərəfdən, qanunların ədalətli olmasını mühüm şərt sayırsa, digər tərəfdən də onların icrasının vacibliyini, dövlət idarəçiliyində çalışan hakimlərin və digər məmurların ədalətli olmasının xüsusi önəm daşıdığını önə çəkir. M. Füzuli "hökmlərin və hakimlərin insan cəmiyyətində rolundan söhbət açır.Şair ucalığı, insanlığı ədalətlə ölçür...Şair bir həqiqəti anladır ki, xalqın ölüm və həyatı hökmdarın verdiyi hökmlərin ədalətli və ya ədalətli olması ilə bağlıdır... Füzuli məzlumları öz mərhəmətindən mərhum edən. xeyri üçün zalımlara imkan yaradan hakimləri rədd edir" (10, s. 466).

Şair möhkəm şəkildə inanır ki, ölkəni zülm ilə idarə edənlər, yalnız özlərinə sərvət toplayanlar, xalqa kiçik pay verib ona minnət qoyanlar gec-tez öz layiqli cəzalarına çatacaqlar. Şair qitələrinin birində öz dövrünün hökdarlarına bu həqiqəti belə xatırladırdı:

Zülm ilə ağçalar alıb zalım
Eylər ənam xəlqə minnət ilə.
Bilməz onu kim, etdiyi zülmə
Görəcəkdir cəza məzəllət ilə.

Bu cəhətdən şairin məşhur "Padişahi-mülk..." qitəsi də diqqəti çəkir. Həmin şeirin ilk hissəsində müəllif rüşvət və cürbəcür fitnə-fəsad yolu ilə ölkələr fəth edən, lakin hakimiyyəti altında olan yerlərdə ədalətdən, insafdan əsər-əlamət olmayan bir zalım, tamahgir padşahın son nəticədə zamanın hökmü ilə süquta uğradığını nməzərə çatdırır:

Padişahi-mülk dinarü dirəm rüşvət verib,
Fəthi-kişvər qılmağa eylər mühəyya ləşgəri.

Yüz fəsadü fitnə təhrikilə bir kişvər alır,
Ol dəxi asarü əmnü istiqamətdən bəri.

Göstərən saətdə dövrani-fələk bir inqilab
Həm özü fani olur, həm ləşgəri, həm kişvəri.

Şeirin ikinci hissəsində isə şair sənət adamının, yaradıcı şəxsin könüllər oxşayan əsərləri ilə zalım hökmdardan fərqli olaraq mənəvi ölümsüzlük qazandığını bədii biçimdə canlandırır.

Başqa bir şeirində isə şair ədalətsiz idarəçiliyə, onun səbəb olduğu nahaq qanlara qarşı etirazlarını, tənqidi münasibətini belə ifadə etmişdir:

Tökdükcə qanımı oxun ol asitan içər,
Bir yerdəyəm əsir ki, torpağı qan içər.

M. Füzuli cəmiyyət həyatında, dövlət idarəçiliyində vətəndaşların söz, fikir azadlığının təmin olunmasına da xüsusi önəm vermişdir. Şeirlərinin birində o, bununla əlaqədar yazır:

Ey Füzuli, nə gözəldir sözü azadəliyin,
Hanı bir sərv bu aləmdə ki, vardır səməri.

Burada şair Şərq ədəbiyyatında azadlıq rəmzi olan sərv ağacından bir simvol kimi istifadə etmişdir.

Dövlət idarəçiliyi, hökmdar və xalq taleyi problemi mütəfəkkir ədibin "Bəngü Badə" əsərində də özünəməxsus şəkildə ifadə olunmuşdur.Səfəvi hökmdarı Şah İsmayıl Xətayi ilə Osmanlı dövlət başçısı Sultan Səlim arasında 1514-cü ildə baş vermiş Çaldıran döyüşü ilə əlaqədar qələmə alınmış bu əsərində d Füzuli dövlət idarəçiliyi məsələlərinə də toxunmuşdur. Akademik H. Araslının qeyd etdiyi kimi: "Yazıçı bu əsərində dövrün siyasi həyatında çox mühüm faciə olan mənəmlik uğrunda gedən müharibələr əleyhinə etirazlarını bildirmək məqsədini qarşısına qoymuşdur" (11, s. 179).Şair burada həm Bəngin, həm də Badənin timsalında ədalətli hökmdara yaraşmayan bir sıra məziyyətləri (xudpəsəndlik, lovğalıq, həsəd və s.) pisləmiş, öz zəmanəsinin dövlət adamlarını bunlardan ibrət götürməyə səsləmişdir.

Məhəmməd Füzulinin dövlət idarəçiliyi məsələlərinə baxışından danışarkən "Şikayətnamə" əsərinə də nəzər salmaq gərəkdir. Bəllidir ki, Füzuli Sultan Süleymana müraciət edərək yardım istəmiş, son nəticədə şairə doqquz axça təqaüd təyin etmişlər. Lakin şair dəfələrlə gedib-gəlsə də övqaf idarələrindəki sürüdürməçilik və rüşvətxorluq ucbatından həmin təqaüdü ala bilməmiş, etiraz və təəssüf hisslərini "Şikayətnamə"də nəsr dili ilə ifadə etmişdir. Digər məsələlərlə bərabər, Füzuli bu əsərində də idarələrdəki rüşvətxorluğu cəmiyyət və dövlət həyatı üçün böyük və təhlükəli bəla saymış, ona öz etirazını, tənqidi münasibətini bildirmişdir. Əyanilik naminə şairin hətta möhürlü sənədləri, hökmləri də saymayan məmurlarla dialoqundan bir parçaya diqqət yetirək:

"Salam verdim, rüşvət deyildir, - deyə almadılar. Hökm göstərdim, faydasızdır, - deyə mültəfit olmadılar...

Dedim: - Hesab alsalar, bu sülukunuzun fəsadı bulunur.

Dedilər: - Bu hesab qiyamətdə alınır.

Dedim: - Dünyadə dəxi hesab olur, xəbərin eşitmişiz.

Dedilər : - Ondan dəxi bakimiz yoxdur. Katibləri razı etmişiz".

Göründüyü kimi, şair rüşvətxorluğun, qanunsuzluğun idarələrdə kök saldığına da diqqət yönəltmişdir.

Şairin bir sıra başqa əsərlərində də analoji məqamlar vardır. Bütün bunlar isə onu göstərir ki. mütəfəkkir və humanist bir sənətkar olan Məhəmməd Füzuli xalqın, cəmiyyətin səadəti, rifahı üçün dövlət idarəçiliyinin ədalətli olmasını, ədalətli qanunlara əsaslanmasını, hakimlərin, ümumən bütün məmurların yüksək mənəvi keyfiyyətlərə malik olmasını vacib şərtlər kimi əsaslandırmışdır.

Ədəbiyyat

1.İsmayılov X. Azərbaycanın dövlət və hüquq tarixi. Bakı: Nurlan, 2006, 720 s.
2.Əkbərov R.Azərbaycanın dövlət və hüquq tarixi. Bakı:Qanun, 2009, 604 s.
3.Eyyubov İ. Azərbaycanın siyasi təlimlər tarixi. Bakı:Az.TU mətbəəsi, 2011, 352 s.
4.Süleymanova N. Azərbaycanın hüquq məktəbi və onun nümayəndələri. Bakı: Elm və təhsil. 2012, 102 s.
5.Zəkiyev Ə. K. Füzuli və orta əsrlərdə Azərbaycan və Yaxın Şərqdə ideoloji cərəyanlar.“ Füzulinin 400 illiyi”, Azərbaycan EA-nın “Xəbərləri”nin xüsusi nömrəsi.Bakı: Azərbaycan EA nəşriyyatı, 1958, s. 127-141
6.Məmmədov R. H. Füzulinin ictimai-siyasi görüşləri. Azərbaycan EA fəlsəfə Bölməsinin “Əsərləri”, 1963, 4-cü cild, s. 156-170
7.Qasımzadə F. Qəm karvanı, yaxud zülmətdə nur. Bakı: Azərnəşr, 1968, 360 s.
8.Quluzadə M. Füzulinin lirikası. Bakı: Azərbaycan EA nəşriyyatı, 1965, 475 s.
9.Feyzullayeva V. Füzulinin qəsidələri. Bakı: Elm, 1985, 184 s.
10.Səfərli Ə., Yusifli X. Azərbaycan ədəbiyyatı tarixi. Bakı:Ozan, 2008,696 s.
11.Araslı H. Böyük Azərbaycan şairi Füzuli. Bakı:Uşaqgəncnəşr, 1958, 312 s.
12.Füzuli M. Seçilmiş əsərləri, 2 cilddə, 1-ci cild. Bakı: Azərnəşr,1988, 582 s.
13.Füzuli M. Seçilmiş əsərləri, 2 cilddə, 2-ci cild. Bakı: Azərnəşr,1988, 392 s.

Turgay Hashimli

Issues of public administration works muhammed fuzuli

Summary

Muhammad Fuzuli is one of the most prominent represantatives of the Azerbaijani literature of XVI century. His poetry is rich with deer humanistic sences and qualities.

The article has been dedicated to the lyrics of Muhammad Fuzuli. In this paper attention is directed to the various phase’s of literary activitie Muhammad Fuzuli. These stages are investigated on the basis of those examples, facing a poet and made appropriate conclusions.

There have been analysed charakteristic works, their idealogial-literary features have been clarified.

Тургай Гашимли

Вопросы государственного управления
в произведениях мухаммеда физули

Резюме

Мухаммед Физули является одним из выдающихся представителей азербайджанской литературы шестнадцатого века. Его поэзия пронизана гуманизмом, глубокими чувствами.

Статья посвящена творчестве известного поэта Мухаммеда Физули. В статье рассматриваются разные этапы творчества Мухаммеда Физули. Здесь на основе примеров исследуются темы, к которым обращался поэт на этих этапах, и сделаны некоторые вводы.

В статье анализириуются характерные произведения, связанные с темой, выявляются их идейно-художественные особенности.

Rəyçi: Dosent .Ş.A.Məmmədov

ДИЛОРОМ САЛОҲИЙ,
филология фанлари доктори, профессор,
Самарқанд давлат университети
azfolklor@yahoo.com

АЛИШЕР НАВОИЙНИНГ ЁШЛИК ЙИЛЛАРИ ҲАҚИДА МУЛОҲОЗАЛАР

Açar sözlər: Əlişir Nəvai, gənclik, poeziya, özbək ədəbiyyatı
Keywords: Alishir Navoi, youth, poetry, Uzbek literature
Ключевые слова: Алишир Навои, молодость, поэзия, Узбекская литература

Низомиддин Амир Алишер Навоий ҳазратларининг ёшлик айёмидаги ҳаётлари ҳақида кўп тарихий ва илмий асарларда қисқа-қисқа маълумотлар учрайди. Шоирнинг 20 ёшларидан кейинги ҳаёти тафсилотлари тарихий манбаларда анча муфассал ёритилган.

Навоийнинг ёшлик йиллари ҳақида сўз борганда, унинг темурий оилалари билан яқинлиги айтиб ўтилади. Уни темурий шаҳзодалардан Ҳусайн Бойқаро Мирзо билан кўкалтош эканлиги, яъни, бир энаганинг тарбиясини олганлигини Хондамир ўзининг «Макорим ул-ахлоқ» асарида таъкидлайди. Мирхонд «равзат ус-сафо» асарида эса Амир Алишер – бобоси соҳибқирон Амир Темур – ўғли Умаршайх Мирзо билан кўкалтош бўлганлиги ҳақида маълумот бор.

Бундан кўринадики, Алишер Навоий – бобоси бўлмиш Ғиёсуддин Баҳодирнинг отаси Амир Темур саройида шаҳзодалар билан бирга бир онанинг тарбиясида вояга етган. Уларга Ғиёсуддин Баҳодирнинг катта онаси – бувиси кўкрак сути билан боқувчи энага бўлган бўлиши мумкин. Чунки, шаҳаншоҳ ўзининг шавкатли кунларда дунёга келган ўғлини кўкрак сути бериб боқиш учун энг покиза, тақводор, соғлом ва эътиборли оилалардан бирининг – Навоий аждодлари хонадонининг янги фарзанд кўрган бекасини саройга таклиф қилган. Шунга кўра, Ғиёсуддин Баҳодурнинг отаси ва Умаршайх Мирзо ёшлари қарийб тенг бўлган.

Оилавий анъаналарга кўра, шоирнинг отаси Ғиёсуддин Баҳодур ҳам темурий шаҳзодалардан бири билан кўкалтош бўлган бўлиши мумкин. У Шоҳруҳ Мирзонинг эътиборли мулозимларидан бўлиб, шу подшоҳ томонидан Сабзавор ҳокими этиб тайинланган. Кичкина Алишер туғилганиданоқ шоҳ саройида тарбияланишидан у ҳам келажакда шу салтанат соҳибларининг ишончли, садоқатли кишиларидан бири сифатида давлат тинчлиги ва равнақи учун жон куйдирувчи арбоб бўлиб етишиши кўзда тутилган эди. Темурийлар бу орзу-умиди тарихдан маълумки, аъло даражада рўёбга чиқди.

Тарихий манбалардан шоирнинг расман давлат хизматига кириши 1469 милодий, яъни Султон Ҳусайн Мирзо Хуросон тахтига чиқиш йили, деб кўрсатилади. Шу йили Навоий Сарой муҳрдори лавозимига тайинланади ва унга ката имтиёз, мартаба, мулк берилади.

Шоир болалик йилларида Ҳиротда, кейин Машҳадда, кейин яна Самарқандга кетгунга қадар Ҳиротда яшаган даврларида бирор масъулиятли

давлат хизматини бажармаган. У бу даврда Хуросонда машҳур шоир бўлиб етишган. Аммо, Абусаид Мирзо саройида ўз қобилияти ва куч-қудратига муносиб бирор вазифани бажаришни умид қилган. Афсуски, шоир маълум муддатга Ҳиротни ташлаб кетишга мажбур бўлади ва ёш йигит орзу-умидлари Самарқандда рўёбга чиқади.

Бухоро амири Абдуллахоннинг ўғли Абдулмўминхон ўзи – «Том ут-таворих» («Тарих тугали») асарида Навоийга махсус боб бағишлайди. Унинг берган маълумотига кўра, Алишер Навоий Самарқандда Султон Аҳмад Мирзонинг мулозими эди, «Чиғатой амири» деган мансабга эга эди. Бу ҳақда «Мажолис ун-нафоис»ни форс тилига ўгирган таржимон Султон Муҳаммад Фахрий Ҳиротий ҳам шундай маълумот беради: «Дарҳол Ҳусайн Мирзо бир кишини юбориб, Султон Аҳмад Мирзодан Навоийни талаб қилди». Демак, шоир «амир» даражасига Самарқандда кўтарилган.

Шоирнинг онаси ҳақида ҳам баъзи тафсилотларни аниқлаш мумкин. Ўз фарзанди қаторида Султон Ҳусайн Бойқародек шаҳаншоҳни бағрига босиб катта қилган бу мўътабар аёл афғонистонлик амирлардан Абу Саид Чангнинг қизи бўлган. У туркий – жалойир уруғига мансуб бўлган. Буни шоир вафоти билан боғлиқ бир маълумот тасдиқлайди. Навоий китобдорларидан бири Мавлоно Али Бурҳоний шундай дейди: Навоий подшоҳни кутиб олишдан олдин бир шеър ёзган экан. У китобдорни ярим кеча чақириб, «кўчир», деб буйруқ беради. Кўчирилган уч байтдан иборат шеърни бир йигит орқали подшоҳга жўнатади:

Не кўзум ёрой ул оразни манзур айламак,
Не тилим ҳадди онинг отини мазкур айламак.
Яъни ул кўнглумда, бал жонимда дард ўти эрур,
Кўз била тилни анинг ишида маъзур айламак.
Эй Навоий, қил фидо жонғаким жон, лоф эрур –
Ошиқ ўзни ишқ даъвосида машҳур айламак.

Навоий шоҳ билан Работи Шоҳмалик яқинидаги Хожа Аббос деган жойда Ҳиротдан 11 тош узоқда, Астробод йўлида учрашади. У шу учрашувдан сўнг пайғамбар ёши саналмиш 63 ёшида сакта касали билан вафот этади. Навоийнинг дафн маросимини шоирнинг тоғаси Ҳасан Али Жалойир бошқарган. Шоирнинг жасади ўзи қурдирган Масжиди Жомеъ бурчагидаги мақбарага қўйилади. Демак, шоир она томонидан жалойир уруғига мансуб экан (*Қаранг: П. Равшанов. Тарих бадиияти. Тошкент, 1989*).

Шоир онасининг шахсияти ҳақида бирор манбада аниқ маълумот учрамайди. Ҳатто, бу мўътабар аёл исми ҳам номаълум. Бу борада илмий фаразларгина мавжуд. Шоирнинг онаси қачон вафот этганлигини ҳам биз билмаймиз. «Насойим ул-муҳаббат» асаридаги бир кичик маълумот ўспирин Алишер подшоҳ Абулқосим Бобур Мирзо билан янги пойтахт Машҳадга кетгунига қадар онаси ҳаёт бўлганлигидан далолат беради. Навоий бу асарда Мавлоно Лутфий билан бўлган мулоқотлари ҳақида гапириб, шундай ёзади: «Бу фақир борасиға кўп илтифоти бор эрди ва фотиҳа ўқур эрди ва доим волида мулозаматиға, ризои хотириға тарғиб қилур эрди». Ушбу парчадан

маълум бўлишича, Навоий Мавлоно Лутфий ҳузурига бориб юрган йилларида онаси ҳаёт бўлган, Лутфий унга онасини рози қилишни насиҳат қилган.

Алишер жуда кичиклигиданоқ фазилатли, улуғ кишилар даврасига интилган. Тафт чўлларида машҳур Шарафиддин Али Яздий ўйнаб юрган болалардан бирини ёнига чорлаганда, биринчи бўлиб Алишер югуриб борган ва шайхдан дуо олган. Ҳиротга қайтгач эса табиатан илмталаб Алишер шаҳар аслзода зодагонлари хонадонларидаги шеърият мажлисларида иштирок этган. Лутфийшунос олим Э. Аҳмадхўжаев Алишернинг энг яқин дўсти, кейинчалик соҳибдевон шоир Шайхимбек Суҳайлий ҳақида шундай ёзади: «Лутфийнинг диққат-эътибори ва муҳаббатини жуда эрта қозонган ва унинг доимий дўстона муносабатига сазовор бўлган ёш Алишер Навоий қалби шеъриятга муҳаббат билан тўлган ёш дўсти Суҳайлийни улуғ шоир билан таништирган бўлиши мумкин». Ушбу муаллифнинг фикрича, бу учрашув ва дўстлик муносабатларининг бошланиши Лутфийнинг 90 ёшларига, яъни 1456 йилларга тўғри келади. Бу даврда Суҳайлий 11-12 ёшларда, Навоий эса 14-15 ёшларда бўлган.

Ҳ. Зариповнинг «Навоий Лутфий билан танишуви балки Саййид Ҳасан Ардашер воситаси билан бўлгандир, чунки Саййид Ҳасан Ардашернинг уйида бўлган суҳбатларда Лутфий ғазаллари мақталиб ўқилар эди», деб ёзади.

Худди шу йилларда бўлажак миллат қуёшига подшоҳ Абулқосим Бобур Мирзо эътибор беради ва уни давлат хизматига тайёрлаб тарбиялаш учун ўзи билан бирга Машҳадга олиб кетади. Аммо, умри вафо қилмай Бобур тез орада вафот этади, Навоий эса Машҳаддан Ҳиротга машҳур шоир сифатида қайтади.

* * *

Ёш Алишернинг Машҳадга кетгунга қадар бўлган ҳаётида юз берган бир ажойиб воқеа учқунлари бизгача етиб келган. Йирик навоийшунос олим Абдуқодир Ҳайитметов «Болаликнинг шеърий ихтиролари» номли мақоласида Алишер мактабга қатнаб юрган йилларида ўзи билан ҳамсабақ бўлган, ниҳоятда одобли, ойга ёки юлдузчага ўхшаган бир қизчани тоза муҳаббат билан севганлигини маълум қилади. Бунга шоирнинг «Қачон мактабда ул моҳи муаддаб» мисраси билан бошланувчи ғазалини мисол келтиради. Ғазал мазмунидан маълум бўлишича, ёш Алишер қизчани чақириб, учрашиш учун унинг муаллимига хат киритиб илтимос қилади:

Муаллим қуллуғига хат берурмен,
Гар озод ўлса ул сарви шакарлаб.

Шу мазмундаги маълумот шоир форсий шеърияти мажмуаси бўлмиш «Девони Фоний»даги «Дар баёни воқеъ» (Бўлган воқеа баёни) деб номланган ғазалида ҳам бор. Ғазал:

Сўйи гулшан рафтаму сарви хиромонам набуд,
Гиря зўр овард, к-он гулбарги хандонам набуд.,

Маълум бўлишича, ёш Алишер ўзи севган қиз билан бир боғда (шубҳа йўққи, қизнинг боғида) учрашишга ваъда олган. Аммо, у боққа келганда уни «рақиблар» (балки қизнинг ака-укаларидир) кутиб олишган ва ўртада жанг бўлган. Бу пайтда ёмғир ёғиб турган эди, дейди шоир. Аммо, мен рақиб билан шундай олишдимки, ўша пайтда қотил қўриқчиларга ишқим сири аён бўлди ва менда жон ғами ҳам йўқ эди:

Бо нигоҳбонони қотил сирри ишқам шуд аён,
З-он ки аз бадҳоли он соат ғами чонам набуд,

дейди.

Ёш Алишер ҳаётининг Машҳадга боргунга қадар бўлган баъзи тафсилотлари, самимий, болаларча муҳаббати учқунлари ана шулардан иборат. Шоирнинг бетакрор севги қиссасининг кейинги давр тафсилотлари ўзбек адабиётшунос олимлари А. Ҳайитметов, Б. Валихўжаев, И. Салоҳий каби олимлар тадқиқотларида анча батафсил ёритилган.

Фойдаланилган адабиётлар:

1. Валихўжаев Б. Мумтоз сиймолар. II жилдлик, I-жилд. Тошкент: Абдулла Қодирий номидаги Халқ мероси нашриёти, 2002.
2. Воҳидов Р. Алишер Навоий ва илоҳиёт. Бухоро: «Бухоро», 1994.
3. Иззат Султон. Навоийнинг қалб дафтари. Тошкент: «Адабиёт ва санъат», 1973.
4. Салоҳий Д. «Бадоеъ ул-бидоя» малоҳати. Тошкент: Фан, 2003.
5. Қаюмов А. Алишер Навоий. Тошкент: «Камалак», 1991.

Д.Салохий

Исследования о юности Алишира Навои

Резюме

В статье рассматривается вопрос об интересах и занятиях Алишера Навои в юном возрасте. На материале произведений современников Навои и его поэзии автор старается восстановить подробности биографии молодых лет поэта. Автор обращается к произведениям Алишира Навои и также исследует основные источники по выбранной теме.

D.Salokhiy

Researches about Alishir Navoi's youth

Summary

In article the question of interests and Alisher Navoi's occupations at early age is considered. On a material of works of contemporaries of Navoi and its poetry the author tries to restore details of the biography of young years of the poet. The author addresses to Alishir Navoi's works and also investigates the main sources on the chosen subject.

Rəyçi Afaq Ramazanova
filologiya üzrə fəlsəfə doktoru, dosent

MÜNDƏRİCAT

DİLÇİLİK

Nağdəli Zamanov
Hedər Əliyevin nitqində sinonimlər 3
Şükürzadə Şahnazxanım
Nəsimi dilinin lüğət tərkibində arxaik adlar 8
Günay Quliyeva
Ərəb dilində felin məna növləri 22
Валиев Туйчи Коржовович
Характеристика автомобильных дорог и ематические группы терминов автодорожного строительства 29
Шахноза Аскарова
Структурно-семантическая классификация повтора 39
Аждар Аскеров
Система изучения имен прилагательных в русском и Азербайджанском языках 45
Laçın Əsgərli
İsmə aid qrammatik qaydaların şagirdlərin nitqini formalaşdırılmasında rolu 52
Türkan Mustafayeva
Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" əsəri və müasir Azərbaycan dilinin fonetikası 60
Gülarə Pənahova
Şifahi nitqin inkişafının aktual problemləri 68
Sevda Xəlilova
Antonimlərin üslubi xüsusiyyətləri 73
Gülnar Bəşirova
Azərbaycanda ilk dənizçilik terminləri lüğəti 81
М.Сейидалиева
Grammatik im deutschunterricht kommunikativ und kreativ 86
Aygün Abdullayeva
İnkarlığın qüvvətləndirilməsində ümumi – universal və xüsusi hallar 91
Ayşən İbrahimova
İngilis və Azərbaycan dillərinin zənginləşməsinə təsir edən sosial-kulturaloji amillər 96
Fərəh Soltanova
İngilis ədəbi dilinin inkişafı fonunda leksik layın formalaşması 102
Арзу Агакишиева
Контактное расположение подчинительных союзов и союзных слов в многокомпонентных сложных предложениях (МКСП) с комплексным подчинением 108
Aynur Şəfiyeva
Tabelilik bağlayıcıları bağlayıcıların bir növü kimi (fransız və Azərbaycan dillərinin materialları əsasında) 115
Самира Гусейнова
Проблема определения текста и дискурса 122

Лейла Ядигярова
Формирование и историческое развитие причастий в английском языке 129
Sevda Rzayeva
İngilis dilində təyin budaq cümlələrinin qrammatik xüsusiyyətləri 135
Sevinc Hacıməmmədova
Aşıq Ələsgərin "Getmə, amandı" qoşmasının linqvopetik təhlili 141
Sadə Quliyeva
B.Vahabzadə şeirlərinin linqvopetikası
(«Gör necə güclüsən» şeiri əsasında) 149
Rəhimə Babayeva
İngilis dilinin qrammatikasının kommunikativ metod ilə tədris olunması 154
Nabat Cəfərova
Oxu bacarıqlarının aşılanmasında inteqrasiyadan istifadə 161
Ayten İbishova
America is ruining english 166
Гюнель Мамедова
Функционирование субстантивированных прилагательных в тексте 171
Rəhilə Məmmədova
Aynur Yunsurova
Sözdüzəltmədə prefikslərin mənasI 178
Jalə Bəşirova
Müxtəlif sistemli dillərdə ekvivalent və yaxın semantikalı birləşmələrin
nitq praktikasının tədrisində istifadə olunması 183
Gulshan Nasrullaeva
On lexical nature of anthropocentric metaphor 189
Təranə Məmmədova
Tərcümə prosesində ekvivalentliyin əldə olunmasında mətnin informasiya
strukturunun rolu (ABŞ və böyük Britaniyanın ingilis dilli mətbuatının
materialları əsasında) 194
Xavər Hacıyeva
Muasir ingilis və Azərbaycan dillərində cumlə və onun quruluşca növləri 199
Гюнай Мирзоева
Проблема перевода терминологии в английском языке в текстах по
автомобилестроению 204
Sabina Taghiyeva
Translation of neologisms 209
Aynur Məmmədova
İngilis dilində önlüklər 214
Gülər Həsənov
Müasir təlimin əsasları 219
Лейла Везирова
О семиологической природе языка 230
Sevinc Bağırova
Tabeli mürəkkəb cumlə daxilində təyin budaq cümlələrin işlənməsi
(Azərbaycan və ingilis dilləri materialları əsasında) 236
Aybəniz Rəfiyeva
Çalışmalar – xarici dilin tədrisində vasitə kimi 241
Məlahət Məhərrəmova
Söz nitq prosesində əsas dil vahidi kimi
(Azərbaycan dili ilə müqayisədə) 246

ƏDƏBİYYATŞÜNASLIQ

Elşad Səfərli
Sonetlər çələngi – "Bir cənub şəhərində" 252
Khamroyeva Orzigul Djalolovna
Wisdoms of khoja akhmad yassavi in fitrat works 261
Xoşqədəm Haciyeva
Cəlil Məmmədquluzadənin "Ölülər" pyesində cəhalətin tənqidi 267
Röya Məftunqızı
Müasir romanlarda dəyişən zaman və başqalaşan dünya modeli 272
Əhməd Şəbani Minaabad
Fars ədəbiyyatının görkəmli yazıçı və şairlərinin əsərlərinin
Qurani Kərim ayələrindən, hədislərdən və mütənəbbinin şeir divanından
istifadə etməklə ən önəmli stil və növləri 280
Aygül Zülfüqarova-Musayeva
Koca Raqib Paşa "Divan"i əlyazmalarının Ankara nüsxələri 292
Şükufə Vəliyeva
Pol osterin romanlarinda postmodern paradiqma 298
Ülviyyə Həsənova
Süleyman Sani Axundovun yaradıcılığında maarifçi görüşlərin,
mənəvi - əxalqi ideyaların bədii əksi 304
Yıldız Mehmet Soner
Yunus Əmrə əsərlərində türk islam əxlaqi anlayışı 311
Şükufə Qədimova
Orta əsr türk divan ədəbiyyatında dini-təsəvvüfi mövzular 317
Афер Ализаде
Любовь в художественном мире людмилы петрушевской 325
Sadıq Qarayev
Kamal Abdullanın romanlarında trilogiya anlamı 334
Şəhla Abdullayeva
Rudəki Səmərqəndinin "Kəlilə və Dimnə" mənzum tərcüməsi 341
Лала Гаджиева
Вопросы беженцев первой мировой войны
На страницах русскоязычной печати г. Баку 347
Ziyəddin Məhərrəmov
"Fazil İrəvani" kimi taninan Ayatollaxul-uzma Molla Məhəmməd
İbn Məhəmməd Bağır 356
H.Bağırova
Zahid Xəlilin uşaq əsərlərinin ideya-bədii xüsusiyyətləri 361
Hüseyin Karahan
Hüseyn Cavid yaradıcılığında maarifçilik ideyaları 367
Güllü Seyidli
Hürufilik və Nəsimi poeziyası 373
Elnarə Əzimova
Cəlaləddin Ruminin «Məsnəvi» əsərində əxlaq və
didaktika məsələləri 378
Yeganə Qurbanova
Fikrət Sadığın fikir dünyasIna bir baxış 384

Шафаят Джафарова
Типы женщин в азербайджанском фольклоре 381
Дилноза Жумаева
Зулейха – олицетворение любви 395
Шялала Мамедова
История создание интернета и его использование в Азербайджане..... 404
Nuray Hacıyeva
İsi Məlikzadə yaradıcılığında üslub təmayülləri 409
Məhərrəm Vəliyev
Şah İsmayil Xətayinin "Dəhnamə" poemasında əsas qəhrəmanin inkişaf dinamikası 419
Turqay Həşimli
Məhəmməd Füzulinin əsərlərində Dövlət idarəçiliyi məsələləri 425
Дилором Салоҳий,
Алишер Навоийнинг ёшлик йиллари ҳақида мулоҳозалар..... 431

«Elm və Təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Çapa imzalanmış **20.03.2014.**
Şərti çap vərəqi 55 Sifariş **№ 30.**
Kağız formatı 84**x108 1/8.** Tiraj **500.**

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 511-37-82; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.